

MİR CƏLAL

ADİLOĞLU
www.adiloglu.az

# MİR CƏLAL

Seçilmiş əsərləri
5 cilddə

HEKAYƏLƏR

FELYETONLAR

ŞEİRLƏR

OÇERKLƏR

TƏRCÜMƏLƏR

XATİRƏLƏR

# MİR CƏLAL

Seçilmiş əsərləri

HEKAYƏLƏR

III CİLD

Tərtib edənlər: **Nərgiz Paşayeva**
**Təhsin Mütəllimov**

Redaktor: **Şəmsəddin Axundov**
Rəssam: **Nüsrət Süleymanoğlu**

**MİR CƏLAL. ƏSƏRLƏRİ. 5 CİLDDƏ. III CİLD.**
Bakı, ADİLOĞLU nəşriyyatı, 2013, 456 səh.

ISBN: 978-9952-25-128-9
© ADİLOĞLU, 2013

# BADAM AĞACLARI

*Ədalət! Yaşıdlarınla gəlin-gəlin oynamalı vaxtında səni çöllərə salanları, vətənini, xanimanını, şərəfini tapdayanları tanıyırsanmı, qızım?*

## I

Ağarzanın evindən tappatap səsi gəlirdi. Dünəndən bəri evin ortasında, təndir başında salınmış təlisin üstündə badam döyürdülər. Bu il badamın məhsul ili idi. Ağacın birindən 7-8 batmanacan badam dərilmişdi. Evdəkilər badam sındırır, iç hazırlayırdılar. Deyirlər, şəhərdə iç yaxşı pula gedir, bayramqabağıdır. Ağarza bir yük iç aparacaq, bir azını taxıla dəyişəcək, bir azını da uşaqlara əyin-baş alacaq.

Altıyaşlı Ədalət də iş görür, kömək edirdi. Atasının sındırıb tökdüyü badam içini qabıqdan təmizləyib nimçəyə yığırdı. Hərdən, atasından xəlvət, birini ağzına atır və birdən yeyə bilmirdi. Oğurluq şeyi yemək nə çətin olur! Badam Ədalətin ağzında böyüyürdü. Süfrədə yığılan ağlı-sarılı, təmiz, ətirli badam içinə baxıb həsrət çəkir, bunları doyunca yeyənlərin kim olduğunu düşünür və atasına sual verirdi:

– Ata, bunları hara aparacaqsan?

– Bazara, şəhərə aparacağam, qızım.

– Kimə satırsan orda?

– Müştəriyə.

– Müştəri kimdir?

– O da bir adamdır da, qızım.

– Yaxşı adamdırmı?

– Yaxşısı da var, pisi də var!

– Yox, ata, pis adama vermə, heyifdir, yaxşı adama ver!

Ağarzanı maraq götürdü. "Uşağın yaşından böyük danışmağına baxırsanmı?" – deyə düşündü.

– Qızım, – dedi, – müftə vermirəm ki, puluna minnət! Kim çox versə, ona satıram.

Ədalət etirazında davam edirdi:

– Yox! Pis adam çox pul versə də, satma! Badamı ona vermə, heyfdir! Pis adama qismət olmasın, ata!

Ədalətin dedikləri uşaq sözü olsa da, bir həqiqətdən xəbər verirdi. Ağarza badam içinin balacalarından üç-dörd dənə götürüb, Ədalətin ovcuna qoydu, sonra mülayim, mehriban bir dillə təsəlli verdi:

– Qızım, bizə pul lazımdır. Allah qoysa məhsulun alıcısı olsa, bu dəfə əlimə pul gəlsə, ərbabın borcunu, xümsü, zəkatı çıxandan sonra, taxıldan artıq qalsa, qədək alacağam. Bacarsam, sənə də bir cüt təzə başmaq alacağam, qotazlı başmaq, lap onun özündən alacağam ki, bayramda geyəsən!

Dalanda ayaq səsi eşidildi, dərhal evin qapısı zərblə açıldı. Ağarzanın qonşusu Əlican güllə dəymiş quş kimi, özünü içəri atdı:

– Ay rəhmətlik oğlu, nə oturmusan, badamlığı kəsdilər! – deyə, həyəcanla xəbər verdi.

Ağarza sağ əlində daş, sol ovcunda badam olduğu halda çöməldiyi yerdən dik qalxdı və:

– O nə sözdür, Əlican? – deyə soruşdu.

– Sənə deyirəm badamlığı kəsirlər.

– Səfeh-səfeh danışma, elə şey olmaz!

– Bu saat oradan gəlirəm, kəsirlər.

Ağarza qonşusunun üzündəki ciddiyyəti, baxışlarındakı vahiməni duyub, çarığını ayağına çəkdi.



– Axı kim kəsir, nə deyib kəsir?

– Əmələ töküblər, odur, kəndxudadan soruş!

– Kəndxudanın nə haqqı var, öz əlimlə əkib-becərdiyim ağacı kəsə, bəyəm, mən ona bağça satmışam? Gəl otur!

– Ay sağolmuş, oturası vaxtdır? Mən də yoncalığın hayındayam. Onu da sürəcəklər. Müşavirin yanına getmək istəyirəm. Görüm, nə çarə taparam.

Əlican qapıdan çıxmaq istəyəndə Ağarza kəmərini bağlayıb, onun dalınca tələsdi. İtə rast gələcəyini düşünüb, əl ağacı götürmək istədi, bir də fikirləşdi ki, "ərbabın adamları bunu görüb bir az da hirslənərlər. Yaxşısı budur, əliyalın get!"

Ağarza özünü badamlığa o zaman yetirdi ki, müşavirin adamları daş hasarı uçurub çaya tökürdülər. Hasar ağzında kəsilib atılmış ağacları görəndə, elə bil, Ağarzanın qolunu qələm elədilər, qıçlarını peylədilər. Vücudu od tutub yandı, qan başına vurdu. Bütün köyşən dəyirman daşı kimi onun başına dolandı. Havaxt çaydan hoppanıb birisinin yaxasından yapışdığını özü də bilmədi.

– Niyə dağıdırsan, a bayquş? – deyə qışqırdı. – Bu divarı çəkənəcən mənim kürəyim qabar olub, niyə sökürsən?

Alnından tər daman ortaboy soldat dartınıb onun əlindən çıxmaq istəyir və dil-ağız eləyirdi:

– Boşla yaxamı, buyruq quluyam! Məndən nə yapışmısan?

Ağarza onu kənara itələyib qışqırdı:

– Çıxın mənim bağçamdan!

Xaki pencək geyinmiş bir amerikan zabiti ona yanaşıb, əlini tapançasının dəstəyinə qoydu, ehmal səslə, lakin hədəli ada ilə dedi:

– Bu köyşənləri sizin ağalarınız bizə satıblar. "Marşal planı" üzrə biz buraya köməyə gəlmişik. Şikayətinizi ərbabınıza eləyin, işə mane olmayın!

## II

Son zamanlar qoca və izdihamlı şəhərin dar, qaranlıq və dolaşıq küçələrində ucaboy, uzunqol, üz-gözünü tük basmış, qaşqabaqlı,

əliağaclı, ayağıçarıqlı bir kəndlinin səkidən-səkiyə addımladığını görənlər çox idi. Kənardan gəldiyi, nabələd adam olduğu, nə iş üçün isə qapılar gəzməyə məcbur bir müsafir olduğu ilk baxışdan məlum idi. Güman gəldiyinə o, əl boyda bir kağız göstərir, ünvan soruşur, dərdini demək istəyir, baş əyib yoluna davam edirdi. Yorulsa, taqətdən düşsə də, yağışa, küləyə, vaxt bivaxta baxmadan küçələri addımlayırdı.

Bu müsafirin kim olduğunu oxucular yaxşı bilirlər. Kənddə ümidi üzülən Ağarza bununla üçüncü dəfə idi ki, şəhər küçələrində gəzə-gəzə badamlığının haqqını müdafiə edən adam axtarırdı. Kəndliləri Mirzəməmmədə bir "tutarlı" ərizə yazdırıb, ərbabın hüzuruna apardı. Uca hasarlı bir həyətin qapısını ehtiyatla taqqıldatdı. cavan bir oğlan çıxıb onun üzünə baxdı. Ağarza salam verib sözünü dedi:

– Bizim ərbabın evi buradırmı? Kəmərli kəndindən gəlmişəm. Ağaya ərzim var.

Cavan oğlan qayıdıb getdi, bir az keçməmiş qapını açdılar. Ağarza: "Bismillah!" – deyib, içəri daxil oldu. Hovuzdan su gətirən bir qarı ona işarə elədi: "Ağa ibadətdədir, gözlə!"

Ağarza daş səkinin yanındakı sütuna söykənib dayandı. Əvvəl ətəyinin altında gizlətdiyi hədiyyəni yerə qoymaq istədi. Sonra düşündü ki: "Yox, ağanın özü gələndə verərəm." Ağarza heyrət və həsrətli gözləri ilə ərbabın imarətini seyr etməmişdi ki, eyvanın başındakı qapıdan əlitəsbehli, beli əyri, kosa, arıq bir kişinin çıxdığını, ona tərəf gəldiyini gördü.

Ağarza, ərbabı axund libasında, əlitəsbehli, ağzıdualı görəndə xeyli sevindi: "Allah adamıdır, – dedi, – rəhmi gələcək." Özünü itirmiş halda bir addım irəliyə yeridi. Layiqsiz hədiyyə sayıb gətirdiyi iki beçəni, bağlı qıçlarından tutub, səkinin kənarına qoyandan sonra ətəklərini silkib düzəltdi. Əllərini döşünə qoyub salam verdi, baş endirdi. Qoltuğundan çıxardığı əl boyda ərizəni təqdim etdi, təkrar baş əydi. Ağ araxçınlı, kosasaqqal, qadın başmaqlı, cindara oxşayan adam isə əlindəki yüsür təsbehi çevirə-çevirə dinməz-söyləməz Ağarzanın ərizəsinə baxırdı. O gah kağıza, gah da qarşısında itaətkar vəziyyətdə duran kəndlisinə baxırdı. Ancaq heç nə demirdi. O nə üçün dinmirdi? Ağzındakı duanımı bitirmək niyyətində idi? Cındır içində batan kəndlisinin üst-başınamı



tamaşa edirdi? Ağarzanın halınamı acıyırdı, ya da şikayətçini diqqətlə eşitməkmi istəyirdi? Ərbabın sükutu Ağarzaya bir qədər də cürət verdi. O, başına gələni – amerikalı müşavirdən gördüyü zülmü danışmaq istəyirdi ki, ərbab kağızı qatlayıb sahibinə qaytardı. Onun batıq səsi eşidildi:

– Kişi, nəyə gəlmisən?

– Ağa, şikayətim var!

– Kənddəkiləri, mübaşiri qoyub bu əkin-tikin vaxtında bura niyə gəlmisən?

– Ağa, mənə zülm eləyənin biri də mübaşir özüdür.

– Nə olub, yenə şikayət dəftərini açmısan?

Ağarza özünü tanıtmaq istədi:

– Ağa, kənd camaatı bilir, mən ömrümdə şikayətə gəlməmişəm. Amma indi gör necə əlacım kəsilib ki, sizə başağrısı verirəm. Ağa, mənim öz əlimlə əkib-becərdiyim badamlığı kəsirlər. Sizə pənah gətirmişəm!

Ağarza çox şeylər danışmaq istəyirdi. Lakin araxçınlı kişi onun sözünü kəsdi:

– Kişi, şükür eləmək əvəzinə şikayətə niyə gəlirsən?

Ağarzanı təəccüb götürdü. "Bu nədən yana danışır? Mən nə üçün şükür eləməliyəm, niyə eləməliyəm?"

Ağarzaya elə gəldi ki, ərizə yaxşı yazılmayıb. Araxçınlı kişi onun dediklərindən də bir şey eşitmədi. Güman etdi ki: "Bəlkə kişinin gözü pis görür, qulağı ağır eşidir, qocalıqdan ola bilər, bir az qayımdan danışmaq lazımdır."

Ağarza bir addım da irəli yeriyib, sözlərini ucadan təkrar edəndə, araxçınlı kişi bir addım geri çəkildi və səsini ucaltdı.

– A kişi, qışqırığa salma, kar adam yoxdur burada! Deyirəm, badamlığı kəsirlərsə, sənin xeyrinə kəsirlər.

Ağarza təəccübündən çiynini çəkdi, ona toxunan bir şeyi rədd edirmiş kimi, əllərini qabağa tərəf açdı:

– Ağa, mənim çörək ağacımı kəsirlər, evim yıxılır. Evi yıxılan adam niyə gərək şükür eləsin?

– Şükür elə ki, müşavirlər gəlib səni-məni qoruyurlar.

– Ağa, məni kimdən, nədən qoruyurlar?

– Necə nədən, kommunistlərdən! Bəli, başa düşməlisən ki, amerikalılar bizim torpaqda təyyarə meydanı tikirlər ki, sabah kommunistlər sənin başına bomba tökməsinlər.

– Ağa, mən kommunistləri dava vaxtı kəndimizdə görmüşəm. Onlar kasıb-kusubun əlindən tutan adamlardır. Mən onlardan bir pislik görməmişəm. Bomba-filan nə söhbətdir!..

Ağarza bunu dediyini gördü. Araxçınlı kişi irəli yeridi, təsbehi bir kənara atıb, ağacı Ağarzanın əlindən almaq, onun başına çırpmaq istədi. Ağarza əvvəl ərbabın niyyətini başa düşmədi. Onun ağaca əl atdığını görəndə, yatıbmış kimi, ayıldı. Ərbab ağzına gələn söyüşü deyib, nökərlərini çağırdı.

– Qovun bu mürtəd oğlunu! – deyə bağırdı. – İtilsin, hansı cəhənnəmə gedir-getsin! Mənim kəndimdə oturmasın! Gör nə qələt eləyir! Təbliğat aparmağına bir bax! Ayağı çarıqlının biri! Ay çörək tutsun sizin kimi nadürüstləri!..

Ağarza özünü qapıdan çölə atdı, birbaş onu ərbab yanına göndərən həmyerlisi Mirzəməmmədin yanına getdi.

Mirzəməmməd də Ağarzanı danladı.

– Ay bədbəxt oğlu, – dedi, – bu yaşa çatmısan, ərbabla danışmağı da bacarmırsan. Ərbab söz götürməz. Bilmirsən iki yoluq cücə ilə ağa yanına getməzlər? Sən nə hesab eləyirsən! Hamı Mirzəməmməd olmaz ki, sənə müftə ərizə yaza.

Ağarza yerlisi ilə razılaşmadı:

– Mirzəməmməd, axı, dostum, nə üçün elə deyirsən? Ərbab gərək özü razı olmuya! Mən öz əlimin əməyi ilə əkdiyim ağacların bahasını istəyirəm. Bu, fitrə, sədəqə-zad deyil. Qardaş, müşavirdi, amerikandı, ingilisdi, hər kəsdi, ona yer lazımdır, ayrı torpaqdan götürsün! Köyşən doludur. Mənim badamlığım olmasa, bu təyyarə yerə enə bilməz bəyəm? Onu görüm heç sağ enməsin! Mahalda meydan qurtarmışdı ki, mənim bir tikə badamlığımı kəsirlər?

Ağarza dostunun məsləhəti ilə təkrar kəndə qayıtdı. Deyirlər, müşavirdən kağız gətirsən, o kağızı dövlət bankına təqdim etsən, ziyanın bir payını alarsan.



Müşavir doğrudan da ona bir kağız verdi. Təsdiq etdi ki, filan mahalda, filan kənddə Ağarza Baba oğlunun otuz bir ağaclıq badamlığı "Marşal planı" əsasında kəsilib, müəyyən məqsəd üçün düzəldi.

Ağarzanın kənddə bu kağızı oxutmadığı savadlı qalmadı. Orada yazılanların hamısı aydın idi. Hər şey ona aydın idi. Ancaq "Marşal planı", "marşallaşma" deyilən sözdən bir şey başa düşmürdü. Kağızı oxuyanlara macal vermir, barmağını yazının həmin yerinə qoyub soruşurdu:

– O nə sözdür, qardaş? "Marşallaşma" – yəni kim barəsində yazır? Mənə təəllüqü var o sözün, ya yox? Yəni o adam kimdir, görüm mənim ağaclarımı kəsən adamdır, ya buna əmr verən, pul buraxan adamdır? O kimdir axı?

Oxumuşlar qəzetdən, siyasətdən söhbət salıb çox söz deyirdilər. Ancaq Ağarza daha da hirslənirdi:

– Qardaş, hər nə planı-filanı var aparsın şahla, vəzirlə danışsın. Mənim ağaclarıma nə dəxli var axı! Plana düşür, qoy mülkədarların xalvar-xalvar yerləri düşsün. Mənim canamaz boyda badamlığımı bilmirəm kim plana salır axı!

Mirzəməmməd Ağarzanı başa salıb deyirdi:

– Ay rəhmətlik oğlu, bu "Marşal planı" o yandan – Amerikadan gəlir. Bir bizim vətəndə deyil, odur, türkə də, yunana da, ərəbə də gəlir. Vergi-tövcü kimi bir şeydir. Əvvəllər İrana vəba gələrdi, taun, çəyirtkə gələrdi. İndi də "marşallaşma" gəlir, Amerika soldatı gəlir, çürük mal, tısbağa yumurtası gəlir. Dünən bir kəndlinin cilovunda bir arıq at var idi, üfürsəydin yıxılardı. Soruşdum ki: "Kəndli qardaş, at niyə bu kökə düşüb?" Kəndli gülüb dedi: "marşallaşıb." Belə yekə bir kəndin bağ-bağatını kəsib tökürlər, soruşursan: bu nə həngamədir? Deyirlər: "marşallaşırıq." Şəhər küçələrində dilənçi əlindən keçmək olmur. Deyirsən: canım, bu nədir? Deyirlər: səsini çıxarma, "marşallaşırıq!" Kəndlilər birbirini lüt, möhtac görəndə deyirlər: "Sən "marşallaşıb" qurtarmısan!" Heç bir zəlzələ, sel, heç bir səmum yeli kəndləri "marşallaşma" qədər yaman günə qoymamışdı...

Ağarza dostunun dediyindən nəticə çıxartdı:

– Yaxşı, qardaş, nə vacib olub? Olmaz ki, "marşallaşmayaq?" İndi

ki, "marşallaşma" bizi bu kökə salır, gəlin "marşallaşmayaq" da!

Mirzəməmməd qəhqəhə çəkib güldü.

– Sən, – dedi, – doğrudan da, lap avam imişsən. Görünür, Kəmərli dağlarının arasından kənarı görmürsən. Ay rəhmətlik oğlu, ölünü öz kefinə qoysan, şıllaq atıb kəfəni yırtar. Sənin nə ixtiyarın var "marşallaşmayasan?" Sən "marşallaşmayasan", bəs bu amerikan zabitlərinin qazancı haradan gəlsin? Yeddi iqlim, yeddi dərya basa-basa buraya əbəs yerə keçməyiblər axı! Yazıqsan, get, bəlkə müşavirdən bir kağız ala bildin, bəlkə yerin bahasından bir az verdilər. Yenə qənimətdir, lənət heçə!

Müşavirin kağızına şəhərdə güldülər. "Bu kağız, – dedilər, – sənin bağçan haqqında yoxlamadır, ayrı bir şey deyil. Heç bir iddia üçün sənə əsas vermir."

– Mən ayrı iddia eləmirəm. Hökumətlə hökumətlik eləmirəm. Torpaq divana lazım olub, buyursun mənim ziyanımı versin. Bu iş qanunda var.

– Qanunda nə var?

– Qanunda var ki, kəndlinin əlindən alınan malın, ya mülkün bahası verilə gərək.

– Kəndli var, kəndli var.

Bank dəftərdarı, dazbaş, çeşməkli kişi Ağarzanı daha da heyrətə saldı.

– Necə yəni, mən necə kəndliyəm bəyəm? – deyə gözləri alacalandı.

– Necə kəndlisən, özün bilirsən, amma ixtiyaratın ərbabdır.

– Ərbab məndən vergi alır, maliyat alır, bağçamın da sahibi deyil ki.

Dəftərdar kağızı Ağarzaya tərəf uzadıb, içəri qayıtdı.

– Sənin, – dedi, – işin məhkəməlikdir. Get orada baxsınlar, gör nə deyirlər.

Məhkəmədə Ağarzanı bəlkə iyirmi dəfə dindirib-danışdırdılar. Yazıb-pozdular. Şahid, sübut istədilər. Müşavirin iştirakı olmadan işə baxmadılar. Çox xahişdən, tələbdən sonra günün birində müşavirin vəkili gəlib çıxdı, məhkəməni inandırdı ki, Ağarzanın bağça yeri əvvəldən ərbabın olub, kəndlinin iddia üçün əlində nə kağız, nə sübut var. Ona görə də bir şahı tələb etməyə haqqı yoxdur!



Ağarzanı danışmağa qoymadılar. İddiasını da rədd etdilər. Vəkil çaldığı qələbənin iftixarı ilə Ağarzanın yanından ötüb getmək istəyəndə Ağarza onu saxlamaq istədi.

– Bura baxın ağayi vəkil! – deyə, müraciət etdi.

Vəkil qulaq asmadı. Ağarza bərk addımlayıb onun çiynindən tutdu, geriyə çəkdi:

– Sənnənəm axı!

Kəndlini hirsindən qızarmış görən vəkil özünü itirdi. Ağarza da tünd və kefli nəzəri ilə ona baxıb düşündü: "Deməli, işi-gücü qaldı, eləmi? Di, al gəldi!"

Ağarza bunu deyib vəkilə elə bir sillə çəkdi ki, üç dəfə fırlanıb fəryad çəkdi, yıxıldı. Ağarza çıxmaq istəyəndə kimsə qapını bərk itələdi, qapı onun alnına toxunub yaraladı. Ağarza aradan çıxdısa da, onu təqib edənləri görüb qabaqdakı döngəyə buruldu. Uçuq bir divardan hoppanıb kiçik həyətə, oradan isə ağaclı bir yerə keçdi. Bura xəstəxana imiş. Ağ xalatlı bir həkim onu qarşılayanda Ağarza alnının yarasını göstərdi. Onu sarğı otağına apardılar. Ağarzanın yarası bağlanıb qurtarmışdı ki, xəstəxana qapısında izdiham göründü. Müdir qapıya çıxdı. Qorxu və təəccüblə qapıdakılara baxdı. Müşavirin adamları müdirdən Ağarzanı tələb edirdilər.

– Ağa, nə buyurursunuz? – deyə, xəstəxana müdiri soruşdu.

– Buranın müdiri lazımdır! – deyə, müşavirin adamlarından biri donquldandı.

– Buyurun görək!

– Deməli, müdir sizsiniz?

– Belə görünür.

– Burada gizlənən düşməni istəyirik.

– Ağa, bura müalicəxanadır! Fərqi yoxdur, hər kəs olursa-olsa, vəzifəmiz naxoşları müalicə etməkdir.

– Burada yaralı varmı?

– Yaralı da var, şikəst də var, qızdırmalı da...

– Biz buraya qaçıb gizlənən...

Vəkil sözünü bitirməmişdi ki, Ağarza camaatı yarıb, heykəl kimi onun qabağında dayandı.

– Ağayi vəkil, pis olmazdı ki, sən gedib öz yerində, Amerikada vəkil olaydın. Burada nə Amerika torpağı var, nə təbəəsi. Sizi bura çağıran da yoxdur. Bilmək olmur, dünyanın o başından atıla-atıla gəlib, burada nə sülənirsiniz! Kəndlinin qanı sizə də şirin gəlib... eləmi?

Ağarza hirslə irəli çıxdı. Hiddətlənən gözləri böyümüş, gicgah damarları şişmişdi, sifəti mis kimi qızarmış halda dişlərini qıcayaraq, yumruğunu düyərək, sözünü bərkdən təkrar etdi:

– Şirin gəlib eləmi?

Ağarzanın odlu baxışları ətrafa ildırım saçırdı. Yumruğunu göyə qaldıranda vəkil bu saat başına enəcək zərbənin dəhşətindən ürkərək, geriləmək istədi. Səndələdi, özünü saxlaya bilmədi. Qollarını kənara açıb, dırmaşdığı uca yerdən düşən toyuq kimiləngər vurdu. Arxadan tutmasaydılar, tirlənəcək idi. Ağarza hərifin çəkildiyini gördükdə sanki zərbəsini endirməyə hədəf axtarırdı. Yumruğu ilə havanı yardı, sinəsində yanan nifrət, qəzəb alovu ilə dedi:

– Zəlilər! Əqrəblər!

Ağarza irəli cumanda, vəkil də, adamları da cəld çəkildi, izdiham parçalanıb qoluçirməkli, saçı dağınıq kəndliyə yol verdi. O bir neçə addım atandan sonra dönüb vəkilə baxdı. Sanki baxışı süngü idi və bununla da özünə yol açdı. Vəkilin ətrafındakılar dağılışdılar. Vəkil yolun ortasında qanqal kolu kimi tənha göründü. İzdiham Ağarzanı bir qəhrəman kimi qucağına alıb gözdən itənəcən müşayiət etdi.

## III

Doğrudur, kənddə Əlican Ağarzanın uşağına, atasının tapşırdığı balaca Ədalətə öz övladı kimi baxırdı: onu gözdən qoymurdu. Ancaq Ədalətdən arxayın ola bilmirdi. Çünki Ədalət hər gün oğurlanıb kənd üstünə, badamlığa gedirdi, təzəcə puçurlayan nəhəng ağacların doğra-



nıb töküldüyünə, bağça və hasarının yerində bünövrələr salındığına diqqət və ürək ağrısı ilə tamaşa edirdi. O baxırdı, müşavirin adamlarının nə iş gördüklərinə diqqət yetirirdi ki, atası gələndə danışsın. Bağçada Ədalətin öz əli ilə toxumunu basdırdığı ikiyaşlı bir badam ağacı adam boyu ucalmışdı. Qız bu ağacı həmişə əli ilə suvarır, dibini alaqdan, gövdəsini qarışqadan təmizləyirdi. Bağçanın sökülüb dağıldığını görsə də, Ədalət o körpə ağaca baxmaqda davam edirdi. O buraya gələndə əziz yoldaşını – kimsəsiz qalmış, qohum-əqrəbasından uzaq düşmüş bir yetimi görən kimi, qəhərlənirdi. Sanki körpə ağacın yenicə puçurlayan, həyat, günəş arzusu ilə baş qaldıran zərif, zümrüd yarpaqları Ədalətin gəlişindən hərəkətə gəlir, nə isə dil açıb demək istəyirdi. Ədalət nə etsin? Badamın dibinə torpaq yığsın, ətrafına çəpər çəksin? Dağ kimi divarları vurub dağıdan, təpələri düzə çevirən bu silahlı müşavirlərin, gurultulu maşınların qabağında Ədalət nədir ki, çəpər də çəkə! Heç yerdə Ədalət buradakı qədər gücsüz, əlacsız olmamışdı. Sanki bunu körpə ağac da hiss etmişdi. Ədalətə tərəf əyilərək, yalvarmaq, ağlamaq, arxalanmaqmı istəyirdi, ya qıza məlum olmayan bir sirr deməkmi istəyirdi? Bəlkə deyirdi: "Bu qansızlardan uzaq ol!" O, demək istəyirdi ki: "Məni apar!" Qız onu hara apara bilərdi? Ədalət əlində balaca bel körpə ağacın yanına gəlir, ağ əlcəkli bir zabit onu istehza ilə qarşılayır, ağaca işarə edirdi: "Qızım, bu sənindirmi?" Ədalət cavab verməmiş, zabit bıçağı ilə ağacı kəsib Ədalətə tərəf uzadırdı! Ağac kəsiləndə Ədalətdən odlu hıçqırıq çıxırdı. Özünü dəhşət almış, gözləri böyümüş uşaq yerindəcə donub qalır və bilmirdi ki, nə etsin. Əlcəkli zabit "səhvini" anlayıbmış kimi, ağacı böyrü üstə tutur, şərq adəti ilə ikiəlli, peşkəş təqdim edən kimi, bir vəziyyət alır və:

– Buyurun! – deyirdi.

Ədalət canavara tuş gəlmiş quzu kimi, naçar nəzərlərlə aşağıdan yuxarı zabitə baxırdı. Zabit badam şivini əlinə alıb, qızın çılpaq baldırına döyür, qışqırırdı:

– Haydı, meymun balası!

Uşaq ağlayıb qaçanda əlcəkli zabit qəhqəhə çəkib durur, təpiyini yerə vurub uşağı hədələyir, baxanlar gülüşürdülər.

# IV

Ədalət gözlərindən almaz yaşlar tökərək, başıaşağı dərəyə qaçırdı. Yenicə göyərən çəmənləri, yoncalıqları ayaqlayaraq, kollardan, hasarlardan, arxlardan ötərək, yaralı bir quş kimi çırpınaraq qaçırdı. O, birbaş şəhərə yol almışdı, atasının dalınca gedirdi. Əlindəki badam şivini bərk-bərk tutub ehtiyatla aparırdı. Aparırdı ki, atasına göstərsin, böyüklərə şikayət etsin.

Bu yerlər – bağçalar, kövşənlər körpə qızın həmişə oynadığı, çiçək yığdığı, sünbül dəstələdiyi, quş yuvası axtardığı, quzu otardığı, çırpı topladığı yerlər idi. İndi isə Ədalət heç nə düşünmürdü. Cənuba, uzaqda ağaran qarlı dağlar arxasına, şəhər yoluna doğru üz tutaraq qaçırdı. Anasından qalma köhnə başmaqlar çoxdan ayağından çıxmışdı. Soyuqda gah qızaran, gah göyərən balaca ayaqları keyimiş kimi, nə daş, nə tikan, nə palçıq hiss edirdi. Qız hərdən hıçqırığını boğaraq: "Ata can!" – deyə, fəryad edir, əlindəki ağaca baxırdı. Uşağı bu kökdə görən kəndlilər müşavirin qorxusundan ona yanaşmasalar da, ağaclar arxasından haylayır, uşağı saxlamaq istəyirdilər. Ədalət qulaq asmır, yoluna davam edirdi.

Bütün ümidləri puça çıxmış, müşavirin, mübaşirin, ərbabın, məhkəmələrin qapısından naümid olan, əl üzən Ağarza həmin bu axşam da həmin yolla kəndə qayıdırdı. O buradan gedəndə cibində pul, əlində ərizə, ürəyində ümid aparmışdı. Qayıdanda isə bunların hamısını itirmişdi. Ancaq ürəyindən daş kimi asılan və get-gedə ağırlaşan bir intiqam hissi gətirmişdi.

Qəribədir, ürəyini ağrıdan bu hiss ona nələr deyir, nələr öyrədirdi? O, uzun və qayım addımları ilə kəndə doğru yaxınlaşdıqca qəlbi tərpənir və tərpəndikcə də sanki ondan çox sirlər soruşurdu: "Sən Kəmərlidə yenəmi qalacaqsan? Yenədəmi müşavirlə üz-üzə gələcəksən? Bağça yerində dikələn daş binalar sənə gözdağı deyilmi?" Sonra özü-özünə sual verirdi: "Əlimdən nə gələr? Odur, göz qabağındadır. Neçələri həbsdə, sürgündə çürüyür. Bu gəlmə zabitlər ərbaba köməyə gəliblər. Kəndlini soyub-talamağa gəliblər."



Ağarza fikirləşirdi ki, olub-keçəni yaddan çıxarsın, dağların döşünü bel, kərki ilə qaraldıb bir-iki batman arpa səpməklə güzəran keçirsin, yeganə balası Ədaləti böyüdüb başa çatdırsın. Görürdü ki, yox, o, müşavirin zülmünü heç cürə unuda bilməyəcək. O görürdü ki, cəllad əli ilə kəsilib atılan o igid badam ağacları qalxıb baş-başa veriblər, bir sirr kimi onun qarşısında dayanıb sual edirlər, təkidlə soruşurlar: "Bizim günahımız nə idi? Bizi bahara həsrət qoyanlardan sorğu-sual olacaqmı?"

Ağarza ürəyində onlara cavab verirdi: "Yox, ey mənim bərəkətli ağaclarım, sizin qatilinizdən sorğu-sual edən olmadı. Mən şəhərdə qapı qalmadı döydüm, məhkəmə qalmadı dəydim, oxum daşa dəydi..."

Ağarza bu sözü min bir nisgil və ürək ağrısı ilə deyirdi. Birdən başını qaldırıb ucadan əlavə etdi: "Ancaq mənim oxum qurtarmamışdır. Mənim bir oxum, bəlkə də axırıncı oxum lap hədəfə dəyməlidir. Şikayətdən haray yox imiş. Mən öz gücümə güvənməliyəm!"

Onun bu sözlərini qabaqda gələn, titrəyərək, qorxaraq, kollara sığınaraq gələn Ədalət eşidirdi. Birdən:

– Atacan! – deyən Ədalətin səsi eşidildi.

Ağarza yuxu görürmüş kimi, döyükübdayandı, ətrafını dinlədi. Addım səsləri yaxınlaşırdı. Uşaq səsi təkrar olundu:

– Atacan!

– Qızım, Ədalət!

– Ay ata!

– Can, qızım, haradasan?

– Ata, səni axtarıram. Badam ağacımı da kəsdilər. Məni döydülər, ata!

Uşaq qaranlıqda özünü atasının qucağına atdı. Ağarza badam şivini qızının əlindən alıb şəfəqdə ona baxdı, uşağın yalın ayaqlarını qoltuğunda sıxdı. Xəcalətindən başını aşağı saldı. Axı o, qızına söz vermişdi: şəhərdən belə qayıtmayacaq, hədiyyələri ilə Ədaləti sevindirəcəkdi. Nəvazişli bir səslə qızına dediyi sözlər atanın qulağında təkrar səsləndi: "Qızım, Allah qoysa, məhsulun alıcısı olsa, bu dəfə əlimə pul gəlsə, ərbabın borcunu, xümsü, zəkatı çıxandan sonra, taxıldan artıq qalsa... sənə bir cüt təzə başmaq alacağam, qotazlı başmaq. Lap onun özün-

dən alacağam ki, bayramda geyinəsən!.."

Ağarza yoldan kənara çəkilib böyük və soyuq bir daş üstündə oturdu. Ədalət, müşavirin adamlarından gördüklərini ağlaya-ağlaya, yanıqlı dildə kəsmə-kəsmə danışdı.

Gözü təmiz yay göylərinin dərinliklərinə dikildiyi halda Ağarza Ədalətin məsum, məzlum səsini bir fəryad kimi eşidirdi. Eşidir, ancaq cavab vermirdi. O bilmirdi, uşağına nə ilə və necə təsəlli versin. Onun gözü şimalda parlayan və gur işığı ilə diqqətləri çəkən qızıl ulduza dikilmişdi. Ata, şəhadət barmağı ilə göstərərək, Ədalətə təsəlli verirdi:

– Görürsən, qızım! Biz o ulduzun dalınca getməliyik, onun işığı və gücü bizə də nicat verəcəkdir. Qalx gedək!

Ata-bala əl-ələ verib qaranlıq çöllərdən parlaq şimal ulduzuna doğru yol aldılar.

1953



# Yuxu və külək

## (El məsəlindən)

Mayil eyvanda kökə yeyirdi. Xallı pişik oturub ona baxırdı. Xallı qulağını şəklədi, gözünü bərəldib ha baxdı, Mayil kökədən pişiyə vermədi. Axırda Xallı dilləndi:

– Myau!

Mayil pişiyə baxmadı. Pişik Mayilin dizinə dırmaşdı, yenə myauldadı və əlini atıb kökəni almaq istədi.

Mayil onu dirsəyi ilə itələdi, yerə saldı.

Külək pişiyə lağ elədi:

– Sən bacarmadın. Dayan, mən kökəni Mayildən alaram!

Külək bunu deyib, qanad çaldı, var gücü ilə əsməyə başladı. Budaqlar tərpəndi, ağaclar səsləndi, xəzəllər töküldü, toz qopdu, hava soyudu.

Mayil tez yaxasını düymələdi, əlindəki kökəni bərk-bərk tutub dişinə çəkməkdə davam etdi.

Yuxu da küləyə güldü və dedi:

– Sən çox hay-küy salsan da, uşağa gücün çatmadı. Kökəni ala bil-

mədin. Dayan, mən səssizcə iş görəcəyəm. Mayıldən kökəni elə alım ki, özünün də xəbəri olmasın.

Yuxu qara paltara bürünüb yumşaq-yumşaq yeridi və gəlib Mayilin gözlərinə doldu.

Mayilin kirpikləri ağırlaşdı, göz qapaqları endi, gözləri ehmal-ehmal yumuldu. Gözlər yumulan kimi, barmaqlar aralandı, əllər açıldı. Kökə uşağın əlindən düşüb, döşəməyə dığırlandı. Xallı pişik fürsət tapdı: – Myau! – deyə sevincək kökənin üstünə atıldı.

*1954*



# ANAMIN QEYDLƏRİ

Martın yeddisində qayğıkeş kişilərin çoxuna hədiyyə mağazalarında rast gəlmək olar. Axı, sabah 8 Mart Beynəlxalq Qadınlar Günüdür! Bu bayramı hökumət idarələri, təşkilatlar, qəzetlər qeyd edirlər. Necə ola bilər ki, bu ümumi bayramı hər kəs öz evində qeyd etməsin. Qadın olan evlərin hamısında, qadın olmayan evlərin isə (belə evlər də vardır) çoxunda martın səkkizini qeyd edirlər.

Bizim evdə bu bayram hər il vaxtında, qayda ilə qeyd olunur. Qadın cinsindən təkcə bir anam var ki, mən onun xatirini, demək olar, tanıdığım qadınların hamısından çox istəyirəm. Bu bayramın adını da, dəsgahını da, onun adı ilə – ailəmizin bünövrəsi olan ağsaçlı qadının adı ilə bağlayırıq. Özündən soruşsan, o, heç belə bir bayramda mənim zəhmətə düşməyimə, mağazaları gəzib hədiyyə almağıma razı olmaz. Ona görə yox ki, qadın bayramını əzizləmir, yox! O da bütün qadınlar kimi bu bayramın qədir-qiymətini yaxşıca bilir. Hələ yadımdadır, biz rayonda yaşayan zaman iclaslara həvəslə gedərdi. Klubda qadınlar yığıncağında tribunaya çıxıb ucadan nitq də deyərdi.

Əvvəllər bu bayram bizdə çox şənlik, şadyanalıqla keçərdi. İndi, mən bir az yaşa dolandan sonra anamın əlinə bir bəhanə düşüb. Evimizdə martın səkkizini bayram eləmək söhbəti gələndə qadın başlayır məni danlamağa.

– Sən, – deyir, – əvvəl bir bu evə gəlin gətir, mən də arzu-kamla halal süd əmmişin qabağına çıxım, tədarükümü görüm. Sonra da belə gündə gəlinimizə mübarəkbadlıq eləyək. Bayram elə cavan gəlinlərə layiqdir. Yoxsa bu nədir, sən heç bir insanı bəyənib evlənmirsən, amma mənimlə oturub qadın bayramı keçirirsən. Nə olsun belə! Məndən savay qadın yoxdur?!

– Ay ana, qadın bayramı hər kəsin öz arvadının bayramı deyil ki, bu qadınlarımızın azadlığı, çadradan, mövhumatdan, ər zülmündən qurtuluş bayramıdır. Sən də ki azad olmuş qadınların əsl bir nümayəndəsisən.

– Mən istəyirəm, bu evdə ayrı bir nümayəndə də olsun.

– Olsa da eləsi olacaq ki, nə zülm görüb, nə çadra. Köhnə dünyadan qalma kim olacaq.

– Deməli, sən mənə köhnədənqalma kimi, bir muzey adamı kimi baxırsan.

– Yox, mən sənə dünyagörmüş, zülmət dünyasından işıqlığa çıxan, ona görə də bu ağ günlərin qədrini yaxşı bilən bir adam kimi baxıram.

Anam görür ki, mənə söz çatdıra bilməyəcək. "Başı xeyirli!" deyib, ötüb keçir. Mən isə etirazına baxmadan anamın bayram hədiyyəsini alıb gətirmişəm. Qoltuğumda ağ kağıza bükülü, qutuya bənzər hədiyyəni görəndə qadın marağını gizlədə bilmədi.

– Nədir o elə?

– Tap görüm nədir?

– Sənin hədiyyən, yəqin ki, şirinlik, konfet olacaq!

– Konfet deyil.

– Tortdurmu?

– Elə şey deyil.

– İpək dəsmal-zad.

– Yox, tapa bilmədin.



Anam balaca gözlərini daha da kiçildərək, aldığıma baxdı:

– Corabdır.

– Uzaqlaşdın.

– Bildim, qutuda tikiş məsələhi gətirmişsən.

– Uzaqlaşdın, çox uzaqlaşdın, ana!

Mənim inkar cavablarım qadını daha da ciddiləşdirdi. O, diqqətini toplayıb bir az da yaxına gəldi, əli ilə hədiyyəni yoxlamaq istədi.

– Bəs axı, nə olacaq bundan artıq, – dedi, – bəlkə xalan uşaqlarına oyuncaq maşından-zaddan almışsan.

– Ana, mən sənə, şəxsən sənə hədiyyə almışam. Uşağa yarayan şey deyil, hətta mənim özümə də lazım olmaz. Bu ancaq sənə lazım olan şeydir.

Qadını maraq götürdü. O gülümsər gözləri ilə mənim əlimdəki bağlamaya baxdı, mümkün hədiyyələrin hamısını bir-bir xəyalından keçirtdi: "İlahi, təkcə mənə, mənim kimi bir qoca arvada gərək olan nədir, görəsən."

Birdən o, əlini yuxarı qaldırıb bərkdən dedi:

– Tapdım!

– Nədir!

– Lap tapmışam, odur ki var! Sən həna almışsan. Əcəb də eləmişsən, almışsan. Mənə ondan yaxşı hədiyyə olmaz, di bəri ver!

Mən güldüm, həna almağa söz verdim və inandırdım ki, bu hədiyyə başqa şeydir.

Qadının sevinc və marağı təəccübə çevrildi:

– Adə, bəs nə ola bilər, nədir axı o?

Mən kağızı açıb içərisindən çıxartdığım göy cildli, böyük yaraşıqlı bir kitabı anama təqdim etdim:

– Ana, sənə kitab almışam, – dedim.

Anamın təbəssümü və təəccübü dərhal sönüb getdi. İndi onun üzündə vəziyyətini müəyyən etməkdə çətinlik çəkən bir adamın tərəddüdü vardı. İndi o, mənim onunla zarafat etdiyimi, özümə aldığım bir kitab üçün ona minnət qoyduğumu güman edə bilərdi. Çünki anamda belə qalın kitabları oxumağa kifayət qədər savad yox idi.

Anam qollarını çarpazlayıb dedi:

– Elə kitablar mənim kəmsavadlığıma yaraşır!..

Qadında məyusluq hissinə imkan verməmək üçün əlavə etdim:

– Bilirsən nə kitabıdır? Xörək kitabı! Cürbəcür ləzzətli xörəkləri bişirmək qaydaları! Hər xörəyin məsalehi, adı, rəngi, şəkli, dadı, nədən və necə hazırlanmaq qaydaları...

Bu xəbər anamın sifətində maraq, sevinc əlamətlərinin yenidən doğmasına səbəb oldu. Mən bunu dedim, kitabın çiçək kimi yanan, əlvan şəkillərlə bəzəkli səhifələrindən birini açdım, qadına təqdim etdim:

– Buyur, bax!

Kitabda tamamilə yeni hazırlanmış, mağazalardan təzəcə satılan incə naxışlı, müxtəlif rəngli orijinal dəbli nimçələri, boşqabları, düşbəraxorları, buludları, tayqulpları görəndə anamın üzü yağışdan sonrakı yaz göyləri kimi açıldı.

– Bu nədir belə, – dedi, – qab-qacaq satan mağazanın işidir.

– Yox, xörək bişirmək qaydaları üçündür! Ləzzətli süfrə üçündür!

Mən kitabı vərəqləyib cürbəcür xörəkləri göstərəndə anamı heyrət götürmüşdü. O təəccüb dolu bir maraqla deyirdi:

– Buna bax, şəkərçörəyi, badambura... elə bil, bu saat kürədən çıxardıbsan! Meyvələrin düzülüşündəki sahmana bir baxırsanmı! Gör nələri kitaba salırlar.

– Ana, bəs necə! Bizim adamlarımız üçün, dadlı, ətirli, yağlı xörək bişməsi ilə nazirliklər, trestlər, qəzetlər məşğul olur.

– Plov bişirməyi də yazıblar.

– Gör plovun neçə cürəsindən danışılır!

Mən həmin səhifələri vərəqləyib oxudum. Qovurmaplov, kişmişplov, döşəməplov, çəkməplov.

Qadının marağı daha da artdı.

– Bu yaşa gəlmişəm, xörək barəsində bu dəsgahda kitab görməmişəm, – dedi.

– İndi xörəyin öz dəsgahı da artıb axı! – deyə mən əlavə etdim.

Kitabın şəkillərinə baxdıqca, izahları eşitdikcə anam vəcdə gəlirdi. Kitabı əlimdən alıb dizi üstünə qoyur, səhifələri göstərib soruşurdu:

– Oxu görüm, burada nə yazır. Burasını oxu! Bir aşağı bax, görək!



Oxuduqlarımı hərfinə qədər elə diqqətlə dinləyirdi ki, deyərdin yazanların səhvini tutmaq istəyir. Qadın qələmi əlimdən alıb kəfgir kimi oynada-oynada danışırdı:

– Plovun, oğul, əsl plovun ayrı dəsgahı var! Düz yazır ki, məsalehi çoxdur. Onun şüyüdünümü, zəfəranınımı, lavaşınımı deyim! Onun kömür üstündə dəm almasınımı, dəmkeşinimi, qazan ağzına vurulan xəmirimi deyim, cürbəcür xuruşlarınımı deyim. Hansını deyim!

– Ana, bunların hamısı kitabda yazılıb!

Qadın mənim sözümü kəsdi:

– Gör plovun yanında nə yazıb.

– Necə yanında! Xuruşumu deyirsən.

– Yox, gör içməli nə var.

– İçmək hər kəsin öz işidir.

– Yox, plov yanında indi araq qoyurlar, amma qədimdə şərbət, ya ayran olardı – buz kimi!

– O hər kəsin öz işidir.

– Oxu görüm kişmişplovu necə hazırlayırlar.

Mən kitabın müəyyən səhifələrindən oxudum:

– "Təmizlənmiş, yuyulmuş, qabaqcadan isladılmış, ona görə şişmiş kişmişi... ayrıca qazanda yağda qızardırsan..."

– Əşi, dəmə qoymaqdan nə yazır.

– Zəif odda, ağzı xəmirlənmiş qazanı..."

– Vay sənin! Deyən, bu kitab lap aşpaz əlindən çıxıb... Oxu!

– "Küdüplov."

– O bir şey deyil. Plovu hörmətdən salan şeydir, öt!

Mən xörəklər haqqında danışdıqca, anam təshih verirdi:

– Kişmişə alma qatmaq düz deyil.

– Qazmaq lavaşdan da olar, yumurtadan da.

– Südlü plovu yadından çıxarıb!

– Bozbaşa petruşka tökmək düz deyil!..

Mən anama söz verdim ki, sənin qeydlərini kitab yazanlara çatdıracağam.

Anam isə indi kitabı əlindən yerə qoymur. Hər gələnə oxudur, təzə-təzə şeylər hazırlayır. Məni də lap təngə gətirib:

– Bu kitab olan evə, – deyir, – gəlin gətirməmək lap nainsaflıqdır. Çünki necə naşı qız olsa, buraya baxıb götürəcək, hər cür xörək, hər cür səliqə öyrənəcək. Sən gəl daşı ətəyindən tök, ay oğul!

*1954*



# İKİ FERMER

## I

Daşlı küçə ağzında, bağçalı həyətlərin qabağında, çay kənarında qəhvəyi maşın dayandı. Bayaqdan bəri meşəiçi, dolama yamac yollarla gələn, dağlara səs salan maşını kənd uşaqları əhatə etdilər. Onlar maşından çıxan, bu yerin camaatına oxşamayan əntiqə geyimli, enli şlyapalı adamlara diqqətlə baxırdılar. Maşındakıların biri kök, irigövdəli, ağbəniz, qırmızıyanaqlı, qızıldişli, əyriətək kostyumlu, ucaboylu bir kişi idi. Morul nemslərinə oxşayan bu adam qırmızı qayışlı portfelini əlinə alıb, yanındakı şlyapalı qadına nə isə dedi, xırda, qamaşan gözləri ilə kənd uşaqlarına baxdı. Uşaqlar ona, sonra da bir-birinə baxıb, gülüşmək istədilərsə də, özlərini saxladılar. Maşından çıxan üçüncü, qaraşın adam uşaqlara yanaşıb, salam verdi və soruşdu:

– Uşaqlar, arıçılıq ferması hansıdır?

Çantasını dalına bağlamış 10-12 yaşlı bir məktəbli irəli yeriyib, barmağı ilə göstərdi:

– Tinin başındakı həyət.
– Bu ağ divarlımı?
– Bəli, həmin çaxçaxlı darvaza!

Qaraşın oğlan yanındakılara ingilis dilində nə isə dedi, ucaboy kişi qadının qolundan tutdu, fermaya tərəf yollandılar.

Fermanın həyətində isə bu gün başqa bir həngamə var idi. Ferma müdiri Salman kişi səhər gün çıxandan oğlu Vilayətin əlinə susəpən və çılğı verib, həyəti sulatmış, süpürtdürmüşdü. Özü də qoluçirməkli, belində döşlük, başıaçıq arı pətəklərinin başına dolanır, təzə səbətləri təmizləyib, kənarlarına qəndab püskürdür, yan-yana düzürdü. Sarmaşıq, nilufər, söyüdgülü çiçəkləri əkilmiş saxsı güldanları yaş dəsmalla siləræk, daha da yaxına, pətəklərin lap qabağına düzür, çiçək yarpaqlarına diqqət yetirib, bəzisini yüngülcə tərpədir, bəzisini bərk üfürürdü. Salman kişinin qonaq gözlədiyi məlum olduğu kimi, qəhvəyi maşında gedənlərin də qonaq olduğu aydın idi. Ancaq bunların bir-birindən xəbəri yox idi. Salman kişi gözləyirdi, ancaq başqa qonaq gözləyirdi.

Salman kişi Qabaqtəpə kəndinin, təkcə Qabaqtəpə kəndinin yox, bütün Dəstəfur rayonunun məşhur arıçılarından idi. Son 7 il ərzində, yəni Salman kişiyə müdirlik etibar olunandan bəri bu fermanın şöhrəti artırdı. Hitlerçilər Sovet ölkəsinə basqın eləyəndə Salman kişinin fermasında çalışan üç arıçının ikisi orduya getməli oldu. Salman kişinin tək qaldığını görən kolxoz sədri onu yanına çağırıb dedi:

– Görürəm, tək qalmısan, qoca kişisən, sənə köməkçi lazımdır, kimi məsləhət bilirsən?

Salman kişi əvvəlcədən bu söhbətə hazır kimi, dərhal cavab verdi:

– Kimi istəyə bilərəm? Görmürəmmi, kolxoza adam lazımdır! Bu nəhəng təsərrüfat – əkin-biçin addımbaşı dil açıb adam istəmirmi? Bunu görə-görə mən bir də səndən nə üz ilə adam istəyim? Arvadı çağırıram, hərdən də Vilayət əlimdən tutur. Siz hələ ki, məndən nigaran olmayın. Arıları bəsləyəcəyəm, məhsulu da bacardıqca əskilməyə qoymayacağam.

Salman kişi hörmətlə dediklərini qeyrətlə də elədi. Müharibənin qızğın və çətin illərində istirahəti, yuxunu özünə haram edib var gücünü arı pətəklərinə xidmətə verdi. 80 pətəyin hər birini elə diqqətlə bəsləyir, arıların həyatını elə həvəslə izləyirdi ki, kəndlilər kişinin hər arını tək-təklikdə tanıdığını deyib heyrət edirdilər. Salman kişi arıların səsindən, uçuşundan onların vəziyyətini, ehtiyacını duyurdu. Yazbaşı arılar təzəcə fəaliyyətə çıxanda bal məhsulunun necə gələcəyini təyin edir, xəbər verirdi.





Salman kişi iki il ərzində pətəklərin sayını iki qat, bal məhsulunu isə üç qat artırdı. Vaxtilə bal məhsulunu sadə çərəz sayan Qabaqtəpə kolxozunda bal məhsulu ağarantı məhsulu ilə yan-yana iş görməyə, kolxoz planında sayılmağa başladı. Qabaqtəpə fermasına Moskvadakı Kənd Təsərrüfatı Sərgisində yer verdilər. Salman kişini öz məhsulundan, təcrübəsindən danışmaq üçün iki ay qışı sərasər şəhərdən-şəhərə, rayondan-rayona çağırdılar, radio qabağına çıxartdılar. Salman kişinin builki işini isə heç bir ilə tay tutmaq olmaz. O, sovet torpaqlarının hitlerçilərdən təmizlənməsi xəbərini alar-almaz Qızıl Ordu döyüşçülərinə yazbaşı plandan əlavə 30 pud artıq bal verməyi öhdəsinə götürmüşdü. Bundan əlavə, ordudan qayıdan arıçı yoldaşı Məmməd Məmmədəli oğlunu da fermada işə çağırmışdı:

– Qardaşımsan, – demişdi, – elə işləyək ki, vədəbaşı borclu qalmayaq!

■ ■ ■

Hələ martın axırlarında meşədə qar əriyib qurtaran zaman kol diblərində bənövşə yarpaqları göyərəndə, arılar oyanar-oyanmaz Salman kişi ferma həyətini darışlıq saymışdı: 200-dən artıq arının fəaliyyəti üçün burada nəinki yer yox idi, hətta göyərti, gül-çiçək də az idi. Arıların vaxtı, qüvvəti yol getməyə sərf olunmasın, çiçək ilə pətək arasında məsafə az olsun deyə, Salman kişi pətəklərin yarısını meşəyə köçürtdü, orada ağac doğrayıb səliqəli bir otaq tikdi, Məmmədə dedi:

– Gərək birimiz bura köçək, başına qoymaq olmaz!

Məmməd razılıq verdi və köçüb arıların yanında oturdu. Arıları meşəyə köçürməklə Salman kişinin başqa bir məqsədi də var idi, onu Məmməd də bilməmiş deyil. Şam meşəsində yaşayan arının məhsulu müalicə üçün daha yararlı olur. Salman kişi bal məhsulunun çoxunun

xəstəxanalara, cəbhədən gələn yaralı döyüşçülərə verildiyini bilirdi və bu məhsulun müalicə təsirini həkimlərdən az tərifləmirdi.

Bu gün arıçılıq fermasındakı hənqaməni, qeyri-adiliyi doğrudan da qonaq gözləyən ailələrin sevinci ilə müqayisə etmək olar. Bunlar bir-birinə çox oxşayır.

Qonaq cürbəcür olur. Söhbət kənardan evə gələn qonaq haqqında yox, evin öz içindən evə gələn qonaq barəsindədir.

Deyəcəksiniz, bu necə qonaqdır?

Bir il əvvəl böyük təntənə və şadyanalıqla toy eləmiş cavan bir ailəni təsəvvürə gətirin. Burada oğlanın da, qızın da ata-anası var, əziz dostları, yoldaşları var. Günün birində bütün qohum, dost və yoldaşların diqqəti doğum evinə dikilir, oradan gəlməli olan bir xəbəri hamı aramsızlıqla gözləyir. Bir də görürsən, içəridən bir körpənin ipək kimi nazik, yumşaq səsi eşidildi. Dərhal ağ geyimli, qara qıvrım saçlı həkim qız eyvana çıxıb, gələnləri muştuluqladı:

– Gözünüz aydın olsun, oğlan qonağımız sağ-salamat gəlib çıxdı, hamınıza salamı var!

Salman kişinin qonağı da evin içindən gələn qonaqdır. Ancaq bir qədər bundan ayrılır. Doğrudur, Salman kişi də övlad sahibidir, ancaq hələ nə oğlunu evləndirmiş, nə qızını ərə vermişdir. Böyük oğlu Kirovabad Kənd Təsərrüfatı İnstitutunun bağçılıq fakültəsində oxuyur, qızı musiqi texnikumunda piano çalır, kiçik oğlu Vilayət isə altıncı sinifdədir. Dərsdən sonra fermada atasına kömək edir.

Salman kişinin gözlədiyi qonaq, daha doğrusu, qonaqlar arı pətəklərindən gələcəkdi. İki-üç gün idi ki, onun aramı yox idi, hər səhər-axşam bir-bir pətəkləri gəzərək, qulağını səbətə qoyub içərisini, yeni bahar müjdəsi ilə havalanaraq uğultu salan kiçik, təmiz və faydalı məxluqun səsini dinləyir və ürəyində deyirdi: "Bu gün-sabahdı!"

Bu gün isə bir neçə pətəyə diqqət yetirəndə "sabah" deməyə dili gəlmədi: "Beçə hazırdır?" – deyib göyə baxdı. Üfüqdən boylanan səhər günəşinin açıq bahar səmasını parlatdığını, oradan isə kainata nur ələdiyini görüb daha da sevindi: "Bəli, əsl vaxtdır ha!"

Salman kişi kostyumunu çıxarıb yana atmışdı. Yaşına yaraşmayan bir cəldlik və zirəkliklə ferma həyətində o yan-bu yana qaçır, iş görür, səliqə-sahman eləyir, oğluna tapşırıq verirdi.



Çox çəkmədi ki, nişanlanan pətəklərdə gözlənilən hənqamə qopdu. Pətək qaynar qazan kimi səslənməyə, qızışmağa üz qoydu. Səbətlər sanki bu saat parçalanacaqdı. Birdən buxar kimi xaricə hücum çəkən beçə arılar gənc və həmahəng səsləri ilə həyəti başına almağa, gah göyün dərin qatlarına, gah da guya bulud kimi havada dönüb dolaşmağa, ağır tüstü kimi burulmağa başladılar. Salman kişi şirəli səbətdən ikiəlli yapışaraq, gah o yana, gah da bu yana gedir, böyüyən gözləri ilə havada fırlanan beçələrə baxır, sanki işarə edib çağırırdı. Beçələr sahiblərinimi, hər yana həyat, fərəh və ətir yayan baharımı, yemi, yaxud üfüqdən yüksələn günəşimi salamlayaraq, bir neçə dəfə cövlan vurdular. Qol-budağı ilə həyəti örtən tut ağacının işıldayan yarpaqlarına səpələndilər. Sonra baş budaqlara bir-birinin üstünə yığışdılar. Ağacın budaqları doluya tutulmuş kimi, xışıldadı və bir qədər silkələndi. Arıların çoxu qalxıb yenidən qondu, qaralan budaqlar sallanaraq, sakit vəziyyət aldı. Beçə qonan budaqlar yaşıl ağaca yox, qəribə bir maddə ilə örtülmüş tingə, qarağacdan kəsilmiş çomağa oxşayırdı. Mütəmadi surətdə qanad çalan, tərpəşən, təbii bir narahatlıqla bir-birinin üstündə yer axtaran, səslənən bala arıların qanadları günəş şüasında gümüş kimi bərq vurduğu budaq bəzən buxara dərisinə, bəzən də zər naqşlərlə örtülü bir silaha oxşayırdı. Həyəti isə qəribə və xoş bir musiqi səsi başına almışdı. Sanki gün işığına, bahar havasına çıxan bu təmiz və zəhmətsevən beçələr sevinclərini bir-birinə demək üçün hey səslənirdilər. Səslər bir-birindən ayrılmır, bir-birinə mülhəq olub, xoş və ümumi bir ahəngə çevrilirdi. Beçənin bu vəziyyətinə tamaşa etməkdən doymaq olmurdu.

Salman kişi altdan-yuxarı bu mənzərəyə baxıb körpəsini atıb-tutan ataların sevincinə oxşar bir şadlıqla gülümsəyirdi. Ancaq onun sevincində bir qayğı və təlaş əlaməti duymaq da çətin deyildi. O, yaxşı bilirdi ki, bu gözəl tamaşa uzun sürə bilməz – arılar qalxa bilərlər. Hələ beçələr havada fırlananda Vilayəti tut ağacına çıxarmışdı. Dayanıb gözləyirdi. Atası şirəli səbəti yavaşca arı qonan budaqlara yaxınlaşdıranda Vilayət həmin budağa təpik vuracaq, arıları yerindən tərpədəcək, səbətə tökəcəkdi.

İşin bu məqamında küçədə qəhvəyi maşın dayanmışdı. Vilayət bayaqdan bəri ağac başından gələnləri və onlar ilə söhbət edən uşaqları görürdü. Onların fermaya yönəldiyini görəndə təəccüb etmiş, diqqətini

toplasa da, tanımamışdı. Atasına demək istəyirdi ki, Salman kişi qışqırdı:

– Adə, yatmısan nədi, vursana!

Vilayət nəzərini küçədən ayırıb işinə məşğul oldu, budaqları təpikləməyə başladı.

Bu halda bir uşaq həyətə qaçıb Salman kişinin səslədi:

– Əmi, sizi qapıda çağırırlar.

Salman kişi başını qaldırmadı:

– Deginən işi var!

Uşaq getdi. Onun dalınca qaraşın oğlan gəldi:

– Salman dayı, – dedi, – salaməleyküm! Bərəkətli olsun!

Salman kişi onun salamını alıb işarə ilə kürsü göstərdi:

– Əyləş, Həmid!

Qaraşın oğlan bir müddət kişinin beçə tutulmuş səbətləri sahmana salmasına tamaşa elədi, sonra yaxınlaşıb nə isə dedi. Salman kişi oğlunu çağırdı. Cəld otağa getdi, iki dəqiqə çəkmədi ki, geyinib çıxdı. Qaraşın oğlanla darvazaya gəlib qonaqları qarşıladı.

Ucaboy adam Amerika Birləşmiş Ştatlarının Filadelfiya şəhərindən gəlmiş məşhur fermer Arnold Ceferson idi. O öz vətənində arıçılıq təsərrüfatından milyonlar götürən bir fermer idi. Hələ 1929-cu ildə Azərbaycandan yeni cins arı aparmaq üçün təşəbbüs eləmişdi. İndi isə özü şəxsən Qabaqtəpə arılarının mühiti ilə tanış olmaq, bunlardan bir neçə pətək aparmaq niyyətində idi.

Ceferson Amerika kənd təsərrüfatı mütəxəssisləri ilə birlikdə Moskvaya, oradan da Bakıya gəlmişdi. Nazirlik öz aqronomlarından birini ona qoşmuşdu ki, Cefersonu aparıb ferma ilə tanış etsin. Cefersona da elə bu lazım idi. O, belə xəyal eləyirdi ki, uzaqdan-uzağa icrası mümkün olmayan, ya çətin olan alış-verişi indi arı sahibi ilə üz-üzə tez həll eləyəcəkdir. Cefersonun ürəyini dolduran sevincin səbəbi bu idi. Buna görə də Cefersonun çöhrəsinə çökən intizar kölgəsi sönüb getməkdə idi. Onun enli, dolu, ətli, hər səhər səliqə ilə qırxılan üzünü bayram günlərinə məxsus bir təbəssüm tez-tez işıqlandırırdı. Belə dəqiqələrdə Cefersonlar – ər-arvad bir-birinin üzünə baxır, bir-birini məmnun sükutla yaxşı başa düşür, heç nə demirdilər.





MC



O heç vaxt güman etməzdi ki, kommunistlər bir kapitalisti belə qonaqpərəstlik ilə qarşılayacaqlar. Güman etməzdi ki, kommunistlər onu çox həsrətini çəkdiyi yerə, Qabaqtəpə kimi əla arı yerinə buraxacaqlar.

Maşından düşəndə, ferma həyətinə yanaşıb sıralanmış arı pətəklərini görəndə Cefersonun sevincinin həddi-hesabı yox idi. Xanımını qoltuqlayıb irəli gedən fermer yerlilərin beçə tutmaq işi ilə məşğul olduğunu görüb lap özünü itirdi, xanımını buraxıb həyət qapısına tərəf yeyinlədi.

Qaraşın oğlan Salman kişini Cefersona təqdim etdi. Ceferson gözünü arı pətəklərindən çətinliklə ayıraraq, portfelini sol əlinə alıb Salman kişiyə əl uzatdı. Salman kişi xanımla da tanış olub suallı nəzərlərlə onlara baxdı, sonra üzünü qaraşın oğlana tutub dedi:

– Buyurun evə gedək!

Qaraşın oğlan Cefersona müraciətlə nə soruşdusa, Ceferson Salman kişiyə sarı döndü. Vacib, bir az da xəlvət bir söz demək istəyirmiş kimi, bir qədər də irəli yeriyib dayandı.

İndi onlar qabaq-qabağa dayanıb bir-birinin üzünə baxırdılar. Hər ikisi fermer adlansa, hər ikisi bir ixtisas sahibi olsa, bir-birinə nə qədər yaxın dayansa da, əslində bir-birindən çox uzaq və kənar idilər.

Salman kişi qonağı içəri çağırdı:

– Buyurun həyətə!

Ceferson beçələri sahmanlamaqla məşğul olan adamları, özünə yer tapmayıb həyətdə cövlan vuran və ucalan, səs salan arıları görüb, cəld maşına qayıtdı, plaşını çiyninə saldı, gözlüyünü, əlcəyini taxıb irəli yeridi, Salman kişiyə müraciətlə soruşdu:

– Bu işdə çoxdanmı... – Ceferson sualını dəyişdi, üzünü qaraşın oğlana tutdu: – Bunlar ingiliscə danışa bilirmi?

Salman kişi sualı başa düşüb cəld cavab verdi:

– Xeyr, biz ana dilində danışırıq.

– Bu işdə çoxdanmı işləyirsiniz?

– Var bir on-on beş il!

– Arıçılıq sənətini yalnız təcrübə ilə öyrənmisiniz, ya kitab-zad oxuya bilirsiniz?

Salman kişi başı ilə "yox" işarəsi verdi:

MC

– Bizim arıçılar arasında savadsız tapılmaz!

– Eləmi?

– Bəli!

– Bunu sizmi yazmısınız?

– Elə görünür!

Ceferson heyrətindən yerində dondu, bir kitaba, bir Salman kişiyə baxdı:

– Siz harada təhsil görmüsünüz?

– Mən burada, rayondaca yaşlılar məktəbini qurtarmışam. Sonra Kənd Təsərrüfatı İnstitutunun qiyabi şöbəsində oxumuşam.

– İşləyə-işləyə?

– Bəli, bir barmağım balda olub, bir barmağım dəftər-kitabda!

## II

Biri dünyanın o başından gəlmiş, biri isə güclü ayaqları ilə öz torpağında möhkəm dayanmış iki fermer qabaq-qabağa dururdu. Göy və həris gözlərilə hər yerdə olduğu kimi, burada da qazanc axtaran başını qaldırıb gördüyü qoz ağacına, zoğal, əzgil ağacına, gül kollarına baxıb sual verirdi:

– Hər ağacdan nə qədər yığırsınız? Qoz burada neçəyə gedir? Nə üçün ağaclıqlar hasarlanmamışdır?..

– Cənab Ceferson, bizdə bu ağaclar el malı sayılır. Məhsulunu da yoldan ötən, uşaq, böyük yeyir. Gülü satmaq bizdə ayıbdır. Gül bir elə nemətdir ki, onu bizlərdə heç kəs heç kəsdən əsirgəməz.

Ceferson müsahibinin sözlərinə inanmasa da, onun ticarət-qazanc haqqında bir kəlmə də danışmamağına təəccüb edirdi. Cins arı aparmaq niyyətini Salman kişiyə deyəndə, qiymət soruşanda Salman kişi güldü:

– Onun maliyatı bir şey deyil ki... Qonağımızsınız, bir pətək arı verərik, aparmarsınız. Pul söhbəti artıqdır...

Ferma işçilərinin Salman kişi ilə yoldaş kimi rəftarını görəndə də Ceferson eyni dərəcədə təəccüb edirdi: "Başından yumruq, kürəyindən qamçı əskik olanda əmələ necə işləyir, nə işləyir!" O bilmirdi, heyrətini nə ilə ifadə etsin:



– Fermanızda çalışanlar sizin işinizə can yandırırlarmı?

Salman kişi papiros qutusunu açıb, müsahibinə təklif etdi, birini də dişləri arasına alıb kibrit yandırdı və cavab verdi:

– Cənab Ceferson, ferma təkcə mənim deyil, işçilərin özlərinindir. Bütün torpaq, əmlak kimi fermanın var-dövləti də kolxozçuların özünündür. Onlar öz işlərinə necə can yandırmaya bilərlər? Əksinə, onlar yarışırlar. Biri o birisindən bir addım geri durmağı şəninə şikəstlik sayır.

Qonaq qarşısındakı yumrusifət, sakit və xoş baxışlı kişini sanki lazımınca duyub dərk etmək üçün diqqətlə baxır, onu başdan-ayağa süzürdü. Salman kişi məğrur duruşu, dağları, çayları, üfüqləri aşıb gedən, hər şeyə nüfuz edən, hər şeyi qavrayan nəzərlərilə qonağın gözündə daha da böyüyürdü.

– Cənab Ceferson – deyirdi, – bizdə adamlar bir-birinin rəqibi deyil, bir-birinin yoldaşıdır. Bu yoldaş sözü böyük sözdür! Bu sözü bizə Lenin, Qorki öyrətmişdir. Biz alım-satım ilə məşğul olmuruq. Bizim kollektiv özünü təmin edəndən sonra artıq məhsulunu dövlətə verir ki, o da başqa kollektivlərə göndərsin, həmçinin, başqa kollektivlər də o cür! Biz bu cür dolanırıq. Bizim hamımızı Sovet hökuməti ana kimi öz qucağında böyütmüşdür, hər işini bizə tapşırmışdır. Bizdə ayrı cür münasibətlər yoxdur.

Ceferson Salman kişinin sözlərini diqqətlə eşitsə də, buradan çoxlu arı ala bilməyəcəyini, bu səfərdən istədiyi qazancı götürə bilməyəcəyini düşünür, susurdu. Salman kişi bir az ucadan dediyi sözlərlə onu xəyallarından ayırdı:

– Ancaq qonaqdan xahişim budur ki, bizdən aparacağı cins arılar ilə yaxşı rəftar etsin.

*1954*

# HESAB DOSTLARI

## I

Narzan vannalarının qabağında, böyük bir qarağac kölgəsində, uzun skamyalarda adamlar cərgə ilə oturub dincəlir, növbə gözləyirdilər.

Yenicə vannadan çıxan, enli üzü pörtmüş, çiynində tüklü dəsmal olan ortaboylu, çalbaş bir kişi sanki güclə özünü skamyanın üstünə, yenicə boşalmış yerə salıb ufultu ilə dedi:

– Bürküdən nəfəs almaq olmur ki... Buranın istisi Bakını da keçib...

Qabaq skamyada papiros çəkən dolusifətli, ağ zolaqlı sarı pijama geymiş kök bir kişi çalbaş adamın sözünə gülümsədi, qabağa əyilib, yaxın bir ünsiyyətlə soruşdu:

– Yoldaş, deyəsən, Bakıdansınız?

– Bəli!

– Həqiqət, Kislovodsk bu il çox istidir.

Çalbaş kişi sözünün təsdiqini görüb bir az da ucadan dedi:

– Bürküyə baxırsınızmı, yarpaq tərpəşmir.

– Bakı heyif deyil! Dəniz kənarının əvəzi yoxdur. Axşamlar həmişə bir mehi var.



Kök kişi yavaşca yerindən qalxıb, çalbaşın skamyasına keçdi. O da bir az çəkildi, təzə müsahibinə yer elədi. Kök kişi xəlvət bir söz soruşurmuş kimi, yavaşca dedi:

– Bağışlayın, Bakıda harada işləyirsiniz?

– Ticarət sistemində çalışıram.

Kök kişinin marağı daha da artdı. Qıçını qıçının üstünə aşırıb çalbaşa yaxın oturdu, sualında davam etdi:

– Mən özüm də ticarət sistemindəyəm. Necə olub ki, rast gəlməmişik?

– Sistem böyük, iş çox...

– Deyəsən, mən sizi görmüşəm.

– Yəqin, iclaslarda-zadda.

– Ola bilər. Amma. Siz Aztorq, ya Baktorq üzrə?..

Çalbaş onun sözünü kəsdi:

– Xeyr, mən nazirlikdə oluram.

Kök kişi daha dözmədi. Papirosu sol əlinə alıb, bir az da yaxına çəkildi, sağ əlini təzə tanışına uzatdı:

– İzin verin, tanış olaq. Mənim familiyam Əfzəlovdur, adım da Kəmtər.

Çalbaş kişi əlini uzadıb, ehmalca dedi:

– Məlikzadə.

Kök adam Məlikzadə familiyasını eşidəndə diksinən kimi oldu, ayağa qalxdı, bir qədər heyrətlə müsahibinin üzünə baxdı:

– Məlikzadə, belə nazir müavini Məlikzadə?

– Bəli, o vəzifədəyəm.

– Ay səni xoşbəxt olasan, yoldaş Məlikzadə! Mən sizin barənizdə çox eşitmişəm, qəzetlərdə oxumuşam. Özümə çox fəxr bilirəm ki, indi sizin kimi bir məsul yoldaşla tanış oldum. Nə gözəl təsadüf oldu! Çox əcəb! Çoxdanmı buradasınız?

– Çoxdandır. Üç-dörd günə vaxtım qurtarır.

– Yox əşi, bu istidə Bakıya nahaq gedirsiniz, bir qədər qalın, gəzin, havalar da qoy bir az sınsın.

– İşlər çoxdur.

– Düz buyurursunuz, özü də məsul vəzifə. Sizlər çox işləyirsiniz. Əlac nədir, hər adama qızmaq olmaz.

Əfzəlov qələm, kağız çıxartdı. Məlikzadənin sanatoriyasını, palatasını, müalicə diaqnozunu öyrənib tələsik evə gəldi.

O, sanatoriyada müalicə olunmurdu. Mərkəzə yaxın yerdə ayı 400 manata bir otaq tutmuşdu. Özünə də, arvadı İzzətə də bir seans narzan vannası almışdı ki, "xarab olmuş əsəbləri yumşalıb qaydaya düşsün."

İzzət eşidəndə ki, əri nazir müavini ilə, özü də ticarət nazirinin müavini ilə tanış olub, əvvəl inanmadı:

– Görəsən kim imiş, sənə rast gəlib... Nə çoxdu Bakıda Məlikzadə!

– Lap zamministrin özü idi. Bəyəm, onu mən iclasların qabağında nitq kürsüsündə az görmüşəm? Bəyəm, tanımıram? Ancaq bu cür yaxın tanış deyildim.

İzzət dedi:

– Elə yaxın idisə niyə nahara qonaq çağırmadın? Yaxşı kabablıq ətimiz də odur duzda-soğanda...

– Fikrimə gəlmədi. Yaxşı deyirsən, İzzət, gərək çağıraydım. Amma duranda heç ağlıma gəlmədi.

– Gəlməz. Bir qıza, ya arvada tuş olsan, yeddi verstliyəcən ötürərdin. Amma belə lazımlı adamın qədrini bilməzsən. Xalqlar işi aşan yerdən dördəlli yapışırlar. Çex basanojkasının birini qoyub, birini götürürlər. Handa bir parçadan don geyirlər. Sən xeyir-şərini bilən adam deyilsən! Əvvəldən əfəlsən...

## II

İkinci gün Əfzəlov vannalar qabağına gəldi. Birdən yadına düşdü ki, narzan vannası günaşırı verilir. Bu gün Məlikzadəni burada axtarmaq nahaqdır. İstədi müsahibinin yanına – sanatoriyaya getsin. Bunu da məsləhət görmədi. Əvvələn, sanatoriya lap uzaqda, dağın kəlləsində idi. İkincisi də, müsahibinin bu zaman orada olacağına inanmırdı. Dumduru, süd kimi hava var. Nazir müavini də cibidolu adamdır. Kislovodski şəhərində, kim bilir, bu zaman "Pobeda" maşınına oturub, hansı səfalı dağın hansı seyrəngah yamacına çəkilib... Ümid qalıb sabaha.



Sabah Əfzəlov bir qədər də tez gəldi. Həmin skamyanın yanında çox oturdu, çox durdu. Gəlib-gedən bəzi tanışları ilə də salamlaşdı. Ancaq Məlikzadə görünmürdü. Handan-hana, lap axşama yaxın Məlikzadə gözündə ağ gözlük, əlində gümüş yazılı qəhvəyi əsa, çiynində tüklü dəsmal, əynində həmin pijama gəlib çıxdı.

– Salam!

– Salam!

– A sağolmuş, hardasan, səhərdən burada yolunuzu gözləyirəm.

Məlikzadə təşvişə düşdü:

– Necə, nə var bəyəm, xeyir ola?

– Xeyir olmamış nə var.

Məlikzadə maraqlandı:

– Buyur görüm, yoldaş Əfzəlov!

– Doğrusu, sən məni xataya qoymusan, yoldaş Məlikzadə!

Məlikzadənin üzündəki ciddiyyət daha da artdı, saatına baxıb irəli yeridi:

– Bəyəm, nə olub?

– Nə olacaq, ötən gün sizinlə görüşümü danışanda evdəkilər mənim abrımı ətəyimə bükdülər ki, niyə filankəsi götürüb nahara gətirməmisən? Burada bizim ondan əziz qonağımız kim olacaq idi!

Məlikzadəni gülmək tutdu:

– Çox razıyam.

– Xeyr, məsələ onda deyil. Evdəkilər sizin burada olmağınızı indiyəcən heç bilmirdilər. Mən özüm də bilmirdim. İndi necə olsa, gərək bir kababa oturaq.

Məlikzadə bir də saatına baxıb dedi:

– Mənim çekim beş qırx beşədir. Siz necə, vanna götürmüsünüzmü?

– Xeyr, mənim bu gün vannam elə sizi görməkdir. Ancaq sizin dalınızca gəlmişəm ki, qonaq aparam.

– Mən indicə nahar eləmişəm, qonağınız çox olsun.

– Eləyəndə nə olar, buyurun, vanna qəbul eləyin, mən də oturub

Kislovodski xanımlarına bir az tamaşa edərəm. Sonra gedərik bizə.

– Çox sağ olun, başqa bir vaxt.

– Yoldaş Məlikzadə, qorxuram məni evə qoymasınlar, çünki arvad hazırlıq görüb, özü də ki tapşırıb...

Məlikzadə üzr istədi:

– Bilet dalınca gedəcəyəm. Özünüz bilirsiniz, indi nə qədər çətindir. Sağlıq olsun, ayrı bir vaxt görüşərik. Xanımdan çox üzr istəyirəm. Mənim dilimdən deyərsiniz.

Kislovodsk vağzalını görənlər bilir ki, çox səliqəli, nizamlı, qaydalı bir yerdir. Xüsusən, yay mövsümlərində minlərlə deyil, on minlərlə yaylaqçının axıb gəldiyi aylarda burada bəzəkli, yaraşıqlı, yumşaq vaqonların peydərpey adam daşıdığını görərsiniz. Dəmiryol idarələri yayda hər şəhər üçün xüsusi qatar ayırırlar: Moskva-Kislovodsk, Leninqrad -Kislovodsk, Bakı-Kislovodsk, Soçi-Kislovodsk...

Saat olmur ki, vağzal səkiləri boşalmış olsun. Qatarın biri gedir, biri gəlir. Gələnləri gül dəstəsilə qarşılayanlar, gedənləri mədən suları, cürbəcür mürəbbələr, meyvələr, şirniyyatla yola salanlar da dəstə-dəstə, öz qaydası ilə.

Əfzəlov əlində kağız bükülü özünü vağzal səkilərinə salanda qatarın tərpənməyinə dörd dəqiqə qalırdı. Təzə dostlarına nə hədiyyə aparmaq üstündə İzzətlə deyişməsi o qədər uzanmışdı ki, mağazaları axtarmağa vaxt qalmamışdı. Bir banka çiyələk mürəbbəsi İzzət almışdı, Məlikzadənin uşağı üçün bir yastı şokolad da Əfzəlov özü götürmüşdü.

Onlar vaqon pəncərələrinin qabağına baxa-baxa, tövşüyə-tövşüyə yeriyirdilər. Beşinci vaqonun ağzında, başına çətir tutub dayanan bir xanımın Məlikzadə ilə danışdığını seçən Əfzəlov sevincindən bərk qışqırdı:

– İzzət, bəri gəl, tapmışam! Buradadırlar!

Məlikzadənin yaxın adamları Əfzəlovu bu ətrafda birinci dəfə görür və dostlarının üzünə baxırdılar. Məlikzadə gülümsünərək başa salırdı:

– Əfzəlov yoldaş mənim Kislovodsk tanışımdır, bir yerdə müalicə olunmuşuq.



Kim idisə əlavə etdi:

– Xəstəliyiniz bir imiş!

Əfzəlov tez cavab verdi:

– Bəli, xəstəliyimiz də bir idi, müalicəsi də bir yerdə oldu.

– Təki olsun!

Bu söhbət əsnasında İzzət mürəbbəni vaqon pəncərəsinə qoymuşdu. Əfzəlov əlindəki kağız bükümünün yaxşı görünmədiyini hiss edib, uşağa tərəf yanaşdı:

– Qadası, al bunu!

Məlikzadənin oğlu altı yaşını təzəcə qurtarmış, sağlam, iri gözlü, yaraşıqlı bir uşaq idi. Ona təklif olunan bir şeyi icazəsiz almazdı. Əfzəlov şokoladı ona tərəf uzadanda uşaq geri çəkildi, atasının üzünə baxdı. Məlikzadə cəld dedi:

– Dişi ağrıyır, ona şirniyyat olmaz, saxlayın, saxlayın, yoldaş Əfzəlov!

– Uşaq üçün almışam.

– Ona ziyandır, yeməz o!

Əfzəlov əlindəkini bilmədi nə etsin, ixtiyarsız İzzətə verdi. İzzət vaqona keçib şokoladı mürəbbənin yanına qoydu:

– Yolda çayla içərsiniz. Çayla heç bir ziyanı olmaz!

Məlikzadə konduktoru çağırdı:

– Xozyayka, – dedi, – götürün bunları, samovarın yanına qoyun, çayınız hazır olanda içərik. Kislovodsk hədiyyəsidir, yoldaşlar gətiriblər, sağ olsunlar.

## III

İzzət vağzala nə qədər şad getmişdisə, o qədər məyus qayıtdı. Əfzəlov hiss edirdi ki, arvadı vağzaldan, yola salmaq mərasimindən heç də razı qalmamışdır.

– Niyə kefin yoxdur, İzzət?

– Sənin təzə dostundan gözüm su içmir.

– Onu da özünə bir dərd eləmisən, ay rəhmətliyin qızı?

– Yox, sən adam tanımaqda çox naşısan! Yaxşı adam dostun gətir-

diyi peşkəşi çağırıb pravadnikə verməz. Özü də dostun gözünün qabağında!

– A qız, pravadnikə verəndə yəni, böyük bir iş olub? Mürəbbədir, verib ki, aç gətir, çay içək. Buna sən niyə ayrı cür məna verirsən, ay İzzət?

– Yox, sən gəl məni avam yerinə qoymaginən, kişi! O, yaxşı adam olsaydı, bir banka mürəbbəni lap bir banka qızıl kimi qəbul eləyib: "Sağ ol, sağ ol", – deyərdi. Amma elə soyuq tərpəndi ki, deyəsən, biz buna borcluyuq...

Əfzəlov arvadının giley-güzarlarına alışmışdı. Ona söz yetirməkdəki acizliyini də çoxdan etiraf etmişdi. Bircə kəlmə ilə söhbəti qurtarmaq istədi:

– Sözbaz olma...

– Yaşayıb görərik, sözdü, ya nədir! Məlikzadə lap ministr müavini olmasın, ministr olsun, mən onda bir qanacaq görmədim. Sən ondan beş şahı xeyir görsən, mən adımı dəyişərəm.

– Konduktora xeyir verdi ki.

İzzət ərinin bu sözünə də cavab tapdı:

– Hamam suyu ilə dost tutmağa nə var. Mənim varenyəmi götürüb bağışlamağa səxavət deməzlər.

Bütün bu tənqid və bədgümanlığı ilə bərabər İzzət ərinin yadına saldı ki:

– Onlar sabah çatmış olarlar. İndi ki dostluğa başlamısan, yaraşar ki, yazıb əhvallarını soruşasan: necə getdiniz, halınız necədir, uşaq yaxşıdırmı, filan... Qoy deməsinlər, gözdən iraq, könüldən uzaq!

– Doğru deyirsən, İzzət xanım, Allah səni oxudan kişiyə rəhmət eləsin, qələmi götür, bir kulturni pismo yaz!

İzzət kağız gətirdi, mürəkkəbqabına su tökdü, oturub yazdı:

"Şanlı məktub.

Əziz dostum, Nəcabət xanıma çox-çox salam-duadan sonra yazıb məlum edirəm ki, əgər bu tərəfin əhvalatından xəbər tutmaq istəsəniz, çox şükür, sağ-salamat və sizlərin cənabına duaçı varıq. Nigarançılığımız yoxdur, qeyri sizin kimi canbirqəlb dostların ayrılığından. Təbiətdən xahiş edirik sluçay salsın, tez görüşək. Bir də yazın görək yolda çox narahat keçmədi? Sizi hey yuxuda görürük. Qardaş necədir? Kefi-damağı lap çağdırmı? Uşağın dişi ağrıyırdı, çox nigaranıq o sarıdan. Toxtayıbmı uşağın dişi? Hansı doktor leçit eləyir? Rentgenə salınıbmı? Xahiş eləyirəm yazasınız, yeyəndə əziyyət eləmir ki? Yumşaq xörəklər lazım olsa, anama deyin bişirsin (Qanıtepinski, ev nömrə 5, Məsmə xanım). Anam isti xörəyi çox yaxşı bişirir. Əlüstü. Həyətdə maşın da var. Ocaqdan götürüb isti-isti gətirər. Nəcabət xanım, səni and verirəm aramızdakı haqq-salama, uşaqdan muğayat ol, korluq çəkməsin, diş ağrısı xərəb şeydir..."

## IV

Məlikzadə naharını yeyib axşam istirahətinə hazırlaşırdı ki, qapının zəngi səsləndi. Gələn ucaboy, ortayaşlı, qızıldişli bir qadın idi. O, salam verib, ərklə əlini ev sahibinə tərəf uzatdı. Məlikzadə yaxşı tanımasa da, yaxın yoldaş ailələrindən olduğunu güman edib görüşdü, qonağa yer göstərdi, "haradasa görmüşəm", – deyə, xəyalından keçirdisə də, yadına sala bilmədi.

İzzət qırmızı sumkasını stul başından asıb oturdu və oturan kimi sözə başladı:

– Məlik qardaş, Allah sizi bundan da böyük mərtəbələrə, qulluqlara çatdırsın. Ancaq böyük olanda nə olar, adam bir kasıb-kusubun da gərək hərdənbir kefini soruşsun axı!

Qonağın ilk cümləsini eşidən kimi, Məlikzadənin yadına düşdü: "Bildim, Əfzəlovun arvadıdır. Kislovodsk tanışları..."

Məlikzadə özünün hafizə zəifliyini etiraf edərək, təzədən qonağın halını soruşdu:

– Bağışlayın, İzzət xanım, hafizəm elə olub ki, bayaqdan... Əfzəlov necədir, bəs niyə gətirməmisiniz?

– Əfzəlin bir az kefi yoxdur, sizə duası var. Onu deyirdim axı, uman yerdən küsərlər. Həmişə evdə sizin söhbətinizdir. Kişinin dilindən düşmür, bir Məlikzadə deyir, iki də üstəlik tərif. Deyir: bizim na-

zirlikdə ikicə nəfər onun kimi canyandıran, işbilən olsaydı, planlarımız ayda yüz nədi, lap yüz əlli faiz dolardı. Neynəsin, Məlikzadə yoldaş təkdir, tək əldən səs çıxmaz.

Bu söhbətlərdən Məlikzadə başını aşağı saldı, bir az da qızaran kimi oldu. Qonaq olduğuna, qadın olduğuna, birinci dəfə buraya gəldiyinə görə ona ağır cavab vermək istəmədi. Yoldaşını çağırdı:

– Nəcabət, sən qonağın yanına gəl, çayı özüm hazırlayaram.

İzzət razı olmadı:

– Yox, yox, Məlik qardaş, o nə sözdür! Siz mənə çay hazırlayasınız. Əlləriniz var olsun. Çay-zad içmirəm. Elə-belə sizə salam verməyə gəlmişəm.

– Xoş gəlmisiniz, ancaq nahaq Əfzəlovu gətirməmisiniz.

Deyəsən, bu söz İzzətin ürəyindən idi. O belə bir fürsət axtarırdı:

– Doğrusu, Məlik qardaş, o sizlə görüşmək üçün çox can atırdı, amma ki, utanır.

– Nədən utanır, mən də onun iş yoldaşı.

– Orası elədir, amma bir az başıaşağıdır, yanınıza gəlməyə üzü yoxdur.

– O nə sözdür, İzzət xanım?

– Bir az əskiyi var.

Məlikzadə güman etdi ki, İzzət ərinin az qazanc gətirməyinə, yaxud paltarlarının köhnəliyinə işarə edir.

– Nəyi əskikdir? Heç bir əskikliyi yoxdur.

– Yox, Məlik qardaş, var. Bir on gün olar ki, təftiş gəlib, 10-12 min əskiyi çıxıb. Belə şey görməmiş adam, yaman ürəyinə salıb.

Məlikzadə indi başa düşdü ki, İzzətin mətləbi nədir.

– Belə söylə!..

– Çox deyil, 10-12 mindir. Özü də təftişçi nanəcibin biridir. Deyirəm, a kişi, puldur, evdə hər şeyimi sataram, qolumun saatını, boğazımın mirvarısını sataram, borcunu verərəm, daha ürəyini niyə sıxırsan? Qiyamət olmaz ki... Deyir yox, dost-aşna yanında adıma ləkə gəlir.

Məlikzadə soruşdu:



– Bəs nə təhər olub ki, 12 min çatmır?

– Bilmirəm, necə haqq-hesab eləyiblər. Çotkədi, hayana vursan, gedəsidir. Bu bədbəxtin də adamı-zadı yoxdur. Təftişçilər görür fağırın biridir, deyirlər, bas belinə...

– İzzət xanım, təftişçi istər ki, mağazanın hesabı həmişə yaxşı çıxsın, işi düz getsin...

– Düzlük barəsində Əfzəlin tayı-bərabəri yoxdur, Məlik qardaş.

Məlikzadə İzzətlə söz güləşdirmək istəmədi:

– Təki düz olsun.

– Düzlüyü lap belə gün kimi aşkardır.

– Ortada düzlük olandan sonra heç nəyin qorxusu yoxdur, İzzət xanım!

İzzət xanım Məlikzadənin sözündən cürətə gəlib, stulunu bir az da irəli çəkdi, ayağa qalxıb baş dəsmalını örtdü, ətəklərini ovcuna yığıb, təzədən oturdu:

– Ay sağ olun, Məlik qardaş! Bircə onu bu təftişçilərə deyən olsa, sizin kimi hörmətli bir adamın bircə zəngi olsa, iş soyuyar gedər. Daha bu qədər götür-qoy eləməzlər. Olub indi, yaş maldı, quruyur, siçan aparır, maşında gələndə əskiyi olur... Hamısını yığıb, yuğuranda gəlir olur filan qədər...

Məlikzadə dinmədi. İzzət xahişini bir də təkrar elədi:

– Bircə zəng olsa, iş soyuyar gedər.

– Zəng vuran nə deməlidir?

– Nə deyəcək... deyər, canım, kassanın nə qədər əskiyi var alın, kişidən əl çəkin də! Vəssalam! Nə şiş yansın, nə də kabab...

Məlikzadəni gülmək tutdu. Özünü toxtatdı.

– İzzət xanım, – dedi, – yaxşısı budur, qoyun Əfzəlov özü məşğul olsun, özü də cavab versin.

İzzət səsini ucaltdı:

– Bədbəxtlik elə oradadır ki, özünün dili-ağzı yoxdur da. Malınməğmunun biridir. Dilli-ağızlı adam 10-12 min üçün adına akt bağlanmağa, suda düşməyə qoyardı?

– İzzət xanım, on iki min manat xalq pulunu siz çox mənasız bir şeymi sayırsınız?

– Mənasız niyə, pulun alsın da. Lap min manat da artıq alsın!

– Bəs siz deyən düzlük harada qaldı?

– Yaxşı, Məlik qardaş, deyək ki, on min üçün kişini qatdılar dustağa. Bunun hökumətə nə xeyri?

– Hökumətə xeyri olmasa da, Əfzəlov və onun kimilərə xeyri çox olar.

İzzət xanım heyrətindən əlini ağzına apardı:

– Məlik qardaş, damda yatmaqdan ona nə xeyir?

– İctimai tərbiyə alar!

– Tərbiyə?

– Bəli, tərbiyə olunar!

– Ay sağ olmuş, qırx beş yaşında kişiyə nə tərbiyə?

– Tərbiyə yaşa baxmaz, başa baxar! Elə altmış yaşlılar var ki, tərbiyə olunmalıdırlar. Baxıb görürsən ki, onlara tərbiyə, ya dərs verənin heç otuz yaşı da yoxdur.

İzzət dik-dik müsahibinin üzünə baxdı:

– Daha sizə heç sözüm yoxdur!

V

Bir saat sonra Əfzəlov arvadından soruşdu:

– Nə dedi, bir köməyi dəyəcək, ya yox?

– Sənə deyəndə ki, adam tanımırsan, sənə deyəndə ki, elə dostlardan gözüm su içmir...

– Məlikzadə nə dedi?

– Nə deyəcək, heç nə!

– Bəs sən məsələni açanda heç heyifsilənmədi?

– Əlinə dəsmal alıb sənin halına ağladı...

– Nə danışırsan, a qız?

– Sənin o boş başın üçün!

– Zarafata qoyma, mətləbi danış!

– Mətləbi budur ki, azı beş, ya üç il işin var!

– Pulu verəndən sonramı?



– Bəli, pulu verəndən sonra beş il gərək həbsxanada tərbiyə alasan.

– Mən yekəlikdə kişiyə uşaq kimi tərbiyə?

– Sənə uşaq yox, yekə tərbiyəsi verəcəklər...

1954

# PLOVDAN SONRA

Bu axşam vağzalda çox get-gəl var idi. Kənardan baxan düşünərdi ki, adamlar hörmətli bir qonağı qarşılamağa, ya da yola salmağa toplanıblar. Vəziyyət qarşılamaq yox, yola salmaq mərasiminə daha çox bənzəyirdi. Əvvələn ona görə ki, əlində şey olan adamlar tələsə-tələsə vaqonlara tərəf gedirdilər. İkincisi, ona görə ki, parovozun, vaqonların səmti, duruşu qatarın məhz getməyə müntəzir olduğunu göstərirdi. Üçüncüsü...

Nə başınızı ağrıdım, vaqon ağzında komalaşanlar, hörmətli müsafirləri yola salırdılar. Qatar boyunca uzanan təmiz, asfalt səkilərdə hərbi adamlardan, müəllimdən tutmuş, əlvan geyimli, ağır gövdəli xanımlara qədər çoxlarını görmək olardı.

Yumşaq vaqonun qabağında dayanan daha çox idi. Yola çıxan bu hörmətli müsafir kim ola?

Bu, Moskvaya oxumağa gedən tələbələrdən, bəlkə də bizim bəzi alim, şair, ya nazir uşaqlarından biri olacaq.

Adamlar yumşaq vaqonun qabağında Ramizi – onilliyi bu il bitirmiş təzə tələbəni mehribanlıqla əhatə etmişdilər. Kimi şokolad qutusu təqdim edir, kimi səbətdə üzüm, kimi kağız torbada başqa meyvələr gətirir, kimi də cüt-cüt limonad şüşələrini pəncərədə dayananlara verib, Ramizin kupesinə ötürürdü. Kabardin palto və ağ şlyapa, ağ əlcək və ağ çəkmə geymiş, alçaqboylu, kök bir qadın isə hərdən irəli çıxıb, Ramizin yaxasına qonan tükü götürür, onun dağınıq saçını əli ilə geri daramaq istəyirdi. Oğlan isə ipək köynəyinin parıldayan metal açarını gah yuxarı, gah aşağı aparır, anasının sual və söhbətinə könülsüz, dilucu cavab verməklə kifayətlənirdi. Görünür, adam içində edilən ailə söhbətlərindən, ana nəvazişlərindən xoşu gəlmirdi.

Ərknaz xanım hərdən ətrafa boylanır, belə bir oğul anası olduğunu hər vasitə ilə gözə verməyə çalışırdı. Hətta, atalıq hüququndan istifadə etmək istəyən ərinə də macal vermirdi.

Papirosuna yüngül bir qullab vuran Namazov, oğluna belə tapşırıq verirdi:

– Nə azuqə lazımsa, indidən alaq, daha yollarda düşməyə ehtiyacın olmasın! Ramiz, gör ürəyin daha nə istəyir!

Ərknaz xanım kişisinə etiraz edirdi:

– Sən də danışdın ha! Ramiz sənə qız uşağı-zad deyil ki, qaxılıb vaqonda otursun, kənara çıxmasın. Yoldur, səyahətdir. Düşəcək də, minəcək də! Yolda, məsələn, xoşuna gələn bir meyvə oldu, alacaq da. Sən niyə indidən uşağı sinsidirsən, yoxsa pulun xəsisliyini eləyirsən?!

Namazovun rəngi dəyişdi. Dediyinə peşman oldu. Ramiz də: "Heç nə lazım deyil", – dedi, başını aşağı saldı. Ətrafındakılar güldülər, Ərknaz xanım özü də güldü. İrəli yeriyib oğlunun kürəyindən bir şapalaq vurdu:

– Qorxma, oğul, puldan özünə korluq vermə. Anan ölməyib ki! Vallah, öz canım üçün, düz deyirəm!

Axırıncı zəng vurulana yaxın bir gödək, çalbaş kişi, bir də ortaboylu qoca qadın tələsik özlərini səkiyə yetirdilər. İri bir bağlamanı ehtiyatla vaqona çıxarıb Ramizin yerinə apardılar. Onların dalınca Ərknaz xanım da çıxdı. "Uşağın" kupesini, rahatlığını bir də yoxladı. Çox çəkmədi ki, axırıncı zəng çalındı, yola salanlar vaqondan düşdülər. Ramiz əvvəl kənardakılarla, sonra da valideyni ilə əl verdi, öpüşdü. Ərknaz xa-

nım həyəcan keçirirdi:

– Qadan alım, Ramiz, qalarsan, tez ol!

Ramiz qatarın hərəkətini görən kimi, cəld vaqonun pilləsinə atıldı. Dəsmal eləyə-eləyə vidalaşdı. Vaqon bir an içində onu götürüb getdi. Qohumlar, tanışlar, yoldaşlar – hamısı vaqon gözdən itənəcən Ramizə əl eləyir, xeyir-dua verirdilər. Yalnız Ərknaz xanım gah qırmızı haşiyəli balaca ipək dəsmalını gözünə basıb ağlayır, gah da sağ əlini havada tərpədirdi.

## I

Kim desə ki, mən övladımı istəmirəm, inanmayın. O, yalan deyir. Elə adam ola bilməz ki, doğma balasını istəməsin. Övlad şirin şeydir. Nəinki insan, hətta bütün yaranmışlar balasını istəyir, əziz tutur. Amma istəmək var, istəmək var.

Ərknaz xanımın oğluna məhəbbəti ayrı bir məhəbbətdir. Qardaş görmədiyindənmi, tək bir oğul anası olduğundanmı, Ramizin göz qabağında necə tez boy atıb böyüməyini, yoldaşlar arasında fərəhlə dönüb-dolaşmasını, oxumasını, çalmasını, oynamasını gördüyündənmi, nədənsə, söz və söhbətinin əvvəli də, axırı da Ramizdir. Məclis olmaz ki, Ramizdən danışmasın. Hər yerdə deyir ki:

– Ramiz çox qeyrətli, fərasətli uşaqdır. Çox qanacaqlı, mərifətli uşaqdır. Çox rəhmli, qabiliyyətli uşaqdır. Onun telefonla ibarəli danışmağını, cürbəcür kino artistlərinin təqlidini çıxarmağını, şəkil çəkməyini, maşın sürməyini, qəşəng-qəşəng məktub yazmağını, kostyum seçməyinimi deyim, səliqə-sahmanımı, kefi gələndə çalmağını, oxumağını, oynamağınımı deyim, handabir dəvətnamə ilə konsertlərə getməyimi, lap baş cərgədə handabir qızla oturmağımı deyim, ədəb-ərkanını, mərifətini, hansını deyim!..

Münasib məclisin münasib bir yerində söhbət düşəndə Ərknaz xanım oğlundan həvəslə şirin-şirin danışır. Həmişə eyni sözləri danışsa da, elə bir vəcdlə danışır ki, deyərsən, bu sözlər "xoruz səsi eşitməmiş" təzə xəbərlərdir. "Söhbət düşəndə" dedik. Əslinə baxsan, söhbət düşmür, onu Ərknaz xanım özü salır. Özü də yeri oldu-olmadı baxmır. Bəlkə ayrı bir adam bunu bacarmaz. Ayrı bir mətləb danışılan zaman, yuyulmamış qaşıq kimi, aralığa girmək hər adamın işi deyil, "nə dəxli var!" Amma Ərknaz xanım bunu demir və düşünmür. O, Ramiz söhbətini elə ustalıqla başqa mətləblərə qatır ki, danışanlar özləri də hiss etmirlər. Məsələn, qadınlar arasında paltardan-modadan söz açılanda, hər kəs bir şey danışanda, bir də görürsən Ərknaz xanım aralığa girdi:

– Balam, indikilərə paltar bəyəndirmək olmur. Ramiz iki dəst xalis baston, triko kostyum tikdirmiş, bir dəst də atası Tiflisdə komissiyonnudan alıb, lap əcərri! Di gəl heç birini bəyənmir. Neyləyəsən, məcbursan ayrısını alasan. Cavandır...

Adamlar Qubanın alma bağlarından, bu il meyvəcatın bol gəlməyindən danışanda Ərknaz xanım şikayətini başlayır:

– Bizim Ramiz bazardan alınan meyvəyə məhəl qoymur. Vallah, öz canım üçün məhəl qoymur. O deyir, gərək üzümü, özü də ağ şanını, ya dərbəndini meynədən özüm dərəm, almanı, özü də Qubanın xalis ağ almasını ağacdan özüm üzəm. Atası ona keçən il Qusarda bir bağ tutmuşdu, iki minə. Başdan-ayağa almalıq, armudluq...

Camaat beynəlxalq vəziyyətdən, hökumətlər arasında sülh yaranmasından danışıb, şükür eləyəndə Ərknaz xanım fikrini belə bildirir:

– Bə nədi, o gün, hamınınkını Allah saxlasın, Ramiz qəzeti almışdı əlinə, sülhün barəsində bülbül kimi elə oxuyurdu, elə oxuyurdu, adamın canına yağ kimi yayılırdı. Qonum-qonşu tökülüb, deyəsən lap leksiyadı. Gədənin döşündə də mərmər göyərçin qanad açıb, elə bilirsən bu saat uçub taxtapuşa qonacaq, öz canım üçün!

Məktəbdən söhbət açılanda Ərknaz xanımın dəftər-kitabı lap uzanır:

– Bizimki ayrı cür uşaqdı! Müəllimlər danışa, görəsən! Belə, bir özgə cür uşaqdı. Direktorlar lap məəttəl qalıblar. Bu yaşda uşaqda belə fərasət! Görünməyib axı. Professorlar indidən Ramizin üstündə dava salıblar. Biri deyir, mənim institutuma gələcək, o biri deyir, yox, ona özüm dərs verəcəyəm. Biri deyir, gərək akademiyalar yanında dərs ala. Səs-sədası şəhəri götürüb, bilmirəm necə olacaq, öz canım üçün. Nənəsi gədənin köynəyinə gözmuncığı tikməkdən yorulub. Özü qoymur, bi-

ləndə söküb atır bir qırağa. Görmüşdük oğlan üstündə qızlar sözə gələr, indi daha professorların gözü qalıb gədədə! Vallah, öz canım üçün, elə biləsən bənd olublar..

– Ərknaz xanım, hansı dərsə Ramizin meyli çoxdur?

– Elə hamısına! Dərs var ki, o bilməsin? Kitab var ki, oxumasın? Müəllimlər heyrandır ki, aya, bu yaşda belə baş!.. Belə lap özgə cürdür, Allah hamınınkını saxlasın...

Vaqona əyləşəndə adamları zəfəran iyi vurdu. Zəfəran iyi gəlirdi, amma birtəhər gəlirdi. Deyəsən, bu zəfəran ya qaynanmış, ya qovrulmuş, ya da yağ içinə qoyulmuşdu. Sərnişinlər soruşurdular:

– Bu nə ətir ola, yoldaş konduktor?

– Mənim də burnuma dəyir.

– Yoxsa vaqon-restorandan gəlir bu?

– Xeyr, vaqon-restoranda belə şey yoxdur.

Konduktor vaqonun o biri başına yaxınlaşanda zəfəran iyinin daha da tündləşdiyini duyanda düşündü ki, bu təzə müsafirin, oxumağa gedən tələbənin kupesindən gəlir. Ötəndə gözucu nəzər saldı. Pəncərə qabağında baş-başa verən, konyak stəkanlarını çaqqıldadan iki gəncin zəfəran-plov yediyini görüb tez ötdü. Çalışdı ki, gənclər onun nəzər yetirdiyini görüb narahat olmasınlar.

## II

Doğrudur, Ərknaz xanım hər yerdə oğlunu ağızdolusu tərifləməkdən doymurdu. Tərifli cavanların heç birindən əskik saymırdı ki, artıq sayırdı. Amma buna onun əsası yox idi. Ramiz orta məktəbdə miyana və bəlkə miyanadan bir pillə aşağı oxuyan uşaqlardan idi. Ərknaz bunu bilməmiş deyildi. Bilsə də, Ramizi tərifləməkdən əl çəkmirdi. Ona görə əl çəkmirdi ki: "Dedi-dedi ev yıxır! O müəllim pis deyər, bu müəllim pis deyər, valideyn də onlara qoşulub pis deyəndə uşağın adı doğrudan da pisə çıxar, sabah ali məktəbə gedəndə onu qapıda dayandırarlar..."

İkinci tərəfdən Ərknaz xanım Ramizin dərsdən aldığı qiymətləri



doğru saymırdı. Bu qiymətlər bəzən onu təbindən çıxarır, əsəbiləşdirirdi:

– Nə olmuşdu, bəyəm. Coğrafiyadan da zəif? Yəni Ramiz o qədər əfəl oldu ki, dağların, dəryaların adını da saya bilmədi? Mənim oğlum həmin dağları aşıb, dəryaları ötüb dönə-dönə gəzməli yerlərə gedəndə çoxları heç Bakıdan qırağa çıxmamışdı. Kislovodskə, Soçiyə, Moskvaya onu atası neçə dəfə özü aparıb, indi götürüb coğrafiyadan uşağa iki yazıblar. Yox! Gözləri götürmür! Məktəbdəkilər bizim uşağı aşkar gözümçıxdıya salmaq istəyirlər, ögey baxırlar, ögey!..

Əri mane olmasaydı, bəlkə Ərknaz xanım coğrafiya müəllimi ilə savaşacaq, kim bilir necə ağır sözlər deyəcəkdi.

Üçüncüsü də bu idi ki, Ərknaz xanım oğlunun ali məktəbə düzələcəyinə arxayın idi. Xəyalına qoymuşdu ki: "İmtahan zamanı müəllim tutub hazırlaşdıraram, atası da sözükeçəndir, tapşırar. Bir də Moskva məktəblərinə gedən az olur. Ramizdən yaxşı kimi götürəcəklər..."

Həmin il Moskva məktəblərində respublikalardan gələnlərə çox yer ayrılmışdı. İmtahan da Ramizin bəxtindən yerli komissiyalarda olurdu. Bu komissiyalarda da Ramizin atasını tanımayan kim idi.

Vəziyyət belə olsa da, Ramiz imtahanda kifayət qiymətlər yığa bilmədi.

Oğlunun adını qəbul olunanlar siyahısında görməyəndə Ərknaz xanım təcili bilet alıb, oğlu ilə birbaş Moskvaya yola düşdü. Neçə qapı döyəndən sonra mərkəzi qəbul komissiyasının məsul katibinin yanına getdi. Ərinin məsul işlərdə ömrünü qoyduğunu, oğlunun naxoş vəziyyətdə həyəcan keçirərək imtahan verdiyini, yerli komissiyada "ədalətsizlik olduğunu", yeganə oğlu Ramizin ərizəsi rədd edilərsə, özünü bədbəxt ana hesab edəcəyini xüsusi bir həyəcan və hiddətlə, təkid və cürətlə danışdı. Haçandansa, Ramizin məktəb dram dərnəyindən aldığı təşəkkürnaməni paketdən çıxarıb göstərdi:

– Qabiliyyətsiz uşağa belə təşəkkürnamə verməzlər!

Çox haray-həşir salandan, dönə-dönə dilindən zəmanət verəndən sonra İnşaat institutunda hələ tutulmayan yerlərdən birini Ramizə aldı. Təqaüdsüz və yataqxanasız olaraq oxumağına icazə verdilər.

Ərknaz xanım bu icazə kağızını alıb Bakıya qayıdandan sonra da-

ha yerə-göyə sığışmırdı. Müəllimlərin, komissiyaların ünvanına acı-acı sözlər deyir, daş-qaş parıldayan şəhadət barmağını silkələyərək, Ramizin qeyrətinə, biliyinə məhz yuxarı təşkilatlarda "lazımi və layiqli qiymət aldığını" bir daha iddia və təsdiq edir, bədxahlarına sanki acıq verməkdən həzz alırdı.

Ramiz oxumağa gedəndən Ərknaz xanımın yarı canı da onunla getmişdi. İndi oğul sözü-söhbətini əvvəlkindən də beşqat artıq iştaha və həvəslə danışsa da, ürəyini sakit edə bilmirdi. Ramizə halva, şəkərçörək bişirir, səbət-səbət meyvə göndərir, həftəbaşı bir bağlama yola salırdı. Söz yox ki, bu bağlamaları poçtla, adi qayda ilə göndərsə, gecikəcəyini, bəlkə xarab olacağını güman edirdi. Ona görə hər dəfə Moskva qatarını yola salmağa çıxır, bağlamanı, ya xörəyi tanışlardan birinin kupesinə qoyur, oğluna teleqram vururdu ki: "Ramiz, ayın filanında 19-cu qatarı qarşıla. Vaqon nömrə filan, dostumuz filankəsdə əmanətin var! Öpürəm. Anan!"

Ramiz qəbul olunandan sonra poçtalyonlar İnşaat institutuna çox get-gəl eləyirdilər. Görürdün, bu qarabuğdayı oğlana hey kağız, teleqram, bağlamalar gəlir. Poçtalyonlar onu dərsdə, idman meydançasında, konsert zalında tapır, tələsik qol çəkdirib gedirdilər. Səhərlər saat doqquzda-onda isə Ramizi arıq, büzüşmüş bir oğlanla vağzalda – vaqon ayağında "əmanətini" almağa gələn görərdin. Bu əmanətlər onu, demək olar ki, təngə gətirmişdi. Gələn əmanəti alıb minik tapmaq, evə gətirmək, açıb yerbəyer eləmək, taxtanı, torbanı, kağızı aparıb zibilxanaya atmaq özü bir iş idi. Ramizdə bu səliqəyə hövsələ yox idi. Bir dəfə üzüm səbətini vaqondan götürüb aparmaq istəyəndə milçəklər boğanaq kimi koma ilə uçdu. Səbətin altından axan su isə Ramizin təzəcə geyindiyi triko kostyumu buladı.

Ramiz anasına dönə-dönə yazır, telefonla deyirdi ki: "Göndərməyin, heç şey lazım deyil, xörək də, meyvə də xarab olur, nahaq yerə zəhmət çəkməyin!"

Buna baxmadan "əmanətlərin" sayı nəinki azalmırdı, hətta günügündən artırdı. Haçandansa, institutda oxuyan, qurtara bilməyən, möhlət alıb, arxivdə kargüzar vəzifəsi daşıyan köhnə bir tələbə İbiş Məsimov Ramizə bu işlərdə yaxın köməkçi idi. Hər səhər-axşam İbiş Ramizin mənzilinin əziz qonağı idi. Onu otaqda kolbasa doğrayan, çay dəmləyən, butulka ağzı açan, yaxmac düzəldən, teatr kassasına zəng vuran görərdin. İbiş Ramizin bazarlığına gedir, bələdçiliyini eləyir, paltarını yudurdur, münasib qiymətlə çertyojlarının, konspektlərinin surətini çıxartdırırdı. Kinoya, teatra, stadiona aparırdı. Mənzil sahibi ilə sözü çəpləşəndə təzə otaq tapırdı. Ramiz oxumağa gələndən üç dəfə otağını dəyişmişdi. Atası ünvanların belə tez-tez dəyişməyinə təəccüb edəndə Ramiz belə cavab verirdi:

– Birincisində telefon yox idi, ikincisinin hamamxanası xarab idi, üçüncüsünün radiosu işləmirdi...

– Ola bilməzmi ki, əvvəlcədən bu şərtləri yoxlayasan, ay oğul?

– Bundan sonra yoxlayacağam, yaxşısını tutacağam, ata!

Əlbəttə ki, bu cavabları Ramizə İbiş öyrətmişdi. Ramiz heç vaxt otaq dəyişmək istəmirdi, buna hövsələsi də, bacarığı, vaxtı da yox idi. Onu otaqlardan ev sahibləri qovurdular. Ona görə qovurdular ki, gəlib-getməyinin vaxtı yox idi. Gecəyarısı bir də görürdün, İbişlə başmaq seyrinə çıxdılar, səhərə yaxın qayıtdılar.

Ramizin etirazlarına atası da, anası da təvazökarlıq adı qoyurdular. Göndərilən xörəklərin, meyvələrin yolda xarab olmamasına isə çarə axtarırdılar.

Axşam Ərknaz xanım ərinə, necə deyərlər, göydəndüşmə bir sual verdi:

– Kişi, təzə təyyarə çıxıb, xəbərin var?

– Nə təyyarədir?

– Adını birtəhər deyirlər ey!

– Reaktiv təyyarə?

– Həri, aktiv təyyarə, eşitmisən?

– O təzə deyil, neçə ildi var!

– Var, bəs mənə niyə demirsən?

– Sənə nə deyəsiyəm ki?

– De görüm, o aktiv təyyarə buradan Moskvaya neçə saata gedir?

– Gərək ki iki saata gedir.

– Bə yaxşı, belə iş var, mənə niyə demirsən, a sağolmuş?

– Neyləmək istəyirsən, bəyəm?

– İki saata mən Ramizə paxla-plov çatdıraram ki, lap buğlana-buğlana!

Ərinin gülməyi, müəyyən bir cavab verməməyi Ərknaz xanımı hirsləndirdi:

– Burada gülməli nə var, sən gülürsən? Düyü daş kimi olandan sonra uşağa çatmaq hara, plov isti-isti çatmaq hara! Bu gün sədri düyüsü isladım, sabah danış, o təyyarələrdən birində uşağa bir qazan isti plov göndərək.

– Elə şey mümkün olmaz!

Ərknaz xanım alt dodağını dişlədi. Namazovun üzünə dik-dik baxdı:

– Necə məsul işçisən ki, beş kilo şeyi təyyarədə göndərə bilmirsən?

– Beş nədi, on beş də göndərə bilərəm. Amma, ay arvad, reaktiv təyyarə yük üçün deyil, ayrı məqsəd üçündür. Şey qəbul eləməzlər!

Ərknaz xanım ərinə hirsləndi:

– Sənin bəd niyyətini bilirəm, indiyəcən bu təyyarəni məndən gizlətməyin də əbəs deyilmiş. Sən övlad istəyən ata deyilsən. Dənizə göndərsələr də, suyunu qurudub gələrsən. Ata olan kəs bir demirsən axı, mənim balamdır, həftələrlə dilinə plov dəymir, ev xörəyi görmür...

Noyabrın axırlarında Namazov Moskvadan bir səliqəli məktub aldı. Oxuyub məəttəl qaldı: "Bu nə işdir?"

Ramizin sinif yoldaşları yazırdılar. Salam və nəzakət sözlərindən sonra yazırdılar ki: "Ramiz çətinliklə instituta qəbul olunmuşdur. Düşünürdük ki, bunu nəzərə alar, dərslərinə fəal çalışar, yoldaşlarından geri qalmaz. Təəssüf ki, belə deyil. Təkcə onun iki ayda buraxdığı dərslər bütün qrupdakı 25 nəfərin hamısının buraxdığı dərslərin cəmisindən çoxdur. Ramiz çox seminarlarda iştirak etmir. Öz çertyojlarında qoyulan suallara cavab verə bilmir. Kömək üçün onu qrupumuzun əlaçısı Fikrət Ağayevə təhkim etdik. Fikrətlə cəmisi bir dəfə məşğələ keçib, "vaxtım yoxdur", – deyə, gəlmir. Görünür, yaxın adamları da onun xeyirxahı deyillər.

Ramizin təhsil vəziyyətini Sizə bildirir, atalıq nüfuz və təsirinizi xahiş edirik. Semestrin axırına az qalmışdır, Ramizin sessiyalardan zəif



çıxması bütün qrupumuzun hörmətini və dərəcəsini aşağı salacaqdır. Əminik ki, bütün bunları nəzərə alacaqsınız.

Baqi hörmət!"

Qrup adından qol çəkən tələbələrdən sonra, dekan da onların fikrinə şərik olduğunu bildirmişdi.

Kişi məktubu Ərknaz xanıma verdi. Ərknaz xanım diqqətlə oxuyandan sonra adətincə, dodağını gəmirib gözünü ərinin üzünə zillədi:

– Sən buna inanırsan?

– İnanmamağa nə əsas var?

Ərknaz xanım səsini ucaltdı və qətiyyətlə dedi:

– Böhtandır, iftiradır, paxıllıqdır!

– Tələbələrə nə düşüb sənin oğluna böhtan deyələr?

– Buradakıların işidir! Uşaq hələ təzəcə dərsə gedib, qoysalar bir yerini rahatlasın, qoysalar bir nəfəs alsın! Nə qaçhaqaçdır, nə olub, bəyəm? Hələ Ramizin qabaqda beş il vaxtı var!

– Beş ilə baxmır, hər semestrdə dərsini yoxlayırlar.

– Yoxlasınlar da. Bəyəm, bir bizimkidir. Elələri var illərlə orada ilişib qalıb. Odur, İbiş altı ildir oradadır, hələ də möhlət alıb, heç onun anası belə kağız almır. Ramizi nə tez gördü gözləri bunların, canım!

Namazov Ərknaz xanımın hirsləndiyini, təbdən çıxdığını görüb susdu, o biri otağa keçdi. Ərknaz xanım isə dəstəyi götürüb oğlunu telefona çağırdı.

Kişi Ərknaz xanımdan xəlvət oğluna bir nəsihət məktubu yazdı, institutdan gələn xəbərlərin hamısını bildirdi və təkid etdi ki, dərslərinə yaxşı fikir versin, vaxtını hədər keçirməsin, oraya oxumağa gedib...

Ərknaz xanım isə şəkərbura, paxla-plov tədarükü görüb yaxın günlərdə Moskvaya getməyə hazırlaşırdı.

## III

Vaxt gözləmir, deyirlər, heç kəsi, heç yerdə və heç nə üçün gözləmir, zaman əvvəli-axırı görünməyən güclü bir sel kimi heç nə ilə hesablaşmadan axıb gedir.

Vaxt gəlib çatdı, semestrə yekun vuran yoxlama imtahanlar cədvəli institutun divarlarından asıldı. Tələbə də, müəllim də işlərini bu cədvələ uyğunlaşdırmağa səy etdi.

Ərknaz xanım aerodromda yumşaq minik təyyarəsindən düşüb oğluna gətirdiyi sovqatları sevinclə taksi maşınına yığanda Ramiz 21-ci auditoriyada yer quruluşu fənnindən yoxlama imtahanı verirdi. O, yazı taxtasının qarşısında, əlində tabaşir donub qalmışdı.

Çeşməkli professor İvanov əlində qələm Ramizin üzünə mənalı-mənalı baxırdı:

– Bəs niyə belə?

– ...

– Bəlkə hazırlaşmamısan?

– Xeyr, professor, bilirəm, soruşun!

Professor İvanov fənnin lap əlifbası sayılan suallardan birini də, ikisini də təkrar etdi. Ramiz gözlərini döyməkdə davam etdi. Professora yəqin oldu ki, bu tələbə nə orta məktəbdən hazır gəlib, nə də institutda dərslərə hazırlaşıb.

– Heç gözləməzdim! Uzaq yerdən gəlmisiniz, siz gərək...

Ərknaz xanım oğlunun imtahana getdiyini eşidəndə ildırım kimi özünü instituta saldı. Ramiz anası ilə dilucu görüşüb qulağına pıçıldadı:

– Odur ey, gedir, o qoca professor məni kəsib, hələ vərəqəni təhvil verməyib, gör nə eləyirsən, ay ana! Başına dönüm, qurbanın olum!

Ramiz bu yalvarış sözlərini professora da demişdi, ancaq bir nəticə görməmişdi: "Başına dönüm, qurbanın olum!.." Yenə ümidini kəsmir, anasının əncam çəkəcəyini zənn edirdi.

Ərknaz xanım professor İvanovu qapı ağzında haqladı:

– Yoldaş professor, bir dəqiqə!

İvanov başı ilə ehtiram işarəsi verdi:

– Buyurun, xanım, buyurun!

Ərknaz xanım bir qədər kənara çəkildi. İvanov da yaxın gəlib dayandı.

– Mən sizi eşitməyə hazıram.

Ərknaz xanım İvanovun əlindəki portfelə baxdı.



– Verin, mən saxlayım, sizə zəhmət olar!

Bu söz professora təəccüb gəlsə də, mülayim cavab verdi:

– Eybi yoxdur, siz sözünüzü deyin, eşidirəm!

– Bəlkə bu otaqların birində yer tapıb əyləşəydiniz, sizə ayaq üstə zəhmət olar.

Professor yaxındakı otağa tərəf gəlməyi Ərknaz xanıma işarə etdi. Ərknaz xanıma yer göstərdi, sonra da özü oturdu. Burada söhbətə mane ola bilən bir kəs yox idi. Dib tərəfdə bir qız oturub nəsə siyahı tutur, hərdən telefonla danışırdı. Ərknaz xanım alçaq səs və xahiş ədası ilə İvanova belə müraciət etdi:

– Əvvəla, mən özümü xoşbəxt hesab eləyirəm ki, sizin kimi böyük bir alim ilə tanış oldum. Əlbəttə ki, bunlar bizlərə çox başıucalıqdır...

İvanov onun bu istiqamətdə danışmağına yol verməmək üçün qolundakı saata baxıb dedi:

– Buyurun, mənə aid sözünüzü buyurun, xahiş edirəm, buyurun!

Ərknaz xanım mətləbə keçdi:

– Yoldaş professor İvanov, Sizin tələbəniz Ramizin atası məsul işçidir. Vaxtı yoxdur. Çox mühüm tapşırıqlar ilə məşğuldur. Gələ bilmədi, xahiş etdi ki, sizə çox-çox salam-dua yetirim...

Professor bu sözlərə də bir cavab tapmaqda çətinlik çəkən kimi susurdu. Saata baxdı, təkrar soruşdu:

– Rica edirəm, buyurun görüm, mənə aid qulluq...

Ərknaz xanım davam etdi:

– Oğlum Ramizin sizin dərsdən yaxşı qiymət almamağını eşidib mən özüm gəlmişəm...

Professor tələbənin qrupunu, sinfini, familiyasını soruşdu, xatırladı:

– Hə! O mənim dərsimdən zəifdir.

– Atası məsul işçidir...

– Məsul, ya qeyri-məsul, xanım, bizə tələbə lazımdır, oxuyan tələbə!

– Orası düzdür, yoldaş professor, indi bu uşağın işinə bir əncam çəkmək lazımdır.

Professor başı ilə təsdiq etdi:

– Əlbəttə ki, əlbəttə ki, lazımdır, bu vəziyyətdə qoymaq olmaz. Əlbəttə ki, əncam çəkmək vacibdir!

Ərknaz xanımın gözləri parıldadı, ürəyi yerinə gəldi: "Düzələcək."

– Çox sağ olun, çox var olun, birtəhər düzəldin!

İvanov bir qədər fikirli kimi başını aşağı saldı. Çeşməyini çıxartdı, təzədən gözünə taxdı:

– Məncə Ramizin işini orada, yaşadığınız şəhərdə daha tez və yaxşı düzəldə bilərsiniz.

Ərknaz xanımın sifəti ciddiləşdi, gözləri böyüdü:

– Necə?

– Necəsi budur ki, onuncu sinfə qaytarmaq, müəllimlərdən xahiş etmək olar ki, ciddi tələbkarlıqla oxutsunlar, proqramı kamil öyrətsinlər. Özünüzün də gözünüz üstündə olar. Kontrol lazımdır hər gün, hər saat...

Elə bil Ərknaz xanımın qabarıq sinəsindən iti bir ox vurdular. Ürəyində professora qarğış tökdü:

"Ay sənin görüm "onuncu sinif" deyən dilin qurusun!"

İçini çəkdi, rəngi dəyişdi, oturduğu yerdən dik qalxdı, hirslə bir az da ucadan dedi:

– Bəs geriyə qayıtmaq, ay professor, tələbənin, belə igid oğlanın qeyrətinə toxunmazmı! İnsaf harda qaldı?

Professor İvanov çiyinlərini çəkdi, bir şey demədi. Qeyrət məsələsindən demək istəyirdi, ancaq demədi. Qarşısındakı qadın olduğu üçün, ana olduğu üçün demədi, o demək istəyirdi ki: "Qeyrəti olan tələbəyə, əlbəttə ki, toxunar. Amma qeyrəti olan tələbə heç bu hala düşməz! Burası da var axı, qızım!"

Bu dəqiqədə İbiş mənzildə süfrə tədarük edir, təzə gəlmiş plov qazanını ocaq üstünə qoyurdu.

*1955*



# QOTAZLI ÇƏKMƏ

Uşaq həkimi Validə xanım bu gün birinci dəfə idi ki, işə gəlirdi. Məzuniyyətini qurtarıb təzəcə qayıtmışdı. Onu qapıda qarşılayan xadimə ilə görüşüb əhvallaşdı. Xələtini geyib kabinetinə daxil olan kimi, yuxarı baxıb soruşdu:

– Hələ bunun sahibi tapılmayıb? Bəs bunun sahibi gəlmədi?

– Xeyr, gələn olmayıb.

– Xəstələrdən soraqlaşmaq lazım idi.

– Neçəsindən soraqlaşmışıq, gəlib baxanlar da olub, ancaq yiyə duran olmayıb.

Validə xanım stol dalına keçib, qələm götürdü, əl boyda bir kağız yazdı:

"Bir ay bundan qabaq 7 nömrəli müalicəxananın uşaq xəstəlikləri kabinetində bir tay qotazlı çəkmə qalıb, kimin uşağınındırsa, nişanını deyib aparsın, bu barədə həkim Validə Rəhimovaya müraciət olunsun."

Validə xanım kağızı xadiməyə verib xahiş etdi:

– Müalicəxananın qapısındakı elan lövhəsinə vur ki, gəlib-gedən

oxusun. Lap aşkar yerdə yapışdır!

Validə xanım bunu dedi, sonra çəkməni götürüb, şkafın içinə qoymaq istədi. Çəkmə tayı təzə, bəzəkli, möhkəm idi. Möhüründən məlum idi ki, Leninqrad fabrikindən çıxmadır. Çəkmənin ipək bağı açıq idi. Məlum idi ki, hansı uşağın isə ayağından çıxıb düşübdür. O da məlum idi ki, indi müharibənin bu vaxtında belə çəkmə hələm-hələm tapılmır. Bu, mağazadan alınan şeyə oxşamır. Bəlkə bu nə vaxtdansa haradansa əziz bir hədiyyə kimi əziz bir uşaq üçün xüsusi gətirilmişdir. Bunları fikirləşə-fikirləşə sanki vacib bir şey Validə xanımın yadına düşdü. Çəkmə əlində tez xadimənin dalınca qaçdı, pilləkənlərdən aşağı düşdü. O zaman yetişdi ki, xadimə elan kağızının künclərinə yapışqan vurub yapışdırmaq istəyirdi:

– Xala, zəhmət də olsa, xahiş eləyirəm buraya vurmayasan, çünki çəkmə sahibi buradan şübhələnsə idi, heç olmazsa, bir dəfə gəlib soruşardı. Gəl bunu trolleybus duran yerdə lövhəyə vuraq! Orada dayanıb gözləyən çox olur, tez oxuyarlar.

Bu söz xadimənin də beyninə batdı. Qayıdıb paltosunu əyninə çəkdi, yapışqan qabını da bir qəzet kağızına büküb apardı.

■ ■ ■

Validə xanımın belə diqqətlə baxıb əhəmiyyət verdiyi çəkməni xadimə bir ay bundan əvvəl döşəməni süpürəndə tapıb gətirmişdi. Bir müddət gözləmə otağında, paltarasanın başında, sonra da lap aşkar yerdə, şkafın başında qaldı. Amma yiyəsi gəlib çıxmadı.

Doğrudur, gəlib çıxmadı, amma çəkmənin sahibi var idi, özü də bərk axtarırdı. Güman gələn yerlərə baş vurmuşdu, tapa bilməmişdi.

Bu çəkmə Məsmə arvadın yetim nəvəsi balaca Nadirin idi.

Məsmənin ailəsi müharibənin ağırlıqlarını çəkən ailələrdən idi. Oğlu Tapdıq müharibənin lap ilk ilində cəbhədə qəhrəmanlar kimi həlak olmuşdu. Tapdığın arvadı Tutu da neçə ay sonra yatalaq xəstəliyindən vəfat etmişdi. İndi bu ailədə keçmişin yadigarı bir qoca nənə, bir də gələcəyin ümidi körpə nəvə qalmışdı.



Əsgər ailəsinin qayğısını çəkən hökumət idarələri Məsmə xalanın gün-güzəranı ilə maraqlanır, məşğul olurdular. Oğluna verilən təqaüddən başqa ona libas, ərzaq cəhətdən əl tutur, bayram və mərasimlərdə, görürdün, hədiyyə də gətirirdilər.

Həmin küçədə təzə açılan uşaq bağçasına əsgər uşaqlarını hökumət hesabına qəbul elədilər. Bağçaya qəbul olunmaq üçün bəzi vəsiqələr təqdim etmək lazım idi: yaş kağızı, ev idarəsi kağızı, əsgərlik kağızı, sağlamlıq kağızı... Bunları sayanda Məsmə xala təəccüb elədi. O heç vaxt güman etməzdi ki, dörd yaşında uşaqdan bu qədər vəsiqə istəyəcəklər. Qadın yoxlamaların dalınca iki gün vaxt sərf elədi. Axırıncı vəsiqəni həkimdən, bizim tanıdığımız həkim Validə xanımdan almalı idi. Bunun üçün uşağın özünü də həkim yanına aparmalı idi və aparmışdı da.

Ondan ikicə gün əvvəl əsgər uşaqlarına kömək eləyən komissiyadan Nadirə bir dəst alt paltarı, bir dənə də çəkmə gətirmişdilər. Alt paltarı, əlbəttə, yerli arteldə hazırlanmışdı, qotazlı çəkmə isə nəinki evdə, hətta bütün bu həyətdə dillərdə söhbət olmuşdu. Kimi deyirdi ki, bu çəkmə lap müharibədən əvvəlki maldır, hansı anbarda isə ilişib indiyə kimi qalıb. Kimi deyirdi, yox, Leninqrad fəhlələri doğma şəhərlərinin qəhrəmanlıqla mühasirədən qurtarmasını bayram eləyirlər. Pal-paltar, ayaqqabı fabriklərini işə salan kimi, əsgər uşaqlarını sevindirmək istəyiblər, ilk sifarişləri onlar üçün hazırlayıblar.

Leninqrad şəhərinin qəhrəmanlıqla mühasirədən çıxması da, fabriklərin işə düşməsi də, uşaqlar üçün sifariş qəbul edilməsi də doğru-düzgün söz idi. Ancaq bu məsələlərin qotazlı çəkməyə dəxli yox idi. Qotazlı çəkmə Nadir üçün tamam başqa yerdən gəlmişdi.

Həmin çəkməni Tapdığın Uzaq Şərqdən gələn bir komandir yoldaşı gətirmişdi. "Oğlumun Nadirə hədiyyəsidir", - demişdi.

Hər halda qotazlı çəkmə nənə üçün də, nəvə üçün də çox qiymətli bir hədiyyə idi. Alan kimi Məsmə nənə uşağa bir cüt corab hazırladı. Çəkməni də üstündən geyindirdi. Çəkmənin bağı qəhvəyi rəngdə, ipəkdən idi. Uclarında balaca qotazları vardı. Üzü qırmızı olsa da, içi ağ, nazik yumşaq dəridən idi. Dərinin üstündə səliqəli yazılar da var idi.

Doğrudur, nənə çəkməni alan kimi uşağın ayağına geydirdi, an-

caq tapşırdı ki, ev içində gəzsin, batırmasın, korlamasın, bayrama saxlasın. Nadir isə ömründə görmədiyi, gözləmədiyi bu qəşəng çəkməni geyinmək yox, oynatmaq istəyirdi. İxtiyar onda olsaydı, stul üstündə çoxdan dayanan saxsı futbolçunun ayağından dəmirli çəkmələri çıxarar, bunu geyindirərdi. Heç olmasa, bu çəkməni də stol üstünə qoyardı ki, qapıdan girənlər baxsınlar, tamaşa eləsinlər.

Məsmə nənə müalicəxanadan sağlamlıq kağızı almağa gələndə Nadiri də özü ilə aparmışdı. Həkim qapısında, növbə gözləyəndə Nadir dalanda uşaqlarla oynayırdı.

Həkim yoxlayıb kağız verəndən sonra Məsmə xala sevincək uşağı qucağına alıb yola düzəldi, çəkmənin bir tayı isə düşüb qapı ağzında qaldı.

Onun səhərisi Məsmə xala çəkməni çox axtardı. Qapıda, həyətdə, uşaq bağçasında axtardı, amma müalicəxanaya gümanı getmədi. Axırda belə düşündü ki: "Yolda, hankı küçədə isə uşağın ayağından düşüb, mən huşsuz da xəbər tutmamışam."

Qotazlı çəkmənin itməsi Məsmə xalanın da, Nadirin də ürəyində bir dərd oldu. Bunu görən bağça müdiri də bir elan yazıb Məsmə xalaya verdi ki, apar trolleybus yanında divara vur. Demək olmaz, bəlkə elə onu tapan özü də səni axtarır. Elanı oxuyanlar əsgər uşağının çəkməsi üçün özləri soraqlaşacaqlar, harda olsa xəbər verəcəklər.

Məsmə xalanın elanı çoxdan divara vurulmuş, gün döydüyündən bir qədər saralmışdı da.

Bu gün Validə şkafı açıb, nə isə yoxlamaq istəyəndə təkrar gözü qotazlı çəkməyə sataşdı. Xadimə ilə göndərdiyi elan yadına düşdü. "Görünür, tapılmadı", – deyə məyusluqla mızıldandı. Ancaq divara vurulan elanın aqibətini yoxlamağı qət etdi. – "Bəlkə əli dinc durmazın biri həmin günü elanı cırıb atıb? Bəlkə üstünə afişa vurublar, bəlkə külək qoparıb..." Bu zənn ilə gəlib lövhəyə baxanda öz xətti ilə yazılan elanı, onun soluxmuş yazılarını divarda gördü. Deyəsən, ona dedilər ki, divardakı ayrı kağızlara da bir bax.

Çap xətti ilə dördkünc bir yazı vardı: Fabrikə fəhlə çağırırdılar. Bir başqa kağızda ev dəyişməkdən danışılırdı. O birisində isə ingilis dilin-





Elçilər qayıtdı səh.67

də dərs deyən bir müəllimə özünə tələbə axtarırdı. Küncdə, bir az da əyri yapışdırılmış, xətti soluxmuş elan Validə xanımın diqqətini çəkdi. "Bu da mənim elanım kimi, deyəsən, nəticəsiz olub. – Orada "Çəkmə", "əsgər uşağı" sözünü oxuyanda Validə xanım lap yaxına gəldi. Elanı əvvəldən axıracan, özü də iki dəfə oxudu.

Validə xanım axtardığını tapmışdı. Qotazlı çəkmənin sahibi Nadirin ünvanı belə idi: Yuxarı Piryut küçəsi, ev 22, otaq 17.

Validə xanım aylardan bəri çətinlik çəkdiyi mühüm bir məsələni həll etmiş kimi, sevincək, cəld idarəyə qayıtdı. Qotazlı çəkməni götürüb bir qəzetə bükdü, maşın çağırmaq istədi. Yadına düşdü ki, uşaq yanına belə əliboş getmək yaxşı olmaz. Mağazaya gedib bir bağlama şirni aldı, maşına oturub Yuxarı Piryut küçəsinə sürdürdü.

22 nömrəli binanın uzun və sərin bir dalanı var idi, Validə xanım dalanı ötəndə əlində çörək kitabçasını yoxlaya-yoxlaya gedən bir qız uşağı gördü. 17 nömrəli otağı soruşdu. Qız uşağı lap qabaqda, birinci mərtəbədə göy qapını və pərdəli pəncərəni göstərdi:

– 17 nömrə oradadır.

Pəncərə ağzında arıq bir uşaq taxta oyuncaqlarla məşğul idi. Validə xanım ürəyində dedi: "Çəkmənin sahibidir!" Bu söz xəyalından keçməmişdi ki, pəncərənin sol tərəfində qotazlı çəkmənin tayı onun gözünə sataşdı.

Məsmə xala Validə xanımı əvvəlcə soyuq qarşıladı. Tanımadığı bir adamın bu axşam çağında, həm də maşınla gəlməyi səbəbsiz olmaz.

– Buyurun içəri!

Validə söhbət açmaqdansa birbaş mətləbə keçməyi lazım bildi. Qoltuğundan çıxartdığı qəzeti açıb çəkmənin tayını göstərdi.

– Bəlkə bunun tayı sizdə ola?

Məsmə xala sevincindən bərk qışqırdı:

– Bizdədir! Ay qadan alım, səni görüm sevincək olasan! Bunu haradan tapmısan belə?!

Məsmə xala qotazlı çəkmə tayını gətirib ortalığa qoydu. Nadir dərhal çəkməni cütləşdirdi. Validə xanım gətirdiyi şirnini uşağa verirdi. Uşaq almaq istəmirdi. Validə nənədən xahiş etdi:

– İzin verin, alsın, çəkmənin şirnisidir!

Nadir çəkməni ayağına çəkib, birbaş həyətə qaçdı. İndi onun sevincinin həddi-hesabı yox idi. Addımbaşı çəkməsinə baxırdı. Ona elə gəlirdi ki, indi hamı – böyük də, uşaq da onun ayağına baxıb deyir:

– Nadirin nə qəribə çəkməsi var.

*1955*



# ELÇİLƏR QAYITDI

*Qız ağacı, qoz ağacı, hər yetən bir daş atar*
Atalar sözü

## I

Bu məsəl Şərəbanı xalanın dilindən düşməzdi, çünki halına yaxın, münasib idi. Güman etməyin ki, Şərəbanı xala öz cavanlığını, nişanlanmaq, ya ərə getmək günlərini xatırladırdı. Yox! Söhbət onun yeganə nəvəsi, məktəbli qız Nəcibədən gedir.

Bəli, indi bu saat Nəcibənin elə vaxtıdır ki, yer yerişinə, dağ duruşuna həsrət, minnət çəkir.

Səhər saat səkkizdə məktəb paltarı əynində, ağ lent hörüklərində, qəhvəyi portfel əlində, "salam!" – deyib sinif qapısından girəndə, kim bilir, neçə-neçələri onun tamaşasına durur. Qız da, oğlan da onun yaraşığına küsənir. Bəziləri onun səliqəli geyinməyi bacardığı üçün qəşəng göründüyünü, bəziləri də əslində Nəcibənin gözəl olduğunu iddia edirdilər. Gözəl qız al da geysə yaraşır, şal da geysə yaraşır!

Nəcibə isə həmişə sadə geyinməyə, adi görünməyə, diqqətlərdən uzaq olmağa çalışırdı.

Nəcibənin nənəsi Şərəbanı xala müəllim institutunda xadimə idi. Övlad adından onun bir oğlu, bir də qız nəvəsi var idi. Oğlu iyirmi-iyirmi beş il idi ki, kənddə evlənmiş, külfət sahibi olmuşdu, qoyunçuluq fermasında çalışırdı. Anası ilə ildə bir dəfə görüşür, ya görüşmürdü. Qız nəvəsi isə Şərəbanı xalanın yanında idi, çünki onun anası ölənəcən Şərəbanı xaladan ayrılmadı. Bir yaşadılar, bir oldular. Əri onu atıb gedəndən sonra qızı sarılıq azarı tutdu. Altı ay xəstəxanada yatdı, rəhmətə getdi, doqquz yaşlı Nəcibə isə Şərəbanı xalanın himayəsində böyüdü.

"Bir yandan bağlayan fələk, o biri yandan açar!" – deyiblər. Həyətdə-bacada "yetim" çağırılan, anasından qalma köhnələri geyən, kasıblıq, ehtiyac ilə böyüyəndən sonra məktəb pansionunda yeyib-içən Nəcibənin işi lap əntiqə oldu. Bu qız, deyəsən, adi qayda ilə, başqaları kimi böyümürdü. Deyəsən, ona hayandansa hansı bir qüvvə isə başqa uşaqların acığına xüsusi pərvəriş verirdi. Qız gündən-günə tənək zoğu kimi boy atır, pardaqlanır, qızılgül kimi gülüb açılırdı. Camaat bir də gözünü açıb gördü ki, Şərəbanı xalanın "yetim nəvəsi" şəhərin handabir barmaq ilə göstərilən görkəmli qızlarından olub. Məktəbə gedəndə, məktəbdən gələndə, nümayişdə, konsertdə görünəndə, görürsən, tamaşa kimi bir şey əmələ gəlirdi. Adamlar ona ha baxır, bir-birindən ha soruşurdular:

– Nə qiyamətdi, ə!

– Bu ceyran balası hardan azıb?

– Adı nədir?

– Görəsən, hansı bəxtəvərə meyil salacaq!

Nəcibə bizim məhəllədə gözə dəyən qızlardan biridir. Hələ ərə getməyib. Bilinmir niyə getməyib, ya niyə getmir. Amma adam yoxdur onun sözünü danışmasın. Biri deyir, istəyən yoxdur, ona görə getmir, yəni bilmir hansına getsin. Gün olmaz ki, qızın özünə, ya nənəsinə deyən olmasın ki: "Daha vaxtdır, bir halal süd əmmiş ilə tapışın a, Allah xeyir versin, sövdalaşın a!"

Nə Şərəbanı xala, nə də Nəcibə istər ki, başqaları onların işinə qarışsın. Amma di gəl ki, yetən-ötən qarışır. Deyəsən, adamlarda da günah yoxdur, çünki dünyada elə mətləblər var ki, özü-özünü qabağa verir, hamını danışmağa məcbur eləyir.





Nəcibənin də məsələsi elə məsələ olub. Oxumuş, yetişmiş, ağıllı-başlı bir zəmanə qızıdır. Qonşuda, məktəbdə, işdə də oğlanlar var. Lap münasib oğlanlar da var. Amma görürsən, Nəcibə ərə getmir. İndi onun iyirmi üç yaşı var, amma ərə getmir. Deyim, istəyən yoxdur, xeyr! Ay olmaz ki, Şərəbanı xalanın qoşa qapısını taqqıldadan olmasın. Ha güman eləyirsən ki, bəli, daha bu dəfə, deyəsən, xeyir iş baş tutur, toy yaxınlaşır. Görürsən, külək əsdi, hava soyudu, nə o yandan, nə bu yandan səs-səda çıxdı.

Xülasə, bizim məhəllədə ən çox söz-söhbəti olan Nəcibədir, Şərəbanı xaladır.

Nəcibə də bir ayrı cür Nəcibədir. Alagöz, ağbəniz, qırmızıyanaq, qara şəvə saç, ucaboy, şəkilli-şəmayilli, ceyran kimi bir qızdır. Bir görən deyir, bir də görüm. Onunla kəlmə verib kəlmə almaq özü bir səadətdir.

Neçə dəfə böyük fotoqraflar gəlib ki, qızın şəklini kinoya çəksinlər. Şərəbanı xala hamısını söyüb qovlayıb: "Mənim qızım tamaşaqabaqdı, bəyəm, teatrlarda aləmə görsədəsiniz? Bir də buralara dolanmayın, bizə pul-zad lazım deyil, özünüzə qalsın!"

Nəcibə onilliyi qurtarandan sonra ali məktəb sevdasına düşdü. Tibb institutuna ərizə verdi, imtahana getdi. Ancaq tələb olunan dərs qiyməti yığa bilmədiyi üçün daxil ola bilmədi.

Şərəbanı xala hərçənd aşkar demirdi, ancaq, əslində, qızın instituta düşməyinə heç razı deyildi. Ona görə razı deyildi ki, Nəcibə daha uşaq deyil ki, məktəb paltarı ilə kifayətlənə idi. Ali məktəbdə onu əməlli-başlı geyindirmək, yar-yoldaş içində başıaşağı olmasına yol verməmək üçün vəsait lazım idi. Bir dənə abırlı palto filan qədər pul tutur. Xadiməlik maaşı, ya tələbə təqaüdü ilə öhdəsindən gəlmək çətin olur. İkinci tərəfdən də Şərabanı xala bilirdi ki, qız məktəbi qurtaran kimi, rayonlara, lap uzaq yerlərə göndərəcəklər. Orada da birisilə tapışacaq... Şərəbanı xala oğlundan ayrı düşdüyü kimi, Nəcibədən də əli çıxacaq, qoca, qarı vaxtında tək-tənha qalacaqdır.

Qonşuluqda Şərif adlı bir xalçaçı usta var idi. Savadlı qızlardan xalça fabrikinə adam yığırdı. Şərəbanı xala Nəcibənin adını çəkəndə Şərif razılıq verdi:

– Göndər gəlsin, saat on ikidə idarədə olacağam!

Nəcibənin xalça toxuyan olmağını Şərəbanı xala yalnız maaşına görə istəmirdi. O bilirdi ki, bu sənət təmiz sənətdir. Böyüklər, oxumuşlar yanında hörmətli sənətdir. Bir də ki qız uşağının əldən qabil olmağı lazımdır. Sabah nişanlısının köynəyinə bir naxış vurmağı dünyalara dəyər!

Nəcibə beş ayın içində xalça fabrikində sənət öyrəndi, ayda altı-yeddi yüz manat da evə pul gətirməyə başladı. Nənə-bala mehriban və sakit yaşamaqda idilər. Elçilər də öz qaydası ilə gedib-gəlməkdə idilər. Xalça fabrikinin böyük və yeni binasının elektrikləşməsinə rəhbərlik edən Nazim adlı bir cavan oğlan Nəcibəni tanıyandan sonra dalınca elçi salmışdı. Qız yoldaşları oğlanı Nəcibəyə təriflədikləri kimi, qızı da oğlana tərifləyirdilər. Yəni Nəcibənin tərifə ehtiyacı yox idi. Bunu Nazim özü yaxşı bilirdi. Hansı idarədənsə fabrikə ceyran şəkilli bir divar xalçası toxumaq sifarişi verilmişdi. Bu xalçanı Nəcibə toxuyurdu. Özü də çox diqqətlə toxuyurdu. Nazim bu işin tamaşasına dayanıb xeyli baxdı:

– Çox zəhmətli işdir, – dedi.

Nəcibə şəklə işarə edib cavab verdi:

– Çalışıram gözəl çıxsın!

– Gözəl çıxmağını istəyirsənsə, ceyranı at kənara, öz şəklini toxu, qurtarsın getsin!

Nazimin bu sözünə Nəcibə pul kimi qızardı, utandığından cavab vermədi, başını da yuxarı qaldırmadı.

Bu hadisədən üç gün sonra Nazimin elçiləri qoşa qapının dəmir rəzəsini tərpətdilər.

## II

Şərəbanı xalanın evi şəhərin yuxarı tərəfində Mirzə Fətəli küçəsində idi. Bu, bir köhnə həyət idi. Darvazası çoxdan laxlamış, əyilmişdi. Həyətə gedən dalan yarımçıq qalmışdı. Küçədən ötənlər həyətin içini görürdülər. Ancaq sonralar qapı təmir olundu. Həyətin ortasına sement



töküldü, balaca bir bağça salındı. Burada gül-çiçək əkilir, ağac basdırılırdı. Yaşıllıqdan, gözəllikdən başqa bu bağça həyət uşaqlarına bir məşğuliyyət idi. Hərə orada yeni bir ağac basdırmaq, bəsləmək istəyirdi. Həmin həyətə, Şərəbanı xalanın nəvəsinə çox elçilər gəlmişdi. Şərəbanı xala onların heç birini ümid ilə yola salmamışdı: çünki qızı vermək fikrində deyildi. Əlbət ki, açıq-açığına, "vermirəm", – demirdi. Qızın uşaq olmağını deyir, dərsini qurtarmamış ərə getmək istəmədiyini, ya başqasına "dil verdiyini" bəhanə gətirirdi.

Ancaq bugünkü elçilərin işi ayrı cür idi, qarşılanmağı da ayrı cür idi. Qızın işarəsindən sonra Şərəbanı xala idarədən izn alıb, bütün günü evdə qaldı, başını daradı, paltarını dəyişdi, aralığı yığışdırdı, otaqları sahmana saldı, hazırlıq gördü. Qonşulara da xəbər verdi ki: "Adam gələcək!"

Həyətdə səkiləri süpürən, xalça çırpan, toz tökən, samovar sürtən, cuna pərdələrə bağ salan, güldanları sulayan və kağızlayan, qapı zəngini düzəldən, divan üstünə döşəkçə salan, süfrə açan kim... Həyətin qızgəlini hamısı Nəcibənin elçilərini qarşılamağa hazırlaşırdı.

Nazim də Nəcibə kimi atasız-anasız böyümüş bir oğlan idi. Ancaq dayısı Mirzərəhman kitab mağazasında çalışırdı. Görüb-götürmüş, təcrübəli kişi idi. Bacısı oğlunun xeyir işində çirmənib qabağa düşmüşdü. İki nəfər öz yoldaşlarından çağırmışdı. Nazimin xatirini istəyən İlyas müəllim də Mirzərəhmanın xahişini qəbul etmişdi. Bəli, aprelin axırlarında, mülayim yaz günlərindən birində, gün-günorta yerindən ağzı aşağı enəndə elçilər qoşa qapının rəzəsini tərpətdilər. İçəridən bir qadın səsi gəldi:

– Buyurun, buyurun!

Mirzərəhman: "Bismillah", – deyib həyətə girdi, onun dalınca da yoldaşları daxil oldular. Mirzərəhman hələ evdən çıxmamış elçilik qaydalarından söhbət salıb məsləhətləşmişdi. O istəyirdi ki, məclisdə söhbəti İlyas müəllim açsın. İlyas müəllim boynuna almadı.

– Bu şəhər qayda-qanununu mən yaxşı bilmirəm. Bir də ki, oğlanın atası yerində Mirzərəhmanın danışmağı münasib olar. Elə söhbəti siz başlayın, biz də köməkləşərik, – dedi.

Mirzərəhman elçilik işinin şərəfini də, məsuliyyətini də bilirdi. Zarafat deyil, iki canın birləşməyi, ailə qurmağı, məhəbbətin qələbəsi kimi bir işə bais olmaq bizim zəmanəmizdə hər bir insan üçün xeyir işdir. Burada gərək söz biləsən, fənd biləsən, mərifət, ədəb-ərkan ilə danışmaq biləsən. Gərək elə olsun ki, müqabil tərəfdə oğlana rəğbət, hörmət oyansın...

İlyas müəllim kimi kamil bir adamın bu işi öhdəsinə götürməməyi Mirzərəhmanın əndişəsini daha da artırdı. İndi o, ürəyində fikirləşir, plan tökür, söz öyrənirdi ki, məclisdə qabiliyyətli çıxsın.

Mirzərəhman yol boyu yavaş addımlarla yeriyərək fikirləşirdi ki, mətləbi necə başlasın: "Söz yox, çatan kimi ev sahibi salam-kalam ilə bizim qabağımıza çıxacaq. Əyləşən kimi, qənd-çay da gələcək. Qızın adamlarından da gəlib stol başında əyləşəcəklər. Bəs sonra? Elə məsələ də buradan başlanacaq, sonra nə deyəsən, necə deyəsən?"

– Necə məsləhət bilirsiniz, istəyirəm elə mətləbdən başlayam. Bu ağır vəzifəni ki, öhdəmə qoyursunuz, istəyirəm çayı içməmiş xahiş eləyəm, qızın hərisini almamış stəkana əl vurmayacağıq. Ev sahibindən iki cavanın birləşib məqsədinə çatmağını xahiş eləməyə gəlmişik. Necə deyərlər, bu qapıya təmənnaya gəlmişik, hamılıqca!..

İlyas müəllim bunu məsləhət bilmədi:

– Yox, – dedi, – Mirzərəhman, münasib düşməz, hər halda bir müqəddimə lazımdır. Kiçik də olsa, lazımdır. O yandan-bu yandan, havaların xoş keçməsindən-zaddan...

Mirzərəhmanın qonşusu Əsəd də müəllimin sözünə qüvvət verdi:

– İlyas müəllim düz deyir. Əvvəl başdan gərək bir söhbət salaq. Güman ki, oğlan barədə, Nazim barədə. Hərçənd tanıyırlar, qız onu tanımamış deyil, amma yenə beş-üç kəlmə söz açmaq pis olmaz. Kimdir, kimin oğludur, nə sənətin sahibidir, səriştəsi nəyədir, filan...

Mirzərəhman şərik oldu:

– Əsəd, onu mən unutmamışam. Nazimə, əlbət ki, necə lazımdır, xasiyyətnamə verəcəyəm. Düşünmüşəm. Amma istəyirəm söhbət açılandan sonra eləyəm, çünki damdandüşdü olmasın.



– Damdandüşdü olmaz. Bilirlər ki, qız almağa gəlmişik və qızı da Nazim Əliyevə istəyirik. Bunu bilirlər, oğlan barədə də çox maraqlanacaqlar.

İlyas müəllim də Əsədin sözünə tərəfdar idi:

– Sual verəcəklər. Mümkündür ki, oğlanın lap tərcümeyi-halını da soruşacaqlar.

– Soruşmağa da ixtiyarları var, çünki xalq qız böyüdüb, özü də tərifli bir qız! Xalq bilmək istəyəcək ki, görək qızı kimə veririk, necə veririk.

Mirzərəhman sözün uzandığını görüb yekunlaşdırdı:

– Qardaş, belə yerdə ehtiyat lazım deyil. Necə sorğu-suala tutsalar, cavabımız var. Şükür ki, oğlumuz qızlarından əskik adam deyil. Mərifəti, əsil-nəsəbi, zəmanəyə görə... Nə soruşsalar, cavabını verərik, müzayiqə yoxdur!

Mirzərəhman, doğrudan da, qız evində rastlaşacağı sorğu-suala cavab hazırlamışdı. O yəqin bilirdi ki, əvvəlcə oğlanın ailəsini, əsil-nəsəbini soruşacaqlar. Qızın nənəsi köhnəpərəst adamdır. Yəqin, deyəcək ki, görüm atası kim imiş, anası hardan imiş. Zatı, südü... Sonra ev-eşiyi, var-dövlət babətindən halını soruşacaq, qohum-əqrəbasından, yerindən, yurdundan xəbər tutmaq istəyəcək. Bunların hamısına cavab vermək gərək...

## III

Bəli, elçilər həyət qapısında ehtiram ilə qarşılandılar. "Buyur-buyur!" ilə otaqlara üz qoydular. Şərəbanı xala özü bir-bir stul çəkib, onları əyləşdirdi, xoşgəldin elədi. Qız evinin də yaxın adamlarından bir neçəsi gəlib əyləşdi. Bir dəqiqə çəkməmiş mis məcməyidə təraş stəkanlarda buğlanan rəngli çay verildi, doğranmış kəllə qənd qoyuldu, mürəbbə qabları ortalığa gəldi. Söhbət açıldı. Özü də elə açıldı ki, kimin ilk danışdığını seçmək heç mümkün olmadı. Mirzərəhman bir zaman onu gördü ki, Şərəbanı xala üzünü ona tərəf tutub deyir:

– Allah sizinkiləri də saxlasın, indi bu zəmanədə cavanlar tez bö-

yüyür, tez yetişir, tez də boya-başa çatırlar. Məsələn, mənim özümdən soruşsalar, deyərəm, o bir dənə indi həm oğuldur, həm ərdir, həm qızdır. Məndən soruşsalar, deyərəm, onu dünən beşikdən qaldırmışam. Lap elə bil dünən idi. Handa ki, uşaq, maşallah, kim demiş, sizinkilərdən artıq olmasın, görürsən...

Mirzərəhman qız tərəfin belə fəal tərpəşməsini, qarının lap qabağa düşüb, mətləbdən danışmasını öz acizliyinə dəlalət gətirdi, stulunu bir az qabağa çəkib, yerindən qalxdı, təzədən oturdu, oturanlara göz gəzdirib, sinəsini arıtdı, sözə başladı:

– Şərəbanı xala çox yaxşı deyir ki, indiki cavanlar tez boya-başa çatırlar. Bəli, zəmanənin buna təsiri olmamış deyil. Sovet hökuməti uşaqları atadan-anadan da artıq əzizləyib oxudur, öyrədir, böyüdüb adam eləyir. Görürsən, dünənki çolpa bu gün bir idarədə oturub iş aparır. Məsələn, bizim Nazim, vaxtında yetim bir uşaq idi, məktəb ona ata oldu. İki il deyil ali məktəbi qurtarıb...

Şərəbanı xala qonağın sözünü kəsdi:

– Siz buyurduğunuz oğlan, yəni, Nazim ali dərsin qurtarıb?

– Bəli, iki ildir, ali dərsi qurtarıb.

– Zaştası, necə, varmı?

– Var, səriştəsi var, çoxdan işləyir.

– Yox, onu demirəm.

Mirzərəhman duruxdu:

– Nəyi soruşdunuz, mültəfit olmadım?

Şərəbanı xala da stulunu irəli çəkib, əlini ağzına apardı, ehmalca bir öskürdü və sonra soruşdu:

– Onu soruşdum ki, a qadan alım, oğlanın zaştası necə, varmı?

Mirzərəhmandan səs çıxmadı, yoldaşlarının üzünə baxdı. Şərəbanı xala izah etdi:

– O ki deyirsiniz oxumuşdur, dərsini də qurtarıb, çox əcəb, zaştası necə, varmı? Qurtarıbmı?

Mirzərəhman İlyas müəllimə, İlyas müəllim Əsədə baxdı. Şərəbanı xala suallı nəzəri ilə elçiləri süzdü. Bir an məclisdə intizarlı sükut oldu. İlyas müəllim üzünü Mirzərəhmana tutub dedi:



– Şərəbanı xala soruşur ki, Nazim dissertasiya yazıb, zaşişat eləyibmi? Yəni...

– Bəli, mən onu soruşuram ki, zaşitası varmı oğlanın? Nazimin?

Mirzərəhman belə bir sual gözləmirdi və gözləməzdi də.

– Yoxdur, xeyr yoxdur! – dedi.

Şərəbanı xala təəccüb elədi:

– Bəs elə oxumuş, ali dərs qurtarmış oğlan nə əcəb zaştasızdır?

Mirzərəhman üzr gətirdi:

– Yəni qabil oğlandı, dalınca düşsə, əlbət ki, heç vaxt dissertasiya yazanlardan əskik deyil. Ancaq başı işə qarışıb, tikintidə çox əmək qoyur, vaxtı yoxdur. Elektrik aparatları düzəldir, yoxlayır, elmində, sənətində yaxşı qabildir. Ancaq dissertasiyası hələ ki, yoxdur!

Şərəbanı xala bu cavabdan məmnun qalmadı, dübarə soruşdu:

– Həftəreferatı necə, varmı?

– Xeyr, yoxdur.

– Oğlanın ki siz deyirsiniz, dərsi var, nə əcəb bəs dərsini başa vurmur?

– Başa vurmağına vurub. Diplomu cibindədir. Amma dissertasiya yazmır. Mühəndislik eləyir. Özü də tikintidə elektrik işlərinə baxır. Təzə şəhərdə – Sumqayıtda onu yaxşı tanıyırlar. Yaxşı da hörməti var.

Şərəbanı xala qonaqları məyus eləməmək üçün başı ilə razılıq işarəsi verirdi:

– Olsun, təki olsun. Ev tikən də lazımdır, elektrik işi də vacibdir. Hamısı bunlar xeyir işdir, olsun, niyə də olmasın! Amma bizim institutda dərs qurtaran zaşta dalınca gedir, zaşta eləyən çox olur. Mən görürəm, çox da sevinirəm ki, bizim cavanların çoxu indi olub zaşta sahibi...

Şərəbanı xalanın bu qədər dissertasiya sevdasına düşməyi təəccüblü görünməsin. O, müəllim institutundakı klubun hər səliqəsinə, təmizliyinə, qapı-pəncərəsinə, şüşələrinə, kürsülərinə, stol üstünün örtüyünə, qrafininə, su stəkanınacan hamısına nəzarət edir. Şərəabanı xala həm səliqəli, həm də vəzifəsinə diqqətli olduğu üçün vaxt-bivaxt bu klubdan uzağa getmir. Klubda isə maraqlı, tamaşalı işlər çox olur. Kino tamaşasından, iclasdan, mühazirədən, konsertdən başqa burada

çoxlu "zaşta" olur. Bu "tamaşa" Şərəbanı xalanın çox xoşuna gəlir. Görürsən, bir neçə nəfər keçib oturdu kürsünün dalında. Qoltuğunda qalın kitab olan bir oğlan da çıxdı danışmağa. Oğlan oturandan sonra qoca müəllimlər həmin qalın kitabı varaqlayır, çıxır, başlayır həmin oğlanı tərifləməyə. Biri tərifləyir, beşi tərifləyir... İclasın axırında da hamı oğlanın əlini sıxır, onu təbrik edir. Qızlar da dəstə-dəstə gül gətirib verirlər. Sonra da oğlan adamları yığıb aparır qonaqlığa. Hələ o qəribədir ki, kassirin deməyinə görə, iclasın səhərisi günü danışan oğlanın məvacibi ikiqat artır.

Nə isə, bu çox ürəkaçan tamaşa idi.

Şərəbanı xala bu şadlıq mərasimini çox görmüşdü, ürəyində çox da arzulamışdı. Əlbət ki, özü üçün, yaşı keçmiş oğlu üçün yox, başqa yaxın adamlar üçün arzulamışdı.

Bəlkə, Nəcibə üçün arzulamışdı? Yox! Şərəbanı xala Nəcibə kimi utancaq bir qızın bu işə qoşulmağına inanmırdı. Bilirdi ki, onun gücü çatmaz. Amma onun nişanlısı? Onu alan oğlan dissertasiya sahibi olsa, çox yaxşı olardı! Keçmişdə evlənən oğlandan mülk, mal, başlıq istərdilər. İndi heç olmasa, bir dissertasiya istəməyə qızın, əlbət ki, haqqı var! Əqli başında olan qız bunu istəməmiş olmaz, çünki dissertasiya indi çətin bir iş deyil. Görürsən, dalınca düşən düzəldir.

Şərəbanı xalanın sözü bu yerdən başlaması Mirzərəhmanın planlarını alt-üst etmişdi. Onun hazırladığı xasiyyətnamə, demək olar ki, işə keçmədi, çünki oğlanın nə ata-anası, nə zatı-südü ilə, nə qohum-qardaşı ilə maraqlanan var, qız evini, yəni Şərəbanı arvadı bircə şey maraqlandırır: "dissertasiya", o da ki Nazimdə yox! Bəs bu iş nə sayaq olacaq? Hərifə nə cavab vermək, nə tədbir tökmək?.. Mirzərəhman neylim, necə eləyim hayında idi ki, İlyas müəllimin səsi eşidildi. O, üzünü qızın nənəsinə tutub dedi:

– Şərəbanı xala, düzdür, siz dissertasiya barəsində deyirsiniz, Mirzərəhman da utancaqlığa salıb dinmir. Amma Nazimi elə aciz bilməyin. Onun da başqa cavanlar kimi, dissertasiyası var!

Mirzərəhman İlyas müəllimi başa düşmədi, sözün ardını gözlədi. Şərəbanı xala isə bu sözdən sevinmiş kimi cəld sual verdi:



– Varıdırmı?

– Bəli, onun da varıdır. Onun dissertasiyası heç başqalarınkından əskik deyil!

– Zaştası da var?

– Yox, müdafiəsi bu yaxınlarda olacaqdır. Mənim özüm də, hərçənd elektrikdən başım çıxmaz, amma iştirak edəcəyəm!

– Olacaqmı?

– Bəli, lap bu yaxınlarda olacaq.

– Təki olsun, təki olsun, çünki zaşta hər barədən yaxşı işdir!..

## IV

Şərəbanı xala elçilərə qəti cavab verməsə də, rədd cavabı da vermədi:

– Sağlıq olsun, Nazim zaştasını qurtarar, nə deyirəm. Bir qız bir oğlanındır. O məqamda biz tərəfdən bir maneçilik olmaz. Qızın özünün də ağzını araşdırarıq, nə eybi var, sağlıq olsun, bir qız bir oğlanındır...

Elçilər durmağa məcbur oldular. Məsələ açıq qalsa da, durdular.

Qapıdan çıxanda Mirzərəhman İlyas müəllimi danladı:

– Ay rəhmətlik oğlu, işin içində olan mən, sən hardan götürüb deyirsən, oğlanın dissertasiyası var? Nazim heç yatsa, yuxusuna da dissertasiya gəlməz. Aldatmaq, yalan nə üçün?

İlyas müəllim onu sakit elədi:

– Mirzərəhman, heç narahat olma! Bir həftəyəcən Nazim müdafiə eləsin, sən də tamaşa elə!

– Axı nəyi müdafiə eləyəcək?

– Görərsən nəyi! Sən bu işi mənə həvalə elə!

– A kişi, sən Şərəbanı xala kimi əjdahanı aldadacaqsan?

– Aldatmaq-zad yox! Lap onun gözünün qabağında Nazim müdafiə eləsin, qoy o da tamaşa eləsin!

– Mən başa düşmürəm...

– Başa düşməli bir şey yoxdur. Sən bir günlüyə, bir axşam institu-

tunun klubunu bizim üçün, Mühəndis cəmiyyətinin iclası üçün al!

– O asan şeydir!

– Qalan hər şey mənim boynuma!

İlyas müəllim dediyinin üstündə duran adam idi. Elçilikdən belə qayıtmağın Nazimi məyus edəcəyini, ləngiməyin işi korlaya biləcəyini düşünüb həmin gecə Nazimi yanına çağırdı.

– Oğlum, – dedi, – doğrudur, sənin dissertasiyan yoxdur, amma nə biliyin, nə işin ondan əskikdir. Şərəbanı xala da avam qadındır. "Zaşta", – deyib durur. Onu da yaxşı bilirsən ki, nə üçün deyir. İxtiraçılar bürosuna verdiyin o layihələrin ikisini də mən oxumuşam. Hər biri bir dissertasiyadan artıqdır. Büronun qərarı var ki, onlar şuranın yaxın iclasında müzakirəyə qoyulsun. Sən hazırlaş, çertyojları da sahmana sal, gətir!

Nazim iki il idi, trestdə elektrik mühəndisi idi. Əmək prosesini mexanikləşdirmək yolunda gördüyü tədbirlərə görə iki dəfə mükafat almışdı. İndi isə kərpickəsən maşının məhsuldarlıq sürətini artırmaq, suvaq işini elektrik aparatı ilə keçirmək üçün yeni layihələr təqdim etmişdi. Bu layihələrin hər ikisinin təsdiqi və tətbiqi tikinti işini sürətləndirməkdən başqa, ayda yüz manat qənaət verirdi.

Nazimin layihələrini, doğrudan da, İlyas müəllim deyən yerdə, dissertasiyalar müdafiə olunan zalda, müəllimlər institutunun zalında müzakirə etdilər. Yenə böyük müəllimlər keçib stol dalında oturdu. Nazim çıxıb fikirlərini dedi, kərpickəsən maşının modelini, hərəkət cədvəlini də gətirib göstərdi.

Kürsüyə çıxıb danışan mühəndislərin, professorların hamısı bu təklifin çox ağıllı, faydalı olduğunu dedilər və müəllifi təbrik etdilər. Tikinti trestinin rəisi, Nazimin üç min manat pul ilə mükafatlanmağı haqqında əmr oxudu. Adamlar bir-bir əlini sıxıb təbrik edəndə Nazim bərk, isti və balaca bir əlin əlinə toxunduğunu hiss etdi. Diqqətlə baxanda, balaca boylu Şərəbanı xalanı gördü. Qadın onun əlini bərk-bərk sıxdı, lakin əl çəkmədi. Üzünə baxa-baxa dedi:

– Oğul, bəri dön, üzündən öpüm! Halal olsun sənə, oğul, Nazim! Halal olsun sizə!



Kənardan baxanlar güman edirdi ki, xadimə qadın "Halal olsun", – deyə Nazimin mükafatına işarə edir. Əslində isə Şərəbanı xala Nazimə mənalı baxır, xəyalında Nəcibəni tutur, ürəkdən deyirdi:

– Halal olsun!

Buna görə də əvvəl "sənə" dedi, sonra Nazimi qucaqlayıb öpəndə hər iki cavanı, onların xoşbəxt həyatını nəzərinə gətirib:

– Halal olsun sizə! – dedi.

Bunu lap ürəkdən dedi.

Mirzərəhman da, İlyas müəllim də, Əsəd də bu mənzərəyə baxıb gülüşdülər. Nazim utandığından tez aradan çıxdı.

*1956*

# OĞUL ANASI

Qaranlıqda, göydən qopan kimi, damdan uçan kimi ağır bir şeyin, bir qaraltının güppültü ilə birdən içəri düşdüyünü görən qadın diksinib dik atıldı. Heç bilmədi təsbehi hara atdı, canamazı hayanda qaldı.

– Hinn! Bismillah, Bismillah!

Qaranlıqda, sanki, onun hövllü səsinə təsəlli olaraq cavab gəldi:

– Qorxma, mənəm, ana!

Bu səs Məsmənin qulağında güclü və xoş səsləndi. Onun qorxu və vahimələrinin üstünə sanki su səpib söndürüldü. Bu səs Məsməyə canlı bir həqiqət kimi yox, xəyalat kimi gəldi. Sanki, bunu göylər dedi.

– Qorxma, mənəm, ana!

Qadının xəyalında bir işıq kimi yanan bu ümid sönməmişdi ki, Bəndalı iri, bərk və güclü əllərilə anasının qolundan tutub namaz üstündən ayağa qalxızdı.

– Qorxma, mənəm, gəlmişəm!

Məsmə möhürü ayaqladığını hiss etmədən qışqırdı:

– Bəndalı? Səsinə qurban, oğul!



– Kiri ana, xəlvət gəlmişəm, haray salma!

Bəndalı bunu deyib qapını basdı, anasını yastıq kimi qoltuğuna vurub taxtın üstünə gətirdi. Yanını qoyanda taxt çoxdan bəri görmədiyi, gözləmədiyi bir ağırlığa məruz qaldığından şikayətlənir kimi, cır-cır cırıldadı. Bəndalı çöməldi, anasını körpə uşaq kimi dizi üstə oturtdu. Qaranlıq olsa da, gözlənməz olsa da, Məsmə bu əlləri dərhal tanıdı. Bu doğma əllər quru umuzlarına toxunan kimi qanı qaynadı, qəlbi titrədi, gözünə işıq, bədəninə gəlinlik qüvvəti, təravəti gəldi.

Bəndalı anasını qucağında, dizi üstə tutub dururdu.

– Qoy boyunu qucaqlayım oğul, dayan bir!

– Yaxşı, otur! Əyləş görüm, ay ana, çoxdandır sənin əlin məni oxşamır, nəfəsin mənə dəymir, səsini eşitmirəm. Yaman qəribsəmişəm, ay ana, başına dönüm, bir dizim üstündə rahatlan görüm. Mən ancaq sənin yanında dincəlirəm. Qız hanı? Eşitdim çağırıb gətirtmisən?

– Tətilə gəlib. Bibisigildədir. Əriştə kəsirdilər, çağırdılar. Özündən de, bala! Necə yəni "xəlvət", qurtula bilməmisən? De görüm, necə gəlmisən?

Məsmə indi hiss etdi ki, oğlunun çiynində qatar var, gözü küncə söykənən beşaçılana sataşanda qəlbindən gizilti keçdi.

Bəndalının da sinəsindən bir ah qopdu. Qaranlıqda əlini anasının başına, neçə yerdən yamaq vurulmuş, indi, namaz vaxtı isə boğazında düyünlənmiş köhnə çarqatın üstünə gəzdirdi. İndi Bəndalı anasının sualına cavab vermək istəmirdi. Ona yazığı gəlirdi. İstəmirdi, o belə bir şey soruşsun, çünki bunun cavabı ağır idi.

– Nə borcuna, necə gəlmişəm, gəlmişəm! Anam üçün mən dağları da yarıb gələrəm. Bilmirsənmi, gələrəm?!

– Əlinə, dilinə qurban olum, bala! Anan təki ölsün, səni bu çöldəbacada görməsin, xatalı yollarda görməsin. Burax, durum ocağı yandırım.

– Yox, ay ana, yandırma! Mənə sənin hərarətin bəsdir, durma! Danış görüm, necə dolanırsan, pristav yenə səni incidirmi? Yəqin məni səndən istəyirlər?! Necədir, mahalda nə var-nə yox.

– Qələt eləyir istəyir, onun cavabını vermişəm! Mənə nə eləyəcək, islanmışın sudan nə qorxusu. Allah vurub onu, mənə nə eləyəcək? Sən

özündən danış! İşin nə yerdədi, sud baxıbmı? Vəkilin varmı, nə deyirlər, nə danışırlar?

– Hələ baxmayıb!

– Bəs haçan baxacaq?

– Məlum deyil, ana, sən nigaran olma, inşallah, sənin sayəndə qurtulacağam. Mənə namaz üstə dua elə! Əlin duada olsun, ana, ahın yerdə qalmaz, Allah eşidər!

– Peşəm nədi, əlimi o bir pərvərdigara açmışam!

Bəndalı əlini anasının çarğat altındakı saçlarına vurdu. Ancaq onların tökülüb qısaldığını duyanda tez əlini çəkdi və sözü dəyişdi:

– Nə olacaq, Allahın iznilə düşmənin gözünə ağ salacağam. Bu köpək oğluna bac verən deyiləm. Özü də ki igid-igid yoldaşlar var. Tək deyiləm.

– Olsun, düşmən də tək olmasın, oğul!

– Yaxşı adamlar var, Allah ömür versin. Məşədi Ələkbər. Əntiqədən sifariş eləmişdi ki, niyaran olmasın. Oğlan sağ-salamatdır. İşinə hələ baxılmayıb. Deyirmiş suda özüm gedəcəyəm!

– Şahidimdi, onun çox köməyi dəyir. Di gəl ki, düşmən çoxdur. Ay ana, dağ kimi hökumət düşməndi, bir adam, iki adam yox!

– Allah sizə havadar olsun, oğul, tək qalmıyasan!

– Tək deyiləm, ana, tək burada, kənddə sənsən! Sənin fikrini çəkirəm.

– Sənin yolunda hər məşəqqətə dözərəm, təki sən qayıt! Təki bu komacığımdan səsin gəlsin.

– Sağlıq olsun... Kölgən üstümdən əskik olmasın!

Məsmə oğlunun üzündən-gözündən öpüb durmaq istədi.

– Çay qızdırım, yol gəlmisən.

– Yox, dayan!

Bəndalı onu elə bərk-bərk tutub dizi üstə oturtmuşdu ki, Məsmənin gülməyi gəldi.

– Adə, nə qucağında oturtmusan məni? Uşağam, bəyəm!

– Uşaq mənəm, sən mənim anamsan, anam!

Bəndalı bunu deyib, anasını bağrına basdı: "Anam, kimim var, burada anamdan savay, desənə!"



Bəndalının sanki bu andakı sevincinin həddi-hesabı yox idi.

– Ay ana, nə olaydı, həmişə yanımda olaydın! Sən yanımda olsan, mənə nə güllə batar, nə qılınc kəsər. Sənin mehriban səsin, nəfəsin mənə bəsdir, ay ana! Sənin kimi arxayın arxam ola, Nikolayın qoşununu sındıraram! Nə edim ki, arvad xaylağısan.

– Sənin yolunda at da minərəm, beşaçılan götürüb, qatar da qurşaram, ay ürəyimin bəndi oğul! Dünyada səndən savayı nəyim var!

– Ay ana, azmı zəhmətimi çəkmisən, indi də özümlə dağa-daşamı salım səni! Yox! Qeyrətdən deyil!

Bəndalı başını aşağı saldı, əlləri boşaldı, səsi açıldı və igidə yaraşmayan bir həzinlik və riqqət kəsb etdi.

– Ay ana, mən səndən xəcalətəm, yaman xəcalətəm.

– Elə demə, dilinə qurban olum, anan ölsün, sənə nə bir analıq eləmişəm ki.

– Yox, ana, demə, qanmıram. İndi gərək mən səni ayrı cür saxlaydım, oğullar kimi oğul olmadım, sənə cövr-cəfa oldum. Zamanın üzü qara olsun, ay ana! Mən belə deməmişdim. Şərə düşdüm, saldılar məni şərə, yaman saldılar. Məni köyşəndən, əkin-biçindən ayırdılar, ana-bacımdan ayırdılar.

– Fikir eləmə, oğul, iş igid başına gələr, inşallah, nicat taparsan, tanrımdan istəmişəm, fikir çəkmə.

Məsmə bunları deyə-deyə durub çay hazırladı. Düyünçəsində dərman kimi büküb saxladığı parça nabatı gətirib nəlbəkiyə qoydu. Bütün bir cad əppəyi, iki parça qovurma, iki yumurta, soğan, sumaq, duz, kuzə dolusu su gətirdi.

Bəndalı Mərəzədə satqın bir qarının evində necə gecələməli olduğunu anasına danışdı. Gecə ilə polisə xəbər çatmış, Bəndalı atışma gücünə, bir qatar patron boşaldaraq qaranlıqda hasarlara sığınaraq yaxasını qurtarmışdı.

İndi anasının yanında öz evində də arxayın deyil, vahiməli, səksəkəli idi. Evdə işıq yanmağa qoymur, başına lülə kağız salınmış yeddilik lampanın xodunu alır, ay buluda girməmiş o, həyətə çıxmaq istəmirdi.

Anası əvvəlcə çıxıb həyət-bacanı yaxşıca bir dolandı. Guya toyu-

ğunu axtarır. "Ay sənə çər dəysin, gör hara qısılıb qalıb, tülküyə loğma olmaq istəyirsən, kişə, kişə!" Əlində kuzə, su doldurmağa gedir, guya dəstəmaz alırdı. Allahümməssəlliəla Məhəmməd və alüməhəmmədəəd!.. Məsmə təkbir və salavat səsini ucadan deyir, axırını mahnı kimi uzadır, sanki bununla "bəduğur"ların şübhə və fitnəli niyyətlərini dağıdırdı. Ay buluda girəndə, hər tərəfdən arxayınlıq duyanda Məsmə oğlunu çölə buraxdı.

Bəndalı qəfəsdən çıxmış aslan kimi, cəld balaca açıq həyətdə bir cövlan vurdu. Çəpərlərə yanaşıb, kolluqlara girib küçəyə-bağçaya boylandı. Sonra qayıdıb tut ağacının ortadan əyilib burulan sərin gövdəsinə dayandı, əllərini ağacın yoğun, çopur yerlərinə sürtür, sanki, dairəsini ölçür, ya yoxlayırdı. Bəndalı orada bir şey axtarırdımı, bəli, axtarırdı. Uşaqlıqda bıçaqla çomaq başı kimi yumruq boyda bir yara kəsmişdi. Kəski yeri bitmiş, qabarmış, böyümüşdü. Bəndalı o yeri tapdı. Şəhadət barmağını, sonra da ovcunu orada bir neçə dəfə hərlədi. Ağac canındakı yara yerini çoxdan sağaldıb örtmüşdü. Yumru bir qabar göydən aralanmışdı. Bəndalı o günlərin həsrətiləmi, uşaqlıq əyyamının xatirəsiləmi sinə dolusu soyuq bir ah çəkdi. Xeyli vaxt əlini ağacdan götürmədi. Sanki haçansa, ömrünün ən əziz çağlarında itirdiyi qiymətli bir şeyi tapmışdı. Qollarını açıb ağacı qucaqladı, üzünü onun çopur, qabıqlı, möhkəm gövdəsinə dayadı, təkrar sinəsindən bir ah qopdu: "Namərd dünya! Yurd-yuvamı, kasıb komamı da mənə çox gördün, çərxin çövrülsün, fələk!.." Əllərini çəkib döndü, kürəyini söykəyib, kölgəyə sığınıb ətrafı seyr etdi. Gecədən xeyli keçdiyini, sabah açılanda haradan, necə gedəcəyini yoxladı. Həyətdə bir an gəzinib təkrar içəri qayıtdı.

Həyət möhrədən hörülmüş hasar içində idi, hasarın dibi ilə boyaboy ağaclar, nar, gilənar, gül kolları var idi. Ancaq küçə dar, həm də uzun idi. Küçə boyu yerimək olmazdı, görən olardı. Dönmək, hökmən kənara burulmaq, döngələrdən yerimək lazım idi.

Bəndalı sabahkı marşrutunu xəyalında düşünürdü, ancaq anasına heç nə demirdi. Məsmə isə heç bir şey bilmirdi. O, güman edirdi ki, Bəndalı qalacaqdır, çox qalacaqdır. Çünki çoxdan evdən ayrılıb, onu xəlvəti, sandığın içində, pərdənin dalında aylarla saxlamaq olar. Evdir, qapısı, açarı. Kimin nə borcuna, Allah eləməmiş, dili qurusun, çuğul olmasa, kim biləcək. Bu qorxulu vaxtda Bəndalının qaladan, şəhərdən bura gəldiyini kim düşünər, kim ağlına gətirər?

– Şaraq, şaraq! Şarraraq!..
– Tap, tararap, tap, tap!
– Məsmə arvad, oğlunu təslim ver.
– Tumanın altında gizlətdiyin bəsdir!
– Dul arvadın oğlu, çıx çölə!
– Tüfəngi at bayıra!
– Təslim ol, yoxsa beynin göyə sovrulacaq!
– Ə, Bəndalı, silahı at çölə, təslim ol, günahın yarısından qayıtmaq da bir mərdlikdir!
– Qana bais olma, tək canınla od olsan bu mühasirədən çıxmayacaqsan.
– Hökumət qoşunu tökülüb bura!..

Heç yatanın dalınca ayıq olmasın – deyiblər. Çuğul Bəndalının kəndə, evə gəldiyini pristavlığa xəbər vermişdi. Pristavlıqdan Kəblə İsrafilə yeddi nəfər atlı verib təcili surətdə Məsmənin evinə göndərmişdilər. Kəblə İsrafil "hərifin" evdə olduğunu biləndən, yəqin edəndən sonra qəsdən "axota"nı gecəyə, bəlkə də lap səhərə yaxın vaxta salmışdı.

Bəndalı gecədən xeyli keçmiş, anasının yoxlamasından sonra həyətə çıxıb gəzinəndə Mələknisə çəpərin dalında, divarların bir küncünə sıxılıb nəfəsini oğurlamışdı. Doğrudur, Bəndalını, boylu-buxunlu cavanı görəndə Mələknisənin zəhri yarıldı. Bütün bədənindən bir gizilti keçdi. Boyun-boğazını soyuq tər basdı. Bəndalı üzü bəri gələndə Mələknisə ayaq üstə öldü. İxtiyarsız dizləri büküldü, vurulmuş kimi yerə çökdü. Bəndalı iki addım da irəli gəlsə, yəqin, arvadın ürəyi qopacaqdı. Oğlan qayıdıb evə gedəndə Mələknisə əjdaha nəfəsindən qurtulmuş siçan kimi, cəld sürüşüb özünü Kəblə İsrafil düşən evin taxtapüşünə saldı. Gündüzdən ona demişdilər ki, bu evə heç kəsin gəl-gedi olmayacaq!

Heç yatmışın dalınca oyaq olmasın – deyiblər. Bəndalı taxt üstündə, tüfəng yanında, Məsmə də oğlu ilə yanaşı, yerdə əprimiş yataqlı bir palaz üstündə uzanıb yatmışdılar.

"Yatmışdılar" demək düz olmaz. Çünki Məsmə yatmamışdı. Ya-

ta da bilməzdi. Qarovul çəkmək üçünmü yatmamışdı? Yox! Ona görə yatmamışdı ki, yuxusu gəlmirdi. Sevincdən, intizardan, nigarançılıqdan, fikirdənmi-nədənsə "yuxusu ərşə çəkilmişdi."

Elə vaxtlar da olurdu ki, Bəndalı, ya da Əntiqə analarının bütün gecəni narahat olduğunu, dəqiqəbaşı öskürüb ah çəkdiyini görüb soruşurdu:

– Ana, yoxsa canın-başın ağrıyır?

– Yox, bala, heç yerim ağrımır.

– Bəs niyə yatmırsan, işinin adı nədir?

– Aranı dağa daşıyıram, dağı arana daşıyıram, işim budur!

– Nə fikir-xəyaldı, boşla getsin! Ana! – Təkcə bir sual, təkcə bu söz anaya böyük dayaq, təsəlli idi.

İndi isə belə bir söz soruşan yox idi.

Bəndalı həsrətini çəkdiyi evdə ananın yoğurub-yapdığı əppəyi yeyib, ananın açdığı yatağa girib rahat yatmış, "div yuxusuna" getmişdi. Anasının, bəlkə də ayıqlığına arxayın olub belə şirin yatmışdı. Əvvəl anasına bəzi şeylər tapşırmaq istəmişdi. Qadını daha da təlaşa, həyəcana salmamaq üçün bundan vaz keçmişdi. Ancaq dilucu, guya saymazyana bunu demişdi:

– Ana, gəlib-gedən olsa, məni oyatmamış qapını açma!

İllər, aylar müsafiri, yorğun oğlunun şirin yuxusuna keşik çəkmək, Məsməyə hər cür yuxu və istirahətdən şirin idi.

Deyəsən, qaranlıqda, uzandığı yerdə, xəyalən danışdıqlarını eşidirlərmiş. Deyəsən, məhz bu dualara cavab olaraq, sağdan və soldan açılan güllələr alçaq damın üstündə bir-birini kəsib üfüqləri ölçdü.

– Şaraq, şaraq! Şararaq!..

– Tap, tararap, tap, tap!..

Məsmə diksinib iki əlilə dizinə çırpanda oğlunu əli silahlı, pəncərə qabağında üzüüstə yatan gördü.

O, pıçıltılı, cəld bir səslə dedi:

– Ana, yük yerinə keç! Oranı güllə tutmaz! Sən özünü qoru, məndə işin olmasın! Qatarı yaxın qoy!

Qaranlıqda çəpər dalından gələn səslərə Bəndalı heç nə cavab vermir, havayı da güllə atmırdı.



Məsmə saçını yolub, sinəsini parçalayırdı: "Oda düşən balam, vay! Padşahlarnan vuruşan igid oğlum!.."

"İlahi! İlahi, darda qalmışam! Amanda qalmışam, ya həzrət Abbas..."

– Ay arvad, səsini kəs! Mən qanımı almamış ölən deyiləm, arxayın ol!

Div ürəkli oğlunun səsi və vuruşu Məsməyə bir təsəlli oldu:

– Ay bala! Hünərinə qurban, oğul!

– Ana, hər yaranmışın bir ölümü haqdır. Amma nahaq ölüm yamandır. Günahsız ömrümün intiqamını alacağam, ana! can sənin, can uşaq əmanəti!

Kəblə İsrafil iki atlını evin dalında qoymuşdu ki, Bəndalı damı söküb arxadan qaçmasın. Qalan adamları ilə də həyəti mühasirəyə almışdı.

Əvvəl özü təklif etdi ki:

– Bəndalı, silahı at çölə, təslim ol, günahın yarısından qayıtmaq da bir mərdlikdir!

Onun dalınca yasovullar haray-qışqırıq salıb Bəndalını qorxutmaq istədilər:

– Təslim ol, yoxsa beynin göyə sovrulacaq!

Nə hədə-qorxu, nə atılan güllələr Bəndalını təbdən çıxara bildi. Yasovullardan biri, kəndli üstünə gedəndə canavara dönən Çer Naib vəhşi bir qışqırıqla Bəndalını təslim olmağa çağırdı. Cavab gəlməyəndə söyüş söydü:

– Dul arvadın oğlu, nə girmisən çarşab altına!

Yenə cavab gəlməyəndə Naib əldə beşaçılan çəpərdən çıxıb ata-ata irəliyə, ev qapısına tərəf yollandı:

İçəridən səs gəldi:

– Gəlmə, yazıqsan!

– Tülkünün başından yekə danışmağına bir bax!

– Vurularsan, Naib, rədd ol!

– Sənin güllə́ndən qorxan yoxdur, çıx çölə!

Naib bunu dedi, yanakı baxa-baxa, divar dibi ilə yeriyərkən özünü qapıya salmaq, hünər göstərmək istədi. Bəndalının güllləsi Naibi ye-

rə sərdi. Bunu görən yasovullar qapı-pəncərəni şıdırğı gülləyə basdılar. Kəblə İsrafilin qəzəbli səsi eşidildi:

– Quldur köpəkoğlunu öldürün!

– Padşahın düşməninə aman yoxdu!

Güllələr atılır, hədələr edilir, amma yaxın gəlməyə cürət edən bir adam görünmürdü. İçəridən də səs gəlmirdi. Bəziləri güman edirdi ki, Bəndalı vuruldu. Ancaq anası içəridə idi. Onun nalə-fəryadı ucalmamış olmazdı. Bəs ana niyə dillənmir? Bəlkə qadına da güllə dəyib?

– Ay İsrafil bəy, tək bir igidin üstünə qoşun tökmək mərdlik deyil. Aman verin, oğlan çıxsın!

Qadının səsini eşidən yasovullar təkrar güllə yağdırmağa, qapı-pəncərəni dağıtmağa başladılar. Kəblə İsrafil qışqırdı:

– Atmayın, çıxmaq istəyir.

Adamların gözü qapıya, içəriyə enən birpilləli astanaya dikildi. Güman edirdilər ki, "qaçaq" koldan çıxan yaralı aslan kimi, qanı axa-axa qapıda görünəcək, tüfəngi şaqqıltı ilə yerə atıb, əllərini göyə qaldıracaqdır...

Bu gözləmə bir an çəkdi, qapıda heç nə görünmədi. Bəndalı buradan salamat çıxmayacağını yəqin etmiş, axırıncı gülləni özünə saxlamışdı. Ancaq anasına, bu dəhşətli mənzərəyə şahid olmasın deyə, neçə dəfə təklif etdi ki, çıxıb getsin. Məsmə razı olmadı, nəinki razı olmadı, ilk dəqiqələrdə Məsmədə olan vahimə uçub getmişdi. İndi o, özü də hiss etmədən oğlunun mərd və cəsur köməkçisinə çevrilmişdi. Pəncərə qabağına sandıq itələyir, qatardan patron verir, oğlunun boğazdan sel kimi axan tərini silir, su verirdi. "Sənsiz mən yaşamamışam, yaşamaram!". "Əvvəl mənə bir güllə vur, sonra nə olar-olar!.." Əlinin üstünü yalayıb keçən güllədən sonra qan görünməsin deyə sol qolunu qoynunda gizlətmişdi. Bəndalı isə düşməndən aman istəyib ananı həyətə buraxmaq, xilas etmək fikrində idi. Bir də ürəyinə gəlirdi ki, bunlar, Nikolay məmurları, namərd cəlladdırlar. Kim bilir, aldadıb anamı da, əliyalın qadın xaylağını da vurarlar. Çəpərlər dalında isə kənd camaatından adam çoxalmışdı. Burada Bəndalının igidliyinə sevinənlər də, ona mümkün kömək üçün çarə arayanlar, "qaçağı tutmaqda" pristava tərəf olub özünü gözə soxmaq istəyənlər də, sadəcə tamaşa ilə maraqlanlar da var idi. Yasovullar acıqlanıb camaatı qovmaq istəsələr də, intizar və həyəcan hamını bürümüşdü. Kənddən, şəhərdən xəbər tutan axıb gəlirdi. Atışmanın şirin yerində çəpərlərdə hərəkət oldu, adamlar aralandı. Tahirzadənin səsi eşidildi:

– Ay bimürvətlər, qadın xaylağının günahı nədir? Hansı dində, hansı tarixdə, hansı millətdə görünüb ki, bala üçün ananı da gülləyə tutasan. Bəs namus harda qaldı?

– Dayanın! Əl saxla!

Kəblə İsrafil əmr verdi:

– Aman verin, qadın çıxsın!

Tahirzadə əlində bir ağ dəsmalı göydə yelləyərək, barışıq və sakitlik tələb edərək, özünü həyətin ortasına atdı.

– Vurun, vurun məni də, yaxam qurtarsın, bu dəhşəti, vəhşəti gözüm görməsin!..

Hər iki tərəfdən güllə səsi kəsildi.

Adamlar bilmədi nə etsin. Tüfənglilər pristavın əmrinə müntəzir oldular. Kimsə bilmirdi ki, belə vəziyyətdə nə etmək, necə etmək olar.

Tahirzadə həyətdə bir an sakit dayandı. Ətrafa göz gəzdirdi. Sanki nə isə deyəcəkdi. Əvvəlcə Naibin meyitini ortadan götürmək üçün bir nəfər kömək çağırdı: "Bunu aralıqda qoymaq niyə, axı müsəlmandır! Arvad-uşaq görməsin, yapış götürək!" Meyiti hasara qədər aparıb başqalarına verdi, özü qayıdıb Məsmənin evinə daxil oldu. Məsmənin qolundan tutub çıxanda təkrar qışqırdı:

– Yasovullar, atmayın, Qurandan, şəriətdən utanın, barı arvad xaylağına aman verin keçsin.

Naməhrəm görməsin deyə, qara çadra ilə möhkəm örtünmüş qadını qoruyaraq ehtiyatla, ağır addımlarla həyətdən çıxarandan sonra atışma təkrar başlandı.

Tahirzadə Məsmə ilə birlikdə Bəndalını da aparırdı. Çadraya bürünən Məsmə yox, Bəndalı idi. Bəndalı Məsməni uşaq kimi qucağında elə gizlətmişdi ki, görən onun yaşındığı üçün çadranın ucunu ovcuna yığdığını güman edərdi.

Çəpərlərdən ötəndən sonra Məsmə də, Bəndalı da küçədə yox oldular. Səhər tamam açılanda Məsmənin evi tutulandan sonra məlum ol-

du ki, Bəndalı qaçıb. Kimi deyirdi, damı dal tərəfdən söküb, kimi deyirdi, səhər dumanında quş kimi çəpərdən hoppanıb, çoxları da həqiqəti deyirdi: "Nə oldusa, Tahirzadədən sonra oldu. Özü çadraya söyür, amma çadra ilə də iş görür!".

Bəndalı kənddən uzaqlaşmaq üçün çəpərdən, divardan aşıb qaçanda adamların görəcəyini, çox çəkmədən yasovulların atlanacağını yəqin etmişdi. Dəyirman ağzından keçəndə iz itirmək üçün aşağı endi, çayın kənarında xəlvət bir yarğana söykənib suyun içində dayandı, axşam düşməyini, qaranlığı gözlədi. Bu yer – dəyirmanın altı doğrudan da gümangetməz, gözgörməz bir yer idi. Bəndalı, tüfəngi qucağında yaş torpaqlı yarğana elə bərk sıxılmışdı ki, kənardan diqqətlə baxanlar da bir şey görə bilməzdilər. Nə edəsən ki, olacağa çarə yoxdur – demişlər. Burada da, dəyirman sularının içində, vəhşi otların, kifsəmiş yosunların arasında, sellərin yuyub apardığı yarğanlarda da uçqun tapıldı.

Bu dəfə Mələknisə yox, lap 8 yaşlı bir uşaq, çaydan su götürməyə gələn bir qız uşağı satılını suya salanda əlvan, ipək, təzə bir corab tayının su üzərində qıvrıldığını gördü, tamahı düşdü. Bu həmin bayram corabı idi ki, Məsmə bu axşam oğluna bir hədiyyə kimi geyindirmişdi. Qız uşağı corabı axtararaq, ipin haradan sallandığına diqqət edəndə möhkəm dolağ dolanmış bir qılçanın su içində şax durduğunu aşkar gördü və qorxusundan dərhal satılını sudan yarımçıq çəkib birbaş evlərinə tərəf götürüldü.

– Ay ana, su üstündə dəyirman altında adam durub!

– Nə adam! A qız!

– Vallah, adam gizlənib!

– Kiri, kiri! Ssss!..

Uşaq anasına, anası qonşusuna, qonşusu qonşusuna. Axırda söz Mələknisəyə çatdı. "Xalam bildi, aləm bildi." Bayaqdan "Qaçağı qaçırdan Tahirzadə olub. Gərək naçalnikin hüzurunda cavab versin", – deyə atını sağa-sola oynadan Kəblə İsrafil bu xəbəri eşidən kimi, dəstəsini çəkib dəyirman altını gülləyə basdı, aşağı-yuxarı yollar kəsildi. Nişan verilən yerə dolu kimi güllə yağdı.

Burada Bəndalının vəziyyəti daha ağır idi. Burada daha nə ağac var idi, nə daldalanacaq, nə də gecə qaranlığı. Doğrudur, ağaclar ara-



sından nişanladığı bir yasovulu vurmuşdu, birinin də əlindən elə vurmuşdu ki, tüfəngi çaya düşmüşdü. Həmin tüfəngin daşa dəyib çaya düşdüyünü Bəndalı özü gördü. Bunun dalınca söyüş eşidildi, atışma gücləndi. Bəndalının patronu qurtarmış, özünü də qan aparıb taqətdən salmışdı. Dörd bir tərəfdən yağan güllələr onun vücudunu çoxdan parçalamışdı. Handan-hana güllə açılmadığını, suyun qızardığını görəndən sonra yasovullar yaxınlaşmağa cəsarət etdilər.

Bəndalının meyitini arabaya qoyub ot ilə üstünü ortdülər, təntənə ilə polis həyətinə gətirdilər.

Yasovul Məhər Kəblə İsrafilə yaxınlaşıb mühüm bir sirr söyləyirmiş kimi, xəlvəti pıçıldadı:

– Tahirzadə Məsmənin evindən çıxanda mən lap şübhələnmişdim! Məsmə elə çadra örtən arvad deyil axı! Bəy, vallah, səndən qorxdum, cınğırımı çıxarmadım.

– Mən Bəndalını yerişindən tanıdım.

Məhər təəccüblə soruşdu:

– Bəs nə əcəb vurmadın?

Kəblə İsrafil ətrafına baxıb yavaşca, lakin ürəkdən dedi:

– Adam da elə igidə güllə atarmı, ə! Allah kəssin divan qulluğunu, müsəlman deyilikmi? Oğlan idi, tələyə düşdü, hayıf da oldu, nə isə, dünyadı da!

Məhər naçalnikin etiraflarına təəccüblə qulaq asır, ancaq bilmirdi ki, bunları ona ciddi deyirlər, yaginki onun "imperatorluğa sədaqətini daş-tərəziyə vurmaq" istəyirlər.

Bəndalının meyitini həmin axşam və səhərisi pristavlıq həyətində "ibrət" üçün aşkara qoydular. Gəlib-gedən baxsın, tamaşa eləsin, qaçağın kor aqibətini görüb dərs alsın.

Kəblə İsrafil səhər arabaya yaxınlaşanda gözünə inanmadı:

– Əə Məhər! Gecə növbətçi sən deyildin?

Məhər cəld onun qabağına qaçdı:

– Bəli, bəy, bəndəniz idi!

– Bu kimin işidir?

Kəblə İsrafil arabaya, meyitə tərəf işarə etdi: "Bu kimin işidir?"

Məhər pristavın nə dediyini başa düşmədi. Döyükdü. Bəndalının

öldürülməsini, bütün bu həngaməni bəy özü yaxşı bilirdi və öz əlilə olan iş idi. Kəblə İsrafil təkrar soruşdu və şəhadət barmağı ilə arabaya işarə elədi: "Bu kimin işidir, soruşuram? Nə fitnədir bu?!" Məhər bir də diqqət edəndən ölünün üstünə ot əvəzinə gül töküldüyünü, arabanın hər yanından gülab ətri qalxdığını hiss etdi, məəttəl qaldı.

– A bəy, xəbərim yoxdur.

– Necə?

Məhər ürəkdən and içdi:

– Adın həqqi, xəbərim yoxdur!

– Gecə donuz kimi burnunu yerə verib yatanda, əlbət ki, xəbərin olmaz!

– Bəy, getdiyin ağaya and olsun, gözümü qırpmışamsa!

– Kəs səsini, pəzəvəng oğlu pəzəvəng! Yox, Məsmənin oğluna göydən mələklər gül səpdi. Nə yaxşı ki, kəndçilər sənin özünü oğurlamayıblar! Yekə göydəsinə bir bax!

– Məndən sonra olub bəy! Vallah!

Pristav onun sol üzündən elə bərk şillə çəkdi ki, şartıltısını yeddi qonşu eşitdi.

Məhərin deməyə sözü qalmadı. Burnuna çomaq vurulan it kimi başını aşağı salıb geri çəkildi, görünməməyə çalışdı:

– Götürün, bu saat meyiti aparın, torpaqlayın!

– Baş üstə, bəy!

Məhər köməkçi çağırdı:

– Ə, qoşun arabanı, tez!

Heç bilinmədi ki, haradan iki öküz *(biri boz, biri sarı)* gətirdilər. Məhər özü də köməkləşib boyunduruğu düzəldir, samıları keçirirdi. Araba qoşulub hazırlandı, tərpənməli olanda bəyin əmri təzələndi:

– Əl saxla!

Kəblə İsrafil nəzakət gözləməyin camaat üçün təsirsiz olmayacağını bilirdi. Onu da bilirdi ki, Bəndalının anası gecə səhərəcən oğluna keşik çəkmişdir, indi onsuz meyiti aparmaq olmaz.

– Məsmə arvad hardadı?

Namaz qılmağa getdiyini dedilər. Bu anda darvazada qara kəlağayılı, ağır yerişli, ucaboy bir arvad göründü. Məsmə kölgə kimi sakit,



səssiz yaxınlaşanda Kəblə İsrafil istehzalı səslə dedi:

– Ağla, ağla, ay arvad! Sən oğul doğmamısan, ilan-əjdaha doğmusan, camaatı qırıb çatdı! Di get ağla!

Məsmə cavab vermədi. Ağır, təmkinli, səssiz yerişini, istiqamətini dəyişmədi. Elə bil o sözləri eşitmirdi, elə bil heç kəsi görmürdü. Oğlunun yanına yaxınlaşdı. Meyitin üstündən otları kənar elədi. Dəsmal çıxarıb Bəndalının üz-gözünü sildi, bəzəkli, balaca saxsı gülabdanı qoltuğundan çıxarıb oğlunun üstünə gülab səpdi. Təzə bir kəlağayı açıb onun üstünə saldı. Bunu Məsmə üç il əvvəl, oğlunun biçindən gətirdiyi taxıl ilə Çərçi Ağa Rəhimdən almış, böyük arzu-kam ilə sandığa qalayıb oğlunun toyuna, "bircə gəlininə" saxlamışdı.

Belə ağır bir mərasimdə, belə ağır fəlakət müqabilində ananın dözümünə çoxları təəccüb edirdi. Sanki qadın meyit qarşısına, həm də igid oğlunun parçalanmış cəsədi qarşısına yox, adi bir əmanəti arabadan götürməyə gələn kimi, soyuq və səssiz gəlmişdi. Ancaq heç deyən yox idi ki, fəryad və fəlakətlər zahirdə, aşkarda yox, ananın dərdlər çəkmiş yaralı, nisgilli qəlbində idi. O, təlatümləri isə hər kəs duya bilməz. Ana bir tərəfdən matəmdə, o biri tərəfdən düşmən qarşısında mənəvi döyüşdə idi. O, bilirdi ki, bütün mahal Bəndalıdan danışır və danışacaq! Belə bir oğul anasına pristavlar, yasovullar qabağında baş açıb saç yolmaq əskiklik gətirər! "Dərdi dərdə qatmazlar", "dost var, düşmən var!"

Oğlunun üzündən-gözündən öpüb kənara çəkildi. Heykəl kimi dayanıb mənalı-mənalı xeyli baxdı. Təkrar oğlunun üzündən-gözündən öpdü, üçüncü dəfə də vida mərasimini icra edəndən sonra astaca dönüb Kəblə İsrafilə dedi:

– Ay bəy, ay İsrafil bəy! Mən səni igid adam eşitmişdim. Düşmənimsən, amma igid danışırdılar səni!

Məsmənin səsi sakit, riqqətli, lakin qəti və kəsərli idi. Pristavlıqda olanların hamısı yaxın gəlib qulaq asdı.

– İgid danışırdılar, sən demə, hədər, boş söz imiş. O söz igidə yaraşmaz ki, sən deyirsən! Mənim aslan kimi oğlum ölüb, aslan kimi də vuruşub ölüb.

Məsmə səsini ucaltdı, əlini havada silah kimi oynatdı.

– Yox, mən ağlamayacağam, mənim igid balam qanını alıbdır. Mə-

nim balam təkbaşına Nikolay padşahının, sizin kimi tüfəng-qatarlı qoşunu ilə üz-üzə durub öldürüb-ölüb, atışıb ölüb! Belə igidə də ağlayarlarmı?

Mən igid anasıyam. Namərd sizlərsiniz ki, qara günümdə mənə sərzəniş eləyirsiniz! Çünki mənim oğlumun şəhərdə, kənddə tayları var. Onlar da mənim oğlumdur. Mən onları intiqama çağıracağam. Dərdimi intiqam odunda əridib kənd cavanlarına süd kimi içirəcəyəm! Mənim oğlumun nahaq qanına gərək bir sən yox, sənin o Fitilbörkdəki şaşqalı tülək-tülkülərin cavab versin! Mənim sizin kimi nə divanım, nə top-topxanam, nə sudum-qazamatım var. Amma!..

Qadın bu sözü bərk dedi və xeyli sükut edib ətrafa baxdı. Deyəsən, kimi isə axtarırdı, ya unutduğu sözü xatırlamaq istəyirdi:

– Amma mənim də göydə Allahım, yerdə əliqabarlı camaatım var. O camaatı deyirəm ki, bund ilində səsi-sədası yeddi padşahın taxtını laxlatmışdı. İndi sən güclüsən, əlində də ixtiyarat var. Nə bilirsən, elə! Heç eybi yoxdur! Heç eybi yoxdur! Tüfəng qatarını bərk bağla, balası ölmüş anaya rişxənd elə! Sənin də igidliyin budur! Heç eybi yoxdur!

Məsmə təkrar əyilib oğlunun üzündən öpdü. İki əli ilə dizlərinə elə çırpdı ki, şappıltısı bir ağaclıqda eşidildi. Dinməz-söyləməz dizüstə çöküb oğlunun boynunu qucaqladı. Sanki qadın indi, ancaq indi fələkətini dərk etmişdi.

*1956*



# SUBAYLIQ FƏLSƏFƏSİ

Mirzə Cavad müsahibinin sözünü lağa qoydu:

– Bildik. Fəzilət məlum oldu. Sənin dost dediyin nə imiş, nə kara imiş, bəlli oldu...

Mirzə ani bir sükutdan sonra kinayəli sözlərini açdı:

– A sağolmuş, onun nəyinə sən adam deyirsən? Özü də dost adı qoymusan: şərab içməz, qumar məclisi tanımaz, öz arvadından savay da özgəsinə baxmaz-filan... Daha bunun nə adamlığı oldu! Deginən malın-mağmunun biri, dilsiz-ağızsız bir heyvan naxoşlayır da! Yəni, o ölsə, nə olacaq ki! Fələyin çərxi çövrüləcək?!

– Cavad dadaş, xahiş eləyirəm kişinin dalınca bihörmət danışmayasan, abırlı adamdı, bir sürü də külfəti var.

Mirzə Cavad dolu bir araq stəkanını bulaq suyu kimi qurtaqurt başına çəkdi. Qaşqabağını turşutdu, gözünü dalbadal yumub açdı, bir parça soğanı hirs ilə çeynədi, stol dəsmalını bürmələdi, neçə dəfə dodaqlarına basıb götürdü. Ağız-burnundan qalxan tüstü-duman içində vacib söhbəti təzələdi.

– Mirzə Kəmtər, sən lap qəribə adammışsan!

Mirzə Kəmtər də sanki müsahibindən geri qalmamaq üçün stəkanında qalan arağı içəri atdı, ancaq özünü tox tutdu, sifətinə təğyir vermədən dedi:

– Hələ bu beş ildə mənim qəribə, ya qeyri-qəribə adam olduğumu dərk eləməmisən?

– Yox ey, doğrudan qəribə adamsan! Bir yandan mənim kimi subay-soluq ilə cur olursan, oturub-durursan, o biri yandan da nədir, o naxoş kişinin detyaslisinə gedirsən, saatlarla oturursan, bilmirəm necə oturursan.

– Neyləyim, tanışdır, yazığım gəlir.

– Onu yorğan-döşəyə salan elə həmin bir sürü uşaqdır da! Buna həkim nə çarə eləsin, dərman neynəsin!

– Uşağı çölə ata bilməz ki! Bu nə sözdü!

– Evi uşaq ilə niyə doldururdu ki, niyə də indi öhdəsindən gəlməyə ? Çarə axtaraydı!..

Mirzə Cavadı öskürək tutdu. Onsuz da pörtmüş sifəti daha da qızardı və sonra qaraldı. Bir xeyli öskürəndən, əyilib-qalxandan, özünü toxtadandan sonra papiros yandırdı. Dönüb saymazyana ətrafa göz gəzdirdi. Restoranda sakitlik idi. Hər kəs öz işində idi. Ayıq adam da, deyəsən, az idi. Aralığı sakit gördüyündənmi və ya Mirzə Kəmtərin sözünə hirsləndiyindənmi, Mirzə Cavad səsini ucaldıb soruşdu:

– Ə, mənə bax, uşaqdan adama nə xeyir? Uşağın biri sən. Atana nə xeyrin, ya mənim anama nə mənfəətim? Əslinə baxsan, bizimkilərin də əqli olmayıb. Yoxsa pişik kimi törədib -tökməzdilər. Anam, indi də yadımdadır, gizlətdiyi almaya, qaxa əl dəydiyini bilində cinlənər, uşaqları bir-birinə qatar, qarğış göyə çıxardı: "Əlin qurusun! Görüm səni qan əndərəsən, qax götürən, heç salamat yeməyəsən! Görüm səni nöyüslü qarnına şiş batsın! Ölmüşlər necə yarıdan keçiriblər torbanı! Ay ölmüşlər, sabah qonaq gələndə mən başıma nə daş salım, nə cavab verim!"

– Hamı bizim kimi bişüur olmaz ki.

– Uşağın lap yaxşısından əlhəzər! Əqilli adam niyə evlənir ki, niyə də başına əngəl açsın. Bizim kimi!

– Bəs bəşəriyyət artmasın?



– Qoy avamların, dünyada ağız ləzzəti, kef bilməyənlərin hesabına nə qədər istəyir artsın! Mən ki, evlənmərəm. Ağıllı adam da başını bir yerə bağlayar?!

– Elə olur ki, nəsillər cırlaşır da!

Mirzə Cavad, dostunun onu "ağıllı" adamlar zümrəsinə qəbul etməyindən doğan bir şey yadına düşübmüş kimi, Mirzə Kəmtərin qolundan tutub silkələdi:

– Ə, bir qulaq as! Bəhluli Danəndə eşitmisən?

– Niyə eşitməmişəm, əqilli adam olub!

– Ay sağ ol!..

Mirzə Cavad sözünün yerinə düşdüyünə sevindi, ayağa qalxıb kürsünü müsahibinə daha da yaxın çəkdi, yenidən oturdu, dostunun üzünə çəpəki baxa-baxa mənalı-mənalı danışdı:

– Bəhluli Danəndəni evləndirdilər. Əlbət ki, özündən xəbərsiz eləmişdilər. O zaman da o, bilirsən də, müsəlmanlıq qaydası ilə, dəm-dəsgahla gəlin gətirdilər. Elə ki, gəlini gətirdilər evə, Bəhlul qulağını dayadı gəlinin göbəyinə, doktor kimi qulaq asdı. Durub başmaqlarını geyindi, papağını və əsasını götürüb qapıdan çıxdı. Anası təşvişə düşdü, dizinə döydü ki, ay aman, qoymayın, oğluma nə oldu! Bəhlul dedi: gəlinin qarnından səslər gəlir. Biri deyir, ata mənə paltar, biri ağlayır ki, mənə başmaq al, biri deyir, ata, mənim papağım yoxdur, biri çörək istəyir, o birisi deyir, mənə otaq! Hamısı əlini açıb: "ver, gətir!.." deyir. Mən kasıb adamam, bunların öhdəsindən gələ bilmərəm. Getdim! Xudahafiz!.. O gedən getdi, heç dalısına da baxmadı! İndi bura bax, Kəmtər dadaş, Bəhlul kimi əqilli adam belə deyəndə, evlənmək nədi, zad nədi!

– Hansı teatrda deyir ki, bu dünya beş gündü, beşi də qara. Axmaq o adamdı ki, özündən sonra bir şey qoyub gedə. Pulun var, ver kefə-işrətə, gəz, dolan, öləndə də desinlər, arzusu qalmadı!

Mirzə Cavad sanki Mirzə Kəmtərin təslim olmağına sevinmişdi. Özünün və dostunun sözlərindən vəcdə gəlmiş kimi, söhbətə yekun vurdu:

– Bəs nədi, a kişi! Arvad nədi, uşaq nədi, ailə nədi, işin-gücün qurtarıb? Arvad yaxşı olsaydı, Allah o boyda göylərdə tək oturmazdı, özünə bir gəlin yaradardı. Özü də lap göyçəyini! Ondan böyük

adam kimdir, ondan da varlı kimdir? Qərəz, atalar yaxşı deyib, subaylıq-soltanlıq! Qoy çağırım, araq gətirsin!

– Sağ ol, mən lap dəmdəyəm, səni bilmirəm.

– Elə isə dur! Özünü yorulmuş biləndə, yoldaşını ölmüş bil! Lap gecəni yarı elədik, dur! Nə yaxşı ki, subayıq! Arvad nə səni evə qoyardı, nə məni...

Dostlar gülüşüb, ayağa qalxdılar.

Bu əhvalat iyirmi beş il bundan qabaq yay gecəsində bulvara yaxın restoranlardan birində baş vermişdi. Mirzə Cavad o zaman ictimai təminat idarəsində hesabdarlıq işində çalışırdı. Axşamlar isə Nəqliyyat texnikumunun təsərrüfatına kömək edirdi. Bu, onun bir-iki saat vaxtını alsa da, büdcəsinin "aktivinə" yaxşı təsir bağışlayırdı. Axşamlar da vaxtı boş idi.

Boş deyənlərə Mirzə Cavadın acığı tuturdu: "Necə yəni boş? Mənim ən dolu vaxtım elə idarədən, çötkədən kənar vaxtımdır. Sağ olsunlar, tanışlar nə çox, vaxt boş, hədər keçirməyə heç qoyarlar! Gündə birinə, elə olur, ikisinə vədəli oluram!"

Onun sözünə inanmaq lazımdır, çünki doğrudan da, o, məşğul olurdu. Onu həmişə restoranda, qonaqlıqlarda, ad günlərində görərdiniz, özü də tək yox! Qızlar ilə gələr, qızlar ilə də gedərdi.

– Cavad qardaş, o saçlı qız kim idi?

– Bizim tanışdır.

– Cavad yoldaş, dünən axşam qapıda bir qadın xeylağı sizi soruşurdu, lap ayrı cür soruşurdu.

– Yox, elə-belə idarə işçilərimizdən idi.

Cavadı toylar, adqoymalar, doğumlar şənliyində də görmək olardı. Oralara da tanış qızlar ilə gələrdi. Görənlər güman edirdilər ki, bəyəndiyi, sevdiyi qız ilə gəzir, yəqin, evlənəcəkdir. Ancaq bu niyyətlər özünü doğrultmadı. Cavadın bir-birini əvəz edən tanışlarının heç biri, görünür, onun zövqünü təmin etmədi. Son zamanlarda evlənmək haqqında nə özü, nə də tanışları danışırdı.

Cavad öz işində idi...

Doğrudur, onun nə arvadı, nə də ana-bacısı vardı. Amma evlilərin çoxu onun kimi təmiz geyinməzdi. Hələ indiyəcən onun üzünü tüklü, köynəyini ütüsüz, kostyumunu ləkəli görən olmamışdı. Hər gün qapıdan çıxanda deyərdin, bu adam toya-bayrama hazırlaşıb.





Bütün bu söhbətlər, dediyimiz kimi, iyirmi beş il bundan əvvələ aiddir.

Bəs indi necə, yoxsa Cavadı külfət basıb?

Təki Cavadı külfət basa idi! Dərd budur ki, onun heç övladı yoxdur, nəinki övladı, heç ailəsi yoxdur!

– Necə olub ki, indiyəcən, 50-55 yaşacan evlənməyib? – Bu sualı çox adam verir, ancaq heç kəs müəyyən cavab ala bilmir. Özündən soruşanda Cavadın sinəsindən elə soyuq ahlar qopur ki, deyərsən, dünyanın dərdini üstünə tökdülər. Bilinmir bu nə sirdir. Biri deyir, nanəcibə rast gəlib, biri deyir, ilk eşqin uğursuzluğundan ömürlük küsüb, bir özgəsi deyir, naxoşdur, canı saf deyil. Nə bilim, bəzisi də deyir, mane olan var, yazığa cadu eləyiblər...

Deyilənlərin hansı nə dərəcədə düz və ya əyridir, bunu kimsə bilmir.

Nə isə, Cavadın işindən baş açmaq çox çətindir. Hörmətli oxuculara məlum olmamış deyil ki, cavanlıq insan ömründə çox gözəl və bəlkə də əvəzsiz bir nemətdir. Əvəzsizdir, ancaq təəssüf ki, həmişəlik nemət deyil. cavanlıq insan ömründə bir bahar kimi açılır, pardaqlanır, gül-çiçək açır, öz vaxtını tez keçirir, sonra da ümumən baharlar kimi solmağa, pozulmağa başlayır, tənəzzülə gedir. Başqa baharlar solsa da, nə eybi var! Gözləyirsən ki, payız, qış ötəcək, bahar təkrar gələcəkdir. Ömrün baharı, təəssüf ki, çox-çox təəssüf ki, belə deyil. Ömrün baharı bir insanın həyatında bir dəfə olur, tək bircə dəfə! Gənclik hər bir kəs üçün bir dəfə olur. Təbiət bu neməti heç kəsə artıq verməyib: tək bircə dəfə! Ömrün baharı ötdü, havaları soyudu, bülbülləri susdu, yarpaqları soldu, çayları donmağa başladı, iş bitdi.

Tarixdə çox böyük və qüdrətli adamlar gəlib-gedib. Şahlar, sərkərdələr gəlib-gedib ki, bir əmri ilə milyonları hərəkətə gətirib. Alimlər gəlib-gedib ki, təbiətin, cəmiyyətin olmazın sirlərini açıb, qanunlarını aşkar eləyib. Ancaq bəşəriyyət tarixi hələ gəncliyini təkrar yaşayan, ömrünün baharını yenidən təkrar edən bir adam yaratmayıb və yaratmasına hələ ki, ümid, ehtimal yoxdur. Fələyin anası elə bir qüdrət sahibi doğmayıb!

Gəncliyin dialektikası, mürəkkəbliyi budur ki, insan başdan da, qəlbdən də çox qızğın, hərarətli olur. Nə qədər desən, məğrur və çılğın olur..

Həmin günlərdə Cavadın köhnə kurs yoldaşlarından biri Murtuz oğlu Ələsgər evlənmişdi. Bu xeyir xəbəri yaxın adam bilib, Cavada da demişdi. Cavad da, Mirzə Kəmtər də bir dilucu mübarəkbadlıq eləyəndən sonra əllərini ağızlarına basıb, pıqhapıq gülüşdülər, başladılar Ələsgəri dolamağa:

– Təzə bəyin bığları gərək ayrı cür vurulsun!

– Qız nə cehiz gətirib, Ələsgər?

– Ələsgər, arvaddan icazə alıb gəlmisən, ya yox?

– Ə, nə əql ilə ayağına buxov vurmusan, a bədbəxt! Sabah-birigün Allah eləməmiş, uşağın-zadın oldu, onda neyləyəcəksən, gül kimi cavanlığına yazığın gəlmir?

Ələsgər stol yoldaşlarının danlağına məruz qalmamaq, həm də sərt cavab verib qanqaralıq salmamaq üçün tez ayrılıb getdi.

Düzdür, subaylar onun dalınca baxıb doyunca güldülər, amma daha bir də onu öz stollarının başında və ya özlərini onun süfrəsi başında görmədilər.

Nə isə, mətləbdən uzaq düşməyək!

– "Subaylıq – soltanlıqdır! Arvad nədi, uşaq nədi, ailə nədi, işingücün qurtarıb? Əqilli olan da başını xətaya salar?"

Nə qədər cavan idi, başı isti, gözü qanlı, cibi pullu idi, Cavad əzbərlədiyi şüarlarla yaşadı. Pis də yaşamadı. Amma gənclik keçəndən, qocalıq gələndən, bədəndə təravət itəndən, cürbəcür ağrılar tapılandan, göz qaralandan, baş ağarandan, dərd çoxalandan, taqət azalandan sonra, elə bil, onun isti başına soyuq su töküb qəflətən ayıltdılar:

– Ey dili-qafil, əlli yaşın var! Bəs hanı sənin arvadın, uşağın? Hanı sənin ailən, isti ocağın, abad xanimanın? Çıraq yandıranın hanı bəs, hanı? Haralarda keçirdin əziz ömrü, nəyin, kimin yolunda?

Əlbəttə ki, Cavad bu dəhşətli suallara müəyyən cavab tapa bilmirdi, tapa bilməyəcək idi də. İndi daha restoran yoldaşı Mirzə Kəmtər də yox idi. O, hansı rayonda isə bir deyişmə zamanı yaralanıb xəstəxanaya düşmüş, oradan salamat çıxmamışdı. Öldüyünü də Cavad sanatoriyadan – Kislovodskdan qayıdandan sonra bilmişdi, başsağlığı verməyə adam da tapmamışdı.



Mirzə Kəmtərin restoranda boşalan yerindən başqa nəyi, kimi qalıb? Cavad kim ilə otursun, kim ilə badə vursun?

İndi restorana girəndə Cavadın heç üzünə baxan olmur. Əvvəllər pulu göyə sovurardı. İndi mümkün qədər ucuz yerdə, mümkün qədər tanınmaz, dalda aşxanalarda yeyir. Xörək gətirənlər də, deyəsən, onu saymırlar. Doğrudur, pulsuz yemir. Amma, deyəsən, ağ önlüklü cavan qızlar onun verdiyini heç pul hesab eləmirlər.

İdarədə də Cavadın daha o növrağı qalmayıb. Vaxtilə içəri girəndə çötkəsinin şaqqaşaqqından durmaq olmazdı. Milyonun haqq-hesabını iki dəqiqəyə yerbəyer elər, qulağının dibindəki karandaş ilə qeydə götürərdi. Kənar idarələrin müfəttişləri çalpaşıq düşən hesabları Cavadın yanına gətirib yalvarardılar:

– Yoldaş Cavad, bu məbləğ çıxmır axı, balansın dərdi nədi? Bax görək!

İndi kişinin gözündə işıq da qalmayıb: iki çeşməyi üst-üstdən taxır, barmaqları kağız tutanda əsir, rəqəmləri tərs oxuyur – çötkəni qarışdırır, beşi üç oxuyur:

– Klara xanım, bağışlayın, zəhmət olmasa, yarım dəqiqəliyə bir bura zəhmət çəkin!

Əvvəllər isə o, belə deyərdi:

– Klara, gəl!

Klara təpəsi üstdə gələrdi. İndi nəzakətin bütün incəliklərinə riayət edərək çağırsa da, "Klara dönüb gözünün ucu ilə də baxmır, "məşğulam!"– deyir.

– Hay namərd dünya! Sən Cavad, qız çağıraydın, o da deyəydi, məşğulam?! Çarxın sönsün, fələk! Hay namərd dünya, təkərin sınsın, motorun sönsün görüm!

Cavad qələmi yerə qoyub, gözünü pəncərədən kənara, şəhər bağının sərin küləkdən titrəşən yasəmən ağaclarına çevirir. Nəzərlərindən çox qadınlar gəlib keçir. Hamısı da Cavada baxır. Biri gülür, biri oynayır, biri mahnı oxuyur, biri söyüş söyür, biri çımxırır.

"Filan xanım, bura bax bir!.. Ay filan qız, söz deyirəm! Deyəsən,

heç bunlar eşitmirlər, ya məhəl qoymurlar. Axı, bunlar mənim yaxın tanışlarımdır. Bunlarla nə qədər vaxt keçirmişəm! Pud ilə şərab içmişəm, kilo ilə duz yemişəm, səhəri dirigözlü açmışam. Axı, bunlara mənim pisliyim ki, dəyməyib. Birini bəyənmədim ki, gödəkdir, birini almadım ki, uzundur, biri məni bəyənmədi, o birisinin dili acı idi, biri ilə görüşəndə, tez idi, bir başqasının iddiasını götürmədim. Kişi haçan evlənsə, gec deyil. Peyğəmbər özü Xədicəni 40 yaşında almadı? Hələ tezdir. İşini gör!.. Ay dolandı, illər ötdü, axırda evlənmək fikrini tamam atdım. Bir nəsli baykot elədim. Bunlar da məni baykot elədilər..."

Cavadın şikayətə haqqı var, çünki fələk də onunla düz gəlmədi, hələ lap əksinə çıxdı. Onun qulluq yerində elə işlər oldu ki, Cavadın fikirlərini alt-üst elədi.

Çoxuşaqlı analara doğum pulu, mükafat kəsilməyi və bu işlərin haqq-hesab dəftərlərinin məhz Cavadın əlindən gəlib-getməyi qəribə idi. Cavad başa düşə bilmirdi ki, bunlar, bu qərarlar nə üçündür?.. Hökumət uşaq doğanları niyə belə əziz tutur? Cavad çox fikirləşdi, belə tapdı ki, evlənən olmur, adam azalır, ona görə hökumət belə tədbir görür. Bu barədə zənnini yəqin eləməmiş yeni bir tədbir çıxdı: subaylara vergi təyin olundu. Cavad az qaldı, özündən çıxsın. Deyəsən, qanunçular onun ürəyindəkiləri bilir, onun acığına belə fərmanlar verirlər.

Cavadın indi ən müntəzir günləri bayram günləridir. Onun huşu özündə olmur. Bu şənliklər Cavada ağır gəlir, çünki gənclik günlərinin səfasını daha çox yada salırdı. Belə günlərdə o yerə-göyə sığmazdı. Mağazadan mağazaya girər, yanındakı rəfiqələrinin zövqü, məsləhətilə ən ləzzətli şeylərdən istədiyi qədər alıb maşına qoyar, evə yollanardı. Axşamlar Cavadın mənzilindən qopan şaqqıltıya çoxları qibtə edərdi.

Bəs indi?

Mayın birində Cavad nümayişə getmədi, çünki daha onda addımlamaq taqəti qalmayıb. Doğrudur, yaşı 60-a çatmayıb, amma görənlər ona 60-dan da çox yaş verər. Üzü qırışıb, gözləri kiçilib, başı ağarıb, bel əyilib, yerişi yavaşıyıb, özü də dinib-danışmaz olub. Ancaq, necə deyərlər, alovu sönməyib. Camaat kimi o da bayram eləmək, çox şeyləri unutmaq, bir çox şeyləri də yada salmaq istəyir.

Bəlkə bugünkü ümumi şənliyi, çalıb-çağıranları, əlvan geyinib küçələri, bağları dolduran camaatı gördüyü, özünün də bunlardan biri olduğunu, vaxtilə onların hamısından artıq gəzdiyini xatırladığı üçün ürəyi tərpənir, hərəkətə gəlir?..



Cavad geyinib küçəyə çıxanda dəstə-dəstə uşaqların şar oynatdığını, velosiped sürdüyünü, top vurduğunu, əl-ələ verib, belədən-belə getdiyini görəndə yarası təzələndi. Üzünü döndərib Mirzə Kəmtərgilə tərəf getdi. Mirzə Kəmtərin çoxdan rəhmətə getdiyini, həmin mənzildə ayrı adamlar olduğunu xatırlayıb tez qayıtdı. Hafizəsinin bu dərəcə pozulduğunu güman etmədi. Qayıtdı, ancaq hara getməli olduğunu müəyyən edə bilmədi: restorana getsin, orada yer tapmaq çətindir. Tapsa da, qabaq-qabağa oturmalı kim var? Evə getsin, günün bu vaxtında bayquş kimi qapanıb tək soyuq otaqda oturmaqmı olar? Yenə tanışlardan birini tapmaq gərək!

Cavad bu fikirlər içində bir də gözünü açanda özünü sahil küçəsində gördü. Adamlar sağa-sola elə cəld və sürətlə gedirdilər ki, deyərsən, bunların yağı daşır. Sanki Cavadın acığına hamının da yanında uşaq: ya balaca, ya böyük, ya oğlan, ya qız uşağı! Çoxdan tanıdığı və illərdən bəri üzünü döndərmədiyi bir qapı sanki onu çağırdı. Bu gilaslı həyət Ələsgərin həyəti idi. Onun atasının sağlığında Cavad bura çox gələrdi, çox da xoş günlər keçirərdilər. Hətta Ələsgərin atası ona da, oğluna da, dostlarına da sifarişli bir çəkmə tikmişdi. O çəkmənin yumşaq, möhkəm, gün kimi işıldayan gümüşü üzü, yeriyəndə cırıltısı indi də Cavadın yadındadır. Ancaq onu nə qədər geydi, hara atdı, o, yadında deyil. Ələsgər evlənəndən sonra əlaqələr kəsilmişdi.

Cavad gilaslı həyətə yaxınlaşanda təzəcə çiçəklənmiş ağacların altında stul qoyulduğunu, məclis qurulduğunu gördü. Həyətdə qız uşağı, divarın yanında dayanmış bir maşın da görünürdü. Cavan bir oğlan dirəkdə işıq xəttini düzəldirdi. Bir məktəbli uşaq yoldaşlarının şəklini çəkirdi. Aparat qabağında duranların biri gülə-gülə qarmonu büküb-açır, bahar mahnısı çalırdı.

– Cəmil, elə olsun ki, oxumağım da şəklə düşsün ey! Konsertin şəkli!

Döşü önlüklü bir qadın da həyətdən keçən arxın kənarında samovar sahmanlayır, kömür alışdırırdı.

Cavad heykəl kimi yerindəcə donub qalmışdı.

Həmin bu mübarək bayram axşamında, bütün evlərdən şənlik, sevinc səsləri ucaldığı bir zamanda Cavadın donuq nəzərləri bir nöqtəyə dikilmişdi. Vaxtilə istehzaya tutduğu Ələsgərin ailə həyatı indi ona ən böyük səadət görünürdü. İndi, ancaq indi ömrünün əziz günlərini "sərbəstlikdə" yox, məhz tənhalıqda itirdiyini dərk edirdi.

Üfüqlərə yayılan musiqi səsləri, ətrafı bürüyən bayram işıqları, uşaqların saf, təmiz, bulaq suyu kimi dumduru mahnı sədası sanki onu qəflət yuxusundan ayıldır, itirdiyi tənha və xumar günləri bir faciə kimi göz önünə gətirirdi: "Hanı sənin ailən, hanı sənin övladın, uşağın?"

Cavad özü də hiss etmədən iki addım yeridi. Matros geyimli bir oğlan onu qarşıladı:

– Əmi, evə buyurun!

Uşağın səsinə evdən qapıya tərəf gələn bir qadın tanımadığı, yerişi-duruşunda bir qəribəlik duyduğu qonağa diqqət etdi:

– Kimdir, içəri buyursunlar!

Qadın yaxınlaşanda Cavad dilə gəldi:

– Səltənət xanım, siz məni tanımırsınız, mən sizi yaxşı tanıyıram. Mən sizin bu ağ günlərinizə qibtə eləyirəm. Səltənət xanım, Ələsgər yəqin, yaddan çıxarıb, deyərsiniz, Cavad gəlmişdi, salam gətirmişdi, yadına düşər!

Cavad bunu dedi, baş əydi, təhlükəli bir şey duymuş kimi, cəld addımlarla uzaqlaşdı.

Səltənət ha fikirləşdi ki, belə bir ad – "Cavad" haçansa, kimdənsə eşitmişdir, ancaq xatırlaya bilmədi.

Cavad ağır düşüncələr, peşmanlıqlar içində uzaqlaşdı, qaranlıqlara qarışdı. "Subaylıq – sonsuzluq!.. Ah, namərd dünya!"

İndi onun "fəlsəfəsi" belə səslənirdi.

*1956*



# QANLI TORPAQ

## 1

–Ağalıq kəhrizi. – Ağalıq yox, ellik kəhrizi!

– Necə yəni, dədə-babadan qalan adı dəyişəcəksən?

– Dəyişəndə nə olar!

– A kişi, bu Həmzə uşağının bir ətək pula qazdırdığı kəhriz deyil?

– Qazan camaat olub!

– Camaat indi niyə qazmır?

– Qazar, indi də qazacaq. Amma daha ağalıq kəhrizi yox, ellik kəhrizi qazacaq!

– Qazar, sonra ad qoyar!

– Elə bunu da camaat qazıb, adını da qoymağa haqqı var, ellik kəhrizi!

– Haqqa bir bax!

– Yüz il nahaqqa baxmışıq, Kablayı, bəsdir. İndi də haqqa baxmaq zamanı çatıb!

Kabla Göyüş Mirzə Məhəmmədin, "dünən-srağagün, ara qarışandan sonra haradansa azıb gələn" müəllimin üzünə hirs ilə, elə tünd baxdı ki, kimə baxsa zəhri yarılardı.

– Allah Əkbər ha!

– Bəli, Kablayı, ağalıq kəhrizi çoxdan köhnəlib: ellik kəhrizi!

Vaxtilə yüzbaşının dəftər-kitabı saxlanan alçaq möhrə divarlı damın önündə – muzdurlar komitəsinin qabağında Mirzə Məhəmməd ilə Kabla Göyüş arasında olan bu söhbəti az adam eşitdi. Mirzə Məhəmməd ucadan danışır, istəyirdi ki, çoxları xəbər tutsun. Xəbər tutsun görsün ki, suyun da, torpağın da əsl sahibi gəlib! Daha bundan sonra kəndlinin, rəncbərin əməyini "hop ötürmək" çətin olacaq. Daha qapalı gözlər açılıb! Kabla Göyüş isə səsə salmaq, "ağzından süd iyi gələn bir gədəyə" baş qoşmaq istəmirdi.

Ancaq o istəsə də, istəməsə də, indi kənddə bu söhbətlər bir deyil, iki deyil, ümumi idi. Böyük də, kiçik də, qadın da, kişi də, avam da, oxumuş da – hamı bundan danışırdı: torpaq, su! Su, torpaq!

Biri deyirdi, mülk sahiblərinin var-yoxunu əlindən alıb kəndlilərə paylayacaqlar. Biri deyirdi, yox, torpağı kəndlilərə verəcəklər, qalan vardövləti qoşun üçün, səngərlərdə vuruşub Qolçaqdan-Denikindən, müsavatdan hökumət alan soldatlar üçün işlədəcəklər. Başqa birisi deyirdi, elə deyil, mülk sahiblərinə pul verib mülklərini kasıblara pulsuz paylayacaqlar. Lap müftə-müsəlləm! Ya da ki, nisyə verəcəklər, məhsul götürdükcə kəndli bəqədri-qüvvə borcunu ödəyəcək...

Düzdür, hamı danışırdı, amma doğru-dürüstünü bilən yox idi. Danışanın özü də təzə xəbərə həvəsiyib danışırdı. Doğrudan da, hər gün bir xəbər gəlirdi. Şəhərdən gələn adamları ziyarətdən qayıtmışlar kimi əhatə edir, əhval soruşurdular:

– Təzə nə xəbər var?

– Səlamətlik!

– Genə olsun?

– Deyirlər, zemlemer gəlir!

– Necə yəni zemlemer?

– Yerölçən, aqronom!

– Ölçüb neyləyəcək? Bizim köyşənin ölçüsü çoxdan var...



– Ölçüb kəndliyə paylayacaq!

– De sən öl!

– Elə şey olmaz!

– Bəli. Qobularsarıda dünəndən paylanır. Zəmiləri ölçhaölçdür!

– Yəni, belə lap rəncbərə, muzdura da yer verirlər?

– Verirlər, torpağı obculuq başa bölürlər.

– Kim neçə başdı?

– Bəli, kim neçə başdı!

– Uşağa da?

– Uşaq-böyük yoxdu. Neçə başsan, o qədər desetin!..

Bu axşam doqqazlardan söz-söhbət kəsilmirdi. Çox adamın inanmağı gəlmirdi ki, lütün birinə, ömründə bir qarış yeri, bir öküzü olmayana, onun-bunun qapısında ömür keçirən rəncbərə pulsuz-parasız torpaq versinlər. Kabla Göyüş bu söhbəti yalansıdıb ucadan deyirdi:

– Balam, Şura hökumətinin füqəraya rəhmi gəlməyi vazeh bir məsələdi. Ona görə də yüzbaşısı, kəndxudası, yasovulu füqəradan olacaq. Kəndlidən, fəhlədən olacaq. Aşkar məsələdi ki, Şura hökuməti kasıbın halına qalacaq. Var olsun belə hökumətin özü də, camaatı, rəiyyəti də! Amma burası var ki, torpaq göydən tökülməyib, tökülməz də ki, onu hamıya da paylayasan. Əlbət ki, Şah Abbas məscidinin, ya imamzadənin 40-50 desatin yeri var. Şura hökuməti də ki, dinə inanmır, bu torpaqları götürüb rəncbərə paylaya bilər. Bu mümkün olandır. Amma onun-bunun torpağını çəkib əlindən alıb müftə-müsəlləm kəndliyə paylasın!! Bu əqlə batan söz deyil. Birisi varından-yoxundan çıxıb yoncalıq salıb, ya zəmi saxlayıb, bağ becərib, bunun kimə nə dəxli var?! Şura hökuməti də əsl, ədalətli hökumətdir, belə şeylərə yol verməz. Adamın əqli var. Camaat çörəyi qulağına yemir ki, elə də şey olarmı! Yox, canım!..

## 2

Qara Fatma Mirzə Məhəmmədin dalınca gedəndə gün üfüqdən yenicə qalxmışdı. Sıx-seyrək buludlar arxasından çıxan cida kimi uzun və iti şüalar dağlara, dərələrə işıq və hərarət yaydıqca, sanki bahar tor-

pağından yenicə baş qaldıran ot-ələfin hamısından buxar kimi ətir və təravət qalxırdı. Fatma dərə aşağı axıb gedən, gün altında bərq vuran, yaşıl tarlaları bıçaq kimi ikiyə bölən ağalıq kəhrizinin göz yaşı kimi dumduru suyuna tamaşa eləməkdən doymurdu. Sanki, bu kəhrizin suyu daha da çoxalmışdı. Sanki mülayim bir səslə şırıldayaraq axan, arxdakı narın qumları yuyub muncuq kimi təmizləyən bahar suları da haradansa eşitdikləri təzə xəbərləri sevinclə pıçıldayırdılar.

Bu xəbərlər Fatmanı da, onun qoca əri Salman kişini də çox məşğul etmişdi. Məşğul etsə də, Salman kişinin bu xəbərlərə inanmağı gəlmirdi:

– Ay arvad, – deyirdi, – zəmanəyə uyma, bu işlərin çox da etibarı yoxdur. Başımıza gəlib, çox yaşamışıq, saç-saqqal ağartmışıq, çox görmüşük.

– Nə görmüşük, a kişi, bu andıra qalmış dünyada haçan bir ağ gün görmüşük!

– Ağ gün görməmişik, amma qara gündə kömür kimi qaralmaq görmüşük, bund ilində dedilər, bəylərin zülmü dayanacaq, dayanmaq bir yana qalsın, daha da artdı. Kazaklar camaata divan tutdu. Nikolay yıxılanda sevindik, dedik, bəli, aydınlığa çıxarıq, hüriyyətlik olub. Sən də, mən də sevindik, il də keçmədi ki, bəy-xan hökuməti nagəhani bir bəla olub göydən daş yağdırdı xalqın başına. Erməni-müsəlman davası düşdü. Şalon budu gəldi, Qafqaz komissariatı odu getdi, müsavat nə divan tutdu. Müsibəti, zilləti getsin gəlməsin... Şükür ki, hamısı da beş gündə sərnigün oldu...

Fatma ərinin sözlərində bir həqiqət görsə də, keçmişin qüssəli mənzərəsini xatırlasa da, "işlərin dəyişdiyinə", zəhmətkeşlərin sözünə, vədəsinə inanırdı. – İndi zaman ayazıyıb, füqəra hökuməti gəlib, Allah ömür versin, deyilənə görə aydınlıq olacaq.

– Bilmək olmaz. Görək...

– Nəyi bilmək olmaz?

– Bilmək olmaz bunun axırı nə olacaq.

– Yoxsullar arxa-arxaya verəndən sonra, inşallah, heç nə olmaz.

– Demə, ay arvad, yoxsulun topu yox, tüfəngi yox.

– Yoxsulun Şura hökuməti kimi dostu, arxası var, qırmızı ordu kimi...



– Düşməni də çoxdur, demə. Düşmən var hələ...

– Rəhbərimiz Lenin özü deyib ki, düşmən basıldı, işi bitdi.

## 3

Axşam namazından, şam yeməyindən sonra əlində çuvaldız çarığını köşələyən Salman kişi ayar səsi eşitdi, əl saxladı, qulaq asdı:

– Həyətdə adam var, deyəsən. Gələn var.

Salman kişi pəncərəyə baxa-baxa, söz ağzından çıxar-çıxmaz qapı açıldı:

– Salman kişi, yatmamısan ki, salaməleyk.

– Ay əleykəssəlam, Kablayı, buyurun, əyləşin.

– Kablayı dadaş, sizdən nə əcəb?

– Əcəb deyil, a Qara Fatma. Mən Salman kişini həmişə yoxlamışam, yoxlayacağam da. Tavarişlik düşməyinə baxma, mənim ürəyim ayrı cürdür.

Fatmanın ağzına gəldi ki, desin "vaxtında yoxlamadın, indi daha daldan atılan daş topuğa dəyər, atalar məsəlidi..." Fatmadan qabaq əri dilləndi:

– Allah əskik eləməsin.

Salman kişi razılıq etsə də, Fatma dinmədi, ayağa durub qapıya çıxdı. Nədənsə Fatmaya elə gəldi ki, Kabla Göyüş "bu daxmaya xeyir üçün gəlməyib."

Fatma həyəti cövlan edib ayrı adam olmadığını yəqin edəndən sonra içəri qayıtdı. Gözlənilməz vaxtda gəlmiş gözlənilməz qonağını diqqətlə dinləmək istədi.

Kabla Göyüş palaz üstündə oturmadı. Salman kişinin verdiyi döşəkçəni altına qoyub pəncərənin taxçasında oturdu. Oturan kimi də əlini atıb qurama pərdəni saldı.

Kabla Göyüşün gəlişi təkcə Fatmanı yox, Salman kişini də narahat etmişdi. O da bu gəlişi gözləməzdi. Ancaq soruşmağa da üzü gəlmirdi. "Bəlkə özü deyəcək!" – deyib fikirləşirdi. Kabla Göyüş bir papiros yandırdı, Salmanın ev-eşiyini diqqətlə seyr etdi. Bir az havaların quraq keç-

məyindən, İranda çəyirtgə törəməyindən, bu Allah bəlasının Muğan tərəfə keçməyindən, soldatların davadan qayıdıb gəlməyindən, müctəhid Ağaseyid Kazım ağanın təzə risaləsindən – oruc-namaz adabından, toxumluq buğdanın bahalaşmasından, bon pulun daha da qiymətdən düşməsindən... danışdısa da, Salman kişi bu mətləblərin heç birində vaxtsız qonaq gəlmək üçün bir zərurət, özünün Kabla Göyüşə müsahib ola biləcəyini kəsdirə bilmədi. Vücudundakı cürəti toplayıb Kabla Göyüşdən bir də soruşdu:

– Kablayı, nə əcəb gecə vaxtında bizi yada salıb, bu kasıb daxmasına təşrif gətirmisiniz. Xeyir ola?

Kabla Göyüş, sanki, Salman kişinin bu sualını gözləyirdi. O yanbu yana nəzər saldı, səsini dəyişib mehriban, məhrəm bir ahəng ilə əsas mətləbi danışmağa başladı.

– Salman kişi, mən səni, Fatma da qoy eşitsin... mən səni mömin adam, Allah adamı bilirəm, yəqinimdi ki, elə də var!

– Allah ömür versin!

– Mömin adam bilirəm və buna da inanıram. Sən də qulaq as, Fatma! Sözümün canı var! Salman kişi, sən axundların, vaizlərin yanında oturub-durmusan, mənə bir de görüm, özgənin yerini qəsb eləyən adamın oruc-namazı dürüst olar, ya yox?

– Xeyr, Kablayı, şəriət haram buyurub. Özgənin yerində ibadət batildir! Olmaz!

– Batildir?

– Bəli, batildir!

– Ay atan oldu rəhmətlik! O gədə var ey, bu ildən göndəriblər bura mirzəliyə ha?

– Mirzə Məhəmməd?

– Hə, Mirzə Məhəmməddi-nədi. Kənddə haray salıb ki, mülk sahiblərinin yerini ona-buna bölüşdürək gərək!

– Mən də eşitmişəm, şəhərdən o cür xəbər gəlib!

– Şəhərdən ayrı cür xəbər gəlib. Şəhərdən böyüklərə, ispalkomlara tapşırıblar, kəndliyə torpaq versin! Yəni harda boş yer var verin, qoyun əksinlər. Amma deməyiblər ki, Kabla Göyüşün ata-baba torpağını əlindən alın hərraca qoyun!

– Əlbəttə, elə deməzlər.



Kabla Göyüş hirsləndi:

– Bu köpəkoğlu lap ayrı söz danışır.

– Xeyr, Kablayı, cürəti nədi, ayrı söz danışa!

– Yox, danışır. Başın üçün danışır!

– Xeyr, canım, elə deməzlər!

– Biri sənin özün, Allah bəndəsi, pak, pakizə, halal-haram bilən adam. De görüm, sabah sənə desələr, gəl bu kişinin sulu yerlərini götür, götürərsən, ya yox?

– Xeyr, Kablayı, mənə sənin yerin nə lazım, bu nə sözdür!

Fatma söhbətə qarışdı:

– Hökumət verəndən sonra nə deyəcəksən!

Kabla Göyüş Fatmaya qışqırdı:

– Səfih söz danışma, ay arvad, hökumətə deyə bilməzsən, mənə ayrı yerdən torpaq ver? Kişinin malı mənə lazım deyil!

Salman kişi onun sözünə qüvvət verdi:

– Bəs nədi, mənə özgənin yeri lazım deyil. Boş yerlərdən götürmək olar.

Fatma ərini başa saldı:

– Boş yerdə toxum bitər, bəyəm, a kişi?

– Bitirərsən, bitər!

Kabla Göyüş Fatmaya tərəf qəzəblə nəzər salandan sonra dönüb Salman kişinin gözünün içinə baxdı və barmağını silkələdi:

– Bax, belədi ha! Bizim müsəlmanın dini-imanı laxlayıb! Çoxdan laxlayıb. Sənin kimi Allah bəndəsindən çox şey asılıdır. Sabah o gədə səni fitnə-fəsada çağıranda gərək getməyəsən. Gərək şeytana uymayasan. Gərək şəriəti, dini ayaqlamayasan! Mən bunları niyə deyirəm, Salman kişi? Ona görə deyirəm ki, aralığa yenə qalmaqal düşməsin. Allah şeytana lənət eləsin. Qoy Fatma da eşitsin: sənə yer lazımdır, özünə əkintikin eləmək istəyirsən, mənə de! Mən Kabla Göyüş, Hacı Kazım oğlu Kabla Göyüş, atama lənət, əgər səndən əsirgəsəm. Odur, dəyirman altındakı zəmilər. Götür əkin, halal xoşun. Lap çatmayanda beş gün-üç gün kotanımı da verim. Kasıb Allah bəndəsisən, bir tikə çörək sahibi olarsan, mənə də xoş olar, Allah da razı olar, sözməsəli. Amma, Salman kişi, onda ki, gördüm dərənin zemlemerini, ya mirsini yanına salıb mə-

nim çəpərimə gəlmisən, mərzimə ayaq basmısan, tavarişliyə salmaq istəmisən... onda daha özün bil. Onda körpü qalacaq çayın bu tayında. Onda daha, necə deyərlər, altda qalanın canı çıxsın...

Bu sözləri deyəndə Kabla Göyüşün həm dili titrədi, həm rəngi qızardı, həm də xurmayı papaq altından parıldayan gözləri alacalandı.

Salman kişi də, Fatma da Kabla Göyüşün sözlərinə qulaq asır, susurdular. Kabla Göyüş qabağındakından cavab eşitmədikcə havalanıb danışır, sözlərinin axırını da aparıb imam-peyğəmbərə, şəriətə, Qurana bağlayırdı.

Salman kişidən səs çıxmasa da, Fatma dilləndi:

– Kablayı qardaş, bizim sənin nə yerində, nə suyunda gözümüz var. Allah özünə qismət eləsin, biz nə yer alanıq, nə də verən.

– Əlbəttə, əlbəttə.

Salman kişi Fatmanın sözünü təsdiq etmək istəyəndə Fatma ona çımxırdı:

– Dayan bir, kişi, qoy sözümü qurtarım. Allah özünə qismət eləsin, ancaq bu mətləbləri get şəhərdə danış. İspalkomların, kombedlərin, ağranomların yanında danış. Bizə niyə deyirsən bunları, a bəy?

Fatmanın sözü o qədər də acıq gəlməzdi, Kablayı Göyüşə "bəy" deməsə idi. Bəy sözü Kabla Göyüşə bir gülləden ağır idi:

– Ay arvad, yəni bu məqamda mənim ayrı işim, yaxşılığım yada düşmür bəylikdən başqa?

– Bəyliyiniz də təki həmişə olsun, nə deyirəm!

– Yox, Fatma arvad, bilirəm, nə deyirsən, yaxşı bilirəm!

– Kablayı, o avamdı, qulaq asma!

– Avam kimi danışmır. Özünə görə danışmır axı! Lap cinatdel kimi danışır! Baxırsanmı bir, a kişi!

– Bənd olma!

## 4

– Yoldaşlar, ayıq olun! Düşmənin hiyləsinə uymayın. Şura hökuməti torpağı kəndliyə verir. Bu, dünyada ən ədalətli bir işdir. Çünki torpaq gərək əkənin, becərənin əlində olsun, nəinki mülkədarın,



qolçomağın! Qolçomaqlar indi də şəriətin çürük ehkamından yapışır, avam kəndliləri aldatmaq istəyirlər. Haram-halal məsələsinə qalanda yüz illərdir onlar mənimsədikləri torpaqdan, muzdur əməyindən dolanıblar. Özləri əllərini ağdan-qaraya vurmayıblar.

Mirzə Məhəmməd məscid qabağında, pilləkən üstündə camaata belə müraciət edəndən sonra üzünü Salman kişiyə tutub uşağı başa salan bir əda ilə dedi:

– Salman əmi, torpağı heç kəs heç yerdən gətirməyib, o da su, hava kimi bizə təbiətin verdiyi nemətdir. Kim ki, indiyəcən ona sahiblənib, sizin kimi kəndliləri yoxsulluğa salıb, əsl günahkar odur. Elə adamın nə namazına, nə orucuna inanmayın!

Torpağı biz ümumi mal sayanda, ailələrə başa görə paylayanda əsl ədaləti bərpa edirik. Allaha da, bəndəyə də xoş gedən budur. Torpaq əkənindir. Bunu bizə Lenin yoldaş deyib. Bunu bizə Nəriman yoldaş deyib, bunu bizə Mirzə Ələkbər Sabir deyib.

Mirzə Məhəmməd əlini göyə qaldırıb şüar kimi dedi:

*Torpaq əkənin, yer özünün, güc öküzünkü,*
*Bəyzadələri, xanları neylərdin, ilahi!..*

Kəndlilərin çoxu ona səs verdi:

– İlahi!

– Neylərdin, ilahi!

Kabla Göyüş də məscid həyətində yekə bir daşın üstündə oturub gümüş qəlyanını tüstülədir, "dünənki uşağın" nitqinə qulaq asırdı. Söz bura çatanda təəccübdənmi, hirsindənmi dik qalxdı: "Gecəki söhbəti kim bunlara çatdırıb? Yəqin Salman kişinin... yox, kaftar arvadın işidir..."

Nagəhani bir zərbə yemiş kimi, Kabla Göyüş qəlyanını boşaldıb qurşağına sancdı, uzun, ağır gövdəsiylə irəli yeriyib cavab vermək istədi:

– Bura bax, bacıoğlu, sən nə sənətin sahibisən?

Mirzə Məhəmməddən qabaq kəndlilər cavab verdilər:

– Kəndin mirzəsidir! Təzə gəlib, müəllim!

Kabla Göyüş Mirzə Məhəmmədin üzünə dik-dik baxıb hədə ilə dedi:

– Biz belə mirzə görməmişik. Sən burda mirzəlik eləmirsən, aşkar vəzir-vəkillik eləyirsən!

– Mən kəndliyə öz hüququnu başa salıram.

– Sən, yaxşısı budur, dilini qoy qarnına, camaat içinə ikitirəlik salmaginən!

Mirzə Məhəmməd səsini daha da ucaltdı:

– Bağışlayasan, Kablayı. Daha keçmiş ola! Bizdən susmaq gözləmə. İndi daha söz əli qabarlınındır!

Kabla Göyüş Mirzə Məhəmmədi öz sözündən tutmaq istədi:

– Ə, sənin ki pambıq kimi xanım əllərin var!

Kəndlilər sözə qarışdılar:

– Onun ürəyi közərib xalqın dərdinə yanmaqdan! Sən öz fikrini çək, ay bəy! A müftəxor!

– Onları belə məclisə niyə buraxırlar ki!..

– Salman kişi, görürsənmi? Sənin qanını içər, haram deməz!

Camaat içində daha artıq istehzaya tutulub, acı söz eşitməmək üçün Kabla Göyüş cəld addımla aradan çıxdı.

Səhərisi Daşlıca kəndinin köyşənlərində dəstə-dəstə adamlar görmək olardı. Muzdurlar komitəsinin, torpaq şöbəsinin, kənd ispalkomunun nümayəndələri uzun bir lent ilə zəmiləri ölçüb kəndlilərə paylayır, ötüb-keçənin xeyir-duasını eşidirdilər. Adama elə gəlirdi ki, insan heç vaxt torpağa bu qədər yaxın olmamışdır. Sular heç vaxt belə sərbəst axmamışdır, üfüqlər heç vaxt belə açıq, təmiz olmamışdır.

Köç yolundan, uca qovaq ağaclarının sıxlaşıb evləri, çəpərləri örtdüyü yerdən bir adam çıxıb yeyin gəlirdi. O, yer bölənlərə tərəf gəlirdi. Elə sürətlə gəlməyindən məlum idi ki, nəsə bir xəbər gətirir. Yaxınlaşanda gördülər ki, Salman kişi qan-tər içində, töyşüyə-töyşüyə danışır:

– Yoldaş zemlemer, ispalkom çağırır, Mirzə Məhəmmədi öldürüblər!..

Salman kişi ancaq bunu deyə bildi:

"Haçan, harada, kim, necə, nə sayaq?.."



Bu sualların heç birinə Salman kişi cavab verə bilmədi. Dəsmalı gözünə basıb hönkürə-hönkürə kənd üstünə qayıtdı.

O gün səhər, köç yolunun altında, kəhriz quyularının ayağında Mirzə Məhəmmədin meyitini tapmışdılar. Sinəsində, başında yeddi yara var idi. Xəncər yarası! Vacib iş üçün axşam vaxtı tək şəhərə getdiyi yerdə yaxalayıb öldürmüşdülər...

O, məsum bir uşaq kimi üzüüstə düşüb sanki həqiqət deyən nazik dodaqları ilə torpağı öpürdü. Sanki uğrunda həlak olduğu torpağa səcdə etmək onun son andı idi!..

Salman kişi cavan bir oğlanı, kəndin, camaatın əzizini belə görəndə qoca canından sərt bir gizilti keçdi. Mərhumun sinəsindən, ürəyindən axan qan xeyli yeri islatmış, sanki sirli bir yazı yazmışdı. Salman kişi savadsız idi. Kitabların yazısını oxuya bilməzdi. Amma Mirzə Məhəmmədin qanı ilə yazılanı oxuya bildi:

– Torpaq yolunda, ədalət yolunda hələ çox qurbanlar gedəcək!.. Bilin, ay camaat!

*1956*

# DÖYÜŞÇÜNÜN DEDİKLƏRİ

## I

Qüdrət ümidsiz ağır yataqdan qalxmışdı. Özünü yenidən dünyaya gəlmiş sayırdı. Deyə-gülə danışır, fərəhlənirdi.

– Qüdrət, – dedim, – şükür, daha lap yaxşısan, danış görüm harada, necə yaralanmışdın? Eşidəndə lap nigaran qalmışdıq.

– Bilirsən, qonşu, ata-babadan ki, deyirlər, əcəl ha! Əcəl məsələsinə bu dəfə mən inanıram. Doğrusu, o ağır vuruşmalardan çıxmağı mən öz gücümdən bilmirəm, çünki sənə də məlumdur ki, mən qabaqlarda əsgər olmamışdım, heç tüfəngin üzünü görməmişdim. Qorunmağı, müharibə sənətini də bilmirəm. Təvəkkül deyib, özümü döyüş meydanına atmışdım. Çox çətin yerlərə, ağır şəraitə düşdüm. Sağlığına, hamısından sağ-salamat çıxdım.

Qüdrət bunları deyib dayandı. Mən, sözünü qurtardığını güman edib soruşmaq istəyirdim, lakin o, başını yuxarı qaldırıb davam etdi:

– Kimin gücünə?

Qüdrət bunu, deyəsən, məndən soruşurdu. Bu suala, əlbəttə ki, mən





cavab verə bilməzdim. Sualı müsahibimə qaytardım:

– Kimin gücünə?

– Ağlınızca nəyin gücünə mən od-alovdan xilas olurdum?

– Yəqin ki, zirək tərpəşirmişsiniz!

– Xeyr, məndən çox zirəkləri var idi!

– Zabitiniz yaxşı imiş, ya da yaxşı yoldaşlarınız var imiş!

– Daha bir səbəb var!

– Onda siz zirehdən paltar geymisiniz!

– Əynimdə sadəcə əsgər köynəyi olub, bəzən də şinel.

– Bəlkə, siz tank içində olmusunuz?

– Həmişə açıqda piyada vuruşmuşam! Heç bir maşınım olmayıb. Mən ayrı şeydən bilirəm.

Qüdrət sözünü kəsib, üzünü içəri otağa tutdu və səsləndi:

– Nigar! Nigar!

On yaşlı qız, utana-utana içəri girdi və zərif, nazik səslə soruşdu:

– Ata, çağırdın?

Qüdrət mənə sarı döndü:

– Bunu görürsünüzmü? Mənim xilaskarım budur. Ölümdən qurtarıb!

Qüdrət yaxınlaşıb, Nigarın üzündən öpdü:

– Get, qızım, get, bizə çay gətir.

– Nigarın xilaskarlığı nədən ibarət ola bilər?

Qüdrət mənim şübhəmi rədd etdi, diqqətlə mənə baxdı, böyük bir mətləbdən xəbər verənlər kimi danışdı:

– Mən adyutantlığa keçəndən sonra dəstəmizdən ayrılmışdım, işim komandiri qorumaq idi. Payızın axır aylarında biz 20-25 günə qədər səngərdə, müdafiədə dayandıq. Heç bir tərəfdən hərəkət yox idi. Əmr gözləyirdik, günlərimiz, cəbhədə çox xoşagəlməz olan durğunluq, yeknəsəqlik ilə keçirdi. Təzəlik ondan ibarət olurdu ki, üçdə-beşdə bir kəşfiyyata kiçik dəstələr gedir, əsir tutub gətirir, ya yaralı qayıdırdılar. Yenə bir kəşfiyyat dəstəmiz axşamacan qayıtmamışdı, uzaqda atışma səsi eşitdik. Bir neçə nəfər köməyə getdik. Güman edirdik ki, nəsə bizimkiləri əhatə ediblər. Düşmən mövqelərinə çatar-çatmaz atışma daha da şiddətləndi. Qumbara səsi eşidirdik. Biz də silahlarımızı işə saldıq.

Elə ilk güllələrdən sonra üstümüzə yağış kimi atəş açdılar. Bir də gördüm, qolumdan tutub məni fırlatdılar. Dönəndə heç kəsi görmədim. Amma, deyəsən, isti bir əl mənim qolumu hələ də buraxmamışdı. Deyəsən, dirsəyimdən aşağı sürüşürdü. Mən dərhal anladım ki, bu qandır. Daş dalına yatıb qoluma baxanda yaralandığımı gördüm. Qəribədir ki, ancaq biləndən, görəndən sonra qolumda ağrı hiss etdim və ağrı get-gedə şiddətləndi. Məni sanitar məntəqəsinə, oradan bir xəstəxanaya, oradan başqasına, yavaş-yavaş lap arxaya, bizə yaxın yaylaq yerə, K. şəhərindəki xəstəxanaya gətirdilər. Həkimlərin qayğısı sayəsində yaram gündən-günə yaxşılaşır, ağrı kəsilirdi. Şükür ki, şikəstlik də olmadı. İndi bu qolum bir balaca ağır tərpənir, geriyə qanrılmır. Əhəmiyyətsiz şeydir. Sözüm bunda deyil, xəstəxanada bir hadisə oldu, sizə onu demək istəyirəm. Ağ, üçmərtəbə, yaraşıqlı daş binadır. Dağın döşündə tikilib. Qabağından çay axır, çayın o tayı qalın meşəlikdir. Meşənin içində də məskən salıb yaşayan kəndlilər vardır. Hər səhər durub həyətə çıxanda görürsən, kəndli qadınlar ərzaq gətirib satırlar: yumurta, süd, qatıq, alma, çiyələk... Doğrudur, xəstəxana məmurları buna icazə vermirlər, satıcıları görən kimi, qovurlar, amma kəndlilər baxmır, səhər-axşam özlərinə fürsət tapırlar. Burada mənim köhnə məktəb yoldaşım, indi isə topçu komandir Nüsrət yatırdı. Hər gün biz görüşüb-dərdləşir, məktəb günlərini xatırlayıb, xüsusi bir ləzzət duyurduq. Nüsrət əvvəldən də əsəbi, bir qədər tündməcaz, necə deyərlər, qırmızı adamdır. Sözü dik adamın üzünə deyəndir. Bunun üçün çoxları ondan inciyirdi. Ancaq Nüsrət buna məna vermirdi, Sabirin bir sözünü təkrar edirdi:

*Dəhr, bir müddət oldu mənzilimiz,*
*Yaşadıqca çoxaldı düşmənimiz,*
*Nə edək, doğru söylədi dilimiz!*

Nə isə, belə adamdır. Bir axşam olardı saat 5-6. Xəstələr istirahət saatından sonra yavaş-yavaş həyətə, havaya çıxırdılar. Mən aşağı düşməyə hazırlaşırdım. Nüsrətin səsini eşitdim. O, aşağı mərtəbədə olurdu. Öz palatasından yuxarı qalxır, mənim yanıma gəlirdi. Gəlirdi ki, özü də kimin dalınca, nə üçünsə deyinirdi:



– Vicdan yoxdur ki, ürək əvəzinə sinədən daş asılıb!

Bu sözü deyə-deyə Nüsrət otağa girdi, kürsü çəkib oturdu.

– Ay Nüsrət, – dedim, – qoy ürəkdən, könüldən şairlər, ədiblər danışsın. Sən topçu babasan, vurub-yıxmaqdan, ölüb-öldürməkdən danışasan gərək.

– Hər şeyin, – dedi, – yeri var. Mən gördüyümü daş görsə, yumşalar. Amma elə adamlar var, halına təfavüt etmir.

– Nə görmüsən, qardaş?

Nüsrətin palata yoldaşı Qurban əlində bir dəstə otuzluq, içəri girdi və Nüsrəti inandırmağa çalışdı:

– Vermir, ay rəhmətlik oğlu! Vallah vermir, inandığımız haqqı, satmır. Yoxsa mənə bir elə qutu lazımdır. Sən deməsən də alardım.

Nüsrət daha da hirsləndi, qalxıb otuzluqları Qurbanın əlindən aldı və həyətə yüyürdü:

– Gəl, görüm necə satmır. Yəni istədiyini verəndən sonra niyə satmasın...

Onlar düşüb getdilər. Mən də əl-üzümü yuyub geyinməyə məşğul oldum. On dəqiqə çəkmədi ki, yoldaşlar heyrət içində geri qayıtdılar. Nüsrət yenə Qurbanı danlayırdı:

– Yəqin, qızı qorxutmusan!

– Mən qorxutmuşdum, sənə sataydı da! Bəs niyə vermədi?!

Nüsrət dinmədi, üzünü mənə tutdu.

– Qüdrət, – dedi, – 10-11 yaşlı bir qız uşağı əlində gümüş papiros qutusu satır. Mən çəkən deyiləm, almağa pulum da yoxdur. Elə-belə uşaqdan xoşum gəlir. Qaragöz, məsum bir uşaqdır. Soruşdum, dedi: "Atam cəbhədədir, anam xəstə yatır. Bu qutunu satmağa gətirmişəm". Bunu eşidən kimi ürəyim dözmədi. Pullu uşaqlara dedim alın, o qutu bəlkə üç yox, beş yüzə dəyər. Alın, bu uşağı yola salın. Bəlkə anasının dava-dərmana ehtiyacı var? Ona dedim, buna dedim, alan olmadı. Mən də hirslənmişdim ki, ay filan olmamışlar, zirə-zibilə verirsiniz, xəlvəti şərab alıb içirsiniz. Nə olar, pulunuz bir müstəhəq yerə qismət olanda!

Qurban ilə getdim, üç yüz manat saydıq qızın ovcuna, qutunu bağrına basıb ağladı ki:

– Satmıram!

Deyirəm:

– Qızım, niyə ağlayırsan, necə istəyirsən verək, yoxsa qorxursan?

– Yox, – deyir, – əmi, satmıram!

Mən bu söhbətin dalısını eşitməkdənsə, bu qəribə uşağı görmək istədim.

– Nüsrət qız həyətdədirmi?

– Oradaca durub.

– Pulu mənə verin, siz uşaq ilə danışmağı bacarmırsınız. Ata olmayan adam uşaq dindirməyi bacarmaz!

Pulu aldım, hər üçümüz aşağı düşdük, pilləkən ayağında onları saxladım:

– Siz, – dedim, – gəlməyin, qoy mən tək gedim. Sizdən onsuz da şübhələnib.

Onlar diqqətlə həyətə, o yana-bu yana baxdılar. O ağacın dalına, bu damın küncünə, yolun üstünə...

Qız yoxa çıxmışdı. Qurban dedi:

– Qaçıb!

Nüsrət meşəni göstərdi:

– Odur ey, odur, gedir!

Mən kollar arasında pişik kimi asta yeriyən qaraltını güclə seçdim.

– Yazıq uşağı qorxudub qaçırtmısınız, – dedim. – İnsafsızlar!

Səhər tezdən Nüsrət qaça-qaça mənim yanıma gəldi:

– Sən öləsən, qız gəlib!

– Necə, indi nə satır?

– Nə satacaq, həmin qutu əlində dayanıb!

Hər ikimiz Qurbanı tapıb, pulları aldıq. Nüsrət kənarda dayanıb uca qarağacı göstərdi:

– Odur ey, ağacın altında, su krantının yanında dayanıb, yeri! Cəld ol!

Mən əlimdəki pulu saydım, qatlayıb qoltuq cibimə qoydum, qıza tərəf yeridim. Nəzərim uşaqda idi. O da mənə baxırdı. Çox getmişdim, az getmişdim, onu bilmirəm, bir də ürəyimin sinəmdən çıxdığını, qızın isə onun yerinə hoppandığını gördüm:

– Atacan!



Daha mən bilmədim ki, haradayam, nəçiyəm və bu nə işdir! Gözlərimin yaşını silə-silə qızımı, həmin bu Nigarı qucağımda palataya gətirdim, papiros qutusu da əlində. Nə Nüsrət, nə Qurban, deyə billəm, bütün yaralılar, həkimlər, bacılar bizim başımıza yığıldılar. Kimi soruşur, kimi görüşür, kimi qıza sovqat verirdi. Nigar isə boynuma sarılıb bircə bunu deyirdi:

– Atacan! Atacan!

## II

Üç ay əvvəl, şəhərdə kənd təsərrüfat işlərinə adam çağıranda mənim arvadım da getmişdi.

– Yaylaqdır, – demişdi, – gedərəm, həm havası xoş, həm ərzaq ucuz, həm də yüngül işlərdə işlərəm, alma-armud yığıb qış üçün ruzi hazırlayaram.

Ay yarım işlədikdən sonra yazıq arvad soyuqlayıb yorğan-döşəyə düşmüş, ancaq Nigarın ümidinə qalmışdı...

Bir neçə gün başım ailəyə qarışdı. Xəstəxanadan tanış həkimlər gətirdim. Dərmanlar tapdım, teleqram vurub qaynımı çağırdım. Arvad balaca dirçələn kimi şəhərə köçürməyi ona tapşırdım. Mənim bir ayağım burada, biri cəbhədə idi. Artıq təmiz sağalmış idim. Bu gün, sabah komissiya gözləyirdim.

Hər şeydən çox məni maraqlandıran papiros qutusu idi. Qutu deyəndə, heç vədə mən ona əziz şey kimi baxmırdım. Cavanlıqdan qalma bir şey idi. On il bundan qabaq papirosu tərgitmişdim. Qutu da evdə atılıb qalmışdı. Nigarın bunu satmağa gətirməyi də aydın idi. Mən evdən çıxanda arvada and verib tapşırmışdım ki, korluq çəksən, nəyim var, sat! Bir uşaqdır, tamarzı qalmasın.

Qutu, bir qutu kimi məni maraqlandırmırdı. Mən bilmək istəyirdim görüm, Nigar onu satmağa gətirmişdisə, bəs niyə satmırdı? Bəs niyə istədiyi qiyməti verənləri rədd edirdi? Anasının deməyinə görə, qutunu bir həftə aparıb-gətirirdi.

– Nigar, – deyirəm, – qutunu istəyirdilərmi?

– İstəyirdilər.
– Neçəyə?
– Üç yüzə!
– Sən neçəyə deyirdin?
– Anam üç yüz demişdi.
– Sən müştərilərə neçəyə deyirdin?
– Üç yüzə!
– Bəs niyə vermirdin?

Nigar uşaq dili ilə böyüklərə yaraşan bir sözü deyirdi:

– Ata, sənin qutunu necə özgələrə verəydim?

Həqiqətən belədir. Nigar atasının malına sahibsiz kimi baxa bilmirdi. Atasının əmanətini saxlamaq istəyirdi. Ona elə gəlirdi ki, bu qutu getsə, atası bir daha qayıtmayacaq, evdə atasını yada salan nə varsa, bir-bir qutu kimi yox olacaqdır. Bu isə uşağı dəhşətə gətirirdi. Nigar bunu duyurdu, ona görə hər gün anasının əmri ilə qutunu satmağa gətirir, qəlbinin hökmü, ata məhəbbəti ilə təkrar evə qaytarırdı.

1957



# İTPƏRƏSTLƏRİN HƏYƏCANI

Bu səhər itpərəstlər idarəsində bərk həyəcan var idi:

– Nə olub, nə xəbərdi?

– Nə olacaq, zülm ərşə dayanıb.

– Kimin zülmü?

– Kimin olacaq, özünüz bilmirsiniz ki, 20-ci əsrdə zülmün binasını qoyan kommunistlərdi!

Katib müsahibinin laqeydliklə üz döndərmək istədiyini görəndə səsini ucaltdı:

– Siz deyəsən bugünkü radiolardan xəbərsizsiniz, cənab! Kommunistlər sandıq tulasını göyə tullayıblar. Gül kimi bir sandıq tulasını! Diri-diri!

– İtin göydə nə işi?

– Sən onu kommunistlərdən soruş!

– Ağzında sandıq tulası deyirsən, yerdəki sandıq olmasın, olsun göydəki!

– Düşünün bir, cənab, raket sandıq deyil, barıt qutusudur, partla-

ya bilər. Heyvanın vücuduna bir sədəmə toxuna bilər. Onda bəs nə olsun, kim cavab verəcək? İtpərəstlik borcumuz harada qaldı?

– Kommunistlər özləri bu cinayətə cavab verərlər.

– Onların cavabı bizə lazım deyil. Bizə sandıq tulası lazımdır. Tulanın can sağlığı lazımdır! Şərəfi, hüququ lazımdır!

Katib telefonu götürüb itpərəstlər cəmiyyətinin sədrinə, müalicəxanaya, qəzet idarəsinə, sanatoriyaya xəbər verdi, təcili tədbir istədi:

– Biz bu vəhşiliyə və təcavüzə qarşı ciddi tədbir görməliyik! İtpərəstlər sıx birləşməlidir! Biz sandıq tulasının bu saat öz mənzilinə qaytarılmasını tələb etməliyik. Həm də onun səhhəti barəsində dürüst və etibarlı vəsiqə lazımdır, cənablar! Əfkar-ümumiyyə ayağa qalxmalıdır! Nato, Mato, Seato, Neato... hamısı səs-səsə versin! Bu saat! Təxirsiz!

Çox çəkmədi ki, şartaşart maşınlar işlədi, lentlər uzandı, teleqramlar çap olundu, xəbərlər yayıldı. Sinqapurdan tutmuş Vaşinqtona, Londona qədər quruda, havada, suda etiraz səsləri ucaldı.

Sandıq tulasının müsibəti, az qala, itpərəstlər aləminin ümumi matəminə çevrilmişdi.

Amma di gəl ki, kommunistlər saya salmırdılar. Elə bil heç bunlar nə görür, nə eşidirdilər. Tula da göydə, soyuq fəzada fırlanırdı, hələ yerə bəzi xəbərlər də verirdi. Katib bir gün gözlədi, iki gün gözlədi, gözlədi ki, sovet səfirliyi gəlib tövbə deyəcək, sandıq tulasının qohum-əqrəbasından üzr istəyəcək.

Yox! Kommunistlərin heç vecinə deyildi. Göydən gələn siqnalları sakitcə təhlil-tədqiq edirdilər.

Katib qəzəblənib itpərəstlərin ümumi yığıncağını çağırdı. Qışqırtı meydanında tribunaya qalxıb atəşin bir nitq söylədi:

– Cənablar! Xanımlar! Ağalar! Biz adımızı itpərəst qoymuşuq. Ancaq biz bu şərəfli ada layiq deyilik! Bəli! cürətlə deyə bilərəm ki, biz bu adı doğrulda bilmirik. Yoxsa Rusiya kommunistləri bizim əzizimiz, gözümüzün işığı olan sandıq tulasını bir rezin top kimi göyə atmaz, dondurucu fəzada fırlatmazdılar! Sizə məlumdur ki, o məzlumun başına nələr, nə fəlakətlər gələ bilər. Onda di gəl, tədbir görmək gec olacaq!..

O, sözünü belə tamamladı:



– Tükləri ipək, gözləri göyçək, ağız-burnu qəşəng tulalar uğrunda! İrəli!

İtpərəstlərin həyəcanı qaynadı:

– Kommunistlərin bu zülmü dünyaya elan olunsun!

– Mətbuat ayağa qalxsın!

– Qoşuna xəbər verilsin!

– Atom silahına güc verilsin!

– Vəsait toplansın!

– Elə bir bomba hazırlansın ki, Sovet torpağını alt-üst eləsin!

– Cənablar, müharibə başlamaq istəyirsiniz?

– Bəli, bəli! Bu zülmə qarşı müharibə, ancaq atom bombası ilə cavab vermək olar!

– Sandıq tulasını ancaq üçüncü cahan müharibəsi xilas edəcək!

– Bütün itlər səfərbər edilməlidir!

– Müharibə, yenə də müharibə!..

İtpərəstlər cəmiyyətinin ürəyini soyudan bu oldu ki, tezliklə kommunistlər dünyasına atılmalı bombaların sayı çoxalacaq, qırğın gücü artacaqdır!..

Hamı sevinclə müşavirədən dağılanda katib ürəyində fikirləşirdi ki, bu mühüm qərarı sandıq tulasına necə çatdırsın, onun ürəyini necə sakit eləsin. Sandıq tulası isə radioların verdiyi xəbərlərə görə, göylərin yeddi qatında sürətlə fırlanır, kainatın sirli hadisələrinə heyrətlə tamaşa edir, qərbin bəzi şəhərlərinin üstündən ötəndə hürməyi də unutmurdu: "Haf, haf!"

Katib xəyalən öz əziz dostuna salamlar göndərirdi: "Qəm yemə! Səni əsarət zəncirindən xilas edəcəyik! Sandıq tulası sandıqdan çıxsın gərək!"

*1957*

# HAVA BÜROSU

Rəşid tikinti texnikumunu təzəcə təhvil almışdı. Birinci gün müəllimləri başına yığdı, tədris, təcrübə planları ilə tanış oldu, ikinci gün təsərrüfat işçiləri ilə söhbət elədi, yataqxanaları yoxladı, üçüncü gün siniflərin, kabinetlərin, direktor otağının səliqə-sahmanına fikir verdi:

– Qürbət xala, bir bura zəhmət çək!

Böyük dəhlizdə güldanların yanında hansı bir tələbə iləsə şirin-şirin danışan xidmətçi qadın təzə direktorun işarəsinə quş kimi qaça-qaça gəldi:

– Nə buyurursunuz? Mən hazır!

Direktor Qürbət xalanın qolundan tutub kabinetdəki böyük, işıqlı pəncərələrin qabağına apardı, gün istisindən saralmış parusin pərdəni qaldırdı, şəhadət barmağı ilə sanki maraqlı bir şey göstərdi:

– Deyəsən, bu pəncərəyə qışdan bəri əl dəyməyib, axı! Tozu, ləkəni, lap yuxarıda hörümçək torunu görürsünüzmü, xala?..



Qürbət xala əl-ayağa düşüb silgi dalınca qaçmaq istəyəndə direktor buraxmadı:

– Dayan, bu da çilçırağın lampoçkaları!.. Gəlib-gedən, görən bizə nə deyər, ay xala, diqqət yetirin!

İki dəqiqə çəkmədi ki, kitabxana nərdivanı, sabunlu su ilə dolu vedrə, yaşlı-qurulu silgilər hazır oldu. Qürbət xala gödək xalatının ətəklərini belinə vurub qollarını çirmədi, şüşələrə sığal verməklə məşğul oldu.

Rəşid təsərrüfat müdirinə tapşırıqlar verdi:

– Xeybər əmi, mən çox idarələrdə işləmişəm, bu sayaq döşəmə görməmişəm. Dünən tikilmiş bir binanın döşəməsi belə olmaz. Taxtaların arasından, az qala karandaş keçir, ayaq qoyanda cır-cır cırıldayır, görürsünüzmü?

Təsərrüfat müdiri bu barədə çoxdan akt bağladığını, şəhər sovetinə göndərdiyini danışmaq istəyəndə direktor qulaq asmadı, sözündə davam etdi:

– İnşaat kontorunda danışanların ağzına çullu dovşan sığışmır. Bu da gördükləri iş! Bir mühəndis çağır, son sinif tələbələrinə tapşır, qoy otağı sahmana salsınlar...

Çox keçmədi ki, məktəb həkimi Rəşidin yanına gəldi:

– Yoldaş direktor, bizə əmr olunub, tələbələr gərək bu həftə müayinədən keçə. Xahiş edirəm, tapşırıq verəsiniz.

– Əmri göndərin, tanış olum!

Həkim əlindəki qovluğu açdı, xışıldayan uzun bir cığara kağızı çıxarıb Rəşidin qabağına qoydu.

Qürbət xala nərdivanda dayanıb şüşələri silməkdə davam edirdi.

Direktorun qəbul günündə Rəşid bir az tezdən gəldi ki, oxunası, yazılası kağızları əldən çıxarsın, qəbul vaxtınacan dəftərxana işlərindən tamam azad olub gələnləri diqqətlə eşitsin.

Ancaq, deyəsən, başqa idarə başçıları daha tez gəlirlər. Papağını asıb stol dalına keçməmiş sükut pozuldu. Otağı səs götürdü. Yaz səhərinin sərin, təmiz havasında telefon elə cingildədi ki, elə bil mis tiyana çaşnı tökürlər: "cırınnnq."

– Bəli?

İnşaat kontorunun müdiri Ağarza Rəşid ilə uzaqdan-uzağa tanış idi. Tanışının direktorluğunu ağızucu təbrik edəndən sonra gileyləndi:

– Orda, texnikumda, – dedi, – Rəşid müəllimdən eşitmişəm, bizim işlər təhlil olunur. Pis olmaz ki, şikayətlərinizi üzümüzə deyəsiniz. Biz də nöqsanımızı biləк. Nəinki dalda danışmaq, söz yaymaq-filan...

Rəşid ha fikirləşdi ki, kontor haqqında haçan, kimin yanında söhbətlər olub, xatırlaya bilmədi. Ağarzanı başa salmaqla məşğul ikən təsərrüfat müdiri içəri girdi. Rəşid xatırladı ki, "dünən döşəmələr haqqında mən bu kişiyə tapşırıq vermişəm". Soruşanda təsərrüfat müdiri and-aman elədi:

– Nə Ağarzanı tanıyıram, nə də buradakı söhbəti dilimə gətirmişəm.

Direktorun kabinetində olan söhbəti bir neçə gün sonra filarmoniyanın kassasında danışırdılar. Rəşid Krasnodar teatrının tamaşalarına bilet almağa gələndə öz qulağı ilə eşitmişdi ki, texnikumun tələbələrinə həkim baxacaq, tələbələr döşəmə düzəldəcəklər, filan müəllim də Qubadlıdan bir qız gətirib...

Rəşid aşkar görürdü ki, məktəbdə olanları, oturub-durduğunu ətrafda danışırlar. "Kimdir bu xəbərçi?" – deyə o düşünürdü.

Təsərrüfat müdiri deyirdi:

– Bu xəbərlərin hamısı hava bürosundandır.

– Necə hava bürosu?

– Bəli, bizim hava bürosu hər şeyi xəbər verir.

Rəşid təsərrüfat müdirinin zarafat elədiyini güman edib ötdü. İşin axırında evə getmək istəyəndə Qürbət xala direktorun qabağını kəsdi:

– Rəşid qardaş, gözün aydın, İzzətin oğlu olub. Ay parçası kimi bir yaxşı uşaqdı. Allah saxlasın. Dünən də bizim aşpazın qızına Naxçıvandan elçi gəlib. Yazıq Əkbər lap karıxıb.

– Əkbər kimdir?

– Bağbanın oğlu! Özü üçüncünü qurtarır bu il. Qız ilə çoxdan alışıb-verişmişdi, bu yandan da Naxçıvan elçisi. Bilmirəm necə olacaq, cavandı, yazıqdı, özü də neçə ildir paltar-püşək almaqdan cibini boşaldıb. Dədəsi hələ xəbər tutmayıb...

Qadın dil tökə-tökə Rəşidi qapıyacan yola saldısa da, sözünü qurtara bilmədi.



– Bəli, oğlanın dədəsi hələ xəbər tutmayıb. Vay elçinin halına! Tamaşadı, xəbər tutanda qiyamət qopardacaq, bilirsən, necə atmaralıdı?.. Vay elçinin halına!..

– Qürbət xala, bu xəbərləri sən haradan bilirsən?

– Necə haradan, səhərdən axşamacan burda ləbbeyk deyirəm, necə ola ki, bilməyəm? Bunu da bilməsəm, nəyə lazımam!?

– İşin, zadın necədi?

– Nə işim olacaq, yoldaş direktor! İki otaq, bir də dəhliz mənə baxır. Bir saatda süpürürəm qəşəng-qəşəng, otururam yerimdə. Gələn-gedən də gözümün qabağında.

Rəşid gördü ki, doğrudan da, burada xüsusi hava bürosu var, özü də təkcə texnikuma yox, bütün rayona "xidmət" edən hava bürosu.

Başqa şəhərlərdə hava bürosunun böyük aparatı, dəstə ilə işçiləri, qurulu idarəsi olur. Burada isə bütün aparat Qürbət xaladan ibarətdir. Radiodan, qəzetlərdən də çox qol-budağı var. Kim kim ilə gəzir? Harada toy, ya qonaqlıqdır? Kimi qulluqdan çıxardır, kimi işə götürürlər? Əhməd Məmməd ilə haçandan, niyə küsülüdür? Abasın oğlu Dilicana niyə tez-tez gedir-gəlir? Gedəndə maşına nə dolur, gələndə nə boşalır, harada və necə boşalır?.. Bunların hamısını Qürbət xala dayanıb nöqtəbənöqtə desin, sən də yoxla! Görəsən, şəhərin "havasını" necə dürüst görür, göstərir...

– Qürbət xalanın dəsgahı var imiş!

Təsərrüfat müdirini gülmək tutdu:

– Bəs mən nəyi deyirəm! O bizim hava büromuzdur!

Hərənin bir şeyə təəşşüqü olur: biri geymək, biri gəzmək, biri yemək, biri teatr, rəqs istəyir. Qürbət xalanın isə ancaq bircə şeyə təəşşüqü var: danışmaq! Deyəcəksiniz, danışmaq istəyən adam başqalarına diqqətlə qulaq asmaz! Axı Qürbət xalanın qulaq asmağı da danışmağa hazırlıq üçündür. Bilsə ki, eşitdiklərini danışa bilməyəcək, bir dəqiqə də qulaq asmaz!

Bir dəfə yerli komitə işçiləri yığıb qapını örtdü. Məktəbdə olub-keçən bir məsələ haqqında direktorun əmrini oxudu. Tapşırdı ki: "Söhbət buradan qırağa çıxmasın ha!" İclasdan sonra hərə öz işinə getdi. Amma

Qürbət xala ilan vurmuş kimi, ikiqat büküldü, ürəyini tuta-tuta gəzdi. Bu gün burada olanları o deməsə, danışmasa, nə otura biləcək, nə də yata biləcəkdi. Söz bir ağır qurğuşun olub onun ürəyindən asılmışdı. İçində danışırdı, amma ağırlıq azalmırdı, daha da artırdı. Elə bil asılan daşı tərpədir, ürəyinin iplərini az qala qırırdılar: "Yox, dözəmmərəm! Söz, qarnımı dələcək!"

Qürbət xala o gün nə silə, nə süpürə bildi. Sancı çəkən hamilələr kimi qıvrıldı, özünü yerdən-yerə vurdu. Adam görən kimi dil açıb eşitdiklərini demək istəyəndə yerli komitə sədri gəlib durdu gözünün qabağında: "Söhbət buradan qırağa çıxmasın ha!" "Ay zalım oğlu, belə işin var, məni niyə çağırırsan, niyə deyirsən, niyə də qadağan eləyirsən?!"

Qürbət xala qarğış edə-edə evə girir, həyətə çıxır, oturub-durur, durub-otururdu, sözlər ürəyindən qopub dilinin ucuna gəlir, orada ilişib qalırdı...

Dözə bilmədi. Axırda mətbəxə gedib təndirin duvağını götürdü. Başını təndirə saldı, pıçıltılı bir səslə eşitdiklərini dedi, duvağı təzədən örtüb çıxdı. Rahat bir nəfəs aldı:

– Şükür sənə, xalıq!..

Qürbət xalanın danışmaqdan artıq eşitmək məharəti var idi. Adamlar ağzını açmamış bilərdi ki, nə deyəcək, necə deyəcəklər. İki adamı bir yerdə görəndə vacib işi də olsa, yüyürüb gələr, bir bəhanə ilə qurdalanardı. Söhbətdə təzə bir şey duydumu, ov görmüş kimi, sevinər, işini-gücünü buraxıb dərhal qapı-qapı gəzər, ləzzətlə danışardı. Hər danışanda da söhbətə ayrı bir məzə, ayrı bir ədvə qatardı. Hətta elə qızışardı ki, eşitdiyi adamın üzünə həmin söhbəti elə danışardı ki, xəbər gətirənin özü də heyran qalardı: "Yox, bunlar mən deyənlər deyil, görünür, daha mötəbər yerdən eşidib..."

Qürbət xalanın isə mötəbər, ya qeyri-mötəbər mənbəyi yox idi. Onun üçün təfavüt eləməzdi. Söz olsun, kimdən gəlir gəlsin, təki söz olsun!

– Siz də dözürsünüz?

Direktorun bir az acıqlı sualına təsərrüfat müdiri nə cavab verəcəyini bilmədi. Əllərini yana açıb çiyinlərini çəkdi:

– Tək qadındır, adamsız. Özü də adət eləyib. Atalar yaxşı deyiblər ki: "Tərki-adət bə mövcibi-mərəzəst!" Neçə dəfə danlamışıq. Arvad dilini saxlaya bilmir. Hətta adam yanında ehtiyat elədiyi sözləri axşam gedib təndirə danışır.

– Tərgidə bilmirsiniz?

– Ölər, tərgitməz!

– Mən ona tərgidərəm.

– Bəlkə cəza tədbiri görəcəksiniz?

– Cəza yox, ayrı tədbir!

– İşdən qovacaqsınız?

– Əksinə, ona iş tapşıracağam!

– Nə iş?

Rəşid Qürbət xalanı yanına çağırıb əyləşdirdi:

– Nə var, nə yox?

– Çox söz var, rüsxət ver, danışım.

– Sonra!

– Qoy deyim, təzə xəbərlərdi, heyifdi...

– Mənim sənə vacib sözüm var. Boyun qaçırmazsan?

– Bacardıqca baş üstə!

– Bacardığın işdir.

Rəşid stol yeşiyinin gözündən bir kağız çıxarıb ona verdi:

– Mətbuat küçəsini tanıyırsan?

Qadın durdu gözünü döyməyə:

– Nə küçəsini?

– Burada, tindən ötəndə mətbəə var ha? Qəzet-zad çap eləyirlər, ey?

– Bəli, qəzetxana!

– Ay sağ ol! Bu kağızı apar orada Muradova ver. Sənə bir bağlama qəzet verəcək, gətir dəhlizdə qoy, bir-bir tələbələrə sat! Biri 20 qəpikdən! Eşitdin?

– Baş üstə!

– Dayan! Səhər təmizlik işini qurtaran kimi, səkkizin yarısında get, al, gətir gəl! Satdın apar, pullarını ver, təzəsini gətir. Bildin? Demişəm, ora stol da qoyacaqlar!

– Təzə qulluqdu?

– Bəli, sənə təzə qulluq tapşırıram, əlavə maaş da verəcəyəm! Di durma!

Qürbət xala kağızı alıb götürüldü. Birinci gün çox darıxdı, çünki başı elə qarışdı ki, nə gəlib-gedəni, nə də danışanları çinədanına yığa bildi. Gözləri alacalandı. Ancaq tələbələr onu əhatə etdilər. Gətirdiyi qəzetləri satdı. Pulları səliqə ilə sayıb direktorun yanına gətirmək istədi. Yadına düşdü ki, qəzetxanaya çatacaq. Cəld oraya qaçdı. Muradov onu görən kimi çağırdı:

– Necədi, qəzet satıldı?

– Aldılar. Bu da pulları! Yüz həştad qəzetdi, gör pulu düzdümü?

Muradov pulları aldı, dörd manatını Qürbət xalaya qaytardı.

– Bu sənin!

– Direktora verim?

– Sənə verirəm, direktorluq bir iş yoxdur. Nə qədər çox satsan, o qədər faiz alacaqsan. Di götür bu jurnalları da! Təzə, maraqlı şeylər var. Tələbələrə verərsən. Birini iki manatdan. Üstündə yazılıb, di götür, yubanma, tələbələrin dərsdən çıxmağına az qalıb!

Qürbət xala əvvəlcə dörd manatı qoltuq cibinə qoydu, sonra şəkilli jurnalları kəndirlə bağlayıb çiyninə aldı, məktəbə gətirdi...

Jurnallar da getdi. Tələbələr Qürbət xalanın stol dalında dayanıb qəzet-jurnal satdığını görəndə sifariş verməyə başladılar:

– Qürbət xala, oraya, çapxanaya gedirsən, niyə sport qəzeti gətirmirsən? Niyə radio proqramı gətirmirsən?

– A bala, onu yaz kağızın qulağına, mənə ver!

Qadın sifarişləri mətbəəyə yetirdikcə yükü artır, "ticarəti" çoxalırdı, "Hava bürosunun" isə məlumatı azalırdı. Daha Qürbət xalanın onabuna qulaq asmağa, eşitdiklərini bəzəyib-düzəyib danışmağa macalı yox idi. Fikri-zikri qəzet, jurnal, hesab-kitab idi. Axşam evə gələndə daha süpürgə, silgi yox, qəzet ilə gəlir, xörəyini yeyəndən sonra höccələyərək qəzetlərin iri hərfli yerlərini oxumağa çalışırdı.

Çox çəkmədi ki, Qürbət xala direktorun yanına xahişə getdi ki, onu süpürgəçilikdən azad eləsin: "Qəzet işi məni basıb. Gündə beş yüzünü birdən satıram!"

Təsərrüfat müdiri Naxçıvandan gələn elçilərin aqibətini gülə-gülə soruşanda Qürbət xala əlini tovladı:



– Əşi, görmürsən əlimdə işim var! Elçi nədi, zad nədi?

– Bəs biz məlumatı haradan alaq, havanı nədən bilək?

Qürbət xala quru, işgüzar əli ilə qəzet bükümünə bərk şapalaq vurdu:

– Burdan ey, burdan! Bilməlinin hamısı burdadı! Kişinin maşın sürməyinə, arvadın xörək bişirməyinə, uşağın yol keçməsinəcən hamısı yazılıb!

*1958*

# LİRİKA

Bir zamanlar Kommunist küçəsinə qurşaq kimi dəmiryol xətti dolanırdı. Üçvaqonlu, üç nömrəli tramvay əjdaha kimi altdan-yuxarı, yoxuşa dırmaşanda, küçə hərəkəti qorxulu olurdu. Sürücülər bura çatanda zəngi bərk-bərk vurardılar.

İndiki kimi xoş bir yaz günortasında universitetin qabağında bir dəstə müəllim gəzişirdik. Yenicə qış sıxıntısından qurtarmış qocaman şəhərin günəşli, mülayim, durğun havası bayram kimi hər kəsi sevindirirdi. Qış libasından silkinib çıxmış, yüngülləşmiş adamlar sanki salamlaşmır, bayramlaşırdılar. Üzlərdə təbəssüm, gülüş, məmnuniyyət!

Həmin bu dəqiqədə qatar gurultusu ilə yuxarı dikələn tramvay, canavar quzunu qapan kimi, bir məktəbli uşağı altına aldı. Biz hamımız elektrik vurmuş kimi, durduğumuz yerdə donduq. Hamının qəlbindən ixtiyarsız hıçqırıqlar qopdu:

– Uy!

– Vay!

– Of!

– Uf!



Bu bədbəxt hadisəni görənlərin qəlbindəki təlatüm təsvirə gəlməz. Sanki bir uşaq yox, hamı təkər altına düşmüşdü. Küçənin sağında, solunda donub qalmış adamlar bilmirdilər neyləsinlər. Ən dəhşətli müharibə meydanlarından, qırğın günlərindən çıxmışlar da sarsılmışdılar.

– Uşaq!

Sürücü dərhal vaqonu saxladı. Vaqondakılar çölə töküldü, ətrafdakılar vaqonu əhatə etdilər. Hamı təkərin altına baxır, nə olduğunu, necə olduğunu yoxlamaq istəyirdi. Ancaq çoxunun da bu faciəli mənzərəyə baxmağa ürəyi, taqəti qalmamışdı, vurulmuş kimi, başını aşağı salmış, sanki sinəsindən bu saat uçub qaçmaq üçün çapalayan ürəyini tutmuşdu.

Üstümüzə enən bu fəlakət içində birdən sanki bir işıq parladı. Sifətlərə yenidən günəş doğdu: uşaq sonuncu vaqonun dal tərəfindən çıxıb evlərinə tərəf qaçdı. O, arxasına baxaraq, gülə-gülə gedir, çantasını çırpırdı. Adamlar onu əhatə etdilər. İndi buradakıların hər biri – qadın, kişi, böyük, kiçik, rus, erməni, azərbaycanlı – hamı, həyatının ən sevincli dəqiqələrini yaşayırmış kimi, həyəcandan bilmirdi nə desin, neyləsin. Kimi uşağı öpür, kimi ona konfet verir, kimi başını tumarlayır, kimi söz soruşur, kimi evinə yola salmaq istəyirdi.

Uşaq isə heç bir zaman, heç yerdə, hətta ata-anasından da görmədiyi bu fövqəladə nəvazişdən çaşıb qalmışdı. Bəlkə də heç güman etməzdi ki, ömründə tanımadığı, görmədiyi adamlar içində onu bu qədər sevənlər, əzizləyənlər, sağ-salamatlığını istəyənlər ola bilər.

İndi bizim hamımızın ürəyini dolduran şadlığın, sevincin həddi-hüdudu yox idi. Sanki hamımız dünyaya təzəcə gəlmişdik. Heç birimiz tanımırdıq ki, bu uşaq kimdir, kimin oğludur, adı nədir, necə uşaqdır. Ancaq bilirdik ki, indi o, bizim qəlbimizə ən yaxın, ən əziz, ən istəkli adamdır. İndi hər kəs öz adını, vəzifəsini, dərəcəsini unutmuşdu. Hamını birləşdirən, böyük, əzəmətli bir ad idi:

– İnsan! İnsan! İnsan!

Kaş bu müqəddəs həyəcan heç vaxt, heç bir yerdə bizi tərk etməyə idi.

*1958*

# ƏL XƏTTİ

Dağ dağa qovuşmaz, insan insana qovuşar. Qədimdən adətdir: adamlar bir-birilə görüşəndə əl verirlər. Sıxılan hərarətli əllərdən hər iki tərəf yaxınlıq, dostluq, sədaqət, məhəbbət duyur. Əllərdən keçən yalnız bu hisslərmidir?

40 il əvvəl məktəbli vaxtımdan ayrıldığım bir yoldaş ilə yenidən görüşmək mənə qismət oldu. İndi o, ömrünü böyük şəhərlər tikintisinə sərf edən məşhur bir mühəndis idi. Onun da saçları ağarmış, hərəkəti ağırlaşmış, səsindən uşaqlıq, simasından gənclik əlaməti uçub getmişdi. Çöhrəsində mənalı cizgilər, qalın qırışlar əmələ gəlmişdi. Dostumun silah kimi bərk əlini ovcuma alıb, diqqətlə baxdım. Bu əlləri mən uşaqlıqda, zoğ kimi zərif vaxtında, qələm tutanda, aşıq atanda çox görmüşdüm. İndi isə xeyli böyüyən, bozaran əllər xəritə kimi çal-çarpaz xətlərlə örtülmüşdü.

Dostum əlini ovcumdan çəkmək istəyirdi. Mən buraxmırdım. Baxdıqca baxırdım, sanki nadir bir kitab vərəqini oxumaq istəyirdim. Mühəndisin əllərində müxtəlif, mənalı xətlər görürdüm. Mənə elə gəlirdi



ki, bu xətlərdə mən Vətənimin yeni xəritəsini görürəm. Bu xətlərdə mən güclü su gələn çayları, gur işıq gələn telləri, mahnı gələn dalğaları, ətir gələn havaları görürəm.

Ömrünü vətəndaşlarının səadətinə verən bu sadə adamın duruşu, danışığı, gülüşü, zarafatı da həyatı qədər mənalı və gözəl idi.

*1958*

# İKİ HAKİM

Hakim Mürsəli Nazilə ilə barışdırmaq istəyirdi:
– Nə üçün boşanırsınız?
– Xasiyyətimiz tutmur.
– Səkkiz il tutdu, birdən-birə niyə tutmadı?
– Daha tutmur.
– Bəlkə barışasınız?
– Dünyasında yaşamaram onunla, vəssalam!
Hakim Nazilənin rəyini soruşdu:
– Bəlkə siz yoldaşınız ilə dil tapasınız, ailə qurmaq asan olmur.
– Xeyr, möhtərəm hakimlər, mən onunla yaşamayacağam. Vəssalam! Bizi ayırın, heç bir iddiam da yoxdur!

Hakimlər məsləhətləşib uşağın rəyini öyrənmək istədilər. Nazilə çağırmamış katib qız qapını açdı, yeddiyaşlı, qıvrımsaç, yumrusifət, qaragöz bir oğlan uşağı içəri gəldi. Yaşına yaraşmayan bir təmkin ilə salam verib, əllərini yanına saldı, ədəblə dayandı.

Hakim soruşdu:



– Oğlum, adın nədir?
– Tofiq!
– Bağçaya gedirsənmi?
– Bəli!
– Ananı çox istəyirsən, atanı?

Tofiq bu sualı gözləməyirmiş kimi, çevrilib əvvəl atasına, sonra anasına baxdı, hakimə cavab verdi:
– Anamı da, atamı da!
– Hansı ilə getmək istəyirsən?
– Hara?
– Evinizə!
– Üçümüz!

Hakim bir istədi sualı dayandırıb mürafiəni istədiyi kimi həll eləsin. Bir də fikrinə gəldi ki, Tofiq arxalanmalı uşaqdır. Sualında davam etdi:
– Atan istəyir səni anandan ayırsın, razısanmı?
– Ayrılmıram.
– Anan istəyir səni atandan ayırsın!
– Ayrılmıram.

Hakim bir an susdu, ayrılmağa gələnlərin üzünə baxdı, öz övladına nəsihət edən kimi, Tofiqi mülayim səslə dindirdi:
– Tofiq, oğul, sənin atan ayrı evdə qalacaq, anan da ayrı evdə. İndi sən...

Hakim sözünü qurtarmamış Tofiq gözünün yaşını töküb yalvardı:
– Sudya əmi, qoymayın! Yalvarıram, qoymayın atam dalaşsın. Mən ayrılmayacağam. Yalvarıram, qoymayın atam dalaşsın. Mən ayrılmayacağam, yalvarıram, sudya əmi, yox, yox!

Tofiq bunu fəryad kimi ucadan deyir, qara uzun kirpiklərindən inci kimi yaşlar tökür, kiçik əllərilə həm atasının, həm anasının qolundan asılıb buraxmırdı:
– Yalvarıram, sudya əmi! Yox, yox!..

Hakim susur, mənalı-mənalı gənc valideynlərin üzünə baxırdı. Ata da, ana da Tofiqin əlindən necə qurtarmağı düşünürdülər.

Hakimin riqqətli səsi eşidildi:

– Görürsünüz! O balaca qəlbin böyük məhəbbətini bir yaxşı düşünün!

Hakim üzünü Tofiqə çevirib, təsəlli verdi:

– Ağlama, oğlum! Heç kəs səni ayırmayacaq, ağlama! Atan və ananla bu saat evinizə dönəcəksən.

Tofiq altdan yuxarı əvvəl anasına, sonra atasına baxıb balaca qollarını açdı, hər ikisinin boynundan asılıb öpdü:

– Sudya əmi, sağ olun! Çox sağ olun, sudya əmi! Atamla anam bir də dalaşmayacaqlar!

Hakim ayaq üstə, mat-məəttəl dayanan ər-arvadın üzünə baxır, sanki soruşurdu:

– Niyə dayanmısınız?

Mürsəl əyilib oğlunun üzündən öpmək istəyirdi ki, Nazilə onu qabaqladı. Hər ikisi mütəəssir bir halda uşağı öpüb əlindən tutdu. Tofiq isə onları evə tərəf çəkib aparmaq istəyirdi:

– Sudya əmi, sağ olun!

Hakim ona xeyir-dua verib, valideynlərinə tapşırdı:

– Gedin, Tofiqin sözündən çıxmayın! Sizi ona, onu da sizə tapşırıram.

Bu hadisədən sonra evdə doğrudan da dava-mərəkə kəsilmişdi. Ana əsəbiləşib səsini ucaldanda Mürsəl onun yadına salırdı:

– Sus, uşaq eşidər!

Atanın hirsi tutanda Nazilə töhmətləyirdi:

– Səs salma, Tofiqin ürəyi qısılar!

Tofiqin hökmü qanunlardan güclü və kəsərli idi.

*1958*



# NAZİK MƏTLƏB

## I

– Niyə gəlmisən? – Nə gəzirsən burada?

– Sənə kim icazə verib?

Maarif müdiri məni görəndə təəccüb elədi. Bir ay olmaz ki, özü təyinnamə verib Yarpızlı kəndinə göndərmişdi. Çox böyük ümid və etimad ilə göndərmişdi. Müdirin də, başqa təşkilatların da bizə ümid bəsləməyə əsası, həm də möhkəm əsası var idi, çünki biz, bu il pedaqoji təhsili bitirən cavanlar odlu həvəs və uca bir ideal ilə kəndlərə gedirdik.

Buraxılış gecəsində hökumətin kənd müəllimlərinə təbrik müraciətini oxudular. Respublika maarif komissarı bizə öz övladı kimi üz tutur, ata nəsihətini verirdi.

– Cavan müəllimlərimiz, – deyirdi, – cəhalət və savadsızlıq ilə mübarizə cəbhəsinə gedirlər. Onlar uzaq kəndlərimizdə maarif işığı yandırmağa, Şura hökumətinin gətirdiyi yeni həyatı camaata başa salmağa

gedirlər. Gərək unutmasınlar ki, zəhmətkeş kəndlinin hörmətini qazanmaq birinci vəzifədir. Kəndli sizə inanmasa, nə sözünüzə məna verər, nə də ixtiyarınıza uşaq verər. Gərək onun qəlbinə girəsiniz, özünüzü sevdirəsiniz. O da nə ilə olar? Xoş rəftar ilə. Kəndlinin uşağına öz uşağın kimi bax! Təmiz, mərifətli, dərrakəli, təvazökar dolan! Müəllim kəndlinin əliqələmli dostudur. Kəndli ona həm uşaq tapşıracaq, həm məsləhət eləyəcək, həm də çoxlarına demədiyi dərdini deyəcək. Ən xırda, ehtiyatsız bir hərəkət onu kəndlinin gözündən elə sala bilər ki, gənc müəllim baş götürüb qaçmağa məcbur olar. Kəndə gedənlərimizin birinci vəzifəsi hörmət, etibar qazanmaqdır. Sizin maarif xadimi kimi nüfuz qazanmanız hampanı, mollanı, falçını tamam nüfuzdan salacaq, kəndlinin gözünü açacaq. Bu da maarifin vacib işidir. Sizə bu yolda uğurlar olsun! Gedin, balalarım!

Komissarın sözləri bizə elə təsir etmişdi ki, gecəni də rahat yatmır, həyəcan keçirirdik. İstəyirdik səhər tez açılsın, qatara oturub təyinat yerimizə gedək, böyüklərimizin ümidinə layiq iş görək.

Təkcə biz yox, maarif şöbəsinin işçiləri də həyəcan keçirirdilər. Biz yürüşə gedən əsgər idiksə, onlar cəbhəyə qoşun aparan zabit vəzifəsində idilər. İdarə xalis bir səfərbərlik ştabı idi. Gecə də çıraqlar yanır, telefonlar səslənir, maşinkada əmrlər, müraciətlər, məktublar, proqramlar çap olunurdu. Tərəddüd kəsilmirdi...

Belə həyəcan ilə getmiş, həm də uzaq kəndə getmiş bir gənc müəllimin bu tezliklə qəfildən qayıdıb gəlməsi, əlbət ki, təəccüblü idi. Maarif müdiri məni idarəsində görən kimi, sorğu-suala basdı:

– Niyə gəlmisən? Nə gəzirsən burada? Kim icazə verib?

O zaman belə hadisələr olmurdu. Daha doğrusu, çox nadir olurdu. O da mənim başıma gəlmişdi.

Maarif müdirinin təhdidli və təkidli suallarına necə, nə cavab verdiyimi deməzdən qabaq istəyirəm söhbətimizin əvvəlinə, kəndə getdiyim günlərə qayıdam.

Mənim təyin olunduğum Yarpızlı kəndi təbiətin ən gözəl guşəsi idi. İki təpə arasında yerləşmişdi. Ortadan, dərin dərədən göz yaşı kimi duru, buz kimi soyuq çay axırdı. Bəri yamacda dərə başı yuxarı sıralanmış kənd evləri uzanıb gedirdi, o biri yamacda da qarağac, palıd meşəsi. Bəri yamac açıq, o biri yamac uca və qoca ağaclarla örtülü idi. Bəri yamac güney, o birisi quzey idi. Dərədən qalxaraq meşəyə girən, cığıra bənzər oğrun yollar sıx ağaclar içində itib gedirdi. O yollara ancaq yerlilər bələd idi. Kənar, nabələd adam getməyə ehtiyat edərdi.



Kəndlilər müəllimi çox mehriban qarşılayırdılar. Yetirən kimi, bizə mənzil düzəltdilər. Dəstə-dəstə görüşümüzə gəlib xoş gəldin elədilər.

Min bir arzu, min bir həvəslə mən kənd məktəbinin səkkizinci sinfində hesab dərsi deməyə başladım.

Nə olaydı, insanın ilk əmək günlərinin eşqi, həvəsi həmişə qalaydı! Yorulmaq, usanmaq bilmədən gecəni gündüzə qatıb dərs dediyim günlərin hərarəti heç bir zaman damağımdan getməz. Sinif jurnalını qoltuğuma vurub məğrur addımlarla dərs otağına girəndə, 40-45 uşağın gurultu ilə ayağa qalxdığını, gülər üzlə öz müəllimlərini süzdüyünü görəndə, bir işarə ilə hamının quzu kimi sükuta dalıb əyləşdiyini görəndə mən özümü dünyanın ən bəxtiyar adamı sayırdım.

O biri tərəfdən də, etiraf edim ki, dizlərim əsir, ürəyim qəfəs quşu kimi çırpınırdı. Qarşımda əyləşən uşaqların hərəsi bir evdən gəlib, hərəsi bir kişinin övladıdır. Hərəsi mənə bir nəzər ilə baxır, hərəsində bir fikir oyanır. Mümkündür ki, bunlar axşam evlərinə qayıdanda mənim söhbətimi salacaqlar. Valideynlərinin "təzə müəllim" haqqında sorğularına, kim bilir, nə cavablar deyəcək, nə xasiyyətnamə verəcəklər?

"Ən xırda, ehtiyatsız bir hərəkət onu kəndlinin gözündən elə sala bilər ki, gənc müəllim baş götürüb qaçmağa məcbur olar..."

Bu böyük sözlər mənim qulağımda daha qüvvətlə yenidən səslənirdi. Ona görə yerişimə də diqqət edir, sinifdə uşaqlar qarşısında gülməyə də ehtiyat edirdim. Bütün günü və gecəni şəhərdən gətirdiyim məsələ və misal kitablarını qabağıma töküb varaqlayır, dərs hazırlayırdım. Çalışırdım ki, dediyim dərs təzə, həm də nöqtəsinəcən uşaqlara aydın olsun.

O zaman müəllim az idi. Seminariya bitirmiş müəllimi təcrübəli müəllimlərdən üstün tuturdular. O vaxt elə idi, bilmirəm, niyə elə idi, amma elə idi.

İlk dəfə sinfə girməyin, gurultu ilə ayağa qalxan məktəblilərə salam

verməyin nə demək olduğunu ancaq müəllimlər bilirlər. Kim desə ki, o günkü sevincin həddi-hüdudu var, yalan deyir.

Özü də sinif nə sinif! Cərgələnmiş sıralarda bostan şamaması kimi sağlam, əlvan, bir-birindən ədəbli, sakit, yaraşıqlı uşaqlar əyləşib təzə müəllimlərinin nə deyəcəyini, necə deyəcəyini aramsız gözləyirlər. Mən bu uşaqlara cəbr, həndəsə dərsi, riyazi düsturlar öyrədəcəyəm. Qocaman müəllimlərdən, qalın-qalın kitablardan öyrəndiklərimin hamısını nöqtə-bənöqtə lap elə indi, birinci dərsdə uşaqlara demək, öyrətmək istəyirəm. Taxtada yazdığım düsturları həll edərək, nəticəsini söylədikcə intizarla əyləşən uşaqların simasında maraq işığını görməyə tələsirdim. Bir diqqət, bir sevinc, bir təbəssüm hiss etdikcə böyük hünər göstərmiş kimi, qürur ilə sinifdə var-gəl edir, rəqəmlərin, kəmiyyətlərin sirlərini, "neylərik" cavabını şirin-şirin danışmaq istəyirdim.

Qabaq sıralarda ucaboy, ağbəniz, uzunsaç, qaragöz bir qız əyləşmişdi. Zivər sanki bu 40 uşağın içində Kəhkəşanda parlaq bir ulduz kimi seçilirdi. Mən onun adını jurnalda oxuyanda xüsusi bir həzz alırdım. Mənə elə gəlirdi ki, bu qıza ən münasib ad qoymuşlar.

Bir gün, iki gün, üç gün...

Yox, mən bu ucaboy qızı başqaları kimi görə bilmirəm, başqalarına baxdığım kimi baxa bilmirəm. Zivərin hər sözü, hər hərəkəti mənə ideal görünür. O, suala cavab vermək üçün ayağa qalxıb iki kəlmə danışanda yanaqları pul kimi qızarır, qız təhərdən-təhərə düşür, bir günah işləmiş kimi, özünü itirir. Taxtada yazdığı düsturları dürüst və cəld həll etsə, nəticəni gözəl danışsa da, başını qaldırıb üzümə dik baxmır, xəcalətli kimi yerə baxa-baxa keçib sırada əyləşirdi. Zivərin ağ, enli üzü, cazibəli olması, badamı gözləri nəinki dərsdə, evdə, istirahətdə, yamacda, təbiət seyrinə daldığım vaxtda da məni tərk etmir, sanki izləyirdi. Aşkar görürdüm ki, bu qızın adı gələndə mənim halım dəyişir. Zivər ürkək ceyran kimi başını çevirərək, o yan-bu yana baxdıqca xurmayı, qalın hörükləri kürəyində, ağ ipək köynəyinin üstündə yol axtaran əfi ilan kimi qıvrılırdı. Bu isə qıza xüsusi məlahət verirdi. Dərsdə nəzərlərimiz rastlaşanda bilmirdim nə hala düşürəm. Şimşək çaxmış, ildırım vurmuş kimi, sinif başıma dolanırdı.

Tənəffüsdə, müəllimlər zarafatlaşdığı yerdə mənim gözlərim eyvandan yığışmırdı.



Az qalırdım, bu beyti oxuyam:

*Səndən ayrı yüz qəmü-dərdü-məlamətdir mənə.*
*Nə xoşam, nə naxoşam, bilməm nə halətdir mənə!*

Hansı bir hiss isə mənə deyirdi ki, Zivərin halı səninkindən qalan deyil.

Biz rastlaşanda hər ikimiz rəng verib, rəng alırdıq. O baxanda mən, mən baxanda o, gözünü yayındırırdı. Lap bu dəqiqələrdə müəllimlərimizin böyük sözü qulaqlarımda daha ucadan səslənirdi: "Ən xırda, ehtiyatsız bir hərəkət onu kəndlinin gözündən elə sala bilər ki, gənc müəllim baş götürüb qaçmağa məcbur olar!..".

Mən indi çətin bir işə düşmüşdüm. Od ilə su arasında, vəzifə ilə arzu, şüur ilə hiss arasında mat-məəttəl qalmışdım. Güman edirdim ki, bəzi uşaqlar da bizim münasibətimizdəki qeyri-adiliyi duymuşdular. Gah mənə və gah Zivərə baxan bir uşağın yanındakına nəsə pıçıldadığını bir dəfə aşkar gördüm.

Mənim üçün bundan ağır töhmət, məzəmmət ola bilməzdi. "Rüsvay oldum, ilahi!" Müəllimin öz tələbəsilə bu rəftarını eşitsələr, aləm yığılıb mənim üzümə tüpürməzmi?.. Xeyr, mən burada işləyə bilmərəm. Oxum daşa dəydi. Mən getməliyəm!

Deyə bilərəm ki, ömrümün ən xəcalətli dəqiqələrini yaşayırdım. Qəlbim od ilə, köz ilə elə dolmuşdu ki, bu saat vücudumun yanıb külə dönəcəyini zənn edirdim. Başımdan tüstülər, dumanlar qalxırdı. Xəyalımda bu adı ən böyük hərflərlə yazır, pozur, təkrar yazırdım. Bildiyim əlifbaların hamısı ilə, ən zərif, ən əlvan xətlərlə yazır, sonra da bir kəs bilməsin deyə, amansızlıqla pozurdum. Yanımda nə anam, nə bacım, nə bir ürək sirdaşım! Dərdimi bir kəsə deməyə cürət etmir, dərsdən sonra havalı kimi dinməz-söyləməz kənd küçələrində hərlənirdim. Görən də yəqin ki, rişxənd ilə baxıb deyirdi: "Riyaziyyatçı!"

Kaş mən Yarpızlıya üz döndərməyə idim, səkkizinci sinfə ayaq basmaya idim!..

– Yox, mən getməliyəm!..

Təcili iş üçün müdirdən izin aldığım tutqun bir payız səhərində Kərimin məxmərli faytonuna oturub yeknəsəq zınqırov səslərinin ahəngilə dağları tərk edirdim. Əzizindən, vətənindən ayrılmağa məcbur edilənlərin əhval-ruhiyyəsilə kor-peşman şəhərə qayıdırdım. Bulud kimi tutulmuş, qış günü kimi qaralmışdım. Deyəsən, kürəyimdən, ürəyimdən iti xəncər vurmuşdular. İsti yaramı bağlamağa, sağaltmağa, bəlkə də daha belə yaralar almağa gedirdim.

Nə olur-olsun, mən vəzifəmin ləyaqətini saxlamaq üçün qəlbimin səsini boğmalı, Zivəri unutmağa çalışmalıyam.

Bu, əlbəttə, çətin idi. Ancaq müqəddəs müəllimlik vəzifəsinə yenicə qədəm qoyan bir cavan üçün zəruri idi. Gedirdim, ancaq gözlərimi arxamda qoyub gedirdim. Qəlbimi, arzumu, hissimi, gələcəyimi, bəlkə də bütün varlığımı dağlarda qoyub gedirdim. Arxadan qarlı təpələrin, qara meşələrin, qıvrım yolların dalınca bulaq sularının mülayim şırıltıları arasından məni həzin bir çağırış, bir nida səsləyirdi. Bu, həya və ismətindən pul kimi qızaran gözəl bir mələyin məyus gileyi, şikayəti idi. Mən bu səsi hər dəqiqə eşidirdim. Zehnimdə iki hiss çarpışırdı. Biri deyirdi: qayıt, toxta, işlə, məhəbbətinə çarə, yol axtar. Biri də deyirdi: yox, özünü də, Zivəri də rüsvay etmə, adını, müəllimlərinin nəsihətini uca tut!

Şəhərə qayıdandan sonra maarif müdiri məni uşaq kimi qabağına qoyub danladı.

– Niyə gəlmisən?

– Nə gəzirsən burada?

– Sənə kim icazə verib, kim?

Müdir hiddət və heyrətlə üzümə baxır, qayıtmağımın səbəbini təkidlə soruşur, cavab gözləmədən hökmünü verirdi:

– Bəzi cavanlar görəsən niyə bir yerdə bənd almırlar? Bunlar nə istəyir, nə axtarırlar? Təyinat dəyişməkdən yorulduq. Bilmirəm nə sayaq eləyək!..

– Mən kənddən qaçmıram, daha uzaq yerlərə getməyə razıyam.

Əlbət ki, mənim dilim qısa idi. Açıb danışmağa, sirrimi deməyə də üzüm yox idi. İndi hara göndərsələr, gedəsi idim. Elə də oldu. Müdirdən təzə vəsiqə alandan sonra bir kömürçünün qatırını kirayə elədim. Qabaqtəpə dağlarına üz tutub, arxama baxmadan getdim. O gedən getdim...



Həyatın təbii qanunları sakit axan sel kimi, hər bir istəkdən, arzudan, ehtirasdan güclü olur. Fəsillərin dövrünü dayandırmaq mümkün olmadığı kimi, bu qanunların da məcrasını dəyişmək mümkün olmur.

Oddan götürülmüş köz kimi mənim Zivərə olan məhəbbətim zaman-zaman soyudu, söndü, nəhayət, unuduldu. Ömrün sərt rüzigarı bizim hərəmizi bir tərəfə yönəltdi, həyatın mürəkkəb, dolaşıq, çətin yollarında atıb-tutdu, sınaqlara saldı, böyütdü, bərkitdi.

Nə mən onu axtarır, nə o məni soruşurdu. İlk və son görüşümüz həzin bir xatirə olaraq qalırdı.

## II

İndi bu hadisədən 30 il keçmişdir. Mən indi böyük bir ailənin başçısıyam. Zivər haqqındakı xatirələrim nə qədər əziz, nə qədər şirin olsa da, bunları dilə gətirməzdim, əgər bir münasibət olmasaydı.

Qapının zəngi çalındı. Kiçik oğlum qapını açan kimi, qonaqları içəri buraxdı, cəld mənim otağıma qaçdı:

– Ata, qonaq gəlib!

Uşaq evimizə gəlib-gedənləri tanıyırdı. Tanımadığı adamlar gələndə qabaqcadan mənə xəbər verməyi adət etmişdi: "Filan əmi, filan xala." Yox, "qonaq gəlib", – deyəndə bildim ki, nabələd adam olacaq. Gələnlər iki qadın və iki kişi idi. Dəhlizdə dayanıb ev sahibindən rüsxət istəyirdilər. Mən onları qarşılayıb əl verdim, xoş gəldin eləyib dedim:

– Buyurun, buyurun içəri!

Qonaqlar əyləşdilər, ətrafa nəzər saldılar. Onlar məni, mən onları seyr etdiyim dəqiqələrdə evdə uzun sürməsi mümkün olmayan soyuq bir sükut hiss olundu. Deməyə bir söz tapmaqda çətinlik çəksəm də, sükutu pozmağı lazım bildim:

– Necəsiniz, əhvalınız necədir, təzə xəbərdən-zaddan nə var, nə yox?

Mən bu ümumi, bəlkə də mətləbsiz, mənasız suallarımla qonaq-

ları dindirmək istəyirdim.

Güləşqabaq qadın cavab verdi:

– Əhvalınız yaxşı olsun!

Qadın sanki mənim sualımı gözləyirmiş. Dərhal səsinin ahəngini dəyişərək, gözlənmədən mənə sual verdi:

– Müəllim, yəqin ki, bizi tanımadınız?

Bu sözdən sonra mən qonaqlara diqqətlə baxmağa məcbur oldum.

Müəllimlik sənətinin bir gözəlliyi də budur ki, böyüyüb ərsəyə gələn gənclər arasında həmişə, hər yerdə şagirdlərinə rast gəlirsən. Sən unutmuş olsan da, gənclər hafizəli olur, səni unutmurlar.

Mən qonağın üzünə diqqətlə baxanda dumanlı xəyal, ya yuxumu, nəsə, bir şey xatirimdə işıq kimi cilvələndi:

– Deyəsən, sizi...

– Bəli, siz bizə dərs demisiniz.

" Dərs" sözünü deyəndə qadının səsindən, ahəngindən, otuz il əvvəlki bakir gənclik xatirələrinin nisgilindənmi, nədənsə, hər şey nəzərimdə canlandı:

– Sizin adınız, bağışlayın, Zivər deyilmi, Zivər xanım?

– Bəli, yaxşı tanıdınız, şükür ki, hafizəniz kəsərlidir!

Qadın adına əlavə etdiyim "xanım" sözünün məhz əlavə olunduğunun mənasını yaxşı başa düşdü.

Doğrudur, mən qonağın adını soruşdum, zənnim də düz çıxdı, amma nədənsə, ürəyim döyünməyə, yenə də otuz il əvvəlki kimi halım dəyişməyə başladı:

– Mən şagirdlərimi, sinfimdə bir dəfə oturub dərsimi dinləyənləri adı ilə olmasa da, simasından fövrən tanıyıram. Hələ ki, tanıya bilirəm...

Bəli, bu həmin gözəl qız, səkkizincidə oxuyan ucaboy, ağbəniz, uzunsaç, qaragöz qızın özü idi. Bu həmin Zivər idi. Üçdə bir əsrlik zamanın uzun və tozlu yollarından keçib gəlmiş Zivər idi. Zivər indi ahıllaşmış ana siması, kübar, abırlı bir qadın idi. Daha o xurmayı hörüklər yox idi. Kəsilmiş xınalı saçlarını yana ayırmış, başına tirmə şal salmış, ağır, təmkinli, nurani bir görkəm almışdı. Rəngi qaralmış, sifəti kiçilmişdi. Zamanın qələmi oraya çox yazıb-pozmuşdu. Gərdəni nazilmiş, qabağa doğru bir qədər əyilmişdi. İşığını saxlamış, mənası bəlkə, bir az da



dərinləşmiş qara gözlər həmin gözlər idi. Baxışı və xüsusən, ani təbəssümü həmin idi.

Mən, məsum simasında ilk məhəbbətin qığılcımlarını gördüyüm bu adam ilə görüşdən çox məmnun idim. Onu dinlədikcə güman edirdim ki, otuz il əvvəlki maarif müdirinin məzəmmətini təkrar-təkrar eşidirəm. Bunların, bu sözlərin indi mənim üçün məzmunu dəyişmişdi. Töhmət yox, şirin xatirə kimi mənə ləzzət verirdi.

Zivər xanım bizim evə elçi gəlmişdi. Yoldaşlarının müxtəsər dediyi xahişdən sonra özü gənclərin gələcəyindən xeyli sevinc, arzu-kam ilə danışdı, oğlunu mənə təqdim etdi:

– Urfan da Həqiqət ilə bir yerdə oxuyur. Hər ikisi neft mühəndisi olacaq, hər ikisi komsomolda, hər ikisi həmdərs, ürəkləri bir-birini tutub, ulduzları barışıb, tale gözəl gətirib, xoş görüşdürüb. Biz valideynlərin də borcudur ki, xeyir-dua verək. Bu bir təklif üçün cəsarət eləyib hörmətli müəllimin qapısına gəlmişik. Ümidvarıq ki...

Mən qonaqlardan icazə alıb çıxdım. Həqiqətin anasını çağırdım. Qızın rəyini soruşdum...

...Zivər xanım dik-dik mənim üzümə baxdı, sanki hamı bunu gözləyirdi. Bütün məclis mənə tərəf döndü.

Zivər xanım daha utancaq kənd qızı deyil, təcrübələri ilə tanınmış olan bir kimyaçı idi. Onun xahişini də, tələbini də dinləmək mənə xoş idi.

Mən düşünürəm ki, həya, ismət, tərbiyə naminə, vaxtilə gizli qalan məhəbbətdən sonra, bir cüt gözəl fidan göyərmişdir. Bunların təmiz, təbii istək, məhəbbətlərinə müqabil nə demək olar?!

– Xoşbəxt olsunlar!

Hamı ucadan bu sözü təkrar etdi.

– Çox mübarək!

*1958*

# MƏN DƏ BAKILIYAM

-Nə əcəb?

– Bu, nə sayaq olub?

– Necə gəlib çıxıb?

Güman etməyin ki, bu suallar nadir bir hadisə və ya əcaib məxluq görəndə verilir. Yox!

Bu sualları bəlkə siz özünüz də vermisiniz. Bəlkə təzə bakılını siz özünüz də görmüsünüz, tanış olmusunuz. Gözəl bir insana baxanda gözlənməz və xoş bir təsadüfdə olan kimi, dodaqlarında təbəssüm oynamış, vacib işinizi də unudub, sakit-sakit dayanıb baxmısınız. Fərəhli bir əhvali-ruhiyyə ilə öz-özünüzdən soruşmusunuz:

– Nə əcəb?

– Nə sayaq olub?

– Necə gəlib çıxıb?

Belə bir əziz müsafiri Bakıda görmək kimi sevindirməz! Ancaq onun Bakıya gəlməsi asanlıqla olmamışdır. Əsrlər boyu düşünmüşlər, güman etmişlər ki, o "Bakıda yaşaya bilməz!", "Buranın iqlimi ona düşməz!", "O, dədə-babadan Gəncədə, Göyçayda, Səmərqənddə, Daşkənddə yaşayıb."

Bakı Şəhər Sovetinin işçiləri bu müsafiri yaxşı tanıdıqları üçün onun "qılığına girmiş", onunla dostlaşmışlar.

Böyük, təntənəli məclislərin birində Şəhər Sovetinin sədri – uca, tənumənd adam hamını sevindirən bir xəbər verdi:

– Mən onu Bakıya gəlməyə razı salmışam. Axar-baxarlı yerdə onun üçün gözəl mənzil hazırlamışam!

– Bəlkə havası düşmədi?

– Yaxşı qulluq eləyərsən, düşər. Miçurinin dediklərini bir də oxuyun!

Maşın çağırıldı, yer hazırlandı, tədarük görüldü. Təzə müsafiri ehtiram və ehtiyatla Bakıya gətirdilər.

Birinci il təzə müsafir "qürbətdə" doğrudan da, çox əziyyət çəkdi. Yazın uzun, uğultulu küləklərindən, qısa yağışlarından, sərin havalarından sonra qızmar yay günəşi şəhərin üstünə yaxınlaşıb od tökməyə başladı. Camaat istidən, bürküdən qaçıb kölgəlik axtardı. Adamlar içdikləri sudan daha çox tər tökürdülər. Burada su da, torpaq da qonağa təzə idi, adətdən kənar idi.

Bizim müsafir isə küçənin ortasında, qızmar günəşin altında sanki, tarixi bir imtahan üçün möhkəm dayandı. Az qaldı nəfəsi kəsilsin, qolu-qanadı qurusun. Şəhərlilər ona köməyə gəldilər. Kimi su daşıdı, kimi təsəlli verdi, kimi yerini rahatladı, kimi azuqə gətirdi. Müsafir qurumuş dodaqlarını yalayaraq, zəif əllərilə üz-gözünü yelləyərək, yerində möhkəm dayandı. Birinci yayın çətin imtahanı sovuşub getdi.

İndi bizim müsafir Bakının lap köhnə vətəndaşlarından seçilmir. Cavanlar onu bu yerlərdə görərkən daha təəccüblənmirlər. Qocalar, Bakı iqlimini, Bakı mühitini yaxşı bilən təcrübəli kişilər, böyük, enli, işıqlı, izdihamlı, abad küçənin tinində, daş binanın qarşısında dayanıb heyrət və sevinclə təzə bakılıya baxırlar. İndi o, müsafir kimi yox, doğma yurdunda bir igid kimi həmvətənlərinin suallarını eşidirdi.

– Nə əcəb?

– Bu, nə sayaq olub?

– Necə gəlib çıxıb?

İgid Çinar bu sualların hamısına ucadan və qürurla cavab verir:

– Mən də bakılıyam!

İndi onun kölgəsində dayanıb bir-birinə məhəbbət izhar edənlər az olmur.

*1958*



# ƏRƏB QIZI

Leyli!

Leyli – ərəbcə gecə deməkdir. Ata-anası bəlkə də qızlarının uğursuz taleyini qabaqcadan duyduqları üçün Leyliyə bu adı vermişlər.

Doğrudan da, qızcığaz həyata göz açan, məktəbə qədəm qoyan kimi, faciəli məhəbbət onu yaxaladı, iztirablara, təqiblərə və göz yaşlarına mübtəla edərək məzara apardı. Min ildən çoxdur ki, mütərəqqi bəşəriyyət nakam məhəbbətin yanıqlı macərasını hərarətlə danışır, yazır və xatırlayır. Şərqin hansı ölkəsinə getsən, Leyli adına rast gələrsən. Əlbəttə ki, analar qızlarına Leylinin taleyini arzulamırlar. Onlar köhnə dünyanın qurbanı olan böyük və ülvi, nakam və faciəli məhəbbətin acı və ölməz xatirələrini saxlamaq, Leylinin xarakterindəki pak, təmiz səmimiyyətə əbədi hörmət əlaməti olaraq bu adı qızlarına verirlər, ömür boyu təkrar eşitmək istəyirlər.

Şübhəsiz, bu, az olardı, müqəddəs, səmimi məhəbbətə qarşı edilən zülmə ümumi, dərin bir nifrət də zəruri idi. Bu nifrəti hər kəsdən əvvəl ərəb xalqının özündə, onların xüsusən, son əsrdə cəsarətlə apardıqları qəh-

rəman mübarizədə görmək olardı.

Dərk olunmuşdur ki, ərəb qızının qurtuluş və səadəti hər kəsdən əvvəl onun öz əlindədir. Zülmün və zorakılığın qurbanı olan Tamilla da öləndə bunu hiss etmişdi. Bu həqiqəti ən çox və ən dərin zərurəti ilə duyan bir ərəb qızını indi bütün dünya tanıyır.

Hamı bilir ki, əlcəzairli qız Cəmilə – qəhrəman Cəmilə Fransa imperialistlərini necə heyrətə, dəhşətə gətirmişdir. Cəmiləyə ölüm cəzası verənlər, Cəmilələrin qəlbində azadlıq mübarizəsini daha da alovlandırdılar. Yalnız ərəb ölkələrində deyil, habelə, bütün dünyada elə bir azadlıq sevən xalq yoxdur ki, Cəmiləni öz əzizi saymasın, onu alqışlamasın.

Cəmilə oyanan, vuruşan qoca və gənc, yeni və nəhəng Afrikanın parlaq rəmzidir. Əlcəzair respublikasının təşkili bu müqəddəs döyüşün dünyaya səs salan böyük qələbəsidir. Ərəb qızı yalnız maddi silahla vuruşmur, onun əlində güclü mənəvi silah da vardır. Ərəb qızı müasir, mübariz kitab uğrunda, çirkin müstəmləkə qaydalarını ifşa edən bədii kitab uğrunda əzmlə vuruşur.

Daşkənddə, Asiya və Afrika ədiblərinin konfransında şəvəsaçlı, ortaboylu, ağıryerişli, qarayanız, gülərüzlü bir qız müstəqim, nüfuzedici baxışı ilə çoxlarının diqqətini cəlb etmişdi. O, tribunaya qalxıb, alovlu nitqə başlayan kimi, bütün nümayəndələr onu gurultu ilə alqışladılar.

Qahirədən gəlmiş qız – Ayişə Əbdürrəhman mənəvi silaha sarılan müasir ərəb qızlarının nümayəndəsidir. O, doktordur. Qahirə universitetinin müdərrisidir. Öz xalqının mübariz mədəniyyət və ədəbiyyat xadimidir. O, ərəb ədəbiyyatı tarixinin mütəxəssisidir, qabaqcıl yazıçıdır. O, yenipərəst, gözüaçıq bir adamdır. Ərəb ədəbiyyatına tarix materialı kimi yox, müasir silah kimi baxır və ondan belə istifadə edir. Bu ədəbiyyatı Əlcəzairdə, İordaniyada, Livanda, müstəmləkə qaydalarını saxlamaq istəyən imperialistlərə qarşı döyüşə səfərbər etmək istəyir. O, yüzlərlə gənclərə xitab edir.

Ayişənin tələbələri ondan nə öyrənirlər?

Sxolastik ədəbiyyatın, qəzəl, qəsidənin, dini kitabların ruh və ehkamınımı? Yox! Ayişə ərəb gənclərinə mənəvi mübarizə öyrədir. Bədii sözü gülləyə bərabər tutmağı öyrədir. Ədəbiyyatda xalq həyatı və səadətini tərənnüm edən güclü mahnılar aramağı öyrədir. Ayişə dənizləri, dağları keçərək, buraya da həmin məqsədlə gəlmişdir ki, öyrənib görsün dünyanın qələm sahibləri bəşəriyyətin səadəti, gələcəyi yolunda necə əl-ələ verib, sıx sıralarda vuruşurlar. Bombalar üzərində kitabın, güllə üzərində həqiqi sözün qələbəsini təmin etmək yolunda Ayişə də nümayəndə yoldaşları kimi səylə çalışır.

Ayişə konfransın fəal nümayəndələrindəndir. Müzakirə olunan məsələlər onu çox maraqlandırır, həyəcanlandırır.

Onun ən böyük arzusu bütün ərəb dünyasının, bütün dünyanın imperializm taunundan əbədi xilas olmasını görməkdir, yer üzündə xalqların müstəqil, dinc, məsud həyat sürməsidir. Bütün qadınların, o cümlədən uzun əsrlərin iztirablarını görmüş ərəb qadınlarının maddi, mənəvi quruluşudur. O, aşkar görür ki, bu arzular təkcə Afrika, Asiyada yox, bütün qitələrdə qalib gəlir. İndi ərəb qızının taleyini öyrənənlər Leylinin qəmli macərasına yox, Ayişənin fərəhli həyatına, mübarizə yoluna müraciət edib diqqət yetirməli, sevinməlidirlər.

Ərəb qızı xalqının xələf övladı kimi dünyanın ən qüdrətli, ən mədəni adamları cərgəsində, yeni həyat yolunda möhkəm və inamlı addımlarla irəliləyir.

Elmin, azadlıq və sülhün yolçusuna uğurlar olsun!

1958

# İNSANLIQ FƏLSƏFƏSİ

## I

Bəzi adamın adı heç özünə yaraşmır. Amma bu qızın adını, deyəsən, sonradan qəddinə, qamətinə, məlahətinə baxıb qoyublar. Ağca! Qubanın ağ alması!

Heç tanımayan, bilməyən bir adam da rast gəlsə, yəqin ki, özgə ad deməz, bunu deyər: Ağca!

Ağca yaraşıqlı bir qız idi, tamaşasından doymazdın. Həmişə dik və düz baxan iri ala gözləri, ağ sifəti dairələyən qara tellər, qulac saçlar, şumal, göyərçini gərdən, sakit yeriş...

Başının ipək yaylığı ağ, döşünün sancağı, donunun düyməsi, çəkməsinin qotazı da ağ, sadəcə ağ yox, bir növ bahalı, may şənliklərini andıran təravətli ağ! Çoxları qızı məktəb həyətində, nümayiş sırasında, tarla düşərgələrində, küçə-bacada görəndə baxa-baxa qalırdı. Ağcanın ən acığı gələn də bu idi.

– Niyə baxırsan, xala, buynuz-zad çıxartmamışam ki!



– Qızım, sənə baxmıram, yaradanın qüdrətinə heyranam!

– Bəsdi, sən Allah!

– Allah yaman gözdən saxlasın!

Bəlkə də buna görə, dilə-dişə düşməkdən ehtiyat elədiyi üçün Ağca Baxışın ilk işarəsini rədd etmədi, ona könül verdi.

Oktyabr bayramında inşaatçılar klubundakı görüşdən, məktəb məzunlarının ikinci buraxılışı axşamından sonra Baxış buraya trest rəisi ilə gəlmişdi ki, məktəb qurtaranları tikintidə işə çağırsın. Ağcaya məktub yazmağa məcbur oldu. Məcbur oldu, deyirik, çünki doğrusu budur: heç evlənmək xəyalında deyildi. Çox qızları tanıyıb xoşlasa da, belə fikrə düşməmişdi. Amma Ağcanı görəndə özünü itirdi. Bir gün, iki gün lap kefli kimi gəzdi. Güman elədi ki, ötüb gedər, gördü yox, gedənə oxşamır. Oxlanıb, özü də yaman yerdən oxlanıb. Dərdini kimə desin, kimi göndərsin? Fəhlə adam, ana yox, bacı yox, özü utancaq, açılışmamış. Birdən-birə durduğu yerdə adamın başına bu iş gəlsin!..

Nə isə, ha fikirləşdi, gördü ki, məsələni açmaqdan savayı çarə yoxdur. Özü də üzbəüz yox, qiyabi, məktub ilə! Baxış heç bir zaman savadın qədrini indiki qədər bilməmişdi. Kağız hazırladı. Çox yazdı, çox pozdu, axırda sevdiyinə belə bir məktub göndərdi:

“Məni ordudan tərxis edəndə ürək zəifliyini səbəb qoymuşdular. Yürüşlərdə, yoxuşlarda təngnəfəs olurdum. Güman etmişdim ki, bundan sonra mənim qəlbim ilə ancaq həkimlər maraqlana bilərlər. Amma görüşümüzdən belə məlum oldu ki, yox, orada həyat qaynayır və yeni bir işıq yanır. Onu siz yandırmısınız. Ümidvaram ki, həmin işığı söndürməyi heç bir zaman rəva görməzsiniz!

Ehtiramla, Baxış.”

## II

Gəlin gəldiyi ilk gündən Ağca Baxış ilə şərtləşmişdi: uşaq bağçasında qulluğa girəcək, fəhlə balalarına tərbiyə verəcək, sonra da ali təhsil alacaq.

Toy dəsgahı, mehriban ailə həyatı başlanan günün səhərisi Ağca 2

nömrəli uşaq bağçasına mürəbbiyə təyin olundu. Ağcanın arzuladığı bağçanın balaca həyətində hovuz tikilmiş, cərgə ilə ərik, iydə, badam ağacları basdırılmış, tənəklər baş-başa vermiş, qızılgüllər neçə yerdən calaq edilmiş, təzə binanın eyvanı, qapı-pəncərəsi qəşəng rənglənmiş, dirəkdən çilçıraq asılmışdı. Oğlanlı-qızlı körpə uşaqlar quşlar kimi səs-səsə vermişdilər.

Ağca yenicə ayaq basdığı bu körpələr evini özünün həyat və əmək ocağı saymışdı. Gündə neçə dəfə uşaqları bir-bir dindirməsə, ağacları sulamasa, hovuzun suyunu təzələməsə, otaqların səliqəsini yoxlamasa, qərarı gəlməzdi. Birinin düyməsini tikir, birinə şəkil çəkir, bir başqasına hesab öyrədir, nağıl danışırdı. Cücəli toyuq kimi körpələri başına yığıb cürbəcür mahnılar oxuyur, onlara oyunlar öyrədir, cərgələrə düzürdü. İş görəndə qalın hörükləri kürəyindən sürüşür, gözünün qabağını kəsir, bəzən hovuz suyuna batırdı.

Qız saçını cəld düyünləyib dalına atanda bir dəfə müdirə gülə-gülə demişdi:

– Qızım, onlar sənə kəndir deyil ki, nemətin qədrini bil! Onun həsrətini çəkənlər var!

Ağca sonra hörüklərini bir ipək tor içinə yığıb kürəyinə atardı. Boynunu tərlətsə, darıxdırsa da, müdirənin sözünü yaddan çıxarmazdı.

Ailə həyatının dadlı meyvəsi, ay parçası kimi bir oğlan uşağı da muştuluq şənliyi ilə gəlib çıxdı. Gənc ailədə körpə səsi saf musiqi kimi eşidilməyə başladı.

Bənna Baxışla Ağcanın günü-dirliyi xoş keçməkdə idi.

Ailədən, güzərandan söhbət düşəndə, hərə bir arzusundan deyəndə, Baxış da küsənə-küsənə öz səadətindən danışardı:

– Qardaş, bizim zəmanədə insanın canı sağ olsun, yaxşı da ömürgün yoldaşın olsun, qalan hər şey ötüşər. Ağca ilə qabaq-qabağa oturanda, kəlmə verib kəlmə alanda, bir də Nadirin qığıltısını eşidəndə elə bilirəm, bütün yorğunluğum getdi. Deyəsən, heç ağır daşları divara düzən, səhərdən axşama belədən-belə mizan çəkən, sement vuran, fəhlələr ilə çənə döyən mən deyiləmmiş. İnsana könül həmdəmi hər şeydən fərzdir. Can deyib can eşidəsən, bir-birinin başına and içəsən. Məhəbbət



də, həyat da, ləzzət də budur. İdarədə də adamın kefi saz, ürəyi işıqlı olur. Həyat yoldaşı, mehriban ailə işdə də adama bir arxadır.

Baxış tamamilə haqlı idi. Ağcanın yoldaşlığı, bağçadakı qulluğu, ailə qayğısı bu tərifə tamamilə layiq idi.

Qadın var, həmişə fikri-zikri konsertlərdə, bu teatrda, o tamaşada, gəzməkdə, seyrəngahda, bayır-bağçada olar. Evinin işini yükləməyə də qulluqçu axtarar. Ərinin işdən gəlməyi yadına düşəndə qaçıb restorandan bir boşqab soyuq kotletdən-motletdən alıb gətirər, qabağına atar, sonra poçtalyon kimi qapıdan yox olar...

Belə evin mehmanxanadan nə fərqi!

Yox! Baxışın ailəsi hara, bu söhbətlər hara!

Ağca qulluğunu ikinci növbəyə, nahardan sonraya salmışdı. Səhər yerindən qalxan kimi, birinci işi ərinə yemək vermək, onu yola salmaqdı. Uşağı yedirib geyindirib havaya çıxarmaq, sonra nahar tədarükünə düşmək.

Ağca ərzağın təzəsini, yaxşısını, həm də bahalısını alardı. Handa bir şeyi bəyənməz, dönə-dönə seçərdi ki, Baxışın xoşuna gəlsin. Onun hazırladığı süfrə zənginliyi ilə olmasa da, səliqəsi, sahmanı ilə həmişə seçilərdi. Stol üstündə hər şey par-par parıldardı. Deyərdin, bunlara əl vurmaq heyifdi, hansı qəzetə, hansı sərgiyə getmək üçün şəkil çəkiləcək.

Baxış işdən gec gələndə Ağcanın gözü qapıda qalardı. Tez-tez həyətə çıxıb evə girərdi. Tramvay zəngi cınqıldayan kimi ürəyində deyirdi: “ Baxışı gətirir.”

Uşaq da böyümüşdü. Ata-bala qabaq-qabağa oturub, Ağcanın bişirdiyi xörəyi iştahla yeyəndə, qaşığı qoyub çəngəli, çəngəli qoyub stəkanı, stəkanı qoyub kağız dəsmalı götürəndə, “ əllərin var olsun!” – deyə təşəkkür edəndə Ağcanın ürək rahatlığına söz ola bilməzdi.

Görərdin, axşam, şirin söhbət vaxtı Baxış bir kağız bağlamanı ortalığa gətirir, ana-balaya göstərib soruşurdu:

– Kim bilər, bu nədir?

Biri konfet, biri çəkmə, biri dəsmal, biri corab, biri ətir deyərdi.

– Bilmədiniz?

Nadir tələsik bağlamanı atasından almaq istəyəndə bir də görər-

di, ata qutudan bir sputnik çıxarıb stol üstünə qoydu. Göyə üz qoyan sputnik əvvəl marş çalmağa, sonra da fit verməyə başlardı. Nadirin sevincinin həddi olmazdı...

Deyirlər xain, çəp bir göz bütün xoşbəxt ailələrin pəncərəsindən baxır, içəriyə soxulmağa fürsət axtarır. Bizim tanıdığımız evdə bu etiqada inananlar, bəlkə də, yoxdur. Amma xanımlardan uzaq olsun, Baxışın evinə birdən-birə əsən ruzigarı, ürəyim ağrısa da, deməyə məcburam.

Ağcanın başına elə bir iş gəldi ki, ailə səadəti alt-üst oldu.

Baxış yağlı maşın kimi çox işlək adam idi. Ağrı, yorğunluq, zəiflik ona kar salmazdı. On beş ilin ərzində onun işdən qaldığını görən olmamışdı. Adı həmişə məruzələrdə, şəkli lövhələrdə, işi dillərdə idi. Heç kimin gümanı gəlməzdi ki, bu zirək kişiyə də xəstəlik yaxın düşər.

Bəzən kürək sancısından, ürək ağrısından şikayət eləsə də, Ağcanın sözünə baxmaz, işə gedər, neçənci mərtəbədə divar qoyar, tavan örtərdi. İşdən qayıdan kimi dalbadal rəngli çay içər, bir-iki saat uzanıb dincələndən sonra durub qəzet oxuyar, radio eşidərdi.

Ağca ərinin həkim çağırmağa kahıllıq etməsinə bir növ alışmışdı, inanmışdı ki, baş ağrısı, kürək ağrısı... bunlar işlək adamlarda soyuqdan, havadan, küləkdən olan, tez keçib gedən şeylərdir. Bu "adi" şeylərdən belə müdhiş bir fəlakət baş verə biləcəyini Ağca heç xəyalına gətirməzdi. Elə bir fəlakət ki, nə həkim, nə dost, nə idarə, el-gün, nə qurulu ev-eşik, nə bəslənən şirin arzular qarşı dura bildi!

Ölüm qara qartal qanadını bu gözəl, bu munis xaniman üstündə gərəndə, iti caynaqları ilə Baxışın qəlbini parçalayanda sanki hər şey bitdi!

Ağcanın illər boyu bəslədiyi arzu və ümidlər elə sarsıldı, tamaşasına durduğu füsunkar qayalıqlar kimi birdən-birə elə uçulub töküldü ki, dünya və aləm başına fırlandı.

Baxışın vəfatından xəbər tutanlar axışıb gəldilər, idarə qalmadı, başsağlığı yazmasın, maşın qalmadı, dəfn mərasiminə çıxmasın, adam qalmadı bu adlı-sanlı ustaya yanıb heyifsilənməsin.

Orkestr gətirdilər, cah-calal ilə götürdülər, şəklini çəkdilər, nitq dedilər, qəzetlərdə yazdılar, uşağa kəsəmət kəsdilər.



Mərhumun yeddisi, ayı, qırxı keçdi. Ağcanın üzü gülmədi. Necə gülə bilərdi! Ürək sevgilisini, dağ kimi kişisini itirən cavan gəlinin əlləri qoynunda qalmışdı. Qadında rəng-ruf dəyişdi. Bədən tufana tutulmuş gülzar kimi quruyub soldu. Bütün o gözəllik, məlahət uçub getdi. Şəkil kimi gəlindən bir dəri, bir sümük, bir də quyu suyu kimi dərinə enmiş gözlər qaldı.

Hanı qəzetlər, telefonlar, radiolarda Baxışın çəkilən adı, hörməti! Hanı səhər-axşam isti nəfəsi ilə "sağ ol" deyib, evdən çıxmağı, şəst ilə "salam" deyib qapıdan girməyi, bükülü bazarlığını stol üstünə qoyub mübarək deməyi, uşağı qucaqlayıb min bir dil ilə oxşamağı, cibindən cürbəcür hədiyyələr çıxarmağı, rəngli, şəkilli kitablar göstərməyi? Hanı axşamlar sevgilisinin qolundan tutub bir məclisə, bir cəmiyyətə, toya, təvəllüdə, görüşə getməyi? Hanı evin səadəti, şənliyi? Deyərsən, dəyirmanın suyu sovulub, işıq həmişəlik sönüb. Otaqlarda qu vursan, qulaq tutular. Divarlardan sükut, soyuqluq sezilir...

Baxışın tanışlarından biri, ara-sıra mərhumun qapısını açan, ərk ilə yeyən-içən gödək, gövdəli kişi başsağlığına gələndə Ağcanı kənara çağırdı. Gizli söz deyən kimi, səsini alçaltdı:

– Ağca xanım, heç fikir-zad çəkmə. Allah rəhmət eləsin. Dünyanın işidir. Bir yandan bağlayan fələk, bir yandan açar. Özün bilməmiş olmazsan ki, mən yenə subayam. Səni özüm nikah eləyəcəyəm, uşaq da ki...

– Tfu sənin murdar sifətinə! Sən bu evdə nə qədər çörək yemisən, ay xain! Tfu alçaq üzünə sənin, tfu!..

Gödək kişi daş dəymiş köpək kimi, zingildəyərək, yox oldu.

Ağcanı – bu balaca həyətdə tənəyə, təhqirə uğrayan cavan ananı qəhər tutdu. Ona elə gəlirdi ki, Baxışın matəmi onun bütün vücudunu qurutmuş, gözündə bir damla da yaş qoymamışdır. Ancaq düşmən sözünün, acı tənənin yarası sanki indi onun kövrək qəlbini yenidən qanatmışdı. Gözlərindən yaş yox, qızıl qanlar axırdı. Yanaqlarından damla yox, ağır isti qurğuşun dənələri tökülürdü.

Qonşular, qohumlar təkrar yığıldı, çox təsəlli deyildi. Kimsə bilmədi ki, nə olmuşdur.

## III

Trestdən gələnlər olmasa, Ağca bəlkə də, kiriməzdi. Üç nəfər abırlı-təmkinli kişi qapının rəzəsini tərpətdi, salam verib içəri girəndə Nadir qaçıb anasına xəbər elədi. Ağca dərhal gözünün yaşını silib eyvana çıxdı. Gələnlər Baxışın dostları idilər. Biri yoldaş Cuvarlı, biri də usta Mixaylov idi. Üçüncüsünü Ağca tanıya bilmədi. Cuvarlı hal-əhval soruşandan sonra bənnanın şəklini əlinə alıb xeyli baxdı.

– Ağca xanım, – dedi, – fotoqraf gələcək, bu şəklin üzünü çıxardacaq, böyütmək istəyirik. Baxın, bəlkə, ayrı şəkli məsləhət bilirsiniz. Deyərsiniz çəkər, neçə nüsxə lazımdır.

Trestin köhnə ustası Mixaylov da əlindəki bağlamanı kənara qoyub əyləşdi. Ağcanın kefini, Nadirin dərsini soruşdu.

Qonaqlar çox oturmadılar, bir stəkan say içdilər. Nəsə himləşdilər, həyət-bacanı gəzdilər, baxdılar. Mixaylov bayaqkı qəzet bağlamasını əlinə aldı, Ağcaya üz tutdu:

– Qızım, – dedi, – sən heç demə ki, Baxış yoxdu. Nə qədər biz varıq, Baxış da var. Onun kimi sədaqətli yoldaş, handabir usta heç vaxt yaddan çıxmaz. Keçən ay tələbələrə yataqxana tikirdik, binanı on beş gün tez verdik. Təhvilə nazir də gəlmişdi. Müzakirə oldu, bəyəndilər. Briqadaya ikiaylıq mükafat yazdılar. Rəisimiz elan eləyəndə ustasından fəhləsinə qədər hamı birağızdan dedi:

– Bu mükafat Baxış Baxışovun ailəsinindir. O kişi canını tikintidə qoyub, indi budur, onun pulunu, neçə mindir, gətirmişəm, qol çəkib götürün!

Mixaylov danışa-danışa bir dəstə yüzlüyü güzgünün qabağına qoydu, üstünü qəzet ilə örtdü. O, sözünü qurtarmamış cavan, ucaboy oğlan – trestin həmkarlar komitəsinin təzə sədri sözə başladı:

– Ağca bacı, rəhmətliyin işini eşidən gündən partkomda da, trestkomda da söhbət olub, Nadirə məktəbi qurtarana qədər təqaüd kəsilir, danışmışıq. Sizə də...

Bu yerdə trestkom sədrinin dili gəlmədi. Ağcanın cavanlığına görə təqaüdə düşməməsini demək istəyirdi ki, dili gəlmədi. "Nə lazım, bəlkə heç soruşmayacaq, soruşsa, deyərəm..." – deyə düşündü. Sonra tez əlavə etdi.

– İndi odur, iki nömrəli bağça uzaq olsa, o birinə keçirə bilərik. Mürəbbiyə yeri var. Məsləhətinizə baxın, ürəyiniz istəsə, ora keçə bilərsiniz, baxın.

Ağca razılığını bildirdi, Nadiri Cuvarlı yoldaşa tapşırdı:

– Gözünüz üstündə olsun, bir sənət öyrənsin.

Cuvarlı ananı arxayın etdi ki, Nadiri trestə gətirəcək, həm işləməyinə, həm də oxumağına göz qoyacaq.

Ağca güman etməzdi ki, ən ağır dəqiqələrində qüvvətli, qüdrətli insan əlləri onun qollarından tutub qaldıracaq, dizinə taqət, qaralan gözlərinə işıq verəcək. Səhərdən axşama başları qarışıq olan, böyük planlar tökən, binalar tikən, Moskvada belə yüz idarə ilə bağlı olan, neçə yüz fəhlənin işinə əncam çəkən bir trestdə Baxış Baxışovun – sıradan çıxmış bir kişinin adını bu qədər əziz tutarlar.

Bayram olmazdı, Baxışın evinə dəvətnamələr gəlməsin, albom olmazdı, şəkli vurulmasın, qəzet olmazdı adı çəkilməsin, xeyir iş olmazdı Ağca başda olmasın, təzə il olmazdı Nadirin payı göndərilməsin, səyahət olmazdı uşağı aparmasınlar.

Trest qadınları Ağcasız bir qonaqlıq keçirməz, bir tamaşaya getməzdilər. Evlər təmir olunanda, işıq, su, qaz, sobalar yoxlananda ilk dəfə Ağcanın evinə usta gələrdi. İstirahət evinə putyovka paylananda Ağca siyahıdan düşməzdi...

Ağca bütün bunları yaxşı başa düşürdü, görürdü ki, Baxış yalnız ailəsində deyil, iş məqamında yoldaşlar içərisində də sədaqəti və ləyaqətilə məşhurdur. Görürdü ki, isti bir qayğı onu həmişə, hər tərəfdən əhatə edir, qol-qanadından tutaraq həyatın sürətli axınında aparır, dəstədən, mühitdən ayrılmağa qoymur. Bu həyatın özü də belə bir gedişə müsaid və münasibdir. Özünün bağçada işə, oğlunun məktəbdə dərsə aludəliklə vaxt keçirdiyini, gündən-günə qüvvətlənən sürətli gələcək meylini aşkar görürdü.

# IV

Bu evdə qəribə bir aləm vardı. İşıqlı pəncərənin qabağında zər haşiyəli çərçivədə qıvrımsaç, güləş, sağlam, sinəsi açıq bir bənnanın şəkli dayanmışdı. Yox, bu şəkil deyildi. Elə də şəkil olarmı? Güclü bir igid dayanmışdı. Sanki Baxış öz otağına göz qoyub hər şeyə baxır, sevgilisinin də, oğlunun da duruşuna, oturuşuna, dinib-danışmağına diqqət yetirirdi. Deyəsən, bu saat stol üstündən hoppanıb boğazlı çəkmələrini geyəcək, döşəmədə gəzinəcək, Ağcanı da, Nadiri də danlayıb deyəcək ki, niyə geyinib konsertə getmirsiniz, mən buradayam, niyə darıxırsınız? İşinizdə olun!

Sanki bu igidin ayıq və iti baxışları gənc ailədə hər şeyi birləşdirirdi. İşləyən də, oxuyan da hər an başda əyləşənin nəzərində idi. Uzun illər eyni marağını, diqqətini saxlayan qıvrımsaç oğlan sanki evdəkilərdən də bunu tələb edirdi. Sanki sakit, səssiz, davamlı, mənalı, mehriban nəzərilə deyirdi: "Mən buradayam, niyə darıxırsınız? İşinizdə olun!"

Qıvrımsaç oğlanın nəzərlərindəki bu məna uşağa da, böyüyə də eyni dərəcə aydın və mühüm idi. Onlar hər səhər öpüşüb ayrılanda, hər axşam öpüşüb görüşəndə Baxışdan bu sözləri təkrar-təkrar eşidirdilər: "Mən buradayam! Siz işinizdə olun!"

Lakin bunlar təkrar deyildi. Hər gün başqa bir məna, başqa riqqət, başqa bir hərarətlə səslənirdi. Bunlar ana-balanın öpüşlərindəki hərarət və təravət qədər təzə və şirin idi, həmin öpüşlər qədər onları birləşdirirdi.

Birləşdirirdi, deyirik. Qıvrımsaç oğlanın nəzərlərində birləşdirən qədər ayıran bir qüvvə də var idi. Ağca da, Nadir də hər dəfə yuxarı başa nəzər salanda bu ayrılığı duymamış deyildilər. Ana oğlunu, oğul isə anasını düşünürdü.

Oğul öz anasını Baxışın sağlığındakı qədər şən və qayğısız, ana da balasını atalı vaxtındakı qədər bəxtiyar görmək istəyirdi. Hər ikisinin cidd-cəhdi bu idi.

Görərdin, anası uşağının kəsəmət pulunu yığıb ona maqnitofon almaq istəyir. Uşaq isə həmin puldan gizlincə götürüb anasının sumkasına qoyur, ona yeni palto pulu düzəldir. Xərcləməyə gələndə, bəzi ailələrdəki ixtilaf burada da olurdu. Ancaq burada məzmun ayrı idi: oğul anasını, ana da oğlunu vacib sayırdı.

– Atamın yoxluğunu dost-düşmən bilməsin. Yaxşı geyin, ana!

– Tay-tuşdan geri qalma, bilməsinlər ki, qabaqda atan yoxdur! Hələ ki mən varam, oğul!

Nadir "Şərəf lövhəsinin" yanından keçəndə atasının şəklini orada görmədi. Ağır bir kədər ilə bunu anasına dedi. Ağca, Mixaylova bildirdi. Mixaylov dedi:

– Sabah axşam Nadiri də götürün, trestə gəlin! Dəvətnamə göndərəcəklər. Hələ-həlbət!

Ağca kişisinin şəklini klubda adlı-sanlı işçilər cərgəsində görəndə razılığını bildirdi.

Cuvarlı dedi:

– Ağca xanım, Baxışın şəklindən nigaran olma, mən gözləyirəm ki, bu gün-sabah Nadirin özünü məşhurlaşdıraq. Nadir FZU-ya gedir. İndi cavanlar oradan boy atırlar!

Bayram axşamı raykomdan da gələnlər var idi.

Klub ağzınacan dolu idi. cuvarlı məruzə eləyirdi. Trestin keçmişindən, gələcək planlarından, qabaqcıl ustalarından deyirdi...

Ağca beşinci sırada, oğlunun yanında oturmuşdu, daha doğrusu, Nadir onun yanına gəlmişdi.

– Ana, mən həmişə sənnən oturacağam!

Bu sevincli axşamda bütün işçilərin tökülüb gəldiyi məclisdə ana-balanın yanaşı oturub şirin söhbət eləməyi də mənalı idi. Bugünkü işlər barəsindəki məruzədə Baxışın adı çəkilməyəcəyini bir növ hiss etdirməmək üçün Nadir anasını məşğul etmək, danışdırmaq istəyirdi. Ağca isə onun qolunu tutub deyirdi:

– Qulaq as! Dayan!

Görünür, bu incə mətləb məruzəçinin, Cuvarlı yoldaşın da nəzərində idi. Söhbəti hərlədi, fırladı, o yerə gətirdi:

– Biz gərək trestimizin, 30 ildən bəri inşaat ilə məşğul olan, şəhər tikən nəhəng idarəmizin tarixini yazaq. Qorki özü deyib, belə tarix vacibdir, yoldaşlar! İnqilabımızın hər bayramını eləyəndə baxıb görürsən

ki, belə tarix çox vacibdir. Bunsuz bizi yaxşı tanıyan olmaz. Odur, gündə bizə xarici qonaqlar gəlir. Hələ daxili demirəm, hər gələn də dəftərini açıb səliqə ilə yazmaq istəyir. Haçandan, kimdən, nədən, nə cürə!.. Yaxşı, necə ola bilər ki, mən bu şəhərin inşaat tarixindən deyəm, Baxış Baxışov kimi şərəfli bir ustanın işini unudam, üsulunu deməyəm, şəklini göstərməyəm...

Bu yerdə bütün zaldakılar əl çaldılar. Çoxları da dönüb 5-ci sıraya, yanaşı əyləşən ana-balaya baxdılar. Baxdılar, daha da bərkdən əl çaldılar. Çoxunun sevincdən gözü yaşardı. Adamlar yalnız Baxışın əziz xatirəsinə yox, həm də gül kimi balalar bəsləyən ananın vətəndaş ləyaqətinə əl çalırdılar.

Ağca həyəcandan qızarmış, başını aşağı salmışdı. Oğlunun əlini sıxırdı. Nadir də ətrafına baxıb başını tərpədir, razılıq işarəsi verirdi.

Cuvarlı danışdıqca, bu səliqəli şəhərin bütün çətin tarixi, xoş mənzərəsi, sabahkı dövranı Ağcanın nəzərindən keçirdi.

Cuvarlı yoldaşın sözü sözdü. Görərsən, iki gün çəkməyəcək ki, əli qələmlilər gələcək, binalara baxacaq, dəftərləri açacaq, adamları dindirəcək, şərəf lövhələrini yoxlayıacaq, tarix yazacaqlar. Bu sıralanmış uca ağ evlərin çoxunda Baxışov Baxışın adını görəcək, yazacaqlar. Lap təzə binalara baxanda da Baxışı yad edəcəklər.

– Bu da Baxışovun işidir. Ancaq ata Baxışov ayrı, oğul ayrı.

– Hansı yaxşı tikib?

– Atanın ata yeri var, oğulun oğul!

– İkisi də bir əsrin oğlu, bir nəsil deyilmi?

– Bəli, tikənlər, quranlar nəsli!

– Bizim nəsil!

*1959*



# NAXIŞ

Yəqin ki, siz də ikimərtəbəli daş binanın dəhlizindən ötür, izdihamlı hərəkəti görür, uca səqfin hər tərəfindən uğuldayan sərin küləyin yeknəsəq səsini eşidirsiniz.

Kənarda asqıların qabağında bir əlini qartal caynağı kimi məhəccərə söykəmiş, bir əli göy xalatının cibində hazır dayanıb adamları qarşılayan, yola salan, paltarları, papaqları ehmalca "yallah" deyib təqdim edən arıq, ortaboylu, qarayanız, nimdaş libaslı qadını tanıyırsınız.

Siz də çoxları kimi fikirləşə bilərsiniz ki, bu yaşlı qadının bundan sonra nə arzusu ola bilər? Ələyi ələnib, xəlbiri göydə fırlanır. Yəqin, aylarını, günlərini sayır, pensiya vaxtının çatmasını gözləyir.

Bu idarənin rəisi də deyəsən belə fikirləşirdi. Əgər belə fikirləşməsəydi, Nədiməni yanına çağırıb əhvalını xüsusi soruşmaz, rəyini bilmək istəməzdi.

– Nədimə bacı, deyirəm yorulmusunuz, pensiya vaxtınız çatmasa da, vəsatət eləyərəm, buraxarlar, dincələrsiniz, bəsdir işlədiyiniz.

– Yox, yoldaş naçalnik, hələ işləmək istəyirəm.

– Yorulmamısınız?

Qadın çirməkli arıq, nazik qollarını qabağa verib, ağır bir yük qaldırırmış kimi, silkələdi:

– Hələ ki, qolumda qüvvət var, qadan alım! Bəlkə idarə narazı...

– Yox, yox! Mən ancaq sizin fikrinizi bilmək istəyirdim.

– Hələ ki, işləsəm, yaxşıdır, qadan alım.

– Çox yaxşı!

Nədimənin imkanı az olsa da, arzuları çoxdur. Soruşacaqsınız ki, əlli yaşında bir arvadın indən belə nə arzusu ola bilər? Qulluqmu, maldövlətmi, mükafatmı?

Bunların heç biri deyildi.

Nədimənin əsgər oğlundan yadigar qalan bircə Naxış adlı nəvəsi var idi. Onun nəvəsini oxutmaqdan, boya-başa çatdırmaqdan başqa arzusu yox idi. Pensiyaya çıxmamasına da səbəb bu idi. Nədimə istəyirdi ki, məktəbdə: "Nənən harada işləyir?" – soruşanda, o, belə desin:

– Mədəniyyət idarəsində!

Nədimə nəvəsinin məktəbdə, müəllim qarşısında şax dayanaraq, bu cavabı ucadan və cürətlə dediyini təsəvvürünə gətirir, iftixardan sanki sinəsi qalxırdı:

– Mədəniyyət idarəsində!

Nənə belə güman edirdi ki, uşaqdan bu cavabı eşidənlər onun nəvəsinə ayrı cür baxacaqlar: onu qabaq sıralarda oturdacaq, pioner böyüyü seçəcək, qonaq qabağında danışdıracaqlar.

Qadın Naxışı xəyalında böyüdür, diplom sahibi edir, cürbəcür qulluqlara qoyurdu. Gah təyyarəçi, gah bəzəkli stol arxasında yazan, gah camaat içində nitq söyləyən, gah taxıl maşınında tarlaları biçib-tökən, uca binalar tikən, uşaqlara nəsihət verən görürdü.

Bu arzular bahar suları kimi cuşa gəlir, qadının zehnində bükülüb-açıldıqca, burulub, bərq vurub şaqqıldadıqca aləm ona yüngül gəlirdi.

Ancaq nə edəsən ki, bir gündə, bir andaca nənənin xəyalları su basmış bina kimi alt-üst oldu.

O da belə oldu:

Bir gün adəti üzrə fasilə vaxtı evə gələndə nənə nəvəsini evdən çıxan gördü. Ayrı cür gördü: uşaq bir əlində uzun ağac, o biri əlində də rəndə təngnəfəs məktəbə tərəf gedirdi.

– Naxış, bu nə halətdir? Taxta-zad nədir?

– Dülgərxanada işləyirik, məni gözləyirlər.

– Qızım, taxta yonmaq sənin işindir?

– Öyrədirlər, nənə, müəllim öyrədir!

– Qızım, səni dərs oxumağa qoymuşam, yoxsa dülgərlik öyrənməyə?

Naxış dinmədi.

Nədimə nəvəsinə baxa-baxa qaldı. Elə bil qadını ildırım vurmuşdu.

Nədimə indi başa düşdü ki, müəllimlərin çağırdığı vaxt məktəbə getməməsi ona baha tamam olub: "Uşağı dərsdən ayırıb, gör nə öyrədirlər...".

İşdən çıxanda Nədimə birbaş məktəbə, müdirin yanına getdi. Qapıda sarısaç bir qadın oturub maşında nəsə çıqqıldadırdı. O, Nədiməni görüb başını qaldırdı. Nədimə bərkdən soruşdu:

– Müdir haradadır, ay qız?

– Bəs salamınız hanı, xala?

– Mən salama yox, skandala gəlmişəm!

– Nahaq yerə.

Stul çəkib dedi:

– Buyur, əyləş!

– Əyləşməyə gəlməmişəm. Müdir haradadır?

– Sizə nə olub, çox hirslisiniz?

– Nə olacaq daha...

Nədimə istədi, başına gələni danışsın. Sonra fikirləşdi ki, buna niyə danışsın. Bundan asılı bir şey yoxdur. Bunların böyüyünü görmək lazımdır. Yenə də sual tərzində bir az da ucadan soruşdu:

– Hanı müdir?..

May ayından beşcə gün ötmüş olsa da yayın ən isti havalarını andıran bir bürkü var idi. Deyəsən, gün günorta yerində, özü də məhz bu şəhərin lap üstündə dayanıb gücünü göstərmək, od ələmək, adamları kölgəliklərə qovmaq istəyirdi. Adamlar isə məşğul idilər. Elə bərk məş-

ğul idilər, sanki istidən xəbər tutmurdular...

Həmkarlar ittifaqı binasının birinci mərtəbəsindəki çilçıraqlı, şəkilli, fərş döşənmiş salon ağzınacan adamla dolu idi. Gözlər tribunaya dikilmişdi. Müəllimlərin, direktorların, ustaların biri düşüb, biri çıxırdı. Məktəblərin politexnikləşdirilməsi haqqındakı tədbirlər müzakirə olunurdu. Mərkəzi təşkilatlar hər rayonun neçə illik planını, təhkim olunduğu istehsalat yerini, uşaqların sayını, işin həcmini, peşəsini, vaxtını bilmək istəyirdilər. Özü də təcili bilmək istəyirdilər. Məktəb həyatını yenidən quran bu tədbirlə məşğul olmayan maarifçi yox idi.

Naxışın məktəb direktoru bu gurultulu iclasdan təzə qayıtmışdı ki, Nədimə arvadın qalmaqalını ona danışdılar. Direktor başını buladı: "Di gəl, belə valideynlərlə işlə görüm, necə işləyirsən!"

Elə bunu xəyalından təzəcə keçirmişdi ki, Nədimə içəri girdi.

– Yoldaş müdir, sizə sözüm var!

Direktor Nədimənin cavabında:

– Əleykəssalam, – dedi və qadına daha ağzını açmağa macal vermədi. – Nədimə xala, bayaqdan sizi axtarırdım. Yaxşı gəlmisiniz, gedək!

– Hara?

– Görərsən hara.

– Mən uşaq barəsində...

– Elə uşaq barəsində...

– Qoy sözümü deyim!

– Bəri gəl, deyərsən!

Onlar uzun və açıq balkondan ötüb məktəbin geniş həyətinə, cərgələnmiş qızılgüllərin, nərgiz, nilufər çiçəklərinin arasındakı xırda xiyabana, oradan da birmərtəbəli təcrübə otaqlarına keçdilər. Yol uzunu Nədimə deməyə hazırladığı sözləri ürəyində götür-qoy edirdi. Direktor isə rəndə işlərini, emalatxananı düşünür, yaxşı bir şagirdin rəndələnməmiş valideyni olan bu nənəni "yumşaltmağa", başa salmağa yol axtarırdı.

Onlar gəlib klub kimi uzun, sement döşəməli sərin bir otağa girdilər. Nədimə hara gəldiyini bilmədi: nə məktəbdir, nə bağçadır, nə də yataqxana! Burada nə desən, var. Biri əlində çəkic skamya düzəldir, biri xəritə yapışdırır, biri kitab cildləyir, dibçək bəzəyir, biri divara kağız



çəkir. Naxış da əlində yüngül rəndə uzun bir taxtanı yonur, ağardır, incəldirdi.

Direktor üzünü qadına tutub dedi:

– Nədimə xala, bura bizim iş otağımızdır, təzə düzəltmişik, böyüdəcəyik. Kimin əlindən nə gəlirsə, burada məktəbə kömək eləyir. Sizin qoçaq qızınız Naxış da yazı taxtalarına ayaq düzəldir.

Nədimə dik-dik direktorun üzünə, sonra da əlində rəndə, gülümsəyən nəvəsinə baxıb soruşdu:

– Mənim uşağımı dülgər eləmək istəyirsiniz?

– Biz ona sənət öyrədirik. Qoy əlindən hər iş gəlsin.

– Ona dərs oxumaq əvəzinə belə şeylər?..

– Bizdə həyatdan kənar, yəni quru elm yoxdur. Bütün dərs oxuyanlar fiziki əməyə alışmalıdırlar.

– Necə əməyə?

– Əl əməyinə.

– Bəyəm, məktəb bunun üçündür?

– Bir bura zəhmət çəkin.

Direktor qadının qolundan tutub divardan asılı bir şəklin yanına gətirdi.

– Nədimə xala, bir diqqətlə baxın, görün tanıyırsınızmı? Burada sizin çox sevdiyiniz bir adam varmı?

Nədimə yaxına gəldi, əyilib baxdı. Şəkildə bir dəstə işləyən adam gördü, uzun bir dirəyi köməkləşib haraya isə aparırdılar.

Direktor çiynində şalban olan bir kişiyə işarə etdi:

– Diqqətlə bax! Tanıyacaqsan!

Nədimənin bayaqdan bulud kimi tutulmuş sifəti bir anda açıldı. Qadının gözləri gülümsədi, bir ətrafa, bir şəklə baxıb dedi:

– Bu yoldaş Lenin deyil?

– Özüdür!

– Bəs bu dirək-zad nədir?

– Lenin dirək daşıyır.

– Heç elə şey olar?

– Görmürsən?

– Adam heç inana bilmir.

– Nahaq inanmırsan. Lenin kimi böyük bir adam inqilab yolunda, xalq yolunda hər bir çətin işə gedirdi, amma bizim Nədimə xalamız...

Direktor bu sözü xüsusi məna ilə dedi:

– Amma bizim Nədimə xalamız öz nəvəsinin emalatxanada işləməyinə razı olmur. Qorxur ki, nəvəsinin əlləri xarab olar.

Uşaqlar gülüşdülərsə də, direktorun dodağı qaçmadı. O, sifətinə daha ciddi ifadə verərək dedi:

– Bunu eşidən nə deyər?

Direktor bu sualı sanki Nədimənin özünə verirdi.

Nədimə dinmədi. Bir az yaxına gəlib Leninin şəklinə diqqətlə baxdı, işarə ilə nəvəsini çağırdı:

– Naxış, bir bura gəl!

Direktorun məqsədinə çatmağı uşağın da ürəyindən idi.

Qız quş kimi nənəsinin qabağına atıldı.

– Nə var, nənə?

– Buranı oxu görüm, nə yazıblar?

Naxış şəklin altını bərkdən oxudu:

"Vladimir İliç 1919-cu ildə iməcilikdə fəhlələrlə işlərkən."

– Haçan?

– 40 il bundan qabaq!

Nədimənin nəzəri şəklə sancılıb qaldı.

– Rəhmətlik onda sağ idi. Ah, o günlər gəlin vaxtım idi, ev nədi, övlad nədi, zad nədi bilməzdim.

Qadın təzə açılan gülü iyləyirmiş kimi, nəvəsinə tərəf əyildi.

– Onda sən də yox idin.

Direktor qadının sözünə qüvvət verdi:

– Heç mən də yox idim.

Nədimə xala təəccüblə direktora baxdı. Naxış da söhbətə qarışdı:

– Heç bu məktəb də yox idi.

Nədimə başını qaldırıb məktəb otağına, pəncərədən görünən sıra binalara diqqət etdi. Sanki o indi başa düşürdü ki, dünyada nələr olur.

– Lenin elə işləməsəydi, bizi elə öyrətməsəydi, bu dəsgahlar haradan olardı?!

Nədimə xala başını tərpədib deyilənləri təsdiq etdi, köksünü ötürdü, əlini nəvəsinin başına çəkib təkrar soruşdu:



– Bu şəkil Moskvadan gəlib?

– Bəli, Moskvada çap olunub.

– Bundan bir dənə tapsana, divara vurum. Məktəbdən təvəqqe eləsənə!

Direktor şəklin bir surətini çıxartdırıb ona verməyi vəd etdi və sonra "skandala" gələn valideyn kimi yox, əziz bir qonaq kimi Nədimənin qabağına düşüb emalatxananı gəzdirdi. Onu emalatxanalarda çalışan oğlan və qızların sənəti, işi ilə tanış etdi, ona albomlar göstərdi.

Əhvalatdan xəbərsiz olan şagirdlər bir-biri ilə pıçıldaşır, Nədimə xalanı haradansa, nəsə vacib bir iş üçün gələn "böyük" adam sayırdılar.

– Ayrı şəhərdəndi!

– Ustabaşıdı.

– Qızların təcrübə işini deyəsən buna tapşıracaqlar.

Nədimə müdirlə, emalatxana işçiləri, nəvəsinin ustaları ilə dostlaşıb qayıtdı. "Skandala" getdiyinin, müdirlə hirsli danışdığının peşmançılığını çəksə də, gördüklərinə, eşitdiklərinə şad idi. Məktəbdən gələndən sonra mühüm mətləbdən agah olmuş kimi, o xeyli müddət rahat ola bilmədi, aşkar görürdü ki, uşaqların hərəsi bir peşənin qulpundan yapışıb sənət öyrənir.

Ürəyində özünü danlayandan, dizinə döyəndən sonra çoxdan bəri sandıqda saxladığı göy qədək parçanı çıxardı, ölçdü, nəvəsinə bir yaxşı xalat tikdi.

– Qızım, – dedi, – bizə iş paltarını idarə verir. İşə gələndə həkimlər kimi xalatımızı geyirik, iş qurtarandan sonra çıxardırıq. Bax, sənə də xalat tikmişəm, işdə geyərsən.

Nənə min bir həvəslə Naxışa yaxşı bir xalat tikdi, ancaq birdən xəyalına nə gəldisə, dayanıb barmağını dişlədi və öz-özünə dedi:

– Əlli uşağın içində qızın xalatı dəyişik düşəcək.

Bu, Naxışın da ağlına gəlmişdi:

– Nənə, – dedi, – döşünə nişan tik, nişan!

Nədimə xalatın döşünə bir nişan tikmək istədi: quş, kitab, ya gül yarpağı!

– Qızım, nişan lazım deyil, adını yazsana?

– Yox, nənə, ayrı şey tik!

– Mən nə bilirəm, ağız, o nişanları.

Naxış kitabının birinci səhifəsini açıb nənəsinin qabağına qoydu.

– Bu ki oraq-çəkicdi.

– Bu yaxşıdır. Pioner gərək zəhməti sevsin.

Nədimə oraq-çəkic nişanını qəhvəyi sapla tikmək istəyirdi ki, birdən iynəni sancıb dayandı:

– Qızım?

– Bəli.

– Bura gəl! Məktəbdə soruşsalar, nə deyəcəksən?

– Nəyi soruşsalar?

– Kimin tikdiyini. Əl işi bilirsiniz?

Naxış şəklə baxdı, parçanı əlinə alıb barmağına üskük taxıb dedi:

– Bəri ver!

– Yox, parçanı zay elərsən. Al bu bezin üstündə prob elə, sonra!

Naxış parçanın üstündə karandaşla şəkil çəkdi və sonra da dinməz-söyləməz tikməyə başladı.

Nədimə sevindiyindən bilmədi nə desin:

– Naxışın gətirsin, bala!

– O nə deməkdir?

– Böyüyərsən, bilərsən nə deməkdir! Sənə əbəs yerə bu adı verməyiblər ha! Özün bir naxış, işin də kı bir özgə naxış! Bəs nə!..

*1958*



# ÜRƏKDƏ YAZI

Bizim analar qızlarına ad verəndə gülləri, çiçəkləri unutmurlar: bənövşə, qərənfil, yasəmən, lalə, nərgiz, sünbül, süsən və habelə.

Bu adları eşidəndə sevinirsən. Sahibini görməsən, tanımasan da sevinirsən, bağ-bağata, gülzara, laləzara düşmüş kimi, bahar havası duyursan.

Ancaq bu səadət mənə qismət olmadı. Süsənin adını görəndə sevinmək əvəzinə həyəcan keçirtdim və çox məyus oldum.

Deyəcəksiniz, adı görməzlər, eşidərlər. Mən Süsən adını ilk dəfə, doğrudan da, eşitmişəm və bunun yüngülcə bir tarixçəsi var ki, başıağrısı olmasın, sizə danışmaq istəyirəm.

## I

Böyük Vətən müharibəsi təzəcə qurtarmışdı. Bütün xalq səfərbər bir əsgər kimi ağır günlərin dərin yaralarını sağaltmağa çalışırdı. Vuruşma cəbhəsi bağlanmış, əmək cəbhəsi açılmışdı. Mən də hərbi libası

soyunandan, istehkamçı yoldaşlarımla vidalaşandan sonra Şimali Qafqaza, böyük bir körpünün bərpasına göndərilmişdim. Burada iş nə qədər çox, ağır, qüvvə nə qədər az olsa da, fərəhli idi, çünki göydən bomba tökülmürdü, düşmən təhlükəsi getmişdi. Hərbi şərait yox idi. Ailələrimizi də gətirmişdik. Məktəb, klub, teatr, stadion, hər şey qaydasına düşmüşdü.

Hər səhər tezdən, işdən qabaq, zənbili əlimə alıb bazara qaçır, bu yerlərin bol və ucuz meyvələrindən alıb gətirirdim.

Həmin bu bahar günlərində bizim təzəcə düzəldib sahmana saldığımız bu balaca otağımızda yeni bir "qonaq" gözlənirdi. Bu intizarlı sevinci deməklə başa gəlməz: dörd il sərasər bir-birindən ayrı düşən günü, dava meydanlarında keçən, ilk balasını itirən gənc ata-ananın, yenidən ağ günə çıxan bir ailənin belə "qonaq" gözləməsi nə fərəhli bir aləmdir! Bunu deməsəm də, sizə aydındır.

Xəyalımda qoymuşdum ki, həmin bu təzə gələn "qonağı" ləyaqətli bir hədiyyə ilə qarşılayaq. Belə hədiyyə nə ola bilərdi?

Uşaq çarpayısı, kolyaska, körpə paltarı, gəlincik...

O zaman indiki kimi bolluq deyildi. Sənaye malı, xüsusən məişətə dair çox az şey istehsal olunur, olan da böyük şəhər mağazalarında, yaz qarı kimi görünür, dərhal əriyirdi, buralara gəlib çıxmırdı.

Yoldaşımı min bir intizar, ehtiyatla xəstəxanaya qoyub gəlmişdim. Ərzaq tədarükündə idim. Bir qadının əlində balaca bir stəkanaltı gördüm. "Qonağa hədiyyə!" Nə isə, deyəsən, uşağın anası xəstəxanadan, sıralanmış çarpayıların arxasından əl edir, tapşırırdı: "Al! Uşağa hədiyyəni unutma!.."

Qulağımda bu səs, addımlarımı yeyinlədib qadını dindirdim. Yaşlı, nimdaş geyimli abırlı bir qadın idi. İsti şal örtmüşdü. Əvvəl ermənicə danışdı. Bilmədiyimi görüb, rusca dedi. Sanki mənim marağımı duymuşdu. "Daha evdə uşaq yoxdur, başqa ehtiyacım üçün satıram", – deyirdi. Yüz iyirmi manat istəyirdi. Bu, gümüş, bir az da minalı, ürək şəklində düzəldilmiş göyçək bir stəkanaltı idi. Yüz manat təklif etdim. Qadın bənd olmadı: "Balanızın sağlığına qismət!" – deyə verdi.

İnsan təzə aldığı şeyə, nədənsə, çox diqqət yetirmək istəyir. Təcrübəli adamlar pul verməzdən əvvəl, təcrübəsizlər isə alandan sonra baxırlar. Mən axşam işdən sonra pəncərə qabağından stəkanaltını götürüb o yan-bu yanına diqqətlə baxırdım. Buna münasib balaca bir stəkan axtarırdım. Usta bunu çox məharətlə yonub düzəltmişdi. Qulpu olmasa, doğrudan da, bir ürək şəkli idi. Aşağıdan yuxarı şaquli cızılan, həm də dairələnən naxışları var idi. cızıqlar elə incə, səliqəli, hamar idi ki, bunun insan əli ilə edildiyini yox, nəsə maşından, qəlibdən çıxma bir şey olduğunu güman edirdim.

Qabın altına, nəlbəkiyə qoyulan yerinə baxanda gözümə təzə bir şey dəydi. Sən demə, burada yazı varmış, bu yazı elə nazik, elə xırda, xəlvəti bir yerdə idi ki, bunu hələm-hələm göz görə bilməzdi. Yazı zərif və aydın idi: "Atasından Süsənə, 1930." Bir də oxudum. 15 il əvvəl Süsən adlı bir qıza hədiyyə verilən bu qab indi mənim gözümdə ayrı cür görünməyə, bütün niyyət və sevinclərimi alt-üst eləmyə başladı: "Ey dili-qafil, bu bir yetim, kimsəsizin malı imiş! Necə olub görəsən?"

Süsən!

Görəsən bu kimdir, kimin uşağıdır, başına nələr gəlib? Qanlı vuruşmalar görən, əldən-ələ düşən, təxribata uğrayan bu şəhərlərin dəhşətli günlərindən sonra bu yazıq körpə salamatdırmı?

Salamat olsaydı, onun bu əziz əyləncəsi əllərdə, satışda nə gəzirdi?.. "Atasından Süsənə, 1930."

Bu yazı müharibədən on il qabağın, yəqin ki, qızın xoşbəxt günlərinin yadigarı idi. Kim bilir, bəlkə, satan qadın uşağın anasıdır, ağır vəziyyətdə, ehtiyacdadır? Bəlkə də uşaq yaşamır, bəlkə valideyn, bəlkə... bəlkə...

Süsən və onunla əlaqədar düşüncələr məni o qədər məşğul etdi ki, stəkanaltını sirli bir şey kimi əlimdən yerə qoymur, müttəsil baxır, baxdıqca daha çox təsirlənir, fikrə gedirdim. Düşünürdüm ki: "Aya, bir ailənin, bir uşağın bədbəxtliyi üzündən satışa gedən və bizim evimizə gəlib çıxan hədiyyə mənim övladımın, dünyaya yenicə göz açan balamın sevinc əyləncəsi ola bilər, ya yox?"

Bu, bir sual deyildi. Bu, dəhşətli bir xitab idi!

"Necə oldu ki, mən baxmamış, yoxlamamış belə bir şeyi əlimə al-

dım? Uşaq gözü dalınca qalan bir yadigarı mən uşağıma hədiyyə gətirmişəm? Dəhşət! Bəlkə də Süsənin atası müharibədə, bizim gəzib səfa sürdüyümüz bu yerləri düşməndən qoruyanda həlak olmuş bir qəhrəmandır? Mən isə onun yetim balasını himayə etmək, şəhid qızına atalıq etmək əvəzinə... kəmfürsətlik edirəm. Bu da bir qarət kimi şey deyilmi?"

Ötüb-keçən qayğılı adamlar, şəhid qanı ilə islanmış torpaqlar, taskülahlı qəbirlər, yaralı binalar, qanadı qırılmış ağaclar, növrağı pozulmuş bağlar, bağçalar, barıt qoxusundan yenicə təmizlənən üfüqlər, təranəyə gələn quşlar – hamısı, hamısı sanki mənə nifrət yağdırırdı.

Bu müdhiş duyğular, sanki mənim müharibə illərində keçirdiyim mənəvi iztirabların qəlbimdə bərkiyən, ağırlaşan təcəssümü idi, üzə çıxmağa çoxdan yol axtarırdı. Gümüş qabın altında incə bir qəlbə həkk olunmuş yazı bu yolu açmışdı. Şahdamardan qan fışqıran kimi, bu yanıqlı duyğular axıb gəlməkdə, məni böyük bir peşmançılıq gölündə boğmaqda idi. "Süsən, ay Süsən! Nisgilli bala, sən indi haradasan?.." Haqqında heç bir şey bilmədiyim, tanımadığım bu xəyali məxluq ilə qiyabi olaraq, ünsiyyət bağlamağa, dinməyə, dindirməyə başlamışdım, nəfəsini, səsini duyub eşitməkdə, mənə dik və iti baxan gözlərini görməkdə idim.

İndi o böyümüş, 16-17 yaşlarında gənc bir məktəblidir. Bəlkə də hansı tikintidə, zavodda, dəmiryolunda, tarlada çalışır...

Onun zəif dodaqları tərpənir, həzin və riqqətli səslə dediyi sözlər qulağıma gəlirdi: "Əsgər balasına beləmi hörmət!..", "Yetimlərlə bu rəftar!..", "Nifrət!.."

Bu səslər məni dəhşətə gətirirdi. İndi bu, kimsəsiz bir uşaq səsi deyil, milyonlarla vətəndaşın şərəf, vicdan səsi kimi məni titrədir, cavab istəyirdi. Mən özümü insanlar, insanlıq qarşısında, böyük bir ölkə vətəndaşlarının mühakiməsində müqəssir kürsüsündə görürdüm. Tanıdığım, tanımadığım bütün insanlar: döyüşçülər, atalar, analar, qocalar, uşaqlar mənə suallı nifrətlə baxır, sanki deyirdilər: "Buna, bu alçağa bir baxın!.."

Milyonlarla qəzəbli nəzərlərə hədəf olmuşdum. "Yox, mən bu hədiyyəni saxlaya bilmərəm! Süsəni tapmalıyam! Harada olsa, tapmalıyam!"



Gözləyə bilməzdim. Axşam vaxtı qabı götürüb düz həmin yerə, şallı qadına rast gəldiyim yerə, bazar ayağına getdim. İzdihamlı meydanda süpürgəçidən və yük maşınlarından başqa kimsəni görmədim. Evə qayıtdım. Xəstəxanaya zəng vurub soruşdum. Təcili çağırdılar.

Gözlənilən "qonaq" gəlib çıxmışdı. Gül kimi bir qızım olmuşdu. Xəstəxanada içəriyə adam buraxmırdılar. Mən yoldaşımı təbrik edəndən sonra bilmirəm hansı bir əmrin, hansı hissin təsirilə belə bir sual yazdım: "Süsən necədir?" cavab gəldi ki: "Süsənin kefi sazdır!"

## II

Səhərisi gün tezdən xəstəyə ərzaq verib yola düzəldim. Bazarı birbirinə vurdum, şallı qadını tapa bilmədim. Stəkanaltı əlimdə idi. Gümanım gəldiyi qadınlara göstərib deyirdim: "Tapmışam, bəlkə, sahibini tanıyasınız?"

Əlbəttə ki, buna sahib çıxan çox ola bilərdi. Ancaq şallı qadın haqqında söhbət salanda ötüb gedirdilər.

– Kimdir buralarda ev şeyləri satan?

– Necə yəni?

– Nəvəsinin əyləncələrini satan qadın?

– Tanımıram.

Əlim hər yerdən üzüldü. Şallı qadını görəcəyimə ümidim yox oldu. Mat-məəttəl qalmışdım. Məyus-məyus küçələri dolaşırdım. Haraya, nə üçün getdiyimi özüm də bilmirdim. Bir yandan yenicə tapdığım Süsənin sevinci məni çağırırdı, o biri yandan itirdiyim qızın intizarı məni üzürdü.

Qulağıma bir səs gəldi. Deyəsən, pıçıldadılar.

Üzüaşağı, asfalt xiyaban ilə dəmir körpüdən o yandakı şəhər mağazalarına doğru yönəldim. Addımlarımı yeyinlətdim. Elə gedirdim, yerə dəysəydim, yəqin ki, parça-parça olardım. Görənlər dayanıb, arxamca baxıb deyirdilər:

– Bu yazığa nəsə olub...

– Mətləbsiz deyil.
– Əqlini azıb.
– Haradasa itkisi var.
– Bilmək olmaz!

Qan-tər içində idim. Zərgər bazarına çatanda çıraqlar yanır, mağazalar bağlanırdı. Tez özümü qapıdan içəri salıb gümüş qabı göstərdim:

– Belə bir şey sifariş verə bilərəmmi?
– Qabaqdakı mağazaya buyurun! Ustaya göstərin!

Usta çeşməyini taxıb gümüş qaba diqqətlə baxıb dedi:

– Siz lap bundan istəyirsiniz?
– Bundan.
– Mümkündür.
– Bəlkə bu sizin işinizdir?
– Çoxdankıdır.
– Necə çoxdan?

Usta qabın altına baxıb, mənə verdi:

– On beş il!
– Bəlkə bu ad sahibini tanıyasınız?
– Sifariş çox olur, yadda qalmaz.
– Bunun sahibi Süsən mənə çox lazımdır.
– Nə çoxdur Süsən!..
– Siz bunu vitrinə qoyun, tapıldığını elan edin. Bəlkə sahibi gəldi.

Zərgər gülümsəyib razılaşdı:

– Nə eybi var.

Bir gün, iki gün, üç gün...

İndi daha "qonaq" evimizdə idi. Zərgər yanına xəlvəti gəlib-gedir, yoldaşıma bildirmirdim. Zərgər də çeşmək altından hər dəfə başını yırğalayır, vitrində dayanan gümüşü qaba işarə edirdi:

– Bir şey yoxdur.

Səkkizinci gün usta məni görən kimi gülümsədi:

– Gələn var!

Sevincimin həddi-hesabı yox idi:



– Nə danışırsınız?

Zərgər sakit, səbirli adam idi. Az dinib-danışırdı. Görünür, mənim vəziyyətimə biganə deyildi. Güldü, dodaqları qaçanda, topa, çal, yaraşıqlı bığları aralananda qoşa iri qızıl dişləri göründü, sifəti daha xoş bir görkəm aldı:

– Süsən gəlib!
– Zarafat eləyirsiniz?
– Həqiqət gəlib!

## III

Süsən uşaq nə gəzir, yar-yaraşıqlı bir həkimdir. Bunu biləndə ürəyim qəfəsdən qurtulan quş kimi qanadlandı. Süsənin səadəti mənim səadətim idi. Keçən il tibb texnikumunu qurtarıb mədən sularında, xəstəxanada işləyir. Şallı qadın onun nənəsidir. Köçüb nəvəsinin yanına gedir. Ev-eşiyin xırda şeylərini satıb yola hazırlanır.

Bazar günü qız özü komsomol uçotundan çıxmaq üçün buraya gəlməli idi. Zərgər bizi görüşdürməyi boynuna götürdü.

Səhər tezdən zərgərin yaraşıqlı həyətində, tənəklə örtülü çardağın altında mən Süsənlə görüşdüm. Doğrudan da, təsvir etdiyim, kimi iti baxışlı, cəld bir qız idi. Nənəsi əhvalatı ona danışmışdı. Çay süfrəsində stəkanaltını qıza verdim. Üzr istədim.

Süsən gümüş qaba baxdı, çəkdiyim intizara güldü. Ustadan xahiş etdi ki, buradakı yazıya bir əlavə etsin. Usta, otağındakı balaca çarxı işə salıb, xırıltı ilə yazdı. Gümüş qabın altında həmin incə xəttin dalısını belə yazdı: "Süsəndən Süsənə, 1945." Süsən dünya görmüş təcrübəli adamlara məxsus bir dil ilə məni təbrik etdi.

– Qoy, – dedi, – məndən balaca Süsənə yadigar olsun.

İki saat qədər oturduq. Dost olduq, bir-birimizə taleyimizi danışdıq, ünvan verdik, əhd elədik. Qatarın vaxtı çatmışdı, şallı qadın maşını ilə bizim dalımızca gəlmişdi. Vağzala getməli olduq. Süsəngili elektrik qatarına oturana qədər qayıtmadıq. Vaqon yola düşəndə qız və nənəsi

pəncərədən baxır, vidalaşırdılar. Mən də yenicə yazılmış gümüş qab ilə işarə edir, ürəyimdə bu sözləri deyirdim: "Atasından Süsənə, Süsəndən də Süsənə."

Düşünürdüm ki, səmimi yazılar ürəkdə necə artdı, necə böyüdü, nəticədə nəsildən-nəsilə keçdi.

*1959*



# XƏCALƏT

Ala-bəzək geyimli cavan bir oğlan əlində kağız bükümü, gilas yeyə-yeyə, ətrafına baxa-baxa şəhər bağından ötürdü. Axşamdan xeyli keçmişdi, xiyaban o qədər sakitlik idi ki, ağır, ahəngdar addımlardan, döşəməyə düşən tumların səsindən başqa heç nə eşidilmirdi. cavan oğlan hər gün buralardan keçsə də, nadir hallarda belə sükut görərdi.

Səhər buradan işə gedəndə xiyabanı şüşə kimi tərtəmiz gördü. Sanki kimsə hamıdan tez durub xiyabanları silib-süpürmüşdü ki, adamlara xoş olsun.

Ağ önlüklü, gödərək bir qadının əyilərək, kağız qırıqlarını, tumları, papiros kötüklərini xəkəndaza süpürdüyünü görəndə dayanıb xeyli baxdı. Qadın xiyabanı elə təmizləyir, sahmana salırdı ki, deyərsən öz həyətidir.

Adi hallarda heç diqqət yetirmədiyi, məhəl qoymadığı bu qadın cavan oğlana ayrı cür göründü, gözündə böyüyən kimi oldu. Dayanıb xeyli baxdı, bilmədi necə üzr istəsin. Fikirləşdi ki, cibindən pul çıxarıb versin, ya da yaxınlaşıb təşəkkür eləsin.

– Xala, – dedi – buralara zibil atan, sizin zəhmətinizi artıranlardan biri də mənəm. Bilmirəm necə eləyim ki, sizin xəcalətinizdən çıxım.

Qadın başını qaldırıb bir oğlana, bir də zibil qutusuna baxdı, öz işinə davam etdi.

– Keçdiyiniz yerləri zibilləməmək – həm mənə yaxşılıq, həm də özünüzə ləyaqət olardı! – dedi.

*1959*



# SANCAQ FABRİKİNDƏ

Direktor:

– Xoş gəlmisiniz! Kitab xadimləri nə əcəb bizi yada salıblar!

Kitabsatan:

– Xoş gününüz olsun! İşimiz düşüb: bir neçə yeşik sancaq lazımdır.

Direktor:

– Bəlkə qutu demək istəyirsiniz?

Kitabsatan:

– Xeyr, yeşik!

Direktor:

– Görünür, vəzifənizi dəyişmisiniz. Mən sizi kitab mağazasından tanıyıram.

Kitabsatan:

– Bəli, orada işləyirəm. Ancaq indi işimiz artıb. Elə kitablar yazılır ki, sancaqsız oxunmur. Oxucunu yuxu basmasın deyə, sancaq lazım olur.

Direktor:
– Hər kitaba bir sancaq?
Kitabsatan:
– Bəlkə də bir neçəsi!
Direktor:
– Bu kitabları tərifləyən tənqidçilərə necə, sancaq verilirmi?
Kitabsatan:
– Onların sancağını ya redaksiya, ya da müəllif özü verir.

*1959*



# İLK HƏDİYYƏ

## I

Qəşəm kişi küsənərək deyirdi:
– Dünyada nə xoşbəxt adamlar var!
Əliəşrəf maraqlandı:
– Nədən sarı deyirsən, Qəşəm?
– Var, doğrudan elə xoşbəxtlər var. Biri bax, bizim bu revkom Qasım.

– Əə, nə xoşbəxtliyindən deyirsən, tüfəng, qatar çiynində, günü axşama, gecəni səhərəcən kəndlərdə qaçaq qovalayır, doyunca yuxusu da yoxdur, ev-eşiyə həsrətdi, onun nəyinə küsənirsən sən?..

Qəşəm kiçik, lakin parıldayan gözlərilə Əliəşrəfin üzünə dik-dik baxdı, bərk əlini ələm kimi göyə qalxızıb silkələdi və eşitdiyi xəbəri ucadan dedi:
– Revkom Qasım Moskvaya gedir ey! Leninin yanına!
Əliəşrəf inanmadı:

– Leninin yanına?

– Bə nə, lap Leninin hüzuruna!

Əliəşrəf mühüm bir xəbər eşidəndə dinməz-söyləməz dayanar, sanki zehnində götür-qoy eləyərdi.

– Torpaq məsələsindən ötrü?

– Bilmirəm, nədən ötrü, amma yəqin gedir.

– Tək gedir?

– Bütün mahallardan adam gedir, bizim qəzadan da Qasım!

Əliəşrəf gördü ki, Qəşəm haqlıdır. Bir adam ki, Leninin hüzuruna gedə, böyük bir qəzadan nümayəndə gedə, həm də bütün mahalların nümayəndəsi ilə gedə, əlbəttə ki, bu xoşbəxtlik hər kəsə qismət olmaz. Bu böyük səadətdir!

Qasım indi Əliəşrəfin gözündə böyüdü, yekəldi. İnqilab rəhbərlərinin görüşünə gedən Qasım indi daha Əliəşrəf ilə hər gün yoxsullar komitəsində söhbət edən, deyib-gülən adama oxşamırdı. İndi onun danışığı, yerişi, duruşu, oturuşu kişiyə tamam ayrı cür gəlirdi.

– Yəqin, özü çağırıb.

– Çağırsa da, çağırmasa da, kişi gedir.

Əliəşrəf fikirləşib gördü ki, Qasımın belə bir səfərə haqqı var.

– O getməyəndə, a Qəşəm, kim gedəcək? Özü firqəçi, özü bu böyüklükdə qəzanın revkomu, özü oxumuş, qəzetdən-məzetdən başı çıxandı, həm də füqərayi-kasibə. Lenin yoldaş özü yaxşı bilir ki, kimi çağırsın...

Qəşəm isə revkomun səadətindən ağızdolusu deyib dururdu:

– Kişinin nə bəxti gətirib? Moskov kimi bir yer, Leninin idarəsində rəhbəri görmək, rubəru danışmaq, yanında oturmaq, dərdini demək!..

– Revkom öz dərdindən qabaq biz füqərayi-kasibənin dərdini gərək desin. Lenin özü soruşacaq.

– Qasım onu da deyər, bunu da deyər, Qasım deyəndir! Rusca da çisti danışır.

– Eh, Lenin hər dili bilir! Təki haqq söz de! Tükü tükdən seçir!

– Revkom hökumətdi, hökumət işlərindən danışacaq. Biz kəndlilərin sözünü də böyük rəhbərə gərək əlavə çatdırsın.

– Əlbəttə ki, gərək çatdırsın. O çatdırmayanda, bəs kim çatdıracaq!..

– Çatdırsın ki, biz, bax, budur müsəlman kəndliləri, illərdi əkən, becərən də biz, vədə başında lüt qalan da biz, yaz əkinçi, qış dilənçi. Qasımın borcudur rəhbərə çatdırsın ki, bu nədi, bəyin, xanın, qazının, koxanın qapazını müsəlman kəndlilərin başından bilmərrə yox eləsin. Əliqabarlılara ağ gün gətirən Lenin, qoy bizim də harayımıza çatsın!

...Torpağı ki böldük, düşmənin əhdi kəsiləcək. Darıxma, buna şura hökuməti deyərlər, darıxma!

– Qoyur böləsən! Görmürsən mollalar minbərdə haray salıb ki, haramdı! Özgənin yerində əkin haramdı, tikin haramdı, filan, beşməkan... Qasım gərək rəhbərə bunları desin, gərək bu hiylələri bildirsin rəhbərə!..

Bir şey yadına düşübmüş kimi, Qəşəm müsahibinin qolundan tutdu və kənara çəkdi:

– Əliəşrəf, nə məsləhətdi, mən deyirəm Qasım əliboş getməsin axı: Moskovdu, rəhbərin yanına gedir, seçmə almalardan bir az, isbatlı yeşikdə sovqat göndərək! Necə olar?

– Göndərək, amma qorxuram heç götürməyə, başı qarışıq olacaq. Dünyanın hər yerindən dilqatlar gələcək, Qasım tək bilməz neyləsin, karıxar, iclasa gedir axı!

– Elə demə, Qasım zirəkdi, Qasım iş biləndi. Qoy aparsın, iclasdan sonra fürsət tapıb rəhbərə (bir balaca ağız şirinliyi kimi), o babətdən ağız şirinliyi deyər.

– Qoy Lenin yoldaş qubalıların işlərindən xəbərdar olsun, təsərrüfatımızı bilsin!

– Əqlə batan sözdür, gedək revkoma! Görək nə deyirlər?

– Üst-başım sahmanda deyil, sən yeri, mən bu saat gəlirəm.

Qəşəm ilə Əliəşrəfin dedikləri o gün ağızlarda fərəhli bir söhbət oldu. Revkomda da bu fikri bəyəndilər. Moskvaya, rəhbərin hüzuruna ləyaqətli sovqat göndərmək üçün kimi seçmə növlərdən: sinabi, qəndili, tabaq alması, ətirli, ağ alma, anton təklif edir, kimi üstündə xüsusi na-

mə yazdırmağa, kimi qəşəng toxuma səbətlər hazırlamağa, kimi lumu kağızı tapmağa tələsirdi. Kəndlilərdən eləsi də var idi ki, bu hədiyyənin Leninə layiq olmadığını ürəyində, öz aləmində düşünür, yoxlayırdı: "Görəsən, bəyənər, bəyənməz, götürər, götürməz?"

İlk baxışda sadə və şübhəsiz görünən bu təklifin təfsilatını görəndə Qasım Bakıya zəng vurdu. Rəhbər yoldaşlardan soruşanda bəyəndilər: "Qubanın alması Moskva üçün ləyaqətli hədiyyə olar. Kəndlilərin xahişinə səs vermək lazımdır!"

Qasım 8-ci Sovetlər qurultayına gedən 15 nəfər nümayəndənin biri idi. Yolboyu hərə bir söhbət salır, kimi torpaqdan, kimi ərzaq qıtlığından, kimi fəhlə komitələrinin işindən, qəzetlərdəki mübahisələrdən, cənub cəbhəsindən danışırdı. Qasım isə hər saat öz qəzasının ehtiyaclarını, kəndlilərin rəhbərə yetirməli tapşırıqlarını düşünür, dəftərində yazıb-pozurdu. Düşünürdü ki, görəsən, aya, inqilabın rəhbəri yoldaş Lenin ilə görüşmək, onun üzünü görmək, səsini eşitmək, əlini sıxmaq, nəfəsini duymaq, heç olmasa, salamlaşmaq Qasıma müyəssər olacaqmı?

Qış qatarının uzun yollardakı ağır, yeknəsəq təkər səsləri sanki, Qasımın həyatındakı ən sevincli, ən yüksək, ən əlamətdar saatların yaxınlaşdığını xəbər verir, hər dəqiqə bu narahat sərnişindən mənalı-mənalı soruşurdu: "Hazırsanmı?"

Qasım isə düşünürdü: "Mən Lenini, əlbəttə, nə iclasda, nə də ki, kabinetində görə bilmərəm, onun vaxtı nə gəzir! Mən iclas arası, tənəffüsdə gərək yanaşam, ərzimi o kişiyə yetirəm... İşdi, əgər soruşsa ki, "Bəs haradan gəlmisən?", o saat almaları təqdim edib deyərəm ki, Quba qəzasının zəhmətkeşləri sizə çoxlu-çoxlu salam göndərirlər! Bir də soruşsa ki: "Bəs mətləbin nədir?", onda mən də camaatın tapşırığını yetirərəm, necə ki var, dilcavabı deyərəm. Rəhbər özü bilər, nə məsləhət desə, o da onun öz işidir!.."

Yüz dəfə bunları fikirləşən, hər dəfə yenidən ölçüb-biçən, yeni-yeni sözlər tapıb düşünən, yoldaşları ilə hər sözü başqa bir ahəng ilə məsləhətləşən, öz aləmində xəyalən icra edib nəticəsini yoxlayan Qasım, görüşünü zehnində müəyyən şəklə sala bildiyinə sevindi, əlini əlinə çalıb ayağa qalxdı, vaqonun pəncərəsindən kənara, böyük Rusiyanın ayaz



altında süd kimi ağaran qarlı, sakit, ucsuz-bucaqsız çöllərinə xeyli baxdı, yaxınlaşırıq", – deyə kupedəki şeylərini, paltarlarını yır-yığış eləməyə başladı.

Yuxarıda üst-üstə qoyduğu, nazik kağız ilə örtdüyü hədiyyəni ehtiyatla aşağıya endirib qatarın dayanmağını gözlədi. "Bunları özüm gərək yanımda aparam, özüm də əmanəti sahibinə yetirəm, ehtiyatla!.."

## II

Əzəmətli, yaraşıqlı, hər tərəfi şüar və şəkillə bəzənmiş böyük salonda – iclas zalında kimlər yox idi? Ölkənin ən böyük adamları, xalq komissarları, vilayət və qəza komitələri sədrləri, köhnə firqəçiləri, mühəndisləri, fəhlələri, kənd kommunistləri, handa bir adlı-sanlı mütəxəssisləri...

Lenin bütün nümayəndələrin diqqətini toplayaraq, iti, kəsərli, alovlu sözlərlə danışırdı. Zaldakılar sükut və diqqət kəsilib dinləyirdilər. Leninin təsirli, cazibəli səsi, sanki təkcə burada əyləşənlərə yox, bütün ölkəyə, bütün dünyaya xitab edən səsi hər kəsi gələcəyə – yüksəklərə çağırırdı. Adamlar bu gün burada əyləşdiklərini yox, sabah harada, nə xidmətdə, nə vəzifədə olacaqlarını, çalışacaqlarını düşünür, özlərini səfərbər kimi təsəvvür edirdilər. Leninin nitqi gənc respublikada inqilablardan, müharibələrdən, döyüşlərdən qalib çıxan Sovet ölkəsində böyükdən kiçiyə hər zəhmətkeşin işini əhatə edir və işıqlandırırdı. Lenin həmkarlar ittifaqının bizim Vətəndə, bizim dövlətdə, xalq həyatında əhəmiyyəti və vəzifələrini müəyyən edəndə əlinə bir stəkan alıb misal çəkirdi...

Qasım irəli oturur, qabaq cərgədəki stullara söykənərək, elə bir maraq və diqqətlə natiqi dinləyirdi ki, barmağını kəssəydin, xəbər tutmazdı.

Lenin həmkarlar ittifaqını – milyonların toplandığı bu kütlə təşkilatını anlamayanlara, yolundan azdırmaq istəyənlərə üzünü tutaraq, kəskin cavab verirdi. Qabağındakı sadə su stəkanını götürüb misal çə-

kirdi: bu stəkan su qabıdır, bu həm də həndəsi bir cisimdir. Bundan başqa həm də kimyəvi bir tərkibdir. Lazım gəlsə, kəpənək tutmaq üçün bir tordur, ya da zərbə üçün işlədilə bilən silahdır, ağırlıqdır... Natiq stəkanın, sadə bir cismin nə qədər xüsusiyyəti olduğunu saydı, neçə tərəfdən ona yanaşmağı göstərdi. Kommunistlər yanılmamaq, ayıq olmaq, həqiqəti görüb-göstərmək üçün həyat hadisələrinə, bu təşkilata hərtərəfli, dərindən yanaşmağın zərurətini bilməlidirlər. Həmkarlar ittifaqı məktəbdir, həm tərbiyə, həm idarə məktəbi, kommunizm məktəbidir. Burada biz fəhlələrə kommunizm öyrədirik...

Bir tərəfdən baxan, hər şeyi yarımçıq görər, hərtərəfli baxmadıqca, heç nəyi dürüst dərk edə bilməzsən! Günəş kimi əhatə qüdrəti lazımdır.

Qasım birinci dəfə yeni təfəkkür üsulunu burada eşitdi. Rəhbərin dilindən eşitdi, onu dəftərinə yazdı. Xəyalına qoydu ki, qurultaydan sonra kitab mağazasına gedəcək, Leninin bütün kitablarını alacaq, hamısını alacaq. Quba kəndlilərinin qabağında səhifə-səhifə oxuyacaq. Burada gördüklərini nöqtəsinəcən danışacaqdı...

Qasım salona göz gəzdirir, dünəndən bəri uzun nitq, mühakimələr aparan, dəftərinin birini qoyub, o birini götürən, kitabların, filosofların adını çəkən, çeşmək taxan, alim sayılan adamların necə mat-məəttəl dayanıb Leninin alovlu sözlərini dinlədiyini, təzə mətləblərini tələsik dəftərinə yazdığını görürdü.

Lenin bütün dünyaya azadlıq gətirən kommunist inqilabının keçdiyi, hələ keçəcəyi çətin, mürəkkəb, lakin işıqlı yolları deyir, eşidənləri möhkəmliyə, mətanətə, birliyə çağırırdı. Orağın çəkic ilə, fəhlənin kəndli ilə möhkəm ittifaqına çağırırdı.

Natiqin gurultulu alqışlar altında xitabət kürsüsündən enib getdiyini, yaylığı ilə enli alnının tərini silərək, Kalininə nəsə deyib gülümsədiyini Qasım anbaan izləyirdi.

Adətən ağır müzakirə və mübahisələrdən sonra tənəffüsə çıxanda hamı özünü rahat, sərbəst duyar. Amma bu iclasın tənəffüsü Qasım üçün daha çox həyəcan və təlaş gətirdi. O, adamların Rəyasət Heyəti otağından kənara çıxdığına diqqətlə göz qoyurdu. Lenini görəndə ürə-





Qəbul imtahanı səh.203

yinin döyüntüsü artdı. Ömründə heç bir zaman özünü bu həyəcanda duymamışdı. Çoxdan bəslədiyi bu arzuya qovuşmaq məqamında özünü itirən sadə adamların hərəkəti ilə irəli yeridi. Birdən o, özü də bilmədi ki, hansı bir cəsarət, hansı bir məqsədlə ucadan çağırdı:

– Salam, Vladimir İliç!

Lenin keçdiyi yerdə ayaq saxlayıb səs gələn tərəfə döndü, Qasımın qolundan tutdu:

– Siz kimsiniz?

– Azərbaycan kəndlilərinin nümayəndəsiyəm, Qubadan gəlmişəm.

Böyük rəhbər onun qolundan tutub yeyin addımlarla özü ilə apardı. Leninin sadə, mehriban münasibəti Qasımın keçirdiyi təlaşı bir anda yox elədi. Qasım sıxıntıdan, həyəcandan xilas oldu, özünü öz idarəsində, sıravi kommunist yoldaşlarının yanında, iş otağında duydu. Bayaqdan bəri keçirdiyi ağır nigarançılıq yükü üzərindən yox oldu. Quba kəndlilərinin tapşırığını rəhbərə çatdırmağa tələsdi.

– Vladimir İliç, – dedi, – kəndlilər mənə xahiş ilə tapşırıblar ki, onların səmimi salamını sizə yetirim.

– Kəndlilərin yaşayışı necədir, torpaq alıblarmı?

– Bəli, alıblar. Sovet hökumətindən çox razıdırlar. Torpaq paylamağa başlamışıq. Kəndlilər özləri mülkədar torpaqlarını alıb öz aralarında bölüşdürürlər.

– Bu çox yaxşıdır!.. Biz müsəlman kəndlilərinə öz düşmənlərini tanıda bilmişiksə, bütün Şərqi ayılda biləcəyik!

Bu sözləri Lenin elə bir əmniyyətlə dedi ki, Qasım fərəhindən bilmədi neyləsin, necə təşəkkür desin.

"Şərqi ayılda biləcəyik!"

Bu sözlər sanki Qasımın ürəyindəki bütün suallara aydın bir cavab idi. Axı Quba kəndlilərinin mətləbini rəhbərə yetirmək vaxtı çatmışdır. Leninin yanındakı adamların gözlədiyini, hər dəqiqənin qiymətini düşünən Qasım fürsəti fövt etmədi, cəld əyilib gətirdiyi qutudan iki-üç ağ-qırmızı alma götürdü, Leninə təqdim etdi:

– Vladimir İliç, mən işlədiyim Quba qəzası bağçılıq yeridir. 250 min-

dən artıq nüfusu var. Bu il on beş milyon pud alma dərmişik. Kəndlilər mənə tapşırıblar ki, qəzamızın almalarından Sizə nümunə yetirim. Bunların dadına baxın, Vladimir İliç. Bunlar adi alma deyil. Bunlar bizim kəndlilərin qoca Şərqi azad, onun milyonlarla adamını ağ gündə görmək arzularının ifadəsidir. Onlar istəyirlər ki, gələcək günlərimiz belə çılçıraqban olsun.

Lenin müsahibinin əlini sıxdı, təşəkkür elədi:

– İnqilab bütün zəhmətkeşləri ağ günə çıxaracaqdır! Mütləq çıxaracaqdır!

Buradaca Lenin telefon dəstəyini götürdü, zəng vurub Krupskayanı çağırdı, Qasımın gətirdiyi sovqat almaları uşaq evlərinə göndərməyi xahiş etdi:

– Sizin və özümün payımızı götürmüşəm, – dedi. Sonra Qasıma tərəf döndü: – Uşaqların təşəkkürünü də qubalı yoldaşlara çatdırın!

Bu sözləri eşidəndə Qasım dinmədi, bilmədi neyləsin. Axı növbənöv almaları o, Leninə gətirmişdi, rəhbərin özü üçün gətirmişdi.

Vladimir İliç onun ürəyindən keçəni sanki gözlərində oxudu, yaxınlaşıb əlini onun çiyninə qoydu:

– Eybi yoxdur, heç narahat olma! Sənə kağız verəcəyəm ki, gətirdiyin almaların hamısını özüm yemişəm. Kağızı kəndlilərə oxuyarsan! Heç kəs sənə bir söz deyə bilməz. Arxayın ol!

Qasım rəhbərdən ayrılanda dünyaları fəth etmiş əfsanəvi qəhrəmanlar kimi sevincindən yerə-göyə sığmırdı. Eşitdiklərini və gördüklərini qubalılara deməyə, danışmağa tələsirdi.

Lakin həmyerliləri ona macal vermədilər. Hamı bir ağızdan nümayəndəni muştuluqladı:

– Yoldaş Lenindən xəbər gəlib. O, bizə çap maşını göndərib. Deyib, gedin qəzet çıxardın, camaatı qəflət yuxusundan oyadın! Qafil adam azad ola bilməz! Hamı ayılıb dost-düşmənini tanımasa, Şərq xalqları əsirlikdən qurtulmaz!

Qasım Qubaya çatanda kəndlilər yeni maşını revkom otağında qoyub o yan-bu yanına baxırdılar. Qəşəm də, Əliəşrəf də burada idilər. Revkom onları təbrik edib Leninin salamını deyəndə onlar gülümsəyərək, bir-birinə baxır, nəzərləri ilə deyirdilər: "Qardaş, bizə savad lazımdır, savad! Rəhbər bizi işıqlı dünyaya çağırır!"

O gün revkom otağına gələnlərin hərəsi bir xahiş eləyirdi:

– Məni də kursa yaz!

– Qəzet haçan çıxacaq?

– Bizə də oxumaq öyrədəcəksinizmi?

– Bəs nə! Lenin deyib, hamı gərək oxusun!

– Sağ ol, yoldaş revkom, xeyirxəbər olasan!

*1960*

# QOCALARIN UŞAQ SÖHBƏTİ

## I

Vahid müəllimin yaşıl təpədə işıqlı, səfalı bir evi var. Günəş səhərdən batanacan otaqların içindədir. Axşamlar da ki, büllur çilçıraq otaqnədi, eyvana, həyətə, hətta küçəyə də işıq verir.

Bu gün həmin xanimana yeni bir işıq əlavə olunmuşdur. Əlbəttə ki, bu, nə pəncərədən, bağ-bağçadan, nə çilçıraqdan, nə də nümayişlər, rəsm-keçidlər, atəşfəşanlıqdan düşən işıqdır. Bu, sadəcə ailə səadətindən doğan bir işıqdır. Bu, səhər ertə doğum evindən telefonla alınan sevincli bir xəbərin işığıdır.

Düşünmək olar ki, Vahid müəllim əsrinin mürəkkəb, keşməkeşli həyatını yaşamış, qalxıb-enmiş, düşüb-çıxmış, sevinclər, məhrumiyyətlər, zülmətlər, işıqlar görmüş, oğul böyütmüş, gəlin gətirmiş, saç-saqqal ağartmış, dağdan ağır bir kişi bu vaxtında belə xəbərlərdən gərək ki, həyəcanlanmasın.

Zahirən belədir.



Əslində, həmişə, hər yerdə həyatın özünün ölçüyə, tərəziyə girməyən, asan görünməyən qığılcım və atəşləri var. Bunlara balaca "xəzri" nəfəsi dəydimi, külü dağıdır, işıqlar, alovlar üzə çıxır...

Telefon dəstəyini əlindən qoyan kimi, kişiyə quş yüngüllüyü gəldi. Vacib bir şey axtaran kimi, tez-tez sağa-sola fırlanıb özü-özünə deyirdi:

– Ay qırışmal!..

Tezdən durmaq Vahid müəllimin adəti idi. Qalxan kimi, kabinetinə keçər, çeşməyi gözünə taxar, mütaliəyə məşğul olar, kitabın birini qoyub, o birini götürərdi.

Bugünkü xəbərdən sonra kişinin oturmağa qərarı gəlmədi. Əllərini ovuşdura-ovuşdura otaqdan-otağa keçdi, sevincini bölüşməyə müsahib axtardı. Oğlu çoxdan işə getmişdi, arvadı gəlinin yanında idi. Zəng vurub qudasını – Zahid kişini təbrik eləmək istədi. Zahid onu qabaqladı:

– Mən geyinmişəm, sizə də zəng vuracaq idim. Dura bilmirəm, deyirəm gedim Zəmanətin yanına.

– Səni kimdi oraya buraxan?

– Buraxmasalar da, qapıda dayanacağam.

– Bir basabas olur ki...

– Necə olsa, sestralarnan kağız-mağız göndərərəm.

– Bəlkə biz gözləyək, axşamüstü...

– Yox, mən axşama qala bilmərəm.

– Onda çıxma, gözlə maşını, elə gəlim səni götürüm.

Vahid müəllim tələsik geyinib Zahidin dalınca getdi. Xəyalında qoydu ki, işdi, şayəd, içəri buraxmasalar, xəstəxananın qapısında dayansın, kişini tək qoymasın.

Vahid müəllim yaxşı başa düşürdü ki, qız atasının qəlbi köyrəkdir. Arvadı çoxdan vəfat edib. Zəmanətin çox zəhməti ancaq atanın boynuna düşüb. Yeganə qızının belə bir gündə başı üstündə ana görməmək nisgili Vahid müəllimin qəlbini elə köyrəltdi ki, gözləri yaşardı. Zahidin yanına gec getdiyini, qızı yoluxmaqda kahıllığı özünə bir qəbahət saydı.

■ ■ ■

Ağ hasarlı, geniş darvazalı, qələm ağacları göyün bir qatına boylanan yaraşıqlı xəstəxananın qapısında adam əlindən tərpənmək olmurdu. İntizarla xəstəsinin qolundan tutub gətirənlər, sevinclə təzə bələyi bağrına basıb "Volqa" maşınına oturanlar, bir-birinə təbrik deyib xeyirdua verənlərin səsi bir-birinə qarışmışdı. Bu binada hər gün neçə-neçə qız və oğlan dünyaya gəlir, həmişəlik ad alıb gedir, bəlkə də ancaq iyirmi ildən, evlənəndən sonra buraya baş çəkirlər...

Bəli, həmin bu yaz günlərinin birində mərkəzi doğum evindən gələn "işıq" hər iki xanimanın – Vahidin və Zahidin müstəsna sevinci oldu.

Biri uşağın göz-qaşından, biri baxışından, gülüşündən, qığıltısından deyib-danışmaqdan doymurdu: "Ayrı cür baladır."

Bu gündən sonra pensiyaçı qocaların idarəyə, yığıncağa, sahilə, qonşuya, bağçaya güzarı həmişə İşıqgildən düşərdi. Heç bilinmədi ki, uşağa bu adı kim verdi. Mamaça gah haray salıb qışqıran, gah da sanki yeni qədəm qoyduğu dünyaya muncuq gözlərilə baxan uşağın pambıq kimi yumşaq körpə üzündən öpüb bircə dəfə demişdi:

– Nə işıqlı gözlərin var, ay bacı!

Uşağın adı İşıq qaldı ki, qaldı! Bu ad hər iki, daha doğrusu, hər üç evdə o qədər şöhrət tapdı ki, böyüklərin adı yalan oldu.

– Sabah mən İşıqgilə gedəcəyəm, abı köynəyimə bir balaca ütü çək!

– İşıq üçün üç-dörd metr pamazı almışam, görüm anası bəyənəcəkmi?

– İşığın oyuncaqlarını əl arabasına yığ.

Hətta, İşığın dərs kitabları haqqında söhbət başlandı. Vahid müəllim də, Zahid kişi də temalarını tamam dəyişmişdi: yeri oldu-olmadı, tanış-yad, böyük-kiçik yanında İşıqdan elə söhbət edirdilər ki, eşidənlər belə bir şöhrətli adam ilə tanış olmağa həvəsiyirdi.

– Qırışmal üzümə baxıb gülür. Apardığım hədiyyələrə təşəkkür eləmədən qapını göstərir: "Gedək!" Deyirəm, hara çəkirsən məni? Şəhər bağını göstərir ki, du, du, yəni "maşın gətir." Anası da görməmiş kimi, mənə etibar-zad eləmir, əlindən yerə qoymur. Ay soyuq dəyər, vay



xəstələnər, filan, beşməkan... Qərəz, işə düşmüşük. Gecəmiz, gündüzümüz İşıqnan keçir.

– Həmişə işıqlıqda olasınız!

– Yəqin ki, sabah-birigün pərvazlanıb məktəblərə, idarələrə, şəhərlərə gedəndə, bir dəli-dolunun sevdasına düşəndə nə Vahidi, nə Zahidi axtaracaq. Qardaş, dünyanın işi belədir!

– Yox, elə demə, axtarar, ağzı nədi, axtarmasın, bizimkilər əsildir, bədəsil deyil!

Zahid müəllim nəvəsi haqqında nikbin idi. Öz qızını mehriban görmüşdü, bəlkə də ona görə arxayın idi ki, İşıq da böyüyəndə hər məsləhətini babasından alacaq!

## II

Yayda, qızmar Bakı günəşinin istisindən daldalanmalı yerlərin biri, bəlkə də bir neçəsi Pirşağı bağlarında uca, sıx yarpaqlı qocaman tut, ya qarağacın altı olur. Bu kölgəliklərin ayrı məlahəti var. İllah da dənizə yaxın dikdir yamacların birində təmiz quma dirsəklənir, göydən qopub düşən gündən par-par parıldayan nəhəng zümrüd parçasına – mavi Xəzərə doyunca baxır, bütün yorğunluqlarını unudursan.

Gəlin ana Zəmanət xanım da güllü sarafan əynində cəld iş görür, həm atasına, həm qayınatasına armudu stəkan, çəhrayı nəlbəkilərdə məxməri çay gətirir.

Adətən belə yerdə məktəbdən, idarədən, qəzetdən, məhsuldan, səyahətdən, ya xörəkdən söhbət gedərdi. İndi işlər dəyişib, Vahid müəllim ilə Zahid kişinin qabaq-qabağa oturduğu yerdə bircə mövzu var, o da İşıq! "Bir balaca boyu var, dam dolusu toyu var!" Deyəsən, atalar bunu İşıq üçün deyiblər. İşığın indisi, yaraşığı, tərbiyəsi, söhbəti barədə, necə deyərlər, "kitab bağlanıb", babalar onun gələcəyi ilə, təhsili, ixtisası, hünərilə məşğuldurlar.

Vahid müəllim bu fikirdədir ki, qız uşağı, özü də Vəkil kimi, Zəmanət kimi müasir gənclərin övladı gərək musiqi məktəbində oxusun, çünki bu saat musiqi hər dildə, hər yerdə inkişafdadır. Bir azərbaycanlı

qızın bu sənətdə səriştə alması, Üzeyir kimi ustadın irsini öyrənib-öyrətməsi özü böyük xidmətdir, valideyn üçün fəxrdir.

Zahid kişi başını bulayırdı:

– Xeyr, – deyirdi, – mən Zəmanəti bu sənətə qoymuşam, kifayətdir. İşığı həkim eləyəcəyəm, həkim! Can həkimi! Xalqın buna ehtiyacı çox olur. Musiqi əgər qulağa lazımsa, həkim vücudun hər bir üzvünə gərəkdir! Özü də bir tək qız nəvəmdir, hara desəm, gərək sözümü yerə salmaya!

– İşıq ərsəyə gələndə hər kəs özünə həkim olacaq.

– Camaat olanda, İşıq niyə olmasın!

– İşıq sənətkar balasıdır, musiqişünas olar!

– Həkimliyin musiqiyə maneçiliyi nədir? Onu da götürər, bunu da!

– İki yana baxan çaş olar!

– Üzeyir bəy özü həm dramaturq idi, həm bəstəkar, həm də gözəl müəllim!

– Hər oxuyan Molla Pənah olmaz!

– Hər oxuyan olmaz, amma qara Zahidin nəvəsi olar, hökmən olar!

Zahid kişi sözünü elə ürəkdən deyirdi ki, Vahid müəllim cavab verməkdən çəkinirdi.

Ailə ixtilafları bəlkə də qocaları o qədər düşündürüb məşğul etməzdi, İşığın özü ayaq alıb yeriyəndə bu mübahisələrdə şəxsən iştirak etməsə idi.

İşığın Vahid müəllimi, Zahid kişini birləşdirən qüvvəsini deyəndə ayırmaq cəhdi yadımızdan çıxmasın. Onu deməmişdik ki, indi hər iki babanın cidd-cəhdi təzəcə ayaq tutub yeriyən uşağı öz evinə aparmaq, özünə alışdırmaq idi. Vahid müəllim oyuncaq alanda Zahid kişi çəkili papış alırdı. Zahid kişi səmtur gətirəndə Vahid müəllim əl qarmonu alırdı. Vahid müəllim uşağı sahilə aparanda Zahid kişi təpəsi üstə özünü yetirirdi. Biri uşağın sağına, biri soluna keçir, hər ikisi belini əyib, körpənin əlindən tutur, addımlarını yavaşıdırdı:

– Yavaş yeridək, yıxılar.

– Qoy qıçları açılsın, zirək olsun.

– Jaketini geyindir, soyuq dəyər.



– Qoy öyrəşsin, canı bərk olsun!

Zahid kişi, bəlkə, özü də ehtiyat edir, uşağın soyuqlamasından qorxurdu. Ancaq "rəqibi" Vahid müəllim bunu deyəndə qəsdən razılaşmaq istəmirdi: "Qoy canı bərk olsun!" Ürəyindən olmayan bu sözü elə-belə, boğazdan yuxarı dediyinə peşman olur, tez uşağın jaketini əyninə keçirirdi:

– Gedək, anan gözləyir...

Qocalar arasında gizli də olsa, doğan və ağaran rəqabət ixtilafının həlli də İşığın özünə qismət oldu. Bu da, demək olar ki, bir təsadüf ucundan oldu.

Həmişə babalarının əlindən tutub gəzən, gah Zahid kişi ilə, gah Vahid müəllim ilə gün keçirən körpə uşağın bütün istəklərinə dərhal əməl olunurdu. Oyuncaq, paltar, əyləncə, meyvə, şirni olmazdı ki, İşığa alınmasın, di gəl ki, uşaq rahat olmur, kifayətlənmirdi. Deyəsən, nəsə axtarırdı, tapa bilmirdi. Bir gün Vahid müəllim Pirşağıda neftçilərin uşaq bağçasının yanından keçəndə İşıq dayandı. Uşaqların səs-səsə verib oynaması onun xoşuna gəldi:

– Baba, uşaqlar!

– Oynayırlar, qızım!

– Məni də qoy da!

– Gün olar sən də gələrsən.

– İndi!

Vahid müəllim uşağın xatirinə dəymədi: özü səki kənarında əyləndib İşığı bağçaya buraxdı:

– Get bir az oyna, gözləyirəm burada, yeri! Mahnı oxuyurlar, sən də oxu!..

Bağça uşaqları halay qurub hansı mahnınısa oxuyurdular. İşıq da onlara qoşulub səsləndi. Mahnını bilməsə də, gah sağına, gah soluna baxır, utana-utana ağzını yumub-açırdı.

Vahid müəllim onu güc ilə uşaqlardan ayırdı:

– Axşamdır, anan nigaran qalar, sonra səni gəzməyə buraxmaz, gedək!

İşıq səhər yerindən qalxan kimi deyirdi:

– Bağçaya!

– Qız, bağça nədi, baban səni sahilə aparacaq!
– Bağçaya!
– Balıq tutmağa gedəcəyik!
– Bağçaya!

Əlac olmadı. Baba uşağı ogünkü yerə aparası oldu. İşıq bağçaya gələndə çoxdanın tanışı, yoldaşları kimi, hoppanıb-oynayan uşaqlara qarışdı. Kimsə ona bir lopatka, bir də göy vedrə verib qum daşıtdırdı. İşıq kimsədən geri qalmadı.

O gündən sonra İşığı Zahid kişigilə, Vahid müəllimin bağına aparmaq çətin oldu. İşığın fikri-zikri bağçada idi: Sevdanın kuklası, Nadirin maşını, Vaqifin göy lopatkası, Almazın sputniki... Bağça uşağın gözündə böyük əyləncə və oyuncaqların, bütün şənlik və sevinclərin məkanı idi...

Vahid müəllim ilə Zahid kişinin mübahisəsi də burada kəsildi. Onlar yəqin etdilər ki, İşıq musiqiyəmi, həkimliyə, mühəndisliyə, aqronomluğamı – hara gedir-getsin, nə ata-babasının, nə də anasının xahişi ilə gedəcək, öz qəlbinin sədasına qulaq asacaq. Qəlbi, həvəsi haraya çağırsa, oraya gedəcək. Qəlbi də yəqin ki, əsrinin sədasını çağıracaq, zamanın ən uca, ən məşhur mahnılarını oxuyacaq. Babalarının əziz nəvələrinə ən vacib əmri və arzusu xoşbəxtlik və sağlamlıqdan başqa bir şey olmasın gərək. Qocaların hər ikisi bu mətləbi ürəyində təkrar edirdi:

– Dəyirman bildiyini eləyər, çaq-çaq baş ağrıdar.
– Bir ildi, biz deyişirik!
– Mübahisə ņahaqdır!
– Nahaqdan da nahaqdır!
– Haqq yerini tutacaq!
– Necə ki tutdu.
– Xoşbəxt olsun!
– Xoşbəxt olsunlar!

*1960*



# QƏBUL İMTAHANI

Dövlət universitetinin böyük, daş binası qarşısında iynə salsan, yerə düşməz. Adam əlindən keçmək olmur. İsti yay səhəri açılandan axşamacan cavan oğlan və qızların burada yığnağı, mübahisəsi, söhbəti, gəl-geti kəsilmir. Kimisinin qoltuğunda jurnal, kitab, vəsiqə qovluğu, kimisinin əlində itilənmiş qələm, iki qatlanmış dəftər, coğrafiya atlası, cildi kirlənmiş proqram, rus, Azərbaycan dilində qəbul qaydaları...

Bu il jurnalist şöbəsinə böyük müsabiqə var: iyirmi beş nəfər qəbul olunasıdır, girmək istəyənlər yüz iyirmi beş nəfərdir. Ərizə verən hər beş adamın dördü kənarda qalacaqdır.

İndi görək bu kənarda qalanlar kimlərdir.

Heç kəs kənarda qalmaq istəmir. Yüz iyirmi beş nəfərin hər biri öz aləmində güman, hətta yəqin edir ki: “Mən jurnalist şöbəsinə düşəcəyəm! Kim düşməsə də, mən düşəcəyəm.”

Cavanların belə düşünməyinə, əlbəttə ki, əsası var.

Biri düşünür ki: “Mən ordudan gəlmişəm, iki-üç il təlim şəraitində əziyyət çəkmişəm, dövlət özü mənə imtiyaz verir. Dərslərdən üç al-

sam da, ali məktəbə düşəcəyəm." Bir başqası xəyal eləyir ki: "Jurnalist şöbəsinə hər kəsdən əvvəl həmin ixtisasa yaxın olanlar qəbul olunmalıdırlar. Mən özüm "Bakı" qəzeti redaksiyasında il yarımdır çalışıram, pis də çalışmıram, ərizə verənlər içində jurnalistliyi mənim kimi bilən hanı!? Gələnin biri çörəkçi, biri çəkməçi, aşpazdır. Nə deyib, məni qaytaracaqlar?" Üçüncü bir cavan öz yazılarının qəzetdə çap olunduğuna, dördüncüsü atasının iyirmiillik müəllimlik stajına, beşincisi orta məktəbdən yaxşı qiymətlər gətirdiyinə güvənir. Bir başqası da sinəsinə döyür ki: "Mən uşaq evindən gəlmişəm. Bura olmasa, hara gedə bilərəm?" Xülasə, bu qapıya toplaşan ağıllı, savadlı cavanların heç biri özünü qəbuldan kənarda qalmalı olan və hökmən də labüd qalmalı olan yüz nəfər cərgəsinə salmır. Ancaq hamısı özünü iyirmi beş nəfərin cərgəsinə salır. Bu cavanlar içərisində ən arxayın, şən və cəld tərpəşənlər öz biliklərinə, dərslikləri, qamusları, jurnalları vərəq-vərəq gözdən keçirib, öyrəndikləri məlumata güvənənlərdir. Bunlar hamının – komissiyaların, müəllim, professorların qarşısında gəncliyə layiq bir qürurla dayanıb dil-dil ötür, suallara bir-bir cavab verir, icazəsiz imtahan stolundan uzaqlaşmırlar. Bunlar tükənməz bir eşq, sonsuz bir həvəslə elm dalınca möhkəm addımlayan, özlərinin və öz vətənlərinin gələcəyinə iti, ayıq gözlə baxan, hər gün yeni-yeni üfüqlər fəth etmək əzmində olan, üz-gözündən müasirlik və yenilik yağan sovet gəncləridir. Bunları nə libas, nə qədd-qamət, nə nəsil, nə peşə, nə vəzifəlilərə nisbəti ilə tanımaq olar. Bunlar cəmiyyətdə ancaq gözlərində yanan qığılcım, ürəklərini dolduran atəş, zehinlərini çulğayan daimi bir tərəqqi meyli ilə seçilirlər. Bunları küçə səkilərində, tamaşa meydanlarında, konsert salonlarında, restoran və rəqs meydanlarında az görərsən. Bunları kitab sarayları, fizika-kimya laboratoriyaları, kabinetlər, cihazlar, elmi sərgilər, mühazirə və mübahisələr daha çox maraqlandırır.

Cavanlar parlaq bir həqiqəti dərk etmişlər. Dərk etmişlər ki, Leninin böyütdüyü inqilab nəsli əsrlik tilsimləri sındırmış, yeni dünyanın qapısını taybatay və həmişəlik açmışdır. Bəşəriyyət indi keçmiş dünyadan üzülüşməkdə, böyük kəşflər, icadlar, ixtiralar dövrünü, sürət və ildırım əsrini yaşamaqdadır. Göylər, planetlər fəth olunur. Hər yerə, hər işə, hər tədbirə adamlar, inqilab elmi ilə silahlı adamlar gərəkdir. İndinin silahı nə xəncər, nə bıçaq, nə top, nə bombadır, indinin sərvəti nə var-dövlət, nə mülk-maaş, nə əsil-nəsəbdir. İndi "qılıncdan daha kəskin ulu qüvvət" – zəkadır, bilikdir, kəşflər, icadlardır. Həmin adamları lazımi səviyyədə, tərbiyədə böyüdüb bəşəriyyətə vermək əsrimizin böyük, müqəddəs borcudur.



Müqəddəs ideallar bəsləyən, böyük gələcək üçün yaşayan, vaxtından əvvəl saç ağartmaqdan, qocalmaqdan qorxmayan əsrin istedadlı gənclərinə uğurlar olsun! Onlarsız cəmiyyət və bəşəriyyət iflic, məhkum olardı.

Cavanlar! Sizə eşqlər, şərəflər, səadətlər olsun!

Ali məktəblər, elmi laboratoriyalar, zəngin kitabxanalar, abidə fondları, alimlər, imtahan otaqları... Hamısı, hamısı doğma ana kimi qollarını geniş açıb bu cavanlar nəslini gözləyir, isti ağuşuna basmaq, öpüb alqışlamaq istəyir. Ölkəmizin hər şeyi – şərəfli tarixi, nailiyyəti, şan-şöhrəti, tükənməz sərvəti, hər şeyi, hər şeyi bu gənclər üçündür, onlara ana südü kimi halaldır!

Camaat, çəkilin, yolu kəsməyin, müqəddəs yerlərin sahiblərinə yol verin!

Səliqəli, sərin, uzun dəhlizin başında və ayağında iki böyük otaq ayrılmışdır. Yüz iyirmi beş nəfərin altmış nəfəri o başdakı, qalan altmış beş nəfəri isə bu başdakı otaqda yazı imtahanı verməlidir.

Adamlar otaqlarda yerbəyer olandan sonra çeşməkli bir müəllim cavanların hamısının imtahan vərəqini alır, əvəzində möhürlənmiş iki ağ vərəq verir ki: "Buraya yazacaqsınız."

Qoca müəllim də yazı taxtasının yanında, hamının gözü qabağında bağlı bir zərfi açır, rektorluq tərəfindən qəbul və təsdiq olunmuş mövzuları səliqə ilə taxtaya yazır:

S.Vurğunun "Vaqif" əsərinin təhlili.

"Polad necə bərkidi" romanının tərbiyəvi əhəmiyyəti.

Bakı Azərbaycanın paytaxtıdır!

Mövzuları yazdıqca bir-bir ahəng və ibarə ilə oxuyub cavanlara başa salır. Hər mövzu oxunduqca cavanların arasına ani bir həmhəmə düşür. Bilmək olmur ki, onlar mövzuların çətinliyinə heyifsilənir, ya asanlığına sevinirlər. Çünki bu dəqiqə hər kəs özünün zehnində və ürə-

yində olanları gizlətməyə, büruzə verməməyə çalışır. Çalışır ki, onun üzünə baxanlar bilməsinlər ki, bu adam sevinir, ya məyus olur. Bu mövzunu bilir, ya bilmir. Əslində diqqətlə baxsan, əyləşənlərin çoxunda bu hisslərin hər ikisini müşahidə edə bilərsən. Bir dəqiqə çəkmir ki, cavanlar diqqət və nəzərlərini hər yerdən, hər şeydən çəkib qabaqlarındakı möhürlü vərəqlərin üzərinə toplayırlar. Kimi qələmini yoxlayır, kimi stoluna qəzet çəkir, kimi tərini silir, kimi başında cümlələr düşünür.

Qoy cavanlar burada min bir intizar və həyəcanla oturub imtahan mövzularını düşünməkdə, yazmaqda olsunlar, biz də lap arxada əyləşən, gah sağa, gah sola boylanan qısaboy, irigöz, qara qızın məktəb işləri ilə tanış olaq.

Qara qız imtahana Bakı kəndlərindən – Maştağadan elektrik qatarı ilə gəlmişdir. O, qəssab Məşədi Rəhimin kiçik qızıdır. Jurnalist olmağı qət etmişdir. Yəni atası ilə bir yerdə qət etmişlər. Atası onu lap arxayın salmışdır: "Qorxma, Eliş (Məşədi Rəhim kiçik qızını belə çağırırdı), universitet məktəbində mənim qızım oxumayıb bəs kim oxuyacaq?"

Doğrudur, Eliş qəsəbə məktəbində on il oxumuşdur. Dərslərindən də yaxşı qiymət ala-ala keçmişdir. Ancaq bu qız on ilin haçan və necə gəlib keçdiyini heç hiss etməmişdir. Bir gün gözünü açıb görmüş ki, direktor onu və atasını buraxılış konsertinə dəvət edir.

Bayaq dedik ki, jurnalist olmağı qət edən Elişə atası da kömək etmişdir. Həqiqəti bilmək istəyirsinizsə, bu fikri Elişin başına salan qəssab olmuşdur. Əlbəttə ki, Məşədi Rəhim çox qəzet, jurnal oxuduğu və ya bu sahəni sevdiyi üçün qızına peşə seçməmişdir. Yox! Qəssabın "qazut-mazutdan" acığı gəlir. Amma neyləsin ki, insan bəzən acığı gələn işləri də görməyə məcbur olur. Bir-iki dəfə qəssabın adı qəzetlərə düşmüşdür. Hər dəfə də "yalançı müxbirə" bir tutarlı cavab yazdırmışdır, amma ha çalışmışdır, çap etdirə bilməmişdir.

O qapını döymüş, bu tanışın, o tanışın yanına getmiş, yuxarılara ərizə yazdırmış, yoxlamağı xahiş etdirmiş, ancaq bunlardan bir şey çıxmamışdır. "Yazıya pozu yox imiş." Axırda Məşədi Rəhim qət elədi ki: "Uşağın biri şofer, biri doktor, biri bağban olub. Bu dəfə qəzetçi böyüdəcəyəm. Mənim evimdə qəzetçi olandan sonra kimin cürəti var ki, mənim oturub-durduğumu zurna eləsin, şəhərbəşəhər çalsın! Yox, Eliş



qəzetçi ola gərək!"

Uşaq zehni də güzgü kimi bir şeydir. Deyilən söz, illah da ata-ananın dediyi söz dərhal oraya həkk olunur, gündən-günə də möhkəmlənir. Ata dedi, ana çağırdı, qardaş şərik oldu, qəzet qalmadı ki, Eliş abunə olmasın, disput olmadı, getməsin, radio qalmadı, eşitməsin, Məşədi Rəhim bilmirdi ki, qəzetçilik – oxumaq, öyrənmək işidir. O elə bilir ki, işçiləri yuxarıda, lap mərkəz idarələrdə bir-bir filtirdən keçirib seçirlər, sonra qəzet idarəsinə buraxırlar. Bunların gərək atası filan ola, anası bəhman ola, özü haradan ola...

Həkim oğlu bir gün söhbət zamanı atasını ayıltdı.

– Qoysaydın, mən həkim yox, jurnalist olardım, həvəsim də var idi.

– Jurnalist nədi?

– Qəzetçi!

– Qəzetçi, bəyəm, oxumaqnandı?

– Bəs nəynəndi?

– Onu təsdiq eləyirlər.

– Oxuyanı təsdiq eləyirlər də, mən oxuyandan sonra niyə təsdiq eləmirlər?

– Bəs elə isə Elişi qoy getsin, qəzetçi olsun da, dost-düşmən qabağında...

– Əlbəttə ki, gedə bilər.

– Bunu mənə deyən olsaydı, uşaqların hamısını göndərərdim. Bu zamanda qəzetdən kəsərli nə var?

Məşədi Rəhim heç bir uşağını bu həvəslə ali məktəb qapılarına göndərməmişdi ki, Elmiranı göndərib.

Ali məktəb qapısına gələn ilk gündən Eliş ayrı bir mənzərə görür.

– Ata, srağagün qəbul imtahanında qırx doqquz adam yazı yazıb, onun iyirmi doqquzu iki alıb, qalanları da üç, ya dörd. Bir nəfər də beş alan olmayıb! Hamısının da əlində attestatı! Bəs mənim işim nə sayaq olacaq?

– Qızım, elə şeylərin sənə dəxli yoxdur. Yaxşı müəllim ikinin də, üçün də adamını bilir. Sən narahat olma! Deynən, Məşədi Rəhimin qızıyam!

– Ata, vallah, mən qorxuram o məktəbdən.

– Qorxan gözə çöp düşər, qızım, sən get imtahanuva! Sən müəllimə eşitdir ki, filankəsin qızıyam.

– Qorxuram ona baxmayalar!

– Nə haqqı var baxmaya! Corab artelindən də ikiillik staj kağızın var. Stajı olan uşaqları göydə qəbul eləyirlər. Sən niyə qorxursan, qız! Sənin vəsiqələrin var ki, top da dağıtmaz! Bircə eşitdir ki, filankəslərdənəm!..

Məşədi Rəhim arxayın salsa da, qız şüursuz deyildir. Görür ki, burada müəllimlər bilik axtarır, bilən uşaq axtarırlar. Yüz iyirmi beş nəfərin içində əjdaha kimi adamlar var. Nə söz desən, yazır-pozurlar. Gündə bir dərsin suallarını deyib əzbərləyirlər. Elə mətləblər danışır, deyirlər ki, Elmira heç eşitməyib, oxumayıb. Bu dar vaxtda oxumağa, öyrənməyə də macal yoxdur. Atasının sözünə arxayınlaşıb, "Allaha təvəkkül" deyib, Eliş imtahana girir. Tələbələr yazmağa başlayanda Eliş fürsət tapıb koftasının qolunda gizlətdiyi bir kitab vərəqini yavaşca çıxarır, möhürlü kağıza köçürmək istəyir.

Çeşməkli müəllim, sən demə, bunu görür. Yavaşca gəlib Elişin əlindən kitab vərəqini alır, özünü də ayağa qaldırıb qoca müəllimin yanına aparır. Qoca müəllim ağzını açmamış, Elişin gözlərindən leysan yağışı kimi yaş axır:

– Müəllim, qələt eləmişəm! Müəllim, məni bağışlayın!

Qoca müəllim Elişi kənar stullarda əyləşdirir ki, yazsın. Özü də başqalarına mane olmamaq üçün yavaşcadan deyir:

– Qızım, aldatmaq yolu ilə jurnalist olmaq istəyirsən?

Çeşməkli müəllim, Elişin əvəzinə qoca müəllimin sualına belə cavab verir:

– Aldatmaq yolu ilə jurnalist olmaq, qəzetlərdə aldadanlara qarşı məqalələr yazmaq istəyir!

Çeşməkli müəllimin sözünü Eliş eşidir. Bu sözdən sonra hər iki müəllimin sükutla, mənalı-mənalı ona tərəf baxdığını da hiss edir.

Elişin indi bütün vücudundan tər axır. Əlini, ayağını tərpədəndə təzə ipək paltarının suyun içində olduğunu güman edir.

Eliş qəssab ailəsində, Məşədi Rəhimin hap-gopu şəraitində böyüsə də, zəmanə uşağıdır, məktəb ona həyat, həqiqət hissini verməmiş deyil. Bu hiss ilə də imtahan qabağında həyəcan, tərəddüd keçirmişdi. Bilmirdi ki, getsin və ya getməsin. Müəllim oğurluq vərəqi onun əlindən alanda, ani bir iztirabdan az qala ürəyi qopur: "Ay aman! Bu saat qolumdan tutub bayıra atacaq! Vəsiqələrimi cıracaq. Atamın adını yazacaq!.. Vaxsey, bu nə iş idi mən tutdum, ay aman!.."

Xoşbəxtlikdən çeşməkli müəllim açıb-ağartmır. Elişi sinifdən də qovmur. Göz yaşları, görünür, müəllimlərin onsuz da yumşaq olan ürəyini kövrəldir. Elişi yazı imtahanından məhrum etmirlər.

Məhrum etmirlər, amma nə olsun ki, çeşməkli müəllim də, çeşməksiz müəllim də bu qara qızı tanıyır, onun hərəkətinə ürəkdən gülürlər.

Nə yaxşı ki, uşaqlara, bütün sinfə elan eləmirlər... Eliş utandığından, xəcalətindən başını qaldıra bilmir. Yer yarılsa yerə keçməyə, müəllimlərin gözünə görünməməyə hazırdır.

Sinifdə hamı başını aşağı salıb öz mövzusunu yazır. Biri Vaqifdən, biri Korçaginin rəşadətindən, bir başqası Bakı mənzərələrindən. Ancaq hamıdan kənarda, sanki bir anda hamının yoldaşlıq ehtiramından məhrum edilmiş qara qız əlində qələm quruyub qalmışdır: "Nə yazmaq, bu anda o nə yaza bilər?"

İndi o, tutduğu işin qəbahəti, aqibətindən başqa heç nə düşünmür. O, hələ də bu etiqaddan əl çəkməmişdir ki, hərəkətinə gülən müəllimlər imtahandan sonra onun vəsiqələrini töküşdürəcək, oğurluğunu gəldiyi məktəb müdirinə bildirəcək, valideynlərinə töhmət edəcəklər...

İmtahan qurtarır. Hamı yazısını aparıb müəllimin stolunun üstünə qoyur. "Sağ ol" deyib çıxır.

Ən axıra qalan qara qızdır. Müəllimlər yığılan vərəqləri sahmana salmaqla məşğul olanda Eliş başını qaldırıb otağı boş gördü. Bir sətir də yazılmamış möhürlü kağızını gətirib müəllimlərin qabağına qoyub, cəld çıxmaq istəyəndə qoca müəllim onu çağırır:

– Qızım, görünür, həyəcanlı olmusan, bir şey yazmamısan. Biz səni başqa bir qrupla təzədən çağırarıq, yazarsan, narahat olma!..

Elmira Məşədi Rəhim qızı qoca müəllimin onu, cinayət başında tutulmuş bir adamı belə mülayim dindirəcəyinə ümid etməzdi. Müəl-

limlər, siniflər, imtahan verən cavanlar onun gözündə böyüyür, müqəddəs bir aləmə çevrilir. O, özünü bu aləmdən kənar ləyaqətsiz bir adam sayıb xəcalətlə yerə baxa-baxa sinifdən çıxır, heç kəsin gözünə görünməmək üçün tez məktəbdən uzaqlaşır.

Nə tramvaya, nə trolleybusa oturur. Yol uzunu fikirləşə-fikirləşə evlərinə gedir. İndi, özü aşkar görür ki, universitet kimi ali mərtəbəli bir məktəbə gəlmək üçün oxumaq, yazmaq, şeir əzbərləmək, mütaliə eləməkdən başqa, bunlardan daha vacib şeylər də bilmək, öyrənmək lazım imiş! Belə bir məktəbə gəlmək üçün gərək xəyalından, zehnindən, fikrindən keçən, keçə bilən pis, xəbis şeylərin hamısını kənara atsın. İnsan gərək dərədə-təpədə, oyanda-buyanda görüb-götürdüyü çirkin, eyibli, mərifətdən, ədəbdən kənar hərəkətlərdən təmizlənsin. Buraya yalnız təmiz paltar, parıldayan çəkmə ilə yox, təmiz niyyətlər, parlaq arzularla gəlsin, hər kəs gərək buraya bir yox, iki sağlamlıq kağızı gətirsin: birini həkimdən, birini də öz ürəyindən, cavan vicdanından alsın!

Qara qız qapılarına çatandan sonra sanki, vacib bir şey xatırlamış kimi, dik geri qayıdır. Qayıdır, gəldiyi yol ilə daha yeyin gedir. Anası ikinci mərtəbənin pəncərəsindən baxır. Qızının hərəkətinə təəccüb edib çağırır:

– Elmira, Elmira, a qız, sənə nə oldu?

Qara qız arxasına baxmadan addımlayır. Qan-tər içində özünü məktəbə, qəbul komissiyasının otağına salır:

– Qardaş, mənim ərizələrimi verin!

– Qəbul qurtarmamış kimsəyə ərizə qaytarılmır...

– Mən qəbulda iştirak etmirəm. Öz xahişimlə müsabiqədən çıxıram!

– Rektora müraciət edin.

Elmira eyni əzmlə rektorun qəbul günündə növbəyə yazılıb kağızlarını geri alır. İndi qəssab Məşədi Rəhimin evində mərəkədir. Kişi qızının hərəkətlərini başa düşmür:

– Qızım, imtahan vaxtı, adamı danlayan da, söyən də olar, sən niyə belə hərəkət edirsən? Yar-yoldaş yanında mənim başımı nə üçün aşağı salırsan? Mən səni qəzetçi eləməyə söz vermişəm, dəli olma!

Elmira indi atasına izah edir:



– Atacan, sən məni yarımçıq qəzetçi eləmək istəmisən, belə adamı ali məktəbə qoysalar da, səhvdir. Neçə il yalandan corab artelindən mənə kağız almısan. Mən yalandan yox, doğrudan işləyəcəyəm. Həmin corab artelində toxucu olacağam. İstehsalatçı olacağam. Fəhlələrə özümü sevdirəcəyəm, son qərarım budur!

İndi qəssab Məşədi Rəhim, qızının bu hərəkətinə təəccüb qalır, bilmir ki, məktəblə, müəllimlərlə dalaşsın, yoxsa onunla üzə duran Elmira ilə!

Bir səhər rektorun yanına şikayətə gələndə qəssabı universitetin qapısında duran növbətçi qadın dayandırdı:

– Olmaz, yoldaş!

– Niyə olmaz axı?

– Rektorun yanına belə getmək olmaz!

– Sənətim xoş gəlmir, ya libasım?

– Sarımsaq yemisən, bu halətdə sən kiminlə danışmağa gedirsən?

Qəssabın gözü kəlləsinə çıxdı:

– Bu da sözdü, heç mətləbə dəxli var?

– Dəxli çoxdur, yoldaş, dayan!

– Sarımsaq pis şeydirsə, hökumət mağazalarında niyə satırlar?

– O bizim işimiz deyil!

– Şikayətim var direktora.

– Sabah gələrsən, sabah!

*1960*

# NEÇƏ CÜR SALAM VAR?

Mən elə bilərdim salam bircə cür olar, növbənöv olmaz. Düzdür, hər şeyin növləri olur: əla növ çay, birinci, ikinci növ çay, əla növ tütün, un, düyü və sairə...

Ancaq salam kimi məşhur bir adəti növlərə bölmək, nömrələmək olmaz. Salam həmişə, hər yerdə, hər kəs üçün salamdır, lazım və vacibdir. Bir-birini görəndə, görüşəndə, ya ötəndə salam verib keçirlər. Burada adamdan adama, ya vaxtdan-vaxta, yerdən-yerə təfavüt olmasın gərək!

Mən əvvəl belə düşünərdim. Nə qədər ki böyük qulluqda idim, belə düşünərdim, çünki bir cür salam görürdüm. Görürdüm ki, hesabdar Kərim ikiqat əyilib qabağıma yeridi:

– Əssalaməleyküm, ay filankəs, xoş gördük, kefiniz, əhvalınız necədir, uşaqlar necədir? Lap yaxşıdırlarmı? Şükür, şükür Allaha!..

Məlumdur ki, adam həmişə bir qulluqda, bir vəzifədə qalmır. Bir yerdən götürüb, o birisinə qoyurlar, gah rayona, gah şəhərə, gah ticarət, gah maarif, gah təsərrüfat sisteminə göndərirlər. Mən də çox vəzifələrdə, çox idarələrdə işləmişəm. İşlədiyim vəzifənin dərəcəsini, əhəmiyyətini mən vəsiqəmdən, kabinetim, telefonum, ya maşınımdan yox, məhz Kərimin salamındanca başa düşərdim. Kərim ikiqat olub, sağ əlimi iki ovcunun arasında bərk-bərk sıxanda, şirin-şirin danışanda yəqin edərdim ki, görünür, mühüm qulluqdayam:

– Əssalaməleyküm, ay hörmətli filankəs, sizi çox-çox xoş gördük, keflər, əhvallar? Buyurun, qulluğunuzda olaq!

Günün birində mən Kərimi ayrı cür gördüm.

– Salam! Tələsirəm! Hələlik!..

Bu salamın nömrəsi ayrı idi.

Kərim hara tələsə bilərdi? Hesabdar adamdır, çotkəsini qabağına qoyub, səhərdən axşamacan aşıqları irəli-geri şaqqıldatmaqdan yorulmur. Düzdür, idarə başçıları gələndə cəld ayağa qalxır, çeşməyini çıxarıb baş əyir, sonra yenə taxır, amma burada da tələsməli bir şey yoxdur. Gələn gələcək, gedən də gedəcək...

Axı Kərimi mən yaxşı tanıyıram, bu onun həmişəki salamı deyil!

Mən Kərimin bugünkü salamını götür-qoy eləyəndən sonra gördüm ki, vəzifədən bir pillə aşağı düşmüşəm, çünki kişinin salamı bunu göstərirdi. Əlbəttə ki, Kərim həmin Kərim idi, salam da həmin salam idi, mən də həmin adam idim. Amma aşkar məlum idi ki, mənim vəzifəm kiçilib. Bunu Kərim haradan, havaxt, kimdən, necə bilmişdi? Deyə bilmərəm. Nazirin mənim haqqımdakı əmri hələ imzalanmamış Kərim bunu bilmişdi və buna müvafiq salam hazırlayıb borcunu da ödəməyə tələsmişdi.

Afərin belə Kərimə! Məni də ayıq saldı, mən də başa düşdüm ki, qulluğum kiçilib.

Hələ bu harasıdır, mən Kərimin başqa bir salamını eşitməyə də şərəfyab olmuşam. Bu salam lap ayrı cür olmuşdu. Əvvəl bunu yaxşı anlamamışdım. Dayanıb üzünə baxmışdım. Görünür, Kərim məni yaxşı başa salmaq üçün salamını təkrar etmişdi:

– Hə, salam, halın necədi, birtəhər olmusan, deyəsən, hə, necədi kefin?..

Kərimin indiki salamını alandan sonra bildim ki, məni vəzifədən çıxarıblar, köhnə qulluğumdan tamam xaric eləyiblər. Hesabdar bunun

müqabilində mənə yoldaşlıq, dostluq borcunu ödəməyə tələsib. Qapıda dayanıb. Vacib işi olanlar kimi dayanıb (özü də bir az dik dayanıb, deyərsən şiş udub), evdən çıxan kimi, mənə yuxarıdan aşağı dilucu bir salam verib, vəziyyətimin xoşuna gəldiyini belə bildirirdi:

– ...Necədi, hə, birtəhər olmusan, deyəsən!..

Belə tənəli salamı mən ancaq Kərimdən eşidirdim. Eşidirdim və görürdüm ki, kişi bərk sevinir, elə bil mənim böyük qulluğumu alıb ona veriblər. Elə sevinir ki, lap olmayan kimi. Bir istədim ağzımı doldurub soruşam ki, ay Kərim, mən belə salamları görməmişəm, səndən nə əcəb?.. Gördüm yox, o üz məndə olmayacaq. Gərək Kərim olasan ki, küləyin səmtinə belə rahat yatasan.

Ötüb getdim. Kərim kimisinin salamından həmişəlik qurtardığımı güman edib sevindim.

Günün birində işdən evə qayıdanda tinin başında Kərim qabağımı kəsdi. Əlindəki üzüm səbətini cəld yerə qoyub, iki əlini şəst ilə mənə tərəf uzatdı:

– Əssalamməleyküm, ay hörmətli filankəs, sizi çox-çox xoş görmüşük! Keflər, əhvallar? Əşi, buyurun qulluğunuzda olaq...

Mən yuxudan ayılan kimi oldum. Kərim nə münasibətlə belə yerişini dəyişib 180 dərəcə çevrilib? Birdən yadıma düşdü ki, srağagün məni yenə böyük bir vəzifəyə qoyublar. Əmri hərçənd, hələ almamışam, ancaq vəzifəyə başlamışam. Qazdan ayıq olan Kərim dostum da yəqin ki, hamıdan qabaq hesabını aparıb, vacib işlərini bir kənara qoyub, qapımıza qaçıb:

– ...Buyurun, qulluğunuzda olaq, biz həqir kimsələrə fəxrdir.

Kərimin vücudu indi daha mənə nə hesabdar, nə Kərim, nə insan, nə də müəyyən məxluq kimi görünürdü. Yox, o yöndəmsiz gövdə paslı bir iynə kimi gözümə girirdi.

Axı mənim günahım nədir ki, belə abad bir şəhərdə, gözəl bir havada, sağlam bir mühitdə həşərat ilə üz-üzə gəlirəm, hər dəfə də neçə litr saf qanımı qaraldıb hədər eləyirəm? Buna həkim dözməz, dərman kar eləməz!

– İtil gözümdən, rəzil, alçaq!

Bilmirəm, mənim kimi sakit, mülayim təbiətli bir adamın ağzından bu ağır sözlər haçan, necə çıxdı. Onu gördüm ki, Kərim üzüm səbəti ilə birlikdə səkinin bu başından o başına sarı mayallaq aşdı, qızarmış, pörtmüş halda, kəkələyə-kəkələyə nəsə deməyə çalışdı, dil-dodağını çeynədi:

– Mən... mən... necə... yox... Əstəqf... xeyr a... bəxişlə!...

Odur-budur, Kərim kimisindən, onun müxtəlif möhürlü, müxtəlif nömrəli salamlarından birdəfəlik dinc və rahatam. Dostlarıma da arzu edirəm ki, belə salam verənlərdən uzaq olsunlar, uzaq, lap uzaq!

*1960*

# O DÜNYADA

Dayı malı şirin olur; çünki hazır, müftə! Yer qazıb, tər töküb qazanmamısan, daş atıb qolunu yormamısan. "Müftə sirkə baldan şirindir."

Amma müftə mal zəhrimar özü də sirkə kimi bir şeydir. Onun da düşər-düşməzi olur. Elə adam var, bütün ömrünü havayı gəlir ilə yaşayır, ortada yeyib, düzdə gəzir, özünə də güldən ağır söz deyən olmur. Əksinə, hara getsən görürsən hərifi ağızdolusu tərifləyirlər: "Filankəs çox ağıllı adamdır, işini biləndir."

Elə adam da var ömrünü əziyyətdə, zillətdə keçirir, gün çörəyini güc ilə qazanır, bəzinin nəzərində də avam, ağılsız, hətta səfeh hesab olunur: "Filankəs fərsizdir, əlindən iş gələn deyil."

Amma düşünən yoxdur ki, halal zəhmət ilə yaşayan adama müftə pul düşmür. Bir damcı maya, südü qatığa döndərən kimi, beş qəpik müftə pul evə gəldimi, görürsən adamın çarxı çevrildi, it də getdi, ip də getdi.

Dayı malına şərik olan bacıların da işi eynilə belə oldu. Doğrudur, bu, bizdən uzaqlarda, o dünyada baş verən əhvalatdır, amma şirin, ibrətli əhvalatdır. Hamı deyib-danışır, bəzisi gülür, bəzisi də heyifsilənir: "Əşi, yazıq bacılar öz peşələrində oturub kasıblıqlarını eləyirdilər. Çox qazananda çox, az qazananda az yeyib dolanırdılar. Hətta həftədə bir konsertə, ya kinoya da getməyə qənaət edir, qulağı dinc yaşayırdılar. Haradansa bir mərdimazar qıçısınmış xəbər gətirdi, təki sağ gətirməyəydi! Xəbərdən sonra bacıların gün-diriliyi dağıldı. İşləri tamam kəlləmayallaq oldu. Xəbər də desək, pis xəbər idi? Yox! Xəbər çox yaxşı xəbər idi, əla xəbər idi. Şəhər məhkəməsinin müfəttişi, velosipedini bacıların evinə sürüb onlar ilə tanış oldu.

– Əvvəlcə, – dedi, – bağışlayın, xanımlar, sizə bir bəd xəbər deməyə məcburam. Üzr istəyirəm. Vəzifəm tələb edir ki, mən bu qüssəli sözü sizə çatdırım: Kaliforniyadakı dayınız, cənab Reyxster yatalaq xəstəliyindən vəfat etmişdir. Ömrünü sizə bağışlamışdır. Allah rəhmət eləsin. Dünyada hamı ölüm körpüsündən keçəcək, cəmi yaranmışın aqibəti belədir...

Müfəttiş bu yerdə udqundu, bir qədər sükutdan sonra davam etdi:

– Amma o kişi, rəhmətlik dayınız qohumlarına...

Xəbərçi sözünü bitirməmiş bacılar bir-birinin üzünə baxdılar:

– Eteli, o kim ola?

– Mariya, mən birinci dəfə eşidirəm ki, dayımız var. Bəlkə, rəhmətlik anam danışdığı sonsuz tacir budur?

– Onun sümüyü çoxdan çürümüş olar.

Müfəttiş bacıların mübahisəsini eşitmək istəmədi.

– Dünyada cəmi yaranmışın aqibəti belədir. Amma o kişi, qohumlarına çox dövlət qoyub gedib. İki milyon dollardan çox!..

Bacıların hər ikisi ayağa durub xaç çəkdi:

– Allah sənə rəhmət eləsin, dayı!

Müfəttiş də xaç çəkdi:

– Sizin yanınıza gəlməkdə məqsədim yalnız acı xəbər vermək deyil. Biz məhkəmə işçiləri həmişə insanların hüququnu qoruyuruq. İki milyon haqqında vəsiyyət sizə, mərhumun doğma bacıqızlarına aiddir.

– Cənab Reyxsterin başqa varisi olmasın gərək.

– Xeyr, yoxdur. Olmuş olsa da, o kişi var-yoxunu sizə, yeganə

bacısının nəcib balalarına qoyub getmişdir. Təfsilatlı bir vəsiyyətnamə yazmışdır, onun da üzünü çıxarıb sizə gətirmişəm.

Eteli Mariyanın, Mariya Etelinin üzünə baxa-baxa qaldı. Sevindiklərindən bilmədilər nə eləsinlər. Qonağın yanında xəbəri gəlmiş dayılarının ruhuna hörmət olaraq hər ikisi təkrar xaç çəkib, doyunca su içən toyuqlar kimi göyə baxdılar. İkisi də birdən dedi:

– Vəsiyyətnamə hanı, cənab?

Müfəttiş kağızı təqdim edəndə bacılar təşvişə düşdülər.

– Narahat olmayın, xanımlar! İki surət gətirmişəm.

Bacıların hər ikisi vəsiyyətnaməni alıb oxumağa başladı.

– Siz sağ olun, cənab, hərçənd, Kaliforniya uzaqdadır, biz indi mərhumun dəfn mərasiminə getməyə hazırlaşmalıyıq!

– Dəfn mərasimi çoxdan olub. İki ayın söhbətidir. Xəbərin sizə gec çatmağının səbəbi mərhumun varislərini axtarmaq idi. Bir mütərcim qadın mərhuma, guya zövcə olduğunu iddia edirdi. Bu da yalan işdir. Ortada heç bir kağız, hətta sevgi məktubu da yoxdur. Vərəsəlik hüququ tamamilə iki bacıya aiddir.

– Banka müraciət edə bilərikmi?

Müfəttiş işin təfsilatını açmadığına peşman oldu. Sözünü sanki, yenidən başladı:

– Xanımlar, yaxşı yadıma saldınız, müraciət məsələsi belədir: mərhumun vəsiyyətində balaca bir şərti də var. Gərək hər iki bacı onu yerinə yetirəsiniz. Bilirsiniz ki, vəsiyyət qanun qarşısında çox müqəddəs bir işdir. Ona gərək əməl oluna.

– Nə şərt?

– Mərhum dayınız, bilməmiş olmazsınız ki, idman həvəskarı idi. Bütün ömrünü boksda, döyüşdə keçirmişdir. Qohumlarını da, vətəndaşlarını da bu sənətdə mahir görmək istədi. Vəsiyyət etmişdir ki, bacım qızları boksda qabaq-qabağa vuruşsunlar. Hansı qalib gəlsə, bankdakı hesabımın ixtiyarı, yəni, bölüşdürmək ixtiyarı ona verilsin.

– Biz ikimiz vuruşmalıyıq?

– Bəli, ikiniz.

– O, çətin bir şey deyil.

– Camaat qabağında.



– Camaat qabağında?

– Bəli, tamaşa yerində.

– Biz yaşda boks döyüşçüləri camaata gülünc görünməzmi, cənab!

– Xeyr! Bu, dünyaca məşhur bir oyundur, eşidən tamaşaya gələcək, siz də sələflərinizin arzusunu yerinə yetirəcəksiniz.

Bacılar bir-birinin üzünə baxdı.

– ...

– Utanmağa gəlməz. Dayınızın vəsiyyətinə əməl etmək müqəddəs borcunuzdur, xanımlar!

– Əlbəttə!

– Gələn həftə boks meydanı boş olanda siz çağırılacaqsınız. Yer kirayəsi də müxtəsər bir şeydir. Səksən dollara yaxın.

– Cənab, qabaqcadan bu pulu bizmi verməliyik?

– Məhkəmə əvəzinizdən zəmanət eləyər. İrsi alanda ödəyərsiniz.

– Bilet satılacaqmı?

– Biletdən alınan məbləğ idman həvəskarları cəmiyyətinə çatacaq. Ona ümid etmək olmaz.

## II

Eteli yatsa, yuxusuna da gəlməzdi ki, altmış iki yaşında, camaat qabağında böyük bacısı ilə qabaq-qabağa durub yumruqlaşacaq. Məhkəmə bu təklifi qoyanda Eteli güman etmişdi ki, dayımın vəsiyyəti elə-belə zahir üçün icra olunmalıdır. İki-üç dəqiqə əl-qol oynadıb qayıdarıq. Bəlkə Mariya da əvvəllər belə düşünürdü. Amma vaxt yaxınlaşdıqca, mənzərə aydınlaşdıqca bacılar vəsiyyətin ciddiliyini dərk edirdilər: "Nə bilirsən, bəlkə, sabah boksda üstünlük tutan və irs kağızlarını əlinə alan Mariya kiçik bacısına bir tulapayı atacaq: "Bəsindir! – deyəcəkdir. – Kimdir onu təzədən məhkəməyə verən? Yox, üstünlüyü əldən vermək axmaqlıq olar. Bacıya-zada inanmaq olmaz. Burada milyon məsələsi var".

Məhkəmədən əvvəlki günlərdə bacıların hər ikisi belə düşünürdü. Onların başına fikir yazan bir maşın bağlansaydı, mühakimələri yazılsaydı, təxminən eyni mətn alınardı. Bir fərqi bu olardı ki, Mariya

böyük və təntənəli bir restoran düzəltmək, onun icarəsi ilə yaşamaq əzmində idisə, dırnaq boyamaqla ömür keçirən Eteli Monte-Karlodakı oynaşını yanına çağırmaq, ətriyyat mağazası açmaq fikrində idi. Dayılarından qalan irs hər iki bacının xoş niyyət icra etməsi üçün kifayət idi. Kifayətdən də artıq idi. Amma bacılar bir-birindən qorxurdu. Qorxurdular ki, "İşdir, qəzadır, boksda basılsam, kağızlar bacımın əlində olsa, mənə yarı pay verər, ya verməz. Özü də vermək istəsə, qohumları yığılıb min cür hiylə quracaq, qoymayacaqlar. İş uzanacaqdır." Ömürlərin bu qısa vaxtında vərəsə işinin məhkəmədə uzanmağı lap üzüntülü olur.

Bu vahimə həm Etelinin, həm Mariyanın zehnini məşğul etmişdi. Kənardan baxan onlara xoşbəxt deyirdi, çünki müftə yerdən milyonçu olmuşdular. Amma di gəl ki, milyonun dadını görməmiş, adını eşidən gündən hər ikisi fikir-xəyalda, "nə eləyim, necə eləyimdə", mənəvi əzabda idilər. Məhkəmə ətrafında mürafiə axtaran vəkillər də dəstə ilə bacıların başına toplanıb kimisi Eteliyə, kimisi Mariyaya ağıl öyrədir, maddə göstərir, sübut gətirir, tədbir tökürdülər. Biri deyirdi: "Yaxşı yeyib kökəlmək, döyüş gününə qüvvət toplamaq lazımdır." Biri deyirdi: "Dəri əlcəkləri uğurlu ustadan almaq, münasib havanı, xoş saatı gözləmək lazımdır."

Kimisi izdihamlı şəhəri məsləhət görür, kimisi məhkəmə heyətinə adam salmağı vacib bilirdi. Ancaq bunlar hədər idi. Əslində bacıların taleyi şəxsi döyüş məharətindən asılı idi.

Gözlənilən gün gəlib çatdı. Bacılar müqəddəs vəsiyyətə əməl etməli oldular. Meydança böyük olsa da, camaat az idi. Əlbəttə, buraya əsl boks azarkeşləri gəlməmişdilər. Gəlməzdilər də. Qəzetlərdə 60-70 yaşlı bacıların boksda vuruşma elanını oxuyanda məhkəmə oyuncağı adlandırmışdılar. Buraya gələnlərin çoxu boks ilə yox, irs əhvalatı ilə maraqlananlar, hər iki bacını yaxşı tanıyanlar, səadətlərinə küsənənlər və bir də bu əhvalatdan fayda mənbəyi gözləyənlər idilər. Başqa camaat az idi. Onlar da oyuna baxmağa yox, qarıların artistliyinə baxıb gülməyə gəlmişdilər.

Məhkəmə nümayəndəsi vəsiyyətnaməni oxudu. Yer-yerdən mərhum Reyxsterə rəhmət dedilər, varislərə xoşbəxtlik arzuladılar.



Əvvəl Eteli meydana çıxdı. Camaat onu həm çəpik, həm gülüşlə alqışladı. Aşkar bilinirdi ki, əyləşənlər dayı malına susayan, bu vəziyyətə düşən qarıya gülürlər. Eteli özünü sındırmadı: ətəklərini yığışdırdı, yığcam və yüngül başmaq geydiyindən, meydançanın yumşaq döşəməsində məmnun halda yeyin yeridi, hərifi qarşıladı. Mariya çıxanda da camaat güldü. Ancaq o, təcrübəli artist kimi baş əydi, bacısına əl verdi. Demək istəyirdi ki, "Gəl öpüşək." Doğrudan da bacılar qalın əlcəkli əllərini bir-birinin kürəyinə qoyub dodaq-dodağa öpüşdülər. Camaat bu mehribanlığı alqışladı. Boksçular geri çəkilib yumruqlarını sərrastladılar, hərifin üstünə cumdular. Döyüş qızışdı, yaman qızışdı! Dırnaq boyamaqda ehtiyata, incəliyə, hövsələyə alışmış olan Eteli bacısından yediyi bərk yumruqdan sonra hirslənib özünü yığışdırdı. O heç güman eləməzdi ki, həştada yaxın yaşayan, bufetlərdə arıqlayıb üzülən bir qarı belə bərk yumruq vura bilər. Etelinin gicgahı qızışdı, qulağı elə cingildədi ki, deyəsən, mis qab səsləndi. "Bu ərkansız nə yaman imiş", – deyə Eteli var gücünü topladı. O yəqin elədi ki, daha bura zarafat, ehtiram və ya qohumluq yeri deyil. Milyonun söhbəti var.

Eteli lap pəhləvanlar kimi hərləndi, camaata göz yetirdi, gördü ki, Mariyanın zərbələri hamını heyrətə salıb: "Kiçik bacı!", "Kiçik bacı, qoyma!", "Eteli, milyon əldən çıxar", "Cəld tərpən!"

Eteli gördü ki, onun azarkeşləri çoxdur, özü də həyəcan keçirirlər. Bunun da səbəbi var idi. Bufetçinin müştərilərindən, demək olar ki, burada tək-tək adam var idi. Vağzaldan bura gələn kim idi. Dırnaq boyadanların çoxu isə oturub gözləyir, ustalarının üstünlüyünü arzulayırdılar:

– Kiçik bacı, bir də!

– Eteli, hərifə aman vermə!

Eteli də bu çağırışlara biganə qalmadı. Bacısının bir çiynindən, bir dirsəyindən vurandan sonra fürsət tapıb, sol gicgahından elə ağır bir yumruq ilişdirdi ki, qarı bəd əməldən tövbə eləyənlər kimi, düz qayıtdı. Güman etmək olardı ki, Mariya qüvvə toplamaq üçün geri çəkildi. Xeyr, Mariya durduğu yerdə gicəlləndi, mahir rəqqasə kimi bir neçə dəfə fırlandı, birdən çul kimi yerə sərildi. Hərəkətsiz qaldığını görəndə adamlar tökülüşdülər. Biri başını qaldırdı, biri su gətirdi, biri yelpazə-

sini açdı, biri nəbzini yoxladı:
– Eh, bu ilmi ölmüsən, bildirmi?

Bir saniyədə qarının rəngi göyərdi, gözləri axdı, ağız açıla qaldı, bədən dümdüz cənazəyə döndü.

Camaatın üstünə, deyəsən, su ələndi:

– Nə pis oldu!

– Çox pis oldu!

– Tamam peşmançılıq olacaq!

– Vay səni!

Daha azarkeşlərin ilhamlandırıcı səsləri kəsilmişdi. Cənazəni götürdülər. Etelini də dərhal polis yaxaladı:

– Adam da bacısı ilə belə vəhşi rəftar eləyər?

– Özü də böyük bacı ilə?

– Mən nə bilim, bunun canı yox imiş!

– Nə bilim, nə bilim...

– Görmürsən, qoca qarıdır!

– Heç güman eləməzdim.

– Gəl, gəl, məhkəmədə danışarsan, düş qabağıma!

Mariyanı kasıblar qəbiristanlığında basdırmağa, Etelini də həbsxanada yatmağa apardılar. Qəzetlər ölüb-öldürənin şəklini vurur, tərcümeyi-halını yazır, müxbirlər Etelini dindirmək üçün həbsxana qapısından əl çəkmirdilər. Nigaran qalan camaat məhkəmə müfəttişindən soruşurdu:

– Dayının irsi bölünmədi, cənab? Hamısı Eteliyəmi çatacaq?

– Eteli canidir. İrs hüququnu itirib.

– Bəs dayı malı?

– Dayı malı konqresin fonduna keçdi.

– Canım, konqresin nə ehtiyacı var elə şeyə?

– Var! Çox ehtiyacı var! Qarşıdakı müharibə əjdaha kimi ağzını açıb pul istəyir. Kommunistlərin bizə necə hücum hazırladığını öyrənmək üçün minlərlə kəşfiyyat təyyarələri, casus pilotların maaşını birəbeş artırmaq üçün milyon lazımdır. Kommunist ölkələrin yaxınlarında yüzlərlə baza lazımdır. Bunlar hamısı boş əl ilə olmaz. Köz kimi qızıl istəyir, dollar istəyir, bəs nə!



– Allah dayıya rəhmət eləsin!

Camaat dağılışanda irs qoyub gedənə, belə şərtlər kəsənə bir ağızdan lənət oxuyurdu. Lənət deyənlərin birincisi Eteli özü idi:

– Goruna od dolsun, dayı!

– Ruhun əzabdan qurtulmasın heç vaxt!

Yazandan sonra:

Bu əhvalatın həqiqiliyinə şübhələnən, yazıçı təxəyyülünə isnad edənlər zəhmət çəksinlər, builki iyul ayının son yarısı mətbuat səhifələrinə yaxşı baxsınlar.

*1960*

# PİONER MAŞINI

–Həmid əmi, durma, gəl! Maşın danışır!

– Nə maşındı, bala?

– Bizim maşın! Pioner maşını!

Həmid əmi dinməz-söyləməz qapını bağlayıb yaşına yaraşmayan çəldliklə daş pilləkənləri çıxdı, uşaqların toplandığı sinif otağında ayrı bir dəsgah gördü.

Ədil müəllim ortalıqda, ayaq üstdə dayanmışdı. Stolun üstündə radio cihazına oxşayan yaraşıqlı bir qutuya baxıb nəsə deyirdi. Həmid əmini də çağırıb yer göstərdi.

– Əyləş, – dedi, – sən də qulaq as!

Həmid əmi yuxarı sinfin uşaqlarını, yarışan pionerləri görən kimi bildi ki, əhvalat nə yerdədir.

Bu maşının sinfə gəlməyi məktəbdə hamı üçün xoş xəbər idi. Heç kəs güman etməzdi ki, istirahət günü dəmir yığmağa gələn uşaqların əməyi belə nəticə verəcək. Əvvəl uşaqlar bu işi yaxşı dərk etməmişdilər. Bəziləri elə düşünürdü ki, yollardan bu dəmirləri yığdırırlar ki, tə-





Vicdan mühakiməsi səh.237

kərlərə ilişməsin, bəziləri deyirdi "təmizlik" üçündür. Kimisi də deyirdi traktorların, maşınların sınan yerlərini düzəltməyə dəmir axtarırlar.

Ancaq pionerlər bu işə həvəslə girişmişdilər, siniflər arasında yarış başlanmışdı, yarışan, ötüşənlər kəndin yollarında nə görsələr, yığışdırırdılar: "Qoy bizimki çox olsun!"

Bir də görürdün, neçə məktəbli birləşib ağır bir boçkanı dığırlaya-dığırlaya budur gətirir. Bir başqası tənəkə parçalarına məftil keçirib sürüyür. Sınmış peç trubasını qiymətli bir şey kimi qoltuğuna vurub gətirir, sınıq bel, tikanlı məftil, maşın qanadı, təkər parçası, araba zənciri...

İstirahət günləri məktəb həyəti dəmir-dümür ilə dolurdu. Həmişə, hər yerdə təmizlik sevən Həmid əmi də uşaqların gətirdiyi bu şeyləri kənara atırdı. Yük maşını gəlib çıxanacan darıxırdı:

– Yola tökməyin, ayaq altını kəsməyin, bala!

Bunları nəqliyyat idarəsindən gələn yük maşınına doldurmamış Həmid əminin rahatlığı olmazdı.

Hərdən şikayətlənərək Ədil müəllimə eşitdirərdi:

– Bizim istirahət günümüzün artıq muzdu hardan çatacaq, Ədil müəllim?

Ədil müəllim Həmid əminin beşinci sinifdə oxuyan, həm də yaxşı oxuyan, pioner kimi ad qazanan oğlunu göstərərdi:

– Ramizdən çatar, onun yaxasından bərk yapış!

Oğlunun adı çəkiləndə Həmid əmi xüsusi bir iftixarla yeriyərdi:

– Nə deyirəm, təki Ramiz də məktəbin işinə yarasın!

Uşaqlar bir-birinin həvəsinə kəndin küçələrində, köç yolunda, nəqliyyat dayanacağında axtarmamış bir qarış yer qoymazdılar. Hey daşıyardılar. Atlı qarışqa yuvasına ruzi daşıyan kimi, ələ keçəni məktəb həyətinə yığardılar...

İndi o günlərdən iki ay keçmişdir. Yarış qurtarmış, hesab-kitab bağlanmış, Köşkü məktəb pionerlərinin işi də pioner qəzetində təriflənmişdi.

Ədil müəllim bu axşam yuxarı məktəb uşaqlarını çağıranda maraqlanmışdılar:

– Konsert olacaq?

– Valideynlər gələcək?

– Sizin yığdığınız dəmir parçaları danışacaq.

– Elə şey olmaz!

– Görərsiniz!

– Necə yəni?

– O ki payızda küçələrə düşüb yığırdınız ha?

– Bəli!

– O dəmir-dümür danışacaq.

– Dəmir danışar, müəllim?

– Dil verəndə, dəmir də danışar, şüşə də!

Zaldakılar ümumi bir maraq ilə əyləşib Ədil müəllimin nə deyəcəyini gözləyirdilər. Ədil müəllim stul üstündə qoyulmuş qutunun – maqnitofonun örtüsünü çıxartdı, qapağını açdı, işgilini tərpətdi.

Hamı yerindən durub təzədən oturdu.

– Nə deyəcək?

– Nə dildə danışacaq?

– Bakıdandı, ya rayondan?

Ədil müəllim dedi:

– Bu saat görəcəksiniz.

Maşının yaşıl gözü parıldadı, üstündəki yastı çarx xırıldadı, xırıldadı, boğazını arıtdadı, birdən danışdı. Maşının bir neçə sözü məktəbliləri təbrik etmək oldu:

– Uşaqlar, sizə çoxlu-çoxlu salam!

Uşaqlar sevincdən bilmədi nə desin, nə cavab versinlər, Həmid əmi maşına baxa-baxa yerindən dilləndi:

– Ay əleykəssalam!

Məktəblilər gülüşdülər. Maqnitofonun səsi daha da aydınlaşdı, tez-tez danışdı. Şəhərdən, zavoddan xəbərlər dedi:

– Mən ki indi sizin qabağınızda oturmuşam, sizin səslərinizi yazmağa gəlmişəm, mənə can verən siz pionerlər olmuşsunuz. Yoxsa mən küçələrdə təpik dəyən, təkər altında ayaqlanan, fəryad edən, batdaq, torpaq içində məhv olan bir parça paslı dəmir idim. Siz məni maşınlara yığıb zavodlara göndərdiniz. Orada məni ağıllı-başlı çimizdirdilər, tərtəmiz elədilər, oda qoydular, əritdilər, xəmir kimi yoğurdular, qəliblərə



tökdülər, hissələrə ayırdılar, yaraşıq verdilər. Köynək geydirdilər, möhür vurdular, yaşıl çeşmək qoydular, dil öyrətdilər, sizə qulluq eləməyə göndərdilər.

– Get, – dedilər, – Köşkü pionerlərinə de ki, zavod fəhlələri sizdən çox razıdırlar. Biz onların zəhmətini görüb alqışladıq. Qoy, onlar da bizim zəhmətimizi əziz tutsunlar, kəndə, məktəbə gələn yaraşıqlı maşınları yaxşı işlətsin, yaxşı qorusun, səliqəli saxlasınlar. Əmək əmək ilə birləşəndə gücünə güc çatmaz!

*1960*

# TÖVBƏLƏTMƏ

## I

Hikmət salam verib içəri girəndə rəis ayağa qalxdı, stol arxasından keçib görüşdü, xoş gəldin elədi:

– Sizdən nə əcəb, Hikmət xanım, mənə aid qulluq!

– Qul sahibi olasınız, Şamil qardaş, bağışlayın, sizə zəhmət verməyə məcbur olmuşam.

– Nə zəhmət, borcumuzdur, buyurun! Necə dolanırsınız, Qədir necədir, uşaq gəzirmi? Çoxdandı sizi görmürəm, nə var, nə yox?..

Şamilin bu mehriban suallarından Hikməti qəhər tutdu. Qız güman etdi ki, şikayətindən rəisin xəbəri vardır. Bəlkə də Hikmətin halına acıdığı, yandığı üçün bu qədər köyrəlmiş, mülayim olmuşdur.

Şofer Qədirin Hikmət ilə iki il əvvəl evləndiyini trest rəisi bilirdi. Onlara yeni mənzil orderini də özü vermişdi. Neçə ay əvvəl qonşulardan eşitmişdi ki, Qədir ailədə özünü yaxşı aparmır. Hikməti incidir. Eşitmişdi, bu söhbətə o qədər məna verməmiş, güman etmişdi ki, ailə



həyatında ötəri inciklik, giley-güzar olan və tez də ötüb-keçən şeydir. "Ər-arvadın savaşı – yaz gününün yağışı."

İndi, budur, Hikmətin trestə gəlməyi, özü də zəngsiz, xahişsiz, ümumi qayda ilə qəbul saatlarında gəlməyi göstərirdi ki, şübhəsiz, bir çətinlik var.

Üzünü Hikmətə tutub soruşdu:

– Buyurun, qulaq asıram, mənə aid...

Hikmət zamanının utancaq, ismətli, həyalı qızlarından biri idi. Qədir ilə tapışıb birləşmək də bir təsadüf ucundan, trestə cavan fəhlələr cəlb edən komissiyanın yaz qəbulunda olmuşdu.

Məhəbbət, toy, tədarük, ev-eşik dəsgahında Hikmət yavaş-yavaş ərinin bəd xasiyyətinə bələd olmağa başlamışdı. Daha doğrusu, Qədir indi nişanlı günlərində tanınan nəzakətli, həssas, üzüyola Qədir deyildi. İndi o, həmkarları arasında şərab içməkdə, içki məclislərinin "ədəb-ərkanını" bilməkdə seçilirdi. Durub-oturur, şərabı "kövsər suyuna" bənzədir, cürbəcür məziyyətlərindən danışır, misal çəkir, arağı, konyakı hansı məzələr, hansı xörəklərlə, günün nə vaxtında, kimlər ilə, necə içməyin qaydasından, faydasından elə şirin-şirin danışırdı ki, elə bil, bir ovçu öz hünərindən dəm vurur. Bəzi tanışları da onu bu məharətinə görə saya salır, vaxt-bivaxt məclislərə çağırırdılar. Hikmət əvvəllər dinib-danışsa, narazılığını bildirsə də, Qədir üz-gözünü turşudardı:

– A qız, – deyərdi, – mən kişiyəm axı! Kişi araq içər də, dünya-zad görməmisən? Arvad nədi, kişi işinə qarışdı nədi?..

Hikmət isə buna dözmür, doğrusu, dözə bilmirdi. Ər-arvad ixtilafı nəinki sönmür, daha da alovlanırdı. Bir-birindən tünd, kəsərli spirt Qədirin hülqumundan axdıqca pulunu, bağırsaqlarını, ciyərlərini, hətta yenicə qurduğu gənc ailə münasibətlərinin hələ bərkiməmiş ipək bağlarını, məhəbbətin pak, müqəddəs, bakir, doğma hisslərini də yandırıb külə döndərir, göyə sovururdu. Qədir aldığı maaşın çoxunu arağa, sarımsağa, turşulara, kolbas dürməyinə, kampaniyaya, orda-burda qonaqlığa sərf edirdi. Spirtli içkilərin insan vücudunda nə kimi sarsıntı-dağıntı, necə kimyəvi təbəddülat yaratdığını bilmək üçün leksiyalardan, kitabçalardan çox, şofer Qədirin qızarmış üzündən, tuluqlanmış göz qapaqlarından, güləndə qara dişlərindən, xırıltılı səsindən, müsahiblərini

bezdirən fısıltısından, ağzından gələn "ətir" iyindən bilmək olurdu.

Xüsusən, Hikmətin uşağı olandan, müvəqqəti işdən çıxıb uşağına baxmağa başlayandan sonra Qədir evdə tapılmır, axşamına ayıq baxmırdı. Maaşın alınmağı ilə yox olmağı bir olurdu. Əlinə pul gələn günlər Qədir həm evdə tapılmır, dindirəndə qan-qada ilə cavab verirdi: "Xəta eləmədik evləndik. Qoymazsan, bu işıqlı dünyada yaşayaq?"

Əlbəttə ki, Qədir "işıqlı dünya" şəraba, "yaşamaq" da qurtaqurt şüşələrdən stəkana, fincana tökülən arağın cərəyanına deyirdi. Bu səs ona hər hansı bir muğam və mahnıdan şirin idi. Qalan hər şey: idarə, iş, ailə, uşaq onun üçün bir növ "qaranlıq dünya" hesab olunurdu.

Özündən çox kiçik, zəif, utancaq, uşaqlı bir gəlin olan Hikmətin sözləri də, nəsihətləri və yalvarışları da, Sədi demişkən, günbəzə vurulan qoz kimi nəticəsiz idi. Gör iş hara çatmışdı ki, bir kəlmə söz deyəndə pul kimi qızaran, utanan, idarə qapısı tanımayan Hikmət indi əzmini cəm eləyib, trest rəisinin yanına şikayətə, dərdini deməyə gəlmişdi.

Hikmət rəisdən xahiş edirdi ki, heç olmasa məvacibi ərinə birdən verməsinlər, ailənin xərcini çıxsınlar, ya onun "başına bir ağıl qoysunlar."

Şamil Hikməti hörmətlə qarşıladığı kimi, möhkəm vədə ilə də yola saldı.

Hikmət gedəndən sonra kişini fikir götürdü: "Bu nə məişətdir ki, dünən-srağagün ailə quran bir fəhlənin əməyini, sağlamlığını, səadətini, abrını araq seli yuyub aparır?.. Bu bədbəxt oğlunu qudurdan nədir? Bu nə zəiflikdir ki, kollektiv də Qədirin hərəkətinə soyuqqanlıdır, dözür, tədbir görmür, cavan gəlinin göz yaşları tökməsinə laqeyd baxır?.. Bu nədir, nə işdir?"

## II

Qapıda hənirti eşidəndə Hikmət cəld eyvana qaçdı. Ərini aşağıda, lap birinci pillədə yaxası və başıaçıq, sifəti qızarmış, başı məhəccərə söykənəkli görəndə başını buladı: "Ayın on dördü, maaş günü..."

– A külbaş, orda niyə dayanmısan?



Qədir güc ilə başını məhəccərdən ayırdı, dumanlı, bulanıq gözlərini yuxarıya, səs gələn tərəfə hərləyərək, köhnə, zədəli plastinka kimi xırıldadı:

– Dayan... dayanmamışam. Gə... gə... gəlirəm...

Bütün vücudunun taqətini dizinə toplayıb addım atmaq istəyəndə ağır şeylərlə doldurulmuş ağzıbağlı çuval kimi yumbalandı.

Hikmət köməyə gəldi:

– Yenə harda vurmusan, a bədbəxt oğlu?

Qədir iki əlini göyə qaldıraraq, sanki yalvarırdı:

– Yapış!

Hikmət ərini qoltuqlayıb ayağa qaldırmaq istədi:

– O zəhrimarda nə görmüsən axı!..

– Soruşma! Danışma!

– Harda zəhərlənmisən?

– Heç harda!

Şofer bir də səndələyib yıxılanda Hikmət tutmadı:

– Küçədə-bərədə öləcəksən, heç olmasa bir balana yazığın gəlsin!

– Bala məndən artıqdı?..

– Neynəmisən pulları?

– Dayan!..

Hikmət əlini ərinin cibinə salıb bir neçə 25-lik çıxartdı. Maaşdan görünən bu idi.

– Hanı yarım aylıq maaş?

– Yəni mənə düşmür? Kişi deyiləm?..

Kənardan qonşuların tamaşa eləməyini görəndə Hikməti qəhər tutdu, özünü bədbəxt qızlardan saydı, bilmədi, nə eləsin. Bir an əli qoltuğunda dayandı. Gördü ki, özünü saxlaya bilməyəcək, ağlamağını bilən olmasın deyə, içəri girdi, qapını örtdü, iki əli ilə üzünü tutub çarpayının üstünə yıxıldı.

İnsan olan başqasının qəlbinə toxunmağı qəbahət bilər, xəcalət çəkər. Bütün şərabxorlar kimi Qədirdə də bu ləyaqəti gözləmək əbəs idi. Hikmətin qəhərlənməyi, iztirab çəkməyi, hıçqırıq vurub ağlamağı nəinki onun vecinə gəlmədi, əksinə, sevindirdi. Dumanlı beynində araşdırıb gördü ki, Hikmət içəri getdi. Bir az da zirəkləşib pillələnləri

addım-addım çıxdı, evin qapısını itələdi...

Sən demə, Hikmət ayrı cür düşünürdü. Səbir kasası daşmış kimi, "bəsdir!" – deyə göz yaşını silib özünü qapıya yetirdi, sərxoşun yolunu kəsdi:

– Hara gəlirsən? Dayan!

Qədir içəri girməyə can atır, Hikmət qoymurdu.

– Çəkil bir!

– Qoymayacağam!

– Öz evimə...

– Bu sənin evin deyil. Ev-eşik sahibi belə qələt eləməz.

Qədir əzələli qolları, bərk dirsəyi ilə güc vururdu, ancaq əsdiyi üçün sağ-sola sürüşür, yıxılırdı.

– Allahü Əkbər!

– Allahü Əkbərə inanan, çaxır küpəsinə girməz.

Qədir üzünü qonşulara tutub şahid çəkirdi:

– Görürsünüz, nə şər atır! Mənim çaxırdan zəhləm gedir, almaz kimi arağı gör nəyə tay tutur!..

Pilləkəndə əlbəyaxa vuruşma uzun çəkdi: Qədir qapıya cumdu, Hikmət qaytardı, Qədir hədələdi, Hikmət qorxmadı, Qədir yumruq işlətdi, Hikmət cavab verdi, Qədir yalvardı, Hikmət yumşalmadı. Axırda sərxoş geri qayıtdı. Pilləkən ayağında diz üstə çöküb taqətsiz qaldı: "Bu nə iş idi, düşdüm!? Mən yekəlikdə kişi arvadın əlində qalmışam..."

Hava qaralmaqda, buludlar kəsifləşməkdə idi! Qəhərlənmiş uşaq kimi birdən yağış tökdü, nə tökdü! Tənəkə damlara, hələ yarpağını tökməmiş ağacların başına dəyən, hər an çoxalan, get-gedə yağışın gücələnən bir ahəngli səsi hər şeyi eşidilməz etmişdi. Sanki buludlar da Qədirin bu təmiz həyətə və həyata gətirdiyi üfunəti təmizləmək, yuyub aparmaq üçün sel axıdırdı.

Belə havada şıdırğı yağışı görənlər qaçıb evlərə, binalara doluşdu. Qədirdən başqa həyətdə kimsə yox idi. Qədir darvaza altında soyuq divara söykənib yerə baxırdı. O indi nəinki ailədən, hətta adam içindən qovulmuş kimi tək idi. Sanki bir neçə saat əvvəl onu yeddinci göyün bir qatından uçuran, bütün dost-düşmənə meydan oxudan "dumduru", "qadasın aldığı" araq da gücsüz idi. Hikmətin əsəbi, qəti cavablarımı,



qonşuların etinasız baxışlarımı, havaya soyuqluq gətirən yağış sularımı, nəsə Qədirin vücuduna bir titrəyiş gətirir, zehnindən sanki pasları, pərdələri götürürdü.

Darvaza yanında dayanıb öz qapısına, gündə sərbəst ayaq basdığı pilləkəninə, ötüb-keçən, onu dindirmək istəməyən qonşulara, uşağa, böyüyə dərin bir həsrətlə baxırdı. İndi bu aləm onun gözündə böyüməkdə, ideala çevrilməkdə idi. İndi o, isti evlərin, mehriban ailələrin, hamının, deyə-gülə səslənən hər kəsin səadətinə küsənirdi... Hər an evinə, Hikmətin pəncərəsindən gələn işığa baxır, düşünürdü: "Nə iş idi, düşdüm! Buraxmayacaq..."

İndi Qədirin ümidi kəsilmişdi. Hikmət ondan tamam üz döndərmişdi. Ancaq ümid qonşulara idi. Onların bir insaflısı, sözükeçəni gəlməli, nəsihət eləməli idi. "Kim gəlsin?"

Qədir məyus, yalvarıcı bir nəzərlə bütün həyəti, qonşuları, birinci, ikinci mərtəbəni gəzdi. Onun işlərindən xoşlanan bir adam görmədi. Kimi dindirsəydi, Hikmətin tərəfində duracaqdı. Fikirləşirdi ki, heç olmasa müvəqqəti, bu günlüyə bir qonşunun evində qalsın, sabah milis çağırıb, arvad ilə şərini kəssin. Hansı qonşunun evində? Kim razı olar ki, Qədirin çirkli ayağı onun astanasına dəysin, natəmizlik gətirsin, üfunətli nəfəsi otağa dolsun?

Qəribədir, gözü qızanda, "aləmi xingal kimi doğramaq istəyəndə" Qədirin beynini, qəlbini, zehnini çulğayan, samovar kimi qaynadan, buğ verən hərarətdən əsər-əlamət qalmamışdı. Yağış suları sanki bunları yuyub aparmışdı. Kişinin bədəni buz kimi soyumuş, kül kimi sönmüş, payız yarpağı kimi mafraq, yüngül olmuşdu. Baş, ayazımış, aydınlaşmışdı: "Ey diliqafil, mən nə rüsvay olmuşam! Gör nə hala qalmışam ki, qonum-qonşu da iyrənir..."

## III

Qədir içəri girəndə, Hilalı – yerli komitə sədrini Şamilin yanında görəndə ürəyindən keçdi ki: "Partkom katibi buradadı. Danlamağa çağırıblar". Çünki belə məzəmmətləri o, yalnız Hikmətdən yox, iş yoldaş-

larından, kommunistlərdən, hətta bir dəfə istehsalat müşavirəsində Şamilin özündən də eşitmişdi. "Yəqin ki, danlayıb-danlayıb iş tapşıracaqlar. Təkərlər də çoxdan keçəllənib, bu batdaqda yola çıxan deyiləm!"

– Qədir, sənnən bizimki tutmayacaq, 15 gün vaxt verirəm, get özünə harda istəyirsən, iş tap!

İşdən qovmaq! Qədir bunu heç güman etməzdi. Şamil onu çoxdan tanıyır, belə bir qərara necə yol verər, yəni adamdan belə üz döndərərlər?...

Şamil qurtarmamış Hilal başladı:

– Ailəni, qonşuları da təngə gətirmisən, Qədir. Hikmət xanım yaxşı eləyir səni evə buraxmır.

– Mən kimə neyləmişəm?

– Ondan artıq nə eləyəcəksən! Özünü də, bizi də rüsvay eləmisən.

– Sizə nə eləmişəm, yoldaş partkom?

– Soğanın adı birdir, səni görənlər deyir filan trestin işçisidir. Şoferi belə olanın gör özü nə olar?

Qədir özünü yığışdırıb nə isə təfsilatı ilə danışmaq istəyirdi, Şamil macal vermədi.

– Qədir, insanın özü-özünə elədiyi pisliyi aləm yığıla, eləyə bilməz. Sən elə pozulmusan ki, düzəlməyinə heç kəs inanmır. Hikmət, mələk kimi bir qadın sənin əlindən zara gəlib. Bu zəhrimar şərabda nə görmüsən ki, hər şeyi ona qurban verirsən?

– Yoldaş naçalnik, Hikmət məni öz evimə buraxmır, siz də işdən qovursunuz?

– Bəs sən deyirsən, başına da bir sığal çəksinlər?

–...

– Bilirsən, Qədir, heç kəs öz abrını sənin araq nəşələrinə qurban verməyəcək! Bunu bil!

– Mən nə eləmişəm?

–A kişi, hələ dilin də var?

Hilal durub stulunu irəli çəkdi, barmaqları ilə şoferin qəbahətlərini saydı:

– İçkiyə elə qurşanmısan ki, özündən xəbərin yoxdur, bu bir. Aldığın maaşı arağa verib ailəni saya salmırsan, bu iki. Sənə nəsihət verəndə ağzına nə gəlir deyirsən, bu üç. Belə hərəkətləri də hünər sayırsan, bu dörd. Sənin fikrin belədir, get özünə həmfikir olanlar ilə işlə. Bizim trestdə sənin kimisinə yer yoxdu!

Qədir güman eləməzdi ki, trestdə onu belə qarşılayacaqlar.

– Yoldaş Şamil, özün bilirsən ki, neçə ildir burada...

– Mən yaxşı bilirəm, işlədiyini də bilirəm, bacarığını da bilirəm, əlimdən gələn hörməti də sənə, ailənə eləməyə çalışmışam. Onu da görürəm ki, sənin kimi sərxoşa nə maşın tapşırmaq olar, nə də trest evlərində yer vermək olar.

– Evdən də çıxardırsınız?

– Bizdə işləməyəndən sonra nə haqq ilə trest otaqlarını tutacaqsan?

Rəisin "nə haqq ilə!" sözləri, bir hökm, bir qanun kimi səsləndi. Şamil bu sözü bir az da qayımdan dedi, Qədirin üzünə baxdı. Deyəsən, bu Şamil, həmin adam deyildi. Qədiri mehribanlıqla dindirən, kefini soruşan, onun adını mənzil siyahısına yazıb açar verən, maşın tapşıran Şamil bu deyildi, yox!

– Yoldaş naçalnik, yoldaş...

Söz Qədirin boğazında qaldı. Başını aşağı salıb, ayaqlarına, sanki onu çirkin yollara aparan uzunboğaz çəkmələrinə diqqətlə baxırdı. İndi onun ürəyində oyanan və təlatümə gələn peşmançılıq hisslərindən, deyəsən, hamıdan qabaq Hilal xəbər tutmuşdu.

– Dünyada, Qədir, pulu da, dövləti də, var-yoxu da itirmək olar. Bunlar hamısı sağalan yaradır. Amma insan ki hörmətini, abrını itirdi, ondan ağır itki yoxdur. Kollektivdə sənin sərxoşluğunu bilməyən yoxdur. Gül kimi uşağını da araq şüşəsinə qurban verirsən. Şamil yoldaş necə eləsin, bunların müqabilində sənə afərin deməyəcək ki! Nə fikirdəsən? Bura bizim dədəmizin evidir, nədir ki, sənin kimi bir adamı... Bir dəfə keçərlər, iki dəfə bağışlayarlar. Yox, daha xudahafizləşmək vaxtıdır!

Qədir əllərini çataqlayıb yalvarıcı bir əda aldı:

– Bir də bu qələtləri eləmərəm, yoldaş Hilal!

Şamil dedi:

– Bu sözləri səndən əvvəllər də eşitmişik.

– Axırıncı olsun, yoldaş Şamil. Mən belə rüsvayi-cahan olduğumu bilməzdim.

– Trest rəhbərliyi bu qərara gəlib.

– Yalvarıram, mənə möhlət verin, mən də insanam!

– Qədir, üz vurma! Get ayrı yerdə özünə iş tap!

– Məni bu xasiyyətnamə ilə hara buraxarlar, yoldaş Hilal!

– Onu qabaqcadan düşünmək lazım idi.

– Bir qələtdi, yoldaş Hilal! Bağışlayın, yoldaş Şamil!

– Çıx otaqdan!

– Mən bir də o zəhrimarı dilimə vursam, həmkarlar ittifaqından qovun!

– Qoy kollektiv sənə zəmanət versin! Ayrı yolu yoxdur.

Bu sözün arxasında Qədir kədərli bir mənzərə görürdü. Böyük, kiçik, fəhlə, mühəndis, kommunist, bitərəf, kişi, qadın, tanış, yad, qəzet, radio – hamı, hamı Qədirin qızarmış üzünə, tuluqlanmış göz qapaqlarına baxıb gülürdü:

– Zəmanət istəyən budur?..

*1960*



# VİCDAN MÜHAKİMƏSİ

-Divardan boylanan uşağı görürsənmi?

– ...

– Ağ maykalını deyirəm. Odur ey, qoz ağacına dırmaşdı. Budağın arasında.

– Görürəm, kimin uşağıdır?

– Bəllidir ki, kimin uşağıdır?

– Necə yəni, bəlli deyil?

– İki aydır, xalq məhkəməsində bir işə baxılır. Hey baxırıq, baxıb qurtara bilmirik.

– İrsiyyət məsələsidir?

– Vicdan məsələsidir.

– O boyda uşağın vicdanı barəsində?..

– Uşağın yox, ətrafında böyüklər var.

– Vicdanlar mühakimə olunur?

– Vicdansızlar həmişə mühakimə olunur.

– Qanunda elə məcəllə var?

– Niyə yoxdur, məcəlləsi belədir ki, uşağın doğma anası, bir də tutma anası vuruşurlar. Dava bunun üstündədir. Tutma ana əsl ananı yaxın qoymur. Haqqı da var qoymamağa.

– Necə doğma anadır ki, haqqı yoxdur?

– Doğma anası vicdansızdır. Analıq hissini itirmiş qadındır. Yəni əvvəldən bu hiss onda olmayıb.

– Analıq hissini itirən, övlad davası eləməz.

– Ayrı məqsədi var, analıq yox!

– Nə məqsədi ola bilər! Bir tikə uşağın şöhrəti yox, vəzifəsi yox?..

– Gələcəyi düşünür. Görür, daha kef çəkmək əyyamı keçir, üz qırışıb, göz bürüşüb, görkəm gedib. Kişilərdə də ki, etibar görmür. Bir vaxt var idi, yüz uşağı bir təsadüfi öpüşə qurban verərdi. Xuşgəbar tez xarab olur axı. İndi daha, deyəsən, hərif peşman olub. Sonrakı peşmançılıq da, atalar deyib, bəhrə verməz.

Bu qısa mükalimədən sonra mən müsahibimdən – məhkəmə sədrindən xahiş etdim ki, məktəbli uşağın taleyi ilə bağlı işin təfsilatını danışsın. O da, sağ olsun, sözümü yerə salmadı.

Bu yazdıqlarım bəzəmə deyil, həmin yoldaşın dedikləridir. Hadisəni olduğu kimi saxlamışam. Ancaq yazı cəhətdən bir qədər o yan-bu yan eləmişəm. Bunun üçün də müsahibim, oxucularım və tənqidçilər məndən inciməsin gərək.

## I

Qoz ağacına dırmaşan ağ maykalı, girdəsifət, qıvrımsaç, qaragöz uşağın adı Həsrətdir. Bu adı ona nə anası, nə də atası vermişdir, nə də özü götürmüşdür.

1941-ci ilin yayında, müharibə alovu hər yanı çulğaladığı bir zamanda doğulan, həm də, necə deyir, “qanunsuz” doğulan bir uşağın taleyi ilə, aydındır ki, maraqlanan az olacaq idi.

Əslinə baxsan, uşağın anası Nazilə heç bu uşağı doğmaq istəmirdi. Boynuna düşən gündən fikri o idi ki, həkim tapsın, pul, fürsət tapsın, “bu ağırlığı” üstündən “rədd” eləsin. Bunun da səbəbi çox idi. Bir



səbəbi o idi ki, Nazilə özü yenicə 18 yaşına çatmış, gənclik aləminə qədəm qoymuş, oğlanlardan yağlı dil və nəvaziş eşitmək istəyən atasız-anasız bir kənd qızı idi. Vağzalda qamışa düzdüyü gilas bandaxlarını satanda salamlaşıb tanış olduğu əsgər oğlanın şirin sözləri xoşuna gəlmişdi.

– Qız, deyəsən, bu gilas öz ağacınızdandır?

– Həyətimizin ağacından.

– Görünür, lap özün bəsləmisən?

– Özümüz...

Deyəsən, özün də dərmisən?

– Özüm.

– Görürəm axı, belə bandaxlar hər bağbanın işi olmaz. – Əsgər oğlan səsinin ahəngini dəyişib ərk ilə dedi: – Ancaq qız uşağının gilas ağacına çıxmağı bir az...

– Bir az nə?

– Bir az çətin olmazmı?

– Mən hər ağaca çıxıram.

Deyəsən, əsgər oğlan bu cavabı gözləyirdi. Naziləyə lap yaxın durdu, əyilib dedi:

– Məhəbbət ağacına necə, çıxa bilərsən, ya yox?

Əsgər oğlanın birdən-birə dediyi bu söz Naziləni cərəyan kimi titrətdi. Qız qəfildən vurulmuş kimi, qızardı. Oğlan dik-dik onun üzünə baxmaqdan, sözünü təkrar etməkdən utanmadı:

– Düzünü de, çıxa bilərsən, ya yox?

– Nə danışırsan, əədə!

Nazilə bu etirazını elə həzin, mülayim və təcrübəsiz bir ifadə ilə dedi ki, əsgər oğlan zahirən təslim oldu:

– Mən bir şey demədim, gözəl qız. Ancaq söz soruşdum. Bəyəm, soruşmaq olmaz? Adam gözəl olanda cavab verməz bəyəm? Sözdür soruşuram. Acığın tutursa, bağışla!

Əsgər oğlan qızdan gilas da aldı. Onu maşına qoyub evlərinəcən yola da saldı.

O gün hər şey – kənd evləri, fermanın idarəsi, mal-qarası, otlaqları, yəni çəpərli yollar, həyətin tut, gilas, ərik, nar ağacları – hamısı kö-

kündən qopub Nazilənin başına fırlandı.

Əsgər oğlan bəlkə də heç Nazilənin yadına düşməzdi. Ancaq Nadir ayrı cür oğlan idi. Belə mehriban, məhrəm, güləşqabaq Nadir doğrudan da gözəl, yaraşıqlı oğlan idi. Açıq alnı, çatma qaşları, iri, qara gözləri, gül yarpağı kimi nazik dodaqları, gülümsər sifəti var idi. Nazilə diqqətlə baxanda görürdü ki, Nadir qəşəng oğlandır. Deyəsən o, Nazilə üçün yaranmışdı. Uzaq yerlərdən bu vağzala onun üçün də göndərilmişdi. Onun əsgərliyi, bu hissədə qulluğu, qıvraq hərbi libası, parıldayan boğazlı çəkmələri, bərk çəkilən bel qayışı, səsli addımları – hamısı Nazilə üçündür. Buna görə də Nazilə ilk görüşdə ona işıqlı sifət, bakir qız təbəssümü göstərmiş, könül vermişdi.

Əsgər oğlan (Nadirin komandir olduğunu Nazilə sonradan bildi) axşam onu dəmiryol klubuna konsertə çağırdı. Konsertdən sonra maşına qoyub lap evlərinə qədər ötürdü. Maşından düşəndə də əlinə bir şokalad qutusu verdi:

– Götür, götür! Utanma, sənin üçün almışam, Nazilə!..

İndi Nazilənin qarşısında başqa bir aləm açılırdı. O görürdü ki, dünyada başqa-başqa işlər də var. Fermada müdirin qışqırığını eşitməkdən, danaları otarıb qaytarmaqdan, iclasda oturub əl çalmaqdan, meyvə yetişəndə ağaclardan dərib vağzala, qatar ayağına qaçırıb satmaqdan, hasil olan pula tufli, corab almaqdan, inək sağmaq, su daşımaq, həyət-baca süpürmək, kəndə, adam dalınca qaçmaqdan başqa ayrı cür işlər də var imiş...

Nazilənin qəlbində, deyəsən, bahar açılanda torpağı söküb çıxan bitkilər kimi yeni-yeni mətləblər baş qaldırır, qaldırdıqca dikəlir, böyüyür, başqa aləmlərdən xəbər verirdi. Çox çəkmədi Nadir – əsgər oğlan Nazilənin nobar meyvə kimi köyrək qız qəlbini elə oğurladı ki, qız özü də xəbər tutmadı.

Nazilə birdən-birə kənd işlərindən soyudu, səhər-axşam vağzal yanında durmağa, komandir maşınlarına baxıb yaylıq eləməyə qızışdı. İndi Nazilə nə ferma, nə kənd, nə həyət, nə gilas ağacları ilə idi. Əsgər oğlanın onu götürüb uzaqlara aparacağına, neçə-neçə şəhərlər gəzdirəcəyinə inanırdı.

Günün birində Nadir Naziləyə xəbər verdi ki: "Bizim hissəmiz



başqa yerə köçür. Sən gözlə, beş-altı aya qayıdacağam. Arxayın ol, gözlə!"

Nazilə nə deyə bilərdi? İsti göz yaşları, intizar və gözləməkdən başqa çarəsi yox idi.

Əsgər oğlan getdi. Getdi, Nazilənin ixtiyarını da özü ilə apardı. Aşkarda ondan şirin və aydın bir xatirə, gizlində isə acı və anlaşılmaz bir ağırlıq qaldı.

Nazilə ürəyinin bulandığını, başının hərləndiyini, vücudunun təndir kimi bir istiyə tutulduğunu hiss edir, tez-tez sağıcı Səriyyə xalanın mənzilində daldalanırdı.

– Qızım, kefin yoxdur, sənə nə olub?

– Heç bilmirəm nə olub, başım hərlənir.

– Rəngini də birtəhər görürəm, bəlkə bir adamın-zadın var? Görüşürsən, nə olar, gizlətmə məndən, qorxma!

Nazilə cürət eləyib başına gələni demədi. Sözünə möhkəm inandığı Nadirin vədəsini – "beş-altı ayı" gözlədi. Kimsəyə bir söz demədi. Ancaq işlər öz-özünə ağarmaqda idi. Açılmalı olan səhər heç kəsdən icazə, məsləhət istəmir. Qızın vəziyyəti dəyişməkdə və ağırlaşmaqda idi. Səriyyə xala bir səhər başını bulaya-bulaya Naziləyə dedi:

– Günün qara olmasın, sənin uşağın var?

– ...

– Niyə dinmirsən, qız?

– Nə deyim, ay Səriyyə xala!

– Bunun atası köpək oğlu hanı bəs?

– Heç bilmirəm hardadı?

– Rüsvay olacaqsan, ay ərkansız, çarə elə!

Nazilə o mamanın yanına, bu həkimin qapısına getdi, inandığından kömək istədi.

–A bacı, abort qadağan olub, hökumət bilsə, adamı həbsə salar, abort nədi, zad nədi! Uşaqlı analara hökumət kömək eləyir. Qoy uşaqdı olsun, ərin istəmir, nə eybi var! Qanun yolu ilə aliment alarsan, böyüdərsən. Uşaq şirin şeydir, fikir eləmə!

Nazilə ona-buna məsləhət eləyənəcən vədə başa çatdı. Payız gecələrinin birində Səriyyə xalanın evində cavan ana yükünü yerə qoydu.

Utandığından iki əli ilə üzünü örtüb, səhərəcən ağladı. İki gün sonra Nazilə kənddən yox oldu. Körpəni sahibsiz görən sağıcı arvad aparıb doğum evinə verdi. Orada süni əmizdirməklə neçə həftə saxladılar. Uşaq həsrətində olan bir dərzi qadın – Badsəba xanım xəbər tutub, onu oğulluğa götürdü.

## II

Bu həmin günlər idi ki, hitlerçi quldurlar Sovet ölkəsi üzərinə qəfildən basqın etmişdilər. Dişinəcən silahlanan quduz faşist qoşunları yollarımızı, binalarımızı dağıdır, şəhər və kəndlərimizi ayaqlayaraq, rast düşən adamlarımızı qırır, əsir edir, od yağdıra-yağdıra irəli gəlirdilər. Yaralı Vətən qəzəblə silahlanaraq, iri şir kimi ayağa qalxır, kükrəyirdi.

Kənddən itən Naziləden bir xəbər verən olmadı. Kimi deyirdi: "Özünü Kürə atıb." Kimi də deyirdi: "Nadirin dalınca gedib". Kimi deyirdi: "Başqa bir oğlana, konduktora qoşulub, Uzaq Şərqə gedib."

Nə isə, bu qarışıq günlərdə adamı getməyən ailə yox idi. Yetim və ərsiz qızın dalınca düşən, soraqlaşan, axtaran da olmadı.

Dünyada nə qədər fəlakətlər, dəhşətlər, bəlalar olur-olsun, yenə də həyat qüvvətlidir. Həyat gücü həmişə, hər yerdə qalib çıxıb, yenə də çıxacaqdır.

Badsəba xanım beş ildən artıq ərə getsə, ailə qursa da, uşağı olmurdu. Qadın isə uşaq istəyirdi, yaman istəyirdi! Uşaq üçün əldən-ayaqdan gedirdi. Bu poliklinika mənim, o doktor sənin, o biri mamaça hamımızın... olmadı... Badsəba xanımı başa saldılar ki, onun vücudu zəifdir, uşaq doğması təhlükəlidir, olmaz!

Əri montyor Əsgər hey təsəlli verərdi ki:

– Ay Badsəba, canın sağ olsun. Uşaqdır, detdomdan birini götürüb böyüdərik, olar bizim oğlumuz. Təki canın sağ olsun, nə fikir eləyirsən!..

Elə də elədilər. Uşaq evindən birini götürüb böyütməli oldular. Ancaq Badsəba xanım uzaqgörən idi:

– Ay Əsgər, – deyirdi, – elə körpəsini götür ki, hələ gözü açılmamış,



heç kəsi tanımamış olsun. Yoxsa 4-5 yaşında götürürsən, bir də görürsən səndən qabaq tanıdığı anası, atası var imiş.

– Kimi istəyirsən götür, nə deyirəm.

Həmin o uşaq ki, Səriyyə xala gətirib doğum evinə atmışdı, onun haqqında xadimə danışanda Badsəba xanım eşitmişdi.

– Haradadı o, mən götürüm saxlayım. Biz elə körpəni axtarırıq.

Xadimə uşağı alıb montyorun evinə gətirəndə bu evdə yaxşıca bir bayram oldu. Badsəba xanım evi təzədən yığışdırdı, sahmana saldı, uşağa xüsusi otaq ayırdı. Məsləhətçi həkim çağırdı. Süd anası tutdu, mağazalardan tapmayanda sandığı açdı, haçandan qalmış handabir ipək, qumaş, pamazı parçaları töküb uşağa növbənöv paltar tikdi. Xadimə: "Ata-anaya həsrətdir", – deyəndə ata-ana ad götürdü. Uşağa Həsrət adı verdilər. Badsəba xanım acı övlad həsrətini körpənin varlığı ilə söndürməyə, şirin vüsala çevirməyə başlamışdı.

Günlər keçir, Həsrət də dünyadan xəbərsiz, öz uşaq aləmilə montyor atasının, dərzi anasının min bir nəvazişilə evdə qayğısız, xoşbəxt böyüyürdü.

Badsəba xanım uşağın həyətdə oynadığını, qaranquş kimi o yanbu yana, top dalınca qaçdığını, bülbül kimi danışıb, kəklik kimi qaqqıldayıb-güldüyünü gördükcə, özünü xoşbəxt hesab eləyir, bütün var-yoxunu Həsrətin yolunda göyə sovurmaqdan çəkinmirdi.

Oyuncaq olmazdı Həsrətə alınmasın, kitab, şəkil olmazdı, otağına gəlməsin. Hər üç gündən, beş gündən bir münasibət tapıb ona qonaqlıq eləyərdilər: "Bu, doğum günüdür." "Bu, Həsrətin musiqiyə gedən günüdür." "Bu, birinci "beş" alan günüdür." "Bu, uşağın ad qoyduğu, bu, diş dəyişdirməsi, bu, bağçaya getməsi günüdür..."

Həsrət altı yaşını bitirməmiş ona cürbəcür rus, Azərbaycan kitabları, təkcızıq, kərpic-kərpic dəftərlər, rəsm cihazı, yazı masası, qəhvəyi portfel, məktəb forması alınmışdı.

Badsəba xanım Həsrəti bir eşq, bir fərəh və sevinc ilə böyüdürdü ki, hər görən həsəd aparırdı.

Həsrətin məktəbə getməyi də ayrı bir tamaşa oldu. Badsəba xanım uşağı haqqında on kərə müəllimə təkrar-təkrar tapşırıb danışmaqdan, deyəsən, ləzzət alırdı. Uşaq da ayıq idi. Deyəsən, müəllimin xoşuna gəl-

mişdi. Onu qabaq sırada əyləşdirdilər. Adını, familini soruşanda hamıdan cəld, ucadan cavab verir, çoxdan təlim görmüş kimi, ciddi durub-otururdu. Xülasə, evdə olduğu kimi, məktəbdə də Həsrət uşaqların, böyüklərin əzizi, istəklisi idi. Montyor Əsgərin evindəki sevinc və səadətin, demək olar, 80 faizi bu gözəl, sağlam uşaq ilə bağlı idi. Həsrət böyüdükcə valideyninin: "oğul", "bala!", "quzum!", "ay ürəyimin bəndi!" kimi sözləri daha çox işlənir, bərk də təsir bağışlayır, ana-bala münasibətlərinə də yaraşırdı.

"Həsrət götürmə uşaqdır, doğma deyil!"

Badsəba xanımın da, Əsgərin də qorxduğu və nifrətlə qarşıladığı dəhşətli söz bu idi. Tanışlar, dostlar, əlbəttə ki, bu sözü ağızlarına almazdılar. Bu sözü uzaqdan eşidən, ailəyə yaxın olmayan, bir qədər də ürəkdən kasıb, quru, duyğusuz adamlar ağızlarına ala bilərdilər. Bunu eşidəndə isə ata-ananın başına qiyamət qopurdu:

– Sən doğum evində olmusan, uşağı öz əlinlə tutmusan, ay həpənd, ay vicdansız?..

– Bilmirəm, axmaq adamlar öz çörəyini yeyib, özgənin niyə sözünü danışırlar. Söhbət başınıza qəhət olub, ay diliyanmışlar!?.

Belə vaxtda Badsəba xanımın qəzəbinin hüdudu olmazdı. Tikiş maşınını mizrab kimi fırladar, qayçını atar, üsküyü götürər, üsküyü atıb, arşını götürər, parçaları qulac-qulac həvəs ilə ölçərdi, az qalardı cırıltısını yeddi qonşu o yanda eşitsin.

Rayonda bu cür "artıq-əskik" söhbət eşitməmək üçün montyor var-yoxunu yığıb-yığışdırdı, şəhərə köçdü.

Badsəba xanımı da "Səliqə" artelində işə düzəltdi. Qulağı dinc yaşamağa başladılar. Həsrət isə indi daha səkkiz yaşına qədəm qoyurdu. Ata da, ana da bərk hazırlıq görür, Həsrətin adına yaxşı bir piano almaq istəyirdilər.

## III

Nazilə Səriyyə xalanın evindən çıxanda, deyilənlər kimi, nə özünü Kürə atmağa, nə də başqa bir oğlana, guya konduktora qoşulmağa gedirdi. Ancaq vağzal tərəfə getməyi doğru idi. O, Nadiri axtarmağa,



sinəsini, ürəyini dolduran ağrıları-acıları ona deməyə, o enlikürək, güclü oğlanın möhkəm qollarından tutub imdad istəməyə gedirdi. Vağzalda hərbi hissələrin adamları, silahları, sursatları ilə maşınlara dolub, kim bilir, haralara, hansı cəbhələrə getdiyini görəndə Nadir haqqında soruşmağa da utanırdı. Belə zamanda bir adamın, xüsusən bir hərbiyəlinin adresi də sirr sayılır, gizli saxlanırdı. İndi kim idi, Naziləyə Nadirdən söz açan, xəbər verən!

Nazilə klub müdirindən bildi ki, cəbhəyə tibb bacıları axtarırlar, orta məktəbdə oxumuşları birinci növbədə yazıb götürürlər.

Nazilə, doğrudur, beşinci sinifdən çıxmış, pambıq yığmaq, fermada mal otarmaqdan macal tapıb oxumamışdı. Ancaq özünü oxumuş sayırdı. Onun fikrincə hərfləri tanımaq, adını yazmaq kənd uşaqları üçün kifayət idi. Xoşbəxtlikdən siyahı tutanlar da vəsiqə istəmədilər, adını, familini soruşub yazdılar və maşınlara doldurub hərbi hissələrə, yaralılara xidmətə göndərdilər.

İndi də qızın qarşısında təzə bir həyat, ayrı bir aləm açılmışdı: hərbi paltar geymiş, ulduzlu papaq qoymuş, zirəkləşmişdi.

Nazilə cəbhədən gələn yaralı vaqonlarında sanitar işləyirdi. Vaqonun birindən düşüb, o birisinə otururdu. Gətirdiyi xəstələri bir-bir təhvil verib kağız almamış, cəbhəyə qayıtmırdı.

Buradan nə dəhşətlər əskik idi! Bəzən bombadan vaqon nədir, qatar od tuturdu. Yaralı ilə dolu silahsız, əsgərsiz vaqonları bəzən faşist təyyarəçiləri qova-qova pulemyota tuturdular. Burada xəstələrə dərman, pambıq, tənzifdən çox silah vermək, səngər düzəltmək lazım olurdu. Nazilə vaqonda xalat geyinsə, beretka qoysa da, bir döyüşçüyə dönmüşdü. Hər bir yaralı əsgəri nəyin bahasına olursa-olsun qorumaq, sağaltmaq əzmində idi.

Döyüş şəraiti Naziləni – nazik, təcrübəsiz köyrək kənd qızını dəmirçi kürəsindən çıxmış qızğın polada döndərmişdi. İndi o, təkcə nadiri yox, yüzlərlə döyüşçünün simasında yeni-yeni nadirləri görür, hamısına qayğı bəsləyir, yaralarını öz əllərilə bağlayırdı. İndi onun qəlbində sadəlövh, ibtidai, kor-koranə romantik eşq hissi ölməkdə, gərgin həyat, bütün ziddiyyəti, mürəkkəbliyi, bəzən amansızlığı ilə insanı izləyən həyat və mübarizə hissi güclənməkdə idi.

Komandanlıqdan aldığı ilk təşəkkürlər, hissənin qabaqcılları sırasında "Qafqazı müdafiə üçün" medalı ilə təltif olunması onda sənətinə həvəs artırmışdı. Komandirin hərbi-tibbi kurslarda oxumaq təklifi onu daha da sevindirdi, imtahan tutmağa, məlumatını kifayət saymasa da, yazıldı və Moskvadakı altı aylıq tibb bacıları kursunda oxumağa getdi. Nadir haqqında soruşmağı, özünü tərk edən bir oğlanı hələ də axtarmağı özünə şikəstlik bilirdisə, uşaq haqqında düşünməkdən də utanır, qısılırdı. Güman edirdi ki, kimsə onun uşaq doğduğunu bilmir və bilməsi də lazım deyil: ölüb-öldürmək vaxtında, igidlərin od-alov içində yanıb külə döndüyü bir gündə bir qundaq uşağı kimin yadına düşəcək, kimə lazım olacaqdı?

Nazilə belə düşünür, sonra da bu düşüncələrdən üzücü bir məyusluq hiss edirdi. Xüsusən, uşağın, üzünə baxmaq istəmədiyi uşağın ilk ağlamaq səsini qulaqlarında təkrar hiss edəndə, ruhu lap pozulurdu. Neçə ay vücudunda sıxıntı, xəcalətlə gəzdirdiyi ağırlığı bir daş, bir yük kimi yerə qoyanda, nə qədər dincəlmişdisə, gözləmədiyi bu səsi eşidəndə necə diksinmişdi! Sanki bu nazik səs ilahi körpənin ana vücudundan ayrılanda çıxardığı ilk nidası idi. Bu nida nələr deyirdi! Atasını-anasınımı, onu bu işıqlı dünyaya gətirməyin səbəbinimi soruşurdu! Bu nida Nazilənin ürəyində, qulağında əbədi bir nisgil olaraq qaldı, heç bir zaman da dilinə gəlmədi. Dilinə gəlmədi, gələ də bilməzdi, çünki həmin nidanı Nazilə eşitmək istəməmişdi, ona biganə qalmışdı. Onu eşitsə, eşitməsə, Səriyyə xala eşidə bilərdi ki, onun da acığı gəlirdi: "Günün qara olmasın, sənin uşağın var! Rüsvay olacaqsan, ay ərkansız, çarə elə!"

"Nə çarə eləyə bilərdim. Çarəm bu idi ki, başımı götürüb qaçdım!" Gəbhə, mübarizə həyatı Naziləyə çox şey öyrətmişdi. İndi o, tamam başqa bir qadın idi. İlk təsəvvürlərinə, sadəliyinə gülürdü. Nazilə nəinki bir uşağın əlində aciz deyildi, hətta belə təsadüflərə möhkəmcə tab gətirməyə, hər işi yoluna qoymağa hazır idi. İndi Nadir ona rast gəlsəydi, utancaq-utancaq dil-dodağını çeynəməz, onun qələm qaşları, iri gözlərinin məftunu, valehi olmaz, kiçilməz, mərdi-mərdana yaxasından silkələyər, uca səslə deyərdi: "Ay şirin dillər tökən vəfasız! Hanı sənin düz ilqarın, hanı sənin peymanların? Hərbiyəlisən axı,





utanmırsan? Bəlkə də əsgər oğlan sağ deyil, cəbhələrdə, müqəddəs torpaqlar uğrunda qanını, canını vermişdir." Bunları düşünəndə Nazilənin isti sinəsindən soyuq bir ah qopurdu. Döşləri anbaan qalxıbdüşürdü. İlk sevginin şirin dəqiqələrini lənətlədiyinə peşman olurdu: "Ölüb, haqq dünyasındadırsa, bağışlayıram. Bəlkə əlacı olmayıb, bəlkə əli çatmayıb. Dava salanın evi tarmar olsun! Bizim nakam eşqimizin binasını o dağıtdı!.."

Nazilə kursdan qayıdanda, baş tibb bacısı adı alanda qələbə günü bayram edilmişdi. Müharibə dayanmışdı. Dayanmışdı, ancaq tibb bacılarının işi qurtarmamışdı. Nazilə də yüzlərlə başqaları kimi hərbi xəstəxanalarda döyüşçüləri müalicə ilə məşğul idi.

Müharibə günlərində qorxulu, fəlakətli olan arxayın düşüncələr, adamların şəxsi həyat qayğıları indi hər kəs üçün tamamilə təbii və qanuni idi. Nazilə hərbi komissarlıqdan öyrənmişdi ki, Rəşidov Nadir Kerçdə, 1941-ci ilin qışında, ilk döyüşlərdə həlak olmuşdur.

Nazilənin ikinci və daha çox nigarançılığı tərk edib getdiyi uşaqdan idi. O vəziyyətdə ki qoyub getmişdi, uşağın tələf olduğu yəqin idi. Yenə necə olsa, bir xəbər bilmək, özünü nişan vermək, ölmədiyini bildirmək üçün kəndlərinə qayıtdı. Səriyyə xalanın vəfat etdiyini biləndə daha da qüssələndi. Ancaq doğum evindəki xadimə ona söz atıb eşitdirirdi ki:

– Uşaq yadına düşürmü?

– İndiyə uşaqmı qalar, xala?

– Atıb gedərsən, qalmaz, bala! Əlbət ki, qalmaz!

– Baisin evi yıxılsın!

– Xalqlar özgə yerdən uşaq götürüb saxlayanda, bizimkilər də qısır inək kimi balasını atır...

Nazilə xadiməyə cavab vermədi. Ötüb getdi.

## IV

Nazilə uşaq haqqında söhbət salmaq istəmirdi, bəlkə də heç salmazdı, bir təsadüf onun qəlbinin közərmiş yaralarını qopartmasaydı.

Hərbi libasını çoxdan çıxarmış, hissədən hazır paltar alıb geyinməkdən yaxa qurtardığına, istədiyi ölçüdə, istədiyi formada paltar sifariş vermək fürsəti əldə etdiyinə çox sevinmişdi. O, bir dəst paltar sifarişinə xəstəxana müdirindən talon alıb "Səliqə" artelinə girdi, parçanı göstərib Badsəba xanımdan xahiş etdi:

– Usta, bu abı şaldan mənə bir paltar ölçün!

Kaş Nazilə heç bu artelin qapısından içəri girməyə idi, paltar sifariş eləməyə idi, eləcə də, bu qapıda qaragöz, girdəsifət uşağa rast gəlməyə idi!

Uşaq cəld qapıdan içəri girib əlindəki bağlamanı ustaya verəndə: "Papam səni mağazada gözləyir", – deyəndə Nazilənin ağzından ixtiyarsız bu söz çıxdı:

– Buy!..

Əlbəttə ki, uşağın gəlişinə, Nazilənin ona göz qoymasına Badsəba xanım da diqqət yetirirdi. Nazilənin ağzından çıxan bu söz, Badsəba xanımı narahat etdi:

– Gözün tökülməsin, yazıqsan! – deyib tez uşağın qabağına keçdi, iki əli ilə başını tutub üzünü qapıya tərəf çevirdi, onu itələyə-itələyə apardı, – Yeri get, deginən bu saat, tənəffüsə çıxan kimi, gəlirəm. Get papanın yanında məni gözlə. Di yeri, durma!

Nazilə dediyinə peşman oldu. Qadının bədnəzərdən ehtiyat etdiyini bilib utandı, marağını güc ilə gizlətdi:

– Usta, deyəsən, oğlundur!

– Bəli!

– Allah saxlasın, yaraşıqlı uşaqdır, Allah saxlasın!

– Allah sizinkiləri də!..

Nazilənin dərdi təzələndi: "Hanı bizimkilər, ay rəhmətliyin qızı! Biz orda ölüb-öldürmə, vur-həşirdə olanda, sizin kimi rahat peşə sahibləri burada həm pul qazanıb, həm də oğul-uşaq sahibi olub... Dava salanın evi yıxılsın!"

Bu qüssəli fikirlər Nazilənin zehnindən bir an içində keçsə də, əsl mətləb keçmədi. O mətləb də bu idi ki, girdəsifət, qaragöz uşaq lap Nadirin surəti idi: qaş, göz, alın, sifət... Deyəsən, bu uşağı böyüdüb Nadir eləyəndən sonra vağzala, Nazilənin bəxtinə göndərmişdilər.



Nadirdir ki, durub!

Nə eləmək, adam adama oxşayar! Anası şübhələnməsə, göz dəyməkdən qorxmasa, Nazilə Həsrəti dayandıracaq, dindirəcək, onunla əylənəcəkdi. Badsəba xanımın qorxusundan bir söz demək, danışmaq mümkün olmadı. Nazilə çox istərdi ki, bu uşağın oxuduğu məktəbi tanısın, getsin orada dayanıb uşağa təkrar-təkrar baxsın, keçən günləri yadına salsın, "o bədbəxti" xatırlasın...

Nazilə ustanın idarəsindən harada yaşadığını, uşağın hansı məktəbdə oxuduğunu öyrəndi və bir gün həmin məktəbə getdi. Təsadüfən müəllimə də tanış çıxdı. Almaz xanım komandir arvadı idi. Nazilə ilə Qızıl Ordu bağında hansı mərasimdəsə görüşüb tanış olmuşdular.

Nazilə müəllimədən xahiş etdi ki, uşaqlara cəbhə xatirələrindən, sanitar işlərindən danışmağa imkan versin. O zaman məktəblilər ilə belə söhbətlər çox olurdu.

Balacaboy, zirək Almaz müəllimə razı oldu:

– Yaralı əsgərin tibb bacısına nə qədər möhtac olduğunu uşaqlar bilməlidir, – dedi. Dərsdən sonra uşaqları kluba yığıb Naziləyə söz verdi.

Nazilə xatirə adına öz başına gələn işlərdən adda-budda dedi, sovet qoşunlarının rəşadətindən, qəhrəmanların hünərindən, faşistlərin əclaflığından məlum sözləri təkrar elədi. Gah durdu, gah oturdu, gah bərk, gah yavaş danışdı. Ancaq bir an olmadı ki, girdəsifət oğlanı yadından çıxarsın. Sözünün axırını şüar ilə qurtaranda uşaqlar şartaşart əl çaldılar. Almaz müəllimə uşaqlara müraciətlə soruşdu:

– İndi kimin Nazilə xanıma sualı var! Barmaq qaldırın, bir-bir hamıya söz verəcəyəm.

Uşaqlar əllərini qaldırdılar.

– Tamilla, de!

– Solmaz, sən de görüm!

– Vaqif!

– Hünər!

Sual-cavabdan sonra Almaz müəllimənin hazırladığı bir pioner qız – Səyyarə kürsüyə çıxıb, Naziləyə təşəkkür elədi, uşaqlar adından söz verdi ki:

– Biz hamımız sovet vətənpərvəri olacaq, Koşevoy Oleq kimi hünər göstərəcəyik...

Məclis axıra çatanda Nazilə Almaz müəllimə ilə çıxıb həyətdə gəzişir, qibtə edirdi:

– Müəllimə, nə gözəl uşaqlarınız var! Bunların arasında işləmək səadətdir!

– Demə, həkim qız, bunların içində elə dəcəllər var, elə nadinclik eləyirlər, gəl gör!

– Necə olsa, bunlarla çalışmaq yara bağlamaqdan yaxşıdır.

– Əlbəttə ki, o barədə!

Nazilə qoltuğunda not çantası olan girdəsifət uşağı axtarırdı. Gözü sataşan kimi geri çəkildi, bir qədər səsini alçaltdı, əli ilə ağzını örtərək, gözü ilə Həsrətə işarə edərək, Almaz müəllimədən soruşdu:

– Bax, bu girdəsifət uşaq kimin uşağıdır? Nə gözəl uşaqdır!

– Hə, Badsəba xanımın oğludur. Həftədə bir dəfə məktəbə gəlməsə, anasının bağrı çatlayar. Ən fəal valideynlərimizdəndir.

– Anasını tanıyıram, dərzidir. Bəs atası?

– Atası, gərək, mühəndisdir, ya texnikdir. Bircə uşaqları var. Deyirlər, piryutdan gətiriblər. Amma heç doğma uşağa elə baxmazlar ki, bunlar baxır.

– Elə uşağa necə baxmayasan!

– Uşaq da ağıllıdır. Bizdə dəcəllər də var, amma ağıllı, mərifətli uşaqlar çoxdur. Dava vaxtına baxmayın. Onda camaatın məşğul olmağa imkanı yox idi. İndi bizdə valideynlər şurasının işi məktəb şurasının işindən az deyil. Məktəb səhərciklərimiz olur, bir zəhmət çəkib, iştirak edəsiniz, xoşunuz gələr.

Almaz müəllimənin tək bircə “piryutdan gətiriblər” sözü Nazilənin şübhəsinə varaqlar, varaqlar yox, kitablar açdı. Nazilə yəqin elədi ki, uşağı tələf olmayıb, həmin girdəsifət uşaq atasının – “o ilqarsızın” uşağıdır. Bunu yoxlamaq lazımdır, dalınca düşmək, mütləq yoxlamaq lazımdır.

Həmin söz Nazilənin qəlbində nə işıqlı cığır açmışdısa, Badsəba xanımın qəlbində təlatümə səbəb oldu...

...Həmin sözdür ki, altı aydan bəri hər iki ailənin həyəcan və intizarını həddən aşırmış, yediyini-içdiyini zəhərə döndərmiş, 4-cü sahə xalq məhkəməsində dindirmə, mühakimənin də bu qədər uzanmasına səbəb olmuşdu. Əvvəl Nazilə belə söhbəti salanda Badsəba xanım bərk acıqlanmışdı:



– Siz bura paltar sifariş verməyə gəlmisiniz, ya xalqın ailə işlərinə qarışmağa revizor gəlmisiniz?

– Mən heç vaxt ailə işlərinə qarışmaq istəmirəm, maraqlandığım bir məsələni aydınlaşdırmaq istəyirəm.

– Siz nə haqq ilə mənim övladımı yada çıxarmaq istəyirsiniz?

– Mən bilmək istəyirəm, doğrudan da, Həsrət sizin doğma övladınızdırmı?

Badsəba xanım bu sözü eşidəndə pul kimi qızardı və əllərini yanına salıb bərkdən danışdı:

– Vətəndaş, xahiş edirəm, çölə çıxasınız, bizi əsəbiləşdirməyəsiniz. Biz iş adamıyıq!

Nə Badsəba xanım, nə Əsgər, nə də dünyanın bir çox işlərindən bixəbər olan Həsrət istərdi ki, belə bir söhbət açılsın. Ancaq Nazilə əl çəkmədi, getdi-gəldi, yazdı, danışdı, şikayət elədi, nəhayət, onun iddiası məhkəmə prosesində dinlənməli, mühakimə edilməli bir mətləb oldu.

Görək Həsrət həqiqətdə kimin uşağıdır? Naziləninmi, Badsəba xanımınmı?

Kənddən şahidlər çağırıldı, vəsiqələr istənildi, Nadirin hissəsindən məlumat alındı, Səriyyə xalanı görən, eşidənlər dindirildi, uşağın qanı, anaların qanı təhlilə getdi. Həsrətin taleyi şəhərdə maraqlı söhbət oldu. Məhkəmə üzvləri tənəffüs zamanı istirahət otağında oturub danışırdılar. Biri deyirdi:

– Mənim bu tibb bacısına yazığım gəlir.

O biri deyirdi:

– Mən isə Badsəba xanıma acıyıram, doğrudan acıyıram.

Üçüncüsü deyirdi:

– Mən hamıdan çox uşağa heyifsilənirəm, uşağa!

Hər birinin də öz aləmində əsası və sübutu var idi.

Birinci ona görə haqlı idi ki, Nazilə çox əzab-əziyyət çəkib. Dava

vaxtında, iki-üç yüz qram qara çörək verilən zamanda atasız, anasız, ərsiz, başsız qalan 18 yaşlı bir qız nə edə bilərdi? Yaxşı ki, özünü orduya salıb, xeyirli iş görüb. Uşağını atıbsa da, cəbhəçiləri tutub, neçə-neçə yaralıları sağaldıb. İndi də doğma uşağına sahib olmaq üçün nə çətin, nə ağır mübarizələrə qatlaşmalı olub.

İkinci də ona görə haqlı idi ki, Badsəba xanım hər uşağı hər zaman götürməzdi. Yüz dəfə ölçüb-biçəndən, götür-qoy eləyəndən sonra qundaqdakı uşağa bala deyib qəbul etmişdi, illər boyu nə naz-nemət ilə böyüdüb məktəb məqamına gətirmişdi. Bütün övlad məhəbbətini, gələcək arzusunu da o girdəsifət, qaragöz uşağın başına cəmləmişdi. Birdən-birə ona: "Bu ümidindən, arzundan əl çək!" – demək, ölümə bərabər, bəlkə də bir az artıq idi! İndi o, illər uzunu əməyin həsrətini, qəlbinin günü-gündən böyüyən, danışan sevincini birdən-birə necə xəzri küləyinə versin? Məhkəmədə necə daşürəkli adam olur-olsun Badsəba xanıma belə təklifi edə bilməz və etməz də! Məcəllə maddələrilə yanaşı bir canlı insan, insan qəlbi, həyat hökmü də var axı!

Məhkəmənin üçüncü üzvü uşağa heyifsilənirdi. Onun da haqqı var idi:

– Bu yaşda, yeniyetmə, ata-ana nəvazişi ilə böyüyən bir uşağa demək ki, bunlar – indiyəcən səcdə etdiklərin sənin yalançı ata-anandır, onun bütün sevincini, arxasını, inamını uçurmaq, alt-üst etmək deməkdir. Belə söhbəti Həsrət yaşda uşağa demək, danışmaq olmaz, heç olmaz!

Xülasə, iclasçıların vəziyyəti mühakimə olunanların vəziyyətindən heç də yaxşı deyildi. Burada çox mətləblər aşkara çıxarmaq, çoxlarına qarşı ittiham qaldırmaq, bəzilərinə də afərin demək olar. Ona görə də mühakimə uzanır, qaranlıq nöqtələrin hamısı aydınlıq, aşkar, həqiqət işığı tələb edirdi.

Həsrət Naziləni yaxın qoymurdu: "Ana, bu arvad məktəbdə mənim dalımca gəzir." "Ana, bu arvad tutub mənim üzümdən öpdü". "Mən bu arvaddan qorxuram!.."

Ona Naziləni bir ana kimi təhvil vermək çox çətin, bəlkə faciəli bir iş olardı. Ana kimi müqəddəs bir xilqət haqqında uşaqda indiyəcən yaranan təmiz təsəvvürlər kirlənib puç ola bilərdi. Məhkəmə sədri Naziləni təhlili suallarla qısnaşdıranda tamamilə haqlı idi:

– Necə anasınız ki, övladı bir qadının evinə atıb qaçırsınız? Necə anasınız ki, bu səkkiz ilin müddətində uşaq ilə bir dəfə də maraqlanmırsınız? Kim sizə uşaq böyütməyə borcludur? Analıq hissiniz var idisə, büruzə verməli idiniz! Yalnız bioloji, fizioloji faktorlar analığı sübut üçün kifayət ola bilməz. Ana böyük, təmiz, müqəddəs bir addır. Ana olan, övladı üçün hər cür iztirab və məhrumiyyətlərə dözməlidir. Yalnız özü üçün deyil, həm də övlad üçün, ictimai tərbiyə üçün yaşamalıdır!..

Badsəba xanım məhkəmədə bütün böyük simaların kitablarından, sözlərindən, sovet qanunlarından misal çəkib uca səslə iddia edirdi ki: "Nazilənin Həsrətdə analıq haqqı olmamışdır. Uşağın həqiqi anası mənəm və mən də olmalıyam. Nazilə ancaq uşağa iftixar haqqı bəsləyə bilər. Hərçənd uşaq onu görmək istəmir, ancaq bu iftixar haqqından mən onu məhrum etmirəm, gəlib-gedə bilər, uşağa istədiyi nəvazişi mənim icazəmlə göstərə bilər, Həsrət isə mənim doğma balamdır, canım-ciyərimdir!"

İkinci iclasçı soruşurdu:

– Nazilə xanım, tutaq ki, bu uşaq özü də, fərz edək, razı oldu və siz bunu apardınız. Axı haraya aparacaqsınız? Bəyəm siz Badsəba xanım kimi qayğıkeş bir ananın qucağından, təmiz bir ailənin şəraitindən yaxşı yerə aparacaqsınız onu?

– Mən ona yaxşı şərait düzəldərəm.

– Bağışlayın, bağışlayın! Sizin birinci şəraitiniz onu həqiqi, mən bunu bütün inamımla deyirəm, həqiqi valideyndən məhrum etmək olacaq. İkinci şəraitiniz onu ögey ata yanına salmaq olacaq.

– Mən ərə getməyəcəyəm!

– Daha pis! Başqa kişilər arasına salmaq olacaq. Üçüncü şəraitiniz: uşağın qəlbində ana kimi müqəddəs bir xilqət haqqında dumanlı, bəlkə də namünasib təsəvvürlər oyanmasına bais olmaq... Dördüncü şərait...

– Mən Badsəba xanımın çəkdiyi xərcləri ödəsəm, necə?

Badsəba xanım təhqir olunmuş kimi yerindən qalxdı, məhkəmə sədrinə müraciət etdi:

– İcazə verin!..

– Sakit olun, bacı!

Məhkəmə sədri üzünü Naziləyə tutub dedi:

– Vətəndaş Nazilə, gərək sizə məlum ola ki, dünyada elə mənəvi aləm, hisslər, fikirlər, təsəvvürlər aləmi var ki, alım-satıma, tərəziyə girməz! Badsəba xanım iftixara layiq həqiqi anadır. Onun bu müqəddəs əməyinə heç bir sərvət əvəz ola bilməz. Sizə də belə bir mizan-tərəzi gətirməyi məsləhət görmürəm. Həsrət onun oğludur, sizin həmin uşağın dünyaya gəlməsindəki haqqınızı danan yoxdur. Həsrət özü bir zaman hiss etsə ki, siz də ona həqiqi analar kimi anasınız, nə eybi var, daha yaxşı!

– Bəs mənim doğma uşağım mənə düşmür?

– Siz onu qundaqda küçəyə atıb gedəndə Badsəba kimi qayğıkeş, həqiqi analar olmasaydı, uşaq məhv ola bilərdi, ya yox?

– ...

– Soruşuram: uşağın salamat qalmasına nə əsas var idi?

– İndi ki, görürük, salamat qalıb!

– İcazə verin, onu böyüdən, bəsləyən, salamat saxlayan analar başını uca tutsun, kefə-ləzzətə uyub analıq vəzifəsindən uzaqlaşanlar, hazırına nazir olanlar yox!..

*1960*



# DAĞLARIN QƏLBİ

Nuxadan yuxarılara, dağlara doğru dırmaşdıqca quru və ya çəmən yerlər azalır, meşəlik, cəngəllik çoxalır.

Qafqaz dağlarının cənuba sallanıb gələn ətəklərində hər qarış yer yaşıllıq, kolluq, ağaclıqdır. Göyün vüsətini yerə, yerin qüdrətini göyə göstərən zümrüd gözlü şamlar baş-başa verir, günəşdən nur, torpaqdan qürur alır, ətrafa sağlamlıq yayırlar. Ağaclar, otlar arasından, hər addımda sağa-sola burulan nazik cığırlar içindən həzin bir şırıltı eşidirsiniz. Əvvəlcə göyə baxır, ağac başında hansı bir quşun səsləndiyini güman edirsiniz. Diqqətlə fikir verəndə kollar altından bulaq suyunun işıldadığını, şırıldadığını görürsünüz. Bu sular nə qədər təmiz, duru, nə qədər də sərin olur! Buralarda elə kənd olmaz ki, bu cür bulaqları ilə fəxr eləməsin, elə kəndli olmaz ki, yayın istisində, beşdə-üçdə bir, işini qurtarandan sonra uşaqlarını başına yığıb bu yerlərə dincəlməyə, süfrə açmağa, kabab yeməyə gəlməsin.

Qutqaşen həmin yerdə, dağ yamaclarında, meşəliklərdə salınmış iri bir kənddir. Burada palıd, qoz ağacları göyün bir qatına çəkilib gü-

nəşdən daha çox faydalanmağa cəhd edirlər. Əsasən isti yerlərin qızmar yay günəşinə həsrət çəkən üzüm tənəkləri isə uca ağacların möhkəm gövdəsinə söykənərək, yuxarılara dırmaşır, günəş axtarmağa gedir, budaqların lap başından salxımlarını sallayır, işıqda bərq vuran gilələrilə sanki gəlib-gedəni çağırır.

Ancaq nahaqdır, çünki 10-15 metr hündürlüyündə ağac başından üzüm salxımlarını dərməyə hər adamda həvəs və hövsələ çatmır. Salxımlar budaqda o qədər qalır, qızarır ki, axırda payızda sərçə, qazalağa yem olur...

Bu kənddə mənimlə haqq-salamı olan çox səliqəli bir arıçının danışdığı tarixi bir hadisəni sizə söyləmək istəyirəm.

## I

Əhvalat keçən əsrin ortalarında Şamilin dəstəsi ilə rus qoşunlarının vuruşduğu illərə, günlərə aiddir. O zaman bu dağ kəndlərinin çoxu döyüşə meydan olur, tez-tez əldən-ələ düşür, gah dağlıların, gah çar kazaklarının ixtiyarına keçirmiş. Əhali isə bitib-tükənməyən vuruşmalar şəraitindən təngə gəlirmiş. Belə vuruşmaların birində sağa-sola vıyıldayan küləklərdən qorunan, payız axşamı öz həyatinə çəkilən bir kənd qadını çardağında hərəkət duymuşdu. Duymuşdu, ancaq qorxudan yoxlamamışdı. Bir istəmişdi, "Adam var", – deyə hay salıb, qonşuları töksün, bir də fikirləşmişdi ki: "Qalmaqal nəyə lazım, əvvəl bir özüm baxım!"

Ehmalca nərdivana çıxıb, kirəmitin altına nəzər salanda qadını heyrət götürmüşdü: tüfəngli, qatarlı, sarı bir soldat çardaqda oturub o yan-bu yana baxır, döyükürdü. Qadın qayıtmaq istəyəndə soldat şəhadət barmağını dodaqlarına qoyub "sus" işarəsi verdi, sol əli ilə xaç çəkib göyə baxdı.

Qadın tələsik qaçıb aşağı düşdü, bilmədi neyləsin. Bu saat kənddəkilərə xəbər vermək, soldatı tutmaq lazım idi. Qadın bunları düşündü, amma dilinə gətirmədi. Durduğu yerdə donmuş kimi qalmışdı. Bir də qorxudan qayıdıb çardağa baxdı. Baxdı ki, "gavur" onu vurmaq istəyir, ya yox? Soldatdan bir hay-hərəkət görməyəndə ürəyinə ayrı bir fikir, tamam ayrı bir şey gəldi: "Deyəsən, ləzgidən gizlənib, atışmadan gizlənib..."

Qadının zənni doğru idi. Hökumət qoşunları atışa-atışa geri çəkiləndə soldat burada gizlənməyə fürsət tapmış, qaranlıq düşməyini gözləmişdi.

İndi qadının ondan xəbər tutduğunu görəndə, tapançasının tətiyini çəkib gələnlər ilə atışmağa hazırlaşmışdı. Yəqin etmişdi ki, xəbər tutacaq, onu salamat buraxmayacaqlar. Belə vəhşi bir yerdə əsir düşmək də kişilikdən deyil. Son gülləyə qədər vuruşmaq lazımdır. Qadın nə qədər soldatdan vahimələnmişdisə, soldat da qadından şübhələnmişdi. Soldat da, qadın da intizar və həyəcan içində bir-birini gözləyirdi. Qadın güman edirdi ki, soldat burada dinc durmayacaq, yaxına gələnləri vuracaqdır. Soldat da güman edirdi ki, qadın bu saat xəbər verəcək, ləzgiləri buraya tökəcəkdir.

Ancaq yarım saat, bir saat keçdi, tərəflərin heç birindən xəbər çıxmadı. Qadın bir də boylanıb çardağa baxanda soldatın işarə ilə su istədiyini gördü. Soldat boğazını göstərib, dilini çıxarırdı. "Yanıram."

Qadının qəlbindəki vahimə və həyəcan dərhal mərhəmətə çevrildi. "Ay yazıq!" Qaçıb saxsı kuzədə su apardı. Soldat kuzəni alan kimi, qurt-qurt başına çəkdi. Təşəkkür əlaməti olaraq göyə baxdı, sonra da qadına baş əydi. Qadın qayıdıb evdən fətir çörəyi apardı. Soldat çörəyin o yan-bu yanına baxıb parçaladı, ağzına qoydu. Əli ilə ətrafı göstərib nəsə soruşdu. Qadın başa düşdü ki, o, qoşunundan ayrılıb, azıb, yol axtarır.

Əli ilə işarə edib, soldata: "Yaxşı, yaxşı!" – dedi.

Gecəyarısı, el yatandan sonra çardağın dal qapısını açıb "qonağı" düşürtdü, köhnə bir yapıncı verdi ki, bürünsün, tanınmasın. Özü də qabağına düşüb kəndin kənarına qədər yola saldı, arana gedən yolları göstərib qayıtdı:

– Buradan, meşənin içindən paşol!

– Spasibo, mamaşa!

Bəzi kənd qadınlarının ağzıaçıq olur. Amma ağzıbütöv, möhkəm, söz saxlayanı da çox olur. Dağlı qadın bu sirri bir kəsə demədi, deməyi

lazım bilmədi.

Bu hadisədən beş ilmi, altı ilmi keçmişdi, bilən yox idi. Ancaq dava da yatmışdı. Şamil tutulmuş, qoşunları dağılmış, qalanlar da silahı töküb təslim olmuşdu.

Bildiyimiz kəndə atlı bir general gəlib həmin evin qabağında dayandı, ev sahibini soruşdu.

Bir nəfər şələpapaq kişi çıxıb salam verdi:

– Nə buyurursunuz?

– Ev sahibini istəyirəm.

– Ev sahibi mənəm – Mürsəl Naib oğlu. Buyurun, qonağımız olun!

– Burada bir qarı yaşayırdı.

– Necə, bəyəm, cənab?

– Bir beş-altı il əvvəl.

– Bəli, anam yaşayırdı.

– Onu zəhmət çək bir çağır.

Şələpapaq kişi başını aşağı salıb məyus bir səslə cavab verdi:

– Allah rəhmətinə gedib, cənab! Siz onu haradan tanıyırsınız?

General tez atdan düşüb papağını çıxartdı, evin qabağında xeyli sükut ilə dayandı.

– Mürsəl, – dedi, – sənin anan mənə çox yaxşılıq eləyib, onu bilirsənmi?

– Xeyr, bilmirəm, cənab qonaq.

– O çox yaxşı adam idi, Allah rəhmət eləsin! Sən onun böyük oğlusanmı?

– Xeyr, cənab, kiçik oğluyam.

– Bəli, o mənə çox yaxşılıq eləyib, ölümdən qurtarıb. Düş qabağıma, apar məni onun qəbrinin üstünə!

Mürsəl arabanı qoşdu. General da atını qapıda bağlayıb arabada, ot üstündə oturdu. Dağın döşündəki qəbiristanlığa getdilər. Qadının balaca bir başdaşı qoyulan kiçik qəbrini Mürsəl, generala göstərdi. General təkrar başını açıb xaç çəkdi və xeyli dayandı.

Qohum-qardaşları, yaxın qonşuları generalı görüb Mürsəlin dalınca gəlmişdilər. General onlara üz tutub sözünü təkrar elədi:

– Mürsəlin anası yaxşı adam idi, məni çardaqda gizlədib ölümdən



qurtaran o olub. Mən istəyirəm, bu yaxşılığın xəcalətindən çıxam. Hərçənd, bu yaxşılığa əvəz eləməyə mənim bacarığım yoxdur, ancaq əlimdən gələni eləmək istəyirəm, siz buna nə deyirsiniz, dağlı vətəndaşlar?

– Allah razı olsun, qonaq sağ olsun!

General kəndin ağsaqqalını soruşdu. On dəqiqə çəkmədi ki, gödək, çuxalı bir kişini çağırıb gətirdilər. General əl verib görüşdü və çuxalı kişidən soruşdu:

– Qoca, məndən nə xahişin var, istə!

Çuxalı kişi bir addım geri çəkilib camaatı göstərdi:

– Hörmətli qonaq, bunların hamısının xahişi budur ki, kəndimizə su gəlsin. Sudan korluq çəkirik, gedib kuzə-kuzə dağlardan gətiririk.

General bu sözü eşidəndə çardaqda içdiyi sərin suyun ləzzəti bir də damağında canlandı:

– Dil-dodağım yananda sizin kəndlilər mənə su verib, qoca, bunu mən unutmaram.

General cibindən dəftərini çıxarıb kişinin dediklərini yazdı.

– Daha nə xahişiniz var?

– Bir bu! Kəndə su çəksəniz, ömür boyu hamımız sizə duaçı olarıq, cənab qonaq!

General üzünü çuxalı kişiyə tutub dedi:

– Qoca, mənim də sizdən bir xahişim var.

– Buyurun, müzayiqə yoxdur, buyurun!

– Kəndinizdə məktəb var, uşaqlar oxuyurmu?

– Xeyr, bizdə oxumazlar. Bizim uşaqlar dağda-daşda, qoyundaodunda, ovdadır. Bizdə oxumazlar.

– Bilirəm, burada məktəb yoxdur. Oxumaq da yoxdur. İndi mən sizdən xahiş edirəm uşaqlarınızdan bir nəfər mənə verəsiniz, aparım şəhərdə oxudum. Oxudum öz xərcim ilə, sonra göndərim sizin kənddə işləsin, camaata xeyir versin. Ağsaqqal buna nə deyir?

Generalın bu sözünə çuxalı kişi heç nə demədi. Başını aşağı saldı, xeyli düşündü, sonra dönüb kəndlilərdən soruşdu:

– Nə deyirsiniz? Qonaq bizə yaxşılıq eləyir. İstəyir ki, bizdən də oxuyan çıxsın. Bir nəfər uşaq verək, aparsın oxutsun. Necə, kimi məsləhət bilirsiniz?

– Uşağından keçən hanı?

– Kim verər?

– Gedən olmaz!

– Biz uşağımızı kənara buraxmarıq!

– Qonağı başa sal ki, su çəksə bəsdir, sağ olsun, oxuyası uşağımız yoxdur! Bizdə Quran oxuyurlar, urus dərsi yox!

Kim idisə, üzünü səs gələn tərəfə tutub acıqlandı:

– Sarsaq danışma, əyə, adam var!

Çuxalı kişi istədi qonağa cavab versin. Nə fikirləşdisə, bir də camaata üz tutdu:

– Vacib deyil ki, sənin–mənim uşağım olsun. Sahibsiz uşaq olsa da, oxuyar, şəhər yeridir. Qoy aparsın, paltarını, çörəyini versin, özünü də oxutsun. Küçələrdə uşaq azdır?

– Həmzətin nəvəsi.

– Getməz!

– Səlimin oğlu, atası da çoxdan ölüb.

– Anası buraxmaz!

– Bizim kənddə yox, Bərəlidə bir keçəl uşaq dilənir, onu gətirin verək.

– Keçəl İsmayıl!

– Keçəli aparmaz.

– Niyə aparmır, şəhərdə doktora nə gəlib!

– Doktor-zad uzun işdir. Bu kişi təmiz adam istəyir.

– Şəhərə gedəndə, əlbəttə ki, hamamda çimib təmizlənəcəkdir.

– Əşi, çağırın, verin getsin. Uşaq olsun! Niyə aparmır, elə aparar ki... Soldat eləyəcək də!

Sabahı gün Bərəlidən gətirilən keçəl uşağı atın tərkinə mindirib aparanda Mürsəl də, başqa kəndlilər də dalınca çox dayanıb baxdılar. Bilmədilər general kirli–pasaxlı uşağı necə saxlayacaq, necə oxudacaq...

## II

Bu hadisədən on il sonra kəndin həmin yerində, həmin çardağın qabağında keçmiş generalın atına oxşayan qaşqa bir kəhər dayandı. Üstündəki atlı da düşüb Mürsəli axtardı. Mürsəl qocalmışdı. Çiyninə ağ kürk salıb qapıya çıxdı:



– Mürsəl əmi, xoş gördük, məni tanıyırsanmı?

Atlının ana dilində danışmağı kişini heyrətə saldı: "Bu rus deyilmiş. Bu libasda müsürman görməmişəm."

– Qardaş oğlu, sən kimsən? Bağışla, gözümə tanış gəlirsən, amma bir az qocalmışam, seçmirəm.

– Necə olur ki, keçəl İsmayılı tanımırsan, ay Mürsəl kişi!

Mürsəl kişi quruyub qalmışdı:

– Ay səni, düzünü de, sənsənmi? İsmayılsanmı?

– Yəqin, deyirsən, keçəl İsmayıl hara, kəhər at hara, paqon hara? Zəmanə belə dəyişib, ay Mürsəl kişi. Sənin qonağın mənə atalıq eləyib, onu bilirsənmi?

– Qonağımız hayandadır?

– Odur ey, Varşavada hərbi məktəb rəisidir. Məni bir aylığa məzuniyyətə buraxıb. Gəlmişəm kəndimizi görməyə, sizinlə görüşməyə.

– Əşi, nə danışırsan! Ay xoş gəlmisən, düş aşağı, atı bəri çək, həyətə!

– Gəlmişəm özüm kimi yetim-yesir uşaqlardan aparam orada oxumağa. Tapa bilərəmmi?

– Yaşım keçməsəydi, vallah, mən özüm də gedərdim. Oxumaqdan yaxşı dünyada nə var!

Həmin gün kəndə hay düşdü ki: "Keçəl İsmayıl general olub gəlib!"

Eşidən Mürsəl kişinin evinə qaçır, "müsürman generalı" görməyə tələsirdi. İsmayılı yaxşı tanıyanlar onu bu libasda görəndə gözlərinə inanmır, yaxına gəlir, qolundan tutub ərk ilə dindirirdilər:

– Necə oldu, ay İsmayıl, səni general özü oxutdu, ya nə cür?

– Hərbi məktəb var. Orada yüzlərlə adam oxudurlar, biri də mən.

– Bizim uşaqları da buraxarlarmı?

– Niyə buraxmırlar.

– Çaxır içməsən də, qoyarlarmı?

– Donuz əti yedirtmirlər ki?

– Əşi, kefin nə istəyir ye, kimə nə borcdur. Təki hərbi təlimi yaxşı öyrən, adam kimi xidmət elə! Qalan şey ötüşər.

Keçəl İsmayılın adı "General İsmayıl" oldu. Hətta deyirdilər İsmayıl özü öz kəndlərindən, keçmiş günlərdən, ağaların, nökərlərin işindən bir kitab yazıb, həmin kitabı ana dilində çap etdirməyə yer axtarır.

Kəndlilər isə həsrətlə bir-birinə deyirdi:

– İsmayılın kitabı gör nə cür olar ha!

– Onu oxuya bilən savadım olaydı!

– Hər adama qismət olmaz!

*1960*



# ZƏHMƏT, AĞIL, BƏXT

## (Nağıl kimi)

Yamacda, qara torpaqda kotan sürən bir kişinin başında mübahisə düşdü.

Bəxt dedi:

– Əkinçini dolandıran mənəm, mənsiz o yaşaya bilməz, hayana dönsəm, ruzi gətirirəm.

Ağıl dedi:

– İndi ki belədir, biz çəkilək kənara, tamaşa eləyək, görək əkinçini sən necə dolandırırsan.

Ağıl da, Zəhmət də kənara çəkildi. Bəxt işə başladı.

Birdən kotanın qabağına küpə dolusu qızıl çıxdı. Əkinçi qızılları görcək üzünü turşutdu.

– Bu zəhrimar da kotana mane olur. Bir adam olsa küpəni verərdim, çıxıb gedərdi.

Ətrafına göz gəzdirdi, əl eləyib yoldan keçən atlını çağırdı ki, küpəni ona versin. Atlı əkinçiyə yaxınlaşanda Ağıl qayıtdı öz yerinə – kişinin başına. Əkinçi təlaşa düşdü, dizinə döydü:

– Mən nə axmaq iş görürəm! Qızılları yoldan ötənə niyə verirəm, bunlar mənim ölümə də, dirimə də bəsdir. Lənət sənə, kor şeytan! Gör məni necə aldatmaq istəyir!..

Əkinçi fikirləşməyə macal tapmamış, atlı gəlib yetişdi, salam verib soruşdu:

– Əkinçi qardaş, işin avand olsun! Mənə aid nə qulluğun var? İşində çətinlikmi çəkirsən, yoxsa şəhərə bir sifarişin var, vermək istəyirsən?

Əkinçi dedi:

– Atlı qardaş, bir sifarişim-zadım yoxdur, sözüm var, səndən soruşuram, de görüm: bu Boz öküz Ala öküzün nəyidir? Bunlar necə qohumdurlar?

Atlı təəccüb elədi: "Deyəsən bu kişi dəlidir!"

– Bu nə sözdür, soruşursan? Öküzlər sənin, mən haradan bilirəm ki, bunlar necə qohumdur. Bir də bunun nə mənası var?

Atlı dönüb gedəndə Ağıl yenə əkinçinin başından çıxdı. Bəxt qızılları əkinçinin gözü qarşısında parıldatdı. Əkinçi atlını təkrar çağırdı ki, küpəni versin. Atlı təkrar qayıtdı. Ağıl yenə yerinə gəldi ki: "Ay qafil adam, nə eləmək istəyirsən? Heyifdir qızıllar!"

Atlı əkinçiyə yaxınlaşanda soruşdu:

– Qardaş, nə deyirsən, məni niyə yoldan eləyirsən?

Əkinçi xəcalət çəkdi, bilmədi nə desin, irəli yeriyib öküzləri göstərdi:

– Ay rəhmətlik oğlu, nə böyük məsələ soruşdum ki, cavabında aciz qaldın! Bax, bu Boz öküz Ala öküzün doğma bacısı oğludur. Görmürsən boyu balaca, özü cavan? Aşkar görünür ki. Nigaran getmə, bunu öyrən!

Atlı başını bulayaraq, dönüb getdi. Ağıl öz hünərindən dəm vuranda, Zəhmət dedi:

– Bəhsəbəhs eləməyə vaxtım yoxdur. Əkinçini dolandırın, mən getdim.

Zəhmət kənara çəkiləndən sonra Əkinçi dizlərini qucaqlayıb oturdu, öküzlərin gövşəməsinə tamaşa elədi:

– Yaxşı ki, atlını yola saldım, yaxşı ki, qızılları vermədim, özüm aparıb xırdalayaram.



Durmaq istəyəndə gördü, yox, nə qıçlarında taqət, nə əllərində kirdar var. Axşamacan çömbəlib bir yerdə mürgülədi, öküzlər də yatdı.

Bəxt qızılı göyə sovurub parıldadırdı. Ağıl bunları dönə-dönə sayır, xərcləməyə yer, çarə axtarırdı. Əkinçi yerindən tərpəşmək istəyəndə kirdarı gəlmirdi...

Ağıl gördü kişini də, öküzləri də gecə burada canavar yeyəcək. Zəhmətə yalvarıb dedi:

– Gəl, qardaş, gəl, əkinçinin gün-güzəranı sənsən. Sənsiz bir günümüz olmasın! Gəl işin üstündə ol!

Zəhmət yerinə keçən kimi, əkinçi cəld ayağa qalxdı. Kotanın əlcəyindən tutub öküzləri hayladı:

– A ceyran, nə durmusan, zəmi yarımçıq qaldı. Hay Maral, güc vur, bu torpaq laylarını qaldıraq! Ha, belə ha!...

Əkinçinin işləri əvvəlki sahmanına düşdü. Zəhmət ağalığında torpaq bol məhsul verdi, kişinin özü də, balaları da yaxşı güzəran keçirtdilər.

*1960*

# HAVAPƏRƏSTLƏR

Həkim, Əsədə tapşırmışdı ki:

– Sizin müalicəniz dəniz havasıdır. Gündə iki-üç saat sahildə əyləşin, əsəblərinizi dincəldin. Ayrı dava-dərman lazım deyil.

Əsəd kahallıq eləsə də, arvadı hər gün işdən sonra kişisini hökmən hava almağa göndərərdi.

Məlumdur ki, hava almağa bir Əsəd yox, çoxları gəlir. İşdə, idarədə tapışmayan, görüşməyən adamlar, görürsən, hava sevdasında birləşirlər:

– A balam, hardasan? Çoxdan axtarıram ki, sözümü sənə deyəm, hirsimi soyudam, yaxşı keçmisən əlimə!

Şamxal dişinin dibindən çıxanı Əsədə, Əsəd də ağzına gələni Şamxala dedi. Hava yaddan çıxdı, iki tanış giley-güzardan doymadılar. Adi halda dilindən kirayə istəyən, dinib-danışmayan bu naxoşlar əl-qollarını ölçərək, elə qayımdan, elə hirs ilə deyişirdilər ki, deyərsən, bu saat əlbəyaxa vuruşacaqlar...

Əsəd havadan qayıdanda özünü güc ilə çarpayısının üstünə salır.



Arvadı təəccüb eləyir:

– Kişi, sənə nə olub?

– Havadan qayıdıram.

– Bəs niyə belə taqətsiz olmusan, döyüşdən çıxana oxşayırsan?

– Dənizin havası, deyəsən, korlanıb.

– Mazıta, üfunətə rast gəlmisən, nədi?

– Mazıt yox, Şamxala rast gəldim. O dedi, mən dedim, mən dedim, o dedi. Axırda cin vurdu başıma, heç bilmirəm, nə demişəm, nə deməmişəm...

– Dənizin də havasını siz korlayırsınız. Bir də səni havaya buraxsam!..

– Havanı havalığında qoyurlar ki... Zəhər qatırlar!

O gündən sonra sahildə bu tanışları görən olmadı. Əsəd Şamxaldan, Şamxal da Əsəddən ehtiyat edib havadan əl çəkdilər.

*1960*

# KƏHƏRİN SON GÜNLƏRİ

Bir zaman yeriyəndə yer titrər, kişnəyəndə göy gurlardı. Hanı vuruşma meydanları, hanı ötüşmələr, hanı igid süvarilər, pəhləvanlar, qılınc, qalxan şaqqıltısı!?

Çiynimdə Rüstəmi Rüstəm eləmişəm, Suvorovu Karpatlardan keçirmişəm, Koroğlunun silahdaşı olmuşam, Napoleonu yer üzündə gəzdirmişəm, süvari ordusunda neçə-neçə cəbhələr yarmışam, hünərlər göstərmişəm. Gör indi iş hara çatıb ki, məni gətirib əyləncə arabasına qoşublar, cilovumu uşaqların əlinə veriblər...

Ay namərd dünya! Mənə etibarsız deyirdilər, gör indi hər qamçısında on addım sıçradığım süvarilər halımı soruşur ki, kəhər necə oldu, harada qaldı?..

Kəhərin ürəyindən keçən həsrətləri, deyəsən, sovxoz müdiri eşitmişdi. Tülkülük fermasının təsərrüfatçısını çağırdı:

– Tülkülərə sabah nə verəcəksən?

– Srağagün şəhərdən iki yaralı at gətirmişdim, yeyib qurtarıblar.

– Kəhər də işdən düşüb, qoşulmağa taqəti qalmayıb.



– O, tülkülərin naharını görər.

– Apar doğra, qoy yesinlər!

Səhərisi kəhərin hər parçası, hər sümüyü bir tülkünün dişlərində çeynənirdi. Kəhərin hər parçasından bu şikayətlər səslənirdi:

– Rüstəmi Rüstəm eləyən mən, Suvorovu Karpatlardan keçirən mən, Koroğlunun silahdaşı olan mən, Napoleonu yer üzündə gəzdirən mən, tülkülərə yem olan da mən!.. Ay namərd dünya!

Tülkülər bu şikayəti eşidirdimi, eşitmirdimi, o məlum deyil. Məlum olan budur ki, kəhərin ətini çox iştahla yeyir, sümükləri tərtəmiz eləməmiş əl çəkmirdilər.

*1960*

# GÖZƏL BARƏSİNDƏ

Müasir tamaşaçı bizdən əsər istəyir, əsl sənət əsəri, gözəllik nümunələri tələb edir. camaat muzeyə bunun üçün gəlir. Gəlir görsün, ürəyi açılsın. Pulumuz var, yerimiz var, tamaşaçımız da var. Yaradıcılarımız da ki...

Direktor əli ilə zalda əyləşənlərə işarə edib gülümsədi:

– Yaradıcılarımız da ki, şükür, yetişib. Daha bu iyirminci illər deyil, altmışıncı illərdi, əsrin ortası. İndi xalqın bizdən tələb etməyə yüz faiz haqqı var. Hə? Necə bilirsiniz?

Əyləşənlərdən xoş bir razılıq eşitmək arzusu natiqin səsindəki qətiyyətə sual ahəngi verdi:

– Necə bilirsiniz? Bəlkə, mən səhv eləyirəm?

– Doğrudur, düz deyirsiniz.

– Yoldaş direktor haqlıdır!

– Tələb etməyə haqlıdır.

– İndi daha söz bizimdir!

– Tamaşaçı yeni əsər istəyir.



– Bəli! Bəli! Borcumuzdur!

Gənc rəssamlar bir-bir müdirin əlini sıxıb vidalaşanda direktor iclası istədiyi kimi, arzusunca başa vurduğu, sənətkarlara "ictimai sifariş" verməyi bacardığı üçün təkəbbürlə öskürdü. Sağ əlini bozarmış saçlarına çəkdi, sol əlini cibinə qoydu, gələcəkdə bəzəyəcəyi "Gözəl nümunələr" zalını gəzə-gəzə quşbaxışı nəzərdən keçirdi:

– Burada, baş divarda gərək elə parlaq bir tablo asıla ki, girənin ağzı açıla qala! "Maqdalina peşiman olub", "Madonna." Qədimlərdən də yaxşı yaratmaq niyə olmaz? Olar, lap yaxşı olar, məsələn, incə bir tema: gül gətirən gözəl, yaxud, ay işığında!.. Zövq lazımdır!

Direktor bu xəyallarla gəzinərək, zaldakı şəkillərə öz aləmində qiymət verir, bəzisini şəhadət barmağının işarəsi ilə sıradan çıxarırdı:

– Aparın! "Cavan aqronom!" Aqronomun peşəsi tarla becərməkdir, qoy becərsin. İncəsənət başqadır. Çoban, usta... Bunlar adi, həyati lövhələrdir. Bunlar həqiqət olsa da, sənət sayılmaz. Əsl sənət, gözəl sənət nümunələri lazımdır. Daha biz o dövrləri keçmişik, özü də çoxdan. Sənət sənətdir, şair demişkən, "Çoban-çoluq məclisi deyil..." Olar ha, çoban, məsələn, Qaraca çoban kimi öküzü sapanda qoyub atan, fövqəladə bir çoban ola, nə söz? Yoxsa filan çoban Laçında bir qoyundan üç bala tutur. Doğrusu, bizdə bəzi yoldaşlar sənəti zarafata qoyublar. Lap zarafata!

Direktorun özünə görə qətiyyəti də var idi.

Çoxdan həsrətini çəkdiyi bir vəzifəyə təyin olunmağı, kitablardan oxuduğu hökmləri hərfinəcən rəvan əzbərləməyi, bəzi stajlı sənətkarların iclasda "yoldaş direktor haqlıdır" deməyi onu tamam müştəbeh salmışdı.

Göy xalatlı, cəld, cavan qızlara əmr verir, bəyənmədiyi rəsmləri zaldan götürdür, "bayıra at" demək olan əl işarəsilə dərhal muzeydən kənara çıxarırdı.

– Da!.. İndi...

Öz-özünə mızıldandığı bu nidalarla direktor çox şey demək, daha doğrusu, çox əmrlər vermək əzmində idi. Gözünə sataşan işçilərin hərəsinə bir iş buyururdu. İşçilər də "gələn var" gümanı ilə baş üstə deyib, tələsik gedirdilər.

– Qız, burada niyə dayanmısan?

Təsərrüfat üzrə müavinin sualına utancaq qız nə cavab verəcəyini bilmədi:

– Direktor tapşırıb.

– Necə yəni? Tapşırıb ki, astanada dur? Yolu kəsmə, gəlib-gedən var. Çəkil bir kənara. Bəs bu şəkil nədi?

– Direktor çıxardıb.

– Hara çıxardıb?

– Bilmirəm hara. Dedi, götür bayıra.

Təsərrüfatçı şəkilin o yan-bu yanına keçdi, çiynində çomaq dayanan çobanın təhər-tövrünə baxdı. İllər uzunu tutya kimi əzizləyib saxladığı rəngli şəkil bir anda onun gözündən düşdü. İstədi, o da direktor kimi qıza əmr verib həyati göstərsin. Xatirinə gəldi ki, iki il əvvəl bu şəkilə münsiflər iclasında ağızdolusu bəh-bəh deyilib, neçə min pul verilib. Sabah-birigün təftiş gələ bilər. Haqq-hesab soruşan olar.

Bir də diqqətlə aldığı mətaha baxdı və direktora şərik oldu:

– Apar, at anbara. Elə at, korlanmasın, bir küncə qoy dursun.

Direktorun müşavirəsi və məruzəsi, doğrudan da, bəhrəsini verdi. İlə çəkmədi ki, rəssamlar muzeyinə təzə şəkillər gəldi. Şəkil sahiblərinin çoxu öz əsərini səliqəli örtük, ramkada gətirir, "hər yetənə" göstərməyə ehtiyat edir, soruşurdu:

– Yoldaş direktor hardadır?

– Vağzala qonaqları qarşılamağa gedib.

– Bəs haçan gələr?

– İnanma ki qonaqları qoyub idarəyə gələ, gözləmə, yoldaş!

Səyyahlara bələdçilik eləmək, banketlərdə nitq demək direktoru çox məşğul etsə də, zirək adamlar kimi idarəsinə baş çəkməyə də vaxt tapırdı:

– Klara, burax gəlsinlər. Şəkil gətirən yoldaşların hamısını burax!

Kabinetin baş divarına söykənmiş təzə şəkilləri yan-yana görəndə direktorun rəngi açıldı: "Bax, belə ha! Tapşırıqlarımız hədər olmadı. Öz bəhrəsini verib."

Əyləşənlər və əyləşməkdən yorulub ayaq üstə duranların diqqəti şəkillərə dikilib qalmışdı. Gələn şəkillər içərisindən üçünü seçib müzakirəyə qoymuşdular.



Biri çox səliqəli və müasir geyimli, bəzək-düzəyilə oynayan gözəl rəqqasənin gözəl çəkilmiş rəngli şəkli idi. İkincisi ay işığında meşədə yanaşı oturan aşiq-məşuq, üçüncüsü də inşaat kranında ağır yük qaldıran bir fəhlənin şəkli idi.

Birinci şəkil direktoru valeh eləmişdi. "Nəhayət, bizim muzeydə də bir gözəllik təcəssümü göründü. Meşə də babətdir, təbiəti bilmək, məhəbbətdən nəşələnmək biz sovet adamlarına lazımdır. Bəs bu kimindir, bənna-fəhlə əhvalatı?"

Direktorun hər şəkil barəsində fikri müəyyənləşmişdisə də, hələ dinmirdi. Çünki o, bir vəzifə sahibi kimi fikrini hamıdan axırda deməyə adət eləmişdi. Müzakirədən qabaq xəlvət bir otaqda oturub öz çıxışının tezisini hazırlayırdı. Rəqqasənin şəklini gözəllik nümunəsi kimi mükafata təqdim etməyi niyyətində tutduğu üçün əsərin mədhinə bir neçə şirin söz deməyi vacib bildi:

"Əsər yalnız müəllifin deyil, bütün sənətkarlarımızın müvəffəqiyyəti sayılmalıdır. Rəqqasə vücudunun yuxarısı ilə aşağı hissəsi tam vəhdətdə verilmişdir. Müəllif çox axtarışlardan sonra həyatın nəbzini tutub, nəfəsini duyub vermişdir. Rəqqasənin bədən üzvləri ahəngdar surətdə bir-birini tamamlamaqla qalmayıb, insan qəlbinin çırpınışlarını əks etdirir..."

Direktor yazdıqlarını qatlayıb döş cibinə qoyandan sonra kabinetə keçdi, gələnləri müntəzir görüb müzakirəni başlamaq istədi.

Əvvəlcə əyləşənlərə müraciət edib soruşdu:

Müzakirəyə qoyulan əsərlər haqqında fikrinizi deməyi xahiş edirəm. Yəqin ki, hamının yadındadır. Neçə ay əvvəl gözəl sənət əsərləri barəsində, müasir tamaşaçının tələbi barəsində müşavirədə danışmışdıq. İndi daha nəzəri mülahizələrdən əməli işə keçirik. Rəssamlarımızın gətirdiyi məhsulu müzakirə edirik. Xahiş edirəm, fikrinizi deyəsiniz!

Direktor belə bir xahişdən sonra irəli yeriyib, inşaatçı şəklini bir qədər kənara itələdi. Güman elədi ki, belə bir şəkilin gözəllər sırasında dayanmağı muzeyə və onun rəhbərinə irad gətirə bilər. "Rəqqasə"yə və "Meşədə aşiq-məşuq görüşü"nə işarə ilə bir də məclisə üz tutdu:

– Xahiş edirəm!

Ucaboy, çeşməkli, yüngül gövdəli, ağır hərəkətli qoca rəssam irəliyə yeriyib yük qaldıran fəhlənin şəkilini bir az da yaxına çəkdi və dedi:

– Məncə, yoldaş direktor çox haqlı olaraq bu əsəri başqa şəkillərdən ayırdı. Bu ayrılmalı bir lövhədir. Bu, çox gözəl bir əsərdir!

İşarəsinin düz anlaşılmadığını duyan direktor təşvişlə qoca rəssamın sözünü kəsdi:

– Yoldaş filankəs, mən o məqsədlə ayırmadım. Demək istəyirdim...

Qoca rəssam macal vermədi:

– Bağışla, bağışla! Siz ayırsanız da, ayırmasanız da bu əsər öz müasirliyi, gözəlliyi, parlaq həqiqət təcəssümü ilə ayrılıb. Neman yoldaşın yaratdığı bu canlı mənzərəyə diqqət edin: tunc bədənli, aslan biləkli, qartal baxışlı müasir fəhlənin, texnikanı yəhərləyən bu igidin əmək xarüqəsi necə parlaq çəkilmişdir. Kranın nəhəng xortumu enib-qalxdıqca, sıralanmış binalar yüksəlir, yeni mənzillər, sovet adamlarının yeni məişəti yüksəlir, yeni həyatı görünür. Mən şəxsən bu fəhləni, nə adını, nə ünvanını bildiyim bu fəhləni, demək olar ki, hər gün görürəm, görürəm və sevinirəm. Başqa şəkillər haqqında bir şey deyə bilməyəcəyəm, müəlliflər məni bağışlasınlar. Ancaq bu əsər rəssamın çox böyük nailiyyətidir.

Qoca rəssam qayıdıb öz yerində oturmamış, cavan rəssam qız sədrdən söz alıb irəli çıxdı:

– Mən rəssam yoldaşla tanış deyiləm, onun başqa əsərlərini də görməmişəm. Amma inşaat fəhləsinin surəti çox gözəl ifadə olunmuşdur. Məndən əvvəl danışan hörmətli xalq rəssamı deyən kimi, burada parlaq həyat həqiqəti, müasirlik, cəsarət, əmək xarüqəsi... daha bir çox xüsusiyyətlər var. Ancaq bunların hamısı adi texnika, məişət cizgiləri kimi yox, gözəllik şüaları, həyat, inkişaf hərəkəti kimi verilmişdir. Mən Neman yoldaşı və bütün rəssamlarımızı həmin əsər üçün təbrik edirəm.

Direktor özünü saxlaya bilmədi:

– Unutmayın ki, Nailə xanım, bu şəkilləri gözəl nümunələr sərgisi üçün almaq istəyirik.

– Çox yaxşı eləyirsiniz, almaq da vacibdir!

Nailə xanımdan sonra incəsənət idarəsinin nümayəndəsi nazik və



cəld bir oğlan direktora müraciət edərək sözə başladı:

– Siz ki gözəl sənət nümunələri deyirsiniz ha, mənim fikrimcə, gözəllik nümunəsi rəqqasə yox, fəaliyyətdə verilən həmin fəhlənin yaradıcı əməyidir. Çernışevskinin "Gözəl həyatdır!" deməyi də budur. Rəqqasə həm bəzək-düzəkdir, həm də məhdud bir aləmdir. Bu cəsur fəhləni, yoldaşlar deyən kimi, biz hər gün görür, alqışlayırıq. Məişətimizi dəyişən və yüksəldən sosialist əməyinin qüdrət təcəssümü burada çox gözəl və əyanidir.

Bir də xahiş edirəm, rəssam yoldaşlar cavanlarımızın estetik tərbiyəsinə xüsusi diqqət yetirsinlər. Ötən səfər burada maqdalinadan, madonnadan danışdılar. Rəqqasə də ki, görürsünüz, pis oynamır. Zənnimcə, müasir, əsl sənətin, sosialist sənətinin tam ifadəsini buralarda axtarmaq nahaqdır! Əmək və onunla yaranan xarüqələr! Müasirlik budur! Gözəllik də bundadır. Şair demişkən, kainatı söküb yenidən quran qüdrətli əmək! Mən xahiş edirəm gözəl, gözəl deyəndə bu cəhəti unutmayasınız! Zahir bizi aldatmasın. Həyatın həqiqi mahiyyəti diqqət mərkəzində dursun!

Direktorun gah əsəbi, gah zarafatyana atmacaları danışanlardan kimsəni susdura bilmədi. Qalxan Nemanın əsərini təriflədi, gözəl sənət nümunəsi saydı və mükafat tələb elədi.

Direktor tək qaldı. Deyəsən, rəssamlar neçə ay əvvəl müşavirədə onun nitqinə sakitcə tərəfdar çıxan adamlar deyilmiş. Nə "Rəqqasə"yə baxan, nə də "Meşədə aşiq-məşuq görüşü"nü saya salan oldu.

Üfüqdən-üfüqə sıralanan çoxqatlı binaların cərgəsində, nəhəng kranda çalışan polad pəncəli fəhlənin göylərə yönələn şahin baxışı, deyəsən, hamını ovsunlamışdı. Tamaşa eləyənlərin hər biri əsərin başqa-başqa məziyyətini görüb deyir, Nemanın əlini sıxırdı:

– Çox mübarəkdir!

Direktor bu mənzərəyə baxıb başını tovlayırdı:

– Bundan sonra daha nə eləyəsən? Bilmirsən nəyə gözəl deyəsən, nəyə deməyəsən. Mən lap başımı itirmişəm.

*1960*

# GƏNC ŞAİRİN ƏRİZƏSİ

Bu sərlövhədə üç söz var, heç biri də yerində deyil. Gənc dediyim adamın yetmiş bir yaşı var. Nə az, nə çox!

Şairliyi də təzədir, hələ qaralama dəftərlərindən kənara çıxmayıb, çap elətdirməyə yer, fürsət, redaktor axtarır. Ərizə də ki, müəllifinin yaradıcılığından kiçik deyildi. Naryad blanklarının dalında, qırmızı mürəkkəblə yazılmış, karandaşla nömrələnmiş şikayət dolu səhifələri bütün günü özünə xoş gələn avazla oxuyub, mən də qulaq asmağa məcbur olmuşam.

Bizim görüşməyimizin qüssəli bir tarixçəsi var. Başağrısı olsa da, danışacağam.

Sədrin otağında oturub növbə çəkir, seçiciləri qəbul edirdim. Abı qədəkdən sırıqlı geymiş, addımlarını döşəməyə soldat kimi bərk vuran gödək kişi şəstlə qapını açıb içəri girdi.

Papağını çıxarıb dik-dik mənim üzümə baxdı:

– Gəlmək olar, yoldaş?

"Gələndən sonra daha niyə soruşursan?!"



Bu cavabı dilimin ucundan qaytardım.

– Nə buyurursunuz?

– Buyurmağım odur ki, yoldaş deputat, bir balaca ərizə gətirmişəm!

– Nə ərizədir?

– Sovet vətəndaşının ərizəsi!

Gödək kişi mənim sualıma gülürdü. "Sovet vətəndaşının ərizəsi" – deyəndə bir də göz qapaqlarını qaldırıb dik üzümə baxdı: "Necə yəni nə ərizə. Deputatın vəzifəsi ərizəyə baxmaq deyilmi?! Vətəndaşların ərizəsinə!"

Gödək kişi kimi düşünənlər var. Onların fikrincə, hansı rayonda ərizə çox olsa, iş də çoxdur. Oraya çox da deputat lazım olur ki, ərizələrə tez-tez qol qoysun.

Gödək kişinin qoltuğunda bir rayonun, ya sovxozun illik hesabat dəftəri kimi uzun və qalın ərizəni görəndə məni tər basdı:

– Nə barədədir?

Öz aləmimdə düşündüm ki, "yəqin müəyyən bir təsərrüfat idarəsində vəzifə sahibi imiş, işini yoxlayıb məhkəməyə veriblər. Əlinə gələn materialları toplayıb gəlib, deputatdan kömək istəyə."

– Yazı barədə, yaradıcılıq barəsində...

Yox, bu deyəsən ayrı şeydir.

Rayon sovetinə şikayətçilər gəlir, cürbəcür ərizələr də olur. Biri mənzilinin təmir olunmasını xahiş edir, biri qoca nənəsinə pensiya kəsdirmək istəyir. Birini iş yerində incidirlər, bir başqasının irs iddiasına kağız lazım olur.

Rayon sovetində oturanlar da, necə deyərlər, bəqədri-qüvvə şikayətçilərin xahişini eşidir, kömək eləməyə çalışırlar.

Amma bu gödək kişinin xahişini heç mən yaxşı başa düşə bilmədim. "Yazı barəsində, yaradıcılıq barəsində", görəsən, bu nə istəyir, burada mənim vəzifəm nədir? Bəlkə bu, səhv salıb, məni yazanlara oxşadıb, yəqin ki? Mənim suallı baxışımı və susmağımı görüb kişi izah elədi:

– Mən necə ki, bir şair, düzdür, yeni başlayan gənc şair, sizdən, deputat yoldaşlardan kömək istəyirəm.

– Şair?

– Bəli, mən yazıram, budur bir qədər də prob gətirmişəm, istəsəniz, oxuya bilərəm!..

Şair mənim cavabımı gözləmədən qoltuğundan bir dəstə qatlanmış, əzilmiş dəftər–kağız çıxardı. Kirlənmiş, rəngi dəyişmiş dəftərlərdən məlum idi ki, bu yazılar çox səyahət eləyib.

Şairin rayon sovetinə az işi düşür. Onun işi çapxanalar, jurnallar, tənqidçilərlə olur. Soruşmaq da münasib olmazdı ki, sizin isminiz nədir, hansı imza ilə yazırsınız. Ola bilməz ki, şair ola, onu da oxucular tanımaya. Güman etdim ki, indi şairlər çoxalıb, hamısını da oxuyub tanımaq mümkün olmur. Bəlkə də adını eşitmiş olaram.

– Siz, bağışlayın, hansı imza ilə çap etdirirsiniz?

– İmza var, hasanddır. Ancaq dərd burasındadır ki, bəzi, haşa buradan, vicdansızlar çapa yaxın qoymurlar, mane olurlar! Elə ona görə də sizə, deputat yoldaşlara şikayətim var, ərizə gətirmişəm.

– Çoxdan yazırsınız?

– Xeyr, olar bir-iki il.

– Nə əcəb belə gecikmisiniz?

Mən demək istəyirdim ki, bu yaşda adlı-sanlı yazıçılar da qələmi yerə qoyur, pensiyaya gedir, dincəlirlər. Necə olub ki, siz indi başlayırsınız. Şair, görünür, başa düşməmişdi:

– Xeyr, gecikməmişəm, işdən çıxmışam, istəyirəm, sinəmi boşaldam. Heyifdir, əsərlərim xalqa məlum olsun, ancaq ki mane olurlar.

– Kim mane olur?

– Paxıllar, gözü götürməyənlər...

– Deputat yoldaşlar indi, o paxıllara neyləməlidir?

– Necə neyləməlidir? Deputat külli-ixtiyardır, nə istəsə eləyə bilər...

Gödək kişi qovluğundakı "əsərlərinin" üstünə tutarlı bir yumruq vurdu:

– Nə eləyirsiniz-eləyin, elə eləyin ki, bunlar mənim qoltuğumda qalmasın.

Mən işarə elədim ki, əsərlərinizi stolun üstünə qoyun:

– Danışın görək necə mane olurlar, nə barədə yazmısınız, nə deyirlər?



Kişi bunu gözləyirmiş kimi, yaxasının düymələrini açdı, kürsünü yaxına çəkdi, qrafindən bir stəkan su töküb qurthaqurtla içdi, dodaqlarını yumruğu ilə sildi. Dərdini danışmağa başladı:

– Əşi, lap vacib məsələdən yazmışam. Şoferlərdən. De gəl, yazıçıların hərəsinin bir maşını, hərəsinin bir dilavər şoferi var, qoymur ki, qoymur. Əsərlərimi mənölümə satırlar, oxuculara çatdırmağa qoymurlar. Məsələn, mən yazıram ki, bu filan-filan uşağı yetmiş üçüncü millətdi. İçmək desən var, yalan desən var, arvad desən var. Bu da ki hariflərin xoşuna gəlmir, kefinə dəyir.

– Bəs bunlardan heç tribunada, məclislərdə oxuduğunuz varmı?

– Məclisdə oxunası deyil, yoldaş deputat, uzun əhvalatdır.

"Şair" əsərlərinin məzmununu danışmağa, başına gələnləri saymağa çalışdı. Elə ehtirasla, ürəkdən danışır, əl-qolunu ölçürdü ki, eşidənin ona yazığı gələrdi.

Doğrusu, bilmədim ona nə cavab verim, necə kömək eləyim:

– Yəni bunları, sənin əsərlərini oxuyub fikir-zad deyən olub, ya yox?

– Fikir yox, amma barmaq qoyan çox olub. Şofer görürəm ki, təkəri çıxarıb satır, motoru köhnəsinə dəyişir, fənəri, filanı... Bilmirsən, həmkar-həmkarı istəməz?

– İndi vəzifəm nədir, sizə necə kömək eləyə bilərəm?

– Siz gərək mənim dediklərimə inanasınız, inanmasanız, buyurub, zəhmət çəkib bunları oxuyasınız. Sonra da yazıçıların böyüyünə tapşırıq verəsiniz.

– Mənim onlara tapşırıq verməyə səlahiyyətim çatmır axı. Yaradıcı təşkilatdır...

– Necə yəni, sovet vətəndaşıdır, ya yox?

– Sovet vətəndaşı olanda nə olar?!

– Sovet vətəndaşının hamısı deputata baxır. Birbaşa!

– Mən onlardan xahiş eləyə bilərəm.

– Xahiş, ya göstəriş. Sizin bir barmaq kağızınız bəsdir!

– Nə yazmalıyam bir barmaq kağızda?!

– Yazın ki, mənim seçicim filankəsi get-gələ salıb incitməyin!

– Onda sabah iş başlananda gəlin, onlar idarədə olanda...
– Sədrin telefonu məndə var, soruşmaq olar.
– Bu gün qısa gündür, indi orada olmaz.
– Ev nömrəsini də bilirəm.
– Tanımadığım bir yoldaşın evinə zəng vurmaq münasib olmaz.
– Yoldaş, sən deputatsan, hökumətsən, hər yerə zəng vurmağa, çağırmağa ixtiyarın var.

Mən gördüm ki, "gənc" şair əl çəkməyəcək. Adamlardan xahiş etmək üçün heç olmasa bilməliyəm ki, hərif nə yazıb.

– Sabah gələrsiniz danışarıq.
– Onda bunları verim sizə, gecə oxuyun, tanış olun.
– Özünüzdə qalsın, sabah tanış olarıq. Gecə Mərdəkana gedəcəyəm, ortalıqda itər-batar.

"Şair"in sözü kəsildi, əsərlərini könülsüz yığışdırdı.

– Nə deyirəm, sabah olsun.

Sabah idarəyə gələndə "gənc şair"i kabinetin qabağında oturan gördüm.

Yetirən kimi, əl verib əhvalımı, uşaqların əhvalını soruşdu. Mən də razılıq etdim.

– Aç, oxu görüm, nə yazmısan!

Mənim təklifim lap gözlənilməz oldu.

"Gənc şair" heç güman etməzdi ki, əsərini oxuyan olar, özü də özünə oxudub, qulaq asan olar... Stolun üstündə özünə dirsəklənməyə yer açdı. Əsərini vərəq-vərəq səpələdi, bir-bir götürüb qiraətlə oxumağa başladı. Hər cümləni oxuyanda diri və iri gözləri ilə mənim üzümə baxır, təsirini yoxlayırdı, hərçənd dörd-beş səhifə oxumuşdu, amma yazının nədən ibarət olduğu mənə məlum idi. Şairin nağılının şirin yerində dedim:

– Sən özün bu mexanika işini yaxşı bilirsən?
– Necə bilmirəm, yeddi il Azərittifaqın qaraj müdiri olmuşam.
– Elə isə gəl, bizim rayon sovetində işlə. Adam axtarırıq. İki yük maşınımız var, ikisi də böyrü üstdə yatır, bizə kömək elə!

"Şair" əyri-əyri mənə baxdı:

– Gəlim şofer olum?



– Şofer niyə, mexanik. Lap şöbə müdiri.
– Elə işlərə vaxt itirmişəm ki, yaradıcılığım tökülüb qalıb da. Siz də gör mənə nə təklif eləyirsiniz, yoldaş deputat.

Nə yaxşı ki, məni Ali Sovetə çağırdılar. Gödək kişidən üzr istəyib, sevincək çıxdım.

– İndi daha "gənc şair"in qorxusundan idarəyə ayaq basa bilmirəm. Səhər tezdən zəng vurub soruşuram:
– Klara, məni gözləyən varmı?!

Klara bilir ki, nə soruşuram. Adını çəkmədən hərif haqqında deyir:

– Səhərdən oturub gözləyir.
– Deynən naxoşdur.
– Evin adresini istəyir.
– Deynən xəstəxanada yatır.

Sonra uzaq bir yerə məzuniyyətə getdim. "Şair"in əsərlərini oxumaq, ya eşitmək feyzindən məhrum oldum. Məzuniyyətdən qayıdandan sonra da idarəyə ehtiyatla gəlirdim. Qorxurdum ki, gödək kişi qabağımı kəsib əsərlərini təqdim edəcək.

Xoşbəxtlikdən belə bir təsadüf olmadı. Sonralar yoldaşlardan eşitdim ki, şair mənim və rayon işçilərinin "süründürməçiliyi" barəsində köhnə əlifba ilə əsəri kimi uzun bir ərizə yazıb Ali Sovetə təqdim etmişdir. Ərizədə əsərlərindən bir şey danışılmırdı. Ancaq müqəssirlərin "tezliklə" cəzalandırılması tələb olunurdu.

*1960*

# XARİCİ NAXOŞLUQ

Xarici naxoşluq deyəndə zahirdə, üzdə olan, naxoşluğu demirəm. Bu sözü mən coğrafi mənada işlədirəm, sərhəd xaricindəki naxoşluqlardan söhbət gedir...

Mən deyərdim bizim şəhərdə həkimlik sənətindən çox növbətçiliyi olan sənət yoxdur. Özüm həkiməm, günaşırı, bəlkə də daha çox növbətçi oluram. Xəstələrimə müttəsil nəzarət eləmək, gecə-gündüz müalicə prosesini izləmək, nəticəsini vərəqlərə köçürmək, ən güclü bir arzu kimi heç vaxt məni tərk etmir.

Növbətçilik saatlarında yalnız ixtiyarında olan xəstələrlə məşğul olmursan. Bir də görürsən xəstəxananın darvazası taybatay açıldı. Budur, "Volqa", "Pobeda", ya "Moskviç" maşınında, ya da lap yük maşınında "ah-uf"la təzə xəstələr gətirdilər. Düzdür, bizim xəstəxana şəhərin ucqar yerindədir. Çarpayısı da azdır. Hər saat oraya xəstə daşımağa icazə vermirlər. Amma gələni geri qaytarmaq da olmur. Biri qəfildən sancılanıb, birini maşın basıb, birini araq yıxıb, bir başqasını bıçaqlayıblar. Ya it qapıb... Nə başınızı ağrıdım, böyük şəhərdir, bədbəxt hadisələr



olur. Daha belə yerdə nə həkim, nə şəfqət bacısı qapını bağlayıb xəstəni rədd edə bilər. Nəsihət oxumağa, şəhər sovetinin qərarlarından maddə gətirməyə dəyməz. Qanun da buna yol vermir. Adamın vicdanı da qəbul eləmir ki, deyəsən: "Yoldaş, yerimiz yoxdur, qayıdın gedin!"

Bu axşam gətirilən xəstə dediklərimin heç birinə oxşamırdı. Nə it qapmaq, nə sərxoşluq, nə bıçaqlanmaq söhbəti var idi. Əksinə, çox sakit, çox mülayim, özündən də zarımaq, zıqqıldamaq deyilən şey eşidilmirdi! Deyərdin putyovka götürüb istirahət evinə gəlib. Qəbul otağında divanda uzanan xəstəyə yaxınlaşanda şoferdən soruşdum:

– Nəyidir xəstənin?

– Bilmirəm, doktor.

Şəfqət bacısına müraciət etdim:

– Buna nə olub?

– Bilən yoxdur.

– Bəlkə heç xəstə deyil, götürüb gətirmisiniz.

– Doktor, necə xəstə deyil, küçənin ortasında asfalta yıxılıb qalmışdı. Camaat başına yığılmışdı.

Mən xəstəyə yaxınlaşdım. Doğrudan da, bənizi qaçmış, rəngi solmuş, taqətdən düşmüş gənc, nazik bir qızın sifətini gördüm. Qara qaşlar altında xeyli dərinə çökmüş iri gözlər olmasa, meyit güman edərdim. Sapsarı idi. Lap ipliyi üzülmüşdü. Nə bir söz, nə hərəkət? Ancaq iri gözlərini ağır-ağır o yan-bu yana çevirərək, gəlib-gedəni süzürdü.

– Qızım, sənə nə olub?

– ...

Mən xəstənin nəbzini yoxlamaq üçün çöp kimi nazik biləyindən tutdum. Nəbzi zəif vururdu:

– Sənin nəyindir, qız?

Xəstə başını çətinliklə mənə tərəf çevirib ağır-ağır dedi:

– Burada kino varmı?

– Nə kino?

– Televizorunuz varmı?

– Sən xəstəsən, ya əyləncə axtarırsan, qız?

– Axtarmıram, prosto soruşuram.

Mən sualımı bir də təkrar etdim:

– Nəyindir, haran ağrıyır?
– Özüm də bilmirəm.
– Haçandan beləsən?
– Bu gün bulvar yanında yıxılmışam.
– Yaralanmamısan?
– Yaram yoxdur.
– Bəlkə, dəyib-toxunan olub?
– Olmayıb! Özüm gedəndə sərələndim.

Mən xəstəni dərhal palataya, rahat bir yerə köçürdüm. İlk tibbi yardım üçün nə lazımsa əmr verdim, hazırladılar.

Çox çəkmədi, xəstənin anası da gəlib çıxdı. Minnətdarlıq, razılıq edəndən sonra xüsusi bir sözü olan adam kimi mənə yanaşdı, pıçıltı ilə dedi:

– Doktor, Ofelyanı nə qədər istəyirsiniz burada saxlayın, sağaltmamış buraxmayın, qadanızı alım!

Xəstə sahibinin "damdandüşdü" xahişi mənə təəccüblü göründü. Təəccüblü göründü ona görə ki, belə xahişlər bizdə az olur. Əksinə, analar, atalar xəstələrini müalicə etdirən kimi tez çıxarıb aparmağa, xəstəxana rejimindən qurtarmağa tələsirlər. Mən anadan soruşdum:

– Ofelya çoxdanmı naxoşdur?
– Çoxdan.
– Haçandan?
– Olar bir neçə ay.

Təəccüb elədim. Belə zəif bir bədənin uzun müddət naxoşluğa davam gətirməyi, həkimə, müalicəyə, xəstəxanaya müraciət etməməyi qəribə idi.

– Ay xala, bu zəif qızı vaxtında nə üçün müalicəyə gətirməmisiniz. Hətta onun bizdə kartoçkası da yoxdur. Belə başısoyuqluq olar?

Ana başını tovladı, üzümə baxdı, ürəyinin dərdini açan adamlar kimi səmimi danışdı:

– Ay doktor, indiki cavanlar bəyəm, sözə baxır, bəyəm, nəsihət eşidir, bəyəm dərdini deyir? Kinodan, konsertdən macal tapır ki, müalicəyə gəlsin, özünüz yaxşı bilirsiniz ki, hamısı incəlmək istəyir!

İndi başa düşdüm ki, ana nə üçün Ofelyanın buraya düşməyinə



sevinir. Evdə, sərbəstlikdə heç bir müalicə tədbirinə boyun əyməyən övladın xəstəxana rejiminə tabe olması ana üçün doğrudan da təsəllidir. Məlumdur ki, hər bir xəstəni və xəstəliyi bacarıqla müalicə üçün birinci şərt diaqnoz, yaxud Sabirin dili ilə desək, "dərdi təşxis" etmək, yəni dürüst müəyyən eləməkdir, doğrudur, qocalarda, uzun müddət naxoş olub, müalicəyə getməyən, bədənini əldən salan, bir neçə azarı çarpazlaşan adamlarda təşxis çətin, mürəkkəb olur. Ancaq müasir təbabət texnikanın, kimyanın köməyi ilə ən pis xəstəlikləri açır, izah edir. Qorxulu, qaranlıq bir şey qalmır. Rentgen şüalarının nüfuz eləmədiyi damar hanı? Xüsusən Ofelya kimi cavan, on səkkiz yaşında bir qızın xəstəliyini təşxis etmək nə mürəkkəb üsul, nə də elə bir axtarış tələb edir. Təzə boy atan ting kimi gənc, yarımşəffaf bədəninin bütün imkanları, nöqsanları da göz qabağında olur.

Ofelyanın müayinəsi və təhlilləri qızın zəifliyindən, qüvvətdən düşməyindən başqa heç bir xəstəlik əlaməti göstərmədi. Cavan bədən, imkanları tələbincə, vaxtında qidalanmayıb, zəiflikdən üzülüb gedib, ayaq üstə dayanmağa tab gətirməyib...

Mən qızın anasını danladım:

– Şükür, sizin məişətiniz, güzəranınız yaxşıdır, məktəbli bir qızın yeyib-içməyinə niyə fikir verməmisiniz, niyə bədənini üzmüsünüz, xala?

Ana dəfələrlə verilən sualdan təngə gəlmiş kimi əllərini dizinə çırpdı:

– Ay doktor, başına dönüm, qurbanın olum, əgər sən Ofelyaya gündə ikicə dəfə xörək yedirdə bilsən, sənə ömrüm boyu minnətdar olaram! Yemir, yemir, a qadan alım!

– Necə yəni?
– Yemir, əzizim!
– Necə yemir, onun otuz iki dişi cağbacağ yerində, həzm aparatında da bir azar-bezar yox, mədə şirəsi də normada. Niyə yeməsin?!
– Doktor, ona baxma, yemir, öldür yemir!
– Dadlı-duzlu xörəklərdən yeyər!
– Dünyada hər ləzzətli xörək – cücə əti, evdə bişən yağlı kökə, dolma, plov, qovurma və s., nə desən, qabağına qoyuruq, geri itələyir, aya-

ğa qalxır ki, yemirəm, kökələrəm.

Məni gülmək tutdu. Hörümçək kimi bir bədən sahibinin kökəlməkdən qorxması gülməli deyilmi?

– Nəyi kökələcək, onun bütün vücudunda beş kilo ət yoxdur.

– Qorxur, yemir! Onunku jurnaldır, kinodur.

– Mən onu yedirdim, sən tamaşa elə!

Doğrudur, mən döşümə döyə-döyə qadını arxayın elədim. O da xəstəxana yeməkləri ilə kifayətlənmədi. Səhər-axşam cürbəcür xörəklər bişirib yaraşıqlı boşqablarda qızının yanına daşımaqda davam etdi. Ancaq sonra gördüm ki, Ofelyaya xörək yedirtmək o qədər də asan iş deyilmiş.

– Ay qız, bədənini üzməkdən məqsədin nədir?

– Siz nə deyirsiniz, doktor, məni eybəcər, bədbəxt eləmək fikrindəsiniz?

– Bu nə sözdür, qızım, bəyəm xörək yeyənlər eybəcər olur?

– Bəs nə? Görmürsünüz, necə ləndəhor qadınlar var bizdə, Yevropada hamı nazik, incədir. Adama fiqura lazımdır, fiqura!

– Nə görmüsünüz Yevropada, Yevropada olmusunuz?

– Mən "Ekran"a abunəyəm.

– "Ekran" artistlərin jurnalıdır, siz də artist olmaq arzusundasınız?

– Xeyr, artist yox, artistka!

– Artistkanın da bədəni gərək qüvvətli olsun.

– Mən qüvvət yox, fiqura istəyirəm.

– İncə olmaq istəyirsiniz?

– Bəli, mən incə olmasam, özümü öldürərəm.

Mən qızın zəif vücuduna işarə etdim.

– Bundan da incə?

– İstəyirəm, incə olum. Doktor, siz mənə bu xörəklərdənsə elə dərman verin, bədənim hörümçək kimi olsun, özüm də quş kimi uçum! Quş kimi ha!..

Mən aşkar görürdüm ki, Ofelya xəstə-zad deyil, bəzi kino-filmlərin qurbanıdır.

Ofelya xəstəxanada bir həftədən artıq qalmadı. Nə məsləhət eşidir, nə dərman qəbul edir, nə də verilən xörəkləri yeyirdi. Birtəhər sürünüb özünü televizorun qabağına salır, "xarici" film olmayanda kitabxanadan "Ekran" jurnalını (şübhəsiz ki, xaricdə çıxan jurnalı) gətirib vərəqləyir, bədənini, paltarını cürbəcür biçimlərə salır, güzgü qabağında dururdu.

Anası bu dəfə qızının yanına gələndə mən xahiş elədim:

– Maşını buraxmayın.

Qadın şoferi səsləyib dayandırdı. Güman elədi ki, mən maşına oturmaq istəyirəm.

– Buyurun, doktor!

– Mən yox, Ofelya gəzmək istəyir.

– Nə gəzmək?

– Kinoya getmək istəyir.

Ofelya bu sözü eşidib özünü həyətə atdı, anasını səslədi:

– Ana, mənim paltarlarımı gətir, tez ol. "Nizami"də "Yevo lyubov" gedir, baxmasam ölərəm!

Ofelyanı anasına qoşub göndərdim və xahiş elədim ki, buraya qaytarmasın.

– Onun azarı ancaq klubda müalicə oluna bilər.

– Bu nə azardır, doktor?

– Bu xaricdən gəlmə azardır. Bizlərdə olmur, xala!

– Xarici mal eşitmişdim, xarici azar birinci dəfə eşidirəm. Bəs bu zəhrimar Ofelyanı haradan tutub?

– Bəzi kinolardan tutub, xala, sağalar, qorxma! Bu da mal kimi bir şeydir, təzə çıxıb.

*1960*

# ƏRƏB QARDAŞ

Bizlərdə ərəb deyildimi, çoxlarının təsəvvürünə qapqara, çalmalı, saqqallı, əbalı, ayaqyalın adam gəlir...

Bəlkə Ərəbistan haqqındakı dini təfsir və nağılların, "Min bir gecə"lərin, "Yüz bir gündüz"lərin, müqəddəs kitab və bəzəmə səyahətnamələrin təsiridir ki, zehinlərdə ilişib qalıb.

Hər halda bu səhv təsir var. Kimidə az, kimidə çox.

Ərəb qardaşla tanışlığın ilk günündə bu köhnə təsir, pəncərəsi açılan otağın papiros tüstüsü kimi dağılıb getdi.

Ərəb qardaş sarıyanız, qıvrımsaç, ucaboy, cəld hərəkətli, iti baxışlı, nəzakətli, yaraşıqlı bir oğlan idi.

Az danışan, müsahibini diqqətlə dinləmək istəyən bu gəncin, Bakıya səfərindən məqsədini bilmək nə qədər maraqlı olsa da, soruşmağı münasib bilmədim.

Güman edirdim ki, bu, səfarətxana işçisi, yaxud hansı xətləsə ezamiyyətə gəlmiş bir xarici mütəxəssisdir.

Şəhərimizin görkəmli yerləri ilə maraqlanan ərəb qardaş üçün mən iki-üç günlüyə bələdçi olmuşdum.





Cavan ərəbin bizim şəhəri yaxşı tanıması üçün əlimdən gələni əsirgəmirdim. Bu, mənim rəsmi vəzifəm, həm də vicdan borcum idi.

Ərəb qardaş da çox utancaq idi. Bir şey soruşmurdu, ancaq böyük bir həsrət və maraqla adamın üzünə baxır, eşitdiklərini isə tez dəftərinə yazırdı:

"Bakı, əslində bir neçə şəhərə bölünür: Ağşəhər, Qaraşəhər, İçərişəhər, Bayırşəhər... Bu köhnə adların əvəzinə indi böyük adamların adını daşıyan abad rayonlar yaranıb: Lenin rayonu, 26 Bakı komissarı adına rayon, Nərimanov rayonu... Ən sürətlə artan yuxarı hissəyə camaat Təzəşəhər deyir. Təzəşəhər respublikada gündən-günə inkişaf edən Mingəçevir, Sumqayıt, Daşkəsən kimi sənaye ocaqları ilə yarışır. Vaxt gəlmişdir ki, respublikamızın paytaxtı – Böyük Bakı, Kiçik Bakı kimi müəyyən edilsin..."

Ərəb qardaş əlini gözünün üstünə qoyub uzaq üfüqlərə, mavi sularda üzüb gedən gəmilərə, dənizdə qüdrət simvolu kimi yüksələn polad sütunlara baxırdı. Bunların arxasında da şəhər, nəhəng daş binalar, maşınlar, kanallar, qurğular, sıralanmış buruqlar görünürdü:

– Mən Qafqazda belə əzəmətli şəhər olduğunu təsəvvür etmirdim. Bizim coğrafiya müəllimləri də bunu öyrətməmişdilər.

Xaricdə bizim coğrafiyadan, sovet respublikalarından söhbət gedəndə bəzi filmlərin nə qədər miskin, bəzi kitabların nə qədər kiçik, bəzi natiqlərin nə qədər xəsis olduğunu mən gözümlə görmüşdüm.

Ərəb qardaşın Bakı üfüqlərinə baxaraq heyrətlə belə deməsi mənə bir qədər ağır gəldi:

– Əziz qonağımıza məlum olmamış deyil ki, Bakı Sovet İttifaqının cənubunda, Yaxın Şərqin şimalında milyon əhalisi olan, izdihamlı, bir sənaye, mədəniyyət şəhəridir. Geniş prospektləri, uca və yaraşıqlı binaları, cavan bağları, sahil və daxil bulvarları, tamaşa yerləri – teatr, kino, idman meydançaları, gurultulu küçələri, plyajları, yaylaqları, elektrik dəmiryolları ilə məşhur olan Bakının əsl siması ilk baxışda çətin görünür və bəlkə də görünmür. Müasir Şərqin məşhur şairlərindən biri demişdir:

*Düşünən beyni Moskva isə ölkəmizin,*
*Təzə qan dağıdan qəlbidir Bakı!..*

Yerin ən dərin qatlarından qara neft çıxarıb sosialist sənayesinin istifadəsinə verən qəhrəman neftçilər, ecazkar texnika burada, maşınlar aləmində gecə-gündüz yorulmadan çalışır, vətənlərinin şöhrətini artırırlar.

Sağda gördüyünüz bu böyük sahəli geniş mədənlər sovet dövrünün bəhrəsidir. Buranı yeni Bakının xilaskarı Sovet hökuməti yaratmış, adını da İliç buxtası qoymuşdur. Dayandığımız bu yer Dağüstü park, Kirov adına Mədəniyyət parkı adlanır.

Şəhərin mənzərəsi buradan daha gözəl görünür. Otuz iki il əvvəl Maksim Qorki bu yerləri gəzmiş, Bakı limanını Neapolla müqayisə etmişdir. Bu park köhnə qəbiristanlığın yerində salınıb, əslində otuz beş yaşı vardır. Dənizdən televizor qülləsinə qədər uzanan, bağı iki hissəyə bölən funikulyor isə lap cavandır: iki yaşı var! İkicə yaşı!

Gördüyünüz həmin ağır daşları keçmişdə qəbir üstünə qoyar, bəzən də nəqşə vurardılar. İndi Bakı ətrafında neçə karxanalarda müasir texnika ilə ağ daş istehsal olunur, qatar-qatar daşınır, böyük binaların, körpülərin, yolların, sədlərin, kanalların tikilməsinə sərf olunur.

Ərəb qardaş dayanıb heyran-heyran dənizə, balıq kimi şütüyən motorlu qayıqlara, ağır gövdəli gəmilərə, ara-sıra göydən suya enib üzən təyyarələrə, göy Xəzərin ayaz səmasında uçuşan sülh göyərçinlərinə baxır, düşünür, bəlkə də ürəyində doğan sualı deməyə münasib söz axtarırdı:

– Cənab filankəs, sizin bu dəniz böyük göl sayılır. Hər yandan qapalıdır. Gəmi ilə Kaspi dairəsindən kənara çıxmaq mümkün olmasın gərək?

– Əvvəl elə idi. Siz deyən kimi. İyirmi il olar ki, su yolları açılıb. İndi Xəzər dənizindən dünyanın bütün dənizlərinə – okeanlara çıxmaq olur. Xəzərin ən böyük qolu, mənbəyi Volqadır. Volqa ilə Moskva çayına, oradan da Şimal dənizinə getmək asandır. Xəzər, habelə Don çayı vasitəsilə Qara dənizlə bağlanıb, Bakıdan su yolu ilə həm şimala, həm qərbə, Avropanın mərkəz ölkələrinə getmək mümkündür.

Ərəb qardaş akademiya, universitet şəhərciyini gəzdi, 26-lar bağını görmək istədi, gül dəstəsini məşhur abidənin daş pilləkənlərinə qoyandan sonra papağı əlində ehtiramla bir neçə dəqiqə sükut içində



qəhrəmanların heykəllərinə baxdı:

– Mən, – dedi, – Parisdə kommunarların xatirə lövhəsinə baxmışam. Eyni qürur və minnətdarlıq hissini burada da yaşayıram. Bəşəriyyət belə oğulları ilə həmişə fəxr edəcəkdir. Kommunarların abidəsində yazılar var, belə canlı heykəllər, təəssüf ki, yoxdur.

Ərəb qardaş Bakı pioner evinin, kitabxana binasının başındakı heykəllər haqqında da çoxlu suallar verdi. Neft fəhlələrinə hələ inqilabın ilk illərində qoyulan abidənin şəklini çəkdi, müəllifini soruşdu:

– Qız qalasına getmək olarmı?

– Olar!

– Lap minarəyə çıxmaq mümkündürmü?

– Yorulmasanız mümkündür. Çox uca binadır.

– Yorulmarıq, gedək!

Qız qalasına çıxandan, əfsanə qəhrəmanlarının adını soruşub yazandan, şəhəri bir də seyr edəndən sonra sanki bir şey xatırlamış kimi, soruşdu:

– Bakıda bir oğlanın xatirəsinə tikilən abidə bina var, məşhur bina, çox istərdim görüm?!

"Oğlanın xatirəsinə bina..." Nəsə bu mənə qəribə və təəccüblü gəldi.

– Xatirəsi əziz tutulan oğlan sənətkar, ya ictimai xadimdir?

– Xeyr, bir atanın əziz və yeganə oğlu, vərəm xəstəliyinə tutulduğuna, nakam öldüyünə görə ata onun adına bina tikdirib, gözəl bir abidə qoydurub. Belə eşitmişəm, çox istərdim görüm!

Müsafirin sualı da, hansı abidədən söhbət saldığı da mənə aydın oldu. Ancaq təəccübüm azalmadı, çoxaldı. Oğlanın abidəsinin tarixçəsi kitablarda yazılmır, yerlilərdən də çox az adama məlumdur. Bu əhvalatı qocalar bilir. Müsafirin işarə etdiyi heykəl də indi yoxdur. O binanın adı da dəyişilib. Ərəbin bu barədə məlumatı və marağı məni düşündürdü.

"Haradan bilir, nə üçün maraqlanır?.. Bəlkə memardır, ya ədibdir?!"

– Siz yəqin İsmailiyyəni deyirsiniz.

– Bəli, bəli, İsmailiyyə, İsmailiyyə!...

Cavabımın belə maraq və sevinc doğurması məni daha da şübhəyə saldı. Kürəklərimin arasından bir gizilti keçdi, deyəsən, məni soyuq tər basdı.

"Haradan bilir, nə üçün maraqlanır?.. Bəlkə memardır, ya ədibdir?!"

Başqa bir şübhə də mənim ürəyimi gəmirdi: "Sonra bu, nə bilim, ayrı cür adam olar ha!"

Özüm də şəhərimizi, nəhəng bir sənaye mərkəzini, addım-addım gəzib hər şeyi təfsilatı ilə danışıram, şəkil çəkməyinə mane olmuram, bədniyyət adama rast gəlmiş olsam, görən mənə nə deyər?

"Ay kor yapalaq, xaricdən gələnlərə yamanca qaynayıb-qarışmısan, fikrin haradadır, sənə nə olub?.."

Ancaq soruşa bilməsəm də, nəzakətsizlik görünsə də, suallı baxışlarımı bir müddət qonağın üzündən yayındırmadım.

İnsan şüuru çoxcəhətli və çox da mütəhərrikdi. Bir saat bundan əvvəl, məlum sualları verənə qədər mən müsahibimə əziz qonaq, ehtiramı vacib bir dost kimi baxır, bütün xahişlərinə əməl etməyə çalışırdım. İndi, qəlbimdə şübhələr doğandan sonra bu "xatalı" vücuddan tez yaxa qurtarmağa, bunun əsl məqsədini öyrənib bilməyə cəhd edirdim. Necə oldu ki, nazirlikdən bunu mənə qoşanda rədd etmədim. Necə oldu ki, bunun kim olduğunu soruşmadım, necə oldu ki, bunun qaradinməz, həmişə fikirli, həmişə qapalı siması məni maraqlandırmadı. Mənim fikrim harada idi? Heç məndən çıxan iş deyil...

Ərəb qardaş indi mənə sadə bir səyyahdan çox, təlim almış kəşfiyyatçı kimi görünməyə başladı. Buna ərəb qardaş demək də xatalıdır. Ən azı buna naməlum səyyah demək gərək.

Ərəb qardaş da, sualının təəccüb doğurduğunu hiss etmişdi. Ona görə bir qədər əlavə etməyi lazım bildi:

– İsmailiyyə haqqında mən az-maz bilirəm, sonra sizə danışacağam! Oranı görmək istərdim.

Mən əvvəl zəng vurdum, xahiş elədim. Sonra qonağı həmin binaya gətirdim və buranın indiki məziyyətlərindən danışdım.

– İnqilabdan əvvəl bu binanı bir varlı, nakam gənc oğlunun xatirəsinə tikdirib. Sonradan bura cəmiyyəti-xeyriyyə binası, indi isə Elmlər



Akademiyası olub, şəhərin elm, sənət, mədəniyyət məclislərinin, dövlət tədbirlərinin çoxu burada keçirilir. İsmailiyyə adı köhnəlib, onu ancaq mənim kimi qocalar bilər. Siz yaşda gənclərin binanı belə adlandırdığını birinci dəfə eşidirəm.

Düzdür, mən heyrətimi açıq ifadə etməkdə, ancaq qonağın Bakı haqqında, bu qocaman şəhərin keçmişi haqqında məlumatının mənbəyini bilmək istəyirdim. Çox bilmək istəyirdim ki, o, bunu bir kitabda oxumuş, yoxsa xaricə qaçmış qoca bir bakılı bəhainin xatirəsini dinləmiş, ya da... mənşə etibarılə Bakıya bağlı olmuşdur.

Ərəb qardaşın danışdıqları kitab sözünə oxşamır. Kitablarda İsmailiyyə haqqında heç nə yoxdur. Bakılının xatirəsi belə şeyləri deməz.

Ərəb qardaşın özünün Bakıya bağlanmasına şübhəm daha çox artdı. Ancaq indi ağlıma gəldi ki, niyə qara, niyə ayaqyalın, niyə yarımçılpaq deyil. Kim bilir, bəlkə buradan getmə bir ailənin övladıdır?

Soruşmağa cəsarət etmədim, başımı aşağı salıb şübhələrimi gizlətməyə çalışdım, qonağa bələdçiliyimdə davam etdim.

Qonaq indi hiss eləmişdi ki... mən nə üçün az danışır, fikirli görünürəm. Doğrudur, belə hərəkət bir bələdçi, xüsusən əziz qonağı müşayiət edən bir bələdçi üçün qəbahətdir. Bunu mən yaxşı bilirdim, hətta, bu iş mənə tapşırılan gündən bilir, vəzifəmi dürüst yerinə yetirməyə çalışırdım. Bəlkə də bura qədər, həmin bu İsmailiyyə söhbətinə qədər də vəzifəmi pis ifa etməmişdim. Ancaq bu söhbət məni içimdə danışmağa sövq etdi. Özüm də bilmədən ərəb qardaşın şəxsiyyəti haqqında, müsahibimə hiss etdirmədən düşünməyə məcbur etdi. Daxilən bu cəhdim əbəs idi. Müsahibim aşkar görürdü ki, mən onun simasının haldan-hala düşməsini, yerişini, duruşunu, xüsusi bir diqqətlə izləyirəm.

Zahirən bu marağı "qonağa olan xüsusi məhəbbətim, hörmətim" kimi göstərmək, daha doğrusu, artistlik eləmək istəyirəm. Görünür, bu da çıxmır, aşkar hiss olunur. Hiss olunur ki, artistliyi bacarmıram.

Qonaq nəhayət mənə müraciət etdi:

– Cənab, – dedi, – Bakı haqqında, xüsusən keçmiş Bakı haqqında mənim bəzi şeylər deməyim, soruşmağım sizi təəccübləndirməsin. Mən bunu sizə söyləyəcəyəm, mütləq söyləyəcəyəm.

– Xeyr, heç bir şübhə-zad xəyalıma gəlmir və gələ də bilməz. Çün-

ki Bakı dünyada məşhur bir şəhərdir. Sizin kimi əziz qonaqları, müsafirləri də nadir deyil. Burada şübhənin, ya təəccübün nə yeri var ki!

Ərəb qardaş təhsilli, mədəni bir adamdır. Bakının mədəniyyət ocaqları barədə necə ola bilər eşitməsin, maraqlanmasın.

– Mən ancaq bacardıqca bu maraqlı yerlər barəsində bəzi məlumatlar verməklə sizə kömək etməyə çalışa bilərəm. Bilmirəm ki, dediklərim nə dərəcədə sizə maraqlı və təzə görünəcək. Hər halda...

– Dediklərinizdə, bəlkə də, həqiqət var. Ancaq sizin, cənab, öz iti, aydın müşahidənizi gizlətməyiniz də nahaqdır. Müsahibinizin Bakı haqqındakı diqqətindəki fərdi bir xüsusiyyəti dürüst tutmusunuz, bunun səbəbi ilə də maraqlanmağa tamamilə haqlısınız.

Ərəb qardaş söhbəti bura gətirəndə mən çox sıxıntı çəkirdim. Görürdüm ki, gizlətməli hisslərimi gizlədə bilmirəm, büruzə verməlini də ifadəyə natiqliyim, necə deyərlər, fəsahətim çatmır.

Bəlkə darıxdığımı duyduğuna və xəcalət çəkdiyinə görə ərəb qardaş səyahət proqramını dəyişdi, qolumdan tutub çəkdi, keçib maşına əyləşdi:

– Buyurun gedək, dincələk, yorulmuşuq, həm də arxayınlıqda dediyim söhbəti danışım, nigarançılıqdan qurtaraq, – dedi.

Ərəb qardaşın təklifi mənim ürəyimdən idi. Ancaq sevincimi büruzə vermədim. Sakitcə maşına oturub qonaq evinə gəldik. Mücahibimin söhbətini təfsilatına qədər diqqətlə dinlədim:

– Cənab filankəs, Bakı haqqında mən çox gözəl təəssüratla gedirəm, bunlar yazılmalıdır, yazılmaya bilməz. Ərəb jurnallarından birində səyahət qeydlərim nəşr olunan kimi sizə göndərəcəyəm. Bakıya olan rəğbətimin əsasları çoxdur. Bura tale etibarılə mənim ana yurduma çox oxşayır.

Ərəb qardaş səsini ucaltdı:

– Mən Port-Səidliyəm. Ora da limandır. Ora da bir çox mühüm yollar ayrıcındadır. Oranın Bakı ilə oxşar cəhəti çoxdur. Əhalisi altı dəfə, imkanları isə bəlkə altmış dəfə Bakıdan az olsa da, mənim əziz şəhərim Bakının işıqlı yollarını izləməklə fəxr edə bilər. Siz ingilis imperialistlərini hələ qırx il əvvəl torpağınızdan qovmusunuz. Ancaq biz onların ayağını bir neçə ildir ki, torpağımızdan kəsmişik. Çoxları var ki,



hələ də sərhədlərdə dayanıb dişlərini qıcayır. Süveyş kanalının qapılarına soxulmaq istəyirlər. Bakı ilə mənim atam daha çox bağlı olub...

Ərəb qardaş söhbəti bura çatdıranda, mən zənnimin düz olduğuna sevindim. Ürəyimdə dedim ki: "Hələ vəzifəmi ifa edə bilərəm. Şükür."

Ərəb qardaş atası haqqında danışanda yetim bir uşaq kimi köksünü ötürdü, bu da onun həm oğulluq hissini, həm də Bakıya biganə qalmadığını göstərən təbii bir əlamət idi. Marağım daha da artdı. Kürsünü yaxına çəkmək, bütün varlığımla qonağın xatirəsini dinləmək istəyirdim. Yenə də qəlbimdəkiləri büruzə verməməyə, təmkinimi saxlamağa səy etdim. Ərəb qardaş çoxdan keçirdiyi xoş günləri yoldaşlarına həsrətlə söyləyən təcrübəli bir adam kimi danışırdı.

Deyəsən, onun səsi də dəyişmiş, mülayim, həzin və bir qədər də kədərli ahəng almışdı:

– Cənab, – deyirdi, – mənim atam buralarda olmuşdur. Özü də mənim kimi səyyah yox, dünyaca məşhur bir azadlıq məclisinin nümayəndəsi olmuşdur! Atam kommunist idi. İyirminci ildə Şərq xalqlarının Bakıda çağırılan birinci qurultayının nümayəndəsi idi.

İsmailiyyədə Şərq xalqlarının birinci beynəlxalq iclası haqqındakı şirin söhbətləri heç bir zaman mənim yadımdan çıxmaz. Atam Lenindən, qurtuluşdan danışanda mətbəə fəhlələri həsrətlə dinlər, dönə-dönə soruşardılar.

Axırda atam həmin sözlərə görə məhbəsə düşdü. Bir vərəqdə yazılan bir şeiri, həmişə təkrar etdiyi şeiri onun ittihamnaməsinə yazmışdılar:

*Tutaq Lenin ətəyindən, ona pənah aparaq,*
*Zəmanəmizdəki həllali-müşkilat odur!..*

Atam bu şeiri ərəbcəyə tərcümə etmişdi. Mətbəədə vərəqə kimi çap da eləmişdi. Atamın vəfatından sonra mətbəədə qurğuşun hərflər arasında gecə-gündüz çalışdığım zaman yeganə bir arzum var idi.

Məlumdur ki, gənclərin və gəncliyin özünəməxsus arzuları olur. Məndə bunlar yox idi. Bəlkə ona görə ki, qəlbim daha böyük həsrətlər-

lə dolu, daha şiddətli arzularla məşğul idi. Məni daim böyük bir gələcək çağırırdı. Xəyalıma gətirə bilməzdim ki, atamın haqqında şirin-şirin xatirələr danışdığı ölkəni görmək bir zaman mənə qismət olacaqdır. Mən həmin ölkə haqqında ancaq kitablar oxuya bilər, radiolardan eşidə bilər, bir də xəyal bəsləyə bilərdim. Doğrudan da belə bir xəyal məni məşğul edirdi. Hərdən nagəhani bir zərbənin təsiri ilə yuxudan ayılıb elə bil, diksinirdim. Ustanın zəhmli səsi eşidiləndə dərhal hərfləri diqqətlə təzədən yoxlamalı olurdum.

– Yatmısan, ya məstsən, nədir? Naxış yerinə niyə hərf yığırsan, sxemi görmürsənmi?..

Dostluq universiteti haqqında "Sovtil-Ərəb" qəzetində xəbəri oxuyanda, Sovet dövlətinin tələbələrə hər cür təminat verdiyini biləndə, mətbəədən çıxdım, birbaş sovet səfarətxanasına gəldim.

İndi mən Dostluq Universitetinə qəbul olunduğum haqqında məktub almışam.

Səfərim Moskvaya, illər boyu həsrətini çəkdiyim əzəmətli şəhərədir, Leninin vətəninə gedirəm. Ömrümdə mənim bundan əziz və fərəhli günüm olmamışdır.

Bakı haqqında atamdan eşitdiyim xatirələr indi mənim üçün həqiqət olmuşdur. Mən İsmailiyyəni gözəl bir memarlıq abidəsi, yaraşıqlı bir bina, elm ocağı kimi görməkdən başqa, inqilabi günlərin yadigarı kimi, atamın əyləşib inqilab tədbirlərini eşitdiyi, müzakirə etdiyi bir məclis kimi gördüm və sevindim. Bakı mənim üçün doğrudan da bir yenilik timsalı qədər əziz və böyükdür...

Güman edirdim ki, mənim həyəcanlarım sizi təəccübləndirməz. Bir uşaq qəlbində yandırılan arzu çırağı get-gedə alovlanar ki, sönməz. İndi mən o çırağın nuru ilə addımlayıram və yollarımın işığına da etimadım gündən-günə artır. Sizin kimi dostlardan həmişə uğur arzuları eşidirdim. Sabah İL-18 təyyarəsi bizi universitetə çatdırmalıdır. Birisigün məşğələlər başlanır.

Mən ancaq indi müsahibimin kim olduğunu, nə məqsədlə gəldiyini başa düşdüm.

Əbül-Hissan Mosul nefti uğrunda ingilislərə qarşı mübarizə aparan bir fəhlənin oğludur. Onun atası Bakıda olmuşdur. Həmişə odlar yurdundan danışarmış. Qəhrəman 26-ları çox xatırlarmış... 26-lar Bağında yer kürəsinə dolaşan zəncirin qırıqlarını görəndə Əbül-Hissan mənə demişdi:

– Bu zəncir mənə tanışdır.

– Ərəb qardaş, yəqin burada olmuşsunuz?..

– Yox, olmamışam.

– Bütün məzlum Şərqi əsarətdə saxlayan bu zəncir deyildimi, imperialistlər həmişə bu zəncir vasitəsilə məqsədlərinə nail olmaq istəmirdilərmi?

Ərəb qardaş intizarımı görüb mənalı-mənalı baxdı və dedi:

– Bu zəncir Mosuldan da, Port-Səiddən də, Qahirədən də keçirdi.

– Keçirdi?

– Bəli, keçirdi.

– Ərəb fəhlələri də bu yolu tutdular!

Mən zəncirin qırılan halqalarını göstərdim. Əbül–Hissan fəhlə abidəsinin güclü əzələli qollarına işarə etdi:

– Sizdə də, bizdə də zəncirləri qıran bunlardır. Sabahkı dünyada bu biləklər zəncir qoymayacaqlar!

– Zəncir hələ lazım olacaq.

– Harada?

– Ərzin çox yerində müstəmləkəçilərin qollarını bağlamaq üçün. Salavatla donuz darıdan çıxmaz. Zəncirləri qırmaq üçün ağıl gücü də, əl gücü də işlətmək lazımdır.

Əbül-Hissan böyük bir izdiham qarşısında çıxış edən natiq kimi danışırdı, bu sözləri müqəddəs bir şüar kimi təkrar edirdi:

– Ağıl gücü də, əl gücü də lazımdır, qardaş! Salavatla donuz darıdan çıxmaz!

– Atalar nə gözəl deyib!

*1960*

# LƏYAQƏT

Yazbaşı bizim yerlərin səfası birə-min artır. Düz yolun sağında-solunda ucalan palıd, çinar, qoz ağacları səmada baş-başa verir, yaşıl don geymiş bahar bayramı üçün salamlaşırlar. Arxlardan axan dağ suları pıçıldaşır, çiçəklər aləmə ətir saçır, maşın şumal asfalt üzərində süzüb getdikcə adam həsrətini çəkdiyi gözəl təbiətdən doymur.

Bu dəfə biz dağ kəndlərindən birinə yubileyə gedirdik. Kənd məktəbinin yetmiş beş illiyi bayram edilirdi.

Üç yoldaş idik. Biri Zahid müəllim, bu məktəbin ilk şagirdlərindən idi. Mən bu məktəbin sovet dövründə ilk müdiri olmuşdum. Üçüncü yoldaşımız da maarif naziri Qəmərli yoldaş idi. Bu xoş səfər hər üçümüzün ürəyindən idi. Çünki adətən yubileylər, təntənələr çox zaman mərkəzdə, şəhərlərdə keçirilir, kənd məktəbləri, məktəbliləri bizim çox görüb yorulduğumuz, adi bildiyimiz mənzərələri görmür, həsrətini çəkirlər. Bir də ki insan öz uşaqlığını keçirdiyi məskənlərə qayıdanda keçmiş günləri daha canlı xatırlayır və xüsusən, bir zövq alır. Keçdiyimiz yerləri, sıra dağları, tək ağacları, qoşa bulaqları gördükcə,



bir-birimizə macal vermir, hər kəs öz gəncliyindən şirin-şirin danışmaq istəyirdi.

Əhvallı yoldaşlarla olan belə səfərlərdə söhbətlər, xatirələr – hətta mübahisələr çox, həm də maraqlı olur. Nədənsə adam çox zaman işdə, iclasda bir-birinə demədiyi, xətir-könül üçün udduğu sözü belə səfərlərdə udmur, çəkinmədən deyir.

Nazir yoldaşımıza müraciətlə dediklərim lap elə belə sözlər idi:

– Məmməd müəllim, sizin nazirliyin işlərinə, əlbəttə ki, mən yaxşı bələd deyiləm, qiymət vermək istəməyim də, üzlülük olar. Onu da bilirəm ki, bu çox böyük, çox da mürəkkəb və gələcəklə, keçmişlə bağlı bir nazirlikdir. İşi də əhatəli və çətindir. Burada işləyənlərin hünərli, davamlı-dözümlü adamlar olduğu da mənə gizli deyil.

Nazir bu müqəddimənin dalınca tənqid gələcəyini, deyəsən, duymuşdu. Sakitcə, diqqətlə qulaq asırdı.

– Amma bəzən sizin sahənizdə təəccüblü şeylərə rast gəlirəm ki, onu, doğrusu, başa düşə bilmirəm.

Məmməd müəllim, doğrudur, indi nazirdir, özü də hörmətli nazirlərdən biridir. Çox güman ki, bəziləri maarif işlərinin qüsurları haqqında onun yanında danışmağa ehtiyat edirlər. Ancaq mənim onunla aram açıqdır, uşaq vaxtı bir məktəbdə oxumuşuq, xoş və ağır günlər keçirmişik. Bir-birimizi yaxşı tanıyırıq.

– Təəccüblü şeylər, yəqin ki, siz işimizdəki qüsurlara deyirsiniz.

– Qüsur öz yerində, ancaq anlaşılmazlıqlar da var.

Nazir bu sözdən tutulan kimi oldu, qalxıb təzədən oturdu, alnının qırışlarını sığalladı və dedi:

– Maarif işlərində qüsurlar, həm də böyük qüsurlar olduğu mənə məlumdur. Bunların səbəbi də məlumdur. Siz anlaşılmazlıqlar dediniz var, bu nə olan şeydir, danışın eşidək.

– Başağrısı olar!

– De gəlsin!

– Bir az uzun söhbətdir.

– Əşi, işimizin adı nədir, de görüm, maraqlıdır?

Mən sözümü təkrar, yeni bir müqəddimə ilə başladım. Çünki əhvalatın özünü başdan danışmaq lazım idi.

– ...Məmməd müəllim, özünüz müəllim olmuşsunuz, tələbəyə düzgün qiymət vermək bilirsiniz nə deməkdir.

– Tələbəyə düzgün qiymət, dərsin də, müəllimin də meyarıdır.

– Düzgün qiymət vermək müəllim üçün çox çətin işdir.

– Əlbəttə ki, asan deyil.

Mən bir qədər sükut etdim, dirsəklənib yerimi rahatladım, sözümün maraq doğurduğunu hiss etdim, səsimin ahəngini dəyişdim.

– Müharibə təzəcə qurtarmışdı, qırx altı, ya qırx yeddinci il idi, keçən gündür, yaxşı xatırımda deyil, universitet məzunlarına rayonlarda çox ehtiyac var idi. Buraxılış zamanı mən bir tələbədən imtahan götürürdüm.

Tələbəni əvvəldən tanıyırdım. Bilirdim ki, babat oxuyandır, necə olsa, məndən qiymət alacaq. Biletdəki suallara tələbə cavab verəndə mən yuxudan ayılan kimi oldum. Gördüm ki, tələbə ədəbi-fəlsəfi mətləblərə yüksək nəzəri səviyyədən, özü də orijinal misal və sübutlarla yanaşır, elmi hökmləri dürüst sayır, məntiqlə qəşəng danışır. Bu cavablar babat oxuyan tələbənin cavabına heç oxşamır.

Misal var, deyir, atın gücünə baxıb yük çatarlar.

Mən əlavə suallar verdim, onlara da qəşəng cavab aldım. Lap inandım ki, tələbə çox hazırlıqlı, mühakiməli, həm də müstəqil mühakiməli müasir – əlaçı tələbədir. Bu məni çox sevindirdi. Məyus edən cəhət o idi ki, niyə bunu yaxşı tanımamışam. İlk semestrlərdə necə olub ki, bu, mənə orta səviyyəli, birtəhər sürünüb çulunu sudan çıxaran tələbə kimi təsir bağışlayıb?

Tələbə şirin danışdığı, misal təhlil etdiyi yerdə mən yavaşca onun zaçot kitabçasının ilk vərəqlərinə diqqət yetirirdim. Baxırdım, görüm birinci kursda bu məndən nə kimi qiymət almışdır.

Özündən əvvəlki nömrələrə baxıb tələbəyə qiymət yazmaq müəllim üçün böyük qəbahətdir. Öz dərsini, sənətini sevməyənlər, yoxlamada özünü zəhmətə salmaq istəməyənlər, tələbəsini tanımayanlar belə hərəkət edə bilərlər.

Belə müəllimə tələbənin də ehtiramı olmaz. Mən bu dəfə qəsdən zaçot kitabçasını bir dekan kimi nəzərdən keçirməyə məcbur oldum, çünki aşkar görürdüm ki, yanılmışam, tələbəyə haqsızlıq eləmişəm. Tələbə də nəcib, mərifətli olub səsini çıxarmayıb. Nömrə davası döyən gənclər var axı!



Mən burada təəccüblü bir mənzərə gördüm. Tələbə bütün dərslərindən, bir mənim dərsimdən başqa əla almışdı. Mən o zaman buna üç vermişdim.

İndiki cavabları isə üçə yox, beşdən də yuxarıya layiq idi.

Yalnız tələbəyə yox, cəmiyyətə haqsızlıq eləmişəm. Böyük olsun, kiçik olsun, hər hansı bir cəmiyyətin ləyaqəti orada adamların ləyaqətinə görə qiymət alması ilə ölçülür. Bu məni düşündürürdü. Necə olub ki, bu cür haqsızlıq etmişəm?

Əvvəlcə fikirləşdim ki, beş yazım getsin. Sonra dedim yox, əgər belə bir haqsızlıq olubsa, səbəbini öyrənməliyəm. Bu çox maraqlıdır.

– Birinci kursda sizə neçə vermişdim?

– Üç!

– Başqa dərslərdən?

– Hamısından beş idi.

Mən əlimdə qələm quruyub qalmışdım, pis vəziyyətdə qalmışdım. Bir tələbəyə, bir kitabçaya baxdım, başımı aşağı saldım. Tələbə görürdü ki, mənim deməli sözüm var. Hiss edirdi ki, onun qarşısında bir növ utanan kimiyəm.

Yenə tələbə nəcabətini büruzə verdi, günahı öz boynuna götürdü.

– Müəllim, olur da, adam yaxşı hazırlaşmır, proqramı əhatə edə bilmir...

O da mənə aydın idi ki, bugünkü cavablar əzbərçinin cavabı deyil, elmin əsaslarını möhkəm bilən, ixtisasını, dərsini sevən bir gəncin cavablarıdır. Mən kitabçadakı üçü göstərib açıq ürəklə tələbəyə müraciət etdim:

– Bəs nə təhər olub?

– Cavablarım zəif...

– Niyə zəif olub?

– Görünür, yaxşı hazırlaşa bilməmişəm.

Nə başınızı ağrıdım, tələbə Ləyaqət adlı ucaboy bir oğlan idi, adı da özünə layiq. Onun qabağında yaxşıca qızardığımı və kiçildiyimi hiss etdim. Qırx il müəllimlik etdiyim müddətdə belə utanmamışdım ki,

utandım.

Məmməd müəllim mənim dərdimə şərik oldu.

– Ondan ağır vəziyyət yoxdur, şagird ki müəllimin bir qəbahətini gördü, daha onu nə sevər, nə də ona inanar.

– Hələ dayan, sözümün canı var, mətləb başqadır.

– Buyur, qulaq asırıq.

– Mənimki axırıncı səhv olsaydı, dərd yarı idi. Sonradan təyinat zamanı lap pis oldu. Yazıq tələbə haqqında daha böyük bir haqsızlıq oldu. Universiteti güc-bəla ilə birtəhər qurtaranlar şəhərdə texnikumda, orta məktəbdə müəllim qaldılar. Ləyaqəti isə ən uzaq kəndlərdən birinə ibtidai məktəbə müəllim təyin elədilər. Orada da ixtisas dərsi olmadı, yazıq, aşağı sinifdə məşğələ aparmağa məcbur oldu.

Məmməd müəllim inanmaq istəmədi:

– Bəlkə, həmin rayonda boş yer yox imiş!

– Ləyaqətin ən pis oxuyan yoldaşlarından birini məktəb müdiri təyin elədilər.

Nazir dik-dik mənim üzümə baxdı:

– Doğrudan belə olubsa, çox təəccüblüdür.

– Elə mən bunu deyirəm də! Buna təəccüb eləyirəm ki, sənin kimi ayıq, təcrübəli bir nazirin gözü qabağında da belə işlər olur, necə olur, bunun səbəbini bilmirəm.

Nazir yerindən qalxıb dik oturdu, qəti cavab verirmiş kimi, mənə tərəf əyildi və ucadan soruşdu:

– Tələbənin adı nə idi?

– Ləyaqət!

– Famili nədir onun. Rəsulov deyil?

– Rəsulov!

– Ucaboy, qarasaç oğlandır.

– Ucaboylu, qarasaç.

– Qardaş, deyəsən, mən onu tanıyıram axı!

– Şəxsən tanıyırsınızsa daha pis!

– Tanıyıram. Qabaqtəpə məktəbindən.

– Özüdür, sakit təbiətli bir oğlandır, yoldaşlarından xəbər tutmuşam ki, indi Qabaqtəpə kənd məktəbində müəllimdir.



– Müəllim idi!

– İdi?

– Bəli, idi! İndi orada işləmir.

Mən fikirləşdim ki, görəsən, Ləyaqəti hara dəyişiblər?

– Necə, bəyəm?

Bayaqdan Məmməd müəllimin bulud kimi tutulan üzü yaz səması kimi açıldı, dodaqları qaçdı. Sevinc xəbəri verən və ya düz yol göstərən bir işıq kimi parıldayan balaca gözlərini üzümə zilləyərək başladı:

– Dayan, – dedi. – Müəllim, sən başlayan əhvalatın dalısını mən deyim. Məlum olur ki, siz hadisənin əvvəlini bilirsiniz, axırından xəbərdar deyilsiniz. Qabağında utanmağa məcbur olduğunuz gənc müəllim bu saat nazirlikdə çalışır, yaxşı da çalışır. Ləyaqət indi, məktəb şöbəsinə rəhbərlik edir.

– Nə danışırsan, əşi?!

– Bəli, Ləyaqət Rəsulov məktəb şöbəsinin müdiridir. Zirək, od parçasıdır. Nazirlikdə onu tanımayan yoxdur. Özünü də şəhər sovetinə, deputatlığa namizəd vermişik.

Nazir bu xəbəri elə sevinc və ürək rahatlığı ilə dedi ki, mənim sükutla, təəccüblə qulaq asdığımı görüb təkrar-təkrar təsdiq etdi ki, mən bilmədim, nə cavab verim.

– Bəli, bəli! Ləyaqət ləyaqətli cavandır və sizə də təşəkkür edirəm ki, elə gənclər tərbiyə edibsiniz.

– Eh, qardaş, bu əhvalat haçan olub?

– Lap bu il, məktəblər açılandan bir ay sonra...

Mən həmin əhvalatın təfsilatını danışmağı Məmməd müəllimdən xahiş etdim. O da məmnuniyyətlə danışdı:

– Məktəblər açılanda Mərkəzi Komitənin işçilərindən biri müəllimlər konfransında iştirak eləyir. Ləyaqətin nitqini eşidir, məktəbinə gedir, işi və planı ilə tanış olur. Sonra məktəb şöbəsinə adam axtaranda Ləyaqətin namizədliyini irəli sürdülər. Onu tanımayanlar dodaq büzürdülər. Şəhərə çağırmalı olduq. Ləyaqət hamımıza xoş təsir bağışladı. cavanlığına baxmadıq, onun hazırlığı, mərifəti, pedaqoji məlumatı, iş qabiliyyəti bizi təmin etdi, cəsarətlə irəli çəkdik. İndi onun məktəblərə rəhbərliyini görənlər deyirlər: "Ləyaqət kəşfdir."

– Doğrudan kəşfdir. Mən onun gələcəyinə, inkişafına çox ümid bəsləyirəm, məktəblərimizin belə adamlara ehtiyacı çoxdur. Ləyaqət sizin kimi qocaman müəllimlərin ləyaqətli xələflərindəndir.

Nazir mənim giley-güzarıma şərik olub deyirdi:

– Adam tanımaq, seçmək, ləyaqətə görə yer göstərmək barəsində bir bizdə yox, başqa nazirliklərdə də belə səhvlər olur. Olur, ancaq bu səhvlər uzun sürmür, tez üstü açılır. Əfəl adam məsul bir işə qoyulanda görürsən, yüz yerdən səs gəldi, etiraz oldu, ya da, siz deyən kimi, ləyaqətli bir yoldaş unudulanda kütlə görür. Görür və deyir. Bizim vəzifəmiz kütlənin dediyinə diqqətlə qulaq asmaqdır. Kütlə heç bir zaman yanılmır, özü də hər kəsə obyektiv qiymət verir. Kütlənin qiyməti sovet adamı üçün meyardır. Kənardakılar işimizə daha düzgün qiymət verir. Ləyaqəti də bizdən qabaq kütlə gördü və tanıdı. Onu xalq irəli çəkib.

– Xoşxəbər olasan, Məmməd müəllim, mən gərək qayıdan kimi onu təbrik eləyim.

– Ləyaqət buna layiqdir, eləyin!

*1960*



# ÖMRÜN MƏNASI

Müəllimlər qurultayına nümayəndə seçildiyimi biləndə, təbii, xeyli sevinmiş, həmkarlarıma təşəkkür etmişdim. Nümayəndə olmağın bütün başqa məziyyətləri bir kənara dursun, uzun illər ayrıldığım, uzaq düşdüyüm bir çox yoldaşlarla bir yerdə görüşmək ümidi məni daha çox sevindirirdi. Həyat sürətli, mürəkkəb, iş çox, vaxt az, adamlar həddindən artıq məşğuldurlar. Xatirini istədiyin, söhbətindən, ünsiyyətindən xüsusi zövq aldığın yaxın yoldaşı da bəzən aylar, illərlə görmürsən.

Respublika miqyasında çağırılan konfrans və qurultaylar imkan verir ki, yoldaşlar yaxından görüşüb əhvallaşsın, bir-birinin işi ilə yaxşı tanış olsun, müvəffəqiyyətlərinə sevinsinlər.

Bu ümidlə də mən müəllimlər qurultayında çoxdan ayrıldığım yoldaşların bəzisi ilə görüşüb sevinmişdim. Bu görüşlər yalnız indiki şəraiti, vəziyyəti əks etdirmək yox, həm də keçən günlərin xatirələri kimi mənalı və maraqlı idi.

Ancaq bir adam haqqında ümidim boşa çıxmışdı. O da iyirmi-iyirmi beş il bundan əvvəl bir yerdə, bir məktəbdə işlədiyim, bir müəllim,

tərbiyəçi kimi xatirini çox istədiyim Ülkər xanım idi. Ülkər xanım bizlərdə məktəblilərə həssas ana nəvazişi ilə yanaşan tanınmış məşhur müəllimlərdən idi. Mətbuatda da haqqında çox yazılmış, kitablarda adı çəkilmişdi. İki-üç il əvvəl bir məktubla ona müraciət edib əhvalını soruşmuşdum. O da təvazökar bir cavabla Xanarxı kəndinin orta məktəbində işlədiyini, işinin çox və maraqlı olduğunu, uşaqlarından razı qaldığını bildirmişdi.

Təəssüf ki, bu qurultayda Ülkər xanımı görmədim. Əvvəlki qurultaya mən gəlməmişdim. İndi də yəqin o, nümayəndə deyildi, belə bir hörmətli yerə, nədənsə Xanarxı rayonunun maarif şöbəsi onu layiq görməmişdi.

Bu barədə təəssüf eləsəm, məyus olsam da kimsəyə demədim, deməyi lazım bilmədim. Ancaq şəhər Soveti sədrinin yanında, hökumət nümayəndələrinin qəbulunda, teatr tamaşalarında rast gəldiyim dəstə-dəstə müəllimləri gördükcə zehnimdən bu sual keçirdi: "Ülkər müəllimin yeri görünür".

Bir neçə gündə biz xalq maarifinin inkişaf yolları, dərs proqramları, yeni politexnik tərbiyə, səkkizillik, onbirillik məktəblər haqqında çox mötəbər adamların məruzə və çıxışlarını eşitdik, mübahisələr gördük, müzakirələr keçirdik, qərar, qətnamələr qəbul etdik... Qurultayın işi qurtarhaqurtar idi. Müəllimlər Ali Sovet sədrinin otağına toplanmışdılar. Bu, ən sevincli bir gün idi. Təltif olunanların familiyası əlifba sırası ilə oxunurdu. Hər adamın adı çıxdıqca əyləşənlər onu təbrik edir, əl çalırdılar, təltif olunan yoldaş qabağa gəlib sədrin əlini sıxır, təşəkkür edir, qırmızı qutuda ordenini, ya medalını alırdı. Burada da Ülkər müəllim bir işıq kimi zehnimdən keçdi. Bu sualı başımdan təzəcə keçirmişdim ki, mənim üçün gözlənilməz bir hadisə baş verdi.

Katib əlindəki siyahıda oxudu:

– Atamova Ülkər Həsən qızı...

Deyəsən, mənim ürəyimdən keçənləri duymuşdular. İxtiyarsız olaraq, öz-özümə dilləndim:

– Necə?

Görünür, zehnimdən keçən sualı katib eşitmişdi. Sözünü bir az da ucadan təkrar etdi:



– Atamova Ülkər Həsən qızı!

Mən təəccüb elədim. Məgər Atamova Ülkər nümayəndədir, məgər o buradadır?

Necə olub ki, üç günün müddətində mən əziz yoldaşımı, köhnə həmkarımı, çoxdan görüşünə həsrət olduğum müəllimi görə bilməmişəm!..

Onu da deyim ki, Ülkər müəllim yalnız mənəviyyat, ictimai fəaliyyət cəhətdən yox, görkəmcə də seçilən, gözəgəlimli bir qadın idi. Boyuna, düzdür, orta yox, qısa demək olardı. Bəlkə də, orta saymaq olardı. Ancaq iri, açıq, dairəvi çöhrəsi, gülər üzü, çatma qaşları, oynaq, iri qara gözləri var idi. Sanki bu gözlər oxumaqdan çox məktəb uşaqlarının hərəkətini, duruşunu, oturuşunu izləmək, diqqət altına almaq üçün həmişə geniş açılır, hər şeyi əhatə etmək istəyirdi.

Xüsusilə Ülkər xanımın göyərçin kimi ağır, ahəngdar yerişi, sol qolunda dirsəyi ilə ovcu arasında dəftər-kitabı rəssam rəngi tutan kimi tutmağı heç yadımdan çıxmaz. O, sinfə gələndə uşaqlar, məşq üçün dəftər paylanacağını çox gözlərdilər. Müəllim bu dəftərlərin səliqəsi ilə uşaqlara qiymət verərdi. Yazı düz olsa da, səliqəsizliyə görə həmişə nömrəni əsirgəyərdi.

Mümkün idimi ki, Ülkər xanım bu məclisdə ola, mən onu görməyəm. Ay kimi aydın, iri, girdə çöhrəsi seçilməyə...

Mən qabaq tərəfdə oturmuşdum. Müəllimin adı çəkiləndə çox maraqlı bir xəbər eşidən kimi, arxaya dönüb bütün sıraları gözdən keçirməyə, Ülkəri axtarmağa başladım. Bir az da boynumu yuxarı uzadıb boylanır, o yan-bu yana döyükürdüm. Ülkərin hansı sırada əyləşdiyini, indi bu dəqiqə haradansa qalxıb, göyərçin yerişi ilə tribunaya tərəf gələcəyini ürək döyüntüsü ilə gözləyirdim.

Ancaq buralarda Ülkərdən əsər-əlamət görünmürdü.

Bu necə işdir? Ülkər burada yoxdursa, katib nə üçün onun adını çağırır?

Olur, bəzən təltif zamanı orada olmayan yoldaşın adını çağırırlar. Çağırırlar, ancaq gəlmədiyini görüb ötür, siyahının dalısını oxuyurlar. Burada belə olmadı. Ülkərin adı çıxanda, özü görünməyəndə katib səbirlə dayanıb dururdu. Mən sıraları nəzərdən keçirəndən sonra tribu-

naya baxırdım. Görürdüm ki, sədr də, katib də Ülkər üçün dayanıblar – deyəsən məclis də bir hörmətli adamı gözləyən kimi, intizarda dayanıbdır!

– Ülkər bəs hanı?

Yəni Ülkər bu məclisdə çətin görünən balaca bir adamdır?

Xeyr!

Ülkəri mən öz bacım qədər yaxından və yaxşı tanıyıram. O, görkəmli bir qadındır! Beş yüz qadının içində olsa da baxan kimi seçərdim. O, burada olsa çoxdan görüşmüşdük.

Bu intizarlı vəziyyət uzun sürmədi və sürə də bilməzdi. Sıralardan çətin eşidilən bir pıçıltı keçdi. Ümumi alqış səsi təkrar ucaldı. Bilmirəm hansı sıradan, nə vaxt isə çıxıb payandazın üstü ilə xəyal kimi səssiz yeriyən bir müəllimi görəndə gözlərimə inanmadım. Müəllim utandığından başını qaldırmadı. Ayaqlarının ucuna baxa-baxa məğrur yerişini pozmadan alqışlar altında sədrin stoluna yaxınlaşdı. Bu yeriş deyəsən, mənə tanış idi.

"Bu Ülkərdirmi? Mən axtaran müəllim budurmu?"

Sıranın kənarına əyilib müəllimin üzünə diqqətlə baxdım.

Qocalıq, gərgin və ehtiraslı əmək, mübarizə illəri öz işini görmüşdü. Tutulmuş ay kimi zəif, solğun simasında Ülkərdən bir nişanə olaraq yalnız yanağındakı qara xal, bir də qüdrətdən çəkilmiş qələm kimi çatma qaşlar qalmışdı!

Heç vaxt güman etməzdim ki, Ülkər xanım qocalanda bu qədər dəyişəcək, tanınmaz olacaqdır. Görünür, bu dəyişmə o qədər səssiz, tədrici gedir ki, adam özü hiss etmir, yəqin, uzun müddət məndən ayrı düşən yoldaşlar da indi məni görəndə bu qədər təəccüblənirlər.

Nişanlarımızı alıb qurultay binasından çıxanda məktəbli qız və oğlanların Ülkər müəllimi gül dəstələri ilə qarşıladığını gördük. Onlar müəllimi doğma anaları kimi əhatə edib dindirir, hərəsi bir dil ilə məktəblərinə dəvət edirdilər.

Mən Ülkərin səadətini Vətən balalarının gələcəyə istiqamətlənən ayıq baxışlarında, həyatın bütün nemətlərini əks etdirən şən gülüşlərində, xalqa etibar, iftixar və minnətdarlığını ifadə edən ehtiram və rəftarında görürdüm, özüm də bu mənzərəyə küsənirdim.



Bir çox gənclərin, uşaqların, baharda dağlardan çağlayıb gələn dağ suları kimi duru və səsli gülüşlərində Ülkər müəllimin müqəddəs əməyinin, ictimai məzmunlu ömrünün dərin mənasını görürdüm.

*1960*

# SƏYYAH XANIM

Səyyah xanımı siz tanıyırsınız. Əgər məzuniyyətinizdən istifadə edib səyahətə getmək fikrinə düşmüşsünüzsə, ya getdiyiniz şəhərlərdə sərgilər, muzeylər, tarixi abidələrlə tanış olmaq istəmişsinizsə, mütləq bu xanımla görüşmüsünüz, ya qarşınıza çıxmışdır.

– Xeyr, çıxmamışdır!

– Siz bunu hiss etməmişsinizsə, görünür, fikirli, ya bəlkə də, yuxulu olmuşsunuz. Çünki Səyyah xanım heç vaxt belə yerlərdən geri qalmaz və heç kəsi də nəzərdən qaçırmaz. Səyyah xanım özü o qədər də cavan deyil. Otuz beş-qırx yaşlarında olsa da, cavanlar yanında özünü cavan, qocalar yanında qoca sayır və hamının işinə qarışır.

Nəinki qarışar, həmişə hər işin ustası, hər yerin bələdçisi kimi göstəriş verməyi sevər:

– Kənardan gələn adam olanda özünüzü tox tutun. Heç bir mağazaya, ya kioskaya baxmayın, heç nə də almayın, sonra deyərlər bunlar görməmişdir. Oturanda yana baxmayın, yeyəndə qaşığı elə tutmayın, bərkdən öskürməyin, lapdan asqırmayın. Mən özüm Romada olanda



bir həkimin işi barəsində...

Yoldaşlar suallı nəzərlə bir-birinin üzünə baxır:

– Yuyulmamış qaşıq kimi ortaya atılan bu qadın kimdir?

– Kimə moizə oxuyur?

– Tanımırsan?

– Birinci dəfədir görürəm.

– Birinci olar, axırıncı olmaz.

– Necə bəyəm?

– Bu Səyyah xanımdır, bunu tanımayan yoxdur. Gedənə yoldaşdır, gələnə sirdaş!

– Haranı qurtarıb?

– Haranı qurtarmayıb! Bütün marşrutları sağdan-sola, yuxarıdan aşağı addımlayıb. Göydə, yerdə, suda yol qalmayıb getməsin.

– O qədər pulu haradan?

– Görünür qazanır. Tək adamdır, nə ailə, nə uşaq, həmişə səyahətdədir...

İki gün keçmir ki, siz Səyyah xanımı əməlli-başlı tanıyır, saya salmağa məcbur olursunuz.

– Səyyah xanım, sabahkı proqramımız sizdə varmı?

– Sabah tezdən zavtrakdan sonra rəsədxanada, günorta saat birdə köhnə kilsədə, şamdan sonra, yeddi tamamda da, sənət ustalarının konsertində olacağıq. Gecikməyin, köynəyiniz ütülü, boğazınız qalstuklu olsun. Üzünüzü tərtəmiz qırxdırın, yanınızca sənəd götürün, fotoaparatları mənzildə qoyun!

Bəli, Səyyah xanım haqqındakı təsəvvürləriniz də yavaş-yavaş dəyişməli olur. Əvvəl yad adam kimi ona soyuq baxırdınız, amma indi, deyəsən, işlərin çoxu onun əlindən gəlib-getdiyini, bu yerləri tanıdığını, xarici dillərdən də başı çıxdığını görürsünüz. Səyyah xanım bizim dəstədə bəlkə də ehtiram sahibi olardı, amma səyahətdə elə bir hadisə baş verdi ki, Səyyah xanımın nəinki hörmət qazanmağına, hətta gələcək səfərlərə icazə almağına da mane oldu.

Dünənə qədər bilici kimi yetənə komanda verən qadın sudan çıxmış toyuq kimi yazıq-yazıq dayanıb yoldaşlarından kömək gözləyir, "birtəhər düzəldin, yazılmasın, briqadirdən xahiş edin, siz balalarınızın

əziz canı, məni bu xatadan qurtarın..."

Xata, xata nə xatadır? Əhvalat belə oldu.

Əjdər adlı bir mühəndis yoldaşımız var idi. Savadlı, zirək, görkəmli, deyib-gülən oğlan idi. Səyahətimizin axırında, Bakı təyyarə meydanında yerə enəndə, dost-aşna ilə salamlaşanda nə isə Səyyah xanımın başı ötmür, səsi eşidilmirdi. Briqadir xahiş etdi ki, sabah saat ikidə həmkarlar salonunda yığışaq. Məsləhətləşək, söhbət eləyək. Komitə katibi yoldaşlarla görüşmək istəyir.

Həmkarlar salonuna doğrudan da hamı toplanmışdı. Komitə katibi görüşəndən, hamını kefi saz, damağı çağ görəndən, əhvallaşandan sonra çox sevindi. Hər birimizin təəssüratları ilə maraqlandı.

Hər kəs öz təəssüratını danışdı, həmkarlar təşkilatına təşəkkürünü, minnətdarlığını bildirdi.

Bəlkə də söhbət bununla qurtaracaqdı. Əgər mühəndis Əjdər katibdən xüsusi bir xahiş eləməsəydi.

Xüsusi deyəndə, o qədər də xüsusi deyildi. Əjdər katibdən xahiş elədi ki:

– Biz, yoldaş katib, gələcəkdə səyahətlərin düzəlməsində, yaxşılaşmasında məsləhət verə bilərikmi? Bəlkə də bu məsləhətlər təşkilat üçün faydalı oldu.

Katib məmnuniyyətlə Əjdəri dinləməyə hazır olduğunu, belə məsləhətlərin mütləq gələcək işdə nəzərə alınacağını vəd etdi.

Əjdər şəhadət barmağını düz Səyyah xanımın sifətinə tərəf uzadıb dedi:

– Gələcəkdə belə yoldaşları bizlərə qoşmasanız çox yaxşı olar!

– Ay nə dedi!

– Çox doğru sözdür.

– O xanımı dincəlməyə göndərək.

– Bir məktəbə qoyun oxusun.

– Qırx yaşı var, canım.

– Ağıl yaşda deyil, başdadır.

– Başına nə gəlib?

– Baş sahmanda deyil.

– Köhnə başdır...



– Rəndə görməyib!

– Düzələr, düzələr!

Əjdər hamıya müraciət elədi:

– Mən də əminəm ki, düzələr, amma nə qədər ki düzəlməyib, onu dəstələrə qoşmaq olmaz.

– Yoldaş komitə katibi, Səyyah xanım bu kollektivə yaraşmaz.

– Qətiyyən yaraşmaz!

Haqqında yaxşı danışan olmadığını görüb Səyyah xanım ayağa qalxdı, tərcümeyi-halını danışmaq istədi:

– Özüm iki dəfə İtaliya səfərində olmuşam, bir dəfə də töhmət almamışam, özüm Qəndilovun bacısı qızıyam, teatr cəmiyyətinin də üzvlüyünə həvəskaram, klubdakı ölkəşünaslıq dərnəyində də neçə ildir iştirak edirəm. Yoldaş katib də məni tanımamış olmasın gərək...

Səyyah xanım yazıq-yazıq katibin üzünə baxıb, mərhəmət umanda, katib Əjdərə tərəf döndü:

– Əjdər yoldaşın dediklərini biz gələcəkdə işimizdə mütləq nəzərə almalıyıq. Səyyah xanım özü də gərək başa düşə ki, indi nə zəmanədir, adamlar dəyişib, işlər təzələnib, insanlara münasibət də yüksək səviyyədə!

Yoldaşların hər biri mədəniyyət tələb edir... Rəftarda, danışıqda, gəzməkdə, oturub-durmaqda, hər addımda nəcabət, həssaslıq! Hər yerdə nəzakət, mərifət naxışdır, bizim müasir cəmiyyətimizdə insan ləyaqəti hər şeydən üstün tutulur. Xüsusən, Səyyah xanım, qadın xeylağı gərək başqalarına nümunə olaydı. Amma çox təəssüf!

– Zənnimcə, xanım bunları nəzərə alar?!

Katib sual ilə Səyyah xanıma tərəf baxdı.

O da başı ilə işarə elədi:

– Baş üstə!

– Başın düşüncədə!

*1960*

# ƏRİK AĞACI

Uzun müddət ayrıldığınız və həmişəlik unutduğunuz, hətta "öldüyə" çıxdığınız əziz bir dostla üz-üzə gəlsəniz, nə cür olarsınız?

– Paho, bu nə işdi, görəsən?!

Təsəvvür edin ki, bu mənim öz başıma gəlmişdir. Xəyal, ya ehtimal yox, bir həqiqətdir ki, sizə danışmaq istəyirəm.

Deyəcəksiniz, bu məqamda adam özünü itirər, qəşş eləyər, amma nə özümü itirdim, nə də huşum başımdan çıxdı. Əksinə, bu hadisədən sonra mənim başıma yeni fikirlər gəldi, çox mətləblər mənə aşkar oldu. İnsanın gücünə, insan əlinin güdrətinə inam və etiqadım qat-qat artdı. Torpaqda möhkəm duranların necə xarüqələr yarada bildiyini ancaq indi aydın dərk edirəm.

Hər məxluqun körpəsi zəif və möhtac olur. Körpələr kömək, himayə görməsə, yəqin ki, məhv olub gedər, yaşaya bilməzlər. Bəlkə, buna görə təbiət insanların qəlbində körpələrə mərhəmət hissi qoymuşdur. Normal insan, kim olur-olsun, nə əqidənin, peşənin sahibi, hansı millətdən, cinsdən olur-olsun, körpələrə kömək və mərhəmət hissi bəsləyir.



Birində az, birində çox, birində aşkar, birində də qapalı olur. Ancaq bu hiss hamıda olur.

Gümrah və kök bir qoyunu kəsib kabab çəkməyə tələsənlər də əmlik quzuya ot və su verməkdən ləzzət alırlar. Kəklik-qırqovulu, turacı vurub yerə salan ovçular sələcədə civildəşən quş balalarına toxunmaz. Bu, nəcib və mənalı bir hissdir.

Çalışdığım məktəbin təzə tikilmiş binasında müəllimlər otağı lap kənarda, qurtaracaqda idi. Səhər tezdən mən qapı ağzında dayanıb dəstə-dəstə dərsə gələn uşaqlarla salamlaşır, həm mənəvi zövq alır, həm də bir müdir olaraq nəzarət vəzifəmi icra edirdim.

Zəng çalınandan, qapı-bacada səs kəsiləndən, müəllimin də, məktəblinin də dərsə başladığını düşünəndən sonra xüsusi bir ürək rahatlığı ilə içəriyə, müəllimlər otağına qayıdırdım. Pilləkənin yanında, günəş az tutan, əl-ayaqdan kənar yerdə bir tingin göyərdiyini gördüm. Əyilib diqqətlə baxanda ərik olduğunu tanıdım. Keçən yayda müəllim yoldaşların həyətlərindən gətirdiyi şirin ərikləri yediyimiz yadıma düşdü. Yəqin ki, həmin tumlardan buraya düşüb göyərmişdi.

Bayaq dediyim hiss qəlbimi tərpətdi. Mən ərik tinginin ətrafına çubuqlar sancdım, dibinə su tökdüm. Ting iki-üç qarış qalxmış, zərif yarpaqları ilə işığa doğru yönəlmişdi. Niyyətimdə tutdum ki, bir qədər böyüyəndən sonra tingi çıxarıb geniş bir yerdə basdırmaq lazımdır. Ancaq bu niyyəti oradaca unutdum. Çünki bu kiçik hadisə dəhşətli bir zamanda baş vermişdi.

Qırx birinci ilin yayı Vətənimizdə fəlakətli bir yay idi. Başımızdan nagəhani əsən "acı ruzigar" səmum kimi hər şeyi tufana tutmuşdu. Dağlarda lalələr, bağlarda meyvələr, tarlalarda ağır başlı sütül sünbüllər rəngini, ruhunu, mənasını dəyişmişdi.

Əziz və xoş bahar bu il kimsədən təbəssüm və nəvaziş görmür, gözləmirdi. Adamların qaya kimi sərt, bulud kimi tutqun simasından kədər, qayğı, intizar, qəzəb yağırdı... Vətənin köməyə çağıran yaralı səsi bütün qəlbləri tərpətmişdi. Yerindən qalxan silahını, çantasını götürüb əzizləri ilə vidalaşır, səfərbərliyə gedirdi. Mənim hərbi komissarlıqdan çağırış aldığımı, sabah yola düşməli olduğumu bilən Nəbi dayı mənzilimə gəlmişdi.

– Yoldaş müdir, bəlkə, tapşırığınız-zadınız oldu. Mən necə ki buradayam, necə ki nəfəsim gəlir, məktəbi göz bəbəyi kimi qoruyacağam.

– Nəbi dayı, – dedim, – cavanlar gedəcək, yalnız sənə arxayınam. Gecələr qarovul qoyun, damlarda gözətçi olsun, demək olmaz, vəhşilərə etibar yoxdur: məktəb, xəstəxana, kitabxanaya od vurarlar. Bu maarif ocaqlarını neçə illər boyu nə zəhmətlə tikib düzəltmişik. Qorumaq gərəkdir, arvad–uşağı da təlimə gətirin, köməkləşin.

Biz ölsək də, məktəb yaşamalıdır, vətən balaları oxumaqdan qalmasın gərək.

Mənim dediklərimi Nəbi dayı diqqətlə dinləyirdi. Əlini əlinin üstə qoyub dayanmış, sanki ürəyini dolduran qəzəbi və təəssüfü izhar üçün münasib vasitə axtarırdı.

Bu qocanın on ildən bəri məktəb üçün nə zəhmətlər çəkdiyini – həyətini, bağçasını, odununu, suyunu, işığını necə sahmanla saxladığını hamıdan yaxşı mən bilirdim.

İnsan xoş gününün qədrini təhlükə yarananda bilər. Həmişə adi saydığım məktəb, həyət, uşaqlar, müəllim yoldaşlar, həmin bu Nəbi dayı indi mənim gözümdə daha da böyümüş, daha da əziz olmuşdu. Sanki dinc və xoşbəxt məktəb həyatını, uşaq oxutmaq kimi bəxtiyar bir peşəni tərk etməli olacağımı, bəlkə də, həmişəlik tərk etməli olacağımı dərk etdiyim üçün hər şey gözümdə ayrı cür olmuşdu.

Geyinib yola hazırlaşandan sonra sinif otaqlarını, eyvanı, kabinetləri, bağçanı, hasar diblərini addım-addım gəzdim. Sanki, hər qarış torpaq, hər daş, kərpiclə vidalaşırdım.

Mənim həyəcan və təlaşımı, görünür, hamıdan çox Nəbi dayı duymuşdu. Pilləkən yanında ərik çərdəyindən göyərmiş tingi də Nəbi dayıya göstərdim:

– Buna da bax, heyifdir, gözlə!

Nəbi dayı ilə, məktəbdəkilərlə əl verib görüşəndən, öpüşəndən, çantamı çiynimə salandan sonra qapıda dayanıb çox həsrətlə məktəb binasını seyr etdim.

Ən böyüyü dördüncü sinifdə olan məktəb uşaqları mənə pəncərə qabağında təzəcə yarpaq açıb günəşə doğru yönəlmək istəyən ərik ağacını xatırladırdı. Müasir, dəhşətli müharibələrin bir küləyi buralardan



keçsə bəsdir, məktəb nədir, bütün kəndi süpürüb aparacaq. Bombalara, yanğına, təxribata məktəbmi, bağ-bağçamı dözər?

Görünür, Köşkü məktəbinə bir də qayıtmaq mənə qismət deyilmiş. Müharibə illərini, səfərləri, döyüşləri keçirəndən, cəbhədən bir müəllim yox, yaralı bir əsgər kimi qayıdandan, müalicədən sonra məni şəhərdə sənaye texnikumuna hərbi müəllim təyin elədilər.

Köşkü məktəbi, orada qoyub gəldiyim uşaqlar, Nəbi dayı, demək olar ki, mənim yadımdan çıxmışdı. Müharibə adamın hisslərini sərtləşdirir, ən dəhşətli təsadüflərə qarşı hazırlayır.

Cəbhədə təltif olunduğum günlərdə gələn təbriklər içərisində Köşkü məktəbi kollektivinin də məktubunu mənə verdilər. Qızğın döyüş günlərində məktəb, dərs, zəng səsi, Nəbi dayının güləş siması şirin yuxu kimi nəzərimdən keçir.

Bir dəfə hərbi məktəbdə Nəbi dayı gəlib məni tapmışdı. Əhvallaşandan sonra qocaya müraciət etdim:

– Nəbi dayı, bizə görə qulluq? Bəlkə bir xahişin var?

Görünür, kişi bu sualı gözləmirmiş. Dik ayağa qalxdı, xurcununu qurdaladı:

– Salamat qayıtmağını eşidib hamımız sevinmişdik. Köşküdə həmişə söhbətiniz olur. Sizə çoxlu salam gətirmişəm, ayrı bir xahişim yoxdur.

Qoca xurcundan çıxardığı səbəti yerə qoydu:

– Məktəb bağının meyvəsindən novbar gətirmişəm. Özünüz gəlmirsiniz, barı meyvədən dadın.

– Ağzın şirin olsun, nə zəhmət çəkmisən.

– Zəhmət deyil, borcumdur. O bağın binasını sən qoymusan axı.

Nəbi dayının orada olmağı, məktəb bağına həmişəki kimi bağbanlıq eləməyi məni çox sevindirdi, ürəyimdə Köşkünü bir də görmək arzusu gücləndi.

Bu yay müəllim yoldaşlarımla dağlara səyahətə çıxmışdım. Gəncə dağlarından, Köşkü kəndinin yanından ötəndə məktəb yadıma düşdü. "Buraya baş çəkməmək namərdlik olar", – dedim. – Yoldaşlarım da razılaşdılar.

İyirmi ilə yaxın bir müddətdən bəri ayrıldığım kəndə yaxınlaşdıq-

ca ürəyimin döyüntüsü artırdı.

Köşkü, dağlardan enən dar dərənin o tay-bu tayında salınmış kiçik bir yaylaq kəndidir.

Rayon kövşənlərinin qurtaracağından yuxarı diklənəndə Köşkü evləri pillə-pillə düzülmüş əlvan arı pətəklərinə bənzərdi. Məktəb dərənin sağında, güney yamacda idi.

O zaman biz buraya at-faytonla çətin gələrdik. İndi kəndin içindən abad maşın yolu ilə keçib rayon mərkəzinə gedirsən. Düzdür, maşınla gəzirdik, ancaq mən sağıma-soluma baxır, iyirmi il əvvəl gördüyüm yerləri tanımaq istəyir, tanıya bilmirdim. Cığır kimi balaca küçələr sökülüb-dağılmış böyük yollar, sağ-solda daş evlər salınmışdı. Yalnız üfüqü örtən qocaman ağaclar, dərəyə enən meşə cığırları keçmişi xatırladırdı. Məktəbin yerində sıx ağaclıq, bir qədər uzaqda isə ağ daşdan tikilmiş çoxpəncərəli bina görürdüm.

Şoferdən soruşdum:

– Bu nə binadır?

– Məktəbdir.

– Yəqin, təzə məktəbdir?

– Bəli, üç-dörd il olar tikilib, onillik!

– Bəs köhnə məktəb binası hanı?

– Köhnə bina görünmür. Orada indi uşaqlara yeməkxana düzəldiblər.

– Bu ağaclıq nədir qabaqda?

– Məktəbdir, məktəbin bağı!

"Bağ" sözünü eşidəndə Nəbi dayının sözü yadıma düşdü. Yəqin, dedim, o kişi indi buralarda, ağacların dibində əlləşir. Biz maşından düşüb böyük dəmir darvazadan həyətə girəndə, ağacların altında qocalar kimi sakit dayanan köhnə binanı görəndə, alçaq pəncərələrə gözüm sataşanda məktəbi – keçmiş əziz bir müsahibimi tanıdım. Necə tanımayım. Əlimdə jurnal səhər-axşam girib-çıxdığım, cücəli toyuq kimi körpələr əhatəsində deyib-güldüyüm cavanlıq illərimi, şən günlər keçirdiyim yerləri necə tanımayım. Deyəsən, bu bina kiçilmişdi, çox kiçilmişdi. Özü də "qocalmış", soluxmuş, rövnəqini itirmişdi.

Mən dayanıb ətrafıma baxdım, gəldiyim yeri diqqətlə varavurladım.



– Təzə məktəb?

Mən bu sözü deməmiş, ağbaş, qısaboy, əsalı bir kişinin yaşına uyğun olmayan cəldliklə yaxınlaşdığını gördüm:

– Təzə məktəb qabaqdadır. Bura indi yeməkxanadır.

– Nədir?

– Yeməkxanadır.

O, əsasına dirənərək, dik-dik mənim üzümə baxmaqda, sanki daha yeni suallar gözləməkdə idi. Güman ki, mənim üzümdə nabələd adamın baxışını görməyən, başqa məna duyan qoca, bir addım da irəli yeridi.

– Bağışlayın... Siz... Bu yerlərdə olmamısınız? Sizi mən ayrı bir yoldaşa oxşadıram, axı?

– A kişi, sən Nəbi dayı deyilsən?

– Ay müəllim! Sağ olmuş, niyə nişan vermirsən, məni çaşdırırsan, qardaş. O boyda da qocalmamışam axı!

Kişinin danışığı, hərəkəti keçmiş günləri tamam gözümün qabağına gətirdi. İri gövdəli, cəld hərəkətli, iti baxışlı Nəbi dayıdan yalnız bir eskiz, bir də xırıltısı artan səsi, dağ ləhcəsi qalmışdı. Mən təsəlli vermək istədim:

– Nəbi dayı, həmin adamsan, heç dəyişməmisən.

Qoca əlindəki əsa ilə, qar kimi ağarmış saqqalını göstərdi:

– Ömürdür, keçir, bəs nə əcəb bizi itirib-axtarmırsınız, müəllim?

– Macal olur ki, ha çalışıram, bir bu yana yolum düşmür.

– De, xoş gəlmisiniz, indi siz görən məktəb deyil, böyüyüb, onillik olub, dörd yüzdən çox uşaq oxuyur.

– Nəbi dayı, bu ağaclıq, yəqin, sizin işinizdir?

– Xeyr, mənim niyə, binasını siz qoymusunuz, uşaqlarla köməkləşib artırmışıq, bağ eləmişik.

Nəbi dayı məni yeməkxananın kənarında cərgələnmiş meyvə ağaclarına tərəf çəkdi:

– Bu ting. Yadınızdadırmı, dava vaxtı mənə tapşırmışdınız. Buyurun, – kişi sinədolusu iftixarla: – Əmanətinizi təhvil alın! – dedi.

Mən dayanıb qollu-budaqlı, başında qaysı qızaran ağaca təəccüb-

lə baxırdım:

– Həmin tingdir?

– Özüdür.

– Yox canım?!

– Özüdür ki, var!

Nəbi dayı yaradanlara məxsus bir qürurla ağacın budağına, meyvələrinə baxırdı:

– Görürsənmi, nə qanadlanıb.

Ayrı vaxt olsaydı, uşaqlıq illərimi yad edib dərhal ağaca dırmaşar, budaqlardan öz əlimlə qaysı dərməyə tələsərdim.

Amma indi, qoca bağbanın sözü məni lap çaşdırmışdı. Heç inana bilmirdim ki, çöp kimi qoyub getdiyim ting nəhəng ərik ağacına çevrilmişdir. Müəllimlər otağında qaysı yediyimiz günləri xatırladım. Doğrudanmı bu həmin tingdir? Nə qədər də böyüyüb qol-budaq atıb, elə bil göyə çatacaq. Ağacın gövdəsi möhkəm olduğundan görən, bəlkə də otuz-qırx yaş verərdi. Mən sanki dünənki körpənin belə böyüyüb nəhəngə döndüyünə sevinc və təəccüb içində heyran-heyran baxırdım.

Nəbi dayı da bu mənzərədən sevinirdi. İrəli yeriyib cərgələnmiş ağacları göstərdi:

– Bu bağçanın binasını siz qoymusunuz. Uşaqlar bəsləyib böyüdüblər. Bax, bu cərgə badam, bunlar payızlıq armud, yandakılar gülöyşə nar, iydə ağaclarıdır. Sizin qaysı şah ağacdır. Bunlar hamısı ondan sonra basdırılıb, hamısı da indi meyvə verir. İnternatda oxuyanların meyvəsi, kompotu, mürəbbəsi məktəb bağındandır. Bir kəsə minnətimiz yoxdur.

Mən bağbana təşəkkür deməyə münasib söz tapmırdım. Belə gözəl bağ-bağçanın bağbanı qarşımda idi. İri gövdəli kişi indi bəslədiklərinin əksinə olaraq, elə bil ki, kiçilmiş, zəifləmiş, yüngülləşmişdi.

Nəbi dayı mənim qarşımda bələdçi, bağban yox, böyük məna və mətləblərdən xəbər verən hörmətli bir sima kimi dayanmışdı. İndi mən onun əlini sıxmaq, önündə təzim edib təşəkkürümü bildirmək arzusunda idim. Ancaq belə bir qəlb sahibi, torpağın, günəşin, əzəmətli dağların oğlu, quş kimi səs-səsə verən vətən balalarının ləyaqətli atası, müəllimi, əmək ustası – uşaqların gələcəyi üçün belə bağ bəsləyə bilərdi. Sıralanmış





ağaclar da sanki qoca bağbanın yaradan əlləri ilə fəxr edir, hamını, hər şeyi halal əməyin bəhrəsinə tamaşaya çağırırdı...

O gündən ərik ağacı heç yadımdan çıxmır. Əməklə yoğrulan qara torpağın, təmiz havanın, bulaq sularının, dağ günəşinin hikmətini, qüdrətini ağacın hər budağında, hər yarpağında, yeyilən hər şirin meyvəsində görürəm!

Abad bağ-bağat görəndə həmişə zehnimin səhifəsində yazılır:

– Ərik ağacı!

*1960*

Gülbəsləyən qız səh.322

# GÜLBƏSLƏYƏN QIZ

Bağ-bağat içində, güllük əhatəsində tikilmiş ağ daş binanın ikinci mərtəbəsində geniş bir eyvanda istirahətdə idim. Həkimlər əsəb sakitliyi üçün buranı münasib bilib mənə məsləhət görmüşdülər.

Hər səhər tezdən eşitdiyim ilk və ən munis musiqi suyun şırıltısı idi. Bu səs gah leysanı andırır, gah da seyrəlib xışıltıya dönür, sonra da kəsilirdi. Təbiətin sədasını eşitmək – suyun, küləyin, yağışın səsini dinləmək nədənsə həmişə mənə xoş idi. Çünki bu səslər məni boğulub təngə gəldiyim düşüncələrdən, intizar və çətinliklərdən xilas edir, anamız təbiətin qoynuna çıxarır.

Dediyim kimi, səhər tezdən eşitdiyim ilk musiqi suyun şırıltısı idi. Dərhal yatağımdan qalxıb bayıra çıxır, rəngdən-rəngə, ahəngdən-ahəngə düşən, gah enən, gah qalxan bir təbii simfoniyanı dinləmək, haradan gəldiyinə tamaşa etmək istəyirdim.

Görürdüm ki, ayağı yalın, qolu dirsəyə qədər çirməkli, başı ağ ləçəkli bir qız əlində rezin şlanq gül kərdilərini sulayır. Gah da susəpəni götürüb güllərin yarpaqlarını ehtiyatla yuyur, güllər isə sərin bahar suyunu içdikcə sanki quş kimi göyə baxır, səmaya qalxmaq istəyir. Mən ürəyimdə deyirdim:

– Ay təbiətin gözəl məxluqu, niyə səmaya baxırsınız?! Sizə su və həyat verən göydə deyil, yerdə, yanınızdadır. Yanınızdakı gözəl qıza baxın. Səf-səf düzülün, budaqlarınızı onun qarşısında hörmətlə əyin – ətrinizi onun gənc və sağlam vücuduna səxavətlə səpin. Onun kimi sizin yolunuzda zəhmət çəkən, şirin səhər yuxusuna haram qatan, ana kimi hər gün sizi yemləyən, qayğınıza qalan kimdir, kim ola bilər?..

Gün əyiləndən, kölgələr sallanandan sonra yük maşını qapıda dayanır, əlisəbətli adamlar ləklərə daraşır, gülləri dərib toya, təvəllüdə, məclislərə, pişvazlar, təbriklər yerinə aparırlar. Bunlardan heç kəs gülbəsləyən qızı soruşmur, yoxlamır, bəlkə də tanımırlar. Qız da bunlara məna vermir, öz vəzifəsini vaxtında, ləyaqətlə ifa edir.

Bir gün özümü saxlaya bilmədim. Eyvandan düşüb gül dərənlərin yanına gəldim, salam verib xahişimi bildirdim:

– Qardaşoğlu, olarmı, mən də bu gözəl güllərdən dərib dəstə bağlayım?

Gül dərənlər hamısı bir ağızdan hörmət və ehtiramla:

– Bu nə sözdür, buyurun, hörmətli filankəs, bunlar sizin üçün, sizin səhhətiniz, əsəblərinizin sakitliyi üçün deyilmi? Nə qədər istəyirsiniz, hansından deyirsiniz, dəstə bağlayaq, siz buyurun!..

Mən, əlbəttə ki, onlara öz minnətdarlığımı bildirdim:

– Mən indi buyurmaq istəmirəm. Sabah bu güllərdən özüm dərib, özüm də əlvan dəstə bağlamaq istəyirəm.

– Çox əcəb, çox gözəl, haçan istəyirsiniz, necə istəyirsiniz, buyurun!

– Mən səhər tezdən, üfüqdən günəşin ilk şüaları işaranda gələcəyəm...

– Buyurun gəlin, gülümüz çoxdur. Səkkiz yüz qırxdan çox gül növümüz var, indi hamısının açan vaxtıdır, hansı sizin zövqünüzü oxşayır, buyurun! İşçilər də sizə kömək edərlər.

– Yox, əziz olasınız. Özümün gül dərməyə həvəsim var, özü də ləklər arasında...

– Buyurun, buyurun! Biz çox sevinirik ki, bağımızın məhsulu si-

zin kimi hörmətli yoldaşların diqqətinə layiq olub.

– Minnətdaram.

Sabahısı günü suyun səsini eyvandan yox, həyətdə lap yaxından eşidirdim. Gülbəsləyən qız gülləri sulayanda mən də ləkləri gəzir, gül dərirdim. Əlbəttə, hər gülü yox, xoşuma gələn gülləri dərirdim. Dərirdim, özü də çalışırdım elə budaqlar, kollardan dərim ki, ləklərin görkəmi pozulmasın. Dərdiyim güllərdən səliqə ilə, yaraşıqlı bir dəstə də bağlayır, qıyax yarpağı ilə sarımağa çalışırdım. Düzəltdiyim iri dəstədə məxməri gül, nərgiz, mixəkgülü, dağçiçəyi, xətmi, söyüd çiçəyi, nargülü, qızılgüldən tutmuş süsən, zanbağa, nilufərə, Çin gülünə qədər hamısından var idi. Özü də çalışırdım bu güllərin rəngi, xalçada vurulan dairəvi naxışlara oxşasın, hər halda qarmaqarışıq yox, yaraşıqlı olsun...

Gülbəsləyən qız öz işində idi. Bağ boyu uzanan, xalça döşənmiş toy məclisi kimi əlvan görünən ləkləri tez sulayıb əldən çıxarmaq, iş paltarını soyunub dərsə getmək fikrində idi.

Hər halda bu qız məni görməmiş, seçməmiş deyildi. Doğrudur, hər gün, ya günaşırı bu bağdan səbət-səbət gül dərib maşına yükləyənlər olur. Gülbəsləyən qız onların kim olduğu, gülləri hara apardıqları ilə maraqlanmır. O bilir ki, hər kəsin öz vəzifəsi, işi var.

Qızın bağa girməyimi sezmiş olduğunu ondan bildim ki, o, məni görən kimi şlanqı yerə qoyub üst-başını çırpdı, iş paltarının ətəyini bir qədər açıb uzatdı, qamətini düz tutub başı ilə salam verdi. Sonra yenə şlanqı əlinə aldı, işinə davam etdi. Qız ləklərdən gül dərdiyimi, dəstə bağladığımı da görürdü. Güman edirdi ki, mən də hər gün buradan səbət-səbət gül dərib təntənə yerlərinə aparanlardan biriyəm. Yəqin ki, bu düzəltdiyim dəstəni xarici qonaqlara, vəzifəli yoldaşlardan kiminsə hüzuruna, ya da gözəl xanımların hansına isə təqdim etməyə hazırlaşıram.

Mən onun fikrindən keçənləri ötəri və ürkək baxışlarından oxuyurdum və öz aləmimdə də deyirdim: "Yanılırsan, qızım, tamam yanılırsan! Mən sən deyənlərdən deyiləm!"

Gül dəstəsini zanbaq yarpaqları ilə dairələyəndən, bağlayıb qurtarandan, diqqətlə bir də nəzərdən keçirəndən sonra mən də gülbəsləyən qız kimi üstümü çırpdım, yavaş, mütərəddid addımlarla qıza



yaxınlaşdım.

Qız əvvəl fikir vermədi. O, elə bildi ki, buradakı ləklərdən də gül dərmək istəyirəm. Balıqqulağı səpilmiş mərzlərlə ləklərə yox, düz ona yaxınlaşdığımı görəndə dayanıb mənə tərəf döndü:

– Deyəsən, dəstə bağlayırsınız?

– Bəli, dəstə bağlayıram, görüm bəyəniləcək, ya yox!

– Güllərə söz yoxdur, bizim güllük mahalda məşhurdur.

– Məşhurdur, mən istəyirəm ki, güllər əsl sahibinə təqdim olunsun.

Bunu deməyimlə dəstəni qıza təqdim etməyim bir oldu:

– Bu dəstəni sizin üçün hazırlamışam, qız!

Qız bunu görüb çaşbaş qaldı, ikrah elədiyi bir şeydən uzaqlaşmaq istəyənlər kimi, geri-geri çəkildi:

– Nə deyirsiniz, özünüzə lazım olar. Mən buna layiq deyiləm.

– Qızım, bu güllərin əsl sizə, sizin də bu güllərə ləyaqətiniz var. Torpağın dərin qatlarından bu əlvan çiçəklərin pərvəriş tapıb çıxması ancaq sizin o gənc və qüdrətli əlləriniz sayəsindədir.

Mən neçə gündür buradayam, sizin güllərə çəkdiyiniz zəhmətin və qayğının şahidiyəm. Mən görürəm ki, siz böyük səylə güllərə qulluq eləyirsiniz.

Vətənimizin hər guşəsini belə laləzara çevirmək üçün əməyini, istirahətini, gəncliyini əsirgəməyən qızlara bir ata, bir vətəndaş minnətdarlığımı bildirmək istəyirəm. Bu səmimi ifadəyə sizin öz əllərinizlə bəslədiyiniz əlvan və ətirli güllərdən əziz və layiqli hədiyyə tapmamışam. Qızım, al bu dəstəni mənim əlimdən, al!

Mən bu sözləri bir qədər həyəcanlı və həm də böyüklərin övladına etdiyi bir əmr ahəngi ilə ucadan qətiyyətlə dedim. Qız pul kimi qızardı, əlacı kəsildi. Gül dəstəsini alıb, əlində əmanət kimi saxladı. Həyadan, ismətdən göz qapaqları endi, sanki yalın ayaqlarına baxa-baxa bunu deyə bildi:

– Çox sağ olun!

*1961*

# EHTİRAM

Ağsu yoxuşu şoferlərin gözünə durur. Ancaq aşandan, gədiyin başına çıxandan, üfüq boyu əlvan xalça kimi açılan Şirvan düzünə tamaşa edəndən sonra bütün zəhmət və çətinlikləri unudursan, quş kimi yüngül və yeyin gedirsən.

Həyat da belədir. Yüksəlmək çətin və zəhmətli, ancaq səfalı, fərəhli olur, enmək isə asan, ani və qüssəli olur.

Düzənliyə enib Ağsu kəndinin tozlu küçələrinə çatanda susuzluq duyursunuzsa, maşını dayandırıb sıx ağaclı, hasarlı bir həyətin qapısını döyürsünüz.

– Ay ev yiyəsi, bir stəkan sərin su olarmı?

Ürkək və utancaq kənd qızları nabələd qonağı görən kimi "bu saat" deyib budaqları bir-birinə sarmaşan nar, heyva, gilənar, gilas, armud ağaclarının altında yox olur, bir dəqiqə sonra abı kasada sizə su gətirirlər.

Öz əksinizi göstərən duru, sərin suyu başınıza çəkib məktəbli qızına təşəkkür deyəndə, qızdan ədəblə "afiyət olsun" eşidəndə cürətə gəlib bir xahiş də edirsiniz:

– Qızım, bu kasanı bir də doldurmaq olarmı?

– Niyə olmur, əmi, suyumuza nə gəlib?

Qız içəri qayıdan kimi ucaboy bir qadın kəlağayısını yellədərək, qapıya yaxınlaşır:

– İçəri buyurun, qardaş, bizlərdə qonağı qapıda saxlamazlar, keçin içəri!

– Sağ olun, yol keçirik, gedəcəyik.

– Nə olar, gedəndə də gedərsiniz, içəri buyurun, dincəlin.

Kəlağayılı qadın qəti əmr ilə sizi içəri çağırır, kiçik gözləri ilə maşını süzəndən sonra soruşur:

– Gəlişiniz, deyəsən, Bakıdandı, qardaş?

– Bəli, Bakıdandır!

– Çünki buralara Moskvadan, Tiflisdən də gələnlər olur.

– Yox, biz Bakıdan gəlirik.

– Xoş gəlibsiniz, səfa gətiribsiniz. Bakıda mənim nəvəm oxuyur. Bəlkə eşitmiş olasınız. Ehtiram!

– Ehtiram?

– Bəli, Ehtiram!

– Harada oxuyur Ehtiram?!

– İnstitutda oxuyur.

– Oğul nəvənizdir, ya qız?

– Qızdan bircəsi var, sizə su verən. Oğuldandı, kiçiyidir, böyük qardaşı aqronomdur, həmişə əkin, tikinti üstündə olur. Qız da, Allah sizinkiləri saxlasın, daş-torpağı oxuyur. Yanlarınca fəhlə aparırlar, yeri qazır, intiresni şeylər tapırlar, hər yay dağlara çıxır.

– Bacı, famili nədir Ehtiramın?

Qadın üzünü həyətin lap içərilərinə tərəf tutub, su verən qızdan soruşdu:

– Nədi ağız, Ehtiram nə yazdırır, Həsən qızıdı, yoxsa Qarayev?

Qızdan səs gəlmir. Səs gəlmir, ancaq siz bu sualın üzündən Ehtiramın kim olduğunu öyrənirsiniz?!

Öyrənirsiniz, demək də düz olmaz, tanıyırsınız, tanıyırsınız, çünki, Ehtiram sizin çalışdığınız institutun tələbəsidir. Yaxşı bilirsiniz ki, üçüncü kursdadır. Özü də hər il yay ekspedisiyalarında iştirak edir. İştirak edir, ona görə ki, siz, lap siz özünüz dekanata göstərib zəmanət vermisiniz ki, "bu zirək qızdır. Kəndləri də pis tanımır, alimlərə köməyi dəyər, briqadaya salın!".

Dekan da sizin zəmanətinizi nəzərə alıb, Ehtiramı kəşfiyyat işinə cəlb eləyib, qızın sevincinin hüdudu yoxdur. Ancaq kəlağayılı qadın bu işlərdən xəbərsizdir. O nə sizin kim olduğunuzu, nə Ehtirama zəmanət verildiyini, nə də işlərinin məhz siz tərəfdən yoxlanıldığını bilir.

Bunların heç birini bilməyə-bilməyə kəlağayılı qadın sizi yarıxoş, yarıcəbr çəkib evə, qonaq otağına aparır ki:

– Maşından nigaran olmayın, baxanımız var, bizim yerlərdə əyrilik olmaz. Əyləşin, bir stəkan çay için! Hələ günortadır, dincəlib sonra gedərsiniz.

Əslinə baxsan, sizin heç yolda dayanıb dincəlmək niyyətiniz yox idi. Bəlkə bu kəlağayılı qadın Ehtiramdan söhbət salmasaydı, siz heç dayanmayacaqdınız. Nəvəsinin sizdə oxuduğunu biləndən sonra siz də istər-istəməz dayanmalı oldunuz, qadının dedikləri ilə maraqlandınız.

Həqiqətən maraqlıdır. İki adamın arasında üçüncü bir adam haqqında söhbət gedir. Özü də danışanların biri kəlağayılı qadın, güman edir ki, siz onun nəvəsini tanımırsınız. Tanımadığınız bir adam haqqında bəs nə üçün söz açırsınız?

O da məlumdur: kəlağayılı qadın Ehtiramı sizə tanıtmaq, həm nəvəsi ilə fəxr etmək, həm də sizin Bakıya qayıdandan sonra Ehtiramı tapıb əhvalatı danışmağınızı xəyalında arzulayır. Siz isə öz təmkinini pozmur, tələbəniz Ehtiram haqqında danışmazdan əvvəl onun ailədə, kənddə, valideyn yanındakı ehtiramını bir növ yoxlamaq istəyirsiniz. Bunun özü pis deyil.

– Bacı, nə dediniz, necə oxuyur, dərslərindən neçə qiymət alır, razısınızmı?..

– Qardaş, qızın oxumağına söz ola bilməz. Bir od parçasıdı. Deynən! Gecə-gündüz, yay-qış, tətil demə, bayram demə, kitab əlindən düşərmi? Deyirəm, ay ərkansızın qızı, saralmısan, anqutun çıxıb, yatağa düşəcəksən, bu nədi? Dəftər-kitaba da adam belə aludə olar, sən mənim üçün professor-zad olmayacaqsan ki...



Siz qadının mühakimələrinə gülürsünüz:

– Ay xanım, məni bağışlayın, adınızı da bilmirəm.

– Səltənət!

– Səltənət xanım, nədir bəyəm, qızlardan professor çıxmağına siz inanmırsınız?

– Niyə inanmıram?! Şura hökuməti bunlardan lap yaranal da çıxardar, amma ki...

– Amma niyə?

– Amması var, çünki qız xeylağının bir ayrı yeri var, oğlanın da bir ayrı.

– Qızın oğlandan nəyi əskikdir?!

– Qız, qadan alım, qardaş, tez azır.

– Azmaq nəyə deyirsən, teatr-kinoyamı?!

– Yox, kinoya yox, televizoru özüm də hər axşam evdə qurub baxıram. Ona azmaq deməzlər. Azmaq odu ki, dindən–imandan kənar şeylər.

– Bizim qızlar indi çox ağıllı-kamallı böyüyürlər, Səltənət xanım.

– Kamalına sözüm yox, qudurmasın, azmasın.

– Azmazlar, yox!

– Bax, elə Ehtiram, May bayramında gəlmişdi. Yenə dastan başladı.

– Nə dastan?!

– İndi də yeri qurtarıb, göydən başladı. Deyir ki, göydən adam gəlib.

– Necə yəni?

– Deyir göyə fişənglə adam gedir, bir saatda külli dünyanı dolanıb, xəbər gətirir!

– Səltənət xanım, siz buna inanmırsınız?

– Qardaş, fişəngə barıt qoyarlar, indi də göyə fişəng atırsınız.

– Lap böyük fişənglər atılır, içində maşın, cihaz, adam da gedir.

Bizim alimlər indi elə maşın çıxardırlar ki, doğrudan möcüzə.

– Qız deyir, təyyarəçi oğlan fişəngə oturub göyə gedib. Deyirəm, bəsdi-bəsdi! Ağlın olsun, asi-asi danışma. Qız durub məni başa salmağa ki, nə bilim kosmos belə gəldi. Bilməzdim, nəyə deyirlər kosmos. Ehtiram başa saldı ki, indi göy aləminə belə deyirlər. Mars belə getdi. Nə bilim, ay qardaş, bu qız göylərdən, ulduzlardan şeylər danışır, quruyub qalırsan. Deyirəm, qızım, sən yerdə, skamyada otura-otura, göydən nə xəbər bildin?! Deyir, yox, alimlər göydə nə var öyrənirlər. Fişəng atıb şəkil çəkirlər. Göyün altını da görüb götürüblər, üstünü də. Vallahı, Ehtiram bayram günlərində burada şeylər danışdı ki, daha nə deyim?!

– Səltənət xanım, Ehtiram oxumuş qızdır, mövhumat, xəyalat danışmır, elm danışır. Bu saat bütün dünya göyə gedib-gələn təyyarəçi igiddən danışır. Eşitməmiş olmazsan: Qaqarin.

– Bəli, radiolardan eşitmişəm. Şəklini də görmüşəm. Ailəsi ilə bir yerdə. Ehtiram gətirmişdi, bütün qonum-qonşu baxıb. Bir boylu-buxunlu, igid oğlandı, sağ olsun!

– Qaqarin saat yarım ərzində yeri də fırlanıb, göyün də iqlimini, havasını öyrənib gəlib. Bütün dünya onun möcüz kimi sifətinə heyrandır!

– Hə, Ehtiram deyir, guya, göydə dəmir də, daş da yarpaq kimi yüngül olub uçur. Lap mat-məəttəl qalmışam.

– Göydə təəccüblü şeylər çoxdur. Qaqarinin səfərindən sonra təzə kitablar bağlanır, mühazirələr oxunur, şəkillər çəkilir. Səltənət xanım, siz gəlin nəvənizin sözünü qürbətə salmayın, o, boş söz danışmır. Kitab–zad necə, oxuyursunuz, ya yox?

– Gecə kursunu çoxdan qurtarmışam. Başım kolxoz işinə, nəvənəticəyə qarışandan sonra daha kitab oxuya bilmirəm. Allah sizinkiləri də saxlasın, uşaqlar oxuyub, danışırlar. Şükür, radiomuz-zadımız var.

– Ehtiram kimi nəvəsi olanın gərək heç nə yadından çıxmasın: nə kitab, nə qəzet!

– Ehtiram çox şeylər danışır, mənim ağlım bir şey kəsmir, qocalmışam.

– Kəsər, kəsər, Ehtiram ağıllı-kamallı qızdır. Sənə bir şey deyəcəyəm, bilmirəm inanarsan, ya yox.



Səltənət təəccüblə üzünüzə baxır və güman edir ki, siz də nəvəsi kimi onunla deyişməyə hazırlaşırsınız. Özünü ciddiləşdirib soruşur:

– Nə deyəcəksiniz?

– Onu deyəcəyəm ki, Ehtiram bizim öz institutumuzda oxuyur.

– Yox canım! Yalan olar, qardaş!

– Yalanı–zadı yoxdur, Ehtiram mənim öz tələbəmdir.

– Düzünü deyin, qardaş. Ona siz dərs verirsiniz?

– Ehtiramı dağlara, briqadalarda elmi təcrübəyə göndərən mən özüm olmuşam. Əgər günah bilirsənsə, onu danlama, məni danla, Səltənət xala!..

Səltənət xala əvvəl dediklərimizə inanmaq istəməsə də, Ehtiramın işini, dərsini, təcrübəsini, vaxtını yeri ilə, yurdu ilə deyəndən sonra inanmağa məcbur olur və yarıfərəh, yarısual deyir:

– Qardaş, deyəsən, sizi bura göndərən var axı?

– Var, bəli!

– Deyirəm axı!

Səltənət lap özünü yığışdırır, ev-eşiyə göz gəzdirir, balaca qızı səsləyir, elçi qarşılayan analar kimi, təşvişə düşür, ciddiləşir:

– Qız, xörək-zad hazırlayın, qonaqlar acdır. Bəs, a qadan alım, kim göndərib sizi?!

– Bizi də Ehtiramı təcrübəyə göndərən institut göndərib. Göndərib ki, tələbələrin işləri ilə tanış olaq, onlara kömək edək. Səfərimiz Şuşayadır!

– Ehtiramın yanına gedirsiniz?

– Bəli, onun briqadasına baş çəkəcəyik. Sözündən-sovundan?

Səltənət mətbəxə qaçdı.

– Qıza bir balaca ev xörəyindən-zaddan, yazbaşı ağartıdan, həyətdən dərilən göyərtidən, tərəvəzdən...

– Şuşada nə çoxdur belə şeylər...

– Yox, evin əvəzini verməz, qardaş, zəhmətini çəkin! Bir balaca əmanət aparın!

– Gözümüz üstə!

– Yaqin, Ehtiramı görəcəksiniz?

– Axşam onun yanındayıq.

– Çox-çox salam-dua. Sizin yanınızda da bilmədim, artıq-əskik danışdım. Qardaş, qıza deməyin, utanar.

– Əksinə, qıza təşəkkür edəcəyəm ki, nə yaxşı dilavər, qonaqpərəst, iş bilən nənən var!

– Yox canım, cavan vaxtımda qonaqpərəstliyim, bişirib-düşürməyim var idi. İndi daha canım zəifdir, qardaş, yetirə bilmirəm.

– İgid-igid nəvələr böyüdənin ürəyi dağ kimi olar, necə ki görürəm. Bir zəiflik yoxdur.

Səltənət xanım həm iftixar, həm də xəcalət hissi ilə başını tərpədib sanki təsdiq edirdi.

Dağda, kəşfiyyat işində çalışan qıza, Ağsu təsadüfünü danışanda inanmaq istəmədi.

– Nənəm elə şeyləri qonağa danışmaz.

– Necə danışmaz, nənən Nəbinin Həcəri kimi qadındı, qonaqlara macal vermirdi.

– Görünür, sizi tanımayıb.

– Tanımadığı üçün də sərbəst danışdı.

– Eyib olub!

– Eyib-zad deyil, açıq danışmağı bizə ləzzət verdi. Ancaq sən gərək onunla məşğul olasan, köhnə, mövhumi təsəvvürlərini dağıdasan, elmdən, məktəbdən, yeni həyatdan elə danışasan ki, həm maraqlana, həm də inana!..

– Günün tutulmasına hisli şüşə ilə baxdıranda gözləri bərəlir, hey suallar verir.

– Elə olacaq. Bir dəfə maraq oyandımı, əl çəkməyəcək... Şifahi təbliğat bəs nədi, buna deyirlər də!

*1961*



# MƏN ZAMİNƏM

Bir neçə cərgə boz kürsü düzülmüş böyük, uzun zalın axırındakı iri qapı cırıldadı, gödəkçəli, arıq kişi içəri girən kimi papağını əlinə aldı, zalı boş görüb sağa-sola döyükdü. Əvvəl ehmal, sonra qəti addımlarla lap başa, sədarət stolunun başında oturanlara tərəf yeridi, salam verdi:

– Sabahınız xeyir, yoldaş!

– Aqibətin xeyir!

Başda qıvraq geyinmiş, qara saçlarını dala daramış göyköynək, enlikürək ortayaşlı bir adam oturub qovluqdakı kağızları vərəqləyirdi. Onun yanında əyləşən ağ koftalı, saçıkəsik, sırğalı qız da əlində qələm, gözünü kağızdan ayırmırdı. Kənardan da bilmək olardı ki, qız göyköynək kişinin dediklərini yazır. Yəqin, onun katibəsidir. Nabələd adamın içəri girib, zalda addımlamağı, sonra ərklə salam verməyi sədrin də, katibənin də diqqətini cəlb etdi, hər ikisi başını qaldırıb gələnə baxdı.

– Sizə kim lazımdır, əmi?

Qızın sualına Əlihüseyn kişi bilmədi nə cavab versin. Bir istədi desin: "Qızım, mənə elə siz lazımsınız!" Nəzakət qaydasını pozmağı mü-

nasib bilməyib mülayim səslə cavab verdi:

– Qızım, mənə xalq məhkəməsi lazımdır. Dördüncü xalq məhkəməsi.

– Dördüncü məhkəmə buradır, əmi, ancaq sabah saat doqquzdan olacaq, bu saat qəbul yoxdur.

Qız qəbul sözünü ibarə ilə və aydın dedi ki, Əlihüseyn əmi idarə qaydalarına riayət lüzumunu başa düşsün.

Əlihüseyn həmin kəlməni sözlü adam kimi mülayim, mənalı səslə təkrar etdi:

– Qəbul olmasa da, söz soruşmaq olarmı, qızım?

Məhkəmə sədri söhbətə qarışdı:

– Buyurun, nə sözünüz var, buyurun!

– Sözüm odur ki, bizim bir adam var. Qüdrət Qədimov, onun işinə haçan baxılacaq?

Qüdrət Qədimovun adını eşidəndə məhkəmə sədrinin gözləri parıldadı. Kağızları büküb kənara qoydu. Qız da qələmi mürəkkəbə batırıb, gələn adamın üzünə diqqətlə baxdı:

– Siz Qüdrətin nəyisiniz?!

Əlihüseyn kişi axtardığı yerə gəldiyini yəqin edib, cavablarında ehtiyatı, təmkini gözləməyi vacib bildi:

– Qüdrətin işi sizdədir, eləmi?

– Bəli, bizdədir, siz Qüdrətin nəyisiniz?

– Qüdrətlə bir qohumluğum yoxdur, ancaq işi ilə maraqlanıram, bir az...

Məhkəmə sədri kişini sözündən tutdu:

– ... "Bir az", nə?

– Nə buyurdunuz?

– "Bir az" deyirsiniz, "bir az", yəni nə?

Əlihüseyn gizlətmədi:

– Bir az işə bağlıyam, ona görə deyirəm. Elə mən onun işi üçün gəlmişəm. Şəhərdə ayrı bir işim yoxdur. Bilmək istəyirəm necədir, hansı maddəyə düşür, haçan olacaq... Doğrudan olacaqmı?

Məhkəmə sədri kürsü göstərdi, əyləşməyi xahiş etdi:

– Əyləşin, görək, siz deyəsən şahidsiniz?



Kişi ehmalca əyləşdi, cavab verdi:

– Xeyr, şahid deyiləm.

– Şikayətçisiniz?

– Xeyr, bir şikayətim də yoxdur.

Məhkəmə sədri kişinin üzünə baxa-baxa fikirləşirdi: "Şahid deyilsən, şikayətçi də deyilsən, a filan-filan olmuş, bəs burada nə gəzirsən? Yoxsa advokatlıq, ya prokurorluq könlündən keçir, bu qoca vaxtında?.."

Sədr kişiyə nəsə acıqlı bir söz demək istəyirdi ki, Əlihüseyn əmi onu intizardan qurtardı:

– Yoldaş məhkəmə, mən Qədimovu yaxşı tanıyıram. Onun işini eşidib gəlmişəm, bilmirəm mənim danışmağıma da qulaq asan olacaq, ya olmayacaq. Qədimov bizim sexdə gözümün qabağında böyüyüb, partiyaçıdır, özü də cavan...

– Qədimov cinayətkar kimi məhkəməyə verilib, əmi!

– Orasını başa düşürəm, işdi düşüb, ancaq mən özüm də çaşbaş qalmışam. Qüdrət yaxşı adamdır, gərək onun başına bu iş gəlməyəydi?!

– Təəssüf ki gəlib. Qüdrət indi istintaq altındadır.

– Necə buyurdunuz, nəyin altındadır?

Məhkəmə sədri səsini ucaltdı, sözünü də dəyişdi:

– Deyirəm, Qüdrət indi yoxlanır, silis aparılır.

– İş necə, ağır olmaya?

– Ağır-yüngüllüyü məhkəmədə məlum olar. Ayın doqquzunda da məhkəməsidir.

– Məhkəməyə gəlmək olarmı?

– Olar, niyə olmur.

– Mən də danışa billəmmi məhkəmədə, yoldaş?

– Sözün var, məhkəmədən qabaq da danışa bilərsən. Sabah gəl silisçinin yanına, nə sözün var, şəhadətin var – nə var, deyinən yazsınlar.

Əlihüseyn əmi başı ilə razılıq işarəsi verdi:

– Çox sağ olun! Elə istəyirəm Qədimovun haqqında məhkəməyə sözümü deyəm, deyəm ki, o, elə adam deyil, məhkəmə-zad, dustaqlıq-filan tanımaz, bəlkə nəzərə alındı.

Sədr gördü ki, qoca xahişə gəlib, başqa bir mətləb yoxdur.

– Sabah gəlin danışın!

– Baş üstə, doqquzda!

– Doqquzdan başlanır, saat ikiyəcən. Saat birdə gəlmə, çünki fasilə vaxtıdır, ikidə silisçi burada olur.

Əlihüseyn kişi utana-utana üzünü qıza tərəf çevirib bir şey də soruşdu:

– Zəhmət olmasa, qızım, silisçinin familini bilmək olarmı?

– Əhmədov! Əhmədov Mürsəl! Dördüncü otaqda oturur.

Qız şəhadət barmağı ilə zalın sağını göstərdi:

– Bu yox, ikinci qapıdandır yolu.

Qoca yaşına uyğun olmayan bir cəldliklə ayağa qalxdı:

– Sağ olun!

– Xoş gəldin!

Əlihüseyn kişi mətləbinə nail olmuş adamlar kimi papağını başına basdı, məhkəmə zalından çıxdı.

Əlihüseyn kişinin buraya gəlməkdə doğrudan da bir mətləbi var idi, özü də balaca mətləb deyildi.

Gəmi təmiri zavodunun çilingər sexində Əlihüseyn əmi neçə-neçə şagirdlər öyrədib yola salmışdı. İndi onların hərəsi bir iş sahibi idilər. Əlihüseyn də onları görəndə, eşidəndə şad olurdu.

Ustanın övladı yox idi. Cavanlıqda buna məna verməmişdi, qocalanda da gec idi. Arvadı Məsmə də kişiyə təsəlli verib deyirdi:

– A kişi, sən nə fikir çəkirsən, sexdəki şagirdlərin hamısı sənə övlad deyilmi! Vallahi, indiki övladlarda mən o mehribanlığı görmürəm ki, şagirdlərin sənin başına dolanırlar. Qədir oğuldan əskikdir? Ənvər iki gündən bir səni yoxlayır, lap uzaqdakıların kağızı əskik olmur. Bunların qədrini bil, kişi! Vallah, düz deyirəm.

Əlihüseyn əminin özü də bu fikirdə idi. Həmkarlar təşkilatında şagird yetirmək, cavanlara övlad kimi baxmaq barəsində söz düşəndə birinci onun adını çəkir, qəzetə yazır, mükafat verirdilər. Xoşbəxtlikdən ustanın şagirdləri də əsil çıxırdı. Hər yerdə qabağa gedirdilər. Ancaq Qüdrətin son günlərdə başına gələn əhvalat ustanın da damağını pozdu.

Əhvalat belə olmuşdu.

Qüdrət indi neçə il idi, sexdən gedəndən sonra rəisin maşınını sürürdü. Şofer idi. Axşam Zığdan qayıdanda qaranlığa, ya yağışa düşmüşdü, yuxulu olmuşdu, necə olmuşdusa bir uşağı basmışdı. Düzdür, uşaq ölməmişdi, ancaq iş məhkəməlik idi.





Bu pis xəbər Qüdrətin öz ailəsindən, rəisdən başqa bəlkə daha çox ustanı məyus etmişdi. Usta şagirdinin fəlakətini öz fəlakəti, övlad fəlakəti kimi ürəyinə salmışdı.

Xüsusən ona görə ki, Qüdrət təzəcə partiya namizədliyinə keçmişdi, özü də bir səslə, təriflə keçmişdi və keçəndə də Əlihüseyn əmidən zəmanət almışdı.

Maşın avariyasını eşidəndə, Qüdrətin məhkəməyə düşdüyünü biləndə, ustanın kefi lap pozuldu: "Cavan adam həbsxanaya salınacaq... Sabah soruşacaqlar harada işləmisən, kimsən, nəçisən? Partiya işini də dəbərdəcəklər. Bəli, buna kim zəmanət verib, filankəs. Bir yandan uşağın, bir yandan Qüdrətin ailəsi, bir yandan ustanın sarsılan etibarı...

Bu nə böyük peşmançılıq oldu! Gərək belə olmuyaydı..."

Əlihüseyn, əhvalatın nə cür olduğunu ondan-bundan, Qüdrətin özündən eşitmişdi. Hətta xəstəxanada ayağı gipsə salınan uşağın atası ilə də söhbət etmişdi. Bir fəlakət olmadığını görsə də, arxayın ola bilmir, məhkəmənin özündən soruşmaq istəyirdi.

Buradakı danışıqlardan da bir mətləb hasil olmadı. Ustanın intizarı nəinki azalmadı, bir az da artdı. Usta yəqin elədi ki, Qüdrətə bəraət verməyəcəklər. Məhkəmə iş kəsəcək. İş kəsilən adam da, necə ki qaydadır, partiya sıralarında qala bilməz, partiya təşkilatında bu iş müzakirə olunanda da, Qüdrətlə bərabər, usta da camaat qabağında qızaracaq. Necə qızarmasın ki, zəmanət verib?! Qüdrət barəsində bir səhifə tərifnamə yazıb axı... Səkkiz yaşında məktəb uşağını maşın altına alan adama nəinki kommunist, heç sovet adamı da demək olmaz. Beləsinə zəmanət verənə nə deyərlər?! Bəs uşağın ata-anasına nə cavab verəsən, nə deyəsən, necə eləyəsən?! Saqqalın ağ vaxtında bu nə iş idi, düşdüm?! Gül kimi təmiz adım var idi. İndi deyəcəklər Əlihüseynin zəmanətləri bu cür imiş, eyib olsun...

Fikirləşdikcə, qarşıdakı müzakirə mənzərəsini xəyalına gətirdikcə, Əlihüseyn kişini qızdırma götürürdü. O da yadına gəlirdi ki, rəis maşını Qüdrətə tapşıranda ustasından soruşmuşdu:

– Əlihüseyn əmi, necədir, sənin bu şagirdini, özümə şofer götürmək istəyirəm, nə deyirsən?

Əlihüseyn kişi Qüdrəti ağızdolusu tərifləmiş, kişini arxayın salmışdı. Bu əhvalat olandan bəri, deyəsən, rəisin ustaya münasibətində də bir soyuqluq hiss olunurdu. Bir şey deməsə də, məlum idi ki, kişi bərk dilxordur. Nə isə, Qüdrətin işi ustaya hamıdan çox təsir eləmişdi.

Məhkəmə başlananda, ittiham olunanda, avariyanın aktı, şahidlərin ifadəsi meydana gələndə Əlihüseyn kişi lap birinci sırada iynə üstündə oturan kimi oturmuşdu. Dəqiqədə bir çevrikir, gah Qüdrətin, gah uşaq anasının, ya da Qüdrətin arvadı Adilənin üzünə baxır, yaylıqla alnının tərini silir, tez-tez başını bulayırdı. Qüdrət də ustasına baxır, xəcalətindən çiyinlərini çəkirdi. Bütün oxunanları, deyilənləri eşidəndən sonra müttəhimə söz verdilər.

Qüdrət bir addım da qabağa çıxıb aprelin dördündə başına gələni dərin bir peşmançılıq hissi ilə danışdı. Məhkəmənin də, danışanların da sözünü təsdiq etdi, öz təqsirini boynuna aldı. Ancaq məhkəmədən bir xahiş elədi:

– Yoldaş məhkəmə, yoldaş əyləşənlər!..

Bu müraciətində Qüdrət üç adamın üzünə diqqətlə, təkrarən mənalı-mənalı baxdı və susdu, xeyli müddət məyus dayanıb danışmadı.

Bunlardan biri öz sevimli arvadı, altı ayın gəlini Adilə, biri basılan uşağın anası, cavan müəllimə Əminə, üçüncüsü də bizim yaxşı tanıdığımız Əlihüseyn əmi idi.

Demək olar ki, Qüdrətin gözü bu kişinin gözünə sataşanda lap çox xəcalət çəkir və başını aşağı salırdı.

O mətləblər ki, bu hadisə baş verəndə Əlihüseyn əminin xəyalında cəmlənmişdi, indi də Qüdrətin qəlbində bir daş kimi yumrulanıb qalmışdı. Qüdrət ustasının üzünə baxmağa da əzab çəkirdi. Əlacı olsa baxmazdı. Ancaq baxırdı və baxışı ilə ustasına nə isə uzaqdan-uzağa demək, izah etmək istəyirdi.

Məhkəmə ona sual verəndə əlinə fürsət düşdü, köynəyinin yaxasını bir az da açdı, qollarını yuxarı çəkdi. Üzünü camaata tutub nazik, mülayim və xoş bir səslə dilləndi. Hadisəni və ittihamı təsdiq etdi. Təfsilatı danışdı:



– Yoldaş məhkəmə üzvləri! Adətdir, müqəssir həmişə özünü təmizə çıxarmağa, ittihamını boynundan atmağa, heç olmasa yüngülləşdirməyə çalışar. Məndən bunları gözləməyin. Mənim təqsirim çoxdur və bağışlanmalı deyil. Bəlkə belə bir xahişi heç kim etməməlidir. Ancaq məhkəməyə bir şey aydınlaşdırmaq üçün hadisə baş verən şəraiti dürüst təsvir etməliyəm. Burada dedilər və yazılanlarda da var ki, guya "qaranlıq olub, Zığ yolu sürüşkən olub, şofer yuxulu"... və sair, mən bunların heç birini təsdiq edə bilmərəm. Bunlar bir səbəb deyil. Hər şofer üçün bunlar mümkündür. Əsl səbəbi demək lazımdır. Ya da heç nə demək lazım deyil, maddədə necə varsa, işi kəsin və hökmü verin! Əsl mətləb də budur ki, üç nəfər cavan oğlan top dalınca maşının qabağına qaçanda mən təhlükəni görüb fövrən maşını sola döndərməli olmuşam və bu halda maşının qanadı uşağa toxunub, bir az da bərk toxunub. Mən gərək maşını döndərməyəydim. Döndərməsəm də üç adamı, azı cavanların ikisini basardım, çünki o sürətlə ki, mən sürürdüm, top oynayanların tindən nagahani yola atılmağı mənim vəziyyətimi ağırlaşdırdı və mən olmasam, kim olsa, vəziyyətdən çıxmaq üçün bir şeyə, bir tədbirə əl atmalı idi. Sükanı sola döndərmək yeganə çıxış yolu idi, uşağın yola çıxmağı ikinci bədbəxtlik oldu. Onda, yenə də maşını dayandırmaq lap möcüzə oldu. Nə yaxşı ki, tormoz tutdu. Yoxsa uşaq... Təkər altında qalacaq idi. Xoşbəxtlikdən uşaq yüngül yaralandı. Yüngül yaralandı deyəndə, mən heç də günahımı azaltmaq istəmirəm. Uşaq, cavan ananın yeganə övladıdır, onun taleyi var. Ananın bütün iztirablarını başa düşürəm. Qanun nə buyurursa, mən cəzamı çəkməyə hazıram. Ancaq məhkəmədən xahiş edirəm ki, avariyanın baş verdiyi şəraiti lap aydın və təfsilatı ilə yazıb göstərsin. Bu sənədlər ayrı yerlərə gedəcək, çox adam baxacaq, mən vicdan əzabı çəkirəm, bunu da nəzərə alın.

Orada yazılıb ki, guya mən yuxulu olmuşam, qətiyyən yox, gündüz saat üçdə nə yuxulu? Bu vaxt sükan arxasında kim yatar? Qoca deyiləm. Kefli olmamışam, mən lap ayıq, nagahani bir vəziyyətdə avariya eləmişəm. Ondan bir gün qabaq axşamdan öz mənzilimdə rahat, şirin yatmışam. Mən heç bir zaman yuxulu, sərxoş sükan arxasında oturmaram. Az-çox məni tanıyanlar var, lazım olsa çağırıb soruşa bilərsiniz.

Bu sözü deyəndə Qüdrət zala nəzər saldı, gözləri ustasına sataşan-

da tez başını aşağı saldı, səsini kəsdi.

Əlihüseyn əmi, sanki, Qüdrəti başa düşdü, istədi qışqırıb desin ki, "yoldaş məhkəmə, Qüdrət lazımlı adamdır. Onu biz yaxşı tanıyırıq!.."

Sonra yadına düşdü ki, bura iclas deyil, qanun kürsüsüdür. Qanun-qaydanı pozmaq, səs salmaq olmaz. Sözü lap dilinin ucundan qaytardı, özü də hiss etmədən ayağa qalxdı. Durdu, ancaq nə üçün durduğunu bilmədi. Usta pencəyinin ətəklərini yana açıb bir də qatladı, dərindən bir ah çəkib, təkrar yerində oturdu. Ustanın bu hərəkəti nəzərdən qaçmadı, yanındakıların hamısı bunu hiss etdi və dönüb kişiyə baxdılar. Hətta oturanların çoxu ustanın Qüdrətin atası olduğunu güman etdilər. Bəziləri də "yox, bu, basılan uşağın babasıdır", – deyirdilər. Danışıqlar qurtaranda fasilə elan olundu, məhkəmə qərar çıxarmağa getdi. Qüdrət müttəhim kürsüsündə tək–tənha məyus halda oturub ayaqlarının ucuna baxırdı. O, məhkəmənin qərarından, cəzalanacağından yox, ayrı şeydən ehtiyat edirdi.

Uşağın valideynlərinin töhmətindən də o qədər qorxmurdu. Çünki ana özü oğlunun dəcəlliyindən danışıb, uşağını danlayırdı. Qüdrəti narahat edən bir şey idi. O, qorxurdu ki, illər boyu onu oğul kimi sevən, sənət öyrədən, ona zəmanət verən, onunla fəxr edən usta Əlihüseyn bu saat yerindən durub ağır addımlarla onun yanına gələcək, salam-zad da vermədən, ucadan deyəcək:

– Qüdrət, üzün qara olsun! Bu qoca vaxtımda məni camaat yanında üzüqara elədin, əməyimi itirdin, onu saxsı kasa kimi yerə çırpıb sındırdın.

Qüdrət salonda addım səsləri eşitdikcə həyəcanlanırdı. Bu səslər uzaqlaşanda sakit olur, ürəyinin döyüntüsü azalırdı: "Birdən usta gəlib, ağzından çıxanı desə, camaat içində nə cavab verəcəyəm. O da bir məhkəmədir, usta rəsmi məhkəmədən əskik adam deyil. Nə desə eləyər?.." Qüdrət bu məzəmmətdən qorxurdu və ona görə də başını qaldırıb bir yana baxmırdı.

Əlihüseyn əminin vəziyyəti heç də Qüdrətdən yaxşı deyildi. O, yəqin eləmişdi ki, şoferə iş kəsəcəklər, mütləq kəsəcəklər. İş kəsəsi olmasalar, bu qədər həngamə düzəltməzdilər. Aktlar, şahidlər, həkim kağızları, silis, prokuror... Əbəs yerə deyil. Bunların müqabilində Qüdrətə bir-iki il iş verəcəklər...



Bəs, ondan sonra, Qüdrəti dustaqxanaya aparandan sonra Əlihüseyn kişinin təklifi nədir? Necə eləsin, nə desin?

Bəlkə, məhkəmənin qərarını camaat kimi təsdiq eləsin, xəlvətcə qayıdıb evinə getsin? Bəlkə də qabağa düşüb ərizə versin, şagirdini təmizə çıxarmağa cəhd eləsin.

Usta bu niyyətlər arasında mat-məəttəl qalmışdı. Fikir–xəyalat onu aparmışdı. Birdən məhkəmə katibinin məktəb zəngi kimi yeknəsəq səsi eşidildi.

– Məhkəmə gəldi!

Məhkəmənin hökmü oxundu, nə Qüdrət, nə də Əlihüseyn əmi gözləyən qərar oldu. Tamam ayrı cür bir hökm çıxdı: hökmün ümumi, izah hissəsini oxuyandan sonra hakim işə qısaca nəticə vurdu:

– Maşın sürəndə Qüdrətin yol verdiyi səhlənkarlıq ictimai ittiham xarakteri daşıdığından onun işi zavoda, yoldaşlıq məhkəməsinin sərəncamına göndərilsin...

Bu hökm nə Qüdrəti, nə Əlihüseyn kişini intizar və qayğıdan qurtardı. Əksinə, onların hər ikisinin yeni bir ictimai xəcalətlik məqamına, camaat qabağına çıxmağa çağırdı.

Qoca üçün də, cavan üçün də el qabağında dayanıb cavab verməkdən çətin bir iş olmasın gərək!..

*1961*

# MƏNİM VƏFALI DOSTUM

*Hörmətli həkimlərimiz*
*H.Veysova və B.Abbasova*

Bəli, bütün şəhər yatmışdır. Küçələrdən, həyətlərdən, otaqlardan səs-səmir kəsilib. Nə fit, nə təkər, nə zəng, nə maşın səsi! Ondördgecəlik Ay fəzanın dərinliklərindən sakit-sakit baxır, sanki ayaz göylər sərinliyini yerə, yatanların sinəsinə tökmək istəyir. Mənim otağımda da hər şey hərəkətsiz, sükut içindədir. Təkcə o mənim əziz və vəfalı maşınım fəaliyyətində, saat kimi ahəngdar vurğuları ilə məni aparmaqdadır.

Bu maşın məni əlli ildən çoxdur ən çətin, dolaşıq yollarla aparır, anadan olandan, çağalığımdan, qoca vaxtıma qədər gəzdirir. Yorulmadan gəzdirir, heç bir dəqiqə də dayanmır. Bu maşın ömrüm boyu mənimlə həmrəy olub, məndən nə təkər, nə yağ, nə benzin, nə təmir istəyib. İşini də həmişə saat kimi müntəzəm aparıb. Mən ondan bəzən incimişəm, gileylənmişəm, deyinmişəm. Amma o, müti bir xadim, əziz bir dost kimi həmişə susmuş, işinə davam etmişdir.

İndi mən onun qarşısında nə qədər minnətdar olduğumu düşünürəm, xitab edib ondan üzr istəyirəm:



– Əzizim, güman eləmə ki, mən qaba və qalın bir məxluqam. Sənin kimi etibarlı bir dostumu yaddan çıxarıram. Yox! Sən mənim həmişə vücudumun mərkəzində, sinəmdəsən, zehnimdəsən! Mən çox yaxşı başa düşürəm ki, sən mənim ən etibarlı, ən vəfalı, ən fədakar, ən təmənnasız və yeganə bir dostumsan.

İş demir, istirahət, əyləncə, səyahət, söhbət, yuxu demirsən, sən həmişə fəaliyyətdəsən. Soyuq, isti, tufan, bürkü demirsən, həmişə çalışırsan! Bircə arzun, bircə əməlin, istəyin var ki, mənim vücudum möhkəm, dizim taqətli, zehnim açıq, kefim saz olsun. Bunun üçün əlindən gələni edirsən. Mənim vücudumun sağlam və saz olması sənin yeganə və müqəddəs amalındır! Amma mən sənin yanında xəcalətliyəm, çox xəcalətliyəm. Mən sənə bir yaxşılıq edə bilməmişəm.

Sən mənim vücuduma təmiz qan dağıdır, yad maddələri – zəhərləri ən gözəl laboratoriya kimi filtrlərdən keçirib təmizləyir, duruldursan.

Bəs mən nə edirəm?

Mən sənin yükünü artırıram. Sənin incə, zərif kasanı bəzən fikir, qayğı, qüssə ilə doldururam.

Mən yalnız öz həyatımdakıları yox, başqalarında gördüyümü də yığıb sənin kasana doldururam. Bəzən sənin ağır əmək altında fəryad kimi həyəcanlı döyüntülərini eşitməz olur, içki məclislərinin, hissiyyat səhnələrinin, mübahisə, münaqişələrin, arzu və məhrumiyyətlərin bütün ağrılarını yığıb sənə, sanki sovqat gətirirəm. Sən gərək mənim bu daimi qüsurlarımı bağışlayasan.

Gərək nəzərə alasan ki, mən belə tərbiyə olunmuşam, xeyir-şərimi bilən olmamışam, səndəki müqəddəs amal və vəzifəyə bağlılıq, təəssüf ki, məndə yoxdur. Sənin qədər gələcəyi görən və sənin kimi vəzifəmdə sabitqədəm olsaydım, yəqin, iki yüz il yaşar, övladıma, vətənimə, xalqıma faydalı miras qoyub gedərdim. Yoxsa indiki kimi əlliillik ömrümün də yarısını həkim, dava-dərman, müalicə, sanatoriya dalınca qaçmalı olmazdım.

Çox sağ ol ki, mən qayğı və ağrılarımın azalmasına ən böyük köməyi səndən görürəm. Sən sağ ol ki, nə qədər səhv, pis, qüsurlu tədbir və hərəkətlərim olursa, cəfasını çəkir, sinirir, tab gətirirsən!

Ey mənim əziz, sədaqətli, vəfalı maşınım! On il, heç olmasa, beş il mənə möhlət ver! Mənim dostlarıma, oxucularıma, vətəndaşlarıma, vətənimə deməyə sözüm var. Qoy bu sözlərimi də arxayın deyim, vəsiyyətimi eləyim, varlığımla bağlandığım övladım, tələbələrim, məktəblilərim, dostlarım, yoldaşlarım, oxucularım, kitablarım ilə axırıncı dəfə vidalaşım.

Sonra səninlə ikimiz sakit bir gecədə, həkimlərin hüzurunda oturaraq, deyə-gülə xatirələrimizi danışaq və öpüşüb əbədi vidalaşaq!

Mən səndən çox razıyam, tale səndən razı olsun, ey mənim vəfalı, sədaqətli maşınım!

Ey mənim ömrü boyu məhəbbət, sədaqətlə dolu, çox işləyən, az danışan, həmişə hərarətli maşınım!

*1961*



# ŞAPALAQ

İndi evdə, şəhər yerində, televizorun xarab olmağı çırağın sönməyindən pisdir. Çünki çıraq sönəndə adam şam yandırır, ya sobanın qabağına keçir, ya da özü, birtəhər, lampoçkaları, xətləri qurdalayıb düzəldir.

Amma televizor elə deyil. Bu təzə, yaraşıqlı bir cihazdır ki, ustası ola gərək, hər adam baş çıxara bilmir. Çırağın başına az adam yığılır. Külfətin çoxu o yanda-bu yanda olur. Televizorun başına bütün külfət yığılır, hətta qonum-qonşudan da gələn olur. Hamı tamaşa görmək, təzə bir xəbər eşitmək istəyir.

Şəhərdə televizor olmayan ev, əyləncəsiz uşaq bağçası kimi sıxıntılı olur. Buna görə də televizor xarab oldumu, durub teatra, konsertə qaçası deyilsən. Əlac kəsilir, evdə təlaş başlanır.

Qarantiya kağızı axtar, zəng vur, usta dalınca qaç, elektrik mağazalarından ehtiyat hissə soruş.

Köhnə evdə yaşayanda qonşuluqda bir yaxşı montyor dostum var idi. Elektrik cihazları xarab olanda çağırırdım, tez düzəldirdi. Təzə evə

köçəndən, o kişidən ayrı düşəndən bəri işim çətinləşib. Bizim təzə evlərə telefon kabeli qoyulmaq barəsində hələ idarələr arasında yazışma gedir. Gərək usta yanına maşın ilə gedəsən, getsən də hər saat evdə tapmaq olmur.

Bu dəfə mən arteldən – televizor düzəldən arteldən usta çağırmalı oldum. Mən həmin arteli deyirəm ki, hər beşdə-üçdə bir qəzetlərə, radiolara elan verib, təmir məharətini nümayiş etdirir. Belə bir idarənin yarandığını görəndə ürəkdən sevinirsən, çünki daha tək-tək usta yox, rəsmi bir idarə ilə işin olur. Sifariş ver, gəlib təmir eləsinlər. Hamısı da dövlət qiymətinə. Artelə gedib dərdimi dedim, ünvanımı verdim və axşam saat yeddiyə vədələşdim.

Sağ olsunlar, söz verdikləri vaxtdan on dəqiqə tez adam göndərdilər. Yetirən kimi usta papağını çıxardı, pencəyini soyundu, qollarını çirmələdi, qutusunu açdı, silkələdi. Əməl-salahı çıxardı, cərrah kimi "naxoş aparatı" qabağına yıxıb nazik çəngəl-bıçaq ilə qurdalamağa başladı. Həmin aparat ki, mən yanına gələndə ehtiyat edir, əl vurmağa qorxurdum. Usta qəssab kimi amansızlıqla onu parçaladı, iliyinə, sümüyünə, damarlarına qədər söküb tökdü, əlləşməyə başladı. Maşını götürdü, qayçını qoydu, bir lampoçkasını taxıb o birisini çıxardı, məftilləri gah uzatdı, gah kəsdi, gah sarıdı, gah işığı yandırdı, gah söndürdü... Əlləşməkdən yorulan usta hərdən qıçını-qıçının üstünə aşırıb sakitcə oturur, bir papiros yandırıb çəkir, qabağında uzanan "naxoşa" fikirli-fikirli baxırdı, – deyəsən, öz aləmində onunla danışırdı. Əlbəttə ki, onun dilini bilənlər kimi danışırdı və danışdığını da bizə demirdi. Gecədən xeyli keçəndən sonra usta üzünü mənə tutub dedi:

– Xozeyin, sizin aparatın işi uzun imiş. Mən onu belə bilmirdim, bəzi əməl-salahı da gətirməmişəm. Qalsın sabah axşama. Onsuz da bu gecə bir peredaça yoxdur. Konsert-mansertin də vaxtı keçib. Sabah iki yoldaş gəlib bunun remontunu tez qurtararıq. Lampoçkadan, provodadan-zaddan lazım olacaq, bəlkə də bir az pul verəsən ki, mağazadan alım!

Mən bir beşlik çıxartdım, usta ilə vidalaşdıq.

Sökülmüş aparatın üstünü böyük bir müşəmbə ilə örtdük, həmin otağa keçməyi uşaqlara qadağan elədik.



Sabahısı gün usta özündən yaşlı, yəqin ki, təcrübəli bir yoldaşı ilə gəldi. Saat altıda gəlmişdilər, on birəcən əyləşdilər. Papiros çəkdilər, çay içdilər, bir–birilə deyinə-deyinə əlləşdilər. Nəhayət, aparatı quraşdırıb yerinə qoydular.

Gözlədim ki, bu saat yandırıb evə səs salacaqlar. Usta üzünü mənə tutdu, barmağı ilə aparata işarə elədi:

– Xozeyin, bu Rubinlər ki var, çox kaprizni olurlar. Birtəhər qurmuşuq, amma iki lampoçkası gərək dəyişə. Saxlamaq olar ha, sökülməyib, sınmayıblar, amma ki sən deyən möhkəm deyildir. Bakıda da o lampoçkalar tapılmır, tapılır ha, qaldı ki, altdan verirlər. Hər adama vermirlər. Tanış-biliş ilə sabahda-birigündə tapıb gətirərik, qurtarar, gedər. Birini təzə pul ilə iki, ya üç manata verirlər. O da minnət ilə. Çünki ayrı cür lampoçkadır!

Usta bunu deyib üzümə baxdı.

Elə dik baxdı ki, mən dillənməli oldum:

– Lampoçkaya pul lazımdırsa verim?

– Versəniz, pis olmaz. İkisinə dörd-beş manat bəsdir!

Mən iki göy üçlük çıxarıb verdim, hərəsi birini cibinə qoyub yola düşdülər:

– Hələlik!

Ustalar getdilər. Sabahısı-birigünü gələn olmadı. Artelə getdim ki, filan usta hanı, cavab verdilər ki, o, obyektlərdə olur.

– Mən idarədə onu haçan görə bilərəm?

– İdarəyə gəlmir, hərdənbir gəlir.

Bir həftə gəzdim, soraqlaşdım, ustanı tapa bilmədim.

– Adres qoy, – dedilər, – gələndə verərik.

Bir neçə gün də belə gözlədim. Böyük oğlum icazə istədi ki, qoy ustanın idarəsinə şikayət yazım, onunla rəsmi rəftar eləsinlər.

– Lazım deyil, – dedim, – bəlkə adamdır, naxoş olub, ya unudub, bir yerə gedib...

Mən bunları deyirdim, ancaq əbədi susub dayanan aparatdan da əl üzməmişdim. Ona peşman idim ki, nə üçün tanımamış, yoxlamamış ustanı evə buraxmışam, iş tapşırmışam, pul vermişəm!..

Fikirləşdikcə artıq hirslənir, hirsləndikcə fikirləşirdim...

Axırda hirsimdən aparata elə bərk bir şapalaq vurdum ki, bütün bəndləri laxladı, danışmağa başladı. Həmin şapalaqdan sonra aparat lap yaxşı işləyir.

*1961*



# DİL VƏ ƏMƏL

Hərzə xanım çox zabitəli qadındır, evində hər şeyi istədiyi qaydada saxlar, uşaqlarına da özü kimi ədəb-ərkan öyrətməyi bir gün də unutmaz. Balaca qızı Fizzənin beş yaşı hələ tamam olmayıb. Amma Hərzə xanım elə gün olmaz ki, onu qabağına qoyub danlamasın, başını daramasın, dırnaq tutmağı, əl-üzünü yuyanda suyu sıçratmamağı, stəkannəlbəkini dəsmal ilə silməyi, böyüklərin sözünə baxmağı, telefonda hər nə soruşsalar "bilmirəm, yoxdur" – deməyi ona öyrətməsin.

Bir dəfə qonşulardan kim idisə, qapını açıb Hərzə xanımdan ət maşını xahiş elədi. Hərzə xanım heç qonşu tərəfə dönüb baxmadı da:

– Ət maşınımız xarab olub, vermişik ustaya, hələ gətirib çıxarmayıb.

Fizzə o yandan səsləndi:

– Ana, ət maşınını gətiriblər, odur, mətbəxdən asılıdır, gətirimmi?

Hərzə xanım qızın üstünə bərk qışqırdı, qonşusunu inandırıb yola saldı:

– Ay zad, Fizzə uşaqdır, qanmır, mən deyənə bax. Gözləmə, qoy

get, maşın yoxdur, remontdadır.

Qonşu gedəndən sonra Hərzə xanım düşdü uşağın üstünə, nə yemisən, turşulu sıyıq!

Böyük qızın cədvəl taxtası ilə Fizzənin qoluna-qıçına o qədər vurdu ki, taxta qırıldı. Vurduqca uşağa təkrar elətdirirdi:

– Ananın yalanını çıxardacaqsan? Bir də deyəcəksən?

Uşaq qorxusundan ağlayır, tövbə deyirdi:

– Qələt eləmişəm, demişəm, bir də eləmərəm, ana!

Hərzə xanım qızına öyrədirdi ki:

– Adam, anası nə dedi, onu deyər, onun sözünə qüvvə verər, ayrı söz deməz. Daha sənin kimi naxələf övlad yox, arvadın yanında üzümə durursan... Yediyin çörək sənə haram olsun. Bir də belə hərəkət eləsən, səni heç yerə qoymayacağam. Gedib hamının yanında məni rüsvay eləyərsən...

Bu əhvalatdan iki gün sonra qonşu qadınlardan biri Hərzə xanımın yanına söhbətə gəlmişdi. O yandan-bu yandan danışdılar, söz Xallı Məsmədən düşdü.

Məsmə, düzdür, bu evə gedib-gələn, yaxın adamlardandır. Hərzə xanım üzdə olmasa da, daldada onu lağa qoyar, gah nallı, gah ballı, gah da Xallı Məsmə deyər, gülər, eşidənləri də güldürmək istərdi. Əlbəttə, Məsmənin bu söhbətdən xəbəri olsa, lağa qoyulduğunu bilsə, heç bu evə ayaq basmazdı. Fizzə uşaqlara xas olan bir həssaslıqla söhbətləri eşidər, anasının tökdüklərini götürərdi.

Günlərin birində Xallı Məsmə yenə Hərzə xanımgilə qonaq gəldi. Hərzə xanım qonağını hörmətlə qarşıladı, çay qoydu, qazan asdı, gəlib yanında oturdu, söhbətə başladı.

Qonaq da deyəsən qəsdən böyüklərdən çox uşaq ilə maraqlanırdı. Fizzəni dindirir, başını sığallayır, oyuncağına bəh-bəh deyir, kefini soruşurdu.

Hərzə xanım mətbəxdə xörək hazırlayanda Fizzə qonaqla şirincə söhbət edirdi.

Xallı Məsmə uşağın boş damarından tutmaq istədi:

– Qızım, anan nə deyir, nə danışır, sənə nağıl-zad öyrədirmi?

– Öyrədir, çox öyrədir. Anam dünən deyirdi ki, Xallı Məsmə deyil, nallı Məsmədir, ya da ballı Məsmədir.



Hərzə xanım mətbəxdə qızının səsini də, sözünü də eşidirdi, işarə ilə tapşırıq verirdi:

– Ağız, bəsdir!

Fizzə qonağın marağını görüb eşitdiklərinin hamısını həvəslə danışırdı:

– Bir də anam deyirdi ki, Xallı Məsmə xala yapma sifətdir. Ağzı da cırıqdır!..

Hərzə xanımın səsi daha da ucaldı. Uşağına acıqlanıb deyirdi:

– Ağız, bəsdü! Dilin yansın! Bəsdü!

Fizzə anasının səsini eşidir və təəccüb edirdi:

"Axı, anam danışanlardan başqa bir söz ki, demirəm, bəs anam niyə acıqlanır..."

Birdən qız fikirləşdi ki, yəqin bir sözü səhv demişəm, anam ona görə hirslənir.

– Məsmə xala, ağzı cırıq demədi ey, anam dedi ağzı yırtıqdır. Yırtıq! Söz tökülür... Elə dedi!

Xallı Məsmə qəhqəhə çəkib gülür, uşağı dilə tutub dalısını soruşurdu:

– Nə yaxşı danışırsan, ay Fizzə! De görüm anan daha nə dedi, sonra nə dedi, qızım?

Hərzə xanım əlində soğan bıçağı mətbəxdən evə qaçdı, qızına barmağını silkələyib, gözünü ağartdı:

– Ağız, demirəm bəsdü! Mütrüb, hardan öyrənmisən bu hərzə sözləri, ay səni tramvay altında qalasan. Bəsdü!

– Ay ana, sən özün deyən sözləri deyirəm də. Heç ayrı söz demirəm. Dünən süfrə başında Məsmə xaladan dediyin sözləri əzbər deyirəm. Mən heç kimdən öyrənməmişəm!

Hərzə xanım araya söz qatıb qızının dediklərini yalana çıxarmaq istədi:

– Ay arvad, görürsən, indiki uşaqlar necə xarab olublar? Bilmirəm, zəmanədəndi, atomnandı, ya qəzetdən, jurnaldan, kinodandı, nədəndi. Uşaqlar lap korlanıblar.

Xallı Məsmə gülüb uğunur, uşağın başını sığallayırdı:

– Malades, Fizzə, malades! Anayın balasısan. Yaxşıca əzbərləmisən. Bunlar sənə lazım olar, hər gün töküləndləri yığışdır ki, anan kimi dilavər olasan! Qəzet, atom, filan yalandır, sən lap ananın xələf balasısan.

Hərzə xanım əlində soğan bıçağı dayanıb gah qızının üzünə baxır, gah qonağı inandırmağa çalışır, gah da ürəyində özünü danlayırdı. "Mən külbaşa, deyən gərək, bir tikə uşağın yanında adam söz danışar, o da ki belə uşağın!.. Ağbirçək arvadın üzünə gör nələr deyir, dil-dodağı yanmamış, görürsənmi, sən Allah! Lap məəttəl qalmışam, vallah! Uşağın yanında söz danışmaq da xatadı. Adamı dilə-dişə salıb biabır eləyər. Allah, uzaq elə, ya rəbbi!"

*1961*



# MƏNİM "SƏMİMİ DOSTUM"

Bu adamı çoxmu, azmı görürəm, onu deyə bilmərəm... Demək də çətindir. Çünki bunu müəyyən etməyə bir ölçü yoxdur. Vaxt olur ki, dostum günaşırı evimə gəlir, hətta süfrəmdə əyləşir. Elə vaxt da olur ki, aylarla onu görmürəm. Əlbəttə ki, bu vaxtlar ovqatım təlx, işlərim qarışıq olur, heç nə yadıma düşmür. Bilmirəm, işlərimin qarışıq olduğunu dostum haradan bilir və mənə yaxın gəlmir, başağrısı vermək istəmir.

Dostum gələndə bilirəm ki, işlərim sahmandadır. Hərif gələndə də dil-dodağını, boğazını yağlamış kimi çox şirin danışır:

– Əşi, deyirəm, işimiz rast gətirəydi, filankəsi bizim idarəyə müdir qoyaydılar, yazıq toxucular da bir gün görəydi. Yoxsa ki, ay indiki müdir? Forsundan cırılır, buddan yemir ki, yumşaq yerə yaxındır.

Filankəs, qardaş, qoy biz yığışaq, ərizə verək ispolkomun qabağında məsələ qaldıraq, sizi bizə müdir versinlər. Bizim, həmkarların səsini tez eşidərlər, qoy təşəbbüs eləyək! Nə deyirsən? Sözün doğrusunu deyirəm!

Dostumun bu söhbətləri, əlbəttə ki, müqəddimədir. Əsas mətləbə

müqəddimədir. Ya onun pulu qurtarıb, ya idarədə sıxışdırıblar, ya da nəsə başqa bir işi düşüb...

Mənim üzümdən gəlmir ki, açıq danışam, deyəm sözünü de, müqəddimə lazım deyil. O da müqəddiməsiz demir, müqəddiməsi də çox uzun çəkir. Əvvəlcə uşaqlarımın əhvalını soruşur, sonra şəhər miqyasında ümumi sözlərdən, özümün səmimiyyətimdən danışır:

– Vahidin (böyük oğlumun adı belədir) evlənmək vaxtıdır. Gözləmək lazım deyil. İndiki cavanlara – Vahidi demirəm ha, Allah saxlasın, o, atasına layiq uşaqdır, yoldaşlarını deyirəm – etibar yoxdur. Əlüstü korlanırlar. Korlanandan sonra da çətin düzəlsinlər, ona görə, başını bənd eləmək məsləhətdir... Vaxtı çatıb! Qaldı bir də, özünə fikir ver, əzizim! Sağlamlıq ələ düşən şey deyil, iş-zad cəhənnəm olsun! Rejimini saxla, dünya-aləm qurban olsun sənin bir tükünə! Doktor-moktor öz yerində, sən gərək özünə baxasan! Baxmasan olmaz, gərək baxasan.

Bu söhbətlər qurtarandan sonra görürsən əsl mətləbə keçir. Başqa natiqlərin müqəddiməni qurtarıb mətləbə keçəndə səsi ucalır, ahəngi ciddiləşir. Mənim dostum əksinə. Mətləbə keçəndə yavaşca öskürür, əlini ovuşdurur, səsini alçaldır, adiləşdirir.

– Bizim oğlan da aparıb ərizəsini siz dərs deyən yerə verib ki, əmim ordadır. Deyirəm, ay səfeh, əmin sənin əvəzində dərs oxumayacaq. Get, canın çıxsın yuxuna haram qat, kitabları aç qoy qabağına hazırlaş! Yazıq elə hazırlaşır ha, gecə saat on ikidə görürsən, lampası yanır, amma orası da var ki, ay filankəs, özün bilirsən, adamın ki başında olmadı, yüz hazırlaş! Oxumaq ayrı, öyrənmək ayrı. Sənin dil yetirməyin bir ayrıdır. Üzünə demirəm, sənin bir kəlmə sözün yüz kitaba bərabərdi, Allah sənin kölgəni bizim üstümüzdən əskik eləməsin. Amin!

Bu yerdə dostum əllərini göyə qaldırır, dəbərə gözlərinin bəbəkləri kəlləsinə çıxır.

Dostumu bəzən də lap ayrı cür, yüz həştad dərəcə dəyişən görürəm. Görürəm, mənim qabağıma gəlir, yaxınlaşanda birdən hoppanır, səkinin o biri tərəfinə keçir.

Bu o zamanlar olur ki, idarədə məni söyürlər, qəzetlər də tənqid eləyirlər. Dostum özünü elə göstərir, deyərsən heç tanış deyil. Görünmür, görünəndə də belə, küləkli gündə sərçələrin gizlənməyi kimi... Elə



ki mənim işlərim düzəldi, sahmana düşdü, dərhal dostumun papağı görünür, hərəkətlərinə həmişə əsas və izah tapır:

– Deyəcəksən, haradaydın? Kürəkənim Qubadan uşaqları yığıb gətirmişdi. Evdə bir həngamə idi, vallahi və billahi başımı qaşımağa macalım olmurdu. Neçə dəfə zəng vurdum, telefon zəhirmar da, quyudan səs gələr, trubkadan yox! Nə isə, şükür, görürəm, yaxşısan, qıvraqlaşmısan, rəngin durulub, şükür, şükür!

– Çox razıyam. Əziz olasınız, dostluqdan əskik olmuyasınız!

– Dost oldun gərək ürəkdən olasan, necə deyərlər, səmimi. Mənim aləmimdə nəyin olmasa da, gərək səmimiliyin zərrə qədər əskilməsin. Çünki mən buna uşaqlıqdan alışmışam. Özümdən asılı deyil, bilirsən!

– Görürəm, təkrara nə ehtiyac!

*1961*

# ROLA GİRİB

Beləsi iki cür olur. Biri teatrda yaxşı sənətkar, mahir aktyor!

Biri də həyatda özünü böyük mövqedə olanlar arasında göstərmək iddiasında, meylində olanlar. Mən bunlardan birini tanıyıram. Heç bu tanışlığıma da peşman deyiləm. Çünki kişini görəndə ürəyim açılır. Vallah, başdan-ayağa tamaşadır. Teatrdan, kinodan, sirkdən, konsertdən artıq tamaşadır. Adama ləzzət verir, baxmaqdan doymursan.

Mənim bu tanışım orta məktəblərin birində müəllimdir. Özü də əxlaq müəllimi. Sinifdə uşaqlara nə deyir, nə demir, onu mən bilmirəm, bildiyim odur ki, uşaqlar, özü də lap yuxarı siniflərin uşaqları, İzibala müəllimi heç sevmirlər. Tənəffüs zamanı müəllimlər dəftər əlində müəllimlər otağına gələndə uşaqlar onların qabağını kəsib cürbəcür suallar verir, dəftərçələrinə yazırlar.

Amma İzibala müəllimin yanına gedən, heç bir söz soruşan olmur. O bu məktəbdə lap kənar adam kimi görünür və bununla da fəxr edir: "Müəllim gərək zabitəli olsun. Şagird müəllimə yanaşanda ondan qorxsun!" Doğrudanmı, uşaqlar İzibaladan qorxurlar? Bunu da deyə bilmərəm. Ancaq ona yanaşmadıqları məlumdur. İzibala gah bununla fəxr edir, gah da darıxır. Bir yerə yığışıb söhbət edən uşaqlara yanaşır, əlini sağa-sola əsdirərək deyir:

– Ay uşaqlar, siz nə yaman passivsiniz? Mənim kimi bir mütəxəssisdən istifadə etməyi niyə başarmırsınız? Mən həmişə sizin məktəbdə, bu yerlərdə olmayacağam. Mən gedirəm, nazirlik çağırır. Amma nə qədər ki, burdayam, məndən istifadə eləyin, fürsətdir, ələ düşüb: soruşun, öyrənin, dediklərimdən qeyd götürün, vacib yerlərə yazın! Nə durmusunuz?

İzibala ətrafına göz gəzdirib sanki mühüm bir sirri uşaqlara deyirdi:

– Adə, a zalım uşağı, beş ay, üç ay fürsətdir, əlinizə düşmüşəm, məni sağın da, mənim ətəklərimdən tutub inək kimi niyə sağa bilmirsiniz? Axı mənim bu zəngin məlumatım sizin üçündür. Gora aparası deyiləm ha! Niyə qapalı qalsın, niyə bu zəngin xəzinə (İzibala yumruğu ilə başına vurur) xalqımızın istifadəsinə verilməsin?

Siz gərək o kitabı, bu kitabı axtarasınız ki, görüm Pistaloçu nə deyib, Amos-Kamenski neyləyib, ya Russo necə durub, necə oturub. Bunlar hamısı mənim, necə deyərlər, sinəmdədir. Mən özüm də onların biri, dəryaca məlumatım var, verməyə adam axtarıram.

Hazır sinədəftərəm də, yanınızda durmuşam, bəs məni görmürsünüz? Belə də insafsızlıq olar, canım?!

Ay korafəhm uşağı, elmi, biliyi kitabxanada, qiraətxanada axtarınca, hazır mən yanınızda durmuşam ki, niyə görmürsünüz? Niyə sizin bəsirət gözünüz bağlanıb? Vallahi, yanıb-tökülürəm!..

*1961*

# SÖZÜN YERİ VAR

Şəfiqə xanımla Şirin xanımın qonşuluq, dostluq münasibətləri təmiz, möhkəm və fərəhli idi. Hər ikisinin yeganə balası bir yaşda, bir boyda idi, bir bağçada tərbiyə alırdı. Analar görüşəndə, hər şeydən əvvəl, uşağın kefini soruşardılar:

– Ziyafət necədir?

– Məryəmin kefi sazdırmı?

Uşaqlar səhər tezdən bağçaya gedəndə, günorta qayıdanda, divanın üstündə oynayanda, balaca barmaqları arasına iynə-sap alıb tikiş tikəndə anaların sevincinin həddi-hüdudu olmazdı.

Yaşıd qızlardan danışmaq anaların həmişə ürək söhbəti idi:

– Şirin xanım, bunlar da bizim kimi səmimi dost olacaqlarmı, görəsən?

– Onlar bizdən də yaxşı olacaqlar. Gələcəyin bütün nemətləri onlar üçün deyilmi? Onlar xoşbəxtdirlər, Şəfiqə xanım!

– Yaxşı dost insanın dərdini dağıdar, ömrünü uzadar.

Analar qapı ağzında bu söhbətdə ikən uşaqlar da divanın üstündə oturub oyuncaqlarla məşğul idilər.



Bu dəfə Ziyafət ilə Məryəmin sözləri düz gəlmirdi.

– Məryəm, işin olmasın, mənimkidir!

– Bəri ver, atam gətirib!

– Ay zad, dəymə, sındırarsan, atam Moskvadan alıb.

– Atam...

– Sumkama qoy, ağız, özümündür, atam gətirib mənə!

Bu gün nədənsə Ziyafət həmişəki yoldaşa oxşamırdı. O ki Məryəmi çox istərdi, bir saat ondan ayrı durmazdı. Anası xörək yedirəndə də Ziyafət Məryəmlə bir oturar, bir durmaq istərdi.

Amma indi, qutu dolusu oyuncaqlarını yoldaşına göstərməyə gətirəndə, deyəsən, qızın forsu artmış, danışığı dəyişmişdi.

Doğrudan da, Ziyafətin oyuncaqları əlvan, təzə və yaraşıqlı idi. Gümüş kimi parıldayan sputnikə əl dəyən kimi, zəng vurur, bir saat səsini kəsmirdi. Girdə pəncərəli "Buzqıran" gəmini vanna suyuna salanda partapart ilə yeriyir, qabağına gələni vurub ötürdü. Abı, saxsı göyərçin qanad açıb uçmaq istəyirdi. İpək don, məxmər başmaq geymiş, "yatan-duran" kuklanın iri və "diri" gözləri gah yumulur, gah açılırdı. Lap adamın üzünə baxır, nazik, zoğalı dodaqları qaçır, qımışırdı...

Ziyafət əvvəl oyuncaqlarını səliqə ilə bir-bir sumkadan çıxarıb divanda əyləşən yoldaşına – Məryəmə göstərir, danışır, kənara qoyurdu. Sumka boşalandan sonra Məryəm daha da maraqlandı, oyuncaqları bir-bir öz əlinə götürüb yoxlamaq, oynatmaq, diqqətlə o yan-bu yanına baxmaq istədi. Bu yerdə Ziyafətin, deyəsən, xasiyyəti dəyişdi:

– Məryəm, işin olmasın, mənimkidir!

Məryəm nəyi götürürdüsə, Ziyafət əlindən alır, öz qabağına yığırdı:

– Bəri ver onu, atam gətirib Moskvadan.

– Ay zad, əl vurma, sındırarsan, atam Moskvadan alıb.

– Atam özü...

– Sumkaya qoy, ağız, dağıtma, itirərsən, atam...

Məryəm hansı oyuncağa əl atdısa, Ziyafət biləyindən tutub kənara itələdi.

– Atam alıb, özümündür, dəymə!..

Bayaqdan bəri yoldaşının oyuncaqlarını görəndə çiçək kimi açılan, sevinən uşaq Ziyafətin rəftarına məəttəl qaldı.

– Ziyafət, nə olar, oynadıram da, yemirəm ki?

– Yox, sındırarsan, atam Moskvadan alıb gətirib...

Ziyafətin sözləri yoldaşının xoşuna gəlmədi.

Məryəmə ağır gələn Ziyafətin, xüsusən, axırıncı sözü idi: "Atam alıb, atam gətirib!"

Bəlkə də Məryəm heç oyuncaq üçün hirslənməzdi. Amma Ziyafətin özünü öyən sözləri onun sanki çoxdan qövr eləyən yarasına toxunur, qüssəli, kədərli taleyini yada salır, ürəyini tərpədir, titrədirdi.

Məryəm dik qalxıb hörüklərini dalına atdı. Birbaş üz çevirib yeyin addımlarla evdən çıxdı.

Ziyafətin oyuncaqlarından, ağır sözlərindən anasına danışdı, balaca, yaraşıqlı yumruğunu qara gözlərinə basıb ağladı.

Məryəmin anası Şirin xanım yeganə uşağını çox istər, onu həmişə hər yerdə sevgilisinin – "Ənvərin yadigarı" adlandırardı. Topçu komandir Ənvər Vətən müharibəsində həlak olmuş, heç körpəsinin üzünü də görməmişdi. Görməmişdi, ancaq məktublarının hamısında onun adını təkrar-təkrar çəkər, ona çoxlu hədiyyələr, oyuncaqlar alacağını, maşınlar, şəkilli kitablar, qotazlı çəkmələr gətirəcəyini vəd edərdi.

Şirin xanım istəkli qızının göz yaşlarını görəndə özünü saxlaya bilmədi, balasına qoşulub ağladı. Ağladı, tez gözlərini silib qızına təsəlli verdi:

– Məryəm, balam, ağlama, sənə sputnik də alacağam, gəmi də, kukla da! Budəfəki maaşımdan sənə hər şey alacağam, qızım, kiri, adam özgənin qabağında ağlamaz. Sənin də çox oyuncağın olacaq!..

Şirin xanım qızından gizli Şəfiqə xanıma gileyləndi. Ziyafətin Məryəmi ağlatdığını, dediyi tənəli sözlərini danışdı. Şəfiqə xanım balasının qəbahəti üçün utanıb üzr istədi, sonra Ziyafəti yanına çağırıb əyləşdirdi:

– Qızım, yenə Məryəmi niyə küsdürüb yola salmısan?

– Oyuncaqlarıma toxunurdu.

– Oyuncaq oynatmaq üçündür. Bəs toxunmasın necə oynatsın?

– ...



– Sən özün oynadırsan, yoldaşını niyə qoymursan?

– Öz oyuncaqlarımdır!

– Adam yoldaşına elə deməz, qızım!

– Elə demədim!

– Bəs necə dedin?

– ...

– Sən Məryəmə nə dedin?

– Dedim, əl dəymə!

– Daha nə dedin?

– Heç zad, dedim, sındırarsan!

– Daha?

– Heç nə?

– Demisən, fikirləş, gör nə demisən?

– Bir də dedim, atam alıb!

Şəfiqə xanım Ziyafətin əlini ovcuna alıb çənəsini yuxarı qaldırdı, gözünün içinə baxdı. Əlini dizinə vurdu:

– Qızım, adam yetim qızın yanında elə danışmaz! Sən bilmirsənmi, Məryəmin atası yoxdu?

– Bilirəm, onun atası ölüb.

– Bəs adam atasız qızın yanında da ata ilə öyünərmi? Sinəsinə döyüb atam, atam deyərmi? Sənin oyuncaq alan, gətirən atan var, onunku yoxdur. Anası işləyir, uşağını saxlayır, səninlə oynamağa buraxır, bəs sən onun qəlbinə niyə toxunursan? O, sənin yoldaşındır axı! Gərək onun yanında ata adı tutmayasan. Hər sözün yeri var, axı. Yetim uşağın yanında adam ata ilə öyünməz, qızım, başa düş!

Ziyafət altdan-yuxarı anasının üzünə baxır, nə deyəcəyini bilmirdi, ancaq indi düşünürdü ki, Məryəm niyə incidi, niyə qaçdı, niyə küsüb getdi.

Səhərisi gün bağçada mürəbbiyə Badsəba xanım Məryəmi çağırdı, stolun üstünə qoyulmuş oyuncaqları göstərdi:

– Uşaqlar, bunları görürsünüzmü, təzə oyuncaqlardır. Analar şurasından veriblər, oturun, oynayın.

Məryəm baxıb dünənki oyuncaqları tanıdı və təəccüblə Badsəba xanıma dedi:

– Müəllimə, bunlar Ziyafətindir, axı!

Badsəba xanım şəhadət barmağını silkib Məryəmə başa saldı:

– Qızım, bunlar bir uşağın deyil, sizin hamınızındır, bağçanındır! Hamınız oynayacaqsınız. Başa düşdünüzmü?!.

Məryəm anadan artıq sevdiyi və böyük bildiyi mürəbbiyənin sözlərindən sevindi, oyuncaqları bir-bir götürüb, çoxdanın bələd adamı kimi, uşaqlara göstərməyə, işə salmağa və cəld danışmağa başladı:

– Bax, bu sputnikdir. Siqnal verir, verir, sonra da marş çalır, indi...

Hamı Məryəmin izahına diqqətlə qulaq asırdı, Ziyafət də dinləyənlərin arasında sakitcə dayanmışdı.

*1961*



# HEYKƏL UÇULANDA

*Mənəm-mənəm deyənlərin inanma çox da qövlünə!*

Ə. Sabir

Yayın cızlamasında, bulvarın gur yerində su dükanının qabağında adam əlindən keçmək olmurdu. İki nəfər ağxalatlı zirək qız hər ovcunda dörd-beş stəkan siroplu su doldurub peydərpey camaata verirdi. Manatlıqdan, abasılıqdan hərə əlinə gələni yaş nimçəyə atır, su istəyirdi. Pul saymağa hövsələ, macal yox idi. Ucaboy, sarıyanız, həsir papaqlı, döşündən pəhlivanlıq nişanı sallanan bir oğlan adamları kənara itələyib irəli yeridi, suçuya işarə elədi:

– A qız, bəri dur!

Stəkanlara qazlı su, sirop tökən başıaşağı qız etina etmədi.

– Bəri dur, demirəm sənə, həyasız!

Oğlan bunu deyib taraş stəkanı qızın başına vurdu. Qız "vay dədə" deyib əli ilə başını tutdu, kürsüyə yıxıldı, fışqıran qan onun əlini, üzünü qırmızıya boyadı. Adamlar həyəcanla bir-birinə dəydilər:

– Bu nə işdir?

– Yazığın günahı nədir?

– Bu xuliqanlıqdır!

– Kimdir o? Niyə yaxalamırsınız cinayətkarı?

Oğlan heç nəyə fikir vermədən vəhşi heyvan etinasızlığı ilə şüşədən stəkana su töküb qurtaqurt içdi, stəkanı atıb getdi.

Bütün gözlər onun tam yaraşıqlı uca boyuna, vəhşi hərəkətlərinə dikilmişdi, danışmaq, nəsə demək istəyənləri sakitləşdirdilər.

– Sus!

– Bənd olma!

– İş idi, düşdü...

– Necə yəni, iş, xuliqanı yerinə aparmaq, alnına damğa vurmaq lazımdır.

– Ay hay! Sən də qəribə danışırsan?!

– Nə danışıram, əyri danışıram?

– Axı, qardaş, bilirsən o, kimdir? *(Cavab gözləmədən, gizli bir sirri açan kimi bərkdən əlavə etdim.)* Dünyamalıyevin bacısı oğlu!

Bu sözü eşidəndən sonra danışanlar dinmədi. Qız da səsini kəsdi, ufuldamadı, yanındakılar da ona təsəlli verdi: "Keçib gedər, yayda qan aldırmaq cana xeyirdir, qızım! Qorxma, yaxşı olarsan!"

Dünyamalıyevin, daha doğrusu, Dünyamalıyev yoldaşın özünü tanımasam da...

Pis danışdım: Dünyamalıyev yoldaşı yaxşı tanıyıram və bizim rayonda onu tanımayan yoxdur və ola bilməz. Ancaq ki, o məni tanımır, mənim kimi balaca bir adamı elə mənsəb sahibi hardan tanısın və niyə tanısın, xırım-xırda adamları tanımağa onda vaxt hanı? Onun nəyinə lazımdır ki, məni tanısın.

Amma bacısı oğlunu mən tanıyıram, tanıyıram, deyəndə, bir əlaqəm, get-gəlim yoxdur. Onun atası bir zaman bizim rayonda qəzet çıxardırdı. Famili də Aşumov idi (əvvəl Haşımov imiş, sonra belə olmuşdu), Dünyamalıyevin gurhagur vaxtında yeznəsi Aşumov da bizim rayon qəzetxanasının böyüyü idi. Düzdü, vəzifəsi qəzetxana müdirliyi idi, amma, deyəsən, kişi elə bütün rayonun ağası idi.

Qəssabxanadan görərdin bütün bir qoyunu maşına basıb Aşumovun evinə aparırdılar. Xəstəxanadan "Aşumov yoldaşın evinə filan dərmanı göndərin." Teatrda eşidərdik ki, "hələ oyunu başlamayın Aşumov yoldaş baxacaq, qoy gəlsin." Yollarda görərdik, dirək uzadıblar, maşınları buraxmırlar ki, Aşumovun səsdən xoşu gəlmir. Aşumovun uşaqları da bunu bilirdilər. Aşumov budu gəldi, Aşumov odu, getdi. Rayonda elə dik gəzərdilər ki, elə bil alçaq dağları bunlar yaradıblar. Aşumov belə Aşumov idi!



Görərdin küçələrdə maşınların ağzı açıldı, nə açıldı. "Volqa"sından, "Pobeda"sından tutmuş rayonda nə maşın var bəzənib yola çıxardı. Birində sazanda, o birində güzgü, bu birində tirmə şal, bu nədir? Aşumovun toyu! Özünün toyu yox ha, oğlunun, ya bacısı oğlunun toyu! Bu dəm-dəsgah hamıya məlum idi.

Adam yox idi ki, Aşumov onun yuxusuna girməsin, canına lərzə salmasın... Bizim rayonun camaatı buna bir növ alışmışdı, dözürdü, amma mərkəzdəki yoldaşlar buna dözmədilər. Gün o gün oldu ki, Aşumovu işdən çıxardılar. Mərkəzdən bir böyük komissiya gəlmişdi. Aşumovun işlərini yoxlayanda nə tapılmışdısa, nə yazılmışdısa, kişi neçə həftə o yan-bu yandan kağız gətirdi, şahid axtardı, heç nə eşitmədilər. Dərhal əmrini verib işdən çıxardılar. İşdən çıxanda, nə olar? Vəzifə həmişəlik adamın boyuna biçilməyib ki! Amma Aşumovun məsələsi ayrı cür oldu. Camaata birtəhər gəldi: "Bəli, Aşumovu da dəbərtmək olarmış."

Danışırdılar ki, Aşumov təyyarə ilə uçacaq, şikayətə gedəcək, böyük yerdən kağız-filan gətirəcək. Amma getmədi, məsələ ayrı cür oldu. İşdən çıxandan, bilmirəm, bir həftə, ya on gün sonra kişi vurğu vurmuş kimi, yıxılıb öldü. Bir gecə yatdı, səhər durmadı. Biri dedi, iflic olub, biri dedi, ürəyindən, biri dedi, böyrəyindən! Hər nəsə, yas quruldu, ağlaşma oldu. Kişini götürdülər, dəfn-kəfin elədilər.

Hamı dağılıb işinə, gücünə getdi. Nə idarələrdə, nə küçələrdə, nə də tarlalarda Aşumovdan bir əsər-əlamət qalmadı.

Fələk öz işində idi. Yenə öz qaydası ilə səhər açılır, axşam vaxtında düşür, günəş, bulud, külək, yağış, hava, hamısı qaydasında! Aşumovun uşaqlarının işi qəribə oldu. Bu firon uşaqlar indi kağız kimi qatlanmalı oldular. Necə də qatlanmasınlar? Hara baxdılar, bir havadar görmədilər. Bunların gözünə dağ görünməz, Aşumov görünərdi. Ataları həmişə qarşılarında uca bir heykəl kimi durardı. Uşaqlar elə bilirdilər ki, bu şəhərdə sözü keçən, adı tutulan bir adam varsa, o da atalarıdır.

Şəhərin idarəsini, təşkilatını, adamların həyatını quran, qaydaya salan da ancaq atalarıdır. Amma elə ki Aşumov öldü, gördülər, yox, ey dili-qafil! Nə qoyub, nə axtarırsan? Ölən bir qarğa, ya sərçə imiş! Dünyanın, camaatın heç vecinə deyil!

Radiolar danışır, konsert verir, teatr tamaşaları göstərilir, tramvaylar zınqhazınq sağa-sola gedir. Camaat toy-bayram eləyir, evlər tikilir, küçələrə asfalt salınır, cərgə ilə ağaclar əkilir, göyərir, işıq dirəkləri ucalır, rəngbərəng maşınlar sürətlə belədən-belə keçir, milislər küçə hərəkətinə nizam verir.

Deyəsən, heç bu şəhərdə nə Aşumov, nə də Aşumov nəsli var imiş! Böyük oğlu Nadir küçədə papiros damağında dayanırdı – görsün, bunun kefini necə soruşacaqlar, gördü, heç bunu görən, saya salan yoxdur. Axırda yanından keçən bir oğlanı tutdu:

– Adə, student, mən Aşumovun oğluyam ey!

Tələbə başa düşmədi:

– Nə istəyirsən, xalaoğlu?

– Deyirəm, mən Aşumovun oğluyam.

– Aşumov kimdir?

– Aşumov?

Nadir az qaldı, tələbənin ağzından bir yumruq vura ki, "belə-filan, Aşumovu, məgər tanımırsan?".

Tələbə onun barmağında sıxdığı papirosuna, qızaran üzünə baxdı, kefli olduğunu güman edib milis çağırdı.

– Yoldaş milis, yoldan keçənə sataşır, bu keflini aparın.

Milis işçisi Nadirin qolundan tutanda Nadirin bütün bədəni gizildədi, zehnindən təəssüflü bir xitab keçdi. "Ey dili-qafil, gör nə aləmdir, sən yatmısan, Aşumov kimdir, zad kimdir!"

Nadir milisionerə də özünü tanıtmaq istədi:

– Aşumov mənim papamdır!

– Yeri, yeri, papa-mapa bilmirəm, vətəndaşlara sataşanın on beş sutkası var, yeri!

Nadir bir ətrafına baxıb vurnuxdu, adamların başına vurmağa taraş-taraş stəkan axtardı. Milisioner onun qolundan tutanda oğlanın yadına düşdü ki, yox, indi daha o zaman deyil! Vaxtilə gözündə dikələn, böyüyən, parıldayan rəngbərəng vəzifəli adamlar... Tunc, daş, sement heykəllər gurultu ilə uçulub töküldü, vahiməli bir mənzərə göründü...

Nadir diksinib yuxudan ayılan kimi, əllərini yuxarı qaldırdı, başını tutdu, güman etdi ki, hamı vahiməyə düşəcəkdir. Qəribə idi, heç bu uçurumdan səs-səmir çıxmadı, deyəsən, bunlar hamısı qarışıq bir yuxu idi və ancaq onun gözünə görünürdü, ətrafına baxanda gördü ki, milisioner maşın çağırır:

– Bu sərsəmdir, yeriyə bilmir, maşına qoy apar, növbətçiyə təhvil ver, qoy ayıltsınlar, gəlib dərsinə baxacağam. Mən gəlməmiş, damlamasınlar, gözləsinlər!

Müxtəlif materialdan yaranmış cürbəcür heykəllər isə Nadirin gözündə hey uçulub tökülməkdə, toz-duman qoparmaqda idi. Sirli bir pərdə dalında, sükut içində təkrar olunan bu mənzərəyə, deyəsən, Nadirdən başqa baxan, tamaşa eləyən yox idi. Hər kəs öz işində idi. Adamların kefi saz, hava xoş, şəhər çil-çıraqban idi.

*1962*

# İKİ QIZ, BİR OĞLAN

-Məktubunuza müfəssəl cavab almaq istəsəniz, vağzala gəlin. Ayın on dördündə saat dörddə Hökumət evinin qabağında görüşə bilərik!

Əsəd dəstəyin şəbəkəsinə çox qışqırıb "alo", "alo" dedi, ancaq gec idi. Novella telefonu qoyub getmişdi.

Əsəd dəstəyi yerinə qoydu, götürdü, götürdü, qoydu. Bir müddət telefona baxa-baxa qaldı. Güman edirdi ki, Novella nə şəraitə düşmüşsə, tələsik danışmış, çox, həm də vacib sözünü deyə bilməmişdi.

Bəlkə bu saat təzədən zəng vuracaq! Bəlkə, ayrı telefon axtarır. Əslində isə Novella heç bir "şəraitə" düşməmişdi. Əsədə nə ki deməli sözü var idi hamısını çox aydın, bir az da ucadan qətiyyətlə deyib getdi.

"Vağzala gəl!"

Necə yəni vağzala gəl?!

Əsəd bu çağırışı heç anlaya bilmirdi.

Lirik şeir, ya ürəyə yatan bir söz eşitmək istədiyim vaxt, vağzal! Məhəbbət aləmində nə vağzal? "Bəlkə, qız məni yoxlayır, bəlkə, valideyni ilə tanış eləmək, bəlkə xəlvəti söhbət eləmək, bəlkə, məni hara isə, rayona, toya, banketə, qonaqlığa aparmaq istəyir..."



Əsəd çox düşündü, çox yozdu, qəti bir fikrə gələ bilmədi. Novellanı bu günlərdə görüb vədəsinin mənasını soruşmaq, aydın eləmək də mümkün deyildi. O, çarəsiz qalıb, intizarla ayın on dördünü gözləməli oldu. Bu bir həftə yəqin ki, Əsədin gözünə yuxu, boğazına bir tikə getməyəcək, canı rahat olmayacaq idi. Günün hərəsi bir il keçirdi, özü də elə bil qanqal üstündə oturmuşdu. Əsəd özünə təskinlik, təsəlli vermək üçün hadisəni başdan bir də xatırladı, Novella ilə son görüşünü, söhbətini, giley-güzarını gözünün qabağına gətirdi.

Axı, bu beş kəlmə söz o zəngin, səmimi, atəşin şanlı məktubun cavabı ola bilməzdi. Orada dönə-dönə düzəldilən, ağardılan, abı mürəkkəb, qızıl qələmlə şax kağızda yazılan eşqnamə daşı yumşaldar, dağı dilə gətirərdi. Əsəd orada mətləbini izhar etmək üçün məktubun başına nə oyun açmamış, nələr deməmişdi. "Qəlbimin soltanı, ürəyimin bəndi, həyatımın sütunu, canımın cövhəri olan əziz Novella can!

Sənə məlum ola ki, mən hər qıza sirr açan, könül verən adamlardan deyiləm..."

Bu yerdə Əsədin gözü əlinin dalındakı göy yazıya düşdü: "Sonya!"

– Eh, nə bilir, kimdi, çox olar, deyərəm, məktəb yoldaşım idi...

Yazısına davam etdi:

– Allahdan gizli deyil, səndən nə gizlədim. Ömrümdə bircə qıza bir balaca meylim olmuşdu. O da, necə deyərlər, səfeh çıxdı. Mən onu oxumağa düzəltdiyim, şərait yaratdığım yerdə qəzet-məzetə aldanıb, çanta dalında xam torpaqlara getdi. Ha dedim, "ay qız, haya-küyə düşmə, aldanma, adama çox şirin vədlər verərlər. Gedib orada traktor sürən olacaqsan, əlində diplomu, sənəti olmayan adamın nə gələcəyi... Baytar-maytara rast gələcəksən, heyif olacaqsan! Bir düşün ..." Qız baxmadı, getdi! Getdi, mənim də yaxam qurtardı. İndi daha əsl sevgi dastanımı başdan başlaya bilərəm. Nə isə, demək istəyirəm ki, sənə və yalnız sənə qəlbimi verirəm, şəxsən səni maddi həyatım, varlığım qədər şəxsən sevirəm, əzizim! Sənin yolunda oda girməyə, suya atılmağa, göyə dırmaşmağa hazıram. Ancaq sən dildən-dilə gəl, mənə müjdə ver,

əzizim! Sən bir "həri!" de! Qalan iş mənim boynuma! Ev də var, mebel-filan da, vəzifəm də var. Mən upravlenidə şöbə müdirinin müaviniyəm. Düzdür, müavinəm, amma hər iş məndən keçir, rəis mənim xatirimi çox istəyir, adımı da nağradaya salıb, Allah qoysa, qəzetdə görərsən.

Sən mənim qəlbimi ovlamısan, yaman ovlamısan. İndi daha nə bir yerdə otura, nə bir işə yovuşa bilirəm, səbrim-qərarım kəsilib, dilimin əzbəri, qəlbimin taqəti bir sözdür: Novella, Novella!.. Ay Novella, qurban olum səni doğan anaya, doğdu səni, saldı məni bəlaya!

*Səndən ayrı, sevgilim, mən bu həyatı neylərəm!*
*Qulluğu, telefonu, möhür-peçatı neylərəm!.."*

"Daşı dilə gətirməli olan" eşqnamədən bir səs çıxmadı ki, çıxmadı. Elə bil, bir daş bir quyuya düşmüşdü. Əsəd bir gün gözlədi, beş gün gözlədi, axırda səhər tezdən tələbələr dərsə gedəndə trolleybus dayanacağında durub Novellanı gözlədi. Zalım qızı gəlib çıxmadı. İnstituta getdi. Novella bir dəstə qız ilə dilucu salam verib getmək istəyəndə Əsəd işarə elədi, "sözüm var!"

Əsəd istəyirdi, Novellanı yoldaşlarından ayırsın. O, insafsız da yoldaşlarını səslədi. "Qızlar, dayanın görüm, bu yoldaş nə deyir."

Qızlar dayanandan sonra Əsəd nə deyə bilərdi?

– Novella, bəs mən... haçan sizi görmək olar?

– İndi ki görürsən, sözünü de!

Əsəd bir qızlara, bir özünə, bir də Novellaya baxıb heç nə deyə bilmədi. Qızlar qaqqıldaşıb getdilər, Əsəd hirsindən dil-dodağını çeynədi.

– Zəng eləyəcəyəm... Yataqxanaya da zəng eləmək çətindir, telefona başqaları gəlir, vəzzariyyat soruşurlar: kimdir, nə istəyirsən, filan...

Nə isə, uzun axtarışlardan sonra Əsəd telefonda Novellanı tuta bildi. Hal-əhval soruşmaq, gileylənmək istəyəndə qız sözünü dedi: "Vağzala gəlin! Ayın on dördündə saat dörddə Hökumət evinin qabağında görüşə bilərik!"

Əsəd mətləbinə çatmaq ümidi ilə bu günü ən əziz bir bayram kimi gözləyirdi. Ayın on dördündə nə ki təzə paltarı var idi, altdan-üstdən geyindi. Dəlləkxanaya getdi, özünü sahmana saldı. Sonra yarım saat



vaxtından əvvəl gəlib vağzalda, qapı ağzında dayandı.

Amma nədənsə burada o, ayrı mənzərə gördü...

Bu gün, deyəsən, əziz qonaq qarşılanır, ya yola salınır. Özü də toplaşanların çoxusu cavanlar, tələbələr idilər. Əsədin ürəyinə gəldi ki, "Novella onu yoldaşları ilə tanış eləməyə, bəlkə də, lap təqdim eləməyə çağırıb. Nə xoşbəxtəm, ilahi!

Zalımın qızı belə fikri niyə mənə açıq demir, niyə məsləhət eləmir? Bilmirmi ki, mən bunu alqışlayıb, əhsən deyərəm!"

Saatın kiçik əqrəbi dörd, böyük əqrəbi on ikinin üstünə çatanda Əsəd cəsarətlə içəri girdi, Hökumət evinin qabağına tərəf yönəldi. Nə görsə, yaxşıdır? Novellanı bir dəstə başı, yaxası açıq tələbənin əhatəsində gördü. Nəsə danışıb-gülürdülər. Əsəd əvvəl özünü göstərmək istəmədi: "Bu tünlükdə biz nə danışa bilərik!" Sonra fikirləşdi ki, Novella onun vədə xilaf çıxdığını güman edib inciyər. "Hər halda, özümü göstərməliyəm." Bir sağa, bir sola keçdi, gəlib-gedənə bərkdən salam verdi.

– Əsəd, yoldaş Əsəd!

Əsəd heç gözləməzdi ki, Novella onu belə ərk ilə çağırsın. Özü də camaatın içində onunla salam-kalam eləsin. Sevincdən ürəyi döyünədöyünə qıza tərəf addımladı. Qız əl verib görüşdü və üzünü yoldaşlarına tutub dedi:

– Tanış olun, Əsəd də iqtisad fakültəsini qurtarıb. O da yeni işə getmək arzusundadır.

Novella, lap kənarda, vaqonun ağzında dayanıb konduktor ilə danışan ucaboy oğlanı səslədi:

– Arif, yoldaş briqadir, sizin qrupa daxil olmaq istəyən var! Əsəd yoldaş da rayona getmək istəyir, iqtisadçıdır. Xahiş olunur, bunun ərizəsini qəbul edəsiniz.

Arif yanaşıb Əsədin əlini sıxdı:

– Bizə sizin ixtisasınızdan mütəxəssislər lazımdır. Hərçənd gecikmisiniz, kollektivimizə daxil ola bilərsiniz!..

Əsəd gözləmədiyi bu şərait və mənzərədən lap çaşmışdı. Kimsəyə cavab vermir, tələyə düşmüş kimi, vurnuxur, qızarmış sifəti ilə onabuna baxıb süni irişirdi.

Novella fürsətdən istifadə elədi:

– Əsəd, qrupumuz Əli Bayramlı rayonuna, təzə tikintiyə gedir, nə əcəb şeylərini gətirməmisən? Bir azdan vaqon yola düşür!

– Mən bilmədim, bilmədim belə səfəriniz var. Bir də axı, axı mən burada qulluğa düzəlirəm.

– Harada?

– Bakıda.

– Bakıda qalmaq istəyirsən?

– Özləri məni saxlamaq istəyirlər.

– Bəs sən komsomol yürüşünü eşitməmisən, mətbuatda oxumamısan?

– Eşitmişəm. Ancaq mənə nazirlikdə yer düzəldiblər. Ayın birində əmrim veriləcək, maaşı da...

Arif sözə qarışdı, üzünü qıza tutub mənalı bir ahənglə dedi:

– Bakıda qalmaq istəyənin bugünkü yürüşdə nə işi var, Novella?

Bu sözlə sanki o, Novellaya tənə vurur, onun yaxın adamına gülürdü.

Novella bir Arifə, bir perronda gəzişən gənclərə, bir də Əsədə sarı mənalı baxdı:

– Bəs sən bizim qrupumuza qoşulmaq istəmirsən?

Qız camaatın içində Əsədi, deyəsən, suala tutmuşdu. Əlləri ilə ətrafa işarə edərək, bərkdən deyirdi:

– Bəs sən bu həyəcanlı hərəkata, bu xoş mənzərəyə necə biganə qalırsan, belə bir gündə, belə bir saatda? Yar-yoldaş içində!

Əsəd Sariyev oxlanmış kimi, dartınaraq o yan-bu yana döndü, halay vurmuş cavanların ona baxdığını görüb kəkələdi:

– Biganə deyəndə, biganə niyə, mən özüm belə təşəbbüsləri alqışlayıram. Ancaq ki, mənə söz... Mən söz...

Novella havada əlini tovlayaraq, sanki boşa çıxmış havayı bir arzunu göyə sovurdu:

– Ay-hay! Oda girən, suya atılan, göyə dırmaşan oğlan, etibarın bu imiş?

– Burada etibar söhbəti yoxdur. Novella, mən sonra da gələ bilərəm. Görüm bir nazirlikdə işim necə olur, sonra mən, əlbəttə ki, sizi unudan deyiləm.



– Nahaq yerə! Sən gəl zəhmət çək bizi unut! Vacib işlərlə məşğul olanların əl-ayağına dolaşmaq olmaz. Yaxşı olar ki, sən elə şəhərdə, rahat və isti yerlərdə oda girib, suya tullanmağında, göyə dırmaşmağında davam edəsən. Sizə bu məsləhətdir, ayrı işlər yox!

– Necə, niyə, mən bəyəm əskik adamam?

– Yox, artıq adamsan.

– Yox, artıq demədim.

– Artıq, ya əskik. Ancaq siz komsomolçusunuz, komsomolun ilk çağırışına nə ilə cavab verirsiniz? Bərkə düşməkdən qorxursunuz.

Arif hansı şairinsə məşhur bir sözünü təkrar etdi:

– O xərc ki tökülür...

Halay vuran cavanların çoxusu bu sözü xorla oxudular:

*O xərc ki tökülür boş adamlara*
*Söyüdə tökülsə, söyüd bar verər!*

*1962*

# YAD ADAM

Mən bu idarəyə təzə gəlmişəm, özü də müdir gəlmişəm. Vəzifəm ağır, işim çox, məsuliyyətim də ki öz qaydası ilə.

Onu yaxşı dərk eləmişəm ki, kollektiv ilə dil tapsam, hörmət qazansam, işçilər ilə insan kimi rəftar eləsəm, istədiyimə nail olacağam. İctimai tərbiyə, sağlam əxlaq yolunda öhdəmə düşənin öhdəsindən gələ biləcəyəm. Yox, əgər kollektivdə hörmətim olmasa, adamlara özümü sevdirə bilməsəm, vay mənim halıma.

Otuza yaxın əməkdaşım var ki, hələ bunların yarısından çoxunu yaxşı tanımıram. Adını eşitmişəm, anketini görmüşəm, işindən də az-çox xəbərim var. Amma yaxşı tanımıram.

Bu səhər təzəcə işə başlamışdım, məktəb şöbəsinin işçisini yanıma çağırıb məsləhətləşirdim ki, birisi içəri girdi.

– Salaməleyküm!

– Salam, buyurun əyləşin!..

Təzə gələn adam idarənin hesabat şöbəsində çalışan Mirzə Qulam idi.



Məktəb işçisi durub gedənəcən bir kəlmə danışmadı. Bizim söhbətimizə sakitcə diqqət yetirib qulaq asdı. Amma bir kəlmə danışmadı. Məktəb işçisi gedəndən sonra Mirzə Qulam kürsüsünü irəli çəkib başladı. Özü də ciddi bir səs ilə, borclusuna müraciət edənlər kimi başladı:

– Yoldaş müdir, deyəsən, məni yaxşı tanımırsınız axı? Mənə belə gəlir, ya həqiqətən tanımırsınız?

Mirzə Qulam dik-dik üzümə baxdı.

– Bu nə sözdür, siz idarəmizin hesabat işinə baxan Mirzə Qulam deyilsiniz, sizi niyə gərək mən tanımıyam?!

– Nə bilim, dedim, bəlkə də... Çox soyuq qarşıladınız, ona görə mənim də ürəyimə belə bir şübhə gəldi.

– Nahaq yerə, mən söhbət edirdim, məşğul idim.

– Gördüm, kimlə məşğul idiniz. Yoldaş müdir, bunu necə?.. (Mirzə Qulam gedən yoldaşın izinə işarə edərək eyhamla soruşdu...). Bunu necə, yaxşı tanıyırsınız, ya yox?

– Niyə tanımıram. İdarəmizin işçisidir, təcrübəli, savadlı...

Mirzə Qulam gülümsədi, sözümü kəsdi:

– Elə yox, eyi! Ayrı cür tanımaq deyirəm... Yaxşı, onun barəsində sizə qulluq eləmək mənim bu boynuma, – Mirzə Qulam sağ əli ilə peysərinə bir şapalaq vurdu. – Bu boynuma borc olsun...

Mən bir şey deyə bilmədim. Mirzə Qulam kürsüsünü daha da yaxına çəkdi, bir qapıya, bir pəncərəyə baxdı, ətrafına döyükə-döyükə səsinə sirli bir ahəng verib mənə tərəf əyildi, ahəstə danışdı:

– Sizə mühüm, vacib bir sözü deməyə gəlmişəm. Özü də, necə bir sovet adamı, necə bir idarəmizin inanılmış əməkdaşı kimi danışacağam...

Mirzə Qulam bir də baxındı:

– Sözüm Əşrəf barəsindədir. Əşrəf Şərifov... Bizim öz işçimiz. Onu siz yaxşı tanımazsınız. Amma biz onun dabbaxda gönünü tanıyırıq. Hə, bəs nə, yoldaş müdir!

– Görünür, gönünü soymusunuz?

– Yox, soya bilməmişik, təəssüf ki hələ soya bilməmişik, amma.

– Amma, yəni, nə?

– Yənisi budur ki, mən öz gözümlə bax, bu gözlərimlə srağagün

görmüşəm!

Mirzə Qulamın gözləri alacalandı, təkrar baxındı.

– Nə görmüsən?

– Danışa bilərəm?

– Danış!

– Sözlərim havayı getməyəcəksə, qəti tədbir görəcəyinizə söz verirsinizsə, danışım?!

– Nə tədbir?

– Necə ki bir müdir!

– Müdirdən asılı nə olsa, mən hazır!

– Bəli, asılıdır, müdirdən çox asılıdır.

– Buyur!

– Baş üstə!

Mirzə Qulam cəld qalxıb qapı–pəncərəyə bir də baxdı, qapını bərk çəkdi. Gəlib oturdu, cibindən balaca, kirli, yağlı və sökük-tökük dəftərçəsini çıxarıb vərəqlədi:

– Hə dünən... Yox, Allah lənət eləsin şeytana, dünən yox, srağagün! Bəli, srağagün, ayın on üçündə, axşama yaxın, bazarda hərlənirdim, gördüm...

Mirzə Qulam səsini kəsib üzümə baxdı.

– Nə gördün?

– Nə görsəm, yaxşıdır?

Mirzə Qulam ayağa durub mənə yaxınlaşdı.

– Həmin bu Əşrəf, Əşrəf Şərifov ət alır. Əti aldı, cibindən təzə qəzeti çıxardı. Özü də hansı qəzeti, rəhbərin, ali sovet sədrimizin məruzəsi olan qəzeti oxuyun. Məruzə, şəkil də ortasında, böyük şəkil.

Mirzə Qulam səsinə hökm qətiyyəti verdi:

– Bu əclaf oğlu əclaf qəzeti açdı, əti bükdü lap qəzetin ortasına, sədrin şəklinin üstünə!

Mirzə Qulam sözünü dedi, böyüyən və alacalanan gözləri ilə mənalı-mənalı mənə baxdı, sonra da əlavə elədi:

– Özü də mal ətini! Mal ətini bükdü sədrin şəkli olan qəzetə! İnanırsanmı, mən dayana bilmədim, lap əsirdim, az qaldım, oradaca hərifi boğazlayam!



Mirzə Qulamın rəngi qızarmış, gözləri hədəqəsindən çıxmışdı:

– Özün Şura hökumətinin qulluğunda olasan, adını həmkarlar üzvü, sovet işçisi qoyasan, hörmətli bir qəzetə ət, özü də mal əti bükəsən? Yoldaş müdir, buna gərək biz dözməyək!

Mən susurdum, şikayətçinin sözlərini düşünürdüm:

– Biz indi neyləməliyik?

– Biz tədbir görməliyik. Onun üçün də mən rəsmi yazmışam, tarixi ilə, yeri ilə, yurdu ilə. Bu da ərizə, buyurun.

Mirzə Qulam ərizəni mənim qabağıma qoydu. Dediklərini səliqə ilə yazmışdı, imzalamışdı, həmkarlar biletinin nömrəsini, stajını da göstərmişdi.

Mən bir ərizəyə, bir Mirzə Qulama baxdım, açarlarımı götürüb ayağa qalxdım. Hərif güman edirdi ki, bu saat dəmir seyfi açıb onun ərizəsini oraya qoyacaq, sonra lazımi yerinə göndərəcəyəm.

– Yoldaş müdir, hara göndərsən, xahiş edirəm öz tərəfindən də bir şey əlavə edəsən. Bilsinlər ki, siqnal bir adamdan yox, böyük bir idarədəndir.

– Öz yanında göndərəcəyəm.

– Hə, hə?!

Mirzə Qulam durub təzədən oturdu, rahat nəfəs aldı.

– Narahat olma!

– Təbiət sizi bizə çox görməsin!

Qalxıb papağımı geyindim, açarları cibimə qoydum, Mirzə Qulamın ərizəsini iki qatlayıb bir eninə, bir uzununa cırdım, zibil səbətinə atdım.

Kişinin sinəsindən bir ah, bir inilti qopdu, az qaldı özündən gedə:

– Neylədin sən, yoldaş müdir, bu nə işdir sən gördün?! Vacib dokumenti...

Mən şəhadət barmağımı bir caninin üstünə silkən kimi, Mirzə Qulamı hədələdim:

– Bu dəfə üstündən keçirəm, bir də belə bəd əməl üçün mənim yanıma gəlsən, səni həm işdən qovacağam, həm də məsələni lazımi yerlərdə müzakirəyə qoyacağam!

– Necə, necə bəyəm, mən...

– Çıx otaqdan, qapını bağlayacağam!
Hərif kölgə kimi süzüldü.
Odur-budur Mirzə Qulam məni görəndə ilim–ilim itir, gözümə görünmür.

*1962*



# TELEFON DOSTUM

İnsanın ürək dostu, süfrə dostu, səfər dostu, ev dostu, məktəb dostu, iş dostu olardı. İndi, texnika sayəsində bu dost da əlavə olunub: Telefon dostu!

Telefon yaxşı şeydir, insanın ünsiyyətini, əlaqəsini, münasibətini asanlaşdırır. Yaxın, ya uzaq, kimlə nə işin var, zəng vurub danışırsan, dost-aşnadan əhval tutursan.

Burası belədir.

Amma mən o telefon dostundan demək istəyirəm ki, nə üzünü görmüsən, nə tanıyırsan, nə də bir haqq-salamın olur. Amma telefonda sarmaşıq kimi sənə ilişib, hardansa nömrəni ələ keçirib, vaxt-bivaxt zəng vurur, başağrısı verir, bilmirsən, nə istəyir.

Bir dəfə mən telefon idarəsindən soruşdum ki, belə bir adamın dərdi-azarı nədir?

Mənə güldülər:

– Ay rəhmətliyin oğlu, dərdi-azarı olsaydı, onun dalınca gedərdi, daha telefonun dibində oturub boş yerə camaata zəng vurmazdı.

Gördüm, düz deyirlər. Belə adamın nə işi-gücü var, nə azar-bezarı! Müftə, ya yarımmüftə ortadan yeyib harınlayıb, evinə də bir telefon qoydurub məşğuliyyət eləyir. Sovet hökuməti adamlar cərgəsində bu avaraya da savad öyrədib, o da dam-divarı yazır, ya idarələrə imzasız danos göndərir, ya da telefon qabağında oturub zəng vurur:

– Allo, allo!

– Bəli!

– Bura haradır?

– Siz hara zəng vurursunuz?

– Mənə filankəs lazımdır.

– Xeyr, filankəs burada yaşamır.

– Bəs harada yaşayır?..

– Danışan kimdir?

Telefon susur, cavab çıxmır, amma avara əl çəkmir, həmin nömrəyə bir də zəng vurur:

– Yoldaş, niyə qrubilik eləyib atboy verirsiniz, axı, sizdən söz soruşuram, soruşuram ki, danışan kimdir?

– Sizə kim lazımdır?

– Mənə elə siz lazımsınız, lap sizin özünüz!

– Nə istəyirsiniz, yoldaş?

– Mən bir şey istəmirəm, fikrim budur ki, sizin kefinizi soruşam, görəm əhvalınız necədir, yaxşısınızmı, lap sazsınızmı, yoxsa kəm-kəsiriniz var və nə sarıdandır?

Yenə telefon cavab vermir, avara hirslənir...

– ...Bilirsən, yoldaş, adınızı da bilmirəm, amma dünyada ünsiyyət yaxşı şeydir. İnsan gərək bir-birinin kefini soruşa, halına qala... Məsələn, bu saat mən özüm, kefim saz, damağım çağ! Elə edə bilərəm heç sizdən xəbər də tutmayım. Amma yox! Nə üçün? Çünki biz axı yeni insanıq! Bu söz çox böyük sözdür... Daha dədə-baba yox, yeni! Bəli, lap yeni...

Mən dəstəyi yerə qoyub gedirəm. Nahar eləyib gəlirəm, görürəm, hərif danışır...

Axırda bir də stansiyaya müraciət edib bu adama bir çarə edilməsini xahiş etdim.



Stansiyadan əmr gətirdilər ki, sənin dostuyun telefon xəttini kəsdik.

Başa gəlmədi. Dostum ayrı xətlərdən istifadə edirdi, məndən də çox gileylənirdi ki, "şeytanlıq" eləmişəm, dostluqda nalayiq iş görmüşəm. Stansiyadan xahiş elədim ki, mənim də telefon xəttimi kəssinlər. Onlar da kəsdilər. Odu-budu dincəlmişəm. Dostumun səsini eşitmək feyzindən azad olmuşam!

*1962*

# RADİO QABAĞINDA

Ata ilə oğul nahardan sonra radio qabağında əyləşib verilişə qulaq asırdılar.

Sükuta qərq olmuş evdə radio hakim qüvvə kimi səslənirdi. Deyəsən haradasa, şəhərin mərkəzində, ya ondan da çox uzaqlarda milyonlara xitab edib, inamla danışan natiq bu evdəkilərin diqqət və marağından xəbər tutmuşdu. Günün son, axşamın ilk xəbərlərini danışandan sonra diktorun səsi birdən ucaldı, ahəngi dəyişdi:

– Hörmətli eşidənlər, yəqin ki, siz böyük ədibimiz Mirzə Cəlili yaxşı tanıyır, onun dadlı-duzlu hekayələrini, kinayəli və qəhqəhəli felyetonlarını dönə-dönə oxuyursunuz...

Onun vaxtında, ölkənin ağır maddi ehtiyac illərində qəzetlərdə uzun sürən bir mübahisə açılmışdı: gözəllik nədir?

Bu sual ətrafında mətbuatda müxtəlif müəlliflərin, döşünə döyən mühərrirlərin sütunlar, səhifələr dolduran cürbəcür məqalələri çap olunur, mülahizələri söylənirdi. Biri deyirdi, gözəllik təbiəti təqlid etməkdir. Biri deyirdi, gözəllik incəsənətdir, bir başqası da deyirdi – gözəllik



oyun, zəhmət, vergi və nemətdir.

Hər kəs öz fikrini sübut etmək üçün qədimdən, alim, filosof və ədiblərdən parça-parça misal gətirirdi. Kimi Hegelə, kimi də Kanta, Didroya, Russoya, Plexanova, Tolstoya arxalanırdı...

Mirzə Cəlil bir müddət nitq və məqalələri sükut və diqqətlə dinləyib, yorulandan, səbir kasası dolub-daşandan sonra öz jurnalında yarım səhifəlik bir çıxışla mübahisəni belə yekunlaşdırdı:

– Sağ olsun bizim alim, fazil mühərrirlərimiz. Çox sağ olsunlar ki, belə gözəl məqalə və nitqləri ilə bizim kimi avam və savadsızların gözünü açır, onları qəflət yuxusundan oyadırlar.

Sağ olsunlar ki, bizi başa salıb, anladırlar ki, gözəllik nədir!

Mən özüm bir avam adamam, belə mətləblərdən başım çıxmaz və belə dərin yerlərə girməyə də qorxaram. Çünki üzmək bilmirəm.

Doğrudur, avamam, amma indi mən də bu mübahisəyə qoşulub gözəllik barəsində fikrimi demək istəyirəm. Mən də demək istəyirəm ki, dünyada gözəllik nədir.

Nədir gözəllik?

Gözəllik odur ki, axşam fəhlə Müseyyib işdən gələ, görə ki, arvadı Nisə evdədir, ərini gözləyir, salam verə və soruşa ki:

– Arvad, yeməyə bir şey bişirmisən?

Nisə xala da cavab verə ki:

– Bəli, kişi, dana ətindən küftə bişirmişəm.

Müseyyib soruşa ki:

– Çıraqda nöyüt var?

– Kişi, nigaran olma, çəllək nöyütlə doludur, çıraqlarımız yanacaq!

– Ay mərhəba! Atan oldu rəhmətlik!

Qonşusu Müslümü çağıra ki, dur bura gəl, gəl oturaq, söhbət eləyək!

Müseyyib həvəslə iş paltarını soyuna, əl-üzünü yuya, özü də gəlib süfrə başında Nisə ilə qabaq-qabağa əyləşə! Fəhlə ailəsi mehriban qonşu ilə nahar eləyə, deyə-gülə vaxt keçirələr.

Dünyada bundan böyük gözəllik yoxdur!

Gözəllik, gözəllik budur! İnsanın ailə səadəti, dostluq günləridir!

Diktor susandan sonra oğul atadan soruşdu:
– Ata, bu hekayədir?
– Yox!
– Məqalədir?
– Yox, məqalə də deyil!
– Bəs nədir, ata?
– Qoy qulaq asaq, böyüyəndə biləcəksən, nədir, tələsmə, bala!
Ata–bala sükutla diktoru dinləməkdə davam etdilər.

*1962*





# EL XADİMLƏRİ

Taq-taq-taq...

Gülər xala qapı döyəni bu səsdən tanıyırdı, yaşına uyğun olmayan bir cəldliklə qalxıb halqalı açarı götürər, qapıya yaxınlaşardı. Nazlı qonşusuna zəhmət verdiyinə görə xəcalət çəkər, sonra açarı alar, sağ ol eləyib gedərdi.

Əvvəllər Gülər xala qonşusunu içəri dəvət edərdi:

– Qızım, soyuqdan gəlmisən, içəri keç, çay iç!

Nazlı razılıq edər, otağına tələsərdi. Sonralar daha qadına açar verəndə bu dəvətə lüzum görmədi.

Axı, açarı təkcə Nazlı yox, bəzən də işdən tez gələn montyor əri Novruz istərdi. Bu ailədə üçüncü bir adam yox idi. Hər ikisi işləyirdi. Biri trolleybus parkında, biri də işıq şəbəkəsində. Biri evlərin işığını sahmanda saxlar, biri də şəhər nəqliyyatında adamları daşıyardı. Evdən kim axırda çıxsa açarı Gülər xalaya verib gedərdi.

Gülər xala bu gənc, dinc, təmiz ailənin əziyyətindən nəinki incimməz, hətta qəribə bir həzz alırdı. Sanki öz doğma övladının evinə gözət-

Telefon dostum səh.379

çilik edirdi.

Gülər bu ailənin qısa və maraqlı tarixçəsinə də bələd idi. Bələd yox, bağlı idi. Həmkarlar komitəsinə mənzil üçün gedib–gələndə neçə dəfə Novruzu orada görmüş, tanış olmuşdu. Keçən ilin yazında Nərimanov prospektində mənzil alanda Novruzu da qapı bir qonşu mənzilə köçən gördü.

– Boy! Sən burada nə gəzirsən?

– Köçürük.

– Hansı binaya?

– İyirminciyə.

– Qonşuyuq ki!

Onu da gördü ki, Novruz yük maşınından çarpayıları çiyninə götürəndə qıvrımsaç, qara bir qız da "Moskviç" maşınından adyalı, balışı və s. düşürdü.

Sən demə, bunlar yenicə evlənibmişlər. Hər ikisi rayondan gəlmiş, inşaatda çalışan fəhlə idilər. Gülər xalaya onlar birinci gündən isnişdilər.

Arvad bunların evinə gözətçilik edir, gəlib-gedəni yola salır, qəzetlərini alıb saxlayırdı. Cavanlar bütün günü tikintidə, işdə olur, ancaq axşam evə qayıdırdılar.

Novruz saat altıda qayıdırdı. Nazlı isə trolleybusda, bəzən axşam növbəsində çalışdığından gec gəlirdi.

Tıq-tıq-tıq!

Nazlının açar istəməyini Gülər bu səsdən bilərdi. Nazik gəlin barmaqlarının ehtiyatla, ancaq üç dəfə qapıya toxunması "Nazlı gəldi" demək idi. Novruz da qapıya üç dəfə döyürdü, ancaq onun müştük kimi bərk, iri barmaqları qapının rəng çəkilmiş taxtasında daha kobud səslənirdi!

Taq-taq-taq!

Güman edilməsin ki, Gülər xalanın qapısında zəngi yox idi, mənzilə köçən ilk günlərdə bu zəng hələ hazır deyildi. Heç kəsin qapısında hazır deyildi. Həmin günlər cavanlar qapını barmaqla tıqqıldatmağa alışdılar.

Zəng rəsmi görünür, qonaq səsinə oxşayırdı. Ancaq şəhadət barmağının üç kərə qapıya toxunması daha Gülər xalaya məhrəm və xoş idi.



Nazlı səhər saat beşdə durur, tələsik geyinir, özünü növbətçi trolleybusa çatdırırdı. Ancaq parka gedəndə, yaxşı maşınların bir–bir qanad açıb səsləndiyini, hərəkətə gəldiyini görəndə işin başlandığını, nəhəng şəhərin oyandığını duyur, damarlarında qızan qan oynayırdı. Elektrik cərəyanının yalnız məftillərin yox, sanki qaynaşan adamların, vücudundan keçdiyini güman edirdi.

Bu cərəyan haradan gəlir? Yalan sözdür, dizellərdən, maşınlardan yox, təkcə bir mənbədən – Xəzərdən təmkinlə boylanan güclü günəşdən gəlir. Milyon nüfuzlu, gurultulu şəhərin bu sərin, təmiz dəqiqələri nə qədər mənalı və gözəl idi.

Bu şəhərdə Nazlının zahirən kiçik, əslində, mühüm vəzifəsi var idi. O, həştad ikinci trolleybusda konduktor işləyirdi. Maşını yola çıxan kimi, adamlar dəstə ilə dolub-boşalan yerlərdə əyləşir, Nazlıya müraciət edirdilər. Bunlar fabrik, zavodların mühəndisləri, fəhlələri, universitetin müəllim və tələbələri, hökumət evinin işçiləri idilər. Çoxu vəzifə sahibi, yaş, bilik, təcrübədə Nazlıdan böyük olan bu adamlar qıza hörmət edir, ondan hörmət görürdülər. Nazlı da bağça mürəbbiyəsi kimi sərnişinlərini tez və salamat iş yerinə çatdırmağa çalışırdı. O, hərdən sürücüdən belə xahiş edirdi:

– Vasya, iş başlanana qədər bir dövrə də vurmaq lazımdır. Dayanacaqlarda camaatı görürsənmi, vaqon çatmır?

Hərdən də pəncərədən boylanıb yollara baxır, qırğı baxışı, tərlan duruşu ilə sanki, "xəbərdar!" deyirdi.

Nazlı maşını öz otağı kimi bəzəkli və təmiz, sərnişinləri də ədəbli, nəzakətli görməyi sevərdi. Saz tikiş maşınında hərlənən tağalaq dərziyə xoş olan kimi, yumru kağız lentini hər saniyə açıb sərnişinlərə bilet vermək də Nazlıya xoş idi. Bir növbənin axırında lentin kiçilib yox olduğunu, pul sumkasının isə dolub ağırlaşdığını görəndə Nazlı bilirdi ki, işləri yaxşı gedir, "plan tez dolacaq!" Bir orası var ki, hərdənbir sərxoş azıb maşına minir, Nazlının qayğısını artırırdı. Dispetçer hamıya tapşırmışdı ki:

– Maşına sərxoş buraxmayın!

Amma sərxoşun da eləsi var sakit olur, əqli başında olur, özünü evə çatdırmağa çalışır.

Nazlı beləsinə bayram günlərində rast gəlir, maşının lap axırında yer verir, ilk dayanacaqda düşürüb dispetçer budkasında oturdurdu.

– Bunu evinə yola salın!

İşə gecikməyin nə demək olduğunu yaxşı düşünən Nazlı sərnişinlərin tələsdiyini üz-gözündən bilirdi. Bir də görürdün, trolleybus xırp dayandı. Haradansa azıb gələn naşı bir sürücünün maşını qabağını kəsir, hərəkətə mane olurdu. Sərnişinlər qışqırırdı. Nazlı isə səs-küy salmadan maşından enir, şoferləri köməyə çağırıb ilişən maşını hərəkətə gətirir, yola salırdı. Gəlmə, nabələd sərnişinlərə bələdçilik edir, bir maşından başqasına ötürürdü. İşini qurtarıb növbəsini başqasına təhvil verəndə Nazlını dispetçer otağında əyləşib pul sayan, hərəkət cədvəlini hesablayan görərdin. Öz növbə yoldaşından xahiş edirdi ki:

– Maşını təmiz saxla. Biz yarışırıq, bu gün-sabah yoxlayacaqlar.

Nazlı maşına elə alışmışdı ki, işdən gedəndə bir otaqdan çıxıb başqasına daxil olduğunu güman edirdi. Hər iki otağı səliqəli, sahmanlı saxlamaq onun borcu idi. Bir fərq burasında idi ki, təkərli otağın qapısı həmişə açıq, qonağı çox olurdu. Təkərli otaqda onun köməkçisi iş yoldaşları, mənzilində isə Novruz idi. Hər iki otağı ona həmkarlar ittifaqı, gənclərin zəhmətinə qiymət verən təşkilatlar vermişdilər, özü də həmişəlik vermişdilər, müftə vermişdilər. Nazlı gecə-gündüz səy edirdi ki, işində bir qüsur tapılmasın, hörmətini saxladığı kollektivin yanında başıaşağı olmasın.

Axı, o da Novruz kimi dövlət xidmətindədir. Ona inanıb çox şey etibar eləyiblər.

*1962*



# MÜDAFİƏ VƏKİLİ

Keçmişdə məktəbli cavanlar arasında bu sözlər çox eşidilirdi: eşq, məhəbbət, hicran, gülü-xəndan, bülbüli-nadan... Çünki onda cavanlar oxuyub qurtaranda evlənməyi, daha doğrusu, aşiq-məşuq münasibətlərini çox düşünürdülər. İndi isə məktəbdə, kitabxanada, institutda, kabinetdə belə sözlər eşidilir:

Tema, opponent, elmi rəhbər, referat, dissertasiya, annotasiya...

Çünki indi cavanların çoxu ali məktəbi bitirəndə istehsalatı, inşaatı, tarlanı yox, dissertasiyanı daha çox düşünürlər. Qüvvəsinə inanan elə cavan tapılmaz ki, dissertasiya yazmaq əzmində olmasın.

Keçmişdə savad öyrənənlər eşqnamə məktubları, albom xatirələri yazırdılar, indi dissertasiya yazırlar.

Keçmişdə məhəbbət məktubu nazlı, nazənin qızlara yazılırdı, xəlvət yazılır, xəlvət oxunurdu. İndi isə, təəssüf ki, dissertasiyanı gərək aşkar yazasan, aşkar da oxuna, nəinki oxuna, hətta müzakirədən keçə! Bu da ki məsələni bir az çətinləşdirir.

■ ■ ■

Axşamüstü işdən qayıdıb naharımı yemişdim, dincəlməyə hazırlaşırdım ki, qapının zəngi vuruldu. Uşaq qapını açanda qoltuğunda böyük kağız bağlaması olan ucaboy, saçıkəsik bir qızın içəri daxil olduğunu gördüm:

– Salaməleyküm, yoldaş filankəs!

– Əleykəssalam!

– Sizə kim lazımdır?

Tanımadığım adam üzünə dikilən suallı nəzərlərimi hiss etdiyindən dilləndi.

– Yoldaş filankəs, mən sizin yanınıza gəlmişəm, – qoltuğundakı bağlamaya baxıb utana-utana – dissertasiyamı gətirmişəm! Hazırdır! Gələn ay elmi şurada müzakirə olunacaq.

"Hazırdır!"

Bu sözü qonaq ucadan, cəsarətlə dedi və mənim üzümə baxdı. Cavab gözləyirdi ki, mən deyəcəyəm:

– Mübarək olsun!

Cavabım qonağın simasındakı qorxu və intizarı dağıdan kimi oldu. Fərəh və sevinc gəncin üzünü işıqlandırdı.

"Hazırdır!" sözünün cavabında müsahibim məmnun qalmışdı.

Ancaq bu cavab rəsmiyyət və nəzakət üçün idi. Sözün əsl cavabı deyilməmişdi. Əsərin tamam hazır olduğunu deyən gəncin nəzərlərində bir xahiş, həm də bir tələb əlaməti var idi.

O, rektorun əmrini səliqə ilə cildlənmiş kitabın içindən çıxarıb mənə verdi və əlini-əlinin üstə qoyub cavab üçün müntəzir dayandı.

Doğrudur, sakit dayanmışdı, ancaq rektorun əmrinin nəticəsini, daha doğrusu, mənim bu vəzifəyə münasibətimi bilməyə çox tələsirdi. Rektorun əmrində həmin əsərin gələn ay elmi şurada müzakirəyə qoyulacağı və bu işə də mənim əsas vəkil təyin olunmağım yazılmışdı.

Vəkil olmaq, başqa bir adamın işinə, əsərinə, zəhmətinə vəkalət eləmək əslində məsul, çətin işdir. Dövlət işinə, elm işinə vəkil olmaq isə daha çətin vəzifədir. Bu cavan qız – Həsənova Mənzər ali təhsildən sonra illər uzunu zəhmət çəkib qalın bir əsər yazmış, alimlər məclisinə təqdim etmişdir. Məclisin rəisi də müzakirədən əvvəl həmin əsər haqqında əsas rəy deməyi mənə həvalə etmişdi. Mən çox çətin bir vəzifə qarşısında idim.

Çətinlik bir də ona görə idi ki, əsər gətirən adamı mən bir həvəskar alim kimi, bu məsələ ilə məşğul olan mütəxəssis kimi yaxşı tanımırdım. Bəlkə də çoxları tanımırdı.

Möhtərəm oxucularımıza məlum olmamış deyil, belə hallarda, yəni elmi bir əsərə, məsələyə vəkil təyin ediləndə adamın özündən soruşur, razılaşırlar. Məndən sual edə bilərsiniz ki, çox əcəb, sən bu qızı tanımırsansa, bəs vəkilliyi niyə boynuna alırdın?

Burada çox səbəblər var, hamısını saymaq başağrısı olar. Ancaq bir–ikisini deyim:

Əvvəla, həmin elm sahəsində mən hələ ki, yüksək dərəcəli tək mütəxəssis idim. Rektorun müraciətini rədd etməyə əsasım yox idi. İkincisi, əvvəlcədən tanımadığın müəllifin əsərinə qiymət verəndə daha obyektiv olursan. Başqa amillər bu həqiqətə təsir eləmir. Üçüncüsü də budur ki, tez-tez hazır olub gələn əsərlərin hər birinə tanış mütəxəssis axtarmağa dursan, gərək ölkədə kadr hazırlığı deyilən bu axının, ya cərəyanın qabağında dayana biləsən. Xülasə, Həsənova Mənzərin əsərinə mübarək deyib bir tərəfə qoydum, əyləşməsini xahiş etdim və bəzi suallar verdim:

– Əsər harada hazırlanmışdır?

– Rəhbər kim olub?

– Mənbələrə münasibət necə olub?

– Elmi nəticələr, nəşrə gedən hissələr?

– Tədqiqat institutunda və şöbədəki müzakirələr?

Mənzər suallarıma tutula-tutula cavab verirdi. Demək istəyirdi ki, bunların hamısı aydın məsələlərdi, sözarası tez-tez qeyd edirdi ki, əsərə rektorluqda baxıblar, yaxşı xasiyyətnamələr var, gələn ay müdafiə olacaq. Avtoreferat da çapdan çıxır, sabah, ya biri gün...

"Gələn ay" iki həftənin sözü deməkdir. Bu gün ayın 24-dür. Bir

həftədən sonra ay təzələnir. Müdafiəyə gələn bir əsəri də on beş-iyirmi gün qabaqcadan verməsən şuraya qoya bilməzlər.

Belə bir vaxtda iki yüz əlli səhifəlik bir əsəri oxuyub rəy vermək, xüsusən, mənim kimi ehtiyatlı bir adam üçün imkansız idi. Ona görə də rədd eləmək, vaxt azlığını bəhanə gətirmək istədim.

Bir də düşündüm ki, qonaq üçün vaxt uzatmaq asandır. Xahiş edərəm, dilimdən tutularam, əsər boynumda qalar. Qonağa müəyyən bir cavab vermək mümkün olmadı:

– Mən dedim, əsərinizlə müxtəsərcə bir tanış olaram, sonra sizinlə söhbət edərik.

– Vaxt barəsində deyirsinizsə...

– Hər barədə, qoy bir əsərlə tanış olum, sonrası məlum olar.

Qonaq başını aşağı saldı. Xudahafiz eləyib getmək istəyirdi, vacib bir şey xatırlayan kimi, mənə tərəf qayıtdı:

– Onda bəs, yoldaş filankəs, mən sizi bir də haçan narahat eləyə bilərəm?

– Gələn həftənin axırında, zəng vurun, şərtləşək!

– Oldu!

Qonaq getdi, hərçənd müntəzir getdi. Amma mənim üçün xeyli iş qoyub getdi.

Cildxanada səliqə ilə hazırlanmış dörd-beş kilo ağırlığında olan dissertasiyanı vərəqləyib oxumaq istədim.

Müəllif başda bir müqəddimə yazıb, poemanın mədəniyyət üçün əhəmiyyətindən, mənbələrin azlığı və əlçatmazlığından xeyli danışandan sonra nə vaxt, hansı arxivdə, muzeydə, fondda necə çətin şəraitdə fədakarlıqla işlədiyindən uzun-uzadı söhbət açıb, axırda da "temanın işlənməsində öz qiymətli məsləhətləri ilə ona kömək edən" bir sıra alimlərin, vəzifəli şəxslərin adını çəkib və qabaqcadan minnətdarlığını bildirib.

Söz yox ki, ahəngi və yazılışı heç xoşuma gəlməyən bu müqəddimə haqqında bir şey deməyi lüzumsuz saydım. Çünki, bərkə qalanda otuz səhifəlik bu əlavəni çıxarıb atmaq çətin deyil. Əsərin qiymətinə xələl gəlməz, əksinə, bir az da yığcamlaşar.



Əsas mətləbə keçmək lazımdır.

Müəllif dissertasiyasını ədib Ötkəmlinin əsərlərində tərbiyə məsələsinə həsr edib.

Bu mətləbin də öz müqəddiməsi verilir: göstərilir ki, ədəbi əsərin tərbiyəvi əhəmiyyəti var. Dədədən-babadan savadlı uşaqlar, gənclərin oxuduqları əsər həmişə yadında qalır. Hətta, Zaloğlu Rüstəmi, vətənimizdə böyükdən kiçiyə hər kəs tanıyır və məhz məşhur fars yazıçısının əsəri sayəsində tanıyır.

Ötkəmlinin əsərlərindən əvvəl özünün fəaliyyətindən ağızdolusu bəhs olunur: "Xalqımızın ləyaqətli oğlu Ötkəm Ötkəmli ictimai fəaliyyətə filan kənddə, hələ on beş yaşında ikən qolçomaqlar, istismarçılar, parazitlər, tüfeylilər, ruhanilər, mollalar, axundlar, mərsiyəxanlarla qəti, kəskin, inadlı, ardıcıl... mübarizə aparılan zaman başlamışdır..."

Əsərlərin təhlili verilən yerdə də müəllif bu qayda ilə şirin sözlərə olan səxavətini əsirgəmirdi. Əsəbilik, başağrısı, məcburiyyət ilə oxunan neçə kiloluq bir kitabın elə yeri olmadı ki, suallar, xitablar, qeydlər, cızıqlarla qaralanmasın.

Axıra çatanda daha hövsələm gəlmədi, əsəri qatlayıb bir kənara qoydum. Kənara qoydum, ancaq məni fikir götürdü:

– Müəllifə nə cavab verməliyəm? Şairlər demişkən, qaldım xof ilə rica arasında, od ilə su arasında. Sabah ümid və intizar ilə qapıma gələn qıza nə deyəcəyəm? Bizim zəmanəmizdə birisinin əsəri haqqında ən kəskin tənqidi fikri nəzakətlə söyləmək dəbdir.

Bilirsinizmi, yaxşı yazmısınız, göstərmisiniz, vacib tema barəsində bir tərəfdən də, mümkün qədər, arzu olunardı ki, qüvvəniz daxilində, ümumi ahəngə xələl gəlmədən eləmək olardı ki, elmi nəticələr haqqında bir qədər, necə ki lazımdır, məsləhətdir və oxucunun xahişi və mətləbini nəzərə alınmaq babətindən ola bilsin ki, düşünülə bilər.. və sairə...

Ancaq nə qədər nəzakətlə deyilsə də, belə yazıların müəllifi inciməli, tərləməli olur.

İncimək bir kənara dursun, dissertasiya, sadə bir əsər deyil, bu, yalnız oxunmaq, yayılmaq üçün yox, ən ümdəsi, elmi ad almaq üçün

yazılır. Oxunmasa, yayılmasa da, keçər. Ancaq ad alması vacibdir. Zehnimdə yaranan tənqidi fikirlər belə bir yazının dissertasiya olmağına imkan verə bilməz. "Xatir-könül" üçün də bunların üstündən keçmək, güzəşt eləmək mümkün deyil, xüsusən, mənim üçün mümkün deyil. Heç bir şəkildə mümkün deyil!

Rədd eləmək də, cavan bir həvəskarın illər uzunu, zəhmətini yerə vurmaq, ümidini qırmaq, ailəsini məyusluğa salmaq, insafsızlıq və camaat içində lənətə gəlmək demək idi.

Bəs mən nə etməliyəm?

Bir yandan institut, elmi şura, hazırlıq, müdafiə, bayram tədarükü... o biri yandan peşmançılıq, xəcalət, qan qaralması... Od ilə su arasında qalmışdım. Belə bir vəkaləti öhdəmə aldığım dəqiqəyə, saata nifrət etmək istəyirdim.

İki yol var idi: biri müəllifə açıq demək, rədd etmək, biri də xəstəliyi bəhanə gətirib oxumağa imkan olmadığını demək idi.

Bunların heç birinə mənim üzüm gəlməzdi və gəlməyəcək idi.

Belə hallarda mən, adətən, üçüncü bir tədbirə əl atırdım. Müəllifi yanıma çağırır və ikilikdə ona danışırdım:

– Əzizim, sənin yazdığın bir əsər deyil, dediyin məqsəd üçün də yaramaz, bunun vəkalətini məhz öhdəmə ala bilmərəm. Ancaq mən bu fikrimi aşkara salmaq, səni ad almaqdan məhrum eləmək niyyətində deyiləm. Ona görə də bir daş altdan, bir daş üstdən! Nə sən bu əsəri bura gətirmisən, nə də mən bunu oxumuşam. Apar bacarırsansa, başqa alimlərlə müdafiəni keçir, Allah xeyir versin! Mən bu əsər barədə heç yerdə heç kəsə heç bir söz deyəsi deyiləm. Mən oxumamışam, xəbərim də yoxdur. Müdafiə şurasına da gəlmərəm. Vəssalam!

Canımı dişimə tutub dediyim bu sözlər Mənzərə çox ağır təsir bağışlamışdı. Üz-gözündə tər damlalarını aşkar görür, görməməzliyə vururdum. Qız dilləndi:

– Sizsiz bunu müdafiəyə buraxarlarmı, yoldaş filankəs?

– Niyə buraxmırlar? Buraxarlar, mənfi rəy olmasa, buraxarlar.

– Bəlkə, elmi şurada mütəxəssis kimi sizin rəyiniz zəruri oldu.

– Elə eləmək lazımdır ki, belə bir zərurət yaranmasın.



– Qorxuram yarana.

– ...

Üçüncü tədbir də burada kömək edə bilmədi.

– Bəs nə etməli?

Aralığa qəmli bir sükut çökdü...

Əsər yazan qız, əllərini dizinin üstünə qoyub məyus–məyus üzümə baxır, susurdu.

İndi onun susmaqdan başqa əlacı yox idi. O susur, bir möhtac, bir məzlum kimi mənim üzümə baxırdı.

Doğrudan da ona zülm olunmuşdur. Bu zülm döymək, söymək, məhrum eləmək yolu ilə yox, əksinə, tərif və güzəştlər yolu ilə edilmişdi. Ali məktəbdə, sinifdən-sinfə keçəndə, kamal imtahanlarında, aspirant qəbulunda... Hər yerdə ona güzəşt eləmişdilər. Bəlkə də, bu güzəştlərə özü imkan və şərait yaratmışdı. Axı, o, məktəbdə tələbə vaxtı həmkarlar komitəsi sədri idi, ictimai işlərdə çalışmaq cəhətindən professorların yoxlama saatlarına gec gedir, tez çıxırdı, özü də bu vəziyyətindən çox məmnun idi. Ondan kitab səhifələri, tarix, fakt, düstur soruşurdular. Hamı onu "imtahan etdim" demir, "buraxdım" deyirdi. İclas, müşavirə, yürüş, konsert, ötüşmə tədbirləri onu daha çox məşğul edirdi. Mənzər ancaq indi dərk edirdi ki, buna edilən hörmət və güzəştlər nəticə etibarilə zülm və məhrumiyyət imiş.

O, bu acı həqiqəti dərk etdiyi üçün sakitcə oturub mənim üzümə baxır, öyrəndiyi, adət etdiyi güzəştli sözlərdən heç olmasa, birini, heç olmasa, axırıncısını eşitmək istəyirdi.

Bəlkə də yox, sürətlə addımlayıb sağa gəldiyi çətin yollara baxır, keçilməz bir çəpər qarşısında dayanıb məndən kömək istəyirdi.

Mən dillənməli oldum, elm yollarına çıxan və köməyə möhtac olan bir azərbaycanlı qızın ağır vəziyyəti məni dillənməyə məcbur etdi:

– Sən ali məktəbdə oxumusan, tədqiqat işinə bələdsən: elmi işin xarakterini bilməmiş deyilsən, bəs necə olub ki, belə başdansovma bir yazını hazırlayıb cildə vermisən, müzakirəyə gətirmisən, bəs, bir diqqətlə yoxlamamısan?

– Müəllim, rəhbərim xəstədir, az görüşmüşük.

– Rəhbər adama əsər yazmaz, o yan-bu yandan surət çıxarmaq yox, tədqiqat aparmaq, axtarmaq, əhatə etmək, dərin düşünüb ümumiləşdirmək, yeni, maraqlı, əsaslı elmi nəticələr vermək lazım idi.

– Müəllim... məni...

Mən görürdüm ki, Mənzər indi öz vəziyyətini dərk etmişdir. İlk gəlişində hiss etdiyim tələb və iddia tamam ötüb getmişdir.

– Müəllim, ancaq, güman edirəm ki, mən bu sahədə tamam itmiş bir adam da deyiləm. Göstəriş olsa, mən zəhmətə qatlaşanam! Sizi inandırıram!

– Qətiyyən mən sizin işinizi ümidsiz saymıram. Ancaq atalar demişkən, bu xəmir çox su götürər! Xanım, mən heç kimsəyə pislik etməmişəm, handa qalmış sizin kimi gənc bir azərbaycanlı qızın əsərinə mənfi rəy deməyə dilim gəlməz. O biri tərəfdən də elmin öz tələbi, səviyyəsi var. Aşağılara enmək, onun səviyyəsini ibtidai pilləyə gətirmək deməkdir. Bunu da mən bacarmaram. Elmin şərəfini gərək qoruyaq!

Gəlin belə şərtləşək: sən bu əsəri nə mənə gətirmisən, nə mən oxumuşam, nə də xəbərim var. Bu barədə heç bir şey bilmirəm və kimsəyə də bir söz demirəm. Aparın başqa bir mütəxəssis baxsın, bəlkə müsbət fikir deyəcək, buraxacaqlar. Sizə ad verilməyinə mən əmin olun ki, mane olmaram. Belə xəyal eləyin ki, xəbərim yoxdur, deyin xəstə idi, oxuya bilmədi və belə şərtləşək, narazı qalmazsınız ki?

Mənzər xanım mənim imtina etdiyimi eşidəndə çox məyus oldu, pul kimi qızardı, başını aşağı saldı. Xeyli sükutdan sonra deyə bildi:

– Müəllim, mən əməkdən qorxan deyiləm, aylar yox, illər ilə işləməyə hazıram. İndi mənə aydın olub ki, əsərdə çatışmazlıq çoxdur. Siz ki o zəhmət və diqqətlə oxumusunuz, bilmirəm, nə dil ilə minnətdarlıq eləyim.

– Bunları bilə-bilə müdafiəyə tələsmək nə üçün?

– Xeyr, mən tələsmirəm, institut plana salmışdı. Onlar deyirdilər.

– İnstituta raport lazımdır, yəqin, sizə isə əsər, adam qabağına çıxası ləyaqətli əsər!

– Mən bunun üçün gecə-gündüz çalışmağa hazıram! Kömək üçün sizə ömrüm boyu minnətdar olaram. Sizin tələbləriniz mənim üçün qanundur. Hərfinəcən düzəltməyə söz verirəm.



– O halda, sənə institutda raport hazırlanmağına tələsmə.

■ ■ ■

Səliqə ilə maşında yazılmış, gözəl cildlənmiş, üstünə müsbət rəylər qoyulmuş əsər sökülüb dağıldı, fəsil-fəsil təzədən işləndi. Hər fəsli işlədikcə, Mənzər yeni mənbələrə əl atır, yeni nəticələrə gəlir, hökmlərini əsaslandırırdı. Mənzər üç dəfə başqa respublikaların arxivlərində, tədqiqat idarələrində işləməli, əsərində gətirdiyi faktları yoxlamalı, dərinləşdirməli oldu. Elmi konfransların birində məruzə etdi, məruzəsini də həm ana dilində, həm rusca nəşr elətdirdi. Mən qızın işləmək əzminə, dözümünə, arxivlərdə, kağızlar arasında gün keçirməyinə şad idim. Hər fəsil əldən çıxanda, bəyəniləndə Mənzər bir boy ucalır, özünə inamı artırdı. Hər görüşündə qız səmimi etiraf edirdi:

– Mənim bu yazı-pozumun birinci xeyirxahı siz oldunuz, məni qəflətdən ayıltdınız. Ömrümdə unutmaram!

Mənzərin əsəri bir il sonra müzakirəyə gəldi. Bir səslə də qəbul olundu.

Odur-budur, Mənzər əsərini birinci növbədə diqqətli, inadcıl, müşkülpəsənd adamlara oxuyur, tənqidləri eşitməkdən, düşünməkdən qorxmur.

Kitabçasında "əla" qiymət yazılan bir neçə elmi bəhsi yenidən öyrənmək üçün leksiyalara gəlir, vaxtının çoxunu kitablar, arxivlər, elmi seminarlarda keçirir. Gündən-günə mütaliəyə meyil və marağı artır.

*1962*

# O YANA BAXAN

Mənim mənzilim şəhərin mərkəzində, gurultulu küçələrdən birindədir. İki həyət sağımda bir heykəltəraşın emalatxanası var. Hərdən karton, brezent üstündə çəkdiyi şəkilləri, palçıqdan düzəltdiyi şeyləri çıxarıb qapısına qoyur, divarına vurur ki, gəlib-gedən baxsın.

Məndən gileylənməsin deyə, qonşumun emalatxanasına baxmağa getdim. Sağ olsun, yaxşı qarşıladı. Dəzgahından qalxıb məni salamladı, fırçasını yerə qoydu, ağacını götürdü, döşlüyünü çıxardı, çeşməyini taxdı. Bir-bir çəkdiyi şəkilləri, düzəltmək istədiyi heykəlləri mənə göstərdi:

– Bu heykəl ki, görürsünüz, çobandır. Xalq çobanı!

Mən bu çobanın simasına baxdım, bir şey anlaya bilmədim!

Yumru bədən, uzun qıçlar, ayaqlarda da basanoşka!

Müəllif mənim diqqətimi, təəccübümü görüb izah etdi:

– Əlbəttə ki, biz necə ki, novator sənətkar, çobanın, yəni, müasir çobanın heykəlini belə veririk. Keçmişdə çarıq olardı, indi mədəniyyət gətirib çarığı eləyib basanoşka!



– Deyəsən, bunun qolları qısadır!?

– Bəli, qısadır, qısa da olmalıdır. Çünki çoban düzlərdə çox gəzir, ayaqları inkişaf edib uzanır, amma əlləri ki, çox hərəkət eləmir, ona görə qısadır. Gövdəsi də havada çox olmağından yumrulaşır, yuvarlaq olur...

Mən çobanın kəmərdən yuxarı hissəsinə bir də diqqətlə baxdım. Orada müəyyən sifət, sima görə bilmədim. Dağınıq saçlar arasında corat yemişinə oxşayan yarımyumru bir şey var idi:

– Bu başdır?

– Bəli, çobanın, yəni müasir çobanın başıdır.

– Başı balacadır!

– Şübhəsiz, çoban başı, yəni, müasir çobanın başı balaca olmalıdır. Çünki o düşünmür, onun əvəzinə alimlər, mühəndislər düşünürlər. O, qoyunları otarır, amma südün sağılmasının qayğısına qalan ferma müdiridir, sağıcı texnikdir. Onlar elektriklə süd sağmağın, təmizləməyin, ya qaymaq çıxarmağın texnologiyasını düzəldirlər. Çobanın başı bu düşüncələrdən azaddır, ona görə də balacadır, balaca olmalıdır.

– Bu nədir, sifətdəki burundurmu?

– Bəli, burundur, uzunsov.

– Bəs niyə qulağın dibindədir, çox sağa gedib!

Heykəltəraş mənim "avamlığıma" təəccüb edib bir qədər gülümsəyəndən sonra şagirdlərinə dərs deyən səbirli bir müəllim kimi başladı izah eləməyə:

– Keçmiş ənənəvi rəssamlıqda simmetriya var idi. Yəni, yaraşıq! Onlar yaraşıq nəyə deyirdilər? Ona deyirdilər ki, burun, ağız gərək sifətin ortasında olsun. Yəni, sağ ilə solun məsafəsi bərabər olsun. Özün də bilirsən ki, təbiətdə də belədir. Adamların sifətində simmetriya var! Amma təbiət kordur, şüursuzdur, perspektivası yoxdur.

Biz, yəni, novator heykəltəraşlar isə yenilik yaratmaq ilə seçilməliyik. Simmetriya daha çoxdan köhnəlmişdir. Bizim yaratdığımız sifət yeni, orijinal olmalıdır, dədə-baba sifətinə oxşamamalıdır, ona görə mən çobanın burnunu bir qədər sağa, ağzını da bir qədər sola çəkmişəm. Bu özü bir yenilikdir, mənim özüm Kaliforniyada rəssamların sərgisinə baxmışam, hətta orada həmkarlarımla oturub şahmat oynamışam. Xarici

jurnallara baxsanız, orada yazılıb, muzeylərdə də var, yəqin gələcəkdə, bir az mədəniyyət artanda həmin şəkil bizim muzeylərə də gəlib çıxacaq! Bəli, yəqin gəlib çıxacaq. Çünki biz gələcəyə inanırıq, hər halda belə qalmayacaq!

Bəli, mən sənətin təzə novator üslubunda mülhəm olmuşam, o da çobanın simasında görünür.

– Qorxuram, bəziləri bu heykəli çətin başa düşələr?

Qonşum mənim sualıma güldü:

– Bəziləri, bəziləri! Dostum, biz bəziləri üçün yaratmırıq. Bu günün məhdud tamaşaçıları bizim sənətdən çox-çox aşağıdadırlar.

– Bəs, kim üçün yaradırıq?

– Biz gələcək üçün yaradırıq. Gələcəyin adamı, texnikası üçün yaradırıq.

– Heç olmasa, heykəldə bir hərəkət, canlılıq ola gərək, ya yox?

– Duyanlar üçün bu çobanda çox hərəkət var!

Qonşum bunu deyəndə heykəl titrəyən kimi oldu, başını qabaq tərəfə əyib bərk tüpürdü.

Heykəltəraş tez dəsmalını çıxarıb üzünü sildi.

– Bunu kim elədi?

– Mən sizə deyirəm hərəkət var, inanmaq istəmirsiniz. Heykəl düşünür, canlanır!

– Bəs çobanın çomağı hanı?

Dostum qəhqəhə çəkib güldü.

– Çomaq, çomaq Nuh əyyamından qalma şeydir, o köhnəlik bizim müasir sənətə yaramaz.

– Bəs qoyun otaranın əlində ağac olmasın gərək?

– Sizin fikriniz köhnə çobana, köhnə qoyuna, köhnə otlağa gedib, gələcəkdə ayrı cür olacaq. Çobanın bir fit çalması ilə qoyunlar dərhal biləcək ki, hara getmək lazımdır. Su içməyə, otlamağa, yaxud binədə yatmağa? Siz güman eləməyin ki, gələcəyin məxluqu indiki kimi olacaq, yox!

Mən qonşumun izahına heyran-heyran qulaq asır, susurdum. O isə, görünür, bu vəziyyətdən məmnun bir halda nəsihətində davam edirdi:



– Sən özün necə bir qonşu və sözəbaxan adam, açığını demək olar: bizim tamaşaçımız, yəni, müasir tamaşaçımız gərək bu günü, yəni, indini görməsin.

Heykəltəraş günbatana tərəf döndü, salavat çevirən kimi, ovcunu sifətinə çəkdi, şəhadət barmağı ilə uzaqlara işarə edib həzin və riqqətli səsini ucaltdı:

– Bugünü yox ey! Gələcəyi! Uzaq və xoşbəxt gələcəyi görsün! Bu heykələ baxan gərək xəyalını göndərsin okeanların, ölkələrin, zamanların, əsrlərin uzaq arxasına! Orada, gələcəyin tarlasını, quzusunu, çobanını, çantasını görsün! Buna deyərlər sənət! Yoxsa ki, ya indi çomaq vaxtıdır, ya da motalpapaq!

– Elədir!

– Gərək bu mətləbləri başa düşəsən, qonşu!

– Çox sağ olun ki, bizim kimi avamları başa saldınız, var olun!

– Borcumuzdur, borcumuzdur!

*1962*

# PİLLƏLƏR
## (Oğrunun düşünjələri)

Dünyada hər şey tədriclə olur. Böyük şəhərlər də birdən-birə tikilməyib, yavaş-yavaş, pillə-pillə. Hər iş belədir.

Görürsən, birini böyüdüb qoyublar lap yuxarı qulluqda, nərdivanın başında. Adam ona baxanda ulduza baxan kimi, az qala papağı düşür.

Elə bilirsən, o da həmişəlikdir, yox. Bir də görürsən budur, hərif kəlləmayallaq gəldi yerə. Bir də, yerdə də bənd almadı. Yerdən də keçdi. Getdi lap quyunun təkinə. Niyə belə oldu? Çünki kəlləçarxa tədricən çıxmamışdı. Danqırat ilə, kranla birdən-birə qalxmışdı. Pillə-pillə çıxsaydı, pillə-pillə də düşərdi, hər şeyin qaydası var.

Amma mənimki elə olmadı. Mənim çıxmağım da düşməyim kimi, ağıllı, qaydasında oldu. Nərdivanın pilləsi ilə pişik necə səliqə ilə düşər, mən də elə düşdüm. Heç ruhum da incimədi.

Ticarət Nazirliyində müfəttiş olanda gözüm ayağımın altını görmürdü. Hara getsəm, yer titrəyirdi, yer yerişimdən minnət çəkirdi. Mağaza müdirləri başıma dolanırdı:



– Yoldaş Qürbətov, bura buyur, yoldaş Qürbətov, bəridən əyləş! Deyirəm, adə, adə, a filan-filan olmuş, Qürbətov, sənin dəxilinə girəsi deyil, bədbəxt oğlu bədbəxt, neyləmisən, eləmisən, şotunu düz çıxart, hesabını düzəlt qoy ora! Qürbətov da yuxarını-aşağını mülahizə eləsin. Müsəlmanı bəyəm başa salmaq olur, nə yazdılar və yazmadılar, bir də gördüm, böyüklərim məndən üz döndərir. Daha gözləmədim. Tez özüm ərizə verdim, çıxdım.

Yoldaş nazir, deyirəm, yorulmuşam, inspektor işini apara bilmirəm, qadan alım, məni yüngül işə!...

Nazir özü Allahdan istəyirmiş. Tez götürdü rayon univermağına şöbə müdiri qoydu.

Burda həm işim az, həm də gəlirim çox. Allah bərəkət versin. Həm dolanırdım, həm dolandırırdım. Qaydasında gedirdim. Su bir yerdə qalanda iylənər, bir-iki il işlədim, gördüm, doğrudan da, mən iylənirəm. Yəni üfunətim yan-yörəmə düşür. İnsan gərək artıqtamah olmasın, müdir işarə vuran kimi, götürdüm, ərizə verdim, döngə mağazaya müdir getdim. Oradan raymağa, oradan xırdavat dükanına, oradan gəldim çıxdım su budkasına!

Su budkası... Görürəm ki, mənim düşməyim lap səliqə ilə, pillə-pillə olur. Nə özüm inciyirəm, nə də böyüklərim. Futbol topu kimi, balaca bir təkan ilə gillənib gedirəm üzüaşağı.

Əlbəttə, belə yaxşıdır. Kəlləçarxdan gələndə aləmə səs-səda düşür. Elə bil, mağaza uçdu. Hamı qulağını şəkləyir ki, görəsən, filankəsin başında nə var, ayağında nə var.

Amma indi mənim nə başıma, nə ayağıma baxan var. Oturmuşam balaca bir su budkasında, şüşələrin arasında, başardıqca camaatı sərinlədirəm. Allahın sirop kranını Uruset inəyindən çox sağıram. Sağıram, hələ ki, dindirib tərpədən yoxdur. Tərpətmək deyəndə, bundan sonra daha aşağıda bir pillə yoxdur ki, enəm. Budkadan aşağı haraya enəcəyəm, pensiya vaxtım da hələ hara, məndə o baş, o yaş hanı?

Bir pillə də ensəm, gərək düz qəbiristanlığa enəm.

Əlbəttə ki, o da olacaq. Gün gələcək ki, tabuta qoyub yaş qəbrə də sallayacaqlar.

Amma yenə şükür, şükür ki, ehmallıca sallayacaqlar, daha kəllə-

çarxdan atmayacaqlar. Yavaşca qoyacaqlar. Bir qarış yerim var, order olsa da, olmasa da, mənə verəcəklər. Onu yəqin bilirəm ki, verəcəklər. Çünki mən öz yerimə pillə-pillə gəlmişəm, təsadüfən, birdən-birə gəlməmişəm. Bu yer mənə ana südü kimi halaldır.

Kimin nə sözü var.

Nə dalımca müfəttiş, nə yoxlama, nə akt, nə milis, nə istintaq! Tabutun içində uzananda insan doğrudan da, necə rahatlanır, dünyanın bütün ağrıları canından çıxır. Axır mənzil həmişəlik olur, qismət olsa görərik.

*1962*



# MƏNİ GÖRMÜRSÜNÜZ?

Konserv zavodunun kiçik klubunda, müdir stolunun ətrafında yeddi-səkkiz nəfər oturmuşdu. Deyəsən, məşvərət keçirirdilər. Biri danışır, başqaları qulaq asırdı, sonra başqası danışırdı.

Danışıqlar sakit, mülayim keçirdi. Zavodun onilliyini qeyd etmək, buraxılan məhsul, qazanc, yetişən kadrlar haqqında, gələcək tədbirlər haqqında rəqəmlər, planlar göstərilirdi. Yerli komitə sədri Özüyarov isə çox narahat idi. Gah durur, gah oturur, gah danışanlara su töküb verir, gah nəsə protokola yazırdı.

Danışıqlardan yorulub, reqlament təklif eləyənlərə də hamıdan qabaq yerli komitə sədri cavab verirdi:

– Reqlament nədir, canım, qoyun işimizi görək, yubiley düzəldirik. Siz də... Hara tələsirsiniz, bundan vacib iş nədir?

Axırıncı natiq təklif edirdi ki, zavodun işini genişləndirmək, yeni sex tikmək məsələsini qoymaq, kənardakı birmərtəbə binanı almaq lazımdır. Görünür, direktor da yorulmuşdu, ayağa qalxıb getmək istədi:

– Mən razıyam, o məsələni də qoymaq pis olmaz, hələlik bu təd-

birləri keçirsək bəsdir...

Yerli komitə sədri birdən partladı:

– A canım, siz necə komissiyasınız, belə komissiya, belə yubiley olar?

– Nə olub, Özüyar?

– Necə nə olub?

– Nə olub axı?

– Necə nə olub, yubiley düzəldirsiniz, bəs mən boyda adamı görmürsünüz? O məsələni qoyaq, bu planı götürək... Bəs demirsiniz bu xarabada can çürüdən yerli komitə var? Qəribə bezsovestni iş görürsünüz. İclas gələndə Özüyar, putyovka istəyəndə Özüyar, konsert düzəldən Özüyar... Bəs yubiley keçirəndə bu filan-filan olmuşun adını çəkmək günah olar? Mən belə yubileyə ayaq basmaram!

Müdir onu sakitləşdirdi, üzünü divar qəzetinin redaktoruna tutdu:

– Seyfəddin, Özüyar düz deyir, onun barəsində fikirləşmək, fəaliyyətini qələmə almaq lazımdır. Yerli komitə sədrimiz unudulan adam deyil. Düz deyir, sən bu barədə fikirləş!

Qəzet redaktoru "baş üstə" deyib getdi.

İki gün sonra Özüyarın rəngli, səliqəli bir karikaturası qəzetdə çıxdı.

Fəhlələr hey baxır, gülürdülər. Hərifin sözlərini təkrar edirdilər:

– Mən yekəlikdə adamı görmürsünüz?

Əcəb korafəhm adamlarsınız!

*1963*



# BACI-QARDAŞ

Şekaem deyilən kəndli gənclər məktəbində müəllim idim. Seminariyanı təzəcə qurtaran cavan mütəxəssislər onda çox az idi. Hər rayona bir nəfər düşür, ya düşmürdü.

O zaman kənd məktəbində xidmət eləməyin hörmət və izzətinə münasib güclü də maaşı var idi. Böyük Leninin vəsiyyətinə görə, müəllim haqqında Sovet dövlətinin xüsusi qayğısı, tapşırığı!

İspalkom sədri, ya raykom katibi hər ötəndə məktəbə girib müəllimin kefini soruşmağı vacib bilirdi. Doğrudur, bir müəllimin ixtiyaratı məhduddur. Məktəbdə çalışmaq, uşaqlara tərbiyə vermək, dərs deməkdir. Amma nədənsə, ozamankı müəllimlər özlərini kəndin, rayonun ağası sayır, hər işə qarışır, hər yerdə birinci fikir deyən olurdular.

Kəndə gələnlər, nümayəndələr də ispalkom sədrindən qabaq müəllim ilə görüşür, əhvallaşırdılar.

Keçən gündür, yaxşı yadımda deyil, payızın ilk aylarından biri idi, Bakıya ezamiyyətə getmişdim. Orası yadımdadır ki, üzüm vaxtı idi, "Şərq" mehmanxanasının qabağında yeşik qoyub ağ şanı satırdılar. Şa-

nıya tamahım düşdü:

– Qardaş, üzüm neçəyədi?

Yaxası-başı açıq, qaragöz oğlan dilləndi:

– Kişey!

Mən ətrafıma baxdım. Elə bildim toyuq qovalayır.

– Neçəyə verirsən bundan?

Təkrar cavan oğlanın müəyyən səsi eşidildi:

– Kişey!

– Ay oğlan, satmırsan?

Oğlan iki barmağı haçalanmış pəncəsini mənə tərəf uzatdı, az qaldı, əlini gözümə soxsun:

– İki şeyi, iki şeyi!

İndi bildim ki, iki şahı demək istəyir. Bir abbası verib, üzümdən iki kilo aldım, nömrəyə gətirdim, yuyub boşqaba qoydum, çay-çörəyi gözləmədən özümü vurdum şanıya.

Şüşə kimi şəffaf şanı gilələri dişimin altında şaqqıldayır, sanki, üzüm suyu dərhal qana keçir, ürəyimə yeriyirdi. Şirinlikdən yemək olmurdu, bir salxım adamı tuturdu.

Ezamiyyətə gəlmişdim, məktəb üçün maarif, torpaq komissarlığından ləvazimat alacaq idim. Bizim məktəbə hər iki komissarlığın nəzarəti, köməyi dəyirdi. Düzdür, səfərim qulluq səfəri idi. Ancaq özüm üçün də pal-paltar tədarükü etmək niyyətində idim. Portfelim pul ilə dolu idi. İndi portfel götürmək, adama birtəhər gəlir. Amma o zaman mən portfel gəzdirməyi sevərdim. Portfel əlimdə olanda elə bilərdim ki, ata minmişəm.

Kommunist küçəsinin qurtaracağında – indiki həmkarlar binasının qabağı, muzeyin birinci mərtəbəsi ətriyyat mağazası idi. Portfel əlimdə oraya girdim, özümə bir şüşə əla ətir almaq istəyirdim. Şüşələrin birini qoyub, o birini götürür, yoxlayırdım. Cavan, göyçək bir qız da, yəqin ki, ətir almaq istəyirdi, məni görüb yanaşdı, sözlü adam kimi lap yaxına gəldi:

– Bağışlayın, sizə bir söz demək olarmı?

Mən başımı qaldırıb qıza baxdım!

– Buyurun!



– Siz harada işləyirsiniz?

Mən cavab verdim.

Deyəsən, qız məni kiməsə oxşadırdı. Daha bir neçə sualdan sonra xoş bir təbəssümlə müraciət etdi:

– Sizə bir sözüm var.

Bunu dedi, təsirini gözləyirmiş kimi susdu, üzümə baxdı. Dayandım, mətləbini bilmək üçün mən də onun üzünə baxdım.

Qızın xurmayı saçları, qələm qaşlar altında iri badamı gözləri parıldayırdı. Diqqətimi görüb gözlərini ətrafa gəzdirdi, sözünü eyni ahənglə, bir az da qətiyyətlə qurtardı:

– Çıxanda danışaq!.. Qapıda gözləyəcəyəm, çıxanda danışaq.

Qız bunu dedi, utanan adam kimi cəld addımlarla qapıya çıxdı. Onun bu yerişi, kürəyində sanki uzanıb gödələn qoşa hörükləri, nümayişkaranə görünən mütənasib, bəstə boyu indi də nəzərimdədir. Mən ətriyyat piştaxtasının qabağında vurulmuş kimi, quruyub qaldım. Satıcıya nə demək, nə deməmək, nə almaq, nə almamaq barəsində lap çaşdım, bilmədim neyləyim. Portfelimi əlimdə elə huşsuz tutub dayanmışdım ki, hər görən bunu hiss eləyə bilərdi. Vəziyyətimin gülünc olmağını dərk edirdim. Elə bilirdim, mağazaya girib-çıxanların hamısı bunu hiss edir, mənə baxırlar. Fikir məni götürdü:

"İlahi, bu qız kim ola, bunun mənə nə sözü var? Məni tanıyırmı, tanımırmı, bu nə əhvalatdır, görəsən? Xatalı adam olar ha! Nə iş idi bu, mən düşdüm!?"

Başıma min cür fikirlər gəlir. Cavanam, təcrübəsiz, rayon adamıyam, hadisələrlə dolu bu gurultulu şəhərdə cürbəcür macəralar baş verdiyini, necə faciələr olduğunu da eşitmişəm. Bu təsadüfdən açıq-aşkar qorxuram, bilmirəm nə eləyim.

Ürəyimə gəlir ki, qız məni libasıma, hərəkətimə görə pullu adama oxşadıb, yəqin ehtiyacı var, xahiş eləyəcək.

Onu da deyim ki, varlı siniflərin ləğv olunduğu, xanimanların dağıldığı illər idi. Bəzən kübar ailələr başsız qalır, naz-nemətlə bəslənib, böyümüş qızlar, oğlanlar küçəyə düşür, ağır ehtiyacın qurbanı olurdular. Güman edirdim ki, bu qız yəqin, bədbəxtliyə düşüb, maddi ehtiyacı var, onun üçün mənə yanaşır, dərdini demək istəyir.

Ancaq bilmirdim ki, mən nə cavab verməli, bu məqamda özümü necə aparmalıyam. Birdən-ikidən belə işlər başıma gəlməmişdi, təsadüf düşməmişdi.

Məktəbdə, iclaslarda da bizə tapşırırdılar ki, ayıq olun, özünüzü, "müzür" ünsürlərdən qoruyun, varlı balaları ilə münasibət saxlamaq komsomola yaraşmaz. Onlar bizim sinfi düşmənlərimizdir".

Atasını, ağ günlərini itirmiş bir qız ərk eləyib mənə yanaşır, dərdini deyirsə, mən bir komsomol kimi necə eləməliyəm? Doğrudanmı ona sinfi düşmən kimi baxmalı, yanaşmalıyam? Düzdür, belə tapşırıqlar verirdilər, biz də əməl eləməyi vacib bilirdik. Ancaq bu halda məni ayrı mətləb də düşündürürdü. Qolçomaq, mülkədar, ya tacirlərin özlərinə sinfi düşmən, müzür ünsür kimi baxılsa da, onların yeniyetmə, sovet dövründə böyümüş balalarının nə günahı var? Axı, bunlar həyata təzə atılır, yeni cəmiyyətdə özlərinə yer axtarırlar. Lap belə bir gəncin belə bir ailədən çıxmağı nə üçün onun günahı sayılsın? Olsa-olsa, belələrinin bədbəxtliyi sayıla bilər. Bədbəxtlərə kömək etmək, onları fəlakətdən qurtarmaq isə komsomol kimi şərəfli, nüfuzlu bir təşkilatın və onun üzvünün vəzifəsi deyilmi? İnsani borcu deyilmi?

Ancaq o biri tərəfdən də kəndimiz, kənd komsomol təşkilatının gecəyarısınacan uzanan gurultulu iclası gözümün qabağına gəlirdi. İctimaiyyət müəllimi Rasim Əfəndiyevin komsomoldan çıxarıldığı günləri xatırlayırdım. Rasimi bir mollanın qızına evləndiyinə görə komsomoldan çıxarmışdılar. Rasimin iclasda müqəssir kimi suallara cavab verməyi də yadımdadır!

– Rasim, sən komsomol üzvü ola-ola molla qızı almaqda düzgünmü hərəkət etmisən?

– Yoldaş, mən mollanın qızını almışam, özünü almamışam!

Düzdür, Rasimin sözünə hamı güldü, ancaq onun komsomoldan çıxarılmağına əksəriyyət səs verdi...

Piştaxta qabağında, qapıda qızın məni gözlədiyi dar bir vaxtda bu məsələləri düşünmək çox həyəcanlı, iztirablı, həm də gülünc idi. Axırını bir yerə çıxarmaq da mümkün deyildi. İstər-istəməz könülsüz, mütərəddid addımlarla qapıya çıxdım, küncdə qızın məni gözlədiyini gördüm.



– Buyurun, sözünüzü deyin!

Qız tramvay yoluna baxıb işarə elədi:

– Keçək o tərəfə.

Biz yolu keçdik, indiki həmkarlar binasının qabağı ilə sahilə tərəf gedirdik.

Mən gözləyirdim ki, qız nə deyəcək. O isə dinmir, mənim danışmağımı gözləyirdi, mənim deməyə bir sözüm yox idi. Bəlkə hərif məni yoxlayır, "hərəkətə gətirmək" üçün susurdu. Bu intizarlı sükut uzun sürmədi, qız mənim darıxdığımı hiss edib dilləndi:

– Bəlkə mənimlə bir neçə addım atmaq istəmirsiniz? Sizə eyib gəlmir ki?

– Xeyr, xoşdur.

– Elə isə bu tərəfə gedək, söhbət eləməyə münasib yer tapaq.

Mən etiraz etmədim. Biz Azneftin binasına tərəf yollandıq. Qız hərdənbir söz atırdı:

– Görünür, Bakıya bələd deyilsiniz.

– Yox, burada yaşamamışam, ikinci dəfədir gəlirəm.

– Bizim şəhərimiz qonaqsevən şəhərdir. İndi respublikamızın gəncləri bura gəlməyə çox can atır, məktəblərə dolurlar. Siz ki, şükür, məktəbi qurtarmısınız, işləyirsiniz.

– Elədir. Mən indi maarif cəbhəsində çalışıram.

– Xoşbəxtsiniz.

– Bunu demək üçün əlimdə elə bir əsasım yoxdur. Birinci ildir çalışıram.

– Sizin kimi cavan bir müəllimin işi hədər olmaz.

– Görək.

Bizim söhbətimiz gah təzə tramvay xətlərinə, gah mağazaların səliqəsinə, gah küçə hərəkətinə, gah da bulvar skamyalarına keçir, o yan-bu yanda hərlənirdi... Mətləb məlum deyildi.

"Söhbətimiz" deyəndə mən bu danışıqlarımızı yox, susduğumuzu, daha doğrusu, içimizdə danışdığımızı nəzərdə tuturam. Zahirdə beş-üç kəlmə mətləbsiz sual-cavab olurdu, əslində isə ürəyimizdə çox mətləblər danışırdıq. Qızın nə və necə düşündüyünü bilmirəm. Amma məni fikir-xəyal götürmüşdü: "Görəsən, bu məni hara çəkir, evəmi, soy-

mağamı, ya bir xahiş eləməyəmi aparır. Mətləbini niyə açıq demir, qorxurmu, utanırmı?"

Sahil restoranının yanından ötəndə qız xahiş elədi:

– Girək burada bir stəkan çaydan-çörəkdən yeyək, həm də dincələk.

Mən razı oldum. Düşündüm ki, yazıq acdır, qonaq eləməyimi arzulayır. Nə hiss iləsə əlimi cibimə saldım. Dəstə çervonlara barmaqlarımı toxundurdum, cəsarətlə restoranda boş stulların birinə yanaşdım:

– Oturaq.

– Burada oturaq, pəncərənin yanında.

Mən qızın xahişinə əməl elədim. Pəncərə qabağındakı stulda oturdum. Sağ tərəfdə, iki-üç nəfər oturub çörək yeyir, bizə diqqət yetirirdilər. Ümumiyyətlə, bizə diqqət yetirən çox olurdu və ola bilərdi. Çünki o zamanlar qız ilə, xüsusən ismətli azərbaycanlı qızı ilə restoranda oturmaq dəb deyildi. Mənim müsahibim isə əsl ismətli, həyalı ailə qızına oxşayırdı. Heç inanmazdın ki, belə bir qız tanış olmaq üçün təşəbbüs göstərsin, özü də səni məhz restorana çəksin.

Demək olmaz. Ehtiyac insanı nəyə desən məcbur eləyər: şair yaxşı deyib:

*On ki gərdəd şirra rubəh məvac,*
*Ehtiyac əst, ehtiyac əst, ehtiyac!*

Aslanı tülküyə döndərən ehtiyac, belə bir gözəl, ismətli qızı mənim kimi naşı bir kəndli gəncin yanına düşüb getməyə məcbur edər. Burada təəccüblü bir şey yoxdur.

Dünyanın işi belədir...

Bu fikirlər məni sevindirmir, fərəhləndirmir, əksinə, kədərləndirir, düşündürür, daha da ciddi məsuliyyətə, insanlığa çağırırdı. Qət etmişdim ki, bu qızın nəyə ehtiyacı olsa, kömək etməliyəm! Lap neçə tutsa, bunun naharına əsirgəməməliyəm, bəlkə mağazadan istədiyi ətir və başqa şeylər də almalıyam?!

Onu da gizlətmirəm ki, belə hallarda oxucularımın xəyalına gələnlər mənim də fikrimdən keçməmiş deyildi. Belə cavan, gözəl qız ilə gəz-



mək, kəlmə kəsmək, söhbət eləmək mənə nə qədər xoş idi. Ancaq əvvəl dediklərim də mənim zehnimdə, vicdanımdan gələn bir səs kimi qızğın hisslərimi cilovlayırdı. Mən indi, hər şeydən əvvəl, etibar edilən bir müəllim idim, xalq müəllimi! Ehtiyac, məcburiyyət qarşısında qalan bir qızın fəlakətindən istifadə etmək, onu təklifə çəkmək, hətta adi, sıravi bir insan üçün nə qədər çirkinlik, alçaqlıq olar. Handa qalmış müəllim! Məndə bir yəqinlik hasil olub ki, bu qız məni təmiz, nəcib adam hesab eləyib, müəllim olduğuma inanıb, ona görə də dərdini deməyi qət edib. Bu məqamda mən də insanlıq etməli, bunun zənnini doğrultmalıyam. Adıma layiq olmalıyam.

Burada da bir xalq məsəli yadıma düşür: yoldan ötən atlının şikəst, zarıltılı bir naxoşa rəhmi gəlir. Naxoş xahiş edir ki, atlı onu götürsün. Atlı düşüb naxoşu mindirmək istəyəndə naxoş cəld atın üstünə qalxır, cilovu boşaldır, at sahibini yerdə qoyub çapır. At sahibi arxadan baxa-baxa qalır.

– Ay namərd, mən bir atımın dərdini çəkmirəm. Onun dərdini çəkirəm ki, bir də şikəstlərə, yazıqlara inanan, kömək eləyən olmayacaq. Sən bir atı yox, yüzlərlə adamın inamını apardın!

Bu sözlər, sanki, qeybdən mənə deyilirdi. Mülkədarın, mollanın əlindən xilas olub təzəcə çadrasını açan, ilk gün işığı görən məsum bir azəri qızı ümid edib salam-kalam elədiyi bir gəncdən çirkin bir hərəkət, vəhşi rəftar görsə, nə qədər məyus olar və bizim gənclərimiz haqqında nə rəylər əmələ gələr. Maarif aləmində rüsvayçılıq olmazmı?

Mədəniyyət nədir, insanlıq nədir?

İnsanın heyvandan birinci fərqi onun vəhşi, heyvani hissləri cilovlayıb müqəddəs məqsədlərə tabe etməyi bacarmasından ibarət deyilmi?!

Xidmətçi gəldi, sifariş verməyi qızdan xahiş elədim. Leyla rədd edib dedi:

– Ürəyiniz nə istəyir gətirdin, mən bir stəkan kofe içəcəyəm!

– Leyla xanım!..

İlk tanışlıqda qız adımı soruşanda, mən də soruşmuşdum. Amma o təkrar etmədiyi üçün, mən də dilimə gətirmirdim.

Burada, qarşı-qarşıya əyləşib nahar eləmək mənzərəsi yarananda, deyəsən, mənə bir cəsarət gəldi. Səmimiyyətlə müraciət elədim.

– Leyla xanım, nə kofe? Kofe nədir, nahar vaxtıdır, kababdan, plovdan xətrin nə istəyir?

– Siz istədiyinizi sifariş eləyin, mən evdən indicə çıxıram, aclığım yoxdur! Narahat olmayın!

– Heç olmasa, mənə yoldaşlıq eləyin.

– Yoldaşlıq eləyəcəyəm.

Mən Leylanın etirazına baxmadım, ikimizə də plov sifariş elədim.

Xidmətçi stolumuzu təzə sahmana salıb boşqab düzürdü ki, qonşuluğumuzda əyləşənlərdən biri 30-35 yaşlı qarayanız bir kişi qalxıb bizə tərəf gəldi, ədəb-ərkanla salam verib mənə müraciət elədi.

– Qardaşoğlu, bağışlayın, siz bu qız ilə çoxdanmı tanışsınız?

Mən bu kişinin sualından şübhələndim. Ya bu keflidir, ya da Leyla haqqında deyəcək bir sözü var:

– Bağışlayın, nəyə görə soruşursunuz?

– Nə olar, soruşuram, elə-belə!

– Yaxşı eləmirsiniz, soruşursunuz, iki dostun, yoldaşın arasına girmək, özü də ictimai bir məclisdə, belə yerdə mədəni hərəkət sayılmasın gərək.

Qara kişi qızardı:

– Açığını deyim, qardaşoğlu, sizin dost dediyiniz qız mənim adamımdır!

Elə bil, mən ayıldım, qarşımda başqa bir mənzərə canlandı. Mənə aydın idi ki, qara kişi Leylanın əri, ya nişanlısıdır. Qızı evdə qoyub başqa qadınlara qoşulub, yəqin ki, Leyla da ondan intiqam almaq qəsdindədir.

– Allah başacan eləsin, mənim heç etirazım yoxdur, buyurun əyləşin.

Stul çəkdim. Qara kişi istəmədi!

– Yox, əyləşəsi təhərim yoxdur. Mən sizin buradan getməyinizi xahiş edəcəyəm!

– Nəyə görə bu sözü deyirsiniz? Bəlkə məndən bir qəbahət baş verib?

Qara kişi məni mülayim görüb səsini ucaltdı:

– Xahiş edirəm, siz buradan gedəsiniz, stolun da xərci mənim boynuma!



Hirs vurdu başıma:

– Getmək lazımdırsa, siz buyuracaqsınız. Çünki, mən buraya çağırılmışam.

Qara kişi dediyində israr elədi:

– Bu saat çıxın buradan, yoxsa sizin üçün pis olar.

– Siz məni qorxutmaq istəyirsiniz?

– Çıxmasanız, bax, xata baş verər.

Qara kişi əlini cibinə saldı, yəqin ki, bıçaq çıxarmaq istəyirdi. Mən dik ayağa qalxdım, belimdəki tapançanı çıxarıb ayağa çəkdim:

– Çəkilin buradan, yoxsa vuracağam!

Qara kişi tapançanı görüb saraldı, geri döndü, yanındakılar da onu çəkib apardılar, məndən üzr istədilər. Araya soyuq bir sükut çökdü.

Leyla ayağa qalxıb iki əli ilə mənim başımı tutdu, öpmək istədi. Başıma tərəf əyildi, ancaq öpmədi:

– Çox sağ ol, – dedi, – mən sizi ancaq belə, cəsur bir igid bilib ürək sirrimi demişəm. Xoşdur ki, yanılmamışam. Var ol!

Hərçənd, həyəcanlanmışdım, pozulmuşdum, iştahım küsmüşdü. Ancaq xörəyi son tikəsinəcən yeməli oldum. Leyla da mənə baxıb plovu yedi. Daha başqa sifarişlər vermək istəyəndə Leyla mane oldu:

– Gedək, – dedi, – axşama düşür.

Mən əlimi cibimə atanda Leyla qolumdan tutdu:

– Siz mənim qonağımsınız.

– Nə danışırsan, qız!

– Yoxsa inciyərəm.

Nə illah elədim, Leyla qoymadı. Xörəyin pulunu özü verdi, restorandan çıxdıq.

Mən Leylanı evlərinə yola salmalı idim. "Anamgilə gedəcəyəm", – deyib istiqaməti dəyişdi. Biz Çkalov küçəsindən (o zaman bağ küçəsi adlanırdı) yuxarı diklənib Çəmbərəkənd tərəfə getdik.

Leyla evlərinə çatanda dayanıb təklif elədi:

– Gedək bizə.

– Çox sağ ol, qayıtmalıyam.

– Rica edirəm, bağışlayasınız, sizə çox zəhmət verdim.

– Mən nigaranam.

– Nədən?

– Sizin ərinizlə ixtilafınızdan nigaranam.

– Narahat olmayın. Onun öhdəsindən gələrəm. Siz çox sağ olun ki, mənim ümidimi qırmadınız. Dadıma çatdınız.

– Bəlkə köməklik lazımdır?

– Yox, onun öhdəsindən gəlməyi bacararam.

– Mən bu tanışlıqdan çox məmnunam. Məmnunam ki, qızlarımız köhnə dünya ilə mübarizə üçün silahlanırlar.

– Mən də sevinirəm ki, həqiqi bir gənclə dost oldum.

– Leyla xanım, mən bugündən sizin doğma qardaşınız oluram. Mənə əyandır ki, siz müəyyən çətinliklərə məruz qalırsınız. Hər dəqiqə varam, mənə bir qardaş kimi hər zaman müraciət edə bilərsiniz, bacardığımı əsirgəmərəm.

Bunu deyib ünvanımı yazıb Leylanın sumkasına qoydum. Leyla çox razılıq edib məndən ayrıldı.

Leyla gedəndən sonra mən öz hərəkətlərimi bir-bir təkrar düşünməyə, mühakimə etməyə başladım. Leylanın yanında xəcalətli qalmamağıma ürəkdən şad idim. Ancaq nahar xərcini gərək mən verəydim.

Leylanı sındırmaq istəmədim. Xəyalımda qoydum ki, bu tanışlıq başlanğıcdır. Pul xərcləməli yerlər olacaq və mən, əminəm ki, Leylaya borclu qalmayacağam.

Leylagilin qapısına getməyə utanırdım. Heç yerdə də ona təsadüf etmirdim.

Bu hadisədən, yalan olmasın, altı-yeddi ay keçmişdi, bəlkə də çox. Müəllimlər qurultayına gəlmişdim. Üç nömrəli tramvayda oturub maarif evinə gedirdim, dayanacaqda sürücünün kabinədən çıxıb düz mənə tərəf gəldiyini gördüm. Qolları çirməkli, ucaboy bir qadın əlini mənə uzadıb görüşmək istədi:

– Xoş gördük, yalançı qardaş!

Leyla bir heykəl kimi qabağımda dayanmışdı. Mən özümü itirdim, onun əlini sıxıb yanımda yer göstərmək istədim. O, qolumdan tutub kabinəyə apardı.

– Haçandan buradasınız?



– Üç gündür.

– Siz necəsiniz, çoxdanmı burada işləyirsiniz?

– Təzəliklə. Zəhləm getmişdən ayrılmışam. Axşam bizə gəlin, söhbət eləyək.

Mən vədə verdim və getdim. Leylanın anası hörmətcil, xanım-xatın arvad idi. Qızının taleyindən, indiki bəzi müsəlman cavanların axmaqlığından, qudurqanlığından xeyli gileyləndi və Şura hökumətinə xeyir-dua verdi ki, qadınları bunlardan yaxşı qoruyur.

– Anacan, indi qızlarımız öz taleyinin sahibidir.

– Allah başacan eləsin, oğul, "Sevil" teatrına beş kərə baxmışam. Leyla da lap elə bir qızdır, namərdə baş əyən deyil!

*1963*

# AZ DANIŞMAĞIN FAYDASI

Sədidən soruşdular ki, ədəbi kimdən öyrəndin? Dedi: biədəbdən. Məndən soruşdular ki, az danışmağı kimdən öyrəndin? Dedim: çox danışandan!

Doğrudan belədir. Uzunçuların yanında oturub-durmaq məni təngə gətirdi. Mənim Dilan adlı bir yoldaşım var. Çənədən pərgardır. Bir nağıl ki başladı, səni yuxuya verməmiş əl çəkməz. Deyəsən, zalım oğlu elə bil hər səhər bal halvası yeyir. Çənəsi həmişə işləyir. Atası da bezib onun hap-gopundan. Elə olur ki, Dilan danışır, o danışa-danışa sən gedib üzünü yuyub gəlirsən, ya bəlkə də çimib, ya dişini çəkdirib qayıdırsan! Görürsən elə hərif danışır. Dinləyən var, ya yoxdur, Dilan üçün birdir. Özünün də, sözünün də halına təfavüt eləmir. Gəlib görürsən həmin ahəng, həmin mətləb, həmin söz.

Mən Dilanı pis tanımıram. Xasiyyətinə, ailəsinə bələdəm. Məndən gizli bir işi yoxdur. Amma bilmirəm bu adı ona kim verib.

Dilan!

Dilan bizlərdə sürtülmüş aşığa deyirlər. Oynayanda kimin aşığı



çox alçı dursa udur. Alçı durmaq üçün aşığın böyrü gərək şumal olsun. Biz uşaq vaxtı daşın üstünə su tökərdik, aşığın böyrünü sürtərdik, o qədər sürtərdik ki, böyrü gedərdi, yerə atanda alçı durardı.

Belə aşığa dilan deyərdilər. İndi bilmirəm, mənim yoldaşıma bu adı kim verib. Heç kəs də arayıb axtarmır, hesaba görə gərək anası yoxlasın, "bu nə addır mənim oğluma deyirlər!"

Amma yox, anası hamıdan çox çağırır:

– Dilan, bəsindir! Dilan, ay Dilan, bizə yazığın gəlsin. Baş-beynimiz getdi!

– Ay Dilan, bu vedrəni doldur gətir, sonra danışarsan.

– Bir sözü neçə dəfə deyərlər, Dilan, sənin dilində tük bitmir?

Çox nəsihət deyilirdi, ancaq Dilan öz işindəydi. Yetənə, yetməyənə bir daş atardı. İndi daş tutar-tutmaz, fərqi yox idi.

İş elə gətirdi ki, Dilan ilə mən bir bölükdə əsgər olduq. Şəhər kənarında böyük bir kazarmada bizə yer vermişdilər, təlim keçirirdik. Səhər açılmamış, bizi düzə tökürdülər. Axşamacan komanda eşidir, təpik döyürdük. Komanda dayanan kimi, Dilan yüyürürdü zabitin yanına, nədənsə şikayətlənirdi, hər işini mənə deyən adam, bu dəfə bilmirəm nə üçün şikayətini məndən gizlədirdi. Bir dəfə bərabər idik. Komandiri pilləkənin qabağında tutdu. Rəsmi salam verəndən, izin alandan sonra başladı:

– Yoldaş komandir, mənim böyrümdə yel var, çarpayım da taxtadır. Gecə yatanda qabırğalarım əzik-əzik olur. Xahiş edirəm, purjinli çarpayı barəsində əmr verəsiniz, yoxsa mən yata bilmirəm.

Bilmirəm, komandir öz əsgərinin xahişinə bələd idi, ya yox. Dinməz-söyləməz hərifi eşitdi. Dilan da aralığı sakit görüb böyrünü-başını tuta-tuta sızıldadı.

– Yoldaş komandir, çoxdandır böyrümdə yel var, zəhrimar çarpayım da qara dəmir, setkasız. Gecə səhərəcən o yan-bu yana çevrilirəm...

Komandir dik-dik Dilanın üzünə baxırdı. Güman etmək olardı ki, Dilanın simasında naxoşluq əlamətini axtarırdı.

Amma mən belə güman etməzdim. Mənim fikrimcə, komandir onun üzünə yox, ağzına baxırdı, sözünü, şikayətini qurtarmağını gözləyirdi. Necə oldusa, Dilan dayandı. Ya sözünü qurtardı, ya da, zənnim-

cə, nəfəs almaq, təzə bəhanələr tapmaq üçün dayanıb udqundu. Birdən komandirin gur və zəhmli səsi eşidildi:

– Krrru-qom!

Bunu Dilan gözləmirdi, heç kəs gözləmirdi. Şikayətçini sakit və səbirlə dinləyən bir komandirdən ayrı şey gözləmək olardı.

Görünür, səbri lap tükənmişdi, hövsələsi darıxmışdı:

– Krrruuu-qom!

Komadirin bu gözlənilməz əmrinə Dilan cəld əməl elədi, geri döndü. Dönən kimi əmrin dalısı gəldi.

– Şaqom arş!

Dilan ağır və nallı çəkmələri ilə döşəmədə möhkəm addımladı. Addımladı, ancaq çarpayı məsələsindən nigaran qaldı. Bilmədi ki, bu əmr nə deməkdir. Komandir çarpayı verəcək, ya yox? Dilan nigaran addımlarla döşəməni ölçəndə bilmirdi ki, bir saat sonra ümumi əmr veriləcək, əsgərlər həmin döşəmədə uzanmalı olacaqlar. Uzananlardan biri də mən idim. Gözlənilmədən verilən bu yatmaq əmrindən sonra dərhal işıqlar söndü, biz gözlərimizi yumduq, şirin yuxuya getdik. Bir də səhər "qalxın" komandasında ayılıb ayağa qalxdıq.

Komandirin əmri yalnız Dilanın şikayətinə son qoymamışdı. Onun uzunçuluğuna, deyingənliyinə də çox təsir eləmişdi. İndi Dilan deyəsən qaydalı-qanacaqlı adama oxşayırdı.

Danışmaq istəyəndə əvvəl bir ətrafına baxınır, zabitdən çəkinir, sonra da sözarası müsahibindən müraciətlə üzr istəyirdi:

– Bağışlayın ha, başınızı ağrıdıram, çox danışmaq bir şey deyil, mənim acığım gələr. Hə... nə deyirdim! Hə!?.

*1963*



# MƏNİM DİLMANCIM

İndi adlar, sözlər tez-tez dəyişir. Bilmirəm niyə. Biz cavan olanda bir şeyin adını öyrənirdik, iş də qurtarıb gedirdi. İndi səhər yerindən qalxıb qapıya çıxırsan, görürsən küçənin, idarənin, parkın adı dəyişib.

Bizim uşaq artistdir, səhər-axşam geyinib gedəndə bilirdim ki, teatra, oyuna gedir, dünən görürəm anası deyir:

– Nadir getdi festivala!

– Hara?

– Festivala.

– O haradır?

– Bilmirəm haradır, amma kimi dindirirsən festival deyir – deyəsən təzə oyundur.

– Təzə oyun deyil, oyunun təzə adıdır. Çox-çox təzə adlar çıxarıblar: spartakiada, olimpiada, forum, dekada, festival. Əvvəl mən buna təəccüb eləyirdim, sonradan öz başıma gələndə, daha bir sözüm olmadı.

Məni qonşu ölkələrdən birinə qonaq çağırmışdılar. Çağıran da məktəblər idarəsi idi. Həmin ölkədə təzə bir məktəb açılması münasi-

bətilə bayram idi. Məni çağırmışdılar ki, qonşu ölkənin nümayəndəsi kimi, məktəblərə, dərslərə baxım, fikrimi bəyan eləyim. Bəlkə faydalı bir məsləhətim-zadım oldu.

Məlum qaydaya görə, bir ölkəyə gələn qonaq ilə danışmaq üçün dilmanc, yəni, dilbilən ayırırlar. Sənin sözlərini yerlilərə, yerlilərin sözlərini də sənə izah eləyir.

Mən getdiyim ölkənin dilini bir az bilirdim, yerlilərlə öz dillərində danışardım. Amma buna baxmadılar. Ümumi nəzakət qaydalarına görə, rəsmi dilmanc verdilər, mən də razı oldum. Dilmanc, yəqin ki, yaxşı başa salar, camaat onu tanıyır. Dilmanc mənə qoşuldu. Kölgə kimi hər yerdə yanımda göründü. Bir məktəbə getdik. Sinif otaqlarını, bağçanı, kabinetləri gəzdim, dərslikləri bir-bir nəzərdən keçirdim.

Qayıdanda məclis quruldu, təşrifat qaydaları yerinə yetiriləndən sonra mənə söz verdilər ki, təəssüratımı deyim.

Məktəb mənim xoşuma gəlməmişdi. Sinif otaqlarında alimlərin şəklindən başqa kimin desən şəkli var idi. O adamlar ki, uşaqlara tanıdılmalı, sevdirilməlidir, onların şəkli yox idi. Görünür, özləri haqqında da söhbət getmir. Amma məktəb bağçası pis deyildi. Kabinetlərin təchizatı köhnəlmişdi. Maşın var idi ki, çoxdan sıradan çıxmışdı: indi heç məktəbliyə lazım deyildi...

Mən bütün bu gördüklərim haqda qeydlərimi dedim. Bir az da ehtiyatla, diqqətlə danışdım ki, tənqidi qeydlərimi yalana çıxardan olmasın. Danışdıqca dilmancımın üzünə baxır, sözlərimin dürüst tərcüməsini gözləyirdim. Ancaq dilmanc tərcüməsini qabaqcadan hazırlamışdı. Mən dayanan kimi, öz tezislərinə baxıb belə danışırdı:

– Cənab filankəs, sizin məktəbi gəzməyindən çox məmnundur. O, bu məktəbi gördüyü üçün özünü xoşbəxt hesab eləyir. Məktəbə valilərin, generalların şəklini vurmağınız cənabın çox xoşuna gəlib. Xahiş edir ki, onun salamını maarif idarəsinə çatdırasınız və bir də minnətdarlıq eləyəsiniz ki, məktəbə, xalqın maariflənməsinə, gənc nəslin məktəblərdə tərbiyə almasına bu qədər fikir verilir. Cənab filankəs deyir: "Əmin və ümidvaram ki, sizin səyləriniz, tərbiyələriniz və bütün bunlar bizim ölkələrimiz arasında dostluğun daha da bərqərar olub möhkəmlənməsinə səbəb olacaqdır." Cənab sözünü qurtarıb deyir ki, yaşasın və var olsun həqiqi dostlar, qədirbilən insanlar!

Dilmanc sözünü qurtaran kimi, məktəb müdiri gəlib mənim əlimi sıxdı, minnətdarlığını bildirdi, mən dilmancıma müraciətlə düzəlişlərimi demək istəyəndə əli ilə rədd işarəsi verdi. Mən təəccüb elədim:

– Axı, tərcümə düz olmadı.

– Necə düz olmadı!

– Mən ayrı cür danışmışdım.

– Ayrı cür lazım deyil.

– Bəs nə cür lazımdır?

– Nə cür lazım idisə mən dedim.

– Axı, qardaş, sən özündən dedin.

– Özümdən, özgədən nə lazım idisə dedim.

– Bu tərcümə yox, orijinal oldu.

– Əsl tərcümə gərək orijinal kimi olsun.

– Daha buna sözüm yoxdur!

– Nə sözün ola bilər?

*1963*

# DÜZ ADAM

Hər gün işə gedəndə trolleybusda əyləşib görürsünüz ki, bulvarın ağzından bir adam tələsik gəldi, vaqona daxil olan kimi, göy kağızını çıxarıb camaata göstərdi:

– Mənim həmişəlik biletim var!

Bu həmin düz adamdır ki, çoxları onu tanıyır. Düz adam görəndə ki, əhəmiyyət verən, qulaq asan olmadı, dönüb o yan-bu yana baxır, kitabçasını təkrar-təkrar göstərir:

– Postoyannı!

– Postoyannı!

Düz adamın başında sarı şlyapa, əynində yaraşıqlı kostyum, ayağında çex çəkməsi var. Kitabçasını göstərəndə paltarını güzgü qabağında imiş kimi, nümayiş etdirməyi, sağa-sola dönməyi unutmur.

Bayaq dedim ki, siz onu tanıyırsınız. Ancaq bir adamın zahirinə baxmaq tanışlıq üçün azdır. Şair yaxşı deyib ki:

*Zahirin xoş, fəqət görək nə çıxar,*
*Oynaşır batinində şeytanlar!*



Bu söz əyrilər üçün deyilib. Düz adama dəxli olmasın gərək. Biz düz adamı yaxşı tanımaq istəyiriksə, gərək özümüzə bir az zəhmət verək, trolleybusdan düşək, onun iş yerinə də gedək.

Onun iş yeri, getməli yerdir. Daha doğrusu, bizim hamımız ora gedirik, getməyə məcburuq. Düz adam, aşkar yerdəki böyük ərzaq mağazasında satıcıdır. Belində önlük, qolu çirməkli, əlində bıçaq və ya çömçə cəld o yan-bu yana cummaqdan zövq alır.

Qənd torbasının yanında bir vedrə sərin su saxlayır, kağız torbaların dibinə karton qoyur, şəkərə darı unu, südə su qatır.

Əlbəttə ki, bunları camaatın gözünün qabağında eləmir. Tədbirli adamdır, başını aşağı salıb işini görür. İdarə yoldaşlarından biri onu görüb danlayanda cavabını verə bilir!

– A filankəs, burada bir şey yoxdur ki, onun üçün danışırsan. Mən hökumətin qəpiyinə də tamah salmıram. Nə gedir, müştəridən, camaatdan gedir. Qənddir, beş-on qram rütubət çəkməklə heç kəsə bir şey olmaz. Sən çalış hökumətdən oğurlama, camaat nə deyəcək, camaatın ürəyi genişdir, halına təfavüt eləməz.

Odur ki, ayıq müştərilərdən biri düz adamın hərəkətlərinə göz qoyur.

– A filankəs, bu vedrəni niyə bura qoyursunuz, ayağa dolaşır, ilişərsiz tökülər, götürün!

– Tökülməz qardaş, su bizə lazım olur. Dəqiqədə bir əlimizi yuyuruq, dəsmal isladırıq, yayın günündə onsuz ötüşmək olmur.

– Bəs bu çargül karton nə üçündür, torbaya qoyursunuz?

– Müştəriyə mədəni xidmət bizim borcumuzdur. Kağız torbaların dibində karton olanda möhkəm dayanır, ağzını bağlayandan sonra dağdan at, dağılmaz. Camaat qəndə, düyüyə pul verir. Onu möhkəm kağıza qoymaq lazımdır, hətta, bu barədə çoxları təşəkkür eləyə bilər.

Bütün bu nəcabət məsələlərini hərfinəcən bilən və ətraflı izah edən düz adamdan soruşasınız ki:

– Yaxşı, bəs kağız bahadı, ya qənd?

– Qənd bahadı.

– Axı, sən bu torbanı qənd qiymətinə satırsan!?

– Bəyəm, zor ilə satıram, müştəri özü yalvarıb alır.

– Əlbəttə ki, alacaq.
– O alanda da bizim borcumuzdur sataq...
Mən müsahibimin cavabını vermək istəyəndə o, səsini ucaltdı:
– Bizim borcumuzdur, sataq və vətəndaşlara mədəni xidmət edək. Bu elə-belə alver deyil, mədəni ticarətdir. Sovet müştəriləri çərçi deyil ki, iki misqal ağırlığında kartona qənaət eləsinlər. Xeyr, onların ürəyi genişdir, dağlar qədər genişdir!

*1963*



# ÖYRƏNCƏKLİ

Adət!
Biri deyir, adət yaxşı şeydir.
Bir deyir, yox, pis şeydir.
Düzü hansıdır?

Bizim mənzillər qışda batareyalar, yəni isti su boruları ilə qızdırılır. Nəhəng binanın altında böyük qazanlar qoyulub, onların suyunu dağ eləyib borularla mənzillərə verirlər. Dəmir borular da havanı qızdırır.

Qazanları yandırıb-söndürən xidmətçi – qazançı həmişə işlə məşğuldur. Adı da Qulamdır. Bu mənzildə yaşayanlar onu yaxşı adam kimi tanıyırlar. O da hamını tanıyır, kimin nə vəzifə sahibi, iş sahibi olduğunu yaxşı bilir.

Yuxarı mərtəbədə bir nazir yaşayır. Nədənsə Qulam dayının gözü həmişə onun pəncərəsindədir. Çalışır ki, nazirin mənzili isti, canı rahat olsun. Nazir də bu işə çox diqqət yetirir. Hər səhər evdən çıxanda onu dayanıb qazanxanaya baxan görər, xırıltılı səsini eşidərsən:

– Qulam, uşaqlar donur, bu zəhirmarı yandırmırsan, nədir?

Yaxud:

– Qulam, nə xod vermisən, dam-divar yandı, kişi!

Qulam neçə il idi, nazirin işarələrinə alışmışdı. Gah sobalara qaz verir, gah azaldırdı. Hərdən ərinmir, pilləkənlərlə yuxarı qalxıb nazirin evinin havasını yoxlayır, gəlib qazanxananın işini sahmana salırdı. Qulam kişi buna elə adət eləmişdi ki, nazir evdən çıxanda onun qabağında əsgər kimi salama durub əmr eşitmək istəyirdi. Nazir də, kişinin bu ehtiyacını nəzərə alır, hərdən bir söz deyirdi:

– Kişi, bəsdir, evi hamama döndərmə, sobaların xodunu al.

– Qulam, yenə bu nə soyuqdur, isti su yoxdur, nədir?

Qulam kişi əlini alnına aparıb: "göz üstə!" – deyir, qazanxanaya qaçırdı.

■ ■ ■

İş elə gətirdi ki, o nazir bizim evdən getdi. Getdi, amma onun yerinə yenə də nazir köçdü. Bu, başqa nazir idi. Harda işlədiyini bilmirəm. Amma onu bilirəm ki, nazir idi. Çünki səhər-axşam qapısında maşın dayanırdı. Bu nazir gələndən sonra Qulam da adəti üzrə özünü yığışdırdı, işindən möhkəm yapışdı. Qapıda dayanıb yenə deyəsən əmr gözləyirdi. Amma nədənsə ona heç əmr verən yox idi. Nazir qapıda Qulamı görən kimi, salam verib ötürdü. Qulam da gözləyirdi ki, görsün nazir istidən nə deyəcək, soyuqdan necə şikayətlənəcək. Bir söz eşitmirdi. Bir gün belə, beş gün belə!

Qulam kişi başladı darıxmağa, narahat olmağa:

– Bu necə işdir? Nazir, görəsən, niyə soruşmur, niyə dinmir? Küsüb, ya inciyib, nədi? Yoxsa məni kişiyə şeytanlayıblar?

Qulam dayı bir-iki dəfə nazirə müntəzir olub sözünü demək istədi. Qapıda dayanıb salamdan sonra yaxınlaşdı:

– Yoldaş filankəs, sobalar necə yanır, soyuqdan korluq çəkmirsiniz?

– Bizim şikayətimiz yoxdur. Narahat olmayın, sağ olun!

Qulam dayı kor-peşman qayıtdı.



Qayıtdı, amma başa düşmədi ki, bu nə işdir. Nazir olasan, qazançıya göstəriş verməyəsən? "Yox, burda nəsə bir iş var. Deyəsən, bu kişiyə məndən nəsə deyiblər, üzümə baxmaq istəmir." Sabahısı gün Qulam qapını döyüb soruşdu:

– Xanım, sobalar necə yanır, evin hərarəti qaydadadırmı?

Bacıdan qabaq nazirin səsi gəldi:

– Yaxşıdır, sağ olun, Qulam dayı! Yaxşıdır.

Qulamı heyrət götürdü: "Ayə, bu lap gicəvəngidi ki! Heç isti-soyuq bilmir! Dünən sobalar səhərəcən yanıb, istidən dam-divar alışıb, amma bu heç nə demir!"

Təzə nazir sakit, səbirli, səliqəli adam idi. Evdə isti-soyuğu özü sahmana salır, lazım olanda boruları bağlayır, lazım olanda açır, hərarəti qaydasında saxlayırdı. Qulam dayıdan heç nə soruşmurdu.

Amma Qulamı vahimə basmışdı: "Görəsən, nə var! Görəsən, bu kişi məndən niyə yanıqlıdır? Niyə mənə bir söz demir, məndən nə eşidibsə, üzünü yan çevirir!".

Aşkar, aydın idi ki, Qulam kişi danlanmağa adət eləyib, adətini də tərgidə bilmir. Başıqapazlı adamların çoxu çalışar, vuruşar ki, başından bu qapazı yox eləsin, sərbəstliyə çıxsın. Eləsi də var ki, Qulam kimi, qapaz əskiləndə qorxuya düşər: "Görəsən, niyə belə oldu? Görəsən, nazir niyə mənə əmr vermir, nə eşidib, nə eşitməyib. Allah, sən özün saxla!"

Qulamın intizarı uzun sürmədi. Günün birində onu evlər idarəsinə çağırdılar. Çağırıldığını eşidəndə kişinin ürək döyüntüsü artdı: "Hə, görəsən, nə iş var? Görəsən, nazir evlər idarəsi müdirinə nə tapşırıb? Acığını mənim üstümə tökəcək!"

Qulam idarəyə çatanda evlər idarəsi müdiri salam verib kişinin əlini sıxdı. Qarşıdakı bayram münasibətilə mükafatlandırıldığını xəbər verdi:

– Qulam kişi, sənin işindən biz razıyıq. Sən gecə-gündüz burda zəhmət çəkir, ev sakinlərinin rahatlığını gözləyirsən, əllərin var olsun, bədənin həmişə möhkəm olsun! Həmkarlar komitəsi ilə məsləhətləşmişik, səni aylıq əməkhaqqı ilə mükafatlandırmışıq!

Evlər müdiri gülümsəyərək əl verdi:

– Etirazın yoxdur ki?

Qazançının sükutla dayandığını görüb yer göstərdi:

– Keç əyləş!

Qulam kişi sevincindən bilmirdi nə desin. Gözləmədiyi işlər görür, sözlər eşidirdi. Axı, bu müddətdə heç kəs onu danlamayıb, heç kəs ona "göstəriş" verməyib, addımbaşı sobalarını yoxlamağa gələn, hərarətini ölçən olmayıb! Kişi başını qaldırıb ətrafa, pəncərədən açıq, təmiz mavi fəzaya baxır, başının üstündə qapaz, danlaq nədir, günəşdən başqa bir şey görmürdü. Gülümsünərək sakitcə müsahibinin üzünə baxırdı.

Düşünürdü ki, "ey dili-qafil, belə də olarmış!"

*1963*



# PAHO, PAHO-O... VAY!

Deyəcəklər, bu necə söhbətdir, nə sərlövhədir? Zarafat eləyirsiniz, nədi?

Amma oxuyanlar görə bilər ki, burada nə zarafat, nə bir təəccüb yeri var. Olan şeydir. Olanı da deməyə, yazmağa kimin nə sözü?

Nə isə, keçək mətləbə!

Qələm çox güclü şeydir. Min illərdən bəri Aristofanı, Firdövsini, Şekspiri, Tolstoyu yola salan qələm, insanların başına gələnləri səbrlə, səliqə ilə, sahman ilə danışa-danışa durub, uf deməyib. İndi qələmin gücü daha da artıb, onun əlində maşınlar, radiolar, kinolar, işıqlar, rənglər, binalar... Nələr desən var, bunlar ona görədir ki, ay qələm, sözünü de! Səsinə güc ver! İndi milyonlar sənə qulaq asır.

Dünyada elə hadisələr, işlər baş verir ki, müqabilində bütün bu top-topxana, atom-matom, raket-maket də acizdir. Əhvalatı eşidirsən, mat-məəttəl qalırsan. Nə qələm yazır, nə kağız əks eləyir. Əlin əsir, bilmirsən, nə eləyəsən.

Güman eləməyin ki, sizə demək istədiyim mətləb ümumdünya mə-

sələlərindən, siyasətdən və diplomatiya, texnika möcüzələrindəndir. Yox! Tamam adi, yaşayış aləmindəndir. Sizin hər birinizin nəzərindən keçə bilən bir mətləbdir. Ancaq elə bir şəkildə baş verib ki, heç kəsin nə əqlinə, nə xəyalına, nə də yuxusuna gələ bilər.

Söz qısa gərək, bu yaxınlarda bizim qonşuluqda, qonşuluqda deyəndə, lap qabağımızdakı təzə kvartalda bir ailəyə mənzil veriblər. Köçhaköç olub, hər kəs öz yerini tutub, evini, əşyasını sahmana salıb, işlər qurtarıb gedib. Amma bu ailədə köç qurtarandan sonra ayrı bir aləm açılıb. Aləm, nə aləm!

Mərmər xanım üç uşağı, yetim Əkbər beş uşağı ilə bir mənzilə order alıblar. Dördotaqlı mənzilin iki otağını Mərmərə, iki otağını da Əkbərə veriblər.

Deyəcəksiniz, darısqallıq olacaq, ailələr yola getməyəcək. Təki elə olaydı, köçənəcən hamı bu fikirdə idi. Amma köçəndən sonra ayrı iş çıxdı. Sən demə, işin içində iş var imiş. Elə bir iş ki, nə ispalkom, nə mənzil idarəsi, nə də köçən adamlar biliblər. Yaralar birdən açılıb. İnsanın bədənində, ya bir üzvündə vaxtı ilə baş vermiş, sonradan köhnəlib örtülmüş yaralar olur ki, dindirib-dəbərtməsən, heç sədası çıxmaz, ziyanı da olmaz, amma elə ki, dəbərtdin, görəcəksən, açıldı. Köhnə yara da açılanda vulkan ağzı kimi açılır, təzəsindən pis olur. Müalicəsi də baş tutmur. Bu əhvalat da elə oldu. Mən danışanda, Mərmərin ailəsini, Əkbərin ailəsini deyəndə gərək siz soruşaydınız ki, nədən ötrü bir ailənin adını qadın ilə, o birinin adını kişi ilə çəkirsiniz. Mərmərin kişisi yoxdur? Həm də güman eləməyin ki, mən adamların hüquq bərabərliyini nəzərə alıb, hər iki ailənin adını çəkirəm. Birini kişinin, birini də qadının adı ilə çəkirəm. Yox, burada ayrı mətləb var. Mərmərin kişisi var, özü də lap yaxşı kişidir. Amma biz gərək bu ailədə qabaqca yerləri tanıyaq. Bunun səbəbi var. Mərmərin kişisi olduğu kimi, Əkbərin də arvadı var. Əkbərin arvadı da bizə lazım olacaq. Amma hələ Əkbər özü lazımdır. Mərmər mühəndis Qılmanın arvadıdır. Əkbərin də Adilə adlı maral kimi bir həkim arvadı var. Hər iki ailə qurulmamışdan əvvəl Mərmər ilə Əkbərin uzun illər sürən bir sevgi dastanı olmuşdur. Vaxt var idi ki, Mərmər Əkbərdən ötrü, Əkbər də Mərmərdən ötrü ölümə gedərdi. Bu iki gəncin məhəbbəti dillərdə dastan idi. Nə edəsən ki, alovlu məhəbbət, sanki birdən-birə selə, suya tutulub söndü, külə döndü. Baş



tutmamağının da cürbəcür səbəbləri oldu. Macəranı danışsaq, söhbətimiz uzanar. Yaxşı oldu ki, aylar, illər keçdi. Çox fəsillər ötdü, küləklər əsdi, qızmış hisslər soyudu. Əkbər də, Mərmər də bu macəranı unutdular. Daha doğursu, unutmağa məcbur oldular. O da, bu da daşı ətəyindən tökdü. Üzünü döndərdi, hərə bir tərəfə getdi. Gözdən iraq olan, könüldən də uzaq oldu. Əkbər özünə layiq qız tapdı, Mərmər də oğlan, əhvalat da bununla deyəsən, qurtardı. Amma bu ev məsələsi ortaya düşəndə, daha doğrusu, ailələr yeni mənzilə köçəndə iş təzələndi. Lap təzələndi. Camaat baxıb gördü ki, iyirmi, iyirmi beş il keçsə də, Əkbər həmin Əkbərdi, Mərmər də həmin Mərmər! Hamı başladı mənzil idarəsini danlamağa ki:

– Ay rəhmətdən uzaq kişinin oğlu, ailələr arasına adam belə nifaq salar? Təzə mənzil kimi gözəl neməti niyə belə zəncəfil eləyib adamların ağzına tökürsən? Heç sənin insafın, ya vicdanın yoxdur? Yoxdursa, beş günlüyə qonşudan borc alaydın! Qonşunun hansından istəsən, sənə borc verməzdi? Niyə xalqı aşkar bəlaya salırsan?

İşin açılmağı da belə oldu:

Köçhaköçdə ürəkdolusu sevinc, necə deyərlər, gözləri pərdələyir. Adam order aldığı mənzildən başqa heç nəyi görmür.

Əkbər bəlkə də şərikli mənzilə köçməyə razı olmazdı.

Ancaq evləndiyi üçün daha qapılarda kirəkeş olmaqdan bezmişdi. Rayon Sovetində bu evi ona təklif edəndə çarəsi kəsildi. Mənzil idarəsinin sədri də məsləhət gördü.

– Sizə pis qonşu verməmişik. Mühəndisdir, dinc adamdır, uşaqları da var. Hələlik şərikli yaşaya bilərsiniz. Mənzil böhranı keçəndən sonra, əlbəttə ki, baxarıq!

Əkbər qoltuğunda "Rekord" radio cihazı otağına keçəndə qonşu qapıda dayanıb pərdə asmaq üçün ölçü götürən bir qadın gördü. Gördüt demək də düz olmaz. Lap üz-üzə gəldi, az qaldı hətta toqquşsun. Qadın kənara çəkilib Əkbərə yol verdi, ancaq keçəndən sonra da onun dalınca baxmaqda davam etdi. Əkbər də geri döndü. Onların nəzərləri bir-birinə dikildi. Əhvalat da buradan başlandı.

On il müddətində sönüb külə dönmüş bir məhəbbət qığılcımı küləkdən alovlanıb ətrafa işıq verməyə başladı.

"Deyəsən, odur axı! Yox, adam-adama oxşayar... Deyəsən, həmin,

həmin gözlərdi! O hara, bura hara... Boy-buxun, necə də oxşayır..."

Əkbər həyəcan, tərəddüd içində bunları düşünürdü ki, aşağı mərtəbədən bir kişi səsi eşidildi:

– Mərmər xanım, şkafın açarını aşağı tulla!

Pərdənin ölçüsünü götürən qadın "bu saat!" deyə içəri qaçdı. Redikülündən açar götürüb balkona çıxdı!

Əkbərin ürəyində bayaqdan bəri hərlənən şübhə və tərəddüd dağılıb getdi. "Mərmər xanım! Özüdür..."

Bu ad, bu müraciət Əkbərə nə qədər xoş və tanış idi. O da vaxtı ilə bunu eşidəndə ildırım vurmuş kimi, dik atılardı. Bu adı iri rəngli, bəzəkli hərflərlə yazardı. Kağıza, dəftərə, alboma yox, qışda qar üstünə, payızda ağac gövdəsinə, yayda qumlara, yazda çiçəklərə yazardı.

Mərmər xanım! Onun dilində ən əziz və ləziz bir söz idi. On ildir ki, bu sözü nə aşkar dilinə gətirir, nə də kənardan eşidir. Ürəyində qövr eləyən nisgil, sandıqçada qapanıb qalan bir inci kimi, köhnəlmişdi. İki dəqiqə əvvəl gördüyü qadın sanki cavanlığın bakir, unudulmaz xatirələrini yada salanda, qeybdən bir səs bu adı qəsdən təkrar etdi. Onun ürəyindəki titrəyişləri təlatümə gətirdi:

– Odurmu, ilahi!

Tamamilə mümkündür! Axı, mühəndisə ərə gedib, bəlkə, qonşu gələn onlardır! Ay aman, Adilə bilsə güman edəcək ki, mən düzəltmişəm...

"Mərmər xanım!" Bu ad ilə neçə aylar, neçə illər, neçə xatirələr bağlı idi!

O zaman niskil ilə Əkbər bu mahnını oxuyardı:

*Bu dünyada daş daşıdım, gəmim dolmadı,*
*Gənc yaşımda bir qız sevdim, mənim olmadı!*

Mərmər xanım ucaboy, irisifətli, qələmqaşlı gözəgələn bir qadın idi. Seminariyadan sonra Əkbər ondan uzaq düşsə də, mühəndis olduğunu, texnikumların hansındasa dərs dediyini, əri ilə mehriban yaşadığını bilirdi. Qəlbən nə qədər ona bağlı olsa da, onun həsrətini çəksə də, görüşməyə cəhd etmirdi, çünki, indi daha Mərmər başqa bir kişinin xanımı idi, həm də Əkbər Adilənin ürəyinə xal salmaqdan ehtiyat edir, şirin xatirələrini gizli saxlamağa çalışırdı. Bütün bu ruhi halları bəlkə də bir qədər artıqlaması ilə Mərmər də keçirirdi. Axı, Mərmər də Əkbərdən ürəkdolusu həsrətlə ayrılmışdı. Onların ayrılmasına səbəb Mərmərin instituta daxil olandan sonra xəstə anasının dalınca Moskvaya getməsi idi. Əkbər ilə küsüşdülər, nə oldular... Daha gec idi. Mərmər Əkbəri Adilə ilə "Forum" kinosunda görəndən, özünə qarşı soyuqluq hiss edəndən sonra daha bir də oğlanın adını tutmadı... Belə soyuq adama verilən qəlb buz bağlayar, – bəri başdan yaxşıdır: sən kim, mən kim?



Burada, indi onlar qarşılaşanda Mərmər Əkbəri dərhal tanıdı: təbəssümlə salam verdi. Özünü itirəcəyindən ehtiyat edib ətrafına baxındı, özünü nə iləsə məşğul olurmuş kimi göstərməyə çalışdı. Çünki Əkbəri görəndən sonra pərdə asmaq-zad yadından çıxmışdı. Qapının arxasında quruyub qaldığına təəccüb edirdi. Ona elə gəlirdi ki, kənardan baxanlar onun əhvalını hiss edir və altdan-altdan gülürlər...

Əkbər radio cihazını yerinə qoyub qayıdandan sonra Mərməri yeni mənzilə köçmək münasibəti ilə təbrik etmək üçün qapısının qabağında dayandı. Sonra ərinin evdə olmadığını hiss edib geri qayıtmaq istədi, gördü yox, qayıdası təhəri yoxdur. Nəsə bir söz deməlidir.

Cəsarətlə qapını açıb, sanki kənar adamlara eşitdirirmiş kimi, bərkdən dilləndi:

– Qonşu, çox mübarək olsun, sağlıqla! Ancaq deyəsən, bu iki mənzilin bir şotçiki var axı!

Mərmər də qapıya çıxdı:

– Sizinki də mübarək olsun. Bəli, şotçik birdir, axı, əslində bura bir ailə üçündür, ancaq, idarədə ayırıblar.

Həmkarlar İttifaqı ayırmağa qoçaqdır, adı "ittifaq" – birləşmə olsa da.

– Nə olar, şotçik qoymaq olar.

–Yox, bir şotçik bəsdir, sözgəlişi deyirəm.

– Qonşuluqda mehriban yaşamaq gərək.

– Sağlıq olsun, elə şeylər düzələr...

Əkbər ürəyini bərkidib sözünü deməyə qət elədi:

– Bağışlayın, Mərmər xanım, müəllim seminariyasında oxumamısınız?

Bir az əvvəl Əkbərin "qonşu" deyə müraciət etməyi Mərmərə to-

xunmuşdu: "Ay etibarsız dünya, gör nə günə qalmışam ki, dırnağıma qurban kəsilməyə hazır olan oğlan indi mənim adımı unudub, "qonşu" çağırır..."

İndi Əkbərin "Mərmər xanım" deməsi qadının ürəyini tərpətdi, gəncliyin əziz, ləziz günlərini ona xatırlatdı. Əkbərin sualı Mərmərə görə, danışmaq üçün bir bəhanə idi. Çünki Mərmərin harada işlədiyini, kimlə yaşadığını Əkbər bilirdi. Zahirən yersiz, əslində isə xoş gələn suala Mərmər də sualla cavab verdi:

– Siz necə, seminariyanı qurtarıb həkim işləyən yoldaşlardan deyilsinizmi?

Bu sözü deyən Mərmərin dodaqları qaçdı, Əkbərin çoxdan görmədiyi, həsrətini çəkdiyi incə bir təbəssüm qadının buğdayı sifətini bir az da işıqlandırdı. Mərmər öz nəzərinin Əkbəri çaşdırdığını duyub, kirpiklərini aşağı endirdi, yerə baxdı. Əkbər də həmin hərəkəti təkrar etdi:

– ...

– ....

Hər ikisi bir müddət sükut içində lal kimi dayandılar. Bilmədilər nə danışsınlar, necə danışsınlar, elə bil, nitqləri tutulmuşdu.

Kimsə başı üstündə tutduğu çarpayı setkasını gətirməsə, bir-birindən utanan köhnə istəkliləri ayırmasa, kim bilir, burada sükutu kim pozacaq, nə söhbətlər olacaq idi. Bu görüşdən ən çox xeyir görən mənzil idarəsi oldu. Mərmər də, Əkbər də müəyyən təcrübə görmüş, həyat yolu keçmiş, ailəli adamlar idilər. Onların hər ikisi yeni mənzil nə demək olduğunu, vətəndaşlara burada necə rahatlıq şəraiti lazım gəldiyini bilir və tələb etməyi düşünürdülər.

Mərmər, hələ orderlər verilməmiş, mənzil nömrələri müəyyən edilən zaman gəlib baxmış, qapı, pəncərələrdən, kranlardan, işıq xətlərindən şikayətini ərinə demişdi.

Əkbər də səqfin alçaqlığından, otaqların kiçikliyindən, şərikli yaşamağın əsəbi şərait yaradacağından həmkarlar komitəsində şikayətlənmişdi.

Sanki, bugünkü görüş müəllimənin də, həkimin də bütün şikayətlərinə son qoymuşdu. Hər ikisi, deyəsən, mənzil söhbətini tamam unutmuşdular. Hər kəs öz şirin xatirələrini gününə, saatına, dəqiqəsinə qədər zehnində dolandırmağa çalışırdı.



Mərmər də, Əkbər də bu görüşdən, bu xoş və gözlənilməz təsadüfdən çox razı idilər, elə bil onlara böyük bir xoşbəxtlik üz vermişdi.

Ancaq heç biri bu xoşbəxtliyin nə ilə nəticələnəcəyini təsəvvür edə bilmirdi. Sevinc qarışıq bir intizar onları elə bürümüşdü ki, hər ikisi gücü çatmadığı böyük bir toy tədarükündə çaşıb qalan adama oxşayırdılar. Nə tədbir, nə plan, necə hərəkət lazım olduğunu düşünmək yox, hadisələrin necə cərəyan edəcəyini, bunları hara çəkib aparacağını düşünürdülər.

Əkbər düşünürdü ki, nəhayət, sevdiyim bir qadın ilə qonşu olmaq mənə qismət oldu, eybi yoxdur, qoy Mərmər başqasının qadını olsun. Ancaq mən onu həmişə xoşbəxt, gülərüz görmək, gənclik xatirələri ilə yaşamaq istəyirəm. Hər gün səhərimi onun üzünə açmaq, xoş səsini eşitmək də mənim üçün bir səadətdir.

Mərmər də düşünürdü ki, sönən, külə dönən bir məhəbbətin yenidən alovlanması bəlkə də ailə ixtilaflarına, bir tərəfdən ərinin, o biri tərəfdən Əkbərin arvadının ürəkbulanmasına səbəb ola bilər. Mərmər bütün danışıq hərəkətlərinə fikir verir, ehtiyatla dolanır, hətta ərinin bu münasibətləri sezməyinə macal vermir, özü danışırdı:

– Qılman, seminariyada bu həkim mənimlə maraqlanırdı, hətta, məktub-zad da yazmışdı. Yadındadırmı, toydan əvvəl mən onları sənə oxudum. Həmin bu oğlan idi. Əkbər Əkbərov bu idi.

Qılman qadının bu xatirələrini yad etməyini lüzumsuz bilirdi:

– İndi necə, xanımından razıdırmı, görəsən?

– Mehriban yaşayırlar.

– Xoşbəxt olsunlar. Hər kəsin öz qisməti! Sən mənim qismətimə yazılmışdın axı! Elə olmasa, qəza başını qapazlayıb mühəndislər aləminə gətirməzdi!

–Yoxsa peşman olmusan?

–Səni tapmasaydım, məndən nə müəllim çıxardı, nə mühəndis, məni adam eləyən sən olmusan, ay Mərmər, ancaq qoltuğun qarpızlanmasın!

*1963*

# "İNGİLİS" DİLİ

Dil bilmək yaxşı şeydir. Üç dil bilsən, üç adamsan, beş dil bilsən, beş adamsan.

Ataların dediyi bu hikmətli sözü, mən əvvəllər o qədər başa düşməzdim. İşə girəndən, camaat içinə çıxandan, bəzi yoldaşlarla tanış olandan, cürbəcür əhvalat eşidəndən sonra lap aydın dərk elədim. Dərk elədim ki, dil bimək yaxşı şeydir. Dilsiz iş keçmir.

Dil də var, dil də var. Dil var ünsiyyət, əlaqə, dostluq, birlik vasitəsidir. Məsələn, rus dili sadə, aydın müəyyən və ümumi kəlmələri olan, insanları birliyə, səadətə çağıran, dünyanın da hər yerində işlənən, hörmət görən və hörmət gətirən bir dildir. Bu dili mən lap uşaqlıqdan öyrənmişəm. İşdə, təhsildə, səyahətdə, məclisdə bu dilin feyzini, bəhrəsini görürəm.

Amma ingilis dili belə deyil. İngilis dili çox çətindir. Bilmirəm əslən belədir, yoxsa bunu sonradan çətinləşdiriblər? Bir yoldaş mənə demişdi ki, vəzifəli lord ingilislər qəsdən belə eləyiblər. Onlar İvan, yazıb Pyotr oxuyurlar, Pyotr yazıb İvan oxuyurlar. Deyəsən, elə çalışıblar ki, bu dilin sirlərini bilən olmasın, ya da az olsun. Mən də bu vahimə ilə ingilis dilinə yaxın durmağa qorxurdum. Amma onu da görürdüm ki, lap mənim bəzi savadsız yoldaşlarım bu dili az-çox bilir. Təəccüblüdür ki, nə məktəbdə, nə institutda, nə də idarədə oxuyublar, amma ingilis dilini bilirlər. Bu dildə nə sirr varsa, bəzi adamlar tez öyrənirlər.



Srağagün Əhmədin əynində qəşəng bir kostyum gördüm. Əla yun parçadan, özü də qəhvəyi rəngdə, təzə moda.

Deyirəm, Əhməd, mübarək olsun, bu kostyumu haradan almısan?

Deyir, Məmməd tikib.

– Hansı Məmməd?

– Dərzi Məmməd.

– Adə, mən o üzüdönmüşə iki dəfə kostyum tikdirmişəm, ikisində də zay eyləyib, qoyub ora. Heç gözləməzdim ki, onun əlindən belə iş çıxa!

– Hər adama tikmir axı!

– Niyə, bəyəm, bizim pulumuz qəlpdir?

– Əlbət ki, qəlp deyil.

– Bəs niyə bizə tikməsin, özü də neçə ildir dostuq, haqq-salamımız var.

– Çox da ki, salaməleykünüz var, sən elə-belə qayda-qanunla danışırsan.

– Bəs necə danışım?

– Gərək onnan ayrı dildə danışasan.

– Yəni, nə dilində danışasan?

– İngilis dilində.

– Eh, o heç orta məktəb qurtarmayıb, ingilis dilini hardan bilir?

Əhməd mənim üzümə dik-dik baxdı.

–Sən onu yaxşı tanımırsan.

–Necə tanımıram, bizim məhəllədə böyüyüb, özü də Danqır Abbasın bacısı oğludur. O, hardan ingilis dili bilir.

–Lap çisti bilir, indiki ingilis dilini təmiz bilir.

–Sən başın, bəsdir!

–Sənə deyirəm, dərzi Məmməd ingiliscə bilir və çoxları ilə bu dildə danışır.

–Sənnən necə danışır?

–İngilis dilində!

–Əə! Sən hardan öyrənmisən bu dili?

–İşdə öyrənmişəm, Məmməd kimi yoldaşlardan öyrənmişəm. Mən gərək biləm, mənim sənətim elədir. Diş həkimiyəm. Bu dili bilməsəm, mən məhv olaram ki!

Daha sözüm kəsildi, əla kostyum sevdasından əl çəkmək istəyirdim, çünki, mən ingiliscə bilmirdim. Əhməd susduğumu, məyus dayandığımı görüb ürəyi yumşaldı:

–Qaldı, istəsən, kostyum barəsində danışarıq.

–Mən dili bilmirəm, necə danışacağam.

–Bilmirsən, onun dərsi məndə. Mənim kimi dostun var, öyrədərəm.

–Nəyi öyrədərsən?

–İngilis dilini!

–Mən deyirdim, kurorta gedənəcən bir dəst yaxşı kostyum tikdirim, sən də elə şərt qoyursan ki, gərək bir-iki il dərsə gedəm.

–İl nədi, ay nədi, ədə, mən onu sənə lap günü sabah öyrədim...

–Sabah?

–Sabah!

–Adə, zarafata, məsxərəyə qoyma. Elə söz danış, söz olsun. Bir günə də dil öyrənmək olar?

–Olar, sənə deyirəm. Dil var ki, öyrənmək olar, lap biroturuma öyrənmək olar!

Mən mat-məəttəl qalmışdım. Əhməd mənə bir gündə ingilis dilini öyrədəcək, mən də gedib dərzi ilə bu dildə danışacağam. Kostyum sifariş verəcəyəm...

Heç inanılası söhbət deyildi.

Əhməd məni arxayın salmaq üçün vədəmi aldı:

–Zarafat-zad eləmirəm. Sabah saat birdə, fasilə zamanı bura gəl, mən sənə bəzi vacib sirləri – dilin əlif-beyini öyrədərəm, sonra da gedərik dərzinin yanına, necə paltar istəsən, sifariş verərsən.

Əhməd deyən vaxtda mən gəlib xəstəxananın qabağında dayanmışdım. Fasilə vaxtı idi. Əhməd çıxdı, qolumdan tutub restorana tərəf



çəkdi.

–Hara aparırsan məni, Əhməd, bəs biz dil öyrənməyə gedəcək idik?

–Gəl, lap yaxşı dil dərsi burdadı, bəri gəl, bu saat müəllimimiz gələcək.

Biz küncdəki stolun dalında təzəcə oturmuşduq ki, gördüm dərzi Məmməd bığlarını eşə-eşə budu gəldi:

–Qud moninq.

–Qud-qud.

Yoldaşlarım öz aralarında ingiliscə nə danışdılar, nə danışmadılar, mən də xəcalət çəkirdim ki, bunların arasında avam təkcə mən imişəm. Əhməd stolumuzu təmizləyən qıza sifariş-filan verdi, Məmməd də ağzını açdı, alt çənəsində soldakı dişləri göstərib Əhməddən xahiş elədi:

–Ay doktor, bunlar laxlayıb, özü də tökülür, metalı xarab olub.

–Neynək, lazım olsa, qızıl qoyarıq.

–Lazım olub, doğrudan, doktor, xahiş eləyirəm, bunları qızıl elə. Özü də daha başdansovma yox ey, lap importnı! Səndən çox xahiş eləyirəm ki, yazacan bunu sahmana salasan!

– Mənim bu gözlərim üstə. Daha sənə də düzəltməyib kimə düzəldəcəyəm. Dost yolunda mən can qoyan adamam. Özün bilirsən ki!

Əhməd dərzini arxayın salandan sonra bir udqundu, stulunu yaxına çəkdi, durub təzədən oturdu. Əvvəl mənə tərəf döndü, sonra da dərziyə ərk ilə mənim giley-güzarımı açdı.

–Usta Məmməd, qardaş, belə olmaz, yoldaşımız kurorta gedəcək, yaxşı bir kostyum istəyir, sən də tikmirsən ki, nə var, nə var, bu ingilis dili bilmir. Necə bilmir, bilir axı!

Məmməd qəhqəhə çəkib güldü:

– Mən, bəyəm, ona haçan bu sözü demişəm?

–Yox ey, guya ki, imtahan eləmisən.

–Yadımda yoxdur.

–Ona baxma, bu kişi ingilis dilini bilir. Özünə lazım olan qədər bilir. Sən haçan istəyirsən, danış!

–Bilir, daha yaxşı, Allah ondan da artıq eləsin.

–Bəli, bilir, sən bir buna başa sal ki, haçan gəlsin! Piştaxtanın altındakı qəhvəyi malın var ha, haçan gəlsin, bunun ölçüsünü götürəsən, imtahanı da mənnən birlikdə verəcəyik.

Dərzi, deyəsən, yumşaldı. Qabağındakı salat qabından bir parça xiyar götürüb çeynəyə-çeynəyə soruşdu:

–Yoldaşımız indi harda işləyir, xatirimdən çıxıb.

–Bağ təsərrüfatı trestində.

–Hə, trestdə işləyir, deyirəm axı, mənim bağım niyə belə xaraba qalıb, sən demə, belə yoldaşların sayəsində imiş!

Əhməd mənə sarı döndü:

–A kişi, bu yazığın balaca bir bağı var Bilgəhdə, nə su çıxır, nə ağac bitir, nə yolu yoldur. Bir mərhəmət nəzərinizi belə qabil yoldaşlara da salsanız, günah olar, ya Şura hökumətinin xəzinəsi boşalar?

Mən məəttəl qalmışdım ki, bağ təsərrüfatı tresti dərzi Məmmədə nə eləməlidir, nə eləməməlidir?

–Mən heç o tərəfləri, sizin bağları gəzməmişəm.

Əhmədin əlinə deyəsən, fürsət keçdi:

–Məsələ də odur da! Gəzməmisən, gəzməyəndə, əlbət ki, nəzərin də dəyməyəcək. Nə yol olacaq, nə su gələcək, nə işıq yanacaq, üstəlik, naloq-zad da ikiqat gələcək belinə!

–Görünür, gedib baş çəkmək lazımdır.

Əhməd əlini çiynimə qoyub bərkdən danışdı:

–Elə yox, ey, əməlli-başlı getmək, aqronomu da götürmək, yaxşı-yaxşı baş çəkmək, bir az şitildən-zaddan aparmaq.

–Gələn istirahət günü orada adam taparıqmı?

Dərzi sözümü kəsdi:

–Necə tapmazsınız, mən özüm işdən izin alım gəlim.

Diqqətlə üzümə baxıb təkrar soruşdu:

–Sizi gözləyim mən bağda?

Məndən qabaq Əhməd bu dəfə əlini onun çiyninə qoyub arxayın saldı:

–Vıxodnoy günü səhər saat 6-da maşın ilə qapına gəlirik, səni götürüb gedirik Bilgəhə!

Mən ixtiyarsız razı oldum.



Razı oldum, ancaq yenə dil məsələsi zehnimdən çıxmırdı. Bilmirdim, Əhməd mənə harada ingilis dili öyrədəcək.

–Ay Əhməd, bizim ingiliscə öyrənməyimiz qaldı axı!?

Əhməddən də, Məmməddən də elə bir gülmək, elə bir şaqqıltı çıxdı ki, restorandakıların çoxu dönüb bizə baxdı. Yoldaşlarımın hər ikisi məni lağa qoyub avamlığıma gülürdülər:

–Ay rəhmətliyin oğlu, bəs səhərdən burda sənə əlif-bey öyrətmirik, ingiliscə danışmırıq? Bəs sən bu qədər zəhmət çəkib oxumusan, diplom almısan, bilmirsən ki, bunlar hamısı dərsdir, kitabdır, dəftərdir, bu əlifbanı bilməsən, daha sən nə elm öyrənə bilərsən, nə işə yararsan!

Mən gördüm ki, bu dostların öyrəndiyi, öyrətdiyi dil nə imiş, nə üçün imiş.

Gör ha! Gör ingilis dilini hara gətirib çıxarıblar.

*1963*

# ƏDƏB SÖHBƏTİ

Qonaqlar gedəndən sonra atası Kamilə dedi :

Bala, sənə neçə dəfə demişəm, evə qonaq gələndə adam qabağa çıxar, qarşılayar, xoş gəldin eləyib, yer göstərər...

– Mən eləmirəm, bəyəm? Qapını kim açdı, anamı çağırdım, nə lazım idi, elədim.

– Elədim, elədim... Nə eləmisən? Kişi əlində papiros çəkir, bir külqabı gətirmirsən. Telefon nömrəsi soruşur, deyirsən "bilmirəm", axı, bu cavabı çoban da verər. Sən savadlı adamsan, ziyalı hesab olunursan, filan yerin nömrəsini soruşan kimi keç o biri otaqda məlumat kitabçasına bax, öyrən, gətir. Qonaq da sənin mərifətinə afərin desin. Yoxsa mal kimi gözünü döymək nəyə lazımdır. Çox da bilmirəm dedin. Qonağa hörmət belə olmaz.

Kamil başını aşağı salıb getmək istəyəndə atası mane oldu:

– Dayan, getmə! Sənə min dəfə demişəm adam yanında əlini cibinə qoyma. Böyük bilmirsən, kiçik bilmirsən, əlini cibinə qoyub, söhbətə başlayırsan. Bunu tərgit, yaxşı deyil!



– Bəs bu ciblər nə üçündür?

– Ciblərin yeri var, məqsədi var, bir şey qoymaq, soyuqdan qorunmaq...

Kamil atasının sözündən tutuldu!

– Mən də soyuqdan əlimi cibimə qoyuram.

Atası divar tərəfə yeriyib termometrə baxdı:

– Evdə 24 dərəcə isti var. Belə yerdə əl cibə qoymazlar. Özü də yaxanı açmısan, soyuqdan şikayətin lap boş söhbətdir, sən adət eləmə, əlləri cibdə saxlamaq yaxşı adət deyil, bunu burax. Oğlum, istəmirəm ki, sənə el arasında ədəbsiz desinlər, bir düşün!

Kamil başını aşağı salıb evdən çıxdı. Öz aləmində güman elədi ki, atası onun hərəkətlərini addımbaşı izləyir, hər dəqiqədə ona bir irad tutmaq istəyir:

– Qocalıqdan, əsəbdəndir. Gərək bir söz desin axı!

Yenə evə kənar şəhərlərdən qonaqlar gəlmişdi. Atanın işləri, evi ilə tanış olurdular. Böyük oğlu Kamil ilə maraqlandılar. Atası Kamili çağırdı. Kamil yaxası açıq köynəkdə içəri girib dayandı. Qonaqlar onunla görüşdülər. Dərsindən söhbət saldılar.

Kamil hər iki əli cibində, bir az qabağa əyilmiş halda dayanıb qonaqların sualına məhkəmə qarşısındakı kimi cavab verirdi:

– Hansı fakültədə oxuyursunuz?

– Hüquqdayam.

– Neçənci kursunda?

– Bu il beşə keçirəm.

– İnşallah, sağlıq olsa!..

Atası oğlunun duruşundan, cavablarından xəcalət çəkir, əsəbiləşirdi.

Qonaqlar gedəndə Kamilin otağına gəlib ürəyini boşaltmaq istədi, nə fikirləşdisə, geri döndü. Kamil yatandan sonra onun kostyumunu götürdü, qara sapla yan ciblərinin ağzını tikdi, yerinə qoydu. Səhər Kamil şalvarını geyəndə əlini cibinə salmaq istədi, sala bilmədi. Bir xeyli axtarandan sonra gördü ki, cibi yoxdur. Diqqətlə baxanda atasının tapşırığını xatırladı və oturub ikiəlli başını tutdu, ağladı.

Anası gəlib təsəlli verməsə, kim bilir, Kamilin göz yaşı qurumaya-

caq idi. Anası Kamili götürüb atanın yanına iltimasa getdilər.

Ata ciblərin ağzını açmağa icazə vermək istəmirdi:

– Bir neçə gün belə gəzsin, sonra baxarıq.

Ana atanın zabitəsi, oğulun xahişi qarşısında mütərəddid qalmışdı.

Evdə mənalı bir sükut hakim idi.

*1963*



# XƏZİNƏDAR

Bu elə bir vəzifə idi ki, keçmişdə şahlar, hökmdarlar öz var-yoxlarını, qızıl-gümüş, ləl-cavahiratlarını etibar etdikləri sadiq adama verərdilər. Şahın xəzinədarı külli-ixtiyar idi. Ancaq xəzinəni də qoruyan, hər xırda məsrəf üçün rövnəqi pozmazdı.

Doğrudur, biz nə xəzinə, nə saray, nə xəzinədar görmüşük. Bu barədə söhbət salmağın, yəqin ki, bir səbəbi var. Mənaca bu vəzifə sahibinə oxşar bir adam var ki, onu indiki zəmanədə bütün oxumuşlar tanıyır və əzizləyirlər. Mən özüm lap məktəbli vaxtımdan bu xəzinədarı tanıyıram, bugünə qədər də həmin yerində görürəm. Sakitcə işləyir və deyəsən, qocalmaq, yorulmaq-zad da bilmir.

Bizim zəmanəmiz təhsil, tərəqqi zəmanəsidir. Keçmişdə uşaqlar aşıq–aşıq, çilingağac, fırfıra oynadardılar. Amma indi uşaq dil açanda məktəb, kitab deyir:

*Ay dədə, dur get mənə çox şeylər al!*
*Bircə əlifba, bir-iki dəftər al!*

Kitabı alimlər, ədiblər, filosoflar yaradırlar.

Onu oddan, sudan, tufandan, fəlakətdən, siçandan, mürgədən qoruyub, üfürə-üfürə saxlayan, zəhmətini çəkənlər var. Zəmanənin əsl böyük xəzinədarı bunlar, kitab aşiqləridir.

Mən onlardan birini mərkəzi kitabxanada həmişə görürəm. Gözü çeşməkli, ağsaç, arıq, uca kişidir. Kitabxana qızları oxucu istəyəni tapa bilməyəndə qocanın yanına gəlirlər. Qoca kitabın adını, ya müəllifini eşidir, nazik şəhadət barmağını arıq, yastı gicgahına qoyur, kiçik gözünü göylərə dikib yarım dəqiqə fikrə gedir, sonra əmr verir:

– Qızım, dördüncü zalın on birinci sektorunda, aşağıdan ikinci qəfəsəyə, Lam hərfinə bax, meşin cildli kitabdır, yerində olacaq, sən bir yaxşı bax!

Bir də görürsən, qız kitabı tapıb sevinə-sevinə oxucunun hüzuruna gətirdi.

Bu xəzinədarı cavanlar, qocalar, hamı tanıyır və hörmət eləyirlər. Kimin axtardığı kitab tapılmayanda xəzinədara müraciət edir. O da Loğman həkim kimi dərhal tədbir görür.

Mən özüm səbirsiz, hövsələsiz adamam. Axtardığım kitabın anketini yazıb qızlara verməyə ərinirəm. Çox zaman birbaşa qocanın yanına gedirəm. Nəsə o da məni o yan-bu yana salmır. Kitabın adını bilən kimi, qızı göndərib gətirdir.

Mən həmişə kitab yığılmış qəhvəyi stolun arxasında, gözündə çeşmək, döşündə önlük, qulağında karandaş, əlində zərrəbin olan bu kişini elm dəryasına qərq olmuş görürəm. Sözümü deməyə, onu öz sakit mənə aləmindən ayırmağa utanıram. Səsimi eşidən kimi, çeşməyin altından kiçik, yorğun, lakin ehtiraslı gözləri parıldayır, üzü gülümsəyir:

– Cavan oğlan, gəlmisən? Sifarişin nədir, görüm?

Mən bir tərəfdən xəcalət çəkir, bir tərəfdən də kitablar aləminin bu cür sərrafı ilə yaxın tanış olmağımla fəxr edir, sifarişimi verirəm, beş dəqiqə çəkmir ki, oxu zalında öz yerimi tuturam.

Ancaq bu dəfə mən gözlədiyim lap ayrı cür oldu. İşim dolaşdı, yaman dolaşdı.

Xəzinədar məni yaxın qoymadı. Nə olmuşdusa, səsimi eşidən kimi, dik ayağa qalxdı, qəzəbli baxışları ilə sanki məni yemək istədi:



– Nə deyirsən? Sən yenə kitab istəyirsən? Sizdə həya varmı?

Qoca heykəl kimi dik dayanıb mənim gözümün içinə ən ağır və sərt sözləri yağdırırdı. Mən ətrafıma baxınır, geri-geri çəkilir, nə edəcəyimi bilmirdim:

– Əmi, məni, bəlkə, səhv salmısınız. Bu sözləri mənəmi deyirsiniz?

Əminin hirsi, deyəsən, daha da artırdı. Dönüb bir sağ otağa getdi. Sonra qayıtdı, sanki nəsə vacib bir şey axtarırdı. Mənə daha da sərt cavab verdi:

– Bəli, sizə deyirəm. Tərbiyədən kasıb cavanlar niyə belə artsın. Axı, belələrinin mənə xəzinəsində nə işi var? Belələrinin yeri tövlədir, bazardır, küçədir.

O, bunu dedi, gözü yaşarmış halda, meşin cildli, sarı bir şeir kitabını, bu kitabın cırılmış vərəqini mənə göstərdi:

– Bu cinayəti ancaq faşist eləyər. Əli topal olmuş, kitabın ortasından özünə lazım olanı cırıb cibinə basıb, kitabı təhvil verib gedib! Bu nə hərəkətdir, ay camaat!

Qoca geri çəkilib məhkəmə qarşısındakı müqəssir kimi dik dayandı, ürək sözünü mənə deməyə başladı. O, elə bərkdən danışırdı ki, bütün ötənlər, eşidir, dayanırdı:

– Mən bu xəzinənin hər sətrini, sözünü, hərfini qorumaq üçün saç ağartmışam, bu qaranlıq, rütubətli zirzəmilərdə, kif iylənən qəfəsələr qabağında dayanmışam. Dayanmışam ki, sabah sənin kimi elmə gələn cavanlara köməyim, xidmətim dəysin, müqəddəs babalarımızın təmiz irsi qorunsun, saxlansın... Di gəl ki, belə vəhşilər gör kitabları nə günə salır və dağıdırlar! Bu cinayət sahibi hələ məktəbdə, şəhərdə, mədəniyyət aləmində gizlənib, maskalanıb. Bu ikiayaqlı siçovulları necə tutmaq, məhv edib kökünü kəsmək lazımdır. İlahi, bunlar kitabları yox, mənim qəlbimi sökür, ruhumu didib parçalayırlar.

Qoca boğazını qəhər tutmuş kimi, sözünü xırp kəsib dayandı, əlini ürəyinin başına qoydu, başını aşağı saldı.

Mən kömək edib onu kürsüyə əyləşdirdim, qızlar su gətirdilər, xidmətçilər bir-birinə dəydilər.

Məlum oldu ki, kitabxanaya gələn hansı xuliqan, xəbis, hansı alçaqdırsa, qəsdən vacib kitablardan müəyyən səhifələr cırıb aparır.

Qocanın hiddəti tamamilə təbii idi!

Bu hadisə məni o qədər sarsıtdı, ruhumu sıxdı ki, bilmədim nə edim, vicdan, mədəniyyət təxribatçısını nə vasitə ilə tutum, kitaba qəsd edən əlləri biləkdən kəsim.

Belə bir qəzəb təkcə qocanın yox, bütün kitabxana işçilərinin, oxucularının gözlərində hiss olunurdu.

O gün hamının dilində tək bu söhbət idi.

*1963*



# MAŞINDA

Maşında gedəndə hərənin bir fikri olur. Biri getdiyi yeri, biri çıxdığı yeri, biri işini, peşəsini fikirləşir. Amma mən, nədənsə, maşında oturanda qabaqdakını, yəni sürücünü düşünürəm. Düşünürəm ki, bunlar çox çətin, məsul bir vəzifədə çalışırlar və hər cəhətdən hörmətə, diqqətə layiqdirlər. Bəzi yoldaşlar arasında şofer adı gələndə ağız büzənlər, ikrah hissi ilə danışanlar var, bu lap əbəsdir, haqsızlıqdır.

Mən bunları fikirləşir, düşünürdüm ki, məni aparan sürücü, görəsən, nə düşünür.

Bir də gördüm, təkər bərk sıxılıb səsləndi. Maşın xırp dayandı, sürücü başını pəncərədən çıxarıb uzun və abırlı geyinmiş bir kişinin üstünə qışqırdı:

– Ay kişi, ay dayı, özün bir yana, mənim balalarıma niyə yazığın gəlmir? Axı, yolun ortasında nə gəzirsən?

Sürücü küçə boyu, mağazalar qarşısındakı asfalt səkiləri göstərib deyirdi:

– Bunlar sizin üçün, insanlar üçündür. Mastavoy isə insan üçün

yox, fayton üçün, araba üçün, at üçün...

Sürücü əlini kişinin sinəsinə tərəf uzadıb uca səslə dedi:

– At üçün, eşşək üçündür! Başa düşürsən bunu, ya yox?

Uzun kişi qızarıb-bozardı, münasib cavab tapmadı:

– Başından yekə danışırsan.

– Nə danışıram, nahaq danışmıram! Dayı, sən yekəlikdə adam özünü maşının qabağına atanda, bəs heyvan neyləsin, Allahın dilsiz, ağızsız, şüursuz heyvanı. Onu basanda da bizim hüququmuzu alırlar, dama basırlar. Bəs neyləyək ki, oxumuşlar da bizi xataya salır, axı, insaf yaxşı şeydir!

Sürücü bunu dedi, qabaqdakına baxdı, sonra üzünü mənə tutub ucadan təkrar elədi:

– İnsaf da yaxşı şeydir, qardaş! Biz də adamıq, bizim də ailəmiz var axı! Hər kəs öz işini bilsə, şofer suda düşməz, insan bədbəxt olmaz, ailə başsız qalmaz axı!

Sürücü bir qədər susdu, maşını xoda saldı, qabağına baxa-baxa, sanki, hirsini soyudaraq hadisəyə yekun vurdu:

– Adamın adam yolu var, heyvanın heyvan.

Təkrar mənə tərəf dönüb məsləhət elədi:

– Necə deyirəm, pis deyirəmsə, vur ağzıma!

– Yaxşı deyirsən, amma qabağa bax, ehtiyat yaxşı şeydir.

Sürücünün hirsi soyudu:

– Baş üstə! Qardaş, adamı hövsələdən çıxarırlar, neyləyəsən.

Bir qədər sükutdan sonra sürücü təkrar arxaya döndü:

– Deyirlər, rak-mak azarları da elə bundandır!

– Ola bilər!

– Lap həkimlər deyir, özüm eşitmişəm!

– Dayan, çatdıq!

*1963*



# MÜNDƏRİCAT


Badam ağacları ....................5
Yuxu və külək ....................19
Anamın qeydləri ....................21
İki fermer ....................27
Hesab dostları ....................36
Plovdan sonra ....................48
Qotazlı çəkmə ....................61
Elçilər qayıtdı ....................67
Oğul anası ....................80
Subaylıq fəlsəfəsi ....................95
Qanlı torpaq ....................105
Döyüşçünün dedikləri ....................116
İtpərəstlərin həyəcanı ....................123
Hava bürosu ....................126
Lirika ....................134
Əl xətti ....................136
İki hakim ....................138
Nazik mətləb ....................141
Mən də bakılıyam ....................150
Ərəb qızı ....................153
İnsanlıq fəlsəfəsi ....................156
Naxış ....................167
Ürəkdə yazı ....................175
Xəcalət ....................183
Sancaq fabrikində ....................185
İlk hədiyyə ....................187
Qocaların uşaq söhbəti ....................196
Qəbul imtahanı ....................203

Neçə cür salam var? ....... 212
O dünyada ....... 216
Pioner maşını ....... 224
Tövbələtmə ....... 228
Vicdan mühakiməsi ....... 237
Dağların qəlbi ....... 255
Zəhmət, ağıl, bəxt ....... 263
Havapərəstlər ....... 266
Kəhərin son günləri ....... 268
Gözəl barəsində ....... 270
Gənc şairin ərizəsi ....... 276
Xarici naxoşluq ....... 282
Ərəb qardaş ....... 288
Ləyaqət ....... 298
Ömrün mənası ....... 305
Səyyah xanım ....... 310
Ərik ağacı ....... 314
Gülbəsləyən qız ....... 322
Ehtiram ....... 326
Mən zaminəm ....... 333
Mənim vəfalı dostum ....... 342
Şapalaq ....... 345
Dil və əməl ....... 349
Mənim "səmimi dostum" ....... 353
Rola girib ....... 356
Sözün yeri var ....... 358
Heykəl uçulanda ....... 363
İki qız, bir oğlan ....... 368
Yad adam ....... 374
Telefon dostum ....... 379
Radio qabağında ....... 382
El xadimləri ....... 385
Müdafiə vəkili ....... 389
O yana baxan ....... 398
Pillələr ....... 402
Məni görmürsünüz? ....... 405
Bacı-qardaş ....... 407
Az danışmağın faydası ....... 418
Mənim dilmancım ....... 421
Düz adam ....... 424
Öyrəncəkli ....... 427
Paho, paho–o... Vay! ....... 431
"İngilis" dili ....... 438
Ədəb söhbəti ....... 444
Xəzinədar ....... 447
Maşında ....... 451
Mündəricat ....... 453

**MİR CƏLAL. ƏSƏRLƏRİ. 5 CİLDDƏ**
**III CİLD**

Naşir: **HİDAYƏT ƏSGƏROV**
Nəşriyyat redaktoru: **İlahə HƏŞİMOVA**
Səhifələyici: **Elvira NADİRQIZI**
Dizayner: **Aynur ƏSGƏRLİ**

Çapa imzalanmışdır: 10.01.2013
Kağız formatı: 70x90 1/16
Həjmi: 27 ç.v; Sifariş: 14 ; Sayı: 500

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Alatava I, Ə.Salamzadə 9C
Tel.: (050) 593 27 77, (055) 222-71-93
Web: www.adiloglu.az;